AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
BAKI AVRASİYA UNİVERSİTETİ

# BEYNƏLXALQ MÜNASİBƏTLƏRİN PROQNOZLAŞDIRILMASI

DƏRSLİK

GÜLZAR İBRAHİMOVA

İKSAD
Publishing House

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
BAKI AVRASİYA UNİVERSİTETİ

# BEYNƏLXALQ MÜNASİBƏTLƏRİN PROQNOZLAŞDIRILMASI

**DƏRSLİK**

**GÜLZAR İBRAHİMOVA**

Bakı Avrasiya Universiteti Elmi Şurasının
27.01.2017-ci il tarixli iclas protokolunun
EŞ05/01-17 saylı əmri ilə dərslik kimi
təsdiq edilmişdiir

İKSAD Publishing House

**İstanbul-2019**

Copyright © 2019 by iksad publishing house

All rights reserved. No part of this publication may be reproduced, distributed, or transmitted in any form or by any means, including photocopying, recording, or other electronic or mechanical methods, without the prior written permission of the publisher, except in the case of brief quotations embodied in critical reviews and certain other non commercial uses permitted by copyright law. Institution of Economic Development And Social Researches Publications®

(The Licence Number of Publicator: 2014/31220)
TURKEY TR: +90 342 606 06 75
USA: +1 631 685 0 853
E-mail: iksadyayinevi@gmail.com
kongreiksad@gmail.com
www.iksad.net
www.iksad.org.tr
www.iksadkongre.org

It is responsibility of the author to abide by the publishing ethics rules.

Iksad Publications - 2019©
**ISBN: 978-605-7875-64-8**
May / 2019
Size = 16x24 cm
Ankara / TURKEY

**UOT: 327**

**Elmi redaktoru** **Hikmət Məmmədov**
**s.e.d., prof.**

**Rəyçilər:** **Elman Nəsibov**
**s.e.d, prof.**
**Arif Əlizadə**
**t.ü.f.d.**

Dərslik beynəlxalq münasibətlərin proqnozlaşdırılması fənninin tədrisi üçün nəzərdə tutulmuşdur. Kitabda beynəlxalq münasibətlərin proqnozlaşdırılmasının nəzəri əsasları, beynəlxalq proqnozlaşdırılma beynəlxalq münasibətlərin nəzəriyyə və praktikasında, strateji proqnozun işlənmə metodikası, müasir dünya inkişafının əsas tendensiyaları, beynəlxalq sistemin əsas aktorlarının inkişaf dinamikası, müasir beynəlxalq münasibətlərin xüsusiyyətləri: təhlili və dinamikasının proqnozları, beynəlxalq vəziyyətin daha çox ehtimal olunan inkişaf ssenariləri və s. kimi məsələlər öz əksini tapmışdır.

Dərslikdən beynəlxalq əlaqələr, xarici siyasət və beynəlxalq münasibətlər ixtisası üzrə təhsil alan bakalavr və magistrlər, o cümlədən, doktorantlar, politoloqlar və ümumiyyətlə, beynəlxalq münasibətlərin proqnozlaşdırılmasının nəzəri və metodoloji əsasları ilə maraqlananlar istifadə edə bilərlər.

Dərslik müəllim və tələbələrə elmi-metodik kömək məqsədilə yazılmışdır.

**© G.İbrahimova 2018**

## MÜNDƏRİCAT

**GİRİŞ**....................................................................................................... 7
**I FƏSİL Beynəlxalq münasibətlərin proqnozlaşdırılmasının nəzəri əsasları**.......................................................................................................... 111
1.1.Beynəlxalq münasibətlərin proqnozlaşdırılması imperativləri......... 11
1.1.1.Beynəlxalq münasibətlərin proqnozlaşdırılması sahəsində əsas anlayışlar................................................................ 13
1.1.2. Beynəlxalq proqnostikanın yaranması, mahiyyəti və inkişaf zəminləri.......................................................................................... 17
1.1.3. Proqnostika nəzəriyyəsinin predmeti, məqsəd və vəzifələri......... 22
1.1.4. Beynəlxalq proqnostikanın əhəmiyyəti...................................... 23
1.1.5. Proqnozlaşdırma elmi öncəgörmə kimi: alternativ motivlər və direktivlər........................................................................... 25
1.2. Beynəlxalq münasibətlərin proqnozlaşdırılmasının təsnifatı........... 29
1.2.1. Proqnozlaşdırılmanın tipologiyası................................. 29
1.2.2. Zaman gözləntiləri və proqnozlaşdırmanın məqsədi......... 33
1.3. Beynəlxalq münasibətlərin proqnozlaşdırılmasında nəzəriyyəni rolu..................................................................................................... 38
1.3.1. Müxtəlif proqnozlaşdırma nəzəriyyələri..................................... 47
1.3.2. Beynəlxalq münasibətlər sahəsində proqnozlaşdırma nəzəriyyələrinin müasir istiqamətləri........................................... 51
1.3.3. Beynəlxalq münasibətlər sahəsində siyasi proqnozlaşdırma........ 57
1.3.4. Ehtimal və mümkünlük: proqnozlaşdırmanın bəzi siyasi nəticələri............................................................................................ 65
1.3.5. Xarici siyasətin təhlili və proqnozlaşdırılması............................. 67
**II FƏSİL Beynəlxalq proqnozlaşdırılma beynəlxalq münasibətlərin nəzəriyyə və praktikasında**........................................................................ 95
2.1. Beynəlxalq proqnozların mürəkkəbliyi və inkişaf çətinlikləri.............................................................................................. 95
2.2. Beynəlxalq proqnozların tərkib hissələri......................................... 100
2.3. Proqnozların hazırlanması prosesi................................................. 101
2.4. Proqnozlaşdırmanın nəzəri və praktik funksiyaları........................ 106
2.5. Proqnozlaşdırmanın kateqoriyaları............................................... 109
2.6. Beynəlxalq proqnozlaşdırmanın metodologiyası............................ 111

2.6.1. Beynəlxalq münasibətlərin araşdırılmasında proqnostik metodlarının təsnifatı ............................................... 109
2.6.2.Tətbiqi metodlar........................................................................ 114
2.6.2.1. Beynəlxalq münasibətlərin proqnozlaşdırılması metodikalarının tətbiqi mərhələləri .................................. 115
2.6.2.2. Situasiyadan asılı olaraq ekspert təhlili və qərarların qəbul edilməsi prosesi....................................... 114
2.6.2.3. Eksplikativ metodlar.................................................... 129
2.6.2.4. Proqnozlaşdırma metodları............................................ 139
2.7. Alternativ proqnozlaşdırma metodologiyaları: çoxtərəfli reallıqlar və perspektivlər............................................................171
2.8. Proqnozların əlaqələndirilməsi: aksial prinsipin seçilməsi.............175
2.9. Proqnozlaşdırmada qiymətləndirmə:mövcud təhlükələr və təkrarlanan səhvlər.................................................................. 177
2.10.Uzunmüddətli proqnozların ehtimallılığı................................ 177
**III FƏSİL Strateji proqnozun işlənmə metodikası..................................** 190
3.1. Strateji proqnozunun işlənməsinin ümumi prinsipləri......................................................................... 193
3.2. Beynəlxalq sistemin əsas inkişaf vektorunu formalaşdıran dünya tendesiyaları................................................ 195
3.2.1. Beynəlxalq əlaqələrin dövlət subyektlərinin inkişaf dinamikası........................................................................... 198
3.2.2. Beynəlxalq əlaqələrin qeyri-hökümət subyektlərinin inkişaf dinamikası...................................................... 204
3.3. Beynəlxalq vəziyyətin mümkün inkişaf ssenarilərinin yaradılması........................................................... 205
3.3.1. Beynəlxalq münasibətlərin mümkün inkişaf ssenarilərinin qurulmasında “hesabat nöqtələri” anlayışı.................................. 209
3.3.2. BM-in mümkün inkişaf ssenarilərinin modelləşdirmə prinsipləri............................................................................ 213
3.3.3. BM-in mümkün və gözlənilən inkişaf ssenarilərinin qarşılıqlı əlaqəsi.......................................................................... 216
3.3.4. BM-in daha çox gözlənilən inkişaf ssenarisinin aşkar edilməsi................................................................................ 220

**IV FƏSİL Müasir dünya inkişafının əsas tendensiyaları......................... 224**
4.1. Əsas sivilizasiyalı siyasi tendensiyalar.......................................... 224
4.2. İdeoloji sahədə əsas tendensiyalar................................................. 230
4.3. Böyük mərhələnin proqnostik ssenariləri....................................... 236
4.3.1.Dünya sivilizasiyasının tsiklik-dalğavari inkişaf nəzəriyyəsi........ 236
4.4. Assimmetrik təhdidlər.................................................................. 241
4.5. Qloballaşmanın perspektivləri...................................................... 243
4.6. Beynəlxalq münasibətlərin proqnozlaşdırılmasında digər strateji ssenarilər: "Qlobal qarışıqlıq", "Maraqlar balansı", "Planetar diktatura" ................................................................................ 246
4.7. Dünya siyasətinin inkişafının mümkün yolları............................... 248
4.8. Geosiyasi ssenarilər və geosiyasi proseslərin proqnozlaşdırılması 262

**V FƏSİL Beynəlxalq sistemdə əsas aktorların inkişaf dinamikası....................................................................................... 270**
5.1. XXI əsrdə beynəlxalq münasibətlərdə dövlət əsas aktor kimi 270
5.2. Beynəlxalq münasibətlərdə aktorlarının təhlükəsizlik strategiyası və motivasiya analizi............................................. 273
5.2.1. Rusiya və Çin dünya siyasətində: təhlil və proqnozlar.............. 273
5.2.2. Çin-Amerika münasibətləri: təhlil və inkişaf proqnozları............276
5.2.3. Dünya siyasətində Ərəb-İsrail konflikti:təhlil və proqnozlar......................................................................................... 280
5.2.4. Dünya siyasətinin ikinci planda olan aktorlarının təhlükəsizlik strategiyası və motivasiya analizi........................... 283
5.2.5. Dünya siyasətində kiçik dövlətlərin təhlükəsizlik motivasiyası və strategiyaların təhlili........................................ 284
5.3. NATO-nun qlobal siyasəti:inkişafın mümkün təhlil metodları və proqnozlar.......................................................................... 294
5.4. AB-nın qlobal siyasətinin faktor təhlili.......................................... 301
5.5. Hökumətlərarası təşkilatlar, ictimai birliklərin inkişaf dinamikası 311

**VI FƏSİL Müasir beynəlxalq münasibətlərin xüsusiyyətləri: təhlili və dinamikasının proqnozları.......................................................................... 319**
6.1. Postbipolyar dünya nizamı:transformasiya prosesininanalizi və təkamül proqnozları.............................................................. 319
6.2. Beynəlxalq münasibətlərin mümkün inkişaf yolları...................... 321

6.2.1. Beynəlxalq sistemin əsas inkişaf vektoru.................................... 323
6.2.2. Beynəlxalq sistemdə çoxqütblülüyün saxlanması ssenarisi.......... 324
6.2.3. Beynəlxalq əlaqələr sistemində birqütblülüyün konservasiyası ssenarisi............................................................. 326
6.2.4. Qərbin dağılması və ya ayrılması ssenarisi.................................. 328
6.2.5. Beynəlxalq əlaqələrin çoxqütblülüyə razılaşdırılmış keçid ssenarisi........................................................................... 330

**VII FƏSİL Beynəlxalq vəziyyətin daha çox ehtimal edilən inkişaf ssenariləri**.......................................................................................... 332

7.1. Müasir beynəlxalq vəziyyətin əsas vektorları və xüsusiyyətləri........................................................................ 332
7.2. Qlobal hərbi-güc qarşıdurması ssenarisi beynəlxalq əlaqələrin daha üstün mümkün inkişaf ssenarisi kimi..................................... 333
7.3. Beynəlxalq perspektivlər və qlobal siyasət: gələcəyin qurulmasında proqnozlaşdırmanın rolu......................................... 336
7.4.Beynəlxalq münasibətlərin proqnozlaşdırılması üzrə kritik imperativlər.......................................................................... 340

**Dərsliyin tərtibi zamanı istifadə olunan elmi monoqrafiyalar, məqalə və dərsliklər**.......................................................................................... 346

## GİRİŞ

Proqnozlaşdırma insanların məqsədyönlü fəaliyyətini ehtimal edən qanunların işləməsi mexanizmi üçün zəruri şərtlərdəndir. Ümumi dünyagörüşü və ümumnəzəri metodologiya əsasında dünyada, regionda, ölkədə, ümumi vəziyyət qiymətləndirilir, inkişafı müəyyənləşdirən meyillər və amillər öyrənilir, yeni, ehtimal edilən inkişaf amillərini qiymətləndirilməsinə cəhdlər edilir. Bu əsasda az və ya çox dərəcədə müfəssəl olan çoxvariantlı proqnozların əmələ gəlməsinə imkan yaranır.

Proqnozla bağlı tədqiqatların problematikası son illərdə beynəlxalq münasibətlərin tədqiqində xüsusi əhəmiyyət kəsb edir. Son onilliklərin təcrübəsi yalnız nailiyyətlərlə deyil, həm də beynəlxalq proqnozlaşdırma sahəsində müstəqil fənlərarası sahədə məlumatların əldə edilməsində ciddi qüsurlar olması ilə müşayiət olunur. Burada müəyyən qanunauyğunluq izlənir: XXI əsrin əvvəlində beynəlxalq siyasətin (dövlət, Transmilli Şirkətlər, qeyri-hökumət institutları və s.) az-çox əhəmiyyət kəsb edən subyektlərdən heç biri təcrübədə bu və ya digər dərəcədə gələcək inkişafın mümkün olan ssenarilərini və öz strateji xəttini hazırlayıb həyata keçirmək iqtidarında deyil. Müasir günümüzdə isə qeyri-sabitliyin səviyyəsi artıb və onun azalması tendensiyası da müşahidə olunmur.

Məlumdur ki, beynəlxalq hadisələrin, proseslərin proqnozlaşdırılması üçün beynəlxalq vəziyyət və şərait haqqında biliklər mühüm əhəmiyyət daşıyır. Tədqiq edilən sahələrin (siyasi, iqtisadi, mədəni və s.) sistemli şəkildə araşdırılması proqnozlaşdırmanın obyektiv əsasını təşkil edir. Sistem anlayışı bir-biri ilə münasibət və əlaqədə olan, məxsusi xüsusiyyətlər daşıyan, müəyyən bütövlüyü, tamığı təşkil edən elementlərin birləşməsi deməkdir. Sistem müəyyən bütövlüyə malikdir, xüsusilə də, onun xassələri onu təşkil edən elementlərin xassələrinin cəminə nisbətdə prinsipcə azaldıla bilməz. Sistem təbiət etibarı ilə iyerarxikdir (öz növbəsində sistemin hər bir elementinə sistem kimi baxmaq olar, sistemin özü isə tədqiq edilən daha böyük sistemin bir komponentidir). Muxtariyyatın, xüsusi vəzifələrin, rolun, funksiyaların, normaların, adət-ənənələrni, stereotiplərin olması beynəlxalq

sistemin elementlərinin ayrılmaz meyarlarıdır. Ona görə də proqnozlaşdırılmanın problemləri kompleks məsələlərdən kənarda qalmır və proqnozlaşdırılma çoxpilləli elmi tədqiqatlardandır.

Beynəlxalq proqnozlaşdırılma beynəlxalq münasibətlər nəzəriyyəsi sahəsində ən az işlənmiş problemlərdəndir. Böhranlı vəziyyəti və potensial münaqişələri proqnozlaşdırmağa imkan verən mexanizm və vasitələrin hazırlanması beynəlxalq ekspert ictimaiyyəti və siyasətçilər üçün həyatı vacib problemə çevrilməkdədir.

Əvvəllər böhranların proqnozlaşdırılması işində böyük ümidlər sistemli təhlilə idi. Sərt Amerika ilə SSRİ-nin mübarizəsi şəraitində ciddi beynəlxalq-siyasi böhran və silahlı münaqişələr və onların eskalasiya dərəcəsi ehtimalının qiymətləndirilməsi xüsusilə vacib hesab olunurdu. Soyuq müharibə dövrünün, o cümlədən yeni beynəlxalq reallıqlara uyğun metodika haqqında məsələnin həlli üçün zəruri beynəlxalq proseslərin proqnozlaşdırılması sahəsində elmi araşdırmaların aparılmasına zərurət yaranmışdı. Bu vəzifənin nəzəri işləmələr səviyyəsində həlli isə bir çox hallarda funksional və stoxastik yanaşmanın imkanlarının optimal nisbətdə olmasına oxşayırdı.

Ötən əsrin 50-cı illərinin ortalarından etibarən proqnozlaşdırılma sahəsində tədqiqatçılar ənənəvi yanaşmalardan "qeyri-ənənəvi" yanaşmaya keçməyə başladılar. Amerika ali-mi Marton Kaplan siyasi tədqiqatlarda humanitar fənlərin başa düşülməsi zamanı iki eyni məsələnin həllində mənanın birmənalı anlayışlara qədər çatdırılmasını və deməli, dilin riyazi modelləşdirmə vasitələrilə formalaşmasına təkan verməsini elmiliyin təməl meyarları sırasına daxil etdi. Bununla da beynəlxalq proqnozlaşdırma metodologiyası politoloji sintezi və riyazi-iqtisadi aparatın hesabına xeyli zənginləşdi və "elmi meyarlarla" proqnoz etmək mümkünlüyü bir daha sübuta yetirildi: əgər "ənənəvilik" keçmişi və bu günü düzgün izah edirsə, onda eynilə də gələcəyi proqnozlaşdırılmasını aparmaq olar.

Dərketmə prosesinin mürəkkəbliyinin aydınlaşdırılmasının və beynəlxalq münasibətlərin proqnozlaşdırılması nəzəriyyəsinin real vəziyyəti haqqında biliklərin nizama salınmasının nə dərəcədə zəruri olduğunu təcrübi müşahidələr əsasında müəyyən etmək olar. Təcrübə

bir daha təsdiq edir ki, beynəlxalq münasibətlərdə proqnozlaşdırılmada hər bir fraqmentin mahiyyətinin aydın və düzgün dərk edilməsi üçün daha böyük maneə mövcud materialı və məlumatı təsnif və təhlil etmək bacarığının olmamasından ibarətdir. Bu cür vərdiş və bacarıqların olması bu sahədə çalışan mütəxəssislərə problemin mahiyyətini müstəqil və tez surətdə dərk etməyə xeyli yardım edir və onları bir sıra fikirlərin təsirindən və stereotip qiymətdən və dezinformasiyadan azad edir.

BM-də proqnozlaşdırılmasnda başlıca vəzifəsi siyasi proseslərdə idarəetmənin optimallaşdırılması maraqları daxilində, eləcə də həm arzu olunan, həm də arzuolunmaz bu və ya digər siyasi hadisələrin öncədəngörülməsilə perspektivli siyasi problemlərin və onların ən yaxşı həlli yollarının üzə çıxarılması hesab edilir.

Spesifik vəzifələrindən asılı olaraq beynəlxalq münasibətlərin proqnozları: beynəlxalq münasibətlərin inkişaf meyillərinin, həmçinin, ayrı-ayrı dövlətlərin, dövlət sistemlərinin, dövlətlər qrupunun xarici siyasət fəaliyyətinin ümumi tendensiyalarının müəyyənləşdirilməsini; uzunmüddətli proqnozların tərtibini (təxminən on illər sonra beynəlxalq münasibətlərin mümkün inkişafının ümumi, təfsilatı ilə göstərilməyən təsvirinin yaradılması); ortamüddətli proqnozların tərtibini (daha detallı təfsilatı ilə şaxələnmiş variantlar və müəyyən hesablamalarla bir və ya bir neçə il sonra üçün beynəlxalq münasibətlərin mümkün inkişafının təsvirinin yaradılması); qısamüddətli proqnozların tərtibini (hadisələin inkişafının çoxsaylı variantlarına baxılması, yaxın günlərdə, aylarda və bir il ərzində optimal xarici siyasət qərarlarının ən çox ehtimalla daha dəqiq təyin edilməsi) özünə daxil edə bilər.

**Beynəlxalq proqnozlaşdırma nəzəriyyəsi**- bu dünya birliyinin inkişaf perspektivlərinin həqiqətə daha uyğn metodoloji yanaşma və üsulla tədqiqi sistemidir.

Proqnozlaşdırma nəzəriyyəsi və təcrübəsi adətən proqnostik nəzəriyyə və təcrübə adlandırılır, lakin, dar mənada **proqnostika** proqnozların, hal-hazırda isə ümumiyyətlə müasir beynəlxalq münasibətlərin və ayrı-ayrı ölkələrin inkişafının xarici siyasi proqnozlarının işlənməsi qanunları və üsulları haqqında elmdir.

**Proqnostikanın əsas vəzifəsi**-proqnozların metodları və texnikasının effektivliyinin artırılması məqsədilə xüsusi, özünə məxsus proqnozlaşdırma metodologiyasının inkişaf etdirilməsindən ibarətdir. Proqnostika problemləri proqnozlaşdırma xüsusiyyətlərinin proqnozlaşdırma metodlarının optimal seçim prinsiplərinin, proqnozların doğruluğunun müəyyən edilməsi vasitəsinin, proqnostik nəticələrin işlənib hazırlanması, üçün prinsiplərin istifadəsinin, ehtimal nəzəriyyəsinin, oyun nəzəriyyəsinin, əməliyyatların tədqiq edilməsinin, qərar qəbul edilməsi nəzəriyyəsinin və s. xüsusi elmi-tədqiqi kimi öyrənilməsindən ibarətdir.

Beynəlxalq münasibətlərin proqnozaşdırılması müasir humanitar və təbiət elmlərinin fənlərarası istiqamətidir: burada qlobal hakim meyllər, regional və milli inkişaf, eləcə də çoxamilli ictimai tərəqqi (və tənəzzülü) və insan amilinin müxtəlif planlı rolu nəzərə alınıır, onların potensial alternativləri araşdırılır. Fənn beynəlxalq münasibətlərin proqnozlaşdırılması haqqında elmin əsas anlayışlarını, orada tətbiq edilən tədqiqat metodlarını və üsullarını, əsas analitik yanaşma tərzlərini və beynəlxalq münasibətlərin bəzi inkişaf qanunlarını əhatə edir. Bunlar arasında ən mühüm əhəmiyyət kəsb edən sistemli, strateji və proqnostik yanaşma tərzləri (belə ki, onlar çoxsahəli şərhlərin tədqiqi sahəsində daha çox tətbiq edilir) eləcə də, beynəlxalq münasibətlər gerçəkliyinin əsas mürəkkəbliklərini yığcam və ümumiləşdirilmiş şəkildə göstərən və bununla da, bu münasibətlərin nəzəri şəkildə dərk edilməsinə imkan yaradan sinoptik yanaşma tərzidir. "Beynəlxalq siyasət" anlayışından yalnız nəticənin verilməsi zamanı "beynəlxalq münasibətlər" anlayışının sinonimi kimi istifadə edilir, belə ki, fikrimcə "siyasət" kateqoriyasının nəzəri aspektini beynəlxalq münasibətlər haqqında elmdə tətbiq etmək olmaz. Qeyd edilmiş müddəa və iddialara əsasən beynəlxalq münasibətlərin proqnozlaşdırılması haqqında elmin mövcud nailiyyətlərinə tənqidi yanaşma tərzi də zəruri görünür.

# I FƏSİL

# BEYNƏLXALQ MÜNASIBƏTLƏRIN PROQNOZLAŞDIRILMASININ NƏZƏRI ƏSASLARI

## 1.1.Beynəlxalq münasibətlərin proqnozlaşdırılması imperativləri

Məhdud və nizamlı proqnozlaşdırma-əsaslandırıcı bir problemdir. Qeyri-müəyyən araşdırma nəticəsində hadisələr ehtimallarala mahiyyətli olur. Sosial elmlərdə qeyri-müəyyənlik minimuma endirilmiş bir problemdir. Alternativ hesablamalar əsasında texnika və müxtəlif rejim arasında ən aşağı ümumi məxrəc təmin olunmalıdır. Bundan başqa proqnozlaşmaya yanaşma da müxtəlifdir. Beynəlxalq əlaqələr proqnozlaşdırılması gələcəkdə fikir etibarilə qabiliyyəti artırır.

Eyni zamanda həqiqət faktiki mümkün potensialı, ehtimal və üstünlüyü qəbul etməsinə baxmayaraq mənfi və şübhəsiz bir gələcək ehtimalları da qəbul edir. Lakin əgər ehtimallar şüurlu alternativ, şərti, kommunal dəqiqləşdirilmədirsə, paralel olaraq maarifləndirici görünüş kimi də nəzərə alınır.

Bir ehtimal daxilində proqnoz daim düşünülür. Alternativ baxımdan proqnozlaşdırma bir nöqtədə və ya hadisədə aparılır. Lakin şərti nəticələr, proqnozlaşdırma ehtimalları və şüurlu dəqiqləşdirmə mövcud gələcəyə yaxınlaşır. Burada gerçəkliyin eyni zamanda aktuallıq, imkanlar, potensial, üstünlük kimi çoxçeşidli növləri mövcud olur.

Gerçəklik həmçinin arzuedilməyən, neqativ, apokalipistik (vəhy) ola bilər. Baxmayaraq ki, gerçəklik birmənalı mövcuddur, məhz bunun da bir çox müəyyənləşməsi var.

Əgər biz ehtimal, təsadüf və alternativlərin hiss edilən xüsusiyyətlərinin anlayışlarını versək, onda biz qarşıdurmanın daha asan anlaşılan mənzərəsini görə bilərik.

BM-in hal-hazırda ən çox müzakirə olunan əsas problemləri:

- dövlətlərin rolu, onların qlobal siyasətdə mövqeyi və onların digər dövlətlərlə öz münasibətlərini nizama saldığı vasitələr;

- hakimiyyətin və ədalətsizliyin həlledici faktorları, eləcədə imkanlar və hərbi bərabərsizliklər disbalansının qlobal təsiri;
- resurs çatışmazlığında və imkanlardan faydalanmada imperativlər;
- texnoloji inkişafın siyasi təsir, bilik və bacarıqların paylanması;
- demoqrafik mənzərənin siyasi ardıcıllığı, onun artan nəticələri, proqnozlaşdırılma prosedurlarının və onlarla bağlı gəlir və xərclərin gücləndirilməsi ardıcıllığı;
- milli anlayışlar, münasibətlər və koqnisiyanın konfiqurasiyası;
- qeyri-territorial aktorlar, multimilli korporasiyalar, beynəlxalq müəssisələr və transmilli təşkilatların qlobal təsirləri;
- beynəlxalq siyasətin beynəlxalq cəmiyyətlə əlaqəsi və beynəlxalq siyasət və beynəlxalq iqtisadiyyat arasında qarşılıqlı asılılıqdan ibarətdir.

Belə məsələlər müharibənin səbəbləri və sülhün ilkin şərtləri ətrafında cəmləşir və onların hər biri birbaşa zorakılığa olan meyllə və imkanlarla əlaqədardır. Bu səbəbdən, proqnozlaşdırma üçün qeyd edilən vacib məsələlərin hər biri ilə yanaşı dəyişikliklər və hadisələrin inkişafının ölçülməsi və müharibə və ya sülhə milli sistemlərin meyllilik dərəcəsinin qiymətləndirilməsinin etibarlı vasitələrini əldə edilməlidir. Müxtəlif problemlərin müəyyən edilməsində müxtəlif proqnozlaşdırma metodologiyalarından istifadə edilir. Proqnozlaşdırmanın aparıldığı vaxt çərçivəsi də seçilən metodologiya və edilən proqnozun növünün vacib determinantıdır.

Odur ki, beynəlxalq münasibətlərdə bu kimi məsələlərin əhəmiyyətinin artması digər nəzəri elmlərə nisbətən beynəlxalq münasibətlər haqqında elmi tədqiqatların da əhəmiyyətinin artırır. Məlumdur ki, hər bir elm sahəsi inkişaf etdikcə və bitmiş formasına çatdıqca maraq obyektinin empirik şəkildə öyrənilməsi fazasından nəzəri şəkildə öyrənilməsi fazasınadək yol keçir. Əslində, köhnə keyfiyyətdən yenisinə doğru olan bu sıçrayış bilik sahəsini elm dərəcəsinə qaldırır və hadisə və proseslərin xarici, daha doğrusu təsviri şəkildə dərk edilməsindən onların daxili mahiyyətinin tam olaraq dərk edilməsinədək olan keçiddən ibarətdir. Beynəlxalq münasibətlərin proqnozlaşdırılması haqqında elm məhz bu yetişmə prosesindən keçir.

Beynəlxalq səviyyədə məsələləri proqnozlaşdırarkən, bizi imkanların dərəcəsi və onların hər biri ilə əlaqəli olan ehtimallar maraqlandırır. Uğurlu proqnozda aşağıdakılardan ən azı ikisi nəzərə alınmalıdır: modelləşdirilən fəaliyyətin istiqaməti, kəskin dəyişikliklər və ya çevrilmələr, dəyişikliyin dərəcəsi, sistemin manipulyasiyaya daha çox məruz qalan tərkib hissələri və manipulyasiyanın xərcləri.

Bu məsələlər müharibə və sülh üçün zəmin yaradır. Onların hər biri suallara doğurur. Buna görə də müharibə və ya sülh meylli milli sistemləri qiymətləndirmək üçün etibarlı vasitə tapmaq lazımdır. Müxtəlif proqnozlaşdırma metoologiyaları problemləri araşdırmaq üçün uyğundur, lakin vaxt çərçivəsində proqnoz metodologiyası uyğun deyil. Beynəlxalq nəticələrin proqnozlaşdırılması zamanı imkanlar ardıcıllıqla əlaqələndirilir. Buraya modelləşdirilmiş fəaliyyət istiqaməti, kəskin fasilələrin ləğvi, dəyişiklik dövrü, manipulyasiya xərcləri və s. aiddir. Bundan əlavə beynəlxalq məsələlər beş əsaslı şəkildə: qeyri-müəyyənlikdə; nəzəriyyənin rolunda; alternativ proqnozlaşdırma metodologiyalarında; alternativ məqsədlər və vaxt perspektivlərində; proqnozlaşdırmanın siyasətə təsirində özünü təzahür edir.

### *1.1.1.Beynəlxalq münasibətlərin proqnozlaşdırılması sahəsində əsas anlayışlar*

Proqnozlaşdırma ilə bağlı əsas anlayışlar kimi **proqnoz**, **öncəgörmə və proqnozlaşdırma** qəbul edilir.

**Proqnoz termini** (yunanca-proqnozis) bəsirət, qabaqcadan görmə, gələcəyi xəbər vermə mənasını verir və bu anlayış altında gələcək haqqında yüksək səviyyədə həqiqətə uyğun ehtimalların təsdiqi, obyektin gələcəkdəki mümkün vəziyyətləri və onun inkişafının alternativ yolları haqda elmi əsaslandırılmış təsəvvürlər sistemi başa düşülür. Daha geniş anlamda proqnoz-xarici siyasət strategiyasının öncəgörmə və ötənlərin təhlili maraqlarında tətbiq edilən kompleks analitik metodudur. Proqnoz perspektivə müraciətlənən strateji balanslar sistemini təşkil edir.

Müvafiq olaraq proqnozlarin hazırlanması prosesinin özü **proqnozlaşdırma** adlanir.

Proqnozlaşdırma kifayət qədər tez-tez istifadə olunan “öncəgörənlik” anlayışı ilə bir sırada olur. Öncəgörənlik təbii ki, gələcəyin gözlənilməsilə bağlı olan hallar dairəsinin ən ümumi xarakteristikasıdır. Ümumi halda öncəgörənlik onun üç formasında verilə bilər – bu, fərziyyə, proqnoz, plandır.

Proqnozlaşdırmanın ümumi öncəgörənliyin daha ilkin fazaları ilə tutuşdurulmasında fərqləndirici məna ondan ibarətdir ki, onda öncəgörənliyin kifayət qədər konkretliyilə elmi-nəzəri fundamentallıq xüsusiyyətlərinin zəruri vəhdət təşkil etməsi fikirləşilir.

**Öncəgörmə** elmi və qeyri-elmi olana bölünür.

**Elmi öncəgörmə** təbiətin, cəmiyyətin və təfəkkürün inkişaf qanunauyğunluqlarına əsaslanan biliklərə görə formalaşır.

**Qeyri-elmi**, yaxud intuitiv öncəgörməyə, hissiyyata və gündəlik təcrübəyə əsaslanır.

Əslində öncəgörmə ilə proqnozlaşdırma arasında kritik fərq özünə təsadüfülük və ehtimalı daxil edir. Öncəgörmə adətən ehtimal edilən interpretasiyanı təyin edir, proqnoz isə həmişə müəyyən diapozonda başa düşülür. Öncəgörmə bir nəticəyə cəmlənir, proqnoz ehtimalı özünə daxil edir.

Öncəgörmə ilə proqnozlaşdırma arasında əsaslı fərq mərkəzdə fyüçersə yaxınlaşmadadır.

Gələcəyin fövqəltəbii qüvvələr tərəfindən formalaşdığını qəbul edən, yaxud mövhumatçılığa qapanan dini öncəgörmə də mövcuddur. Dini öncəgörmə vəhy, qabaqcadan xəbərvermə, fala baxma, sehrbazlıq, cadu, dua və s. formalara malikdir.

Adətən bəsirət (öncəgörmə) dini etiqada, nücum elminə, həyat təcrübəsi və elmi məlumatlara əsaslanır. Lakin nə dini inam, nə də astrologiya və ya həyat təcrübəsi bizə dəqiq verifikasiya olunmuş və inandırıcı arqumentlər təqdim edə bilmirlər. Ona görə də ən inandırıcı öncəgörmə elmi öncəgörmədir, belə ki, bu, özündə olan proqnozun elə formasını təqdim edir ki, bütün halların hərtərəfli hesabatlamalara əsaslanan ciddi elmi məlumatlara söykənir. Bu zaman başlıca prinsiplər kimi **alternativlk və verifikasiya** prinsipləri çıxış edirlər.

Alternativlik prinsipində proqnoz hazırlanarkən obyektin bütün mümkün inkişaf istiqamətlərinin əsaslılığı, çevrilmənin müxtəlif variantlarının həqiqət olmasına imkanların mövcudluğu nəzərdə tutulmalıdır.

Verifikasiya prinsipində proqnoz onu təsdiq və ya təkzib imkanını özündə saxlamalıdır. Təsdiq və təkzib ola bilməyən proqnoz faydasızdır.

Verifikasiya – nəzəri müddəaların həqiqiliyin, düzgünlüyün müşahidə edilən obyektlərlə müqayisə edilməsi yolu ilə təcrübi təyinidir.

**Elmi bəsirət** (öncəgörmə) mövcud, lakin öncədən məlum olmayan bir şeyə, həm də mövcud olmayan, lakin gələcəkdə meydana çıxa biləcək bir şeyə aid ola bilər. Elmi bəsirət ehtimal prinsipinə əsaslanmalı, lakin o, gələcək proseslərin dəqiq formalarını, konkret yerlərini və tarixlərini əvvəlcədən bilmək iqtidarında ola bilməz. Hər bir elm öz kateqoriya aparatı çərçivəsində və ictimai inkişafın konkret sahəsində onun tərəfindən dərk edilmiş qanunauyğunluqlar əsasında proqnostik bacarıqlara malikdir.

Hər bir elmdə və insanların hər bir fəaliyyət sahəsində elmi bəsirət müxtəlif tipdə, spesifik olaraq biruzə verilir. İctimai tədqiqatlarda bəsirət ictimai inkişaf qanunlarının dərk edilməsi probleminin bir hissəsini təşkil edir. Bu tip bəsirətin spesifikasını həmin qanunlar, bəsirət prosesinin konkret tarixi şəraiti, proqnozlaşdırmanın gedişatına təsir edən subyektiv faktorlar, ictimai mühit və proqnozlaşdırma prosesinin yetkinlik səviyyəsi müəyyən edir. Yəni, proqnozlaşma mütləq müəyyən nəzəriyyəyə əsaslanmalıdır. Nəzəriyyəsiz proqnozlaşma cadə informasiya yığımından və müxtəlif fərziyələrədən ibarət olur.

Bəzən öncəgörmə həm gələcək, həm indi, həm də keçmiş haqqında informasiyaya da aid edilir. Məsələn, faydalı qazıntı yataqlarının qiymətləndirilməsilə bağlı prezentist öncəgörmə, qədim abidələrin bərpası ilə bağlı rekonstruktiv öncəgörmə, indidən keçmişə yönəlmiş reversiv öncəgörmə, keçmişdən indiyə yönəlmiş imitasion öncəgörmə fərqləndirilir. Öncəgörmə iki konkretləşmə formasından ibarətdir:

- öncədəngörmə ilə bağlı – deskriptiv, yaxud təsviri,
- idarəetmə ilə bağlı - preskriptiv, yaxud təlimatlı.

Elmi ədəbiyyatda geniş anlamda daha çox “proqnozlaşdırma sistemi” terminindən istifadə edilir. Bu sistem özündə riyazi, məntiqi və evristik elementləri birləşdirir. Bu sistemə proqnozlaşdırılmış obyekt haqqında cari vaxta qədər əldə olunan məlumatlar daxil edilir.

Elmdə proqnoz dedikdə gələcək haqqında elmi əsalandırılmış mühakimələr, ehtimallar, həqiqətə uyğunluq başa düşülür. Məhz proqnozun ehtimallığı və həqiqətə uyğunluq xarakteri və onun elmi əsaslandırılması biliyin bu növünü öncəgörmənin başqa növlərindən fərqləndirir. Bu növə gələcək haqqında istənilən üsulla məlumat almaq (məs.astroloji) aiddir.

Proqnozlaşdırma hal-hazırda həm ayrıca sahə kimi (hava və metrologiyanın, iqtisadiyyatda valyuta məzənnəsinin dinamikasının proqnozlaşması və s.), həm də fənnlərarası istiqamətlərdə inkişaf edir. İkinci istiqamətin inkişafı əhəmiyyətli dərəcədə elmi biliyin müxtəlif sahələrində proqnozların işlənməsinin ümumi metodoloji və metodiki yanaşmaları ilə əlaqəlidir. Eyni zamanda hər bir sahənin ayrıca proqnozlaşdırılması proqnozlaşdırılan obyektin xarakterilə təyin edilən zəruri məxsusi xüsusiyyətlərə malikdir.

Proqnoz gələcəklə bağlı problemin həll edilməsi üçün mümkün, yaxud arzu edilən perspektivin təsviri ilə bağlıdır. Əvvəlcədən təlimatlandırma gələcəyə aid informasiyanın şəxsiyyətin və cəmiyyətin məqsədəuyğun fəaliyyətində istifadə edilməsilə bağlıdır. Öncədən xəbərvermə öncədən duyma, proqnozlaşdırma ilə çulğaşır.

Öncədən duyma gələcək haqqında intuisiya, şüuraltı səviyyədə olan informasiyadır. Öncədən duyma həyat təcrübəsinə əsaslanan məlumatlar toplusudur.

Öncədən təlimləndirmə cari idarəetmə məsələlərinin ehtimallaşdırılması, planlaşdırılması, proqramlaşdırılması, layihələşdirilməsi formalarından ibarətdir. Ehtimallaşdırma fəaliyyətin ideal ehtimali nəticəsinin təmin edilməsinə yönəlir.

Proqnozlaşdırmanın terminologiyasında:

**Hermenevtika**- gələcəyin dərk edilməsi yolunda məchulun strukturu ilə bağlı planlı və həm də intuitiv fikirlər və ya hisslərdir.

**Liberativ proqnoz**- bugünün konseptual məhdudiyyətlərindən azadolmanı nəzərdə tutur.

**Planlaşdırma** – qoyulan məqsədə nail olmaq üçün mümkün vasitələr əsasında insanın gələcək məqsədyönlü fəaliyyətinin proyeksiyalaşdırılmasıdır.

**Proqramlaşdırma** – əsas müddəaların qurulması və planların reallaşdırılması prosesində ardıcıllıqla istifadə edilməsidir.

**Layihələşdirmə** – gələcəyin konkret təsvirinin, gələcəklə bağlı konktret proqramların yaradılmasıdır. İdarəetmə bu anlayışları özündə birləşdirir. Bu anlayışlara aid olan ümumi element – qərardır. Lakin idarəetmədə qərar mütləq planlaşdırma, proqramlaşdırma, layihələşdirmə xüsusiyyəti daşımır. Bu anlayışlar həm də proqnozların, məqsədlərin, planların, proqramların, layihələrin, təşkilati qərarların hazırlanması prosesi kimi müəyyənləşdirilə bilər. Bu nöqteyi-nəzərdən proqnoz – perspektivlər, mümkün vəziyyətlər və alternativ yollar haqqında elmi əsaslandırılmış ehtimali mühakimədir.

**Məqsəd** – ehtimali nəticələrə dair qərardır.

**Fərziyyə** – öncəgörənliyin həyata keçirilməsinin, gələcək haqda məlumatların intuisuyaya və xalis nəzəri konstruksiyalara istinad olaraq fərzetmələr qaydasında irəli sürülən elmi-tədqiqat fazasına aiddir.

**Plan** – müəyyən işlərin müəyyən vaxtda və müəyyən vasitələrlə yerinə yetirilməsilə bağlı nizamlı, ardıcıl fəaliyyət haqqında qərardır. Plan – tədbirlər sisteminin nizamlanması, ardıcıllığı, tədbirlərin yerinə yetirilmə vaxtı və vasitələrini nəzərdə tutur.

**Proqram** – tədbirlər toplusuna aid olan qərar kimi elmi-texniki, sosial, sosial-iqtisadi və digər problemlərin həllinə yönəlir. Proqram plandan əvvəlki qərar, həmçinin planın müəyyən aspekti ilə bağlı ola bilər.

**Layihə** – müəyyənləşmiş tədbirlə bağlı qərardır və proqramın bu və ya digər aspektinin reallaşdırılması üçün vacibdir.

**Qərar** – məqsədə nail olmaq üçün güman edilən ideal fəaliyyətdir.

Öncədən xəbərvermə və öncədən təlmatlandırma bir-birilə sıx bağlıdır. Təlimatlandırmada iradi başlanğıc üstünlük təşkil edir, buna görə də onun elmi əsaslandırılması vacibdir, yəni təsvir (analiz), izah (diaqnoz) və qabaqcadan xəbərvermə (proqnoz) hər bir elmin üç əsas funksiyasını təşkil edir.

Proqnozlaşdırma gələcəyin bəzi hissələrini duymaqdan ibarət deyil, proqnoz verən gələcək təzahürlərin dialektik səbəbiyyətinə əsaslanır, zərurətin təsadüfdən doğduğunu nəzərə alır, gələcək təzahürləri öyrənərkən ehtimali yanaşmaya istinad edir. Məhz belə yanaşmada proqnoz daha səmərəli istifadə edilə bilər. Proqnoz plandan əvvəl olmalı, hadisələrin gedişini, planların nəticələrini qiymətləndirməli, planlaşıdırılması və qərarlaşdırılması mümkün olmayan bütün təzahürləri əhatə etməlidir. Proqnoz hər hansı bir zaman kəsiyini əhatə edə bilər. Proqnoz və plan gələcək haqqında informasiyanın istifadəsinə görə fərqlənir. Mümkün və arzu edilənin ehtimali təsivri proqnoza aiddir. Mümkün və arzu edilənlə bağlı tədbirlərə dair qərarların qəbul edilməsi plana aiddir. Proqnoz və plan bir-birindən asılı olmayaraq hazırlana bilər. Planın səmərəli olması üçün əvvəlcədən proqnoz olmalı və planlı fəaliyyət gedişində proqnozlaşdırma davam etməlidir.

BM-də proqnozlaşmanın mühüm məsələlərindən biri gələcək siyasi problemlərin üzə çıxarılması və onların həllinin siyasi proseslərin idarə olunmasının optimallaşması maraqları daxilində, eləcə də istər arzuedlən, istərsə arzu edilməyən bu və ya digər siyasi hadisələri öncədən görərək ən yaxşı yollarla onların həll edilməsidir.

**Proqnozlaşdırma** proqnozun işlənməsi, təkmilləşməsidir. Yəni, gələcəkdəki hadisənin vəzyyəti barəsində ehtimal olunan mülahizənin işlənib hazırlanması, inkişaf perspektivlərinin müəyyən edilməsi, əvvəlcədən söylənilməsi, elmi şəkildə əsaslandırılması deməkdir. Başqa sözlə, proqnozlaşdırma xüsusi elmi tədqiqatdır və onun əsas predmeti gələcək inkişaf perspektividir.

Proqnozlaşdırma adətən geniş və dar mənada başa düşülür. Geniş mənada gələcəkdə hər-hansı hadisənin vəziyyətini ehtimal olunan mülahizəsinin təkmilləşməsidir.

Dar çərçivədə əsasən kəmiyyət qiymətləndirmələri ilə bu təzahürlərin dəyişdirilməsində az-çox müəyyən müddət göstərilməklə hər hansı bir hadisənin inkişaf perspektivinin xüsusi elmi tədqiqidir.

B.İ. Krasnovun ifadəsinə görə proqnozlaşdırılma ən ümumi şəkildə - bu həqiqətin qabaqlaycı əksidir.

Proqnozlaşdırma həm də məhdud və nizamlı spekulyasiyanın və qeyri-müəyyənliklərin azaldılmasının mühakiməsidir. Naməlumun, müxtəlif nəticələr ilə bağlı imkanların aşkarlanması və həqiqətə uyğun gələnə daxil olanı təcrid edərək tədqiq etmək proqnozlaşdırılmanın mahiyyətini təşkil edir. Sosial elmlərdə problem inamsızlığın minimuma endirilməsindədir.

Proqnozlaşdırılma (siyasi) bəsirət formalarından biri kimi məqsədyönlülük, planlaşdırma, proqramlaşdırılma, layihələndirmə ilə qarşılıqlı əlaqədədir. Lakin bir çox halda əks əlaqə fəaliyyət vasitəsilə proqnozun öz-özünə həyata keçməsinə və ya öz-özünə məhv olmasına gətirib çıxarır.

Beləliklə, uğurun əvvəlcədən xəbər verilməsi qarşıya qoyulmuş məqsəd uğrunda dövlətin, cəmiyyətin qüvvə və vəsaitlərinin səfərbər edilməsinə, digər tərəfdən isə xaric siyasət sahəsində qəzanın əvvəlcədən xəbər verilməsi ölkə daxilində vəziyyətin kəskinləşməsinə gətirib çıxara bilər. Bu halda vaxtında edilmiş müdaxilə mənfi nəticələrin aradan qaldırılmasına yardım etmiş olacaq.

### *1.1.2. Beynəlxalq proqnostikanın yaranması, mahiyyəti və inkişaf zəminləri*

*Beynəlxalq proqnostikanın yaranması*. Bəşəriyyətin inkişafı, yeni torpaq və qitələrin kəşf olunması ilə gələcəyin mümkün tendensiyalarını əvvəlcədən xəbər verə bilmək cəhdi də xeyli artmışdır. Müxtəlif dövrlərdə ayrı-ayrı xalqlar tərəfindən bu cəhd müxtəlif cür adlandırılmışdır. Bu səbəbdən bir çox xalqlarda, ayrı-ayrı qitələrdə çoxsaylı "baxıcılar", şaman və falçılar və s. meydana çıxmışdır.

Orta əsrlərdə Qərbdə olduğu kimi Şərqdə də bir çox alimlər artıq mövcud olan elmi kəşflər əsasında bəşər gələcəyini modelləşdirməyə cəhd etmişlər. Bir çox hallarda onlar nəzəri mülahizələri gələcək inkişaf praktikasında həyata keçirirdilər.

Fransız mütəfəkkiri Pyer Lui de Mopertyusi yazmışdır ki, bizim şüurumuz gələcəyi qabaqlamaq bacarığına malikdir.

Orta əsrlərin görkəmli alimi Mişel Nostradamus gələcəyi 300-400 il əvvəl görmüşdür. O, XX əsrin əvvəli və sonlarında baş vermiş hadisələri çox böyük ustalıqda söyləmişdir: Rusiyada bolşevik çevrilişi və əsrin sonlarında bu totalitar rejimin süquta uğraması, Almaniyada nasistlərin hakimiyyətə gəlişi və s.

1924-1928-ci illərdə iqtisadçı V.A.Bazarov-Rudnev gələcəyə yeni yanaşma istiqamətndə proqnoz-öncədən xəbərverməni kəşfiyyat proqnozla əvəz edərək, onun iki formasını təqdim edirdi:

-məntiqi ardıcıllıq yolu ilə gələcək tendensiyaların aşkar edilməsi və problemlərin həll edilməsi;

-teoloji (normativ) proqnozlaşdırma əsasında gələcək problemlərin səmərəli həlli yollarının aşkar edilməsi.

Bazarovun tədqiqatları dərk edilmədiyindən inkişaf etdirilmədi. Ancaq XX əsrin 80-cı illərində elmdə istifadə edilməyə başlandı.

XX əsrin 50-60-cı illərində Amerika ekspertləri T.Qordon, O.Qelmer və başqaları ABŞ-ın və dünyanın 15 il sonrakı vəziyyəti ilə bağlı «Appalon» proqram-proqnoz hazırlamışdılar. Burada ABŞ-ın Aya uçuşu planlaşdırılırdı. ABŞ tədqiqatçıları müstəqil şəkildə Bazarovun yaddan çıxmış kəşfiyyat və normativ proqnozlaşdırma konsepsiyalarını işləmişdilər.

İkinci dünya müharibəsi illərində gələcək haqqında konsepsiyaların işlənməsi tənəzzül etdi. XX əsrdə 40-cı illərin sonu 50-ci illərinin əvvəllərində Elmi Texniki İnqilab (ETİ) konsepsiyalarının meydana çıxması, kəşfiyyat və normativ proqnozlaşdırma texnikasının işlənməsi və gələcək haqqında yeni konsepsiyaların (industrializm, ekzistensializm, strukturalizm, neopozitivizm, sosial-reformizm, teyardizm, konvergensiya nəzəriyyəsi və s.) formalaşması proqnozlaşdırmanın yeni istiqamətli inkişafına gətirdi. Bu dövrdə C.Bernal,

N.Viner, R.Yunqun əsərlərində elmi texniki tərəqqinin nailiyyətlərinin gələcək inkişafa təsiri təsvir edilirdi.

Elmi ədəbiyyatda gələcəyi görmə elmi olan «futurologiya» termini elmə ilk dəfə Amerika Birləşmiş Ştatlarında mühacirətdə olan alman alimi Osip Flextqeym daxil etmişdir. XX əsrin 50-ci illərinin sonlarında bu elm dünya inkişafının təhlükəli tendensiyalarına yiyələnmək bacarıqlarının sinoniminə çevrilmişdir. Hadisələrin bu cür inkişafı isə ayrı-ayrı ölkələrdə dövlətlərin, ölkələrin və ümumilikdə dünyanın inkişaf perspektivlərinin ümumiləşməsi üzrə xüsusi mərkəzlərin yaranmasına yardım edirdi.

XX əsrin 60-cı ilərində «texnoloji proqnozlaşdırma» ilə məşğul olan yüzlərlə proqnozlaşdırma müəssisələri açıldı. Qərb fəlsəfəsinin yeni istiqamətləri ilə tanışlıq gələcək haqqında konsepsiyaların yaradılması üçün vacib olan anlayışlar, kateqoriyalar, nəzəri əsaslandırmalar, yeni meyllər, sosial normalar və s. formalaşmasına şərait yaratdı. Fransız sosioloqu J.Furastyenin «1960-cı ilin sivilizasiyaları» (1947), «XX əsrin böyük ümidi» (1949), «Gələcəyin tarixi» (1956), «XX əsrin böyük metamorfozası» (1961), ingilis alimi A.Tomsonun «Görünən gələcək» (1955), A.Klarkın «Gələcəyin cizgiləri» (1962) və başqalarının əsərləri elmi-texniki tərəqqinin nailiyyətləri əsasında gələcəyin təsvirini verməyə yönəlmişdi.

Məhz bu illər ərzində aparıcı alim-proqnozlaşdıranlardan olan B. de Juvenel və D. Bell «futurologiya» terminindən imtina etməyə başladılar.

*Beynəlxalq proqnostikanın mahiyyəti.* Beynəlxalq proqnostika cəmiyyətin, ölkənin və dövlətin inkişafını daxili və xarici inkişaf perspektivləri kompleksində öyrənir, təhlil edir və proqnozlaşdırır. Beynəlxalq proqnostika maddi və metodik özüllərə, daha doğrusu, təbii ehtiyatlara, iqtisadiyyata, elmi-texniki nailiyyətlərə və s. əsaslanır. Beynəlxalq proqnostikanın əsas istiqamətləri tətbiqi tədqiqat formasında inkişaf edir. Beynəlxalq proqnostikanın inkişafında real irəliləyiş aşağıdakı məqamların paralel və eyni zamanda realizə olunduğu zaman baş verə bilər.

a) tədqiqatların müasir beynəlxalq münasibətlərin son təkamül prosesində hərbi-strateji təsir formaları ilə müqayisədə daha böyük dinamik rol oynayan diplomatik təsirlərin bütün formalarına şamil edilməsi.

b) beynəlxalq münasibətlərin ekoloji, ərzaq, su ehtiyatları, xammal, silahlanmanın məhdudlaşdırılması və s. kimi sferaların gələcək təkamülü üçün böyük əhəmiyyətə malik olan kəmiyyət amillərinin üstünlüyü ilə yeni sektorların tədqiqatı

c) beynəlxalq proqnostika metodologiyasına, eləcə də tədqiqatların bütün diplomatik təsir formalarına və hərbi-strateji təsirlərin yeni sektorlarına şamil olunmasını asanlaşdıran və sürətləndirən və elmi beynəlxalq proqnostikanın formalaşmasına yardım edən keyfiyyət faktorları əsasında təhlil və təkliflərə aid olan fundamental tədqiqatların genişləndirilməsi,

Beynəlxalq proqnostikanın inkişafında yalnız qeyd edilmiş postulatların yerinə yetirilməsindən sonra baş verə biləcək keyfiyyət sıçrayışı hal-hazırda həyata keçirilən diapazon və istiqamətlərin xeyli artırılması demək olar. Gələcək beynəlxalq münasibətlərin bəsirəti sahəsində konkret tədqiqatlar hələ ki, proqnozların ehtimal dərəcəsindən, səhvlərin mümkünlüyündən asılı olmayaraq həyata keçiriləcəkdir və yalnız elmi beynəlxalq proqnostikanın quruluşu proqnozların ehtimal dərəcəsini artıra və səhvlərin mümkünlüyünü azalda bilər, nəticədə isə proqnostik təhlilin operativ şəkildə tətbiq edilməsi zərurətini artıra bilər.

*Beynəlxalq proqnostikanın inkişaf zəminlər*. Elmi proqnozlaşdırma üç mütləq mərhələdən keçir:

a) informasiya məlumat bankının formalaşması və onun ilkin təsnifatı;

b) informasiya strukturunun hərtərəfli, çoxamilli tədqiqatı, onun nəzəri qiyməti;

c) tədqiqatların mühüm nəticələrinin müqayisəli (komperativ) təhlili, gələcək inkişafın hakim tendensiyalarının üzə çıxarılması məqsədilə onların ümumiləşdirici sintezi. Burada biz yenə də təsbit edilmiş göstəricilər, normalar və şərtlərdən ibarət olan təcrübəyə geri dö-

nürük. Bu yolla beynəlxalq proqnostika xarici siyasət başçılarına beynəlxalq mühitdə onların məqsəd və maraqlarına nail olmaqda yardım edə bilər. “Əgər müdiriyyət gələcəkdə hara getmək istədiyini bilirsə, proqnozlaşdıran ona oraya getməkdə yardım edir. Əgər yox, müdir haraya getmək istədiyini bilmirsə, təcrübəli proqnozlaşdıran həmin yeri tapmaqda ona yardım etməyi bacarmalıdır”.

Ölkələrin müstəqil inkişafı şəraitində ekspert proqnozlaşdıranların rolunun artırılması və müvafiq tədqiqat mərkəzlərinin inkişafı zəruridir. Bütün səviyyələrdə gələcək haqqında elmi təfəkkürün genişləndirilməsinə ehtiyac yaranır. Beynəlxalq proqnostika bu cür təfəkkürün inteqral hissəsini təşkil etməlidir. Belə ki, bizim biliklərimiz, daha dəqq desək, gələcək haaqında biliklərə yiyələnmək bacarığımız mükəmməlləşdikcə və nəzəri cəhətdən ümumiləşdikcə bəsarətlərimiz də dəqiqləşəcək və arzu olunan gələcək göstəricilərin, normalarının və şərtlərinin realizasiya mümkünlüyü artmış olacaq.

Proqnozlaşdırma birbaşa Xarici İşlər Nazirliyinin fəaliyyət sahəsini əhatə edir. Belə ki, indiki zamanda baş verə biləcək və ya gələcəkdə davam edəbiləcək hadisələrin öncədən görülməsi diplomatiyanın, diplomatların, səfirlik və Xarici İşlər Nazirliyinin əsas vəzifələrindən biridir. Bu tələblərin nəzərə alınması ilə zaman keçdikcə proqnostika daha çox nəzəriyyədən fəaliyyət praktikasına çevrilirdi. Proqnozlaşdırma problemləri ilə müxtəlif sahələr, institutlar, nazirliklər və xüsusilə də xarici münasibətlər üzrə idarələr məşqul olmağa başladı.

İngiltərə səfiri U. Hayter 70-ci illərdə (ADR-da) proqnoz vermişdir ki, ADR-da hakimiyyət sovet himayəsinə əsaslanır və Böyük Britaniya XİN-nə yazdığı məktublarında o, hadisələri tələsdirməməyi, Kremlə yeni insanların gəlməsinədək səbirli olmağı (onun fikrincə bu zaman vəziyyət tamamilə əks istiqamətdə dəyişəcəkdir) məsləhət görmüşdür. Lakin, o zaman Hayterin bu proqnozu səhv hesab edilərək rədd edilmişdir. İyirmi il sonra Hayterin proqnozu tam olaraq təsdiq edilmişdir və 80-90-cı illərdə forin ofis tərəfindən icraya qəbul edilmişdir.

Yeni əsrdə Qərbin aparıcı ölkələrində ölkə və ölkələrin xarici siyasətinin proq-nozlaşdırılması üzrə xüsusi institutlar yaradılmışdır. Londonda bu istiqamətdə hal-hazırda forin ofisin zehni mərkəzi adlandırılan xarici münasibətlər üzrə Krallıq tədqiqat institutu fəaliyyət göstərir. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, ən böyük diplomatik dünya təcrübəsinə malik olan İngiltərə XİN strukturunun tərkibində dünyada ən iri və ştatında yüzlərlə əməkdaşa malik şöbə olan proqnostik tədqiqat şöbəsi yaratmışdır.

Dövlətlər və ölkələr inkişaf etdikcə onların bir çoxunda gələcəyin proqnozlaşdırılması üzrə xüsusi institutlar və elmi mərkəzlər yaranmağa başlamışdır. Bu yolla 1957-ci ildə Fransada perspektivlərin öyrənilməsi üzrə Beynəlxalq Mərkəz yaradılmışdır və 3 il sonra – 1960-cı ildə isə onun bazasında Beynəlxalq gələcək komitəsinin əsası qoyulmuşdur. Oxşar və ya analoji mərkəzlər, institutlar və laboratoriyalar dünyanın bir çox ölkələrində, o cümlədən Azərbaycan Respublikasında da yaradılmışdır.

### *1.1.3. Proqnostika nəzəriyyəsinin predmeti, məqsəd və vəzifələri*

Proqnozlaşdırma nəzəriyyəsinin predmeti "müxtəlf proqnostika növlərinə (iqtisadi, ictimai, mədəni və s.) doğru aparan yolun yaradılması, qısaldılması və işıqlandırılması"ndan, yəni proqnozlaşdırma qanunları və üsullarından ibarətdir.

Bununla yanaşı proqnozlaşdırma nəzəriyyəsinin inkişafı ayrı-ayrı proqnos-tikaların inkişafından asılıdır. Hər bir proqnostikanın tarixi inkişaf ardıcıllığını eyni zamanda iki amil müəyyənləşdirir:

a) ictimai sorğu və ya tələbatlar;

b) elmi şərait, digər sözlə verilmiş sahədə proqnoz vermə imkanları.

Proqnostikanın vəzifəsi nəzəri proqnostik tədqiqatın qnoseoloji və məntiqi problemlərinin, proqnozların tipologiyasının elmi prinsiplərinin hazırlanması, proqnozlaşdırma metodlarının təsnifatı, hipotez və proqnoz, proqnoz və qanun, analiz və proqnoz, proqnoz və plan, qərar və s. qarşılıqlı əlaqəli anlayışların müəyyənləşdirilməsi və s. iba-

rətdir. Yəni, proqnostikanın əsas vəzifəsi-proqnozların metodları və texnikasının effektivliyinin artırılması məqsədilə xüsusi, özünə məxsus proqnozlaşdırma metodologiyasının inkişaf etdirilməsindən ibarətdir. Proqnostika problemləri proqnozlaşdırma metodlarında optimal prinsiplərin seçimilməsinin, proqnozların doğruluğunun müəyyən edilmə vasitəsinin, proqnostik nəticələrin işlənib hazırlanması üçün prinsiplərdənne ffektiv istifadənin, ehtimal və oyun nəzəriyyələrinin, əməliyyatların tədqiq edilməsinin, qərararların qəbul edilməsi nəzəriyyəsinin və s.bu kimi məsələlələrin xüsusi elmi-tədqiqindən ibarətdir.

Göründüyü kimi proqnozlaşdırma özündə elmi-bəsirəti, daha doğrusu, gələcəyin elmi fundamental şəkildə əsaslandırılmasını ehtiva edir. Bu aspektdə söhbət reversiv proqnozlaşdırmadan, daha doğrusu tendensiyaların, indidən keçmişə doğru məntiqli şəkildə davam etdirilməsindən gedir. Bu zaman bu və ya digər problem üzrə məlumat bankı, ona edilən istinad, mövcud məqamların təhlili nəzərdə tutulur.

Prezentiv proqnozlaşdırma zamanı isə - rəqib tərəfndən həyata keçirilmiş və indiki zamanda da həyata keçirilən, lakin proqnozlaşdırma subyektinə hələ də məlum olmayan hərəkətlər başa düşülür.

Bütünlükdə, proqnozlaşdırmanın məqsədinin 4 əsas növünü göstərirlər: naməlumun anlaşılması; gələcək nəticələri idarəetmək; indiki şəraitdə sisteminin ümumi dinamikasını tam başa düşmək və qiymətləndirmək, yaxın gələcək üçün planlaşdırma.

### *1.1.4. Beynəlxalq proqnostikanın əhəmiyyəti*

Beynəlxalq proqnostikanın faydası proqnostik təhlilin üç istiqaməti ilə təyin edilir:

a) tarixi-sosioloji (dövlət və beynəlxalq sistemlərin sürətli tarixi inkişaf tələbləri);

b) konkret-siyasi (xarici siyasət məsələlərində siyasi qərarların qəbulu zərurəti);

v) nəzəri-idrakı (beynəlxalq münasibətlər və bu fənnin ümumi nəzəriyyəsinin düzgün ifadə edilməsi sahəsini elmi cəhətdən bilməmə zərurəti).

Proqnostik təhlilin bütün istiqamətləri və onu müəyyən edən tələblər əlaqəli şəkildə çıxış edir və onların arasında olan hər hansı bir boşluq mənaya və beynəlxalq proqnozların əhəmiyyətinə xələl yetirir. Əlavə etmək olar ki, proqnozlaşdırma ictimai proseslərə təsir edən beynəlxalq münasibətlərin iştirakçılarının səmərəli və sağlam düşündükləri halda da müəyyən mənaya malikdir. Çünki beynəlxalq proqnostikanın vəzifəsi ayrı-ayrı hadisələrin deyil beynəlxalq hadisələrin və proseslərin təkamülünü qabaqcadan görməkdən ibarətdir. Demək olar ki, proqnostik təhlil hökumət (rəhbərin), millət, dövlət və ya beynəlxalq sistemin gələcəyə hazırlanmasında ilkin şərtlərinə əsaslanır. Həmin şərtin həyata keçirilməsi yalnız beynəlxalq proqnostikanın bütün üç istiqamətinin vahid şərhi yolu ilə mümkündür. Söhbət gələcəyə doğru irəliləyən kəslərin beynəlxalq münasibətlərin gələcəyinin «açıq» və dərk edilə bilməsinə və həmçinin elmi düşüncənin köməyi ilə hadisələrin (əgər onlar beynəlxalq sistemlərin müəyyən təmayül, proseslər və təkamül ilə əlaqədardırsa) müəyyən axarını qabaqcadan görməyinə əmin olmasından gedir. Həmçinin məsələ beynəlxalq münasibətlərin gələcək vəziyyətinə dövlətin və ya dövlətlər qrupunun xarici siyasəti sahəsində müxtəlif qərarların şərtlənmə və nəticələrinin əsaslı təhlili yolu ilə elmi cəhətdən hazırlanmasından ibarətdir. Nəhayət, söhbət qanunauyğunluğun, sonra isə xarici siyasi qərarlardan asılı olmayan (və ya az asılı olan) hadisələrin və proseslərin xarakterinin, həcminin və gözlənilən inkişafının dərk edilməsindən gedir. Bir qayda olaraq beynəlxalq proqnostikanın praktik fəaliyyətlə – material və məlumat – sıx əlaqəsi diqqəti cəlb edir, beynəlxalq münasibətlərin «gerçəklikdəki aşkar dəyişikliklər»i bunun nəticəsi kimi çıxış edir. Gələcəyin araşdırılması əlverişlidir və həmişə mümkün gələcəklər arasında seçim verən vacib qərarların qəbul olunmasına imkan yaradan dərəcədə siyasi dəyərə malikdir. Rəhbər öz qərarlarının səbəblərini araşdırdıqda əsasən yaxın gələcəkdə həyata keçirilməli və aradan qaldırılmalı faktlara əsaslanmalı və ona görə də proqnozlaşdıran rəhbərin bu təmayülünü nəzərə almalıdır. Eyni zamanda proqnozlaşdıran ortamüddətli və hətta uzunmüddətli seçimlərin nəticələri ilə bu təmayülü korrelyasiya etməlidir.

Beynəlxalq proqnostika təcrübədə seçilmiş gələcəyi təşkil edən və hazırki dövr ilə əlaqədar olan hər şeyin planlaşdırılması, bu sahədə qərarların qəbul olunması və həyata keçirilməsi yoluna üstünlük verməlidir. Təcrübədə «zəruri və ya ən azı kifayət qədər ehtimala» malik etibarlı proqnozlar böyük əhəmiyyət kəsb edir. Etibarlılıq dərəcəsinə, nəticə etibarı ilə, proqnozun əhəmiyyətinə beynəlxalq münasibətlərin bir hissəsini idarə edən qanunların və qanunvericiliyin dərk edilməsinin həcmi və mükəmməlliyi, proqnozlaşdırılan proseslərin inkişafını müəyyən edən şərtlərin və səbəb-nəticə əlaqələrinin dərk olunma dərəcəsi, həmçinin proqnoz işlərinin əhəmiyyəti və dəqiqiliyi təsir göstərir.

Proqnozlaşdıranlara yeni, aktual və gələcəklə bilavasitə əlaqədar olmaqla yanaşı daha dəqiq, tam və obyektiv məlumatın çatdırılması xüsusi əhəmiyyət kəsb edir.

Etibarlılıq dərəcəsinə, nəticə etibarı ilə, proqnozun əhəmiyyətinə beynəlxalq münasibətlərin bir hissəsini idarə edən qanunların və qanunvericiliyin dərk edilməsinin həcmi və mükəmməlliyi, proqnozlaşdırılan proseslərin inkişafını müəyyən edən şərtlərin və səbəb-nəticə əlaqələrinin dərk olunma dərəcəsi, həmçinin proqnoz işlərinin əhəmiyyəti və dəqiqiliyi təsir göstərir.

### *1.1.5. Proqnozlaşdırma elmi öncəgörmə kimi: alternativ motivlər və direktivlər*

Texnokratik cəmiyyətdə yaşadığımız üçün proqnozlaşdırmaya bəzən elmi öncəgörmə də deyilir və məlum olmayan gələcəyin idarə edilməsi onun mühüm nəticəsi kimi aşkara çıxır. Öncəgörmə və idarəetmə birlikdə proqnozlaşdırmanı müasir elmin idarə edilməsi baxımından vacib amilə çevirir. Belə ki, müasir elm texnokratik hermenevtika və liberativ proqnozdan qaynaqlanır.

Öncəgörmənin rolu mürəkkəbdir. Buraya gələcək haqqında "yaxşılar" və ya "pislər"i nəzərdə tutan təsvirlərin yaradılması daxildir. Mümkün olanlar və ya arzuolunanlar siyasi planlaşdırmanın doməninə çevrilir ki, bu da öz növbəsində proqnozlaşdırmada bir sıra institusionallaşmış imperativlərin yaranması ilə nəticələnir. Gələcək nəticələrin tədqiqi də müəyyən dərəcədə buna təkan verir. Keçmiş

nəslin proqnozlaşdıranları və nəzəriyyəçiləri tez-tez günümüzün realistlərinə çevrilirlər. Beləliklə, proqnozlaşdırma keçmişlə gələcəyi əlaqələndirməyə xidmət edir və proqnozlaşdırmaq üçün cari faktlarla əlaqədar olmayan yeni təkliflər irəli sürülməlidir. Bu mənada proqnozlaşdırma öncəgörməyə çevrilərək planlaşdırmanın mühüm şərti olur.

Gələcək reallıqlarla bağlı anlayışımız məhz keçmiş və bugün haqqında anlayışlarımıza söykənir. Proqnozlaşdırma üzrə müxtəlif motivlər günümüzlə bağlı anlayışlarımızın gələcəyə olan gözləntilərimizlə əlaqələndirilməsinə xidmət edir. İdealist və strateqlər bir-birinə zidd fikirli olsalar da, hər ikisi məchulla bağlı qaydalar qoymaq və müşahidə və faktların qiymətləndirilmə çərçivəsini müəyyən etməyə çalışırlar. Hansı obyektiv məlumatlardan istifadə etmələrindən asılı olmayaraq, onlar həmin məlumatlara dair etdikləri şərhlərə həqiqət kimi baxırlar.

Proqnozlaşdırmanı elmi öncəgörmə kimi nəzərdən keçirən proqnozlaşdıran bütün elmi tədqiqatçılar kimi məchulu başa düşməyin yollarını axtarır; o, proqnozlaşdırma prosedurlarını qeyd edir. Gələcəyin idarə edilməsi ilə maraqlanan proqnozlaşdıran siyasətin manipulyasiya edilməsi, inkişafı və icrası yollarını axtarır, sistemdə və vacib qərarların müxtəlif seçim və nəticələrə gətirib çıxardığı sahələrdə həssas məqamların müəyyənləşdirilməsini vurğulayır. Uzaq gələcəklə maraqlanan proqnozlaşdırılan cari vəziyyətin daha yaxşı dəyərləndirilməsi ilə ümumi dinamikanın başa düşülməsinə çalışır və uzunmüddətli sistem davranışını vurğulayır. Sabahkı günün hadisələri ilə maraqlanan proqnozçu ani ehtimalları planlaşdırır və diqqəti qərarvermə prosesinə yönəldir.

Bu motivlərin hər biri əlaqədar məsrəf və gəlirlərlə birgə proqnozlaşdırmanın müxtəlif prosedurlarını əhatə edir. Proqnozaşdırma bizi *alternativlər* haqqında düşünməyə vadar edir. “Yaxşılar” və “pislər” proqnozlaşdırma layihəsində bərabər nəzəri əhəmiyyə malikdir. Onların arasındakı fərq proqnozlaşdıranın motivləri, üstünlükləri və gözləntiləri ilə gələcəyin reallıqlarına əsasən müəyyən edilir.

Elmin neytral dəyərli vəziyyəti bəzən öncəgörmənin dəyərlə idarə olunan qaydaları ilə qarışıq salınır. Bu da nəticədə həm nəzəriy-

yə, həm də metodun differensiasiya edilməmiş və metodoloji cəhətdən əsaslı olmayan istifadəsi ilə nəticələnir. Beləliklə, “edilən”lə “edilməli olan”ı qarışdırır və onların arasındakı fərqin proqnozun nəticələri ilə birbaşa əlaqə yaradan vacib fakt olduğunu diqqətdən qaçırırıq. Buna görə də, proqnozlaşdıran keçmiş və gələcək, şəxsin cəmiyyətə münasibəti, cəmiyyətlərin bir-birinə münasibəti və cəmiyyətlər arasında qarşılıqlı əlaqələri tənzimləyən qərarın təbiəti haqqında fikirlərini açıq ifadə etməlidir. Həmin başlıca fikirlər və ya nəzəriyyələr proqnozun təbiətinə qaçılmaz olaraq təsir edir və tədqiqatlar onların əsasında dayanan fikirlər və belə mülahizələrin hər biri haqqında olan ehtimallara görə fərqləndikdə, proqnozlaşdırılan nəticələr də fərqlənəcəkdir. Proqnozlaşdırma məqsədilə mənfi təsvirlərin sistemli strukturlaşdırılması müsbət olanların sistemli strukturlaşdırılması qədər vacibdir. Bizim başlıca dəyərlərimiz müsbəti mənfidən fərqləndirməkdir; yəni tamamilə yaxşı və ya pis heç nə yoxdur. Faktlar, müşahidələr və cari və ya keçmiş faktların şərh olunması geniş surətdə bu gün və keçmiş haqqında nəzəriyyələrimiz və axtarışın aparılması üzrə nəzəriyyəni tətbiq etdiyimiz üsullardan asılıdır.

## 1.2. Beynəlxalq münasibətlərin proqnozlaşdırılmasının təsnifatı

### *1.2.1. Proqnozlaşdırılmanın tipologiyası*

Proqnozların tipologiyası məqsəd, vəzifə, obyekt, problem, metodlar, proqnozlaşdırmanın təşkili və s. kimi müxtəlif meyarlara görə müəyyənləşə bilər. Əsas problem-məqsədli meyar əsasında (proqnoz nə üçün hazırlanır?) əsasən proqnozun iki tipi fərqləndirilir: kəşfiyyat və normativ.

Kəşfiyyat proqnoz – təzahürün gələcəkdə mümkün vəziyyətinin müəyyənləşdirilməsinə yönəlir. Mümkün qərar və fəaliyyətdən təcrid edilərək, tədqiq edilən təzahürün keçmiş və cari inkişaf meylləri nəzərə alınmaqla onun gələcək inkişaf meyllərini dəyişmək və proqnozun özünü reallaşdırması, yaxud özünü məhvi prosesinə nail olmaq mümkündür. Belə proqnoz – mövcud meyllərin saxlanması şəraitində

nə baş verə bilər? – sualına cavab verir. Kəşfiyyat proqnoz müəyyən imkanlar şkalası əsasında qurulur və bu əsasda proqnozlaşdırılan təzahürün ehtimal dərəcəsi müəyyənləşir.

Kəşfiyyat proqnozlaşdırma və ya ekstrapolyasiya idarəetmə obyektinin keçmiş və müasir inkişaf tendensiyalarını nəzərə alaraq, onun gələcəkdə mümkün vəziyyətini müəyyənləşdirməkdir. Bu ənənəvi, məqsədli proqnozlaşdırmadır və gələcək problemli vəziyyəti ifadə edən informasiya olub, idarəetmə qərarlarının qəbul edilməsinə xidmət edir. Proqnoz dairəsi elmi-texniki, demoqrafik, ekoloji, iqtisadi, daxili və xarici siyasi vəziyyəti və cəmiyyətin digər sahələrini əhatə edir. Proqnozun həqiqilik səviyyəsi elmi faktların, əsaslandırılmış tendensiyaların tamlığından asılıdır. Lakin böhran və keçid dövrlərində bu metod düzgün nəticələr vermir.

Normativ pronqoz – təzahürün mümkün vəziyyətinə nail olma yollarının və müddətinin müəyyənləşdirilməsilə bağlıdır. Bu zaman norma, ideallar, hərəkətverici səbəb və məqsədlər əsasında arzu edilən vəziyyətə nail olma nəzərdə tutulur. Belə proqnoz – arzu edilənə hansı yollarla nail olmaq mümkündür? – sualına cavab verir. Normativ proqnozlaşdırma qoyulan məsələdən müşahidə edilən meyllərə yönəlir. Normativ proqnozlaşdırma normativ planlaşdırma, proqramlaşdırma, yaxud layihələşdirməyə uyğundur və normalara nail olmanın mümkün, alternativ yollarının ehtimali təsviridir. Normativ proqnozlaşdırma qərarların obyektivlik və səmərəlilik səviyyəsinin yüksəldilməsilə bağlı tövsiyyələr təklif edir.

Məqsədli proqnoz alt tip kimi – nə arzu ediləndir və nə üçün? – sualına cavab verir. Bu zaman dəyər funksiyası əsasında: arzu ediləndir – daha az arzu ediləndir – daha çox arzu ediləndir – çox arzu ediləndir – səmərəlidir şkalası istifadə edilir. Oriyentasiya – məqsədə nail olmanı optimallaşdırır.

Plan proqnoz – planların yerinə yetirilməsi gedişində kəşfiyyat və normativ proqnozlaşdırmanın məlumatlarından istifadə edərək, daha məqsədəuyğun normativlərin, məsələlərin, təlimatların seçilməsi, lazımsız alternativlərin aradan qaldırılması və qərarların mümkün nəticələrinin aşkar edilməsinə yönəlir. Bu proqnoz – qoyulan məqsədlərə

daha səmərəli nail olmaq üçün planlaşdırmanı necə və hansı istiqamətdə yönəltməli? – sualına cavab verir.

Proqram proqnoz – arzu edilənə nail omaq üçün nə vacibdir? – sualına cavab verir. Bu suala cavab vermək üçün həm kəşfiyyat, həm də normativ proqnozlaşdırmanın nəticələri vacibdir. Proqram proqnozlaşdırma müxtəlif amillərin mümkün qarşılıqlı təsiri haqqında hipotez hazırlamalı, məqsədə nail olmanın ehtimali müddətini və ardıcıllığını müəyyənləşdirməlidir. Bu əsasda plan proqnozun başladığı iş sona çatdırılır.

Layihə proqnoz – bu necə mümkün ola bilər, bu necə görünəcək? – sualına cavab verir. Layihə proqnozlar səmərəli layihələşdirmənin optimal variantlarının seçilməsinə kömək edir.

Təşkilati proqnoz – qərarı hansı istiqamətdə yönəltmək? – sualına cavab verir. Bu zaman kəşfiyyat və normativ proqnozlaşdırmanın nəticələri müqayisə edilir və bu əsasda idarəetmənin ümumi səviyyəsini yüksəldən təşkilati tədbirlər kompleksi müəyyənləşdirilir. Zaman müddətinə görə - operativ (cari), qısa, orta, uzun və çox uzun müddətli proqnozlar fərqləndirilir.

Operativ proqnozlar tədqiqat obyektində əsaslı dəyişikliklər (nə kəmiyyət, nə də keyfiyyət) gözlənilməyən yaxın gələcəyə aid olur. Qısa müddətli proqnozlar yalnız kəmiyyət dəyişikliklərini, uzun müddətli proqnozlar isə həm kəmiyyət, həm də keyfiyyət dəyişikliklərini nəzərdə tutur. Orta müddətli proqnozlar qısa və uzun müddətli proqnozlar arasında orta mövqe tutur, bu zaman kəmiyyət dəyişiklikləri üstünlük təşkil edir. Çox uzun müddəti əhatə edən proqnozlar isə təbiətin və cəmiyyətin ümumi inkişafı ilə bağlı əhəmiyyətli səviyyəli keyfiyyət dəyişikliklərini nəzərdə tutur. Operativ proqnozlar – müfəssəl kəmiyyətli qiymətləndirməni, qısa müddətli proqnozlar – ümumi kəmiyyət, orta müddətli proqnozlar – kəmiyyət-keyfiyyət, uzun müddətli proqnozlar – keyfiyyət-kəmiyyət, çox uzun müddətli proqnozlar – ümumi keyfiyyət qiymətləndirilməsini nəzərdə tutur.

Beynəlxalq proqnozların bu təsnifatı hələ kifayət qədər davamlı deyil. Qəbul edilmiş meyardan asılı olaraq beş qrupa ayırılmış digər bir təsnifatda verilir (hər qrupda isə iki növ proqnoz yer alır):

1) məkan meyarına əsasən qlobal və regional proqnozları ayırmaq olar;

2) zaman meyarına əsasən - əsasən operativ (1ayadək), qısamüddətli (1 ilədək) və ortamüddətli (5 ilədək), uzunmüddətli proqnozlar (10-25 ilədək) və uzunmüddətli proqnozlardan sonrakı müddətli proqnozlar;

3) əhatə diapazonuna əsasən - tam və natamam (sektor) proqnozlar;

4) predmetin çözülməsinə əsasən – komplekt və selektiv;

5) məqsədə əsasən – tədqiqi və normativ proqnozlar.

Qlobal proqnozlar müəyyən dövr üçün beynəlxalq həyatın bütün aspektlərini əhatə edir. Əgər onlar bütün dövlətləri və beynəlxalq sistemləri nəzərə alırsa komplekt, ayrı- ayrı ölkə və ya sistemlərə aid olduqda isə selektiv adlandırılır.

Meyarları çətin yerinə yetirilən olsa da qlobal proqnozlarda seçim (ölkə və ya problemlərin) daha faydalıdır. Bundan əlavə, beynəlxalq həyatın yalnız seçilmiş sahəsini və ya həmin sahənin yalnız bəzi faktorlarını əhatə edən natamam (sektor) qlobal proqnozlar da mövcuddur.

Regional proqnozlar qitələr və onların hissələri və ya dünyanın seçilmiş sahələrinə aid olur. Regional proqnozlar komplekt və ya selektiv, tam və ya natamam (sektor) ola bilər.

Qısamüddətli proqnozlar yarım ildən 3 ilə qədər dövr əhatə edə bilər ki, bu daha qənaətbəxş hesab edilməlidir.

Proqnozlaşdırmada - əsasən intuisiya və sadə ekstrapolyasiya metodları vasitəsilə - danışıqlar, razılaşmalar, beynəlxalq həyatın strukturu, hərbi xarakterli tədbirlər kimi yalnız bir neçə dəyişəndən istifadə edilir. Proqnozlaşdırma hər şeydən əvvəl diplomatik konyunkturanın müəyyən edilməsi üçün faydalıdır. O, taktiki planlaşdırma çərçivəsində normativ məqsədlər üçün uğurla xidmət etdiyi halda, tədqiqat məqsədi üçün bir qədər uğursuz görünür.

Qısamüddətli proqnozlaşdırmanın ən zəif tərəfi təsadüfləri qabaqcadan görə bilməməsidir. Üstün cəhəti isə gerçəkliyin özü isə nisbətən daha tez təsdiqlənmə imkanı və bununla da proqnozun veril-

məsi metodunun bu yolla təkmilləşdirilməsinin asan olmasıdır. Bu səbəbdən qısamüddətli proqnozlaşdırma xarici işlər nazirliklərinin müvafiq özəkləri tərəfindən tez-tez tətbiq edilir.

Orta müddətli proqnozlar üç ildən on ilədək olan zaman diapazonunu əhatə edir. Onlar qısamüddətli proqnozlara nisbətən daha hərtərəfli, onların hazırlanması isə daha asandır; həm tədqiqat həm də normativ proqnozlaşdırmaya xidmət edə bilsələr də, birinci məqsəd onlar qarşısında daha tez-tez qoyulur.

Uzunmüddətli proqnozlar on ildən artıq zaman müddətini əhatə edir. Hələlik, bu proqnozlar qərarların faktorlarından asılı olmayan proseslərin tədqiqi əsasında və ilk növbədə sadə və mürəkkəb ekstrapolyasiya metodlarından istifadə edilməklə hərbi-strateji planlaşdırmaya xidmət edir. Belə proqnozların stabilləşdirilmiş beynəlxalq sistemdə qənaətbəxş nəticələr verə bildiyini söyləmək olar. Qeyri-stabil beynəlxalq hadisələrin, proses və sistemlərin uzunmüddətli proqnozlaşdırılması kifayət qədər şübhəli nəticələr verə bilər və ya hətta ümumiyyətlə yararsız ola bilər.

### *1.2.2. Zaman gözləntiləri və proqnozlaşdırmanın məqsədi*

Proqnozlaşdırma ilə bağlı bir çox suallar müzakirə olunduqca ortaya yeni suallar çıxır: Necə etmək olar ki, proqnozlaşdırma zamanı müxtəlif növ proqnozlaşdırma metodları və bir-birinə bağlı prinsiplər imkanlarımızın genişlənməsinə kömək etsinlər? Hansı proqnozlaşdırma metodları başqaları ilə müqayisədə daha çox tətbiq olunandır? Fərqli proqnozlaşdırma metodları bir-birilərini necə tamamlaya bilərlər?

Bu suallara cavab vermək üçün biz proqnozun səbəbini və proqnozun həyata keçdiyi zaman kəsimini nəzərə almalıyıq. Proqnozun məqsədi layihənin ilkin tələblərini və dəyişkən maraqları müəyyənləşdirməkdir. Planlaşdırmaya və siyasətə yönələn proqnoz ilk öncə siyasətcinin idarə edə biləcəyi idarə olunan dəyişikliklərə diqqəti cəmləyir. Gələcək yüz illiyin beynəlxalq sisteminin başa düşülməsinə yönləndirilən proqnoz ilk öncə qisamüddətli prespektivdə stabil olan və manipulasiyaya gəlməyən ümumi struktur şəraitinə fokuslanacaq.

Birinci halda qısamüddətli proqnoza xüsusi diqqət ayrılır; ikinci halda isə uzun müddətli proqnoza diqqət yetirilir. Nəticələrin qiymətləndirilməsi üçün tətbiq olunan meyarlar kimi metodologiya və proqnozun tələbatları da fərqlənirlər. Bir nöqtədə cəmləşən müxtəlif proqnozlaşdırma modellərinin ətrafında zamanın dəyişkənliyi əhəmiyyətli təşkilat cihaz kimi qulluq edə bilər. Retrospektiv proqnoz vasitəsilə keçmişin analizi bizə gələcək haqqında və bizim qısamüddətli və uzunmüddətli analizlərimizin məğzi haqqında düşünməyə kömək edir. Müxtəlif proqnozlaşdırma metodları müxtəlif zaman kəsimlərinə uyğun gəlir.

Aşağıdakı şəkildə proqnozlaşdırma modelinin zaman prespektivi ilə əlaqələri göstərilir və müxtəlif proqnozlaşdırma metodlarının müxtəlif zaman kəsiminə və müxtəlif proqnozlaşdırma məqsədlərinə tətbiqi göstərilir.




**Şəkil 1.** Proqnozlaşdırma metodologiyasının inteqrasiyası: münaqişələrin təhlilinin təsviri

**Retrospektiv proqnozlaşdırma** (və ya bilinən məlumatlar üzrə proqnozlaşdırma) beynəlxalq əlaqələrdə mühim əhəmiyyət kəsb edir. Bu proqnozlaşdırmada keçmiş və gələcəyi düşünmək üçün faktlar təqdim edilir. İri həcmli dəyişməni və inkişafı proqnozlaşdırmaq üçün

beynəlxalq münasibətlər tarixində son əsrlər boyu sistemin dağılmasına (müharibələr kimi), inteqrativ proseslərə (ittifaqlar, icma formalaşması kimi), qlobal əməliyyatlara (beynəlxalq ticarət və investisiya kimi), qlobal və mədəni qarşıdurmalara (müstəmləkəçilik, klassik imperialism, etnik düşmənçilik kimi) və s. kimi saysız-hesabsız nümunələr vardır. Keçmiş gələcəyin açarı olmaya da bilər, lakin keçmiş də bir zamanlar gələcək olub. Bu cəhətdən baxıldıqda retrospektiv proqnozlaşdırma böyük əhəmiyyət kəsb edir.

Uzun müddətli proqnozlaşdırmaya (15 ildən 50 vəya 100 ilə qədər) ən yaxşı sistem dinamikası və ya iqtisadi analiz vasitəsilə yanaşıla bilər. Hər iki üsul qısamüddətli proqnozlaşdırmada tətbiq oluna bilər, lakin onların imkanları uzunmüddətli proqnozlaşdırma üçün əlverişlidir. Sistem dinamikası qeyri-xətti, iri miqyaslı sosial sistemlərin öyrənilməsinə funksional olaraq, modelləşməyə statistik yanaşma isə bundan fərqli olaraq mürəkkəb komplekslərin xətti yanaşmalara və parametr qiymətləndirilməsinə proqnozlaşdırmanın şərti kimi yanaşır. Hər ikisinin üstün və mənfi cəhətləri var. Seçim mövcud problemdən, araşdırmacının səbəbiyyət konsepsiyasından, onun bəhs olunan sistem ilə tanışlığından, nə qədər və hansı növ məlumata ehtiyac olduğundan və son olaraq, əmsalların sağlamlığından asılıdır. Bu sorğulardan təxmin etmək olur ki, tədqiqatçı nəzəriyyəni, sistemli proseduru və empirik analizi tətbiq etmək istəyir. Normativ proqnozlaşdırma və ya Delfi proseduru uzun müddətli proqnozlaşdırmanı qeyri-ciddi alternativlərlə təmin edir.

Qısa müddətli proqnozlaşdırmanın (sabah səhərdən 3 və ya 5 il müddətində) yerinə yetrilməsində proses qərarın təhlili, Markov prosesləri və hadisələrin analizindən ibarətdir. Bu metodlardan uzun müddətli proqnozlaşdırma üçün də istifadə etmək olar – alqoritmlər bu imkana mane olmurlar – amma onların imkanları qısamüddətli nəticələrin analizi üçün unikaldır. Əgər problem qərarın verilməsiylə bağlı qeyri-müəyyənliyin azalmasını əhatə edirsə, subyektiv vasitələrlə bir-başa olaraq tədqiqatın tərtibatını uyğunlaşdıran Bayesianın qısamüddətli proqnozlaşdırmaya yanaşması daha yaxşı xidmət edəcəkdir. Əgər problem qısa müddət daxilində dəyişkənlikləri əhatə

edirsə, bu zaman bir vəziyyətdən digərinə keçməsiylə bağlı olan ehtimalları müəyyən etməyə kömək etmək üçün tərtib olunan Markovun proqnozlaşmaya yanaşma modelləri daha uyğundur. Üçüncü yanaşma, qısamüddətli yanaşma, hadisələrin analizi, proqnoz verənin gələcək hadisələr baş vermədən onlar haqqında məlumat verən, əvvəlcədən xəbərdar edən etibarlı sistemləri inkişaf etdirməsinə imkan yaradır. Beynəlxalq zorakılıq partlayışları haqqında ilkin xəbərdarlıqlar tensiometrlər və münaqişə barometrləri vasitəsilə verilir. Əgər beynəlxalq vüsətdə etibarlı ölçüləri inkişaf etdirilərsə, gələcək haqqında indiyə kimi verilənlərdən daha sistematik şəkildə proqnoz verilə bilər. Bu tip proqnozlaşdırma hələ də təcrübi xassə daşıyır, amma son inkişaflar ümid vəd edir. İlkin xəbərdarlıq üçün tez-tez istifadə olunan alətlərdən biri də zorakılığın qarşısının alınması ilə əlaqədar olan dolayısı tədbirlər və millətlərarası qarşılıqlı əlaqələr üçün tərtib olunan ölçülərdir. Belə ölçülərin bir çox növləri vardır. Ən çox istifadə olunanın statistik analizi olduqca asanlaşdıran interval xassələrdir ki, proqnozlaşmanın məqsədinin təkmilləşdirilməsi üçün hadisələrin və fəaliyyətlərin təhlilinə tətbiq olunur. Proqnozlaşmaya bu cür yanaşma situasiyanın unikallığını nəzərə alır və gəribəliklərlə əlaqələndirir. Məsələn, normal münasibətə malik Kanada və ABŞ xətti 13 ballıq münaqişə şkalasında 2 vəya 3-ə bərabərdir. Lakin İsrail və Ərəblər arasında bu bal şübhəsiz 11-12-yə yaxındır. Biz əks tərəflər arasındakı münaqişənin ehtimalını proqnozlaşdırarkan eyni meyarları tətbiq edə bilmirik və proqnoz bu iki fərqli situasiyanı nəzərə almalıdır. Əgər ABŞ-Kanada münasibətləri münaqişə şkalasında 13 üzərindən 8-ə bərabər olarsa, bu dolayısı yollarla İsrail-Ərəb qarşılıqlı əlaqələrinin şkalada 8 civarında olmasından tamamilə fərqlənəcəkdir. Ilk halda proqnoz şiddətə meylliliyin artığına, ikincidə isə hərbi əməliyyatların azalmasına işarət edəcək. Lakin, uzun və qısamüddətli analizlər üçün beynəlxalq hadisələrin proqnozlaşdırılması həyata keçirilə bilər. Hadisələrin analizi ən çox qısamüddətli proqnozlaşdırmaya uyğundur. Milli davranışda hiss olunmayan dəyişmə haqqında çox həssas göstəricilərin əldə olunması mümkündür.

Bəs qısamüddətli və uzunmüddətli proqnozlaşdırma necə əlaqələndirilir? Daha uzun müddətli nəticələrə hansı formada fokuslanmadan asılı olmayaraq, sabah üçün proqnoz verilə bilərmi? Zaman prespektivləri arasında kəsişmə problemləri üçün bəzi əməliyyat açarları (problemin həll edilməsi üçün yollar) var. Problem situasiyanın parametrlərinin müəyyən edilməsini, dəyişənlərin parametrə çevrilməsi və əksinin təyin edilməsini, sistemdəki uyğunsuzluqların müəyyən edilməsi və onların nə vaxt qırılma nöqtəsinə çevrilməsini, eləcə də signal sistemindəki dəyişikliklərin müəyyənləsdirilməsini əhatə edir. Bu vəziyyətlər qısa müddətli situasiyalarda parametrlərə çevrilir. Lakin uzun müddətli olduqda, illər, onilliklər sonra onlar dəyişir və yeni göstərici və xarakteristikaya sahib olurlar. Proqnozun problemi budur ki: əgər biz dəyişənlərin parametrə çevrildiyi vəziyyətləri və bu dəyişmələrin niyə və necə baş verdiyini müəyyən etsək, bu zaman biz qısa müddətli mülahizələrin (münasibətlərin) uzun müddətli imperativlərə çevrilməsi problemini həll edə bilərik. Burada əsas metodoloji vəzifə bu məlumatların proqnozla əlaqələndərilməsindədir: proqnoz, nəzər yetirilən sistemdəki ehtimal olunan dəyişikliklər haqqında xəbərdar etməlidir. Digər diqqət mərkəzi kəsişmə probleminə, yəni qeyri-xəttiliklərə və qırılma nöqtələrinə yönəlir, sistem qırılmaları təhlilini əhatə edir. Qırılma nöqtəsi kəskin dəyişikliyi təmsil edir, lakin qeyri-xəttiliklər tez-tez şərti qeyri-xətti funksiyalar tərəfindən ələ keçirilə bilən təbiətə malik xəttiliklərdən daha mülayim gedişi ifadə edir. Qeyri-xəttiliklər əsasən dəyişənlər arasındakı funksional münasibətləri təmsil edir. Mürəkkəb sistemlər dəyişməyən qeyri-xəttiliklərdir. Xəttilik proqnozlaşdırılırsa və proqnoz avadanlıqları xəttiliklərin axtarılmasına yönləndirilirsə, bu zaman böyük ehtimalla düzgün olmayan proqnoz verilər. Ətrafdakı dünya mürəkkəb və qeyri-xəttidir. Standard statistik və intellektual avadanlıqlar ilə asanlasdırılmış təxminlərlə bu mürəkkəblik sadələşdirilə bilmir. Ancaq xəttiliklər axtarılarsa, qeyri-xəttiliklər müşahidə edilə bilər və onda sistemin dağılması haqqında düzgün olmayan nəticə çıxarıla bilər. Amma elə həmin anda da sistem qeyri-xətti olarsa, stabil, müntəzəm və adi davrana bilərdi. Dağılma nöqtələrinin müəyyənləşdirilməsi həddinə çatıldıqda situasiya bir çox

hallarda eyni qalır, sosial elmlərdə sistem dağılmalarına nəzarət edərkən dağılma nöqtələrinin qeyri-xəttiliklərlə qarışdırılması tendensiyası olduğuna görə biz sistem dağılması haqqında düzgün olmayan nəticəyə qarşı qorunmalıyıq. Bu belə ola da bilər, olmaya da bilər.

Beynəlxalq münasibətlərdə iriölçülü müharibələri bir qayda olaraq sistem dağılması kimi görməyə alışmışıq. Digər tərəfdən, diplomatik nümayəndəlik, ticarət dinamikası və ya birləşmiş strukturlar arasında dəyişiklikləri müvafiq qeyri-xəttilik və ya davamsızlıq kimi hesab edilir. Lakin, bu faktorların mənasını müəyyən edən mövcud qaydalar yoxdur. Sonuncu analizdə, dağılmalar və qeyri-xəttiklər situasiyaya bağlıdırlar və demoqrafik və ekoloji, teknixi inkişaf və tərəqqi, iqtisadi dəyişiklik, mövcud sosial və siyasi vəziyyətdən yayınma, mədəni dəyişiklik və dini və ya etik vəziyyətin daxil olduğu kritik beynəlxalq sektorların arasında qırılmaları əhatə edən dağılmaların və qeyri-xəttiliklərin müşahidəsi proqnozlaşdırma üçün vacibdir. Bunların hamısı iriölçülü makro xüsusiyyətlərdir və uzun müddətdə dəyişiklik kimi sayılırlar. Qısa müddətdə isə, dəyişiklik qaçılmaz olduğu halda sualda parametr rolunu oynayırlar. Dəyişiklik qaçılmaz olduğu halda və ya dağılma ortaya çıxdığı halda, bu xüsusiyyətlər qısa müddət üçün də uyğundurlar.

Kəmiyyət və keyfiyyət dəyişikliklərinə görə baş verən dağılmaları fərqləndirmək arzu olunandır. Məsələn, əhalinin ani artması və ya azalması nəticəsində baş verən dəyişikliklər sosial tələbata yeni ixtira və ya texnoloji yenilik kimi əhəmiyyət kəsb edən keyfiyyət dəyişmələrindən daha fərqli təsir edə bilər. Bu mühüm fərqdir. Bilinməyənlərin bir nöqtədə cəmləşməsi ilə qeyri-müəyyənliyin mürəkkəbləşməsindən bəri keyfiyyət və kəmiyyət dəyişiklikləri arasındakı əlaqə tədqiqatçı üçün çox çətinləşib. Sınmaların axtarıldığı nöqtələrin olması demək olar ki, tamamilə hal- hazırdakı problemdən və proqnozun dözümlülüyündən asılıdır. Bu doğrudur ki, belə sistem xüsusiyyətlərindəki dağılmalar bir qayda olaraq təsir funksiyasına malikdirlər. Bu zaman tədqiqatçı kənara çıxmaları nəzərdə saxlamalıdır.

Şübhəsiz ki, proqnoz üçün ən çətin məsələ sistemin dağılmasından daha dərinmənalı olan təbiətinin olmasını əhatə edir. Məsə-

lən, kəmiyyət baxımından beynəlxalq siyasət haqqındakı sonuncu araşdırmalalarda münaqişənin və müharibənin başlamasını əhalinin çoxalma sürətinin artmasına, texnoloji inkişafın tarazsızlığına və əsas vəsaitlərin əlçatan olması ilə əlaqələndirirdilər. Bu ümumi sosial faktorlar gündən-günə ortaya çıxan siyasət kontekstini və uzun müddətdə, əks tərəflərin mübarizələrinin aid olduğu münaqişəli situasiyanın parametrlərini təmin edir. Iriölçülü müharibələr sistem dağılmasını təmsil edir. Və sual onda ibarətdir ki, bu dağılmanı izləyən sistemin dəyişilməsi nədədir?

Əhaliyə, vəsaitlərə və texnologiyaya diqqətlə baxdıqda, siyasət, idarəetmə və strukrturlu baxışlar haqqında alternativ ssenarilərin cəmləmə ehtimalı ola bilər. İriölçülü dağılmaların baş verdiyi sistemlərin təbiətini müəyyənləşdirmək və belə analizlərə əsaslanaraq alternativ nəticələri qurmaq üçün siyasi demoqrafiya ardıcılları müharibənin əhalinin dinamikasına göstərdiyi təsiri araşdırmağa başlayırlar.

Məlumdur ki, məsələn, müharibələr tez-tez ölkələrin demoqrafik vəziyyətinə və bu da, öz növbəsində, sosial təminatın strukturuna təsir etdiyinə görə, proqnoz tərtibatına demoqrafik xarakteristikalarda potensial dəyişikləri əlavə edilə bilər. Həmin əməliyyat situasiyanın digər parametrləri üçün də edil-məlidir. Əgər sistemin gözlənilən normadan kənara çıxmalarını qeyd etmək üçün bəzi sistematik əməliyyatları irəlilədilərsə və bu əməliyyat əhalidən, vəsaitlərdən və texnologiyadan fərqli problemli sahələrdə ümumiləşdirilibsə, sistem qırılmalarından kənarda olan potensial nəticələr üçün proqnoz qurmağa başlanıla bilər.

Qısa müddətli və uzun müddətli proqnozlardan və onların kəsişməsindən əldə olunan nəticələri və məlumatı birləşdirəndə fərqli situasiyalarda verilən qərarlardan nəticə çıxarmaq olar. Sonra da həmin problemli sahələrə uyğun və verilən bütün zaman çərçivəsi boyunca proqnoz informasiyasını qeyd etməklə, uyğun informasiyanı və əlaqəli olan nəticələri ümumiləşdirən matrisi inkişaf etdirə bilərik. Belə ki, trendlərdən və proqnozlardan kənara çıxan kumulyativ və ya interaktiv təsirləri müayyənləşdirən kəsişmə metodu proqnozun bəzi potensial nəticələrini sistematik şəkildə göstərə bilər.

Bu xəttlər boyunca ətraflı proqnoz strukturu hər hansı xarici müdaxilə olmadan daxili sistem deyisikliklərinə görə cavabdeh olmağa imkan yaradır. Proqnozun ozü hər hansı zaman çərçivəsinə və analiz səviyyəsinə uyğunlaşır və struktur da, öz təbiətinə gorə, sistem dəyişikliyi üçün mümkün olan qərarvermə nöqtələrinin yerinə daxil olur. Bu tipli proqnozlaşdırma qabiliyyətləri proqnozlaşdıranın minimal iştirakını tələb edir. Proqnoza daxil olan faktorlar proqnozun nəticəsinə təsir etməməyinə görə bu cür asan mülahizə proqnoz strukturunun daxili doğruluğunu təsdiqləyir. Belə bir qərara gəlmək olar ki, proqnoz strukturundaki zəiflikləri müəyyənləşdirmək və tədqiqatçının iştirak etməyinə görə yaranan problemləri aradan qaldırmaq daha asan olardı.

Şəkil 1-də həm münaqişəli situasiyanın inkişafında fərqli mərhələrdə əsas faktorlar, həm də, nəticə olaraq, dəyişənlərin uzun-müddətli müayyən edicilərdən qısa-müddət göstəricisilərə çevrilməsi göstərilir. Şəkil 1 həmçinin hər bir inkişaf mərhələsinin anlaşılmasına ən çox kömək edən beynəlxalq münasibətlər nəzəriyyəsinin “adalarını” göstərir. Bu təsvir münaqişə dinamikası ilə yanaşı beynəlxalq munasibətlərdə hər hansı başqa bir problemə də aid edilir. Dəyişənlər, nəzəriyyə, metodoloqiya bir araya gətirilikdə, beynəlxalq gücün proqnozlaşdırılması üçün daha mürəkkəb bir struktur yaranır.

### 1.3. Beynəlxalq münasibətlərin proqnozlaşdırılmasında nəzəriyyənin rolu

Beynəlxalq münasibətlərin proqnozlaşdırılmasında nəzəriyyənin roluna aydınlıq gətirmək üçün ilk öncə beynəlxalq münasibətlərin nəzəri fənn kimi öyrənilməsinə qısa ekskur edək. Bu sahədə iki əsas mətn E. H. Karsın “İyirmi il böhran” (1939) və Hans Morqentaunun “Millətlər arasında siyasət. Hakimiyyət və sülh uğrunda mübarizə” (1948) nəzəri işləri üç əsas cəhətdən işlənmişdir. Bunların hər biri müxtəlif hadisələrdən irəli gələn beynəlxalq siyasətin mahiyyətini saflaşdıran təhlillərin geniş əsasını inkişaf etdirərək, nadir epizodlar kimi görünən ümumi qanunların əsaslarını başa düşmək üçün gələcək analitikləri, həmçinin proqnozlaşdıranları nəzəri vasitələrlə təmin etməyə çalışmış və hər biri hakimiyyət uğrunda mübarizənin əlamətdar oldu-

ğu ölkələrdə müvafiq siyasi fəaliyyət formalarında öz əksini tapmışdır. Onların məqsədi əsasında liberal layihənin durduğu beynəlxalq siyasətin təbiəti haqqında dərin anlaşılmazlıqları düzəltmək idi. Düşünürdülər ki, hakimiyyət uğrunda mübarizə beynəlxalq qanunlarla yumşaldıla bilər və şəxsi maraqlar ideyası ümumi təhlükəsizlik anlayışı ilə əvəz edilə bilər. Morqentau və Karra görə:

- beynəlxalq siyasi sistem heç də həmişə hakimiyyət və təhlükəsizlik uğrunda mütəmadi mübarizə ilə müşayiət olunmur;
- əsasən, hakimiyyət uğrunda mübarizənin tez bir zamanda uğursuzluqla başa çatacağı beynəlxalq sistem formalaşdırılacaq;
- əsaslı dəyişiklik gətirmək cəhdləri beynəlxalq münasibətlər problemini mürəkkəbləşdirməyə aparan təhlükədir;
- liberal beynəlmiləlçi dünyagörüşü iki dünya müharibəsi arasındakı illərdə böhrana səbəb olmuşdur.

Ötən əsrin 50-ci illərindən sonra müxtəlif ölkələrin bir çox alimləri, xüsusilə 1960-ci illərdə Amerikada, inanırdılar ki, Morqentaunun nəzəri əsasları həddindən artıq impressionist xarakterə malikdir. Burada tarixi illüstrasiyalar beynəlxalq münasibətlərin ümumi qanunları haqqında dahiyanə fərziyyələri reallaşdırmaq üçün yox, daha çox onları dəstəkləmək üçün istifadə edilmişdir. Nəticədə, xüsusi hipotezaların yoxlanılması, ümumi qanunların inkişafı və insanların davranışını proqnozlaşdırmaq üçün təbiət elmlərindən irəli gələn mürəkkəb metodologiyalardan istifadə edilən bu fənn iqtisadiyyatın öyrənilməsindən əhəmiyyətli dərəcədə geri qalmışdır. Elmi yanaşma tərəfdarları beynəlxalq siyasət haqqında yeni nəzəriyyə yaratmağa cəhd göstərdilər. Bəziləri bunu daha yaxşı izahat və yüksək səviyyəli dəqiq proqnozlaşdırma üçün edirdilər, digərləri isə bu elmin beynəlxalq siyasətin necə yaxşılaşdırılması yollarının başa düşülməsində açar rolunu oynayacağına inanırdılar.

1960-cı illərdə elmi dönüş əsas fənlərin müzakirəsinə gətirib çıxardı, Hedley Bull (1966) kimi alimlər iddia edirdilər ki, beynəlxalq siyasət elmi araşdırma üçün əlverişli deyildir. Bu nöqteyi-nəzər müx-

təlif intellektual layihələr işləmiş analitiklər tərəfindən geniş yayılmışdır. Radikal alim, Noam Chomsky iddia edir ki, beynəlxalq münasibətlərdə "tarixi şərtlər vahid formada tətbiq olunan "nəzəriyyə" adlandırıla bilən hər şey üçün olduqca müxtəlif və mürəkkəbdir". Beynəlxalq münasibətlərdə "post-pozitivizm" kimi tanınan cərəyan beynəlxalq münasibətlər elminin dəqiq və şüphəsiz faktların ekvivalent inkişafı üçün fiziki elmlərlə bağlı sübutetmə standartlarından istifadəsi ehtimalını rədd edir (Smith, Booth and Zalewski 1996). 1990-cı illərdə pozitivizm iddiaları ətrafında böyük mübahisələr meydana gəldi. "Fiziki" və "sosial" elmlər arasında fərq nə dərəcədə böyükdür sualı olduqca vacib məsələlərdən olsa da, lakin nəzəriyyənin xarakteri və məqsədi ilə bağlı mübahisələr də bir o qədər vacib idi. Bəzi siyasi maraqların lehinə və digərlərinin isə əleyhinə olaraq dünya siyasi baxışının formalaşmasına öz təsirini göstərdiyi üçün mübahisə, hətta son nəticədə "siyasi" nəzəriyyələr üzərində cəmləndi. O, fənnin əsas mərkəzində duran nəzəriyyə nədir və hansı məqsədlə daşıyır kimi bir çox çətin suallar doğurdu.

Zaman keçdikcə beynəlxalq münasibətlərin öyrənilməsində, təhlil və proqnozlaşdırılmasında müxtəlif nəzəri konsepsiyalar yarandı. "Elmi" yanaşmalar həlledici olaraq qalmaqdadır və nəzəri mülahizələr yürütmək prosesi, özü tədqiqat üçün həyati əhəmiyyətə malik obyektə çevrildi. Steve Smith (1995) iddia edirdi ki, bu fənn çərçivəsində "Beynəlxalq münasibətlərin hesabatlarına izahedici təklif axtaran nəzəriyyələr" və "bu reallığın təsisçisi olan nəzəriyyə" kimi baxılan perspektivlər arasında əsaslı bölünmə vardı.

Birincisi, təsisedici nəzəriyyələr beynəlxalq münasibətlərin öyrənilməsində böyük rola malikdir və bu mövzunun ak-tuallığı çoxdan öz əksini tapmışdır. Hələ 1970-ci illərdə Hedli Bull (1973) iddia edirdi ki: "Subyektin tarixi ilə yanaşı nəzəriyyə ilə də maraqlanmağımızın əsas səbəbi nəzəri fərziyyələr əsasında davam etdirilən və bizdən tədqiq olunmağı gözləyən beynəlxalq siyasətin müzakirələridir. Nəzəri tədqiqat institutu gündəlik beynəlxalq siyasətin vəsaitlərinin müzakirəsinə yönəlmiş ümumi fərziyyələrin müəyyənləşdirməsi, formalaşdırması, saflaşdırması və tədqiqinə istiqamətlənmiş minimum fəaliyyət-

dir. Maksimum fəaliyyət isə institutun nəzəri strukturu ilə bağlıdır: müəyyən fərziyyələrin doğru və ya yanlış, müəyyən dəlillərin həqiqi və ya yalan olmasını müəyyənləşdirməklə mökəm struktura malik elm yaradılır".

Bu sitat göstərir ki, Bull izahedici və təsisedici nəzəriyyənin beynəlxalq münasibətlərin öyrənilməsində (eləcədə proqnozlaşdırılmasında -G.İ.) zəruri olduğunu fikirləşirdi: hər iki cəbhədə dərketmə səviyyəsi artırılmazsa intellektual tədqiqat natamam ola bilər. Baxmayaraq ki, o, bunu 1970-ci illərin əvvəllərində yazmışdı, 10 il sonra sosial və siyasi nəzəriyyənin əlaqəli sahələrindəki inkişafın təsiri nəticəsində təsisedici nəzəriyyə bu fənndə daha mərkəzi yer tutmağa başladı. Bu illərdən etibarən, beynəlxalq nəzəriyyəyə olan marağın artması ilə, ədəbiyyatda üstünlük nəzəri problemlərə, xüsusilə təsisedici nəzəriyyəyə həsr edilmişdir. Təbii ki, nəzəriyyələşmə prosesinə olan bu nöqteyi-nəzər mübahisəsiz olmamışdır. Bəziləri iddia edir ki, nəzəriyyəyə olan həddən artıq qayğı "real dünya" problemlərinin tədqiqindən və siyasi aktuallığa olan məsuliyyət hissindən uzaqlaşdırır (Wallace 1996). Burada Keohanenin (1988) postmodernizmə qarşı olan fikirləri ilə bənzərlik vardır. Belə ki, o, empirik tədqiqatın mühüm sahələrində laqeydliyə səbəb olan sosial elmlər fəlsəfəsində olan problemlərin aradan qaldırılmasını irəli sürürdü. Bu arqumentin tənqidçiləri təsdiq edir ki, beynəlxalq münasibətlər haqqında nəzəri fərziyyələr deyilməmiş və ya müdafiəsiz olaraq qalmaqdadır, və xüsusilə inanırdılar ki, bu fənn beynəlxalq siyasi sistemi dəyişməyə can atan vətəndaş cəmiyyətinin aktorlarından çox dövlət üçün həyati əhəmiyyətə malik məsələlərlə bağlı olmalıdır (Booth 1997; Smith 1997).

Əslində isə təhlilər nəticəsində belə qənaətə gəlmək olur ki, nəzəriyyə adətən empirik araşdırma zamanı bir neçə funksiyaları həyata keçirir. Bu məlumatın alınmasını və saxlanılmasını təmin edir və axtarış vasitəsi olaraq tədqiqatçıya müvafiq suallar və məlumatların əldə olunmasında vasitəçilik edən xidməti göstərir. O, məlumatların yoxlanmasını asanlaşdırır, həmçinin nəzəriyyəçinin məqsədə müvafiq hesab etdiyini qoruyaraq fikrini onda cəmləyir. Məlumatın daxili

imkanları vasitəsilə nəzəriyyə məlumatı yeni ideya və konsepsiyalarla təmin edir.

Sosial elmlər nəzəriyyəsinin rəsmiləşdirilmiş və formalizə edilmiş prinsipləri qlobal gələcək haqqında düşünməyə və onun inkişafı üçün müəyyən işlərin görülməsi çərçivəsində əhəmiyyətli ipucları verir. Daha detallı olaraq, nəzəriyyə iki əsas tapşırığı nümayiş etdirir:

- o, qaydalar, təkliflər və müəyyən hallarda təsdiqlənmiş nəticələri müvafiq dəyişənlərlə tənqidi münasibəti təmin edir;
- o proqnozlaşdırmanın dəyərləndirilməsi kriteriyalarını və onun nəticələrinin qiymətləndirilməsini təmin edir.

Bu kriteriya həmçinin proqnozlaşdıranın "həqiqətləri" dərk etməsini özündə daşıyır, yəni, bir çox nəzəri şərhləri aydınlaşdırır və daha sonra aydın şəkildə onu başqa insanların başa düşdükləri və əldə etdikləri nəticələrlə əlaqələndirərək onları uyğunlaşdırır.

Qısaca olaraq, nəzəriyyə düşüncəyə, düşüncə də proqnoza yönəldilir. Nəzəriyyəsiz proqnoz boş bir məhfumdur. Nəzəriyyə vasitəsilə proqnoz elmi ölçülər əldə edir. Və metodoloji sual olan proqnoz necə verilməlidir ki, öz yerini xüsusi perspektivlə əvəz edir. Beynəlxalq münasibətlərdə ən azı 5 analiz səviyyəsi mövcuddur. Bu təhlil səviyyələrində sosial elm nəzəriyyəsi proqnoz üçün əhəmiyyətli ipucular gətirir və mövcud bilik proqnozlaşdırma tərtibatını sistematik baza ilə təmin edir.

Biz müxtəlif vəziyyətlərdə fərdlərin davranışı haqqında nələrsə bilirik. Bu zaman psixoloji nəzəriyyə idrak proseslərinə əsaslanan ölçülərlə və daxili mühitə psixoloji adaptasiya mexanizmləri ilə zəngindir. Biz qrupların idarə olunması və sosial davranış, qrup munasibəti, iqtisadi münasibət, siyasi davranışın daxil olduğu sosial sistemlər haqqında nələrsə bilirik. Bizim həmçinin böyük anlam kəsb edən millət- dövlətlər arasında olan qarşılıqlı münasibətlər haqqında da məlumatımız var. Bununla yanaşı olaraq biz ekoloji sistem, demoqrafik sistem və sairəyə əsaslanan geniş əhali kütləsinin sosial təsirləri haqqında məlumata malikik. Sonda, bizim bu səviyyələrin qarşılıqlı

əlaqəsinə əsaslanan, ümumi nəzəriyyə sistemi olan və ya daha operativ olan dinamik sistem haqqında ilkin nəzəri inkişaflarımız vardır.

Bu səviyyələrin hər birində sosial elm nəzəriyyəsi formalaşmış insan davranışının prinsiplərinin inkişafında əhəmiyyətli yollar yaradır. Lakin, hələ də görülməmiş işlər qalmaqdadır. Məqsədlərin proqnozlaşdırılması üçün bu cür düşüncə olduqca vacibdir. Lakin proqnoz nəzəriyyəni inkişaf etdirmək və yoxlamaq üçün də bir vasitə olaraq istifadə edilə bilər. Bir çox hallarda simbiotik əlaqə elmi görülmə olan proqnozla, fərdi və sosial davranışlarla izah edilən, formalaşmış anlama olan elmi nəzəriyyə arasında mövcud olur.

Beynəlxalq əlaqələrin məzmununa nəzər yetirdikdə, sosial elm nəzəriyyə daxili – sosial qarşılıqlı əlaqələrin anlaşılması istiqamətində mühüm ipucları verir. Bu ipucları şərti olaraq beynəlxalq əlaqələr nəzəriyyəsi kimi nəzərdə tutulur. Beynəlxalq əlaqələrdə olan mühüm nəzəri inkişaflar beynəlxalq "həqiqətləri" sadə və ənənəvi məzmun əsasında analiz etməklə məşğul olan elm adamlarından deyil, insan davranışının və sosial ictimai əlaqələrin ölçüləri haqqında bir tədqiqatçı olaraq sosail elmlər və beynəlxalq əlaqələr arasında olan bütün məhdudiyyətləri dəf edən, bu işlə davamlı məşğul olan alimlər tərəfindən hazırlanmışdır. Bu ümumiləşdirilmiş cəhdlərdən beynəlxalq əlaqələrə - keçmiş, indiki və gələcək üzrə olmaqla mühüm fikir gətirirən bir çox "nəzəriyyə adaları" yaranır.

Milli attribut və imkanlara siyasi təsirlər, milli davranışa tətbiq olunan sistematik məhdudiyyətlər, milli məqsəd və maraqlar, silahlanma ilə bağlı və digər bu kimi formada olan yarışlar, sistem dəyişikliyi və s. haqqında "beynəlxalq münasibətlər" nəzəriyyəsi az saydadır. Yuxarıda qeyd etdiyimiz kimi bu cür nəzəriyyələr əvəllər işlənmiş olsa da, ortaya bəzi qismən əldə olunmuş nəticələri və qiymətləndirmələri qoyur. Gələcək haqqında dəyərli düşüncəyə sahib olmanın beynəlxalq münasibətlər nəzəriyyəsinə əsaslanması üçün davamlı işlər görülməlidir.

Nəzəriyyənin araşdırıması üçün hər hansı bir model götürülməlidir. Modelin ən vacib məqsədi proqnozun məqsədindən və araşdırmasnın arzuolunan ciddiliyindən aslılı olaraq əməliyyatı struktur-

laşdırmaqdır. Şifahi və funksional modellərlə müqaysədə statistik, riyazi, və simulasyon modellər nəzəriyyəyə kompleks şəkildə yanaşır və gələcək haqqında düşünüb qərar verməkdə daha dəqiqdir.

Yəqin ki, proqnozun ən önəmli nəzəri probleminə səbəbli əlaqələr daxildir. Səbəblilik haqqında inamlar metodologiyanın geniş bir hissəsini müəyyən edir, biri proqnozu qəbul edir, başqası isə onun bir çox dəyərlərə əsaslanan mahiyyətini seçir. Səbəbliliyin ən az beş müxtəlif konsepsiyası vardır. Onların hər biri beynəlxalq həqiqətlərin mövcud olduğu interpritasiyalara söykənir. Ən ümumi görünüş vaxt gözləntisini əhatə edir, biri digərini izləyir. Lakin bu nisbətən sadə anlayışdır və alimlər bunu assimetrik əlaqələr şəklində olmasının daha realistik olduğu ilə razılaşırlar. Digərləri iddia edirlər ki, əlaqələr təkyönlü və ya rekursiv əlaqələri özündə birləşdirir və bu səbəblilik, belə anlayış olaraq qarşılıqlı asılılıqları əhatə edir. Əksinə olaraq, başqa bir qrup tədqiqatçılar məsələ ilə bağlı fərqli mövqe göstərərək mübahisə edirlər. Onlara görə sinxron əlaqələr səbəblilik anlayışı ilə zidiyyət təşkil etmir və “real” dünya bu qəbildəndir. Belə fərqlənən baxışları daxil etmək, qarşılıqlı asılılıqların səbəbliliyi, eləcədə, təkyönlü əlaqələr ifadəsi haqqında daha çox araşdırmaya cəhdlər edilməlidir. Razılaşma reallığın görüntüsü olan rekursiv blokdan aslıdır. Bu münasibət ehtimal edir ki, yerli domen daxilində, səbəb əlaqələri təkyönlüdür, lakin, əlaqələrin lokallaşdırılmış sistemi sinxron asılılıqlar tərəfindən nəhəng strukturlarla xarakterizə olunanlarla əlaqədardır. Belə ki, bu son baxışa əsasən, beynəlxalq əlaqələrdə təkyönlü təsirlərin – sistemdən liderliyə və nəhayət xarici mühitə qədər- yerli sistemləşdirilməsindən ibarət olan xarici siyasətin daxili mənbəyi bu yerli əlaqələr istisna olmaqla, təsirlənmişdir və bunlar da daxili mülahizələri özündə əks etdirir. Bu yolla, beynəlxalq əlaqələrin rekursiv blok baxışı özündə qarşılıqlı və birgə asılılıq ifadə edən təkyönlü səbəb konsepsiyasını əhatə edir.

Səbəbin bu müxtəlif baxışları araşdırma problemlərini və proqnozun tərtibinə yanaşmaları diktə edir və öz növbəsində metodologiyanın seçimini müəyyən edir. Lakin bu səbəb həm də proqnozun məqsədi ilə sıx əlaqəlidir və vaxt perspektivini birləşdirir. Əgər

kimsə sabahkı səhərin gəlirləri ilə maraqlanırsa, səbəbin rekursiv blok baxışını seçib onu metodologiya ilə əlaqəli etmək heç də optimal yanaşma deyil. Sabahkı gəlirlərin izlənməsi ən yaxşı təkyönlü perspektivlə aparılmalıdır, yaxud da, vaxt birinciliyinin vurğulanması ilə reallığın görünüşü müşahidə edilə bilər.

Nəticə olaraq, səbəbə əsaslanan müxtəlif modellər və perspektivlər fərqli məqsədlərə qulluq edirlər və bu bizim nəyə necə baxmağımızdan asılıdır, proqnozlaşdıran bir modelin uyğunluğunu seçərkən bunu qiymətləndirməlidir. Bizim bacardığımız beynəlxalq əlaqələrdə bu prerekvezitlərdən lazımı şəkildə istifadə etdikdə real qiymətləndirilir.

### *1.3.1. Müxtəlif proqnozlaşdırma nəzəriyyələri*

**M.Ş.Panarin** dünya ədəbiyyatına ilk sosiomədəni yanaşmaya əsaslanan beynəlxalq proqnozlaşdırılması nəzəriyyəsini hazırlayıb. O hesab edir ki, beynəlxalq proqnozlaşdırılma mədəni ənənələrdə, dəyərlər və arxetiplərdə əsası qoyulmuş və sonra da demək olar ki, müxtəlif ictimai-siyasi gerçəkliklərdə təcrübi reallaşdırılan gizli genetik proqramların açılmasını müəyyən edir.

**Y.V. Yakovets** sivilizasiyalı yanaşmaya əsaslanan tədqiqatlarında qloballaşmanı müasir beynəlxalq proqnozlaşdırmada əsas problem hesab edir. Müəllif 2050-ci ilə qədər lokal sivilizasiyaların dördüncü nəslinin, əhalinin say dinamikasının meyllərini və onunla bağlı ekoloji problemləri, qlobal iqtisadiyyatda radikal dəyişiklikləri, postindustrial texnoloji istehsal üsulun yayılmasını və formalaşmasını araşdırır. O qloballaşma şəraitində hakimiyyət münasibətlərində struktur təbəqələşmə məsələlərini, sivilizasiyalararası münasibətlərin geosiyasi və sosiomədəni aspektlərini, sosial stratifikasiya və sosial mobillik problemlərini qlobal miqyasda və uzunmüddətli perspektivdə nəzərdən keçirir.

**V.İ.Pantin** beynəlxalq proqnazlaşdırmaya əsas yanaşmanı tarixi inkişaf ənələrinin təhlili əsasında tədqiq edir. O proqnostik nəticələrini XXI əsrin birinci yarısı Rusiya və digər ölkələrin inkişafı əsasında sosial-siyasi dinamikanın ritm və dövrlərini tədqiq edərək vermişdi.

**V.F.Linin** tədqiqatları ümumiləşdirici xarakter daşıyır, onların məqsədi müasir beynəlxalq proqnazlaşdırma barədə daha tam və sistemli məlumat verməkdir.

Li Fi beynəlxalq proqnazlaşdırmanın müxtəlif metodlarına və yanaşmalarına baxır, onların xüsusiyyətlərini, bu və ya digər xarici siyasət kursunun zəif və güclü cəhətlərinin formalaşması və həyata keçirilməsini, gələcək reallığa uyğunluq dərəcəsini fərqləndirir. Məsələ ilə bağlı qloballaşmanı nəzərə almayan proqnostik ssenariləri tənqid edir.

**İ. Vallerstayn** müasir kapitalizmin bu gününü və gələcək vəziyyətini şərh edir. Onun fikrincə müasir dünya kapitalist sistemin, digər sistemlər kimi əvvəli olduğu kimi sonu da olacaq. İ. Vallerstayn öz proqnostik ssenarilərində təsdiq edir ki, kapitalizmin qlobal genişlənməsi, bütün dünyanın bir dünya iqtisadiyyatına inteqrasiyası qlobal silkələnməyə bir xəbərdarlıqdır, belə ki, "xarici ekstensiv ekspansiyaların mümkünlüyü" tükənib.

**S.Hantinqton** "Sivilizasiyaların toqquşması və yeni dünya nizamı" əsərində gələcəkdə sivilizasiyaların toqquşmasının qaçılmaz olduğunu və bu toqquşmanın bütün dünyada qlobal konfliktlərin başa çatdığı faza olacağını göstərir.

BM-də aktorların davranışını müəyyən edən və proqnostikada geniş istifadə edilən **oyunlar nəzəriyyəsini** nisbətən ətraflı təqdim edirik.

**Oyunlar nəzəriyyəsi**

Oyunlar nəzəriyyəsi BM-də qərar qəbul edlməsi proseinin öyrənilməsinin ən geniş yayılmış metodlarından biridir. Oyunlar nəzəriyyəsi rasional fəaliyyətin, davranışın modelidir və "oyun" məfhumunun insan fəaliyyətinin bütün növlərinə şamil edildiyi konkret sosial kontekstdə qərarların qəbul edilməsi nəzəriyyəsidir**.** Ehtimal nəzəriyyəsnə əsaslanır və təhlil modellərinin təşkil edilməsindən və ya xüsusi situasiyada olan aktorların müxtəlif əxlaq tiplərinin proqnozlaşdırılmasından ibarətdir. Rapport və T.Şellinq bu nəzəriyyəni münaqişələr, danışıqlar, silahlanma üzərində nəzarət, qorxutma strategiyası kimi beynəlxalq

fenomenlərin öyrənilməsnə şaml etmişlər. Oyunlar nəzəriyyəsi vasitəsilə insanların faktiki və proqnozlaşdırılan fəaliyyətləri, həmçinin onların optimal strategiyaları öyrənilir.

Bu nəzəriyyə Con fon Naufman və Oskar Morqenşternin 1944-cü ildə "Oyunlar nəzəriyyəsi və iqtisadi fəaliyyət" adlı əsərinin çap edilməsindən sonra riyaziyyatın bir qoluna çevrildi. Əsərdə cəmi sıfıra bərabər olan iki nəfərə oyunların optimal həlli yollarının tapılması üçün metod təqdim edilmişdir. Beynəlxalq siyasətdə oyunlar nəzəriyyəsinin əhəmiyyətini ilk dəfə Morqenştern, Karl Doytç və Maykl Şubik göstərdilər.

Oyun məfhumu hər bir iştirakçının (aktor) ən böyük üstünlük uğrunda mübarizə apadığı situasiyanı xarakterizə edir. Hər bir oyunda **maraqların toqquşması** baş verir. Maraqların toqquşması beynəlxalq münasibətlər sahəsində tez-tez özünü biruzə verir. Oyun situasiyasında hər bir iştirakçı digər iştirakçının atacağı addımla maraqlanır. Oyunlar nəzəriyyəsinin *məqsədi* müəyyən sosial situasiyalarda rasional fəaliyyəti xarakterizə edə biləcək və bu fəaliyyətin ümumi cəhətlərini müəyyən edə biləcək prinsipləri aşkar etməkdir. Rasional fəaliyyət beynəlxalq münasibətlərdə hər bir aktorun müəyyən dəyərlərinin və məqsədlərinin olmasını və onun bunlara əsasən səhvsiz hərəkət etməsini göstərir. Aktorlar riyazi formulaların əsasında qərar qəbul edirlər.

Beləliklə, oyunlar nəzəriyyəsi təhlil metodu olmaqla yanaşı mümkün istiqamətlərdən ən optimal olanın seçilməsini təmin edir.

Oyunlar nəzəriyyəsi bu və ya digər situasiyada hansı seçimin daha rasional olmasını müəyyən edir. Digər faktorlar nəticəyə təsir etdiklərinə görə nəticəni törədən bütün səbəblərə nəzarət etmək mümkün olmadıqda, seçimin alternativ variantları arasında oyunlar nəzəriyyəsi riyazi model vasitəsilə ən optimal variantı müəyyən edir.

Oyunlar nəzəriyyəsinin çərçivəsində üç növ: eyni, əks və qarışıq maraqlarla oyun vardır.

1. Eyni maraqlarla olan oyunlar. Bu, rasional oyunçular arasında əməkdaşlığa əsaslanır, amma tam əməkdaşlıq mümkün deyil.

2. Əks maraqlarla olan oyunlar. Bu oyunlarda oyunçular əməkdaşlığın heç bir mümkünlüyünü görmürlər

3. Qarışıq maraqlarla olan oyunlar. Belə oyunlarda həm əməkdaşlıq, həm də münaqişə mümkündür.

Oyunlar nəzəriyyəsi oyunları bir neçə kateqoriyalara bölür (bölgünün əsasında tətbiq edilən konkret metodlar durur):

1. Cəmi sıfıra bərabər olan oyunlarda (zero sum games) hər bir oyunçunun müəyyən sayda strategiyası vardır.

2. Oyunçulardan heç biri seçimini rəqibə bildirmir. Bu oyunda bir oyunçunun qazancı başqasının itkisinə bərabərdir. Oyun iki tərəfli beynəlxalq münasibətlərin öyrənilməsinə uyğun gəlir. Oyunçuların sayı çoxaldıqda strategiya dəyişərək n nəfərli cəmi sıfıra bərabər olan oyunlara çevrilir. Bu halda oyunun nəticələrini oyunçuların itkilərinin və qazanclarının əsasında hesablamaq mümkün deyil. Oyunçuların sayı çox olduğu şəraitdə oyunçuların qruplaşması müşahidə olunur. Qruplara bölünən oyunçular özlərinin üstünlüklərini təmin etməyə can atırlar.

2. Cəmi sıfıra bərabər olmayan oyunlar (non-zero sum games). Biznes və siyasət sahəsində misalların əksəriyyəti cəmi sıfıra bərabər olmayan oyunlardır. Çünki burada bir tərəfin əldə etdiyi qazanc digər tərəfin itkisinə bərabər olmur və buna görə də əldə olunan nəticələrin cəmi sıfırdan çox, yaxud az olur. Burada tərəflərarası münasibətlər münaqişə ilə bərabər əməkdaşlıqla da xarakterizə olunur. Misal üçün biznes sahəsində bağlanan müqavilələri göstərmək olar. Bir çox hallarda belə müqavilələrdən hər tərəf faydalanır.

3. Əməkdaşlıq oyunları. Əməkdaşlıq oyunları məcburi müqavilə ilə xarakterizə olunur. Əməkdaşlıq oyunları nəzəriyyəsi həyata keçirilə bilən müqavilələrin təsdiqlərini təqdim edir.

4. Aksiomalı sövdələşmə. Müqavilə imzalayan tərəflər istədikləri paylara dair sövdələşə bilərlər. Aksiomalı sövdələşmə nəzəriyyəsi payın miqdarının tərəflər üçün məqsədəuyğunluğunu müəyyən edir. Lakin bəzən bu miqdar tərəfləri qane etmir və onlar paylarının artırılmasını tələb edirlər.

5. Tam məlumatın olması oyunları. Bu oyunda hər bir oyunçu eyni məlumata malikdir. Misal kimi şahmat oyununu göstərmək olar. Poker oyunu isə bunun əksidir.

Oyunlar nəzəriyyəsinin real zəifliyi ondadır ki, o, yalnız iki nəfərli (cəmi sıfıra bərabər olan) oyunlarda uğurla tətbiq edilə bilər. Tomas Şellinq cəmi sıfıra bərabər oyunların beynəlxalq münasibətlər sahəsində tətbiqinin mümkünlüyünü şübhə altına qoyur. Onun fikrincə, beynəlxalq münasibətlərin mahiyyəti münaqişədə və qarşılıqlı asılılıqdadır. Bu isə münaqişə edən tərəflərdən bir qədər əməkdaşlıq etməyi və birgə yaşamağı tələb edir. Alternativlər çox olduğuna görə sövdələşmə də zəruri olur. Cəmi sıfıra bərabər olan şəraitlərin beynəlxalq həyatın reallığından daha çox müharibə situa-siyaları üçün aiddiyyatı vardır.

Lakin beynəlxalq münasibətlərin məzmunu tək müharibə ilə məhdudlaşmır. Başqa sözlə desək, beynəlxalq münasibətlərin sahəsinə aid olan bir çox hadisələri cəmi sıfıra bərabər olan oyunlar vasitəsilə izah etmək qeyri-mümkündür. Belə olan halda digər oyunlara da xüsusilə "cücənin oyunu" və "məhbus dilemmasına" müraciət etmək məqsədəuyğundur.

### *1.3.2. Beynəlxalq münasibətlər sahəsində proqnozlaşdırma nəzəriyyələrinin müasir istiqamətləri*

Müasir beynəlxalq proqnozlaşdırma nəzəriyyələrinin təcrübədə beynəlxalq münasibətlərlə əlaqəsinin tətbiq edilməsi cəhdlərinin göstərildiyi sektorlara nəzər salaq.

**1**. Birinci sektor uzun illər Avropa, ABŞ, Çin, Yaponiya, Rusiya və s. ölkələrin proqnozlaşdıranlarının məşğul olduğu beynəlxalq iqtisadi münasibətlərin inkişafının proqnozlaşdırılmasını əhatə edir.

**2**. İkincı sektor elm və texnika ilə bağlıdır.

**3**. Üçüncü sektora Qərbdə bir tərəfdə strateji vəziyyətin, digər tərəfdə isə, demək olar ki, avtomatik, pasifistcəsinə başa düşülən "dünyanın struktur" inkişafının ayrı-ayrılıqda proqnozlaşdırılmasına üstünlük verilən dünyanın ümumi problemləri daxildir.

Bu üç sektordakı proqnozlarla bağlı eyni zamanda ölkələr arasındakı münasibətlərin, beynəlxalq inteqrasiyanın müxtəlif tipləri, perspektivləri, milli strukturlarında formalarının dəyişməsi, qloballaşma şəraitində informasiyanın, eləcə də beynəlxalq həyatın təşkili və inkişafının qabaqcadan müəyyən edilməsi cəhdləri də meydana çıxır.

Gələcək beynəlxalq qərarların qəbul edilməsinə mühitin təsiri mövzusunda proyeksiyalar da formalaşdırılır. Beynəlxalq proqnostikanın yeni sektorlarının formalaşması haqqında danışa bilmək üçün bu problemlərdən heç biri kifyət qədər uğurlu proqnozlara nail ola bilməmişdir.

Beynəlxalq münasibətlər sahəsində proqnozlaşdırmanın üç sektoru beynəlxalq proqnostikanın inkişafı imkanlarından və onun yeni yaranmış və natamam inkişaf mərhələsindən xəbər verir. Hər bir tətbiqi elm hər şeydən əvvəl konkret tədqiqatlar sayəsində inkişaf edə bilər. Bu, beynəlxalq proqnostikaya da aiddir. Lakin mövcud tədqiqatlar beynəlxalq proqnozlaşdırmanın elmiliyini təsdiq edirmi? Qloballaşma şəraitində, xüsusilə kommunikasiya sahəsində, gələcəkdə də milli proqnostikalardan asılı olaraq qalacaq və ya onlardan ayrılacaqmı? Bu suallara birmənalı cavab vermək çətindir. Beynəlxalq proqnostikanın inkişafının hazırkı mərhələsində əldə edilmiş uğurlara nəzərə saldıqda aşağıdakıları qeyd etmək olar:

-Beynəlxalq proqnostika beynəlxalq münasibətlərin kəmiyyət faktorlarının üstünlük təşkil etdiyi sektorlarında inkişaf etsə də, keyfiyyət faktorlarının üstünlük təşkil etdiyi sektorlardan yan keçir;

-Beynəlxalq proqnostika tədqiqatların kəmiyyət yanaşmalarının asanlıqla həyata keçirildiyi sektorlardan başlaması, bu sahələrdə proqnozlaşdırmanın mümkün olduğunu sübut edir;

-Bundan əlavə, bu sahələr vasitəsilə proqnozlaşdırma milli proqnostikaların təcrübəsindən qismən istifadə edir.

Beynəlxalq proqnostikada diqqətin iqtisadi problemlərə, elm və texnikanın inkişafına və dövlətlər arasında sülh münasibətlərinin inkişafı üzərində cəmləşməsi bu proqnostikanın həm maddi, həm də metodiki cəhətdən milli proqnostikalarla əlaqə və asılılığını göstərir.

Beynəlxalq proqnostikanın hələlik məhdud olan əhatə sahəsi:

-dövlətlərin iqtisadi və müəyyən mənada, hərbi-strateji formalarda təsiri tələblərinin yalnız bir hissəsini təmin edir;

-kəmiyyyət faktorlarının üstünlük təşkil etdiyi diplomatik formalarda təsirlərin tələblərinə isə tamamilə cavab vermir;

-polistrategiya üçün yararlı deyil.

Beynəlxalq proqnostikanın əsas istiqamətləri (London Strateji Araşdırmalar İnstitutu) tətbiqi araşdırmalar formasında inkişaf edir. Fundamental tədqiqatlar ikinci dərəcəli yer tutur. Beynəlxalq proqnostikanın inkişafında real sıçrayış aşağıdakılar paralel həyata keçirildikdə baş verə bilər:

a) tədqiqatların müasir beynəlxalq münasibətlərin ən yeni inkişafının gedişində iqtisadi və hərbi-strateji təsir formaları ilə müqayisədə daha dinamik rol oynayan xarici siyasi təsirlərin bütün formalarına yayılması;

b) tədqiqatların kəmiyyət faktorlarının üstünlük təşkil etdiyi müasir beynəlxalq münasibətlərin adı çəkilən sahələrinin ən yeni inkişafı üçün əhəmiyyət kəsb edən (ekologiya, əhali artımı, terrorizm, su resursları, xammal, silahlanmanın azaldılması və s. kimi) yeni sektorları əhatə etməsi

c) xüsusilə beynəlxalq proqnostikanın metodologiyası ilə bağlı, həmçinin, tədqiqatların bütün diplomatik və iqtisadi təsir formaları və hərbi-strateji təsirlərin yeni sektorlarını əhatə etməsini asanlaşdıran və sürətləndirən və elmi beynəlxalq proqnostikanın formalaşmasına imkan yaradan, keyfiyyət faktorları əsasında analiz və təkliflərlə əlaqədar fundamental tədqiqatların genişləndirilməsi.

Göstərilən şərtlərin yerinə yetirilməsindən sonra beynəlxalq proqnostikanın inkişafında baş verəcək sıçrayış hazırda həyata keçirilən tədqiqatların diapazonunun və istiqamətlərinin əhəmiyyətli dərəcədə genişlənməsi deməkdir. Qeyd etmək lazımdır ki, Rusiya Federasiyası Moskva Dövlət Beynəlxalq Münasibətlət İnstitutunun Hərbi Siyasi Tədqiqatlar Mərkəzinin “Beynəlxalq münasibətlərin strateji proqnozlaşdırılması” adlı kollektiv monoqrafiyası (2016) BM-in proqnozlaşdırılmasnın nəzəriyyə və praktikası sahəsində, xüsusilə də hər-

bi-strateji təsirlərlə bağlı geniş miqyaslı əsaslı tədqiqatların nəticəsidir və fikrimizcə bu beynəlxalq proqnostikanın inkişafını sürətləndirəcək.

Gələcək beynəlxalq münasibətlərin proqnozlaşdırılması sahəsindəki konkret tədqiqatlar hələlik proqnozların həqiqətə uyğunluq dərəcəsindən və səhvlərin mövcudluğundan asılı olmayaraq həyata keçiriləcək və elmi beynəlxalq proqnostikanın quruluşu proqnozların həqiqətə uyğunluğu dərəcəsini artıra və səhvləri isə azalda, bunun nəticəsində isə proqnostik analizin operativ tətbiqinə tələbatı artırıla bilər.

*Müasir proqnostikada aşağıdakı istiqamətlər daha aydın seçilir*: Siyasi realizm, idealizm, modernizm, transnasionalizm, neomarksizm**.**

***I. Siyasi realizmin*** məşhur nümayəndələri: Reynhold, Nibur, Fredrik Şuman, Corc Kennan, Corc Şvarçenberqer, Kennet Tompson, Henri Kissencer, Edvard Karr, Amold Uolfers və s. Bu istiqamətin şübhəsiz liderləri Hans Morqentau və Ramon Arondur. Realizmin məqsədi öz dövlətinin gücünü möhkəmləndirmək və digər dövlətin gücünü zəiflələtməkdir. Diplomatiya hakimiyyət uğrunda sülhün mübarizəsidir. Dövlət tərəfdarları dövləti dünya siyasətnin əsas subyekti olaraq  qəbul edirlər.

***II.İdealizm*** hüquqi tənzimləmə və beynəlxalq münasibətlərin demokratikləşdirilməsi, əxlaq və ədalət normalarının onlarda tətbiq edilməsi yolu ilə dünya dövlətləri arasındakı müharibə və silahlı münaqişələrə son qoyulmasının zəruriliyinə və mümkünlüyünə inamdır. İdealizmin əsas məqsədi dünya müharibələri və dövlətlərarası müharibələrə son qoymaqdır. Bu istiqamətin banilərindən biri V.Vilsondur: Millətlər Liqasının yaradılması proqramı, beynəlxalq münasibətlərdə gücün tətbiqindən imtina haqqında Brian-Kelloq paktı, həmçinin ABŞ-ın güc yolu ilə əldə edilmiş istənilən dəyişikliyin diplomatik tanınmasından imtina etdiyi Staymson doktrinası. Sonralar bu nəzəriyyə dövlət katibi D.F. Dallesin, prezidentin milli təhlükəsizlik üzrə köməkçisi Z.Bzejinskinin, prezidentlər C.Karter və C. Buşun mövqelərində və R.Klark və L.B. Sonun əsas diqqətin BMT-yə yönəldildiyi "Dünya hüququ vasitəsilə nailiyyət" əsərində öz əksini tapmışdır.

***III. Modernizm*** və ya "elmi" istiqamət beynəlxalq münasibətlərə elmi prizmadan yanaşır. Bu istiqamətin tərəfdarları: K.Rayt,

M. Kaplan, K.Doyç, D.Sinqer, K.Xolstin və başqaları. Modernizmin əsasında siyasi qərarların qəbul edilməsində dövlət fəaliyyətinin praktik modelləşməsi durur.

***IV. Transnasionalizm***. Nümayəndələri R. Koxen, C.Nay, E. Xaas, D. Mours olan bu cərəyanın mahiyyəti beynəlxalq münasibətlərin öyrənilməsində mikrososial paradiqmadan ibarətdir.

Əsas dövlətin ərazi sərhədlərindən asılı olmayaraq baş verən və onun xarici siyasətinin mərkəzi orqanları tərəfindən nəzarətdən kənarda yerləşən əlaqələrinə, qarşılıqlı təsirlərə, koalisiyaların təhlilinə diqqət verildi.

***Transnasionalistlər (R.***Koxen) qloballaşmaya dövlət sərhədləri vasitəsi məlumatın, pulun, əşyaların, insan və digər maddi və qeyri-maddi obyektlərin hərəkəti kimi baxır və qlobal qarşılıqlı təsirin 4 əsas tipini təhlil edərək qeyd edir ki, beynəlxalq fəaliyyətin əksər növləri qloballaşmanın 4 tip qarşılıqlı təsirini eyni vaxtda özünə daxil edir. Onlar dünya siyasətində transmilli qüvvələr, qarşılıqlı təsir və bu əlaqələrdə baş verən dəyişikliklərdə dövlətin rolun mütləqləşdirirlər. Nay və Kohen**ə** görə bu məsələyə minimum "nəzarətin ititirlməsi" termini altında baxılması həm siyasi, həm də nəzəri planda prespektivsizdir. Transmilli qarşılıqlı təsirin müxtəlif variantlarının yalnız birində yeni beynəlxalq aktorların dövlətin siyasətinə qarşı duran, hətta ona toxunan özəl siyasətlərdən bəhs edilir. Xüsusi halda göstərilir ki, söhbət dövlətə etinasızlıq göstərməkdən deyil, baş verən proseslərdə transmilli münasibətlərin dövlətlər arasında paylanmasına nəzarətdən gedir. Bu nəzəriyyənin tərəfdarları ABŞ-ın BM-də artan rolunu tənqid edirlər. Nay və Kohen hakimiyyətin transmilli və dövlətlərarası münasibətlərə nəzarət etməsi və tənzimləməsində bir vasitə olan beynəlxalq rejimlərin problemlərinə, yəni üsulun yaradılması və ya qəbul edilməsinə, təyin edilən fəaliyyət növü üçün qaydalar və ya təsisedilməyə xüsusi diqqət yetirirlər. Onlar qeyd edirlər ki, müşahidədə lider dövlət (hegemon) ABŞ başlıca rol oynayır. Amma indi bu hegemoniya yoxa çıxır və BM hakimiyyətlər arasında paylanır. Ona görə də yeni şərtlərdə mənasını daha da artan rejimlər daha

çox güclənir, qarşılıqlı təsirin digər iştirakçıları tərəfindən hücuma məruz qalır.

***V. Neomarksizm.*** Nümayəndələri: P.Baran, P. Suizi, S. Amin, A. İmmanuel, İ.Vallerstayn, R.Kok.

Onların fikrincə, Beynəlxalq siyasətdə periferiya müstəqillik əldə etdikdən sonra da məkana mərkəzin təzyiqi altında qalan qlobal imperiya kimi baxılır.

Neomarksizmin aktorları: "dünya-sisteminin" mərkəz, periferiya və yarımperiferiyası, "dövlət-siniflər" və "region-siniflər"dir. Məqsədi: antisistem qırılması, qloballaşma məntiqinin qütbləşməni aradan qaldırması, baş verən proseslər: mərkəzlə periferiya arasında qırılma, ABŞ-ın xeyrinə simmetriyasız qarşılıqlı asılılığın yaranmasıdır.

Bu nəzəriyyənin əsasında dövlətin iqtisadi bərabərsizlyi və əhalinin təbəqələşməsi məsələsi durur və aşağıdakı 3 istiqaməti ilə seçilir:

- "Dünya-sistem nəzəriyyəsi". Bu nəzəriyyəyə görə dünya nəinki dövlətlərə, həm də daha vacib olan siniflərə bölünür. Kapitalizmin inkişafı nəticəsində bəzi dövlətlər iqtisadi sıçrayış edərək qabağa getmiş, bəziləri isə yerində qalmışdı. Nəticədə dövlətlər arasında ayrı seçkilik yaranmış və iqtisadi vəziyyətinə görə dövlətlər mərkəz – əsas, periferiya – ətraf və yarıperiferiya – yarı ətrafa bölünür. Mərkəzdə olanlar daha yüksək inkişaf edib, digərləri üzərində hamilik edirlər. "Dünya-sistem" nəzəriyyəsinə görə mərkəz dövlətlər digərlərinin hesabına zənginləşir və bu da münaqişələri qaçılmaz edir.

- Asılılıq nəzəriyyəsi. "Dünya-sistem nəzəriyyəsi"ndən fərqli olaraq, asılılıq nəzəriyyəsi dünyanın tarixi inkişafı və təzadlarından daha çox onun indiki vəziyyətinə diqqət yetirir. Bu nəzəriyyəyə görə, inkişaf etmiş və tənəzzül içində olan dövlətlərin mövcudluğu dünyada baş verən hüquqca bərabər olmayan dövlətlərarası münasibətlərdən qaynaqlanır. Bu nəzəriyyə tədqiqatçılarının fikrincə, müasir dövrdə inkişaf etmiş qərb ölkələri müxtəlif növ iqtisadi, texnoloji və s. vasitələrdən istifadə edərək Şərq ölkələrinin istismarı prosesini davam etdirir. Mahiyyətçə bu müstəmləkəçiliyin yeni növünü – neo-müstəmləkəçiliyi yaradır.

- “Qramşe məktəbi” (İtaliya məktəbi). Bu nəzəriyyənin əsasını “dünya hegemonluğu” müddəası təşkil edir. Bu fikrə uyğun olaraq, bir qüdrətli dövlət beynəlxalq münasibətlərin digər iştirakçılarına dünya qaydaları prinsiplərini diktə edir. Dünyanın digər inkişaf etmiş ölkələri bu qüdrətli dövlətə qoşulur və nəticədə “tarixi hegemon blok” formalaşır. XIX əsrdə bu Böyük Britaniya idisə, indi ABŞ-dır.

### *1.3.3. Beynəlxalq münasibətlər sahəsində siyasi proqnozlaşdırma*

Siyasi proqnozlaşdırılma: siyasi sistemin mümkün vəziyyəti, gələcəkdə proses və subyektləri, onların inkişaf təmayülləri (kəşfiyyat proqnozu), eləcə də siyasi sistemlərdə vəziyyətin əldə olunmasının mümkün yolları və müddəti barədə (normativ proqnoz) bir ehtimallıqdır, həqiqətə uyğunluqdur, elmi əsaslandırılmış mühakimələrdir.

Siyasi proqnozlaşdırma proqnozlaşdırılmanın istiqamətlərindən biri kimi çıxış edir. Siyasi elmdə siyasi proqnozlaşdırmanın əsas obyekti kimi strukturu üzrə çox geniş və mürəkkəb olan siyasət çıxış edir (siyasi sistem, siyasi proseslər, eləcə də onların ayrıca komponenet və subyektləri).

Siyasi proqnozlaşdırma siyasətlə bağlı olduğu üçün özünəməxsus daxili məntiqi və öz inkişaf qanunauyğunluqlarına malikdir. Burada siyasi təzahürlərin hal-hazırda başlandığı zamandan müəyyən dövrədək necə inkişaf edəcəyinə cavab tapılır. Proqnostikada belə dövr proqnozu qabaqlamaq adlanır. Amma bu siyasi proqnozlaşmdırada yeganə mümkün məqsəd deyil. İctimai elmlərdə dərketmə subyekti öyrənilən prosesə təsir edərək aktiv, dəyişdirici funksiyanı yerinə yetirə bilər.

Siyasətdə maraqlar başlıca rol oynayır. Hər bir dövlət özünün daxili və xarici maraqları olan spesifik siyasi orqanizmdir.

Daxili maraqlar vətəndaşlara öz fiziki və mənəvi qabiliyyətlərinin göstərilməsi üçün müvafiq şəraitin yaradılması zərurətindən yaranır cəmiyyətin sabitləşməsi ilə bağlıdır.

Xarici maraqlar isə milli suverenliyin müdafiəsi, öz siyasi nüfuzunun genişlənməsi və s. ilə bağlıdır.

Müvafiq olaraq daxili və xarici siyasət, daxili siyasi və xarici siyasi proqnozlaşdırılma fərqləndiririlir. Xarici və daxili maraqlar bir-biri ilə bağlıdır, onlar ümumilikdə dövlətin inkişaf strategiyasını müəyyən edir.

BM-in strategiyası - beynəlxalq münasibətlərin problemlərinin həlli istiqamətində geniş miqyaslı xarici siyasi fəaliyyətin bütöv sistemidir. Ona görədə beynəlxalq siyasətin istənilən proqnozu, ilk növbədə, dövlətin xarici siyasət strategiyasının təhlilinə aiddir.

Siyasi proqnozlaşmanın mahiyyətini üzə çıxarmaq üçün onun spesifikasını xarakterizə etmək lazımdır. Bu spesifika ilk növbədə proqnozlaşma obyektinin özünəməxsusluğunda, daha sonra onunla bağlı olan proqnozlaşma obyektinin məqsəd və vəzifələrində, eləcə də proqnozlaşma metodunun seçilməsində özünü göstərir

Odur ki, "siyasi proqnozlaşdırma" anlayışı xüsusi elmi araşdırmaların aparılması və siyasətdə çoxsaylı proqnozların hazırlanması üzrə onların hərtərəfli qarşılıqlı əlaqələri və qarşılıqlı təsiri sahəsində, həmçinin cəmiyyətin həyat fəaliyyətinin digər (iqtisadi, sosial, mənəvi) sahələri ilə qarşılıqlı əlaqələr sahəsində çoxşaxəli və müxtəlif aspektli fəaliyyət deməkdir.

Siyasi proqnozlar qəbul ediləcək qərarların səmərəliliyini və məhsuldarlığını artırmaq, siyasi həyatının müxtəlif sahələrində hadisələrin arzuolunmaz inkişaf istiqamətlərindən və siyasətin iqtisadiyyata, sosial və mənəvi sahəyə təsirindən qaçmaq məqsədilə hazırlanır.

Nəzərə almaq lazımdır ki, bütün hallarda istənilən dövlətin xarici siyasəti onun daxili siyasəti əsasında formalaşır. Daxili siyasət əsas müəyyənedici amil götürülür, xarici siyasət isə onun üzvi davamını təşkil edir. Yəni, xarici siyasət daxili siyasətin digər vasitələrlə davam etdirilməsidir. Bu və ya digər dövlətin xarici siyasəti proqnozlaşdırılarkən bu dövlətin ölkə daxilində yürütdüyü siyasəti müəyyən etmək, öyrənmək vacibdir.

Dövlətin xarici siyasət perspektivlərinin müəyyən edilməsi zamanı dövlətin iqtisadi əsasını, imkanlarını, həmçinin, ideoloji məqsədlərini, onun geosiyasətini və dünya diplomatiyasındakı yerini nəzərə almaq lazımdır.

Xarici siyasətinin proqnozlaşdırması strateji təhlilin əsas və vacib funksiyasıdır, konkret dövlətlərin və ya onların ittifaqlarının xarici siyasətinin perspektivlərinin kompleks təhlili istiqamətində analitik hərəkətlərin bütöv sistemidir.

Siyasi proqnozlaşmanın cavablandırmalı olduğu digər məsələ arzuedilən siyasi subyekt üçün şeylərin müəyyən edilmiş vəziyyətinin necə əldə edilməsidir.

Belə növ proqnozlaşdırma normativ proqnozlaşdırma adlanır-sonuncu nəticənin ideal obrazını deyil, müəyyənləşmiş məqsədin tərtibatını təklif edir.

Əgər tədqiqatçı hər hansı gələcək arzuedilən vəziyyəti müəyyən etmirsə, amma proqnozlaşdırma obyektinin alternativ inkişafına baxırsa, bu faktor və ənənələrdən çıxış edirsə, onların bəzi siyasət subyektləri üçün arzu edilən baxış bucağından asılı qiymətləndirilmirsə-belə proqnoz kəşfiyyat (axtarış) proqnozu adlandırılır.

Normativ və kəşfiyyat proqnozunun qrafiki fərqi aşağıdakı sxemdə göstərilir.




Diqqət etmək lazımdır ki, hər iki halda indidən gələcəyə bir ox deyil, trayektoriyalar topası gedir. Kəşfiyyat proqnozlaşdırılmasında trayektoriyalar ayrılır, gələcəkdə mümkün olan müxtəlif vəziyyətlərə aparır, normativdə olduğu kimi -bir məqsədli nöqtədə kəsişir.

Bütün hallarda söhbət proqnozlaşdırılan obyektin bir neçə mümkün olan alternativ inkişaf yollarından gedir. Bu siyasi proqnostikanın çox mühüm cəhətidir.

Hakimiyyətin bölüşdürülməsi və istifadəsinin qarşılıqlı əlaqəsi olduqca mürəkkəb xarakter daşıyır. Onlara heç də əslində siyasi xarakterli olmayan bir çox amillər və subyektlər (iqtisadi, sosial, mədəni) təsir edir.

Siyasi fəaliyyət fərdidir, yəni subyektivdir və çox vaxt rasional səbəblər üzündən dolğun izah oluna bilməz. Siyasi prosesdə psixoloji amil xüsusi rol oynayır: özü -özlyündə hakimiyyət və hakimiyyət münasibətlərinin fenomeni mahiyyət kimi şəxsiyyətlərarası qarşılıqlı fəaliyyəti daşıyır.

Siyasi proqnozlaşdırma üçün ən vacib olan: heç bir gələcək mərhələ - qabaqcadan birmənalı bərabər ehtimalla söylənilə bilən ola bilməz.

Siyasi obyektin gələcək durumunun alternativ spektri həmişə var, onlar da müəyyən ehtimallıq dərəcəsi ilə aktuallaşdırıla bilər. Əsas alternativlərin və faktorların həyata keçirilməsi ehtimalına təsir göstərən "yelpik"şəkilli təşkil siyasi proqnostikanın ən ümumi formada vəzifəsini təşkil edir. Onun məqsədi yalnız konkret hadisələrin baş verməsini öncədən dəqiq xəbər vermək deyil, bundan əlavə, özlüyündə bu cür xəyali məqsədlərin qoyuluşu ilə analitikin siyasi reallığın fundamental xüsusiyyətlərini başa düşməsini əsaslandırır.

Siyasi proqnozlaşdırılmanın əsas funksiyalarının faktiki spektrlərini belə təqdim etmək olar:

| Kəşfiyyat proqnozlaşdırılması | Normativ proqnozlaşdırılma |
|---|---|
| Siyasi inkişafın bu və ya digər ehtimalla gerçəkləşə bilən alternativlərin göstərmək | Verilmiş subyekt üçün daha yaxşı (yaxud, əksinə, əlverişsiz) alternativ siyasətin inkişafını göstərmək |
| Müəyyən alternativ inkişafın reallaşdırılmasına təsir edən amilləri, subyektlərin mümkün hərəkətlərini, təmayülləri üzə çıxarmaq | Siyasətin verilmiş subyektinin ən əlverişli alternativin həyata keçirilməsi məqsədi ilə təsir göstərə bilən müəyyən amillərini, təmayüllərini, subyektlərini üzə çıxarmaq (və ya daha az əlverişli hallardan qaçmaq) |

Siyasi proqnozlaşdırmada daha bir mühüm cəhət öz-özünə həyata keçmə və öz-özünü təkzibetmə paradoksları ilə bağlıdır.

Siyasətdə proqnozun yaradılması faktının özü prosesdə yeni amil ola bilər, verilən proqnoz nəzərdən keçirir və bununla da siyasi proqnozlaşdırılma təbii-elmi proqnozlaşdırılmadan kardinal fərqlənir.

Ümumilikdə, siyasi proqnozların tədqiqatlarında proqnoz və proqnozlaşdırılma obyektinin davranışları arasında əks əlaqələrin mümkün effektləri nəzərə alınmalıdır.

Normativ proqnozlaşdırılmada əlavə olaraq müəyyən siyasi məqsədlərə çatmaq üçün bu effektlərdən istifadə imkanlarına fikir vermək lazımdır. Yəni, siyasi proqnoz təkcə qərarların qəbul edilməsi prosesinə xidmət etmir, ola bilər ki, idarə amili kimi həm də siyasi proseslərlə bilavasitə çıxış edir.

Məsələn, təsadüfi deyil ki, ABŞ-da Mərkəzi Kəşfiyyat İdarəsinin tərkibində Milli Kəşfiyyat Şurası dünyada siyasi vəziyyətin inkişafının uzunmüddətli ssenarili proqnozlarını dövrü olaraq nəşr edir. Belə ki, əvvəlcə bu verilənlər məxfi olur, proqnozların tərtibinə milyonlarla dollar sərf edilir. Bunun nə üçün edilməsinin cavabını proqnozlar özü verir: 2025-ci llədək gələcək dünya sisteminin inkişaf ssenarisi istisnasız olaraq ABŞ-ın siyasətdə və iqtisadiyyatda lider mövqeyini saxlayacağını ehtimal edir. Beləliklə, nəinki idrakı funksiyanı (mümkün alternativlər barədə məlumat almaq), eləcə də bu layihəni kütləvi şüura və elitanın şüuruna yeridir.

Bəzi tədqiqatçılara görə siyasi proqnozlaşdırma siyasi elm sahəsində vəzifə, funksiya, predmet baxımından tamamilə müstəqildir. Digərlərinə görə isə o, müstəqil metodoloji statusa malik deyil, yalnız siyasi təhlilin mərhələsi və ya funksiyasıdır.

Siyasi proqnozlaşdırmanın mövcudluq baxımdan "metodoloji müstəqil olmaması" siyasi təhlilin bir çox metodlarının həqiqətən biliyin proqnoz xarakterli olduğunu göstərməsi ilə bağlıdır.

Siyasi təhlil və proqnozlaşdırma ümumi cəhətlərə malikdir. Belə ki, siyasi proqnozlaşdırmaya siyasi təhlili nəzəri, tətbiqi və metodoloji səviyyədə sintez edən bütöv fəaliyyət kimi baxmaq olar. Bu, proqnozlaşdırmada siyasi təhlilin metodologiyasından və nəzəri nəticələrindən fəal istifadə edərək tətbiqi problemləri həll edir.

Mürəkkəb sistemə təsir obyekti kimi yönələn istənilən düzgün proqnoz tədqiqatları nəzəri-metodoloji və nəzəri-tətbiqi aspektlərə malikdir.

Siyasi proqnozlaşdırmanın işlənib hazırlanması zamanı analogiya, induksiya metodları, müxtəlif statistik, iqtisadi, sosioloji, siyasi, hərbi və s. metodlar tətbiq olunur, ekstrapolyasiya, modelləşdirmə və ekspertiza kimi üsullarədaha çox istifadə edilir.

Siyasi proqnozlaşdırma metodlarını obyektiv və spekulyativ kimi 2 növ təsnif etmək olar.

**Obyektiv metodlar** təcrübədə özünü doğruldan ənənələrə əsaslanır. Bu üsullara ekstrapolyasiya, modelləşdirmə, ekspertiza və bəzi başqa metodlar aiddir.

**Spekulyativ metod**- bu elm və mədəniyyətin dərki üçün mühakimənin intuisiyalarına əsaslanır. Bu metoda ideyanın kollektiv yaranması (zehni həmlə), ssenarinin yazılması, proqnoz sütunu və bir çox başqaları aiddir.

BM strategiyasının proqnozlaşdırma metodlarını təhlilin formallaşma dərəcəsi və subyektivlik dərəcəsi kimi iki istiqaməti üzrə də təsnif etmək olar. Buradan 2 qütb metodlar sinfi yaranır- subyektiv və obyektiv, habelə sadəlövh və səbəbiyyət-yoxlama.

Ekstrapolyasiya- latın sözü olub, xaric, kənar, çağırışların bir hissədən gələcəyin digər təzahürlərinə şamil edilməsi deməkdir.

Siyasi proqnozlaşdırma üçün bu cür təsnifat şərti xarakter daşıyır, belə ki, proqnostik modellər ekstrapolyasiya və ekspert qiymətini, onlar isə öz növbəsində tədqiq edilən obyektin və s. mütəxəssis tərəfindən ekstrapolyasiya və modelləşdirmə nəticələrini tələb edir.

Ümumiləşdirici strateji qiymətləndirmə (ekstrapolyasiya) zamanı tam xarakterli proqnostik nəticələr bir çox halda hakim partiyanın səviyyəsi, cəmyyətdə, iqtisadiyyatda, təhsildə əxlaqi-psixoloji ab-hava, elm-texniki potensial, silahlı qüvvələr və s. kimi tərkib hissələrinin tədqiqi əsasında çıxarılır. Bəzi bitərəflilik səbəbindən metod ehtimal olunan proqnostik tendensiyalardan yalnız birini üzə çıxarmağa imkan verir. Gələcəkdə siyasi ssenari axtarışlarında, bu və ya b. problemlərin tənzimlənməsində məhz həmin tendensiyaya arxalanmaq lazım gəlir.

*Qlobal siyasi proqnozlaşdırma* referendum, seçki kompaniyaları və digər qısamüddətli siyasi proseslərin nəticələrinin proqnozlaşdırılması ilə bağlı olan *operativ proqnostik analitikadan* fərqlənir. Bu mənada qlobal siyasi proqnozlaşdırmanın əsas metodoloji prezumpsiyaları aşağıdakılardır:

-Klassik determinizmin tənqidi və sxolastik proseslərin aşkar edilməsi ilə bağlı olan dünyanın yeni elmi mənzərəsinə müvafiq gələn gələcəyin qeyri-müəyyənlik prinsipi;

-Müəyyən kritik həcmə çatmış (bundan sonra keçmiş və gələcək vəziyyətlər arasında asılılıq birmənalıdır) bu və ya digər proseslərin gedişatının bifurkasyası- ikiləşməsi anlayışı;

-Bifurkasiya nöqtələrində fərqli gələcək vəd verən tamamilə yeni vəzyyətlərin ilkin şərtlərinin yaranmasından ibarət olan fəza-zamanın diskretlik prinsipi. Bu isə o deməkdir ki, mövcud tendensiyaların mexaniki ekstrapolyasiyaları konkret deyil və uzunmüddətli proqnoz üçün əsas ola bilməz.

Əgər siyasi proqnozlaşdırma insan mövcudiyyətinin, təşkilati və özünü təşkilin yeni formalarının kəşfi üsuludursa, onda qlobal siyasi proqnozlaşdırma ümumiyyətlə müasir qarşılıqlı əlaqələrə malik dünyanın tamamilə yeni vəziyyətlərinin kəşf edilməsi üsuludur.

Qlobal siyasi proqnozlaşdırmanın predmeti bəşəriyyətin, müasir dünyanın tamamilə fərqli gələcəyindən ibarətdir. Onun *mərkəzi problemi qlobal hakimiyyət fenomenidir*. Qlobal hakimiyyət görünməmiş qüvvəyə malik yeni siyasi texnologiyadan ibarətdir. Mühüm metodoloji biliklər və qısamüddətli və uzunmüddətli qlobal proqnozlaşdırma arasında müəyyən fərqlər mövcuddur. Birinci halda ekstrapolyasiya prosedurları, yaranmış qüvvə nisbəti və başlanğıc şərtlərin təhlilinin tətbiqi daha məqsədəuyğundur. Başqa sözlə desək, qısamüddətli siyasi proqnozlaşdırma zamanı determinant kimi artıq yaranmış şəraitlər və fəaliyyətdə olan siyasi subyektlər götürülür.

Uzunmüddətli siyasi proqnozlaşdırma zamanı tamamilə fərqli proseduralar fəaliyyətə başlayır. Burada müvəqqəti diskretlik, reaktivlik kimi anlayışlar mühüm əhəmiyyətə malik olur. Aşkar gələcək anlayışı diskretliklə əlaqədar anlayışdır.

*Siyasi proseslərin proqnozlaşdırılması xüsusiyyətləri.* Müəyyən müddətə siyasi proseslə bağlı proqnoz verərkən ilkin proqnozlaşdırma modelinin hazırlanması üçün vacib çoxsaylı göstəricilərdən açar göstəriciləri seçmək və tədqiqatın müəyyən səviyyəsində lazım olanları müəyyənləşdirmək lazım gəlir. Məsələn, qlobal, regional, yaxud lokal səviyyəli standart göstəricilərin istifadə edilməsi nəticəsində reallıqdan çox uzaq olan təsvir alına bilər.

Siyasi proqnozlaşdırmanın fərqləndirici cəhətləri aşağıdakılardan ibarətdir:

-Qoyulan məqsəd daha ümumi və mücərrəd xüsusiyyətlərə malik olur. Bu zaman proqnozlaşdırmanın əsas məqsədi siyasi sistemin, yaxud prosesin keçmişdəki vəziyyəti və davranış xüsusiyyətlərini öyrənmək, həmin sistemə, yaxud prosesə təsir edən amillərin dəyişilmə meyllərini nəzərdən keçirmək, onun gələcək inkişafının kəmiyyət və keyfiyyət xüsusiyyətlərini müəyyənləşdirmək və sistem, yaxud prosesin gözlənilən vəziyyətinin xüsusiyyət və mahiyyətini açmaqdan ibarətdir.

-Siyasi proqnozlaşdırma planlaşdırmadan fərqli olaraq, direktiv deyil. Yəni məhz proqnoz əsaslı qərar vermək və planlaşdırma və idarəetmə metodlarını seçmək üçün onları informasiya ilə təmin edir.

-Siyasi proqnozlaşdırmada bilavasitə nəzərə alınmayan proseslərlə bağlı çoxlu sayda dəyişənlər təqdim edilir, məhz bu cəhət siyasi həyatın inkişaf yollarını aşkar etməyi çətinləşdirir.

- Real tarixi vəziyyətin analizi gələcəyə yönəlmiş meyllərin proyeksiyasını qurmaqla bağlı olur.

Siyasi proseslər proqnozlaşdırılarkən bir sıra prqnozlaşdırma metodlarından istifadə edilir. Hər hansı bir proses proqnozlaşdırılarkən ilk növbədə həmin təzahür və proses haqqında profil (əsas) və fon (köməkçi) göstəricilərdən ibarət olan informasiya toplanır və proqnozlaşdırmanın ayrı-ayrı metodları əsasında perspektiv inkişaf xüsusiyyətləri müəyyənləşdirilir.

*Siyasi proqnozlaşdırmanın metodoloji aspektində müxtəlif məktəb və istiqamətlər mövcuddur*. Onlardan aşağıdakıları göstərmək olar:

1) F.Ratselin “Üzvi məktəbi” - Bu məktəbə görə dövlət canlı orqanizm kimi qəbul edilir və məkanın inkişafı qanunları nəzərə alınır.

2) R.Çellenin istiqaməti – dövlətin həyati sahələrinin vəhdəti.

3) X. Makkinderin məktəbi – “tarixin coğrafi oxu”, dünya müasir geosiyasi xəritəsinin realilərinin nəzərə alınması.

4) “Possibilizm” konsepsiyası – bu istiqamətin banisi Vidal de-la Blanşdır. Bu istiqamət iki aspekti – məkan (coğrafi amil) və zaman (tarixi amil) aspektlərini öyrənir.

Bununla yanaşı anakonda strategiyasını, yəni, tarixi keçmişlə müasirliyin vəhdətini nəzərə almaq lazımdır.

5) K.Xausxoferin kontinental blok “Nəzəriyyəsi”. Bu istiqamətin mahiyyəti yaşayış məkanı uğrunda mübarizədir.

6) “Atlantizm nəzəriyyəsi”, qərb dəyərlərinə bağlılıq. Dövlətin xarici siyasətində istiqamətin müəyyən edilməsi zamanı onun əlaqələrini, müttəfiqlərini, üzv olduğu ittifaq və blokların forma və məqsədlərini nəzərə almaq lazımdır.

Dövlətin keçmiş, indiki və gələcək siyasətini müqayisə etmək zəruridir.

### *1.3.4. Ehtimal və mümkünlük: proqnozlaşdırmanın bəzi siyasi nəticələri*

Proqnozlaşdırmada siyasi məqsədlər üçün sosial və beynəlxalq sistemlərdə manipulyasiya edilə bilənləri, manipulyasiya və sosial müdaxilənin məsrəfləri, sistemdə seçimlər və həssas sahələri müəyyən edilməlidir. Qərarvermə prosesində siyasətlə bağlı verilən proqnozların aktuallığı birbaşa bu üç məsələni nə dərəcədə nəzərə almağımızla mütənasiblik təşkil edir.

Sosial və beynəlxalq sistemlərdə manipulyasiya oluna bilənlər elə faktorlardır ki, onlar siyasi müdaxilə ilə dəyişdirilə bilər. Bəzi səbatsızlıqlar tez bir zamanda manipulyasiya edildiyi halda, digərləri edilə bilmir. Manipulyasiya dəyəri səmərəli müdaxiləni təşviq edən sərbəstliklə bağlı olur. Sistemdə seçim nöqtələrinin dəqiq qiymətləndirilməsinə apriori dəyərin məhdudiyyətlərini nəzərə almaqla, manipulyasiyaya daha çox həssas sahələrin müəyyən edilməsi daxil edilir.

Büdənin bölüşdürülməsi və milli prioritetlərin təyin edilməsi kimi səbatsızlıqlarla müqayisədə əhali kimi ümumi ictimai faktorları dəyişmək daha çətindir. Müdaxilənin dəyəri adətən qəbul edilən siyasətin növünə birbaşa təsir edir.

Proqnozlaşdırma planlaşdırmanı qabaqlayır, yaxşı plan üçün yaxşı proqnoz tələb olunur. Proqnozlaşdırma ehtimalları, alternativ gələcəklə bağlı imkanları və gələcək fəaliyyətin parametrlərini müəyyən edən planlaşdırmanı müəyyən edir. Planlaşdırma alternativ risklərlə üzləşmək və alınan risklərin düzgün olmasından əmin olmaq cəhdi olduğu halda, proqnozlaşdırma planlaşdırmanın nəticələri ilə bağlı qeyri-müəyyənliyin azaldılmasını özündə ehtiva edir. Beləliklə, alternativ nəticələr bir araya toplandıqda, proznozun dəqiqliyi ilə bağlı müvafiq siyasi nəticələr proqnozlaşdırana aydın olur. Bununla belə, planlaşdırmanın proqnozlaşdırılmayan nəticələri proqnozla müəyyən edilməyən yekunları hasil edə bilər. Operativ olaraq, həm proqnozlaşdırma, həm də planlaşdırmanın məqsədi qeyri-müəyyənliyi azaltmaq və riskləri müəyyən etməkdir. Cəmiyyətin tədqiqat və inkişaf üçün etdiyi ayırmalar qeyri-müəyyənliyin potensial riskə, potensial riskin isə arzuolunan riskə çevrilməsi ilə bağlı narahatlıq dərəcəsini göstərir.

Siyasi təhlillər üzrə proqnozlaşdırmanın ən az iki növü var. Birincisi alternativ büdcələşdirmə, yəni müxtəlif bölüşdürmələr vasitəsilə milli prioritetlərin təyin edilmə yollarının dəqiqləşdirilməsidir. Araşdırmanın belə növü bizə alternativ vəsaitlərin ölçüləri və milli prioritetlərin alternativ strukturlarına baxış keçirməyə kömək edir. Proqnozlaşdırma rejimində nəzərdən keçirilərkən, alternativ büdcələşdirmə prosesləri kritik manipulyasiya olunanlar üzərində operativ idarəni təmin edir. Hər hansı cəmiyyətdə ən asan manipulyasiya oluna bilən faktorlar büdcə bölüşdürmələridir. Siyasətin təhlili üzrə proqnozlaşdırmanın digər növü alternativ ehtimalların təhlili, yəni "bəs... olarsa?" sualının "əgər....o zaman..." cavabı ilə sistematik qarşılaşdırılması və əlaqədar məsrəflər və gəlirləri əhatə edir. Alternativ risklərlə bağlı məsrəflər nə qədər çox olarsa, ehtimalların təhlili siyasətə daha çox daxil ediləcək. Ekonometriya, sistem dinamikası və ya subyek-

tiv ehtimal rejimlərində "əgər...o zaman..." kimi cavablar proqnozlaşdırma və siyasi təhlillərin mərkəzində dayanır.

Proqnozlar verilən kimi növbəti tapşırıq onları başa düşmək üçün mümkün yolları müəyyən etməkdir. Milli prioritetlərin alternativ ehtimalları və ya ayırmaları siyasi məqsədlər üçün proqnozlaşdırmanın vacib aspektidir. Strateji təhlil və müdafiə siyasəti adətən bu cür olur.

Siyasət və planlaşdırmanın proqnozlaşdırılmasının ən aktual problemlərindən biri bürokratik siyasətdir. Norma və gözləntilərdən boyunqaçırma bürokratiyada təşviq edilmir və daxili reqressiya proqnozlaşdırma ilə bağlı bir çox xətalar və yuxarıda qeyd edilən qabarıq təhlükələrin yaranmasına təkan verir. Belə xətalar təhriflər yaradır ki, bu da proqnozlaşdırmanın yekunu və ümumilikdə, planlaşdırma prosesinə təsir göstərir. Proqnozlaşdırmada bürokratik siyasət plançı-bürokrat və proqnozlaşdıran (alim) arasında bürokratiyanın struktur xüsusiyyətlərindən qaynaqlanan təzyiqləri əks etdirir. Hökumətdə proqnozlaşdırmaya ehtiyac duyanlar adətən proqnozlaşdırmanın tələblərinə uyğunlaşmaq və proqnozun nəticələrini qəbul etməyə daha az meylli olurlar.

### *1.3.5. Xarici siyasətin təhlili və proqnozlaşdırılması*

BM nəzəriyyələri - xarici siyasətin təhlili və proqnozlaşdırılmasının əsasını təşkil edir. II Dünya müharibəsndən sonrakı dövrdə BM sahəsindəki tədqiqatlarda 3 əsas paradiqma dominantlıq edir: realizm, liberal idealizm və konstruktivizm. Bu nəzəriyyələrdən xarici siyasətin proqnozlaşdırılmasında istifadə edilməsinə nəzər salaq.

**Realizm.** Realizm konsepsiyası beynəlxalq münasibətlərin ən qədim nəzəriyyələrindəndir, öz intellektual Antik dövrünə gedib çıxır. Fukididin kəlamına görə, buna əsasən "güclülər kifayət qədər gücü çatdığı şeyi edir, zəiflər isə onu qəbul edirlər ki, bu onların qismətinə yazılıb", görünür, bir çox nəsillər tərəfindən siyasi liderlərin mənimsədiyi və inandırıldığı bu idi ki, dövlətlər etməli olduğunu yox, bacara bildiyini edirlər.

XX əsrdə bu düşüncə tərzi H.Marqantaunun əsərlərində “beynəlxalq siyasətin mahiyyəti, hər bir başqa siyasət kimi hakimiyyət uğrunda mübarizədir” klassik təcəssümünü tapmışdır. Ehtimal edilən yüz konsepsiyaya əsasən, “dövlət xadimləri güc kateqoriyalarının formalaşdığı” maraqlardan fikirləşir və hərəkət edirlər.

**Realizm konsepsiyasının əsas tezisləri**

- BM-də fəaliyyətdə olan subyekt və determinant dövlətdir;
- Dünya siyasətinin strukturu nizamsızdır və hər bir dövlətin təhlükəsizliyinin təmin edilməsi birinci növbəli prioritet hesab edilir. Hər bir dövlət bu sistem çərçivəsində güc potensialını gücləndirməyə çalışır;
- Təhlükəsizliyə beynəlxalq sistem çərçivəsində güc balansının əldə olunması yolu ilə nail olunur. Maraqların harmoniya vəziyyəti yalnız dünya nizamını onları qane edən şəkildə digərlərinə sırımağa cəhd edən güclü dövlətlər tərəfindən əldə oluna bilər.
- Əxlaq (mənəviyyat) beynəlxalq münasibətlərdə ədalət prinsiplərindən və ya hər hansı digər obyektiv meyarlardan yox, gücdən törənir. Deməli, beynəlxalq münasibətlər nəzəriyyəsi sahəsində mənəviyyatı, izahedici amil qismində saymamaq olar.

Neorealizm (struktur realizm), eləcə də neoklassik realizm yalnız realizmin variasiyalarıdır.

Beləliklə, struktur realizm beynəlxalq münasibətlərin strukturunun dövlətlərin xarici siyasət davranışlarına təsirini vurğulayır, əksində, daha çox ənənəvi vurğuyla təbiətdə insanın özünün hakimiyyətə hərisliyini qeyd edir.

**Neorelizmlə realizmi müqayisə etdikdə aydın olur ki,** neorealizm bir sıra məsələlərə cavab vermir. Xüsusilə: əgər dövlət zəifdirlərsə, ya da əksinə, güclüdürsə, aqressiv fəaliyyətə meyllidirmi? Hansı strategiya milli maraqlarını daha tam reallaşdırmağa imkan verir: Rəqabət və kooperasiya? Əgər insan təbiəti dəyişməzdirsə, biz nəyin hesabına institutların çoxtərəfli əməkdaşlıq artımını, eləcə döv-

lətin öz davranışlarında əxlaqi prinsiplərinə və iki və çoxtərəfli sazişlərə əməl etməsinə hazır olduğunu müşahidə edirik.

Bundan başqa, neorealizm xarici siyasi qərarların qəbulu prosesinin, eləcə də daxili siyasi maraqların və bu prosesə münasibətlərin təsiri izahının zəif olduğunu aşkarlayır.

Realizmin məhdudluğu, inqilabçı, XXI əsrdə dünya arenasında diplomatik və dövlətlərarası münasibətlərin dinamikasında mühüm rol oynayan transmilli terror təşkilatları kimi aktorlara diqqətsizlikdə göstərilir.

Belə ki, məsələn, Livanda vəziyyət bu dövrdə dövlətin ərazisində fəaliyyətdə olan çoxsaylı silahlı dəstələrin maraqları nəzərə alınmadan rasional izaha tabe olmur.

**Neoklassik realizm** dövlətin dünya arenasında davranışının determinatlığının daxili siyasi faktorlarına diqqət yetirir. Söhbət ideologiya kimi, siyasi sistem və rejimlərin xarakterindən, siyasi institutlardan, siyasi iqtisadı dövlətdən, həmçinin siyasi liderlərin şüurunda ətraf aləmlə bağlı qavrayış və təsəvvürlərdən ibarət olan obyektlərdəki tədqiqatlardan gedir. Digər müəlliflər, belə fenomenlərə milli kimliyin, mədəniyyətin və dövlətin tarixi kimi yanaşırlar.

Neoklassik realizm tərəfdarları hesab edirlər ki, xarici siyasət konkret siyasi liderləri və elitalar tərəfindən edilir, deməli, fiziki resursların və komponentlərin müqayisəli kəmiyyət parametrləri deyil, məhz onların qüvvələrin nisbi ölçmələrinin subyektiv qavrayışında əhəmiyyəti var.

**Liberal idealizm**. Bu sözdən gözləmək olar ki, liberal idealizm keçmiş klassik mütəfəkkirlərə aid olan liberal və idealist ideyalara əsaslanır. Beynəlxalq münasibətlər sahəsində liberalizm, hakimiyyətin gücünün əksinə olaraq beynəlxalq təsisatlara və qanunun aliliyinə assosiasiya olunur.

İdealizm, öz növbəsində, fəlsəfi cəhətdən ideya və ideallarıın özünüdəyərləndirməsi vurğulanmaqla, əks tərəfdə isə ətraf gerçəkliyin cismani qavrama ilə yaradılışa assosiasiya olunur. Bu mənada idealizm materializmə ziddir.

Beynəlxalq münasibətlərdə idealizmin əsas istiqaməti ondan ibarətdir ki, dövlət daxili siyasət dəyərlərini xarici siyasətə aşılamalıdır, öz siyasi sistemini qonşu və rəqib dövlətlərin daxili siyasi dəyərlər sisteminə ixrac və təsdiq etməlidir.

İdealizm nöqteyi nəzərindən xarici siyasət mənəvi normativ standartlara tabe olmalıdır. Bu cür siyasət insan haqları və bütün dünyada sülh kimi ideologiyalar tərəfindən idarə olunur. İdealizmin müdafiəçiləri həmçinin beynəlxalq hüquqlara və xarici siyasəti formalaşdiran təşkilatlara aiddir. Müasir idealist təfəkkürünün ən məshur ideologiyasından biri "Demokratik Dünya Nəzəriyəsi"dir ki, ona əsasən ümum liberal istiqaməlƏri olan olkələr bir-biri ilə savasmırlar. Bu kontekstdə idealizm liberalizmlə sinonimlik təskil edir.

**Realizmdən** fərqli olaraq liberal idealizm müharibələrin olmaması məqsədi ilə fəaliyyətdə olan beynəlxalq islahatlar qurumuna öz yeni təkliflərini təqdim edir. Bu yanaşmada dörd istiqamət əsas göstərilir: beynəlxalq qurumlar, qanuni prosedurlar, silahsizlaşdırılma və özünütəyinetmə. Bu istiqamətlər insan təbiəti, muharibələr, etika və demokratiya sisteminə əsaslanır.

**Liberal idealizm** beynəlxalq sistemin anarxiya əsaslarına dair mövqeyi ilə həmfikir olsa da, bu sahədə olan problemlərin dominant qüvvələr tərəfindən həll olunması məsələsi ilə razı deyil. O, cözümü ölkələrin öz aralarında qarşılıqlı anlaşma və harmoniya ilə həll olunmasında görür. Liberal demokratlar bir-biri ilə müharibədə yox rəqabətdə olurlar. Onlar könüllu olaraq sülh birlikləri yaradırlar, çünki bu yolla konfliktdə olarkən nail oldugundan daha çox mənfəət əldə edirlər.

Liberalizm qlobal tendensiyanı daha çox ölkələrin səxsi prestij və öz mənfəətindən iqtisadi artım və sosial təhlükəsizliyə kecidə üstünlük verməsində görür. Liberal idealizm daha çox üstünlüyü beynəlxalq əlaqələrin genişlənmiş obrazına verir. Beynəlxalq əlaqələrdə böyük aktorların rəngarəngliyini, kontekst və vəziyyətin xarakterini təyin etməni, öz növbəsində hansı aktorun dominant rol oynayacagı müəyyənləşdirilir.

İqtisadi məsələlərdə qlobal həll yolunu beynəlxalq təşkilatlar və biznes idarələri təyin edirlər. Beynəlxalq məsələlərdə ölkələrarası və digər təşkilatlar da öz növbəsində böyük rol oynayırlar.

Liberalizmin qolu qismində neoliberalizmdə qlobal əməkdaşlıq sülh və firavanlıq qeyri-dövlət aktorlarına diqqət əsas rol kimi yönləndirilmişdir. Neoliberalların kooperativ səyləri bir məhsul kimi qlobal mühitin yaxşılaşdırılmasında irəliləyişlər nəzərdə tutulur, onlar əmindilər ki, liberal irsin ideya və idealları xüsusilə soyuq müharibənin sonu beynəlxalq davranışın müəyyən modellərini proqnozlaşdırır. Neo-liberalların düşüncələrinə görə realistlər belə anarxiya haqqında anlaşmaları doğru olsa belə, onlar da dünyanın beynəlxalq təşkilatlarının dəstəyi ilə, yaxşı əməkdaşlıq istəklərinə görə müqavilə bağlaya bilərlər. Eyni zamanda beynəlxalq münasibətlərdə neoliberal ön düşüncə Outpost BVF, VB, INTER-Amerika inkişaf bankı güclü maliyyə institutları kimi görünür.

İkinci dünya müharibəsi liberal idealizmə güclü zərbəyə səbəb oldu: dünya siyasətinin xarakteri, enerji siyasətinin sərt reallıqları, tənqidçilər tərəfindən ittiham edilən fikir liberalları bu müharibədə öz əksini tapdı.

E.Karr kimi alimlər dünya siyasətində realizmin alfa və omega maraqlarının fundamental əhəmiyyətini vurğulayırdılar, lakin eyni zamanda razılaşdılar ki, dövlət qarşısında duran hərbi güc və maddi maraqlar kənarda qalmaq şərtilə normativ dəyərlərə və gözləntilərə rəhbər ola bilər.

Karrın fikrincə "Utopiya ve Reallıq " siyasi elmin iki tərəfidr. Yetkin siyasi düşüncə və yetkin siyasi həyat orada layiq olduğu yeri tutur.

**Konstruktivizm**. E.Karrdan gətirilən bu arqumentlər konstruktivizm konsepsiyasına giriş kimi xidmət edə bilər.

Son nəticədə xarici siyasətdə ideallar, maraqlar və güc kimi analitik təsəvvürlərin sintezinə cəhddən söhbət gedir. Beynəlxalq münasibətlərdə realizm təhlükəsizlik və maddi gücə əsasən narahatdır, lakin liberalizmin dövlətin iqtisadi və daxili siyasətinin qarşılıqlı təsirinə, konstruktivizm isə beynəlxalq münasibətlər sistemində ide-

yanın rolunun təhlilinə diqqət yetirir. Konstruktivizm 1980-ci ildən bəri beynəlxalq münasibətlər nəzəriyyəsində idealist ənənənin təkmilləşdirilmiş bir növüdür. Konstruktivistlər yalnız neo-realizm və neo-liberalizmin yalnız rasionalist fikirləri inkar etmirlər, həm də dünya siyasətinin xarakterini anlamaq üçün sosial yanaşmanı, agentlərin və strukturlar arasındakı norma və şəxsiyyətlərin əhəmiyyətini də təklif edirlər. Konstruktivizimdə əsas müzakirə beynəlxalq münasibətlər bloklarındakı ideyalardır. A.Vendt, bu istiqamətdə yaradıcı olaraq bəyan etdi ki, "Maraq bazisli eynilikdir". Dövlət eyniliyi şəxsiyyət üstünlüyü və beynəlxalq arenada mümkün tədbirləri müəyyən edir. Dövlət öz şəxsiyyətinin atributlarını ifa edərkən digər tərəfdən beynəlxalq münasibətlərdə gündəlik şəxsiyyət prizmasından qarşılıqlı vasitə kimi istifadə edir. A.Vendt konstruktivizmi struktur nəzəriyyəsi kimi beynəlxalq münasibətlərdə aktorların sosial xarakteri olaraq təqdim edir. Ventdə görə dövlət və milli maraqlar aktorların sosial şəxsiyyət kimi qarşılıqlı əlaqələrinin nəticəsidir. Eyni ilə N.Onuf sosial reallığı insanlar tərəfindən dizayn və ya təşkili bir əlaqə kimi görür. Konstruktivizm dəyərləri haqqında müzakirələr olan sosial reallıq, tez-tez hüquq müdafiəçiləri və beynəlxalq ədaləti müdafiə hərəkatı məsələlərini əks etdirir. Burada diqqət idealogiya, şəxsiyyət, qavrayış və transmilli şəbəkələrin hər hansı bir ölkənin xarici siyasət mövqelərinin formalaşmasına necə təsir etməsinə yönəlmişdi. Dünya sahəsində material strukturlarla bərabər qaydaların əhəmiyyətini vurğulayan konstitusiyalarda şəxsiyyətin rolu **konstruktivizm nəzəriyyəsində beynəlxalq münasibətlərin əsas alternativ** mövzusu kimi şərh edilir.

1980-cı ildə ilkin şərt konstruktivizmin yaranmasına töhfə vermişdir. Soyuq müharibənin sonu rasionalist intellektual idealarına zərbə vurdu. Konstruktivizmin təsisçilərinə əsasən, rasionalistlər nə soyuq müharibənin sonunu proqnozlaşdıra, nə də XX əsrin sonunda sistemli trasformasiya edə bildilər. Realist və liberalistlərin əksinə müvafiq güc balansı, beynəlxalq ticarət və demokratiya gücünə əsaslanan konstruktivistlər inanırdılar ki, soyuq müharibənin sonuda (məsələn, insan hüquqları, qeyri-hökumət təşkilatlarının rolu, xarici siyasət dəyişikliklərinin dinamikası kimi məsələlər) dünya siyasəti haqqında

bəzi köhnə suallar yenidən qiymətləndirəcək. Konstruktivizmdə şəxsi qruplar ətraf aləmi öz ideya və təqdimatına inandırdıqca güc toplayırlar. Bölüşülən ideyalardan asılı olaraq xalqın onları anlayışla qəbul etməsi əsas götürülür. Belə ki, konstruktivistlər realistlərdən kənar "milli maraqları" apsurt kimi qəbul edirlər.

Konstruktivistlər realizm və liberalizmin əksinə öz nəzəriyyələrində mənşəyin daha dərin olduğuna inanırlar. Beynəlxalq arenada dəyişikliklərin izahını sahibkarların intellektual fəaliyyətinin məhsulu kimi yeni ideyaları irəli aparan və qoyulan standartlardan yayınan aktorları üzə çıxarmaqla izah edirlər.

Konstruktivistlər Human Rights Şatch və Amnesty International kimi transmilli fəal strukturları tez-tez dəyişiklik agentləri kimi göstərir. Bu qruplar ən azı hüquqi və mənəvi standart pozucularının müəyyənləşdirilməsinə cəlb olunur, ritoriklər, demokratlar tərəfindən dəstəklənir. Bu məlumatların aşkarlığı belə konkret tədbirlərin yaradılması, müharibə cinayətləri, məhkəmələrin inkişaf etdirilməsi və ya insan hüquq standartlarının təsdiq edilməsi üçün hökümətə təzyiq aləti kimi istifadə olunur. Belə şəbəkələr fraqmatik kimi idealist dəlillərə də müraciət edə bilər, onların xüsusi gücü beynəlxalq ictimaiyyət tərəfindən müəyyən ümumi qəbul olunmuş standartlardan kənar qeyd etmək imkanı yaradır.

Beləliklə, yekun olaraq aşağıdakıları demək olar:

a) Konstruktivistlər tənzimləyici və ideoloji strukturların beynəlxalq əlaqələrinin anlaşılması üçün əsas olduğunu tanıyırlar. Belə ki, realistlər hərbi qüvvələrin materialist strukturunu, marksistlər isə dünya iqtisadiyyatının material strukturunu vurğulayırlar. Konstruktivistlər eləcə də onlara təsir edən amillər kimi inancları, ideya və ümumi dəyərləri vurğulayırlar.

b) konstruktivistlər şəxsiyyət anlayışının xarici siyasət qərarlarının anlaşılması üçün lazım olduğuna inanır. Bu müddəa öz növbəsində onun formal maraqlarını əsas götürmür. Belə ki, analitik üçün əsas problem dominant xarici siyasətinin formalaşmasına təsiri müəyyən etməkdir.

c) konstruktivistlər israr edir ki, institusional norma və ideyalar eləcə də müvafiq iqtisadi siyasi və mədəni fəaliyyət nümunələri sabit

sosial strukturların formalaşması kimi interaktiv aktorlar vasitəsilə yer tutur.

d) Normativ və ideoloji strukturlar qaydaları elan prinsiplərinə uyğun gəldikdə aktorlar məhdudlaşdıra bilər.

***Konstruktivizmin ünvanına səslənən bəzi tənqidlər:***

1. Konstruktivistlərin qlobal konsensus əldə etmək imkanları haqqında utopik təsəvvürlərini təkcə normativ prinsiplərlə bağlı deyil, həm də onların harada və necə işlədilməsi ilə bağlı məsələ üzrə də ittiham edirlər. Belə ki, konstruktivistlər norma və fikir dəyişiklikləri təsvir etsələr də, maddi baxımından ***yeni dəyərlər*** və ideyaları üzrə bir konsensus təsdiq edilməsi üçün tələb olunan təşkilati hallara az inanırlar. Konstruktivistlər ***strateji, institusional və material şərtləri*** həmişə müəyyən etməyə qadir deyillər, halbuki yeni ideyaların olması mövcud praktikada dəyişiklik edə bilir.

2. İkincisi, konstruktivistlər ***etik norma daxilində*** danışmaqla bütün enerji komponentlərinin çəkisini azaldaraq onu ***milli enerji potensialı və maddi maraqlarla*** əvəz edirlər.

3. Üçüncüsü, konstruktivist təşkil multi-etnik icmalara tamamilə şamil edilmir. Burada milli kimliyn formalaşdırılması məsələsi rəqabətdə olan multi-etnik probleminə dirənir.

4. Dördüncüsü, ***məcburiyyət sualına*** verilmiş paradiqmanın inandırıcı cavabı yoxdur. Hər dəfə beynəlxalq tanınan standartların pozulması baş verəndə, ən əsasıda "insanlıq əleyhinə cinayətlər" ixtisası altına düşənlərə ön planda məcburiyyət problemi çıxarılır. Beynəlxalq qanunun fundamental standartlarının məcburi pozanlardan dünya siyasətində güc komponentlərinə müraciət etməmək mümkündürmü?

5. Beşincisi, bir çox tənqidçilər düşünürlər ki, konstruktivizm ümumiyyətlə beynəlxalq münasibətlərdə yetərli nəzəriyyə deyil, lakin onların öyrənilməsi üçün xüsusi yanaşmadır. Heç bir mədəniyyət nəzəriyyəsi siyasət nəzəriyyəsini əvəz etmək iqtidarında deyil. Tənqidçilərə cavab olaraq Reus-Smit etiraf etmək məcburiyyətində idi ki, konstruktivizm hər hansı bir şəkildə rasionalizmə nəzəri baxımından alternativ deyil. Öz növbəsində Hopf etiraf etdi ki, beynəlxalq münasi-

bətlər nəzəriyyəsi kimi birincilik iddiasından sonsuz uzaq olaraq, konstruktivizm həm siyasi elmlər çərçivəsində, həm də ondan kənarda digər yanaşmalarla əməkdaşlıq etməyə çağırır.

Əsrin sonunda beynəlxalq əlaqələr və **dünya siyasətinin dəyişdirilməsi** konfiqurasiyası haqqında gözləntilərə müəyyən təsir edən bir neçə konsepsiya var.

Soyuq müharibənin başa çatması ilə əlaqədar dəyişikliklərin nəzəri izahını verməyə ilk cəhdlər 1980-1990-cı illərin qovuşmasında Amerika alimi və diplomatı ***F.Fukuyama*** tərəfindən edilib. O özünün böyük əks-səda doğurmuş ***"Tarixin sonu"*** əsərində soyuq müharibənin əsasında dayanan iki ideologiyanın – liberal demokratiya və kommunizm arasında münaqişənin tam həll olunduğu barədə tezis irəli sürdü. Kommunizm məğlubiyyətə uğradı və liberalizmin demokratiya və insan hüquqları prioritetinin rəqabətdə olduğu ideyalar sistemində ideoloji qələbə əldə etdi. Bunun nətcəsində demokratik və qeyri-demokratik zonalar arasında münaqişə potensialının təmas xəttinin saxlanması ilə dinc yanaşı yaşamanın getdikcə üstünlük təşkil etdiyi, yavaş-yavaş genişlənən demokratik zona çərçivəsində yaxın gələcəyin təsviri yarandı. Onun fikrincə, bununla da "tarixin sonu", daha doğrusu, ixtilafsızlıq vəziyyəti başlayır. F.Fukuyamanın fikirləri idealist və bəsit adlandırılaraq tənqidə məruz qaldı. Doğrudan da soyuq müharibədə sonrakı illərdə baş verənlər amerikalı alimin 1980-ci illərin sonunun optimizm və eyforiyası ilə qələmə aldığı əsərində göstərilən ifrat optimizm üçün əsas olmadığını sübut etdi.

***R.Kaplanın*** gələcəklə bağlı ***"Gələn Anarxiya***" araşdırmasında inkişaf etməkdə olan *ölkələrdə sosial fəlakət proqnozlaşdırılır* (yoxsulluq, bərabərsizlik qeyri sabitlik və sosial etiraz səbəbi). Göstərilr ki, bu hal nəticə etibarilə inkişaf etmiş dünyanı qlobal miqyasda genişlənərək bürüyəcəkdi.

***T.Friedmanın "Leksus və Zeytun ağacı"*** araşdırmasında göstərilir ki, qloballaşma iqtisadi mal və xidmətlərin sərbəst axını ilə bağlı dünya siyasətində əsas amil kimi müəyyən ediləcək. Qloballaşmaya uyğunlaşan millətlər inkişaf edəcək, qalanlar isə yer üzündən silinəcək.

***C. Kupchan "Amerikan erasının sonu"*** mövzusunda beynəlxaq münasibətlərin əsası kimi güc balansına ənənəvi məntiqlə haqq qazandırır və bununla göstərir ki, dünya siyasəti, daxili siyasi proses kimi tam olmayan öncəgörmənin təsiri ilə əl digital komputer texnologiyası tərəfindən böyümədə sınaqdan keçəcək.

Bu rəqabətdə olan məlumatlarda ümumi məqam dünya siyasətinin gələcəyi, getdikcə artan ideyaların, insanların, malların və kapital axınının daha şəffaf beynəlxalq sərhədlərdən keçməsilə müəyyən ediləcəyinə inamdan ibarətdir.

S. Huntinqtonun "Sivilizasiyaların toqquşması" konsepsiyasının ümumi çizgiləri dünya sivilizasiyaları arasında münaqişələrin proqnozlaşdırılırması əsasında bir növ gələcəklə üzləşmə idi. S.Hantinqton soyuq müharibənin başa çatmasınadək olan münaqşələri Qərb sivilizasiyası daxilindəki münaqişələr hesab edir: «soyuq müharibənin başa çatması ilə beynəlxalq siyasətin inkişafının Qərb fazası başa çatır. Qərblə qeyri-Qərb sivilizasiyası arasında qarşılıqı fəaliyyət mərkəzə doğru irəliləyir».

S.Hantinqton görə vətəndaşların öz milli dövlətlərinə sədaqəti əvvəlki transmilli əsasda deyil, yeni mədəniyyət sahələri əsasında meydana gəlir. O, sivilizasiyanı sosial-mədəni birliyin ən yüksək dərəcəsi və insanların mədəniyyət eyniliyinin ən yüksək səviyyəsi kimi müəyyənləşdirir. Hər sivilizasiya üçün bəzi obyektiv təzahürlərin mövcudluğu xarakterikdir: tarix, din, dil, adət birliyi, sosial institutların fəaliyyətinin xüsusiliyi, habelə insanın subyektiv özünü eyniləşdirməsi.

S.Hantinqton 8 sivilizasiya növünü müəyyənləşdirərək beynəlxalq münasibətlərdə sivilizasiya amilinin daim güclənəcəyi qənaətə gəlir və onu aşağıdakı tərzdə əsaslandırır.

- Birincisi, əsasını dinin təşkil etdiyi sivilizasiyaların arasındakı müxtəliflik daha mühümdür. Bu müxtəliflik əsrlərlə toplanır, siyasi ideologiya və siyasi rejim arasındakı müxtəliflikdən ən güclüsüdür.

- İkincisi, müxtəlif sivilizasiyalara mənsubluğu olan xalqların qarşılıqlı fəaliyyəti güclənir, bu isə sivilizasiya özünüdərkinin artmasına, sivilizasiyalar və birliklər çərçivəsində xalqların aid olduğu sivilizasiyanın müxtəlifliyinin başa düşülməsinə aparır.
- Üçüncüsü, dinin rolu artır, üstəlik o daha fundamental hərəkatlar formasında təzahür edir.
- Dördüncüsü, Qərbə aid olmayan ölkələrdə Qərbin təsiri zəifləyir, bu isə yerli elitanın qərbsizləşdirmə prosesində özünüifadəsinə gətirir və öz sivilizasiya köklərini axtarmağı gücləndirir.
- Beşincisi, iqtisadi və siyasi fərqliliyə nisbətən mədəni fərqlilik daha az dəyişikliyə uğrayır və buna uyğun olaraq daha az güzəştli qərarlara gətirib çıxarır. S.Hantinqton yazır: «Keçmiş Sovet İttifaqında kommunistlər demokrata, varlılar kasıba çevrilə bilərlər, amma bütün arzulara baxmayaraq, ruslar estonlara, azərbaycanlılar erməniyə çevrilə bilməzlər».
- Altıncısı, o, mədəni-dini eyniliyin bir çox iqtisadi təşkilat və inteqrasiya qruplaşmalarına əsaslandığından sivilizasiya amili ilə bağlı olan iqtisadi regionçuluğun güclənməsini qeyd edir.

S.Hantinqton soyuq müharibədən sonra sivilizasiya amilinin dünya siyasətinə təsirini «qardaş ölkələr sindromu»nun təzahüründə görür. Bu sindrom dövlətlərin qarşılıqlı münasibətlərdə ideoloji birlik və siyasi sistemə görə istiqamətlənməsini deyil, sivilizasiya yaxınlığını əsas götürür. Bununla belə, sivilizasiya fərqinin reallığı üçün nümunə qismində son illərdəki əsas münaqişələrin sivilizasiyalararası parçalanma xəttində baş verdiyini göstərir. Bu sərhəd sivilizasiya meydanlarının kəsişməsindən keçir (Balkanlar, Qafqaz, Yaxın Şərq və digərləri).

Gələcəyi proqnozlaşdırarkən S.Hantinqton belə bir qənaətə gəlir ki, Qərb və qeyri-Qərb sivilizasiyası arasında münaqişə qaçılmazdır, üstəlik, Qərb üçün əsas təhlükəni konfutsi-islam bloku – Çin, İran, bir sıra ərəb və digər müsəlman dövlətlərinin hipotetik (fərziyəvi) koalisiyası təşkil edir. Öz ehtimallarının təsdiqi üçün Amerika politoloqu 1990-cı illərin siyasi həyatından faktlar gətirir. Onun fikrincə, Qərb yeni təh-

lükənin qarşısında möhkəmlənməlidir və S.Hantinqton bunun üçün tədbirlər təklif edir. Bundan başqa, politoloq hökumətin qərbyönümlü olduğu, lakin adət-ənənə, mədəniyyət, tarix baxımından Qərblə ümumi heç nəyi olmayan «parçalanmış dövlətlər» adlanan ölkələrə diqqət yetirməyə çağırır. Belə ölkələrə S.Hantinqton Türkiyəni, Meksikanı və Rusiyanı aid edir. Sonuncunun xarici siyasi istiqaməti müəyyən qədər beynəlxalq münasibətlərin gələcəyinin təhlil edilməsindən asılıdır. Buna görə də S.Hantinqton xüsusi qeyd edir ki, Qərbin maraqları Rusiya ilə əməkdaşlığı genişləndirmək və davam etdirməyi tələb edir. S.Hantinqton XX əsrin 90-cı illərində də bu ideyalarını müdafiə və inkişaf etdirir.

1996-cı ildə o, "Sivilizasiyaların toqquşması və dünya düzəninin dəyişdirilməsi" kitabını nəşr etdir. S.Hantinqton bu işdə Qərb-Xristian və İslam sivilizasiyasının qarşılıqlı münasibətlərinə xüsusi diqqət verir. Onun fikrincə, onlar arasındakı münaqişənin mənbəyi çoxəsrlik tarixə malikdir. Xristianlıqla İslam arasında qarşılıqlı ixtilaflı münasibətlər Şimali Afrikada, İberiya yarımadasında (İspaniya), Yaxın Şərq və digər regionlarda ərəb istilalarından başlayır. Xristian-ərəb qarşıdurması Rekonsistə – İspaniyanın ərəb və barbarların Fələstin torpaqları və onların ətraf bölgələrində möhkəmlənmək üçün təşkil etdikləri Xaç yürüşlərinə qədər davam edir. Bu qarşıdurma ən əlamətdar hadisə kimi 1453-cü ildə türklər tərəfindən Konstantinopolun ələ keçirilməsi və 1529-cu ildə Vyananın mühasirəyə alınmasını göstərir. Bizans imperiyasının süqutundan sonra əvvəllər ona məxsus olan Kiik Asiya, Balkanlar və Şimali Afrika ərazilərində İslam dünyasının ən iri hərbi və siyasi mərkəzinə çevrilən Osmanlı imperiyası meydana çıxdı. Uzun müddət bir çox xristian ölkələri və xalqlarına bilavasitə bu imperiya tərəfindən təhlükə mövcud idi. Böyük coğrafi kəşflər və Qərb-xristian dünyasının İslamla qarşıdurmasında qüvvələr nisbəti Qərbin lehinə dəyişdi. Avropa dövlətləri Avropa ərazilərindən kənarda – Asiya və Afrika qitələrində olan geniş ərazilərdə nəzarəti ələ aldılar. Bu ərazilərin bir çox hissəsində ənənəvi olaraq İslama inanan xalqlar məskunlaşmışdılar. S.Hantinqtonun istinad etdiyi mənbələrin məlumatına əsasən, 1757-ci ildən 1919-cu ilə qədər 92 müsəlman bölgəsinin

qeyri-müsəlman dövlətləri tərəfindən işğalı qeydə alınıb. Avropa müstəmləkəçiliyi və istilaları ona qarşı qeyri-Qərb əhalisinin, əksərən müsəlman əhalinin müqaviməti, silahlı münaqişələrilə müşayiət olunurdu. S.Hantinqtonun qənaətinə görə, 1820-ci ildən 1929-cu ilə qədər dövlətlər arasında müharibələrin yarısı fərqli dinə mənsub olan, xüsusilə Xristian və İslam dövlətləri arasında baş verib. Hantinqtonun fikrincə, onların arasındakı münaqişə bir tərəfdən İslamın həyat tərzinə çevrilmiş müsəlman konsepsiyası ilə din və siyasətdən kənara çıxan Qərb xristianlığı konsepsiyası arasındakı fərqdən qaynaqlanır. Digər tərəfdən, bu münaqişə oxşar çizgilərlə şərtlənir. Həm Xristian, həm də İslam monoteist (təkallahlı) dinlərdir və politeist (çoxallahlı) dinlərdəki kimi başqalarının allahlarını assimilyasiya etmir və dünyaya «biz və onlar» prizmasından baxırlar. Hər iki din universal xarakter daşıyır və Yer kürəsindəki bütün insanların arxasınca gedə biləcəkləri vahid, həqiqi inanc rolunu iddia edirlər. Hər ikisi öz ruhları etibarilə missioner xarakterlidir və öz tərəfdarlarının öhdəsinə prozelitzm (sadiqlik) qoyur. İslam ekspansiyası ilk illərində istila yolu ilə həyata keçirilirdi, amma xristianlıq da belə imkanları əldən vermirdi. S.Hantinqton qeyd edir ki, «cihad» və «xaç yürüşü» təkcə bir-birlərinə oxşar deyillər, həm də bu təzahür bu dinləri başqa dünya dinlərinin içərisindən seçib ayırır. Hantinqtonun fikrincə, XX əsrin sonunda müsəlman və xristian sivilizasiyası arasında köhnə münaqişələrin gərginləşməsi beş amillə şərtlənir.

- Birincisi, müsəlman əhalisinin sayının artması ilə yaranan işsizlər dalğasının və Qərbə miqrasiya edən, İslam hərəkatına qarşı gənclərdə narazılığın yaranması.
- İkincisi, İslamın dirçəlişinin müsəlmanlara öz sivilizasiyalarının və dəyərlərinin xüsusi missiyası və xüsusi xarakterinə inanmaq imkanı verməsi.
- Üçüncüsü, Qərbin öz təsisat və dəyərlərini universallaşdırmağı təmin etməsi, müsəlman dünyasındakı münaqişələrə müdaxilə etmək cəhdləri üçün hərbi və iqtisadi üstünlüyü saxlamağı bacarması.

- Dördüncüsü, kommunizmin dağılmasının həm Qərb, həm də İslam üçün ümumi düşmənin aradan qalxmasına gətirib çıxarması, nəticədə onların əsas təhdid kimi bir-birlərini görməyə başlaması.

- Beşincisi, müsəlmanların və Qərbin nümayəndələri arasında sıx əlaqələrin onların bir-birindən fərqli olduqlarını və başqa sivilizasiyaya aid olduqlarını üzə çıxarması, milli azlıqların nümayəndələrinin mənsub olduğu ölkələrdə hüquqlarının məhdudlaşdırılmasına dözümsüzlük göstərmələri. Hantinqton qeyd edir ki, elə buna görə də 1980-1990-cı illərdə həm müsəlman, həm də xristian sivilizasiyası çərçivəsində dözümlülük azalmağa doğru getdi.

Hantinqtonun fikrincə, Qərb və müsəlman sivilizasiyası arasındakı münaqişənin ənənəvi geosiyasi ölsüçü tarixə qovuşmuşdur. Qərbin məhəlli imperializmi haqda faktiki məlumatın olmaması, müsəlmanların ərazi ekspansiyalarının dayanması coğrafi ayırmaya gətirib çıxardı. Nəticədə Qərb və müsəlman icmaları yalnız Balkanlardakı bir neçə məntəqədə bilavasitə bir-birləri ilə sərhədə malik oldular. Qərb və İslam arasında ərazi aspektindən çox, daha geniş problemlər dayanır: silahların yayılması, insan hüquqları və demoratiya, neft istismarına nəzarət, miqrasiya, İslam terrorizmi və Qərbin müdaxiləsi.

XXI əsrin əvvəllərində İslam terrorizminin fəallaşmasının əks sədası «sivilizasiyaların toqquşması» konsepsiyasına yenidən maraq yaratdı. Buna baxmayaraq, 11 sentyabr 2001-ci ildən sonra Hantinqton Qərb-xristian və İslam sivilizasiyasının qarşıdurması barədə öz tezislərini etibarsız saymağa cəhd etdi. Hər şeydən öncə, o bunu siyasi əxlaq düşüncəsi ilə edirdi. Nyu-York və Vaşinqtona qarşı terrorçuların hücumundan sonra ABŞ-da antimüsəlman əhval-ruhiyyəsi birdən-birə güclənmişdi, buna görə də sivilizasiyalararası münaqişəni xatırlatmaq oxşar əhval-ruhiyyəni alovlandıra və arzuolunmaz xaosa gətirib çıxara bilərdi. S.Hantinqtonun ideyası ətrafında diskussiyalar getməkdə davam edir. Bütün alimlər və siyasətçilər bu ideyalara əsaslanaraq dünya siyasətində baş verən bir çox prosesləri izah edirlər. Digərləri, əksinə, beynəlxalq münasibətlərin real praktikasının «sivilizasiyaların toq-

quşması» konsepsiyasının müddəalarına uyğun olmadığını hesab edirlər. Məsələn, Rusiya sivilizasiya kökləri ilə pravoslav olan Gürcüstanla münasibətlərini postsovet dövründə mahiyyət etibarilə İslam sivilizasiyasına məxsus olan Azərbaycanla müqayisədə daha mürəkkəb qurur. Rusiya Federasiyası kimi çoxmillətli və çoxdinli dövlətlərdə dini fərqlilik məsələsinin şişirdilməsi, habelə sivilizasiyalararası münaqişələrin qaçılmazlığını iddia etmək stabillik və təhlükəsizlik üçün mənfi nəticələr verə bilər. Amma qloballaşan dünyada müxtəlif mədəniyyət və din nümayəndələrinin bilavasitə qarşılıqlı fəaliyyəti şəraitində mürəkkəb münaqişə vəziyyətlərinin yaranacağını nəzərə almamaq olmaz. Bunlar isə Hantinqtonun ideyalarını başa düşməyi və real beynəlxalq münasibətlərin analizində onun rolunu qiymətləndirməyi şərtləndirir. Beynəlxalq münasibətlər nəzəriyyəsi üçün çağırışlar bu kimi daha dinamik proseslərə adaptasiya olacağı ehtimal ediləndir.

***Z.Bjezinskinin geosiyasi konsepsiyası.***1993-cü ildə nəşr olunan «Nəzarətsizlik. XXI əsrin astanasında qlobal qeyri-sabitlik» adlı kitabında Z.Bjezinski, həm də soyuq müharibədən sonra beynəlxalq münasibətlərin inkişafı barədə proqnozlar verir. Lakin S.Hantinqtonun sivil yanaşmasından fərqli olaraq Z.Bjezinskinin yanaşması ənənəvi geosiyasi prinsiplərə əsaslanır. Z.Bjezinskinin fikrincə, Sovet İttifaqının dağılması Avrasiyanın mərkəzində geosiyasi vakuum yaratdı ki, bu da postsovet geosiyasi məkanının perimetri boyu münaqişələrin yaranmasının əsas səbəbi oldu. İslamçılığın fəallaşması ilə yanaşı, ABŞ-ın obyektivlikdən qaynaqlanan bacarıqsızlığı nəticəsində Orta Şərq regionunda vəziyyəti nəzarət altına ala bilməməsi geniş qeyri-stabil zonanın yaranmasına gətirib çıxara bilər, bu vəziyyət isə Cənub-Şərqi Avropa, Orta Şərq və Fars körfəzi regionunu, habelə keçmiş Sovet İttifaqının cənub hissəsini əhatə edə bilər. Z.Bjezinskinin sözlərinə görə, bunun daxilində – «Zorakılıq girdabının ağzında» bütün dünyaya təhlükə xarakteri daşıyan potensial münaqişələr üçün çoxsaylı düyünlər var. Başqa ölkələrin, xüsusilə də Çinin münaqişəyə cəlb olunması ehtimalı mövcud olduğu üçün təhlükə dərəcəsi artmaqdadır. Z.Bjezinski bu dövlət tərəfindən nüvə silahının yayılmaması rejiminə əməl olunacağını şübhə altına alır.

Keçmişdə özünün antisovet baxışları ilə məşhur olan amerikalı politoloq əsas təhlükə kimi Rusiyanın imperialist siyasətinin yenidən baş qaldırmasını görür. Rusiyada demokratik quruluşun dönməzliyinə inanmayan politoloq hesab edir ki, «imperiyanın dirçəldilməsi» cəhdlərinə qayıdılması qaçılmazdır. Z.Bjezinskinin fikrincə, Rusiya xarici siyasətinin belə oriyentasiyası Birləşmiş Ştatlar üçün təhlükədir və bunun əleyhinə hər cür fəaliyyət göstərmək lazımdır. Buna görə də o, çıxış və məqalələrində Rusiyanın geosiyasi çəkisinə qarşı Ukrayna barədə ideyalar inkişaf etdirir. Bu ideya onunla əsaslandırılır ki, «Rusiya imperiyası»nın dirçəldilməsinin başlıca şərti Ukraynanın Rusiya tərəfindən ilhaq edilməsinə bağlıdır. Ukrayna ciddi iqdisadi çətinlik çəkdiyi zaman Z.Bjezinski bu ölkəyə kömək etməyə çağırırdı. O da sirr deyildi ki, kömək etmək məsələsində başlıca hədəf Ukraynanın iqtsadi çətinliklərinin həlli deyil, onun Rusiya ilə yaxınlaşmasının qarşısını almaq idi. Bu cəhdlərin köməyi ilə nəzəri cəhətdən Rusiya-Ukrayna münasibətlərinə pəl vurmaq istənilirdi. Bjezinski bu istiqamətdə praktiki addımlar atmağa cəhd edirdi. Onun oğlu Kiyevdəki ABŞ səfirliyində çalışırdı. Amerikalı politoloqun yetirmələri Rusiya ilə məsafə saxlamağı əsas hədəf seçən millətçi qüvvələri dəstəkləməklə Ukrayna məsələlərinə maraq nümayiş etdirirdilər.

Bjezinskinin fikrincə, postsovet geosiyasi məkanında Rusiya imperiyasının bərpası təhlükəsinin qarşısını almaqda həlledici mövqeyə Ukraynadan başqa Azərbaycan və Özbəkistan da malikdir. Azərbaycan Xəzər neftinin istismarı və daşınması marşrutlarına nəzarət etmək baxımından ciddi rol oynayır. Bjezinski Rusiya ərazisindən yan keçməklə Türkiyənin Ceyhan limanına çıxan cənub neft kəməri marşrutunun tərəfdarlarından olub. O gələcək neft axınının təhlükəsizliyini təmin etmək üçün ABŞ rəhbərliyini Dağlıq Qarabağ münaqişəsinin həllində fəal iştirak etməyə çağırıb. Bjezinski bu məsələyə həm də Qafqazdan Rusiyanın kənarlaşdırılması imkanı kimi baxırdı. 1990-cı illərin sonunda Bjezinski dəfələrlə Şimali Qafqazın Rusiyanın tərkibindən çıxmalı olduğu barədə yazılar yazıb və ya çıxışlar edib. Demək olar ki, ondan başqa tanınmış Amerika siyasətçi və

politoloqlarından heç kim Rusiya Federasiyasının ərazi bütövlüyünü şübhə altına almayıb.

Bjezinskinin ayırdığı üçüncü postsovet dövləti Özbəkistandır. O, belə hesab edir ki, Özbəkistan postovet Orta Asiyasında aparıcı mövqeyə çıxa və bu qismdə Rusiyanın «imperialist» iddialarına qarşı dayana bilər. Amerikalı politoloqun fikrincə, Özbəkistan regionun ən çox əhalisi olan dövlət olduğu və kifayət qədər təbii ehtiyata malik olduğu üçün bu rola daha uyğundur. Özbəkistan keçmiş sovet respublikaları içərisində əsas dövlətçilik ənənələrinə malik olan yeganə ölkədir və onun ərazisində Orta Asiya regionunun əsas tarixi-mədəniyyət abidələri yerləşir. İqtisadi cəhətdən Özbəkistanın Rusiyadan asılı olmadan özünütəmin edəcək səviyyəyə qalxa biləcəyini irəli sürən Bjezinski siyasi inkişafın da bu istiqamətə yönəldilməsinin mümkünlüyünü qeyd edir. Amerikalı politoloqu nə postsovet Özbəkistanının siyasi rejiminin xarakteri, nə də onun seçdiyi iqtisadi modelin effektivliyi maraqlandırır. Özbəkistanın siyasi və iqdisadi sisteminin qurulması prinsipləri rəsmi ABŞ hakimiyyətinin postkommunist dövlətləri üçün arzu etdiyi formada olmasa da, Bjezinski üçün əsas məsələ bu keçmiş sovet respublikasının antirusiya siyasəti yeritməsidir.

Əlbəttə, Bjezinski çoxdan heç bir rəsmi vəzifə daşımır, onun geosiyasi çıxışları ilə Amerika hökumətinin rəsmi mövqeyini fərqləndirmək lazımdır. Ancaq ABŞ siyasi elitasında onun həmfikirləri var, onun özü və yetirmələrinin Demokrat Partiyasının fəalları və tərəfdarları arasında geniş əlaqələri mövcuddur. Soyuq müharibə dövründə Amerikanın aparıcı sovetşünası, Sovet İttifaqı və kommunizm üzrə mütəxəssis Bjezinskinin baxışları sübut edir ki, bu müharibə hələ də özünü hiss etdirir. ABŞ-ın siyasi elitasının bir hissəsi arasında politoloji birliklərdə Rusiyaya münasibətdə haqlı olaraq narahatlıq mövcuddur. Əgər söhbət Rusiya Federasiyası və Amerika Birləşmiş Ştatları arasında gələcək münasibətlərdən gedirsə, bu vəziyyətlə hesablaşmaq lazımdır.

***Vallerstaynın dünya sistemi analizi.*** Mənzərənin tamlığı üçün Rusiyanın beynəlxalq əlaqələr sistemində gələcək rolu barədə məşhur ABŞ sosioloqu İ. Vallerstaynın proqnozunu təqdim edirik. Onun

xarici siyasi konsepsiyası daha çox neomarksist olaraq müəyyənləşdirilir. Təbii ki, bu cür xarakterizə Vallerstaynın da Marks kimi iqtisadiyyatı siyasətin başlıca determinantı qbul etdiyi halda ədalətli sayıla bilər. Vallerstayna görə, beynəlxalq münasibətlərin əsasında ən öncə iqtisadi münasibətlər durur. Onun analizinin başlıca kateqoriyası ayrı-ayrı dövlətlər tərəfindən yürüdülməsi mümkün olan «müasir dünya sistemi»dir. Vallerstaynın müəyyələşdirməsinə görə, bu «müasir dünya sistemi»ni təxminən XV əsrdə meydana çıxan vahid kapitalist «dünya iqtisadiyyatı» birləşdirir. Hər dövlət dünya sistemində müəyyən yer tutur və onun yerini dəyişmək çox çətin, hətta demək olar ki, mümkünsüzdür. Kapitalist dünya iqtisadiyyatının qanunauyğunluqları dünya ölkələrini «nüvə» və «ətraf»lara (periferiya) bölməyi qaçılmaz edir ki, burada birinci həmişə ikinciyə nisbətən imtiyaza malik vəziyyətdə olur. Kapitalist dünya sisteminin nüvəsinə daxil olan dövlətlər ətrafların istismarı hesabına yaşamaq imkanı əldə edir.

Dünya iqtisadiyyatının əsası qoyulandan bəri bu prinsip mövcud olduğu üçün bu qayda heç bir vaxt dəyişməyəcək. Nüvə və ətraf hissələrə daxil olan dövlətlərdən başqa «yarımətraf» dövlətlər də mövcuddur. Onlar nüvə dünya sisteminə daxil deyillər, həm də bütövlükdə ətraf dövlətlərə də aid edilmirlər.

Vallerstaynın fikrincə, I Pyotr və II Yekaterinanın islahatlarından başlayaraq Rusiya da bu cür tipik yarımətraf dövlət olub. O vaxtkı və sonrakı islahatlara baxmayaraq, Rusiya bu nüvənin tərkibinə daxil ola bilməyib, eyni zamanda o, əsasən dünyanın aparıcı dövlətlərinin müstəmləkəsinə çevrilən ətraf ölkə rolunda çıxış etməkdən xilas ola bilib. Dünya sistemində Rusiyanın yeri və rolunu müəyyən edən ənənəvi «əmtəə» onun geosiyasi gücü və hərbi qüdrəti olub. Məhz bu faktorlar digər dövlətləri Rusiya ilə hesablaşmağa məcbur edir və ona «nəhəng dövlət» statusu qazanmağa imkan verir. Prinsipcə sovet hakimiyyəti illərində də bu situasiya dəyişməz qaldı. İ.Vallerstayn belə hesab edir ki, ayrılıqda bir dövlətdə və ya dövlətlər qrupunda baş verən dəyişikliklər dünya sisteminin əsas quruluşuna təsir göstərmək qabiliyyətinə malik olmur. Onun nöqteyi-nəzərincə, sosializm dünya sistemi yalnız uydurma idi, belə ki, dünya iqtisadi siste-

minin inkişaf qanunauyğunluqları kapitalizm bazarının qanunları ilə müəyyənləşdirilirdi.

Soyuq müharibə, onun nəticələri, habelə onun başa çatmasından sonra beynəlxalq münasibətlərin inkişaf perspektivləri barədə Vallerstaynın gəldiyi nəticələr və verdiyi qiymətlər olduqca orijinal, hətta qeyri-adidir və onlar ümumi qəbul olunmuş qiymətlərlə kəskin fərqlənir. Vallerstayn hesab edir ki, İkinci Dünya müharibəsindən dünyanın iqtisadi və siyasi lideri qismində çıxan ABŞ öz qüdrətinin zirvəsinə 1945-ci ildə çatdı. Birləşmiş Ştatlar dünya sisteminin nüvə dövlətləri içərisində yeganə dövlət idi ki, müharibənin dağıntı və digər neqativ nəticələrindən kənarda qalmışdı. Bununla bərabər, hətta özünün iqtisadi-sənaye potensialını artırmışdı.

Amerika iqtisadiyyatının bundan sonrakı fəaliyyəti və inkişafı üçün dünya sistemi nüvəsinin qalan hissəsini – Qərbi Avropa və Yaponiyanı bərpa etmək və qorumaq lazım idi. Buna görə də ABŞ və SSRİ rəhbərləri Yaltada dünyanın iki təsir dairəsinə bölünməsi barədə razılığa gəldilər. ABŞ-ın təsir dairəsinə əsasən dünyanın nüvə hissəsinə aid olan dövlətlər, sovet təsir dairəsinə isə əksəriyyət ətraf və yarımətraf dövlətlər daxil edildi. Vallerstaynın qənaətincə, ABŞ şüurlu şəkildə bu cür bölünməyə razılıq verdi. Ona görə ki, o, bütün dünya üzərində qlobal nəzarəti həyata keçirmək üçün nə kifayət qədər ehtiyata, nə də istəyə malik idi. Öz cavabdehlik zonası sərhədləri daxilində ABŞ əvvəlcə Qərbi Avropa və Yaponiyanın iqtisadiyyatını bərpa etməyə kömək göstərməyə başladı, sonra isə öz nüfuzundan istifadə edərək müvafiq müqavilələr (Qərbi Avropa üçün NATO, Yaponiya üçün birgə təhlükəsizlik haqqında müqavilə) bağlayaraq hərbi-siyasi cəhətdən özünü birləşdirdi. Öz bloku daxilində intizamı saxlamaq üçün ABŞ-a xarici düşmən obrazı yaratmaq lazım idi. Bu qisimdə isə Sovet İttifaqını görürdü. ABŞ-la SSRİ «soyuq müharibə» adı altında böyük oyuna başladılar. Sovet İttifaqı öz müttəfiqləri üzərində nəzarəti gücləndirməyi hədəf seçməklə daha çox «züytutan» partnyor qismində çıxış edirdi. Soyuq müharibənin ilkin mərhələsində həm Qərbdə, həm də Şərqdə başqa cür düşünənlərə qarşı olduqca oxşar şəkildə mübarizə aparılırdı. Markrsizmə qarşı mübarizə – «əcinə

ovu» həm ABŞ-da, həm də SSRİ və Şərqi Avropa dövlətlərindəki siyasi proseslərdə özünü göstərirdi. Vallerstaynın iddiasına görə, əslində kapitalist dünya iqtisadiyyatının özünə dayaq tapdığı dünya sisteminə təhlükə təşkil edən həqiqi solçu qüvvələr sıradan çıxarıldı. Ümumi qəbul olunmaş fikrə baxmayaraq, Vallerstayn soyuq müharibə illərində beynəlxalq münasibətlərdə ikiqütblü sistemin yaranmasını qəbul etmir, belə ki, Sovet İttifaqının iqtisadi potensialı heç vaxt ABŞ-ın iqtiqsadi potensialı ilə bərabər olmayıb. Ancaq bu ölkələr üçün bir-birinə qarşı olan nəhəng dövlətlər rolu oynamaq sərfəli idi və onlar uzun müddət bu işi görürdülər. Xüsusi olaraq, «üçüncü dünya» ölkələrinə çevrilən ətraf ölkələrə münasibətdə həm SSRİ, həm də ABŞ eyni prinsiplərə söykənən oxşar siyasət yürüdürdülər. Vallerstayn müstəmləkə və asılı xalqların məsələsilə bağlı ABŞ prezidenti V.Vilsonla V.Leninin ideyaları arasında elə bir ciddi fərq görmürdü. Hər ikisi əvvəlcə onlara müstəqillik vermək, daha sonra iqtisadi geriliyi aradan qaldırmaq və inkişaf etmiş ölkələr səviyyəsinə çatmaq üçün kömək etməyi lazımlı hesab edirdi. Burada tək fərq ondan ibarət idi ki, liberal V.Vilsonun nöqteyi-nəzərincə, iqtisadi quruluş üçün sərbəst bazar ideal sayılırdı, bolşevik V.Lenin isə kapitalist inkişaf dövrü keçən geridə qalmış xalqlar üçün iqtisadi çiçəklənmə təklif edirdi. Həm Sovet İttifaqı, həm də ABŞ inkişaf etmiş ölkələr hesabına öz təsir zonalarını genişləndirməyə çalışırdılar, amma dünya sistemində bu ölkələrin yeri prinsipcə dəyişmirdi. Vallerstayna görə, sadəcə ayrı-ayrı ətraf və yarımətraf dövlətlər dünya sisteminin nüvəsinə daxil ola bilərlər. Hələ ki, kapitalist dünya iqtisadiyyatı mövcuddursa, bir qədər inkişaf etmiş dövlətlər tərəfindən istismar obyekti kimi qalan əksər dövlətlərin vəziyyətini dəyişmək mümkünsüzdür. Bununla belə, uzun müddət milli inkişaf imkanları barədə illüziyalar mövcud olub. Ayrı-ayrı dövrlərdə bəzi inkişaf etməkdə olan ölkələr özləri üçün əlverişli olan dünya iqtisadiyyatı konyukturasındakı dalğalanmalardan istifadə edə bildi.

«Soyuq müharibə» adlı oyun o vaxta qədər davam etdi ki, əsas oyunçular olan ABŞ və SSRİ ona maraq göstərir və onu davam etdirə bilirdilər. Vaxt keçdikcə, ona maraq sönməyə, onu aparmağa imkanlar isə azalmağa başladı. ABŞ dünya sisteminin nüvəsi çərçivəsində əvəz-

siz iqtisadi lider rolunu itirdi, buna müvafiq olaraq özünün yaxın müttəfiqlərinə real nəzarət imkanlarını da itirdi. Bununla da oyuna bu cür nəzarət etməyin əsaslandırılması məqsədini qarşıya qoymaq mənasızlaşdı. Onun effektsiz iqtisadiyyatı nə silahlanma yarışına, nə də dünya üzrə çoxsaylı dostları və müttəfiqlərini dəstəkləməyin ağırlığına dözmədiyindən bu oyunu davam etdirmək üçün Sovet İttifaqının bütün ehtiyatları tükəndi. Nəticədə ABŞ və SSRİ-nin qarşılıqlı razılığı ilə soyuq müharibə dayandırıldı. Əsasən Bjezinski tərəfindən yayılan fikirlərin əksinə olaraq soyuq müharibənin başa çatması ABŞ-ın qələbəsi deyil, əksinə, Amerika hegemoniyasının və liderliyi erasının sonu anlamına gəlirdi. Soyuq müharibənin başa çatması bəşəriyyətin «qızıl əsr» «tarixinin sonu»nu yox, yeni münaqişələrin yaranmasına və köhnələrin gərginləşməsinə gətirib çıxardı. Hantinqtondan fərqli olaraq Vallerstayn gözlənilən münaqişələrin səbəbini mədəni deyil, iqtisadi amillərlə əlaqələndirir. Onun fikrincə, artıq XXI əsrin əvvəllərində haşiyələnmiş, yoxsul və geridə qalmış Cənub dövlətlərinin zəngin Şimala meydan oxuması, hətta birbaşa hücumunu, habelə Cənub dövlətləri arasında nüvə silahlarından istifadə etməklə işğalçı müharibələri gözləmək olar. Ancaq ən böyük təhlükə dünya sisteminin nüvə dövlətlərinə qarşı ətraf dövlətlər tərəfindən (Cənub əhalisinin Şimala kütləvi miqrasiyası) törənə bilər.

Vallerstaynın fikrincə, K.Marksın «proletariatın hədəfi kapitalizmi məhv etməkdir» anlayışı müasir şərtlərə uyğun gəlmir. XX əsrin sonunda dünya sistemi çərçivəsində «proletariat» anlayışı deyəndə ətraf ölkələrin bütün əhalisi başa düşülməlidir. Ötən onilliklərdə «üçüncü dünya» ölkələrində daha yaxşı gələcək ümidi qalmaqda idi, ancaq soyuq müharibənin başa çatması ilə bu ümidlər puça çıxdı. Cənubun əksər ölkələri əvvəlki strateji əhəmiyyətini itirdi, iqtisadi münasibətlərdə isə onlar bir az daha dünya təsərrüfatının son kənarlarına (ətraflara) doğru itələndi. Vallerstaynın qənaətinə əsasən, gələcəkdə dünya iqtisadiyyatı çərçivəsində əksər investisiyaların Çinə, Rusiyanın bir hissəsinə və Şərqi Avropa ölkələrinə yönəldilməsi gözlənilir.

Əksər ətraf ölkələrin və əhalisinin vəziyyəti yalnız pisləşəcək. Müasir proletariat – Cənub ölkələrinin əhalisi kapitalizmi məhv etmək

yox, kapitalizm şəraitində yaşamaq istəyir. Bu öz doğma vətənlərində mümkün olmadığı üçün Afrika və Asiyadan olan miqrantlar kütləsi Şimalın rifah halı yüksək olan ölkələrinə can atır. Bu axın artıq başlayıb və özü ilə birlikdə müxtəlif mənfi nəticələrə gətirib çıxaracaq. Qeyd olunduğu kimi, Vallerstayn yayılmış fikirlərə zidd olaraq iddia edir ki, soyuq müharibə qələbə ilə deyil, liberalizmin tarixi məğlubiyyəti ilə başa çatıb. O, arqument qismində bir tərəfdən Vilsonun öz müqəddəratını təyinetmə və müstəmləkə dövlətlərinin və xalqların bundan sonrakı inkişafını nəzərdə tutan planının iflasını gətirir, digər tərəfdən inkişaf etmiş ölkələrdə sosial liberalizmin və liberal sosializmin qazandıqlarının məhv olmasını irəli sürür.

Liberal və sosial demokrat partiyaların və həmkarlar təşkilatlarının fəaliyyəti hesabına inkişaf etmiş dövlətlərdə insan hüquqlarına riayət olunması və hörmət edilməsi prinsipləri bərqərar olub. Muzdlu işçilərin maddi rifahı yüksək səviyyəyə çatıb və onlar cəmiyyətdə layiqli yerlərini tutublar. Vallerstaynın fikrincə, qeyri-leqal miqrantların axını Qərbi Avropa və Şimali Amerikanın maddi rifah halı yaxşı olan ölkələrinin hakimiyyətləri tərəfindən miqrasiyanın qarşısını almaq yönündə tədbirlərə əl atmaq məcburiyyətində qoyur, bu isə yerli əhalinin maraqlarını qorumaq naminə insan hüquqlarının pozulmasına rəvac verilməsi və zorakılıq tədbirlərinin güclənməsinə gətirib çıxaracaq. Miqrasiyanı tamamilə dayandırmaq mükün deyil, qeyrileqal miqrantların sayı artacaq və əmək bazarına mənfi təsir göstərəcək. «Üçüncü dünya» ölkələrindən gələnlər sürətlə böyüyən ucuz fəhlə qüvvəsi ehtiyatı olacaq və bu özü ilə birlikdə işsizliyin artmasına və əsas əməkçi kütləsinin əmək haqqının aşağı salınmasına gətirib çıxaracaq. Bütün bunlar yerli əhali ilə daha aşağı səviyyəli təhsilə malik, başqa dinə sitayiş edən və başqa dəyərlər sisteminə malik miqrantlar arasında münaqişələri qaçılmaz edir. Sosial və milli gərginliyin güclənməsi hakimiyyət tərəfindən zorakı metodların güclənməsi ilə müşayiət olunacaq və bu da liberal-demokrat prinsiplərdən uzaqlaşmağa gətirib çıxaracaq. Ümumi rihafa malik sosial dövlətin sonu gələcək. Ona görə ki, Cənub ölkələrindən axışıb gələnlər Qərb ölkələrinin cəmiyyətlərinə

tam inteqrasiya olunmağı bacarmadıqları üçün keçmiş miqrantların bir hissəsi kriminal yola yuvarlanacaqlar.

Cinayətkarlığın artması, milli, sosial, dini xarakter daşıyan münaqişələr təhlükəsizliyin təmin olunması üçün xərclərin artırılmasını zəruri edəcək. Ehtiyatların ictimai istehsal və sosial xidmət sahələrindən ictimai asayişin qorunmasına yönəldilməsi əhalinin əsas hissəsinin həyat səviyyəsinə mənfi təsir göstərəcək.

Vallerstaynın fikrincə, XXI əsrin ortalarında ABŞ-da həyat səviyyəsi XX əsrin 80-90-cı illərində xaricdə olan səviyyəyə yaxınlaşacaq, hətta ondan aşağı olacaq. Keçmişdə beynəlxalq münasibətlər sistemində ikiqütblülük xarakterinin olduğunu inkar edən Vallerstayn bir daha ümumi qəbul edilmiş anlayışlara qarşı çıxaraq ikiqütblülüyün gələcəkdə, soyuq müharibənin başa çatmasından sonra ortaya çıxması imkanlarını ehtimal edir. Bu, dünya sistemində baş verən proseslərlə şərtləndirilir. Politoloq güman edir ki, dünya sisteminin nüvəsi daxilində münasibətlər qeyri-sabit olacaq. İqtisadi rəqabət üç əsas güc mərkəzini ortaya çıxaracaq – ABŞ, Yaponiya və birləşmiş Avropa.

Ancaq antiavropa təmayülə malik olan ABŞ və Yaponiyanın gələcəkdə bir blokda birləşməsi qaçılmaz olacaq. Vallerstayn eyni zamanda bu blok tərəfindən Avropa dövlətləri ilə rəqabət zamanı imkanları genişləndirmək üçün Çindən istifadə olunmasını qaçılmaz hesab edir. Bu vəziyyətdə ABŞ-Yaponiya-Çin alyansına qarşı Rusiya-Avropa bloku yaradıla bilər. Rusiya yenidən özünün ənənəvi rolu – geosiyasi və hərbi qüdrəti ilə tələb oluna bilər.

Amerikalı politoloq şübhə etmir ki, yaxın zamanlarda Rusiyanın potensialı bərpa olunacaq. İ.Vallerstaynın Rusiyanın perspektivi ilə bağlı ümumi proqnozu yüksək optimizmdən uzaq olsa da, ifrat pessimizmə də yaxın deyil. Rusiyanın «Svobodnaya mısl» («Azad fikir») jurnalının suallarına cavabında o deyib: «Mən əminəm ki, Rusiya həmişə olduğu kimi, dünya sistemində statusunu artırmaq üçün çox çalışacaq və həmişə olduğu kimi, onun cəhdləri yarıuğurlu olacaq. Sabah (daha dəqiqi, sonrakı 20-90 il ərzində) sizi nə fəlakət, nə də çiçəklənmə gözləyir, sadəcə Rusiya üçün adi olan enişli-yoxuşlu tarix».

Gələcəyi təhlil edən Vallerstayna görə, nə qədər ki, dünya kapitalizm iqtisadi sistemi mövcuddursa, ən azı, XXI əsrin ortalarına qədər olan dövr qaranlıq vəd edir – ətraflarda və dünya sisteminin mərkəzində münaqişələr, böhranlar qaçılmaz olacaq. Vallerstaynın şəxsində neomarksizm, K.Marks, F.Engels və V.İ.Lenin üçün daha xarakterik olan sosial optimizmdən çox uzaqdır. Ancaq Vallerstaynda ənənəvi marksizmə oxşar olan mülahizə və nəticələr tapmaq olar. O dünyanın inqilab yolu ilə yenidən qurulması ehtimalına inamını saxlayır. Düzdür, o bunu qeyri-müəyyən uzaq gələcəkdə kapitalist dünya iqtisadiyyatına hökm edənlərə meydan oxumaq qabiliyyətinə malik yeni antisistem qüvvələrinin ortaya çıxması ilə şərtləndirir. Onun bütün orijinal, hətta qəribə baxışlarına baxmayaraq, İ.Valerstaynın bəzi qənaətləri diqqətəlayiqdir. Hər şeydən qabaq, bu, inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr üçün qloballaşmanın nəticələrinin analizi məsələsidir. Müasir dünya siyasəti və iqtisadiyyatının hər iki mərkəzi arasında qarşıdurmanı qətiləşdirmək düzgün olmasa da, Vallerstaynın proqnoz verdiyi ABŞ və Avropa Birliyi arasında ayrı-ayrı qarşıdurma elementlərini artıq bu gün müşahidə etmək olur. Bununla belə, soyuq müharibə başa çatandan sonra dünya inkişafının perspektivləri barədə İ.Vallerstayn, habelə F.Fukuyama, S.Hantinqton və Z.Bjezinski tərəfindən verilən qiymət və qənaətləri yalnız gələcək təsdiq və inkar edə bilər. Son onillikdə dünyada baş verənlər, dəyişiklər o qədər genişmiqyaslı və dərinliyə malikdir ki, görünür, adekvat olaraq onları dərk etmək və izah etmək üçün siyasət elminə hələ çox vaxt lazım gələcək.

Xarici siyasətin öyrənilməsində qərarların qəbul və təhlil edilməsi mühüm əhəmiyyət kəsb etdiyindən ***Qərarların qəbul edlməsi nəzəriyyəsini*** qısaca şərh edək.

Qərarların qəbul edilməsi nəzəriyyəsinin intellektual kökləri XVIII əsrə gedib çıxır. Uzun illər ərzində bu nəzəriyyə sosiologiya, psixologiya, iqtisadiyyat elmlərində tətbiq edilirdi. 1960-cı illərin əvvəllərində seçkilərin və ictimai rəyin öyrənilməsi ilə əlaqədar bu nəzəriyyə politologiya elmində geniş tətbiq edilməyə başladı.

Qərarların qəbul edilməsi prosesinin (QQEP) təhlilinə dair klassik yanaşma tədqiqatı iki əsas mərhələyə bölür.

**Birinci mərhələdə** qərar qəbul edən əsas şəxslər (məsələn, dövlət başçısı və onun məsləhətçiləri, xarici işlər, müdafiə, mili təhlükəsizlik və digər nazirliklər) müəyyən edilir və onların hər birinin rolları göstərilir. Nəzərə alınır ki, bu şəxslərin istənilən dövlət idarəsindən hər hansı bir vacib məlumatı tələb etmək səlahiyyətləri vardır.

**İkinci mərhələdə** qərarları qəbul edən şəxslərin (QQEŞ) dünyagörüşlərini, təcrübələrini, siyasi baxışlarını, idarəetmə üsullarını nəzərə almaqla onların siyasətdə üstün tutduqları amillərin təhlili aparılır.

**F.Brayad və M.R.Cəlili** QQEP-nin təhlil metodlarını ümumiləşdirərək dörd əsas yanaşma olduğunu göstərirlər.

***Birinci yanaşmaya*** (rasional seçim modeli) əsasən qərar vahid və rasional şəkildə düşünən lider tərəfindən milli maraq əsasında seçilir. Hesab olunur ki,

- qərarı qəbul edən şəxs dəyərlərin bütövlüyünü və iyerarxiyalığını nəzərə alaraq fəaliyyət göstərir. Onun bu dəyərlər haqqında tam təsəvvürü vardır;
- o, seçiminin mümkün nəticələrini nəzərə alır;
- QQEP qərara təsir edə biləcək hər hansı bir yeni məlumat üçün açıqdır.

***İkinci yanaşma*** qərar müəyyən edilmiş qaydalara uyğun olaraq müxtəlif hökumət strukturlarının təsiri ilə qəbul edildiyi göstərilir.

Qərar ayrı-ayrı hissələrə bölünmüş olur. Hökumət strukturlarının dağınıqlığı, xüsusilə onların bir-birilə qarşılıqlı münasibətlərinin mürəkkəbliyi QQEP-nə maneçilik törədir, çünki bu və ya digər seçimin nəticələrinin sistemli şəkildə dəyərləndirilməsi pozulur.

***Üçüncü yanaşmada*** qərar sövdələşmənin nəticəsi kimi qələmə verilir. Sövdələşmə bürokratik iyerarxiyanın, hökumət idarəsinin üzvləri arasında baş verir. Burada hər bir nümayəndəsinin dövlətin xarici siyasətinin prioritetləri haqqında öz maraqları, mövqeyi vardır.

Nəhayət, ***dördüncü yanaşmada*** nəzərə alınır ki, QQEŞ bir çox hallarda mürəkkəb şəraitdə olduqlarına görə məhdud, yarımçıq məlumata malik olurlar. Bundan başqa onlar bu və ya digər seçimin nəticə-

lərini qiymətləndirmək iqtidarında deyillər. Belə olan şəraitdə onlar problemi bölmək məcburiyyətində qalırlar.

F.Brayad və M.R.Cəlilinin fikrincə, bu dörd yanaşmadan heç birini ayrı-ayrılıqda istifadə etmək düzgün deyil, çünki real həyatda hər bir yanaşmada təqdim olunan proseslər bir-biri ilə bağlıdır.

QQEP bu və ya digər konkret beynəlxalq vəziyyətin, məsələn, dövlətlərarası münaqişənin mümkün inkişafının proqnozlaşdırılması üçün istifadə edilir. Burada QQEP-nə bilavasitə aid olan faktorlarla bərabər QQEŞ-in əlində olan resurslar da nəzərə alınır.

Qeyd etmək lazımdır ki, bəzən ədəbiyyatda qərarın qəbul edilməsini siyasi qərar qəbul etmək (policy-making) ilə eyniləşdirirlər.

Bu, düzgün deyil. Birinci məfhumun həcmi ikinci məfhumun həcmindən daha genişdir. Daha konkret desək, qərarın qəbul edilməsinə bütün seçimlər, o cümlədən siyasi seçimlər də daxildir. Siyasi qərar qəbul etməyə isə yalnız hakimiyyətdə olan şəxslər tərəfindən qəbul olunan qərarlar aiddir.

Qərarın qəbul edilməsi problemin həll olunmasında (problem-solving) da fərqlənir, çünki ikincidə problem və onun alternativ həlli yolları verildiyi halda, birinci problemlərin və alternativlərin axtarışı kimi çıxış edir. Ceyms Robinson qərarın qəbul olunmasını seçim üçün problemi müəyyən edən və həyata keçirmək məqsədilə konkret alternativlərin sırasından bir neçə alternativi seçən bir sosial proses kimi izah edir.

Qərarların qəbul edilməsinin təhlilini xarici siyasətin öyrənilməsinə **ilk dəfə Robert Şnayder** tətbiq etmişdir. Bu proses beynəlxalq münasibətlərdə aktorların davranışlarını doğuran səbəblərin müəyyən olunmasına yönəlmişdir.

Qərarın qəbul edilməsi yanaşmasının iki əsas məqsədi vardır:

- Qərarların qəbul olunduğu və konkret işlərin həyata keçirildiyi siyasi sahədə mühüm strukturların müəyyən edilməsi;
- Konkret fəaliyyətlə nəticələnən qərarın qəbul olunmasının sistemli təhlili.

Beləliklə, qərarın qəbul edilməsi qərar qəbul edənləri (aktorlar) və qərar qəbul edən sahə kimi təqdim olunan dövləti tədqiq edir. Mə-

lumdur ki, dövlətin fəaliyyəti qərar qəbul edənlərin fəaliyyətlərinin prizmasından görünür. Qərarın qəbul edilməsi yanaşmasına əsasən, qərar qəbul edənlərin fəaliyyətləri ümumilikdə fəaliyyətlərin məzmununun təhlili baxımından təsvir olunmalıdır və aktorlar mövcud şəraitə qərarın qəbul edilməsinin əsası kimi yanaşmalıdırlar. Həmçinin bu yanaşmaya əsasən, qərar qəbul edənlərə ilk növbədə onların mövcud şəraiti anlamaları təsir edir. Buna görə, bizim məqsədimiz qərar qəbul edənlər tərəfindən gerçəkliyin dərk olunmasını təhlil etmək və anlamaqdır. Qərarın qəbul edilmə yanaşması qərar qəbul edənlər tərəfindən təsvir olunan şəkildə mövcud situasiyanın qurulmasında bizə kömək edə biləcək nəzəri çərçivənin irəli sürülməsidir. Beləliklə, tədqiqat üçün faktlar qərar qəbul edənlərin fəaliyyətini izah edən faktorlar əsasında seçilməlidir.

Xarici siyasətə dair qərarların qəbul olunduğu şərait qərar qəbul edənlər tərəfindən dərk olunan şəraitdir. Bu şərait daxili və zahiri hissələrdən ibarətdir. Daxili hissələrə qərar qəbul edənlərin fəaliyyət göstərdikləri hakimiyyət strukturları, psixoloji və texnoloji şəraitlər, əsas dəyər və məqsədlər, cəmiyyətdəki təsirlərin müxtəlif növləri aiddir. Zahiri hissələrə isə beynəlxalq sistemdə fəaliyyət göstərən bütün müvafiq faktorlar aiddir.

Qərarın qəbul edilməsi nəzəriyyəsinin bəzi ciddi çatışmazlığı vardır:

- O, qeyri-müəyyənlik prinsipinə əsaslanır və buna görə də faktorlardan hansının həqiqətə müvafiq olduğunu göstərə bilmir;
- O, xarici siyasət sahəsində qəbul olunan müxtəlif qərarların yalnız təhlili ilə məşğul olur. Qərarlardan hansının doğru, hansının isə yanlış olması onu maraqlandırmır;
- Qərarın qəbul edilməsi nəzəriyyəsi bu və ya digər siyasəti izah etmək üçün, yaxud beynəlxalq sahədə qaydaları təyin etmək üçün heç bir meyar irəli sürmür. Bunun əvəzinə o, səbəblər və fəaliyyətlər arasındakı münasibətlərin izahını təqdim edir.

Qeyd olunan çatışmazlıqlar qərarın qəbul edilməsi nəzəriyyəsinin beynəlxalq münasibətlərin öyrənilməsində tamamilə yararsız olduğunu göstərmir. Lakin bu yanaşmanın qərəzliliyini nəzərə almaq vacibdir.

Yanaşmanın müxtəlif xarici siyasətlərin müqayisəli tədqiq olunmasında əhəmiyyəti böyükdür. Onun rolu böhran şəraitində qərarların təhlil olunması zamanı xüsusilə artır, çünki böhran istənilən halda özünü müxtəlif cür göstərir və qərarın təhlili yalnız konkret böhranın öyrənilməsi ilə bağlıdır.

# II FƏSİL

# BEYNƏLXALQ PROQNOZLAŞDIRILMA BEYNƏLXALQ MÜNASİBƏTLƏRİN NƏZƏRİYYƏ VƏ PRAKTIKASINDA

Beynəlxalq proqnozlaşdırılmanın beynəlxalq münasibətlərin nəzəriyyə və praktikasında əlaqəsini tədqiq etmək üçün aşağıdakı vəzifələri yerinə yetirmək lazımdır:

- beynəlxalq proqnozlaşdırmanın əsas metodlarını təhlil etmək, onların daha çox effektiv tətbiq sahələrini meydana çıxartmaq;

- ən çox yayılan proqnostik ssenarilərə baxmaq və onların təkamülünü izləmək;

-təcrübədə proqnostik tədqiqatların xarici siyasət qərarlarının qəbul edilməsi prosesinə təsir dərəcəsini müəyyən etmək.

Məsələnin mahiyyətini dərk etmək üçün ilk öncə beynəlxalq proqnozların mürəkkəbliyi və inkişaf çətinliklərinə qısa da olsa ekskurs edək.

## 2.1. Beynəlxalq proqnozların mürəkkəbliyi və inkişaf çətinlikləri

Proqnozların mürəkkəbliyi bir qayda olaraq, onların geniş maddi və məkan həcmindən, əsasən də beynəlxalq münasibətlər substansiyasının mürəkkəbliyindən və beynəlxalq proqnostikanın formalaşmamış konsepsiyası və onun spesifik metodologiyasından irəli gəlir. Beynəlxalq proqnozların mürəkkəbliyi nəticəsində keyfiyyətli proqnostik təhlil aşağıdakı metodoloji tələblərin yerinə yetirilməsinə ehtiyacı duyur:

1. Ayrı-ayrı sahələri müqayisə etmək və istifadə etmək, beynəlxalq münasibətləri və bu sahələrin nəzəri şərhinin uğurlarını dinamik surətdə görmək imkanını qazanmaq üçün proqnozlaşdırmanın əsasını çoxsahəli yanaşma (belə ki, hələ sahələrarası yanaşmanın tətbiqi mümkün deyil) təşkil etməlidir.

2. Beynəlxalq münasibətlərin düzgün təsvirini (vəziyyətini) tərtib etməyi öyrənmək zəruridir. Məsələ mövcud vəziyyəti diqqətlə sə-

nədləşdirilmək, doğru və şübhəli elementləri, boşluğu əks etdirmək, həmçinin şübhəli elementləri aydınlaşdıran və boşluqları doldura bilən araşdırmaların miqyasını və növünü təyin etməkdədir. Bu təsvir proqnostik təhlildə istifadə oluna biləcək göstəricilərin müəyyən edilməsinə vasitəçilik etməlidir. Nisbətən mükəmməl göstəricilər texniki-iqtisadi və hərbi-strateji potensialda özünü göstərir, digər sahələrdə göstəricilərin müəyyən edilməsi onların lap əvvəldən işlənməsini tələb edir.

3. Proqnostik analiz proqnozlaşdırma zamanı tətbiq edilən dəqiq ifadə edilmiş prinsiplərdən irəli gəlməlidir. Həmin prinsiplər proqnozlaşdırma zamanı proqnostik mühakimələrin düzgünlüyünə və proqnozlaşdırılan hadisənin və ya prosesin getməsi barədə məlumatın təsiri altında proqnozun modifikasiyasının nizamlanmasına vasitəçilik edən proqnozlaşdırılan hadisələrin, beynəlxalq münasibətlərin spesifikasiyasına aid olmalıdırlar.

Beynəlxalq proqnostikanın inkişafının başlıca vacib amilləri:

1. ABŞ, Böyük Britaniya, Cin, Yaponiya, Almaniya, Türkiyə, İsrail, İran və s. kimi görkəmli və iri region dövlətlərinin mövqeyi. Bu ölkələrin hökumətləri öz xarici təsirlərini daha effektiv planlaşdırmaq üçün beynəlxalq proqnozların müxtəlif növlərinə müraciət edirlər. Qərarların qəbul olunmasında hökumətin funksiyası onun gələcəkdə faydalı olub olmyacağını qabaqcadan görməyi tələb edir. Öz növbəsində istənilən nəticəyə nail olmaq üçün qərarların qanunauyğunluğu hökumətlər tərəfindən beynəlxalq aləmdə, xüsusilə də öz xarici siyasətlərində gələcəyə və ya yaxın gələcəyə aid olan bacarıqlı şəkildə həyata keçirilən cari proseslərin, uyğun olaraq, müvafiq elmi metodların və yolların dayanmadan optimallaşdırılmasına nəzarət etməsindən asılıdır.

2. İkincisi daha çox ehtiyac duyulan sektorlardan başlayaraq beynəlxalq münasibətlər sahəsində hökumətlərin proqnostik araşdırmalara olan artan marağıdır.

Bu həmin araşdırmalarla məşğul olan institut və alimlər üçün müvafiq maddi-təşkilati şəraitin yaradılması, müvafiq tədqiqat mövzularının təşkili və zəmanəti, alimlərin ətraflı beynəlxalq məlumata olan

ehtiyaclarının ödənilməsi, xarici işlər nazirliklərində proqnozlaşdırma yerlərinin yaranmasında və s. özünü büruzə verir. Elmin xarici siyasətlə, həmçinin həmin siyasətlə məşğul olan orqanların fəaliyyəti və qərarların qəbul olunması ilə əlaqəsi daha qabarıq gözə çarpır.

3. Beynəlxalq proqnostikanın inkişafının üçüncü yararlı amili, eyni zamanda ilkin şərti müasir beynəlxalq münasibətlərin mexanizmi, yəni digər dövlətlərin və əks siyasi strategiyaların fəaliyyətinin "qəflətən hücumuna məruz qalmamaq" məqsədilə beynəlxalq münasibətlərin növbəti təkamül vəziyyətini daha dəqiq proqnozlaşdırma sahəsinin müxtəlif səviyyədə inkişaf etdiyi ölkələrin arasında rəqabətdir.

Məhz bu rəqabət ayrı-ayrı ölkələrin beynəlxalq proqnostikaya olan marağını artırır və onun inkişaf etdirilməsinə zəmin yaradır. Hal-hazırda bu vəziyyət böyük məna kəsb edir, belə ki, indi iki sistemin konfrontasiyası, "soyuq müharibə" mövcud deyil, bu isə öz növbəsində uzunmüddətli əməkdaşlığın yaranmasına vasitəçilik edir. Buna görə də beynəlxalq proqnostika yaranmış ziddiyyətlərin aradan qaldırılması üçün ən müasir və vacib alətlərdən biridir.

Qeyd olunan amillər beynəlxalq proqnostikanın inkişafı üçün geniş imkanlar yaradır. Lakin bunlarla yanaşı beynəlxalq proqnostikanın inkişafını ləngidən çətinliklər də mövcuddur.

Beynəlxalq proqnostikanın inkişafındakı əsas çətinliklər:

-biliklərin müasir vəziyyəti və real həqiqətlə bağlı olan amillər;

-müasir beynəlxalq münasibətlərin son yeni prosesləri get-gedə mürəkkəbləşməsi, onların həcminin dinamik olaraq dəyişməsi (məkan, vaxt, obyekt, subyek) və beynəlxalq həyatın dəyişən amil, funksiya və strukturlarının sayının artması ilə əlaqədardır.

Deyilənləri təsdiq etmək üçün növbəti faktlara əsaslanaraq, son 50 il ərzində idarə olunan raketlərin sürəti təxminən 50 dəfə; raketləri təmin etmək üçün partlayıcı materialların gücü milyon dəfə artmışdı; bəsit məntiqi anlayışlarla iş zamanı saniyənin millionda bir hissəsindən bir milyarda... qədər azalmışdı.

Beynəlxalq proqnostikanın inkişafını ləngidən çətinliklərdən bəziləri müasir dövrdə beynəlxalq münasibətlər gerçəkliklərinin mürəkkəbliyindən, digərləri isə onun dərk olunması üçün elmi aparatın mü-

kəmməl olmamasından irəli gəlir. Birincilər daha obyektiv, ikincilər isə subyektiv xarakter daşıyır: obyektiv olanlar mürəkkəbliyə doğru inkişaf edən gerçəkliyin dərk olunması prosesində, subyektiv olanlar isə dərk etmə bacarığının artması ilə kənarlaşdırılırlar.

Hər iki qrupun mənfi funksiyası ondan ibarətdir ki, onlar ehtimal və arzu edilən prosesin bacarıqla həyata keçirilməsi zamanı inkişafın qiymətləndirilməsində zəruri elementlərin aydınlaşmasına mane olurlar. Bununla da dövlətlərin xarici siyasətinə aid istənilən proqram, proyekt, plan və qərarların effektivliyinin artmasını əngəlləyirlər.

Birinci maneə seçimin çox olması ilə əlaqədardır. Ona görə ki, beynəlxalq münasibətlərin əsas səciyyəvi xüsusiyyəti ondan ibarətdir ki, onlar vahid mərkəzi rəhbər özülə tabe deyil və suveren bərabər hüquqlu dövlətlərin böyük miqdarının bacarıqlı həyata keçirilən proseslərinin əvəzedici funksiyası kimi çıxış edir. Lakin beynəlxalq münasibətlər sadəcə dövlətlərin suveren qərarları və təsirlərinin məcmusu deyil, onlar beynəlxalq münasibətlər və beynəlxalq sistemlərin bütün iştirakçılarının əlaqə və davranışından yaranan beynəlxalq həyatı əhatə edir. Bununla əlaqədar olaraq hadisələr və proseslərin çoxluğundan bəzi fikirlər irəli sürülür ki, beynəlxalq həyatda nəzəri təfəkkürün və beynəlxalq elmi proqnostikanın əsasını təşkil edəcək müntəzəmlik və səciyyəvi qanunauyğunluq mövcud deyil.

Beynəlxalq münasibətlər ictimai münasibətlərin kifayət qədər müstəqil sahəsini ifadə edir və onu inkişaf proseslərinin yalnız ona məxsus müntəzəmliyi və qanunauyğunluğu xarakterizə edir. Həmin proseslərin konkret araşdırmalar yolu ilə dərk edilməsi və səciyyəvi qanunauyğunluqların təşkili yaradıcı anlamaya aparan, bununla da beynəlxalq proqnostikanın elmi əsaslarını yaradan şərt və vasitədir.

Beynəlxalq roqnostikanın inkişaf yolunda digər maneə beynəlxalq münasibətlərin gerçəkliyi ilə gələcəyin müxtəlif modellərinin təcrübədə yoxlanılmasının qeyri-mümkünlüyüdür.

Ona görə də proqnozlaşdırmanın nəzəriyyəsi beynəlxalq proseslərin böyük əksəriyyətinin intensiv müşahidəsi ilə nəzəri olaraq məşğul ola bilər. Həmin proseslərin lazımi elmi təhlili isə inkişafın müəyyən tendensiyasının və onlarla əlaqədar gələcək variantların aşkar

edilməsinə səbəb ola bilər. Lakin müəyyən proqnostik məlumatların müəllifləri fikirlərinin təməlini əsas, yoxsa ikinci dərəcəli amillərin və hadisələrin strukturunun təşkil etməsinə, onlar aralarındakı vacib korrelyasiyaların nəzərə alınıb-alınmadığına əmin deyillər. Onlar fikirlərini və qərarlarını təcrübədə yoxlaya bilmirlər. Cari mərhələdə onlar çətinliklə və əmin olmadan yalnız çoxlu gələcək hadisələr arasından nisbətən mümkün ola biləni seçə bilərlər, amma onları nə sübut edə, nə mümkünlük dərəcəsini göstərə, nə də bu və ya digər hadisələrin baş verməsinə zəmanət verə bilərlər.

Nəhayət, beynəlxalq proqnostikanın inkişaf yolunda digər səciyyəvi maneə bütün ictimai sahələr arasında beynəlxalq həyata, beynəlxalq münasibətlərin dəyişməsinə, yeniləşməsinə və təkminləşməsinə təsir edən yeniliklərin gətirilməsi prosesini bilməməkdən irəli gəlir. Məsələn, hal-hazırda beynəlxalq münasibətlərin yeni strukturlarının yaranma qanunauyğunluqları, dövlətlərin diplomatik formalarla təsirlərinin təkmilləşdirilməsi vasitələri və üsulları, müəyyən gərginlik dövründən sonra təbii təmayül nəticələrindən irəli gələn dəyişikliklərin xüsusiyyəti, beynəlxalq münasibətlərin müxtəlif növlərində mövcud olan potensial tendensiyaların şərtləri və s. barədə danışmaq mümkün deyil. Beynəlxalq münasibətlərin keçmişi və gününün qəbul edilmiş xüsusiyyətləri haqqında biliklər nə qədər mükəmməl olsalar belə, gələcəyi yalnız onların əsasında dəqiq təyin etmək mümkün deyil.

Məqsədyönlü beynəlxalq fəaliyyət – hər bir məsuliyyətli fəaliyyət kimi – nəinki "məqsədlərin həyata keçmə imkanı və fəaliyyətin ictimai nəticələrinin nəzarəti"ni, həmçinin "fəaliyyətin nəticələrinin qabaqcadan görülməsi imkanı"nı ehtimal edir. Söhbət eləcədə hadisələrin ardıcıllığından və onları yaradan şərtlərin növlərindən gedir. Beynəlxalq münasibətlərə yeniliklərin gətirilməsi prosesinin araşdırılması beynəlxalq elmi proqnostikanın inkişafının ilkin şərtləri olan əsaslı araşdırmalara aid edilməlidir.

## 2.2. Beynəlxalq proqnozların tərkib hissələri

Müxtəlif qrup və növlərə aid proqnozlar üçün müəyyən tərkib hissələri xarakterikdir və proqnozları onlarsız təsəvvür etmək mümkün deyil. Misal üçün, daha geniş və tam proqnozlardan olan, tam və selektiv xarakterlərə malik **ortamüddətli qlobal** proqnozun tərkib hissələrinə aşağıdakıları aid etmək olar:

1. **Sosial quruluşu** ilə bağlı tərkib hissəsi. Ayrı-ayrı sosial quruluşlu seçilmiş ölkələrin milli proqnozlarından misal kimi istifadə etməklə 10 ilə qədər müddət üçün ictimai quruluşun qlobal inkişafının qabaqcadan görülməsi.

2. **İqtisadi tərkib** hissəsi. Seçilmiş ölkə və ya ölkə qruplarının misalında və xammal, enerji, investisiya, inkişaf tempi, məhsuldarlıq, texnologiya, mübadilə kimi vacib göstəricilər əsasında milli iqtisadiyyatlar arasındakı qarşılıqlı asılılığın qlobal inkişafının qabaqcadan görülməsi.

3. **Strateji tərkib** hissəsi. Hərbi potensial, demoqrafik potensial, bütün potensialların polyarizasiyası və pulsasiyası və mövcud hərbi doktrinanın əhəmiyyəti kimi vacib göstəricilər əsasında müasir dünyanın hegemon dövlətləri və sistemləri arasındakı güc nisbətinin inkişafının qabaqcadan görülməsi.

4. **Siyasi quruluşla** bağlı tərkib hissəsi. Seçilmiş ölkələrin misalında (birinci tərkib hissəsində olduğu kimi) və ideologiya, informasiya və təbliğat amillərini nəzərə almaqla milli və beynəlxalq problemlərin qarşılıqlı təsirinin istiqamətləri, dinamikası və intensivliyi.

5. **Diplomatik tərkib** hissəsi. Dünya diplomatiyasının sərəncam verənlərə yaxınlaşması və ya uzaqlaşması (yüksək səviyyədə diplomatiyada olduğu kimi) və qərarların qəbul edilməsi amillərindən asılı olmayan və asılı olan proseslərin inkişaf xüsusiyyətləri xüsusi olaraq nəzərə alınmaqla beynəlxalq münasibətlərin yeni proqressiv struktur və mexanizmlərinin formalaşmasında proqnozun digər tərkib hissələri ilə müqayisədə diplomatik təsirlərin rolunun inkişafının qabaqcadan görülməsi.

6. Qeyd etmək lazımdır ki, baxılan proqnoz növü dialektik və çoxtərəfli yanaşma tələb edir. Bütün tərkib hissələrinin ayrıca bir

proqnoz olmalarına baxmayaraq onların mexaniki birləşdirilməsi proqnozun tamlığını təmin etmir. Bir qayda olaraq **proqnozun strukturu** adları çəkilən **tərkib hissələrinin bölgüsü ilə üst-üstə düşmür** və həmişə proqnozun **kateqoriyasından** və onun **ilkin şərtlərindən** asılı olur. Daha zəif və məhdud proqnozlar daha az sayda və həcmdə tərkib hissələrinə əsaslanır. Misal üçün, tam əhatə olunmuş **orta-müddətli** kompleks regional proqnozda bütün tərkib hissələri nəzərə alınmalıdır, onların həcmi isə region ərazisi ilə məhdudlaşır. **Qısa-müddətli** proqnozda yalnız **iki tərkib hissəsi əsas rol oynayır**: **siyasi quruluşla bağlı olan və diplomatik tərkib hissələr**i. Nəhayət, **uzun-müddətli** proqnozda isə əsas rol digər iki tərkib hissəsinin üzərinə düşür: **yarımstrateji və sosial quruluşla bağlı olan tərkib hissələri**. Adı çəkilən tərkib hissələrinin hər birinin ümumi proqnozla müqayisədə ayrı-ayrılıqda bir proqnoz kimi çıxış etdiyini nəzərə alsaq, onları tərkibi proqnoz kimi qəbul etmək olar. Hər bir tərkibi proqnozun hazırlanması həcmi və intensivliyi proqnozun aid olduğu qrup və növdən asılı olan müvafiq növ proqnozlaşdırma tədbirlərini tələb edir. Komplekt proqnozlar olan tədqiqat məqsədli proqnozlarda tədbirlərin həcmi və intensivliyi məlum səbəblərdən daha böyük olur. Proqnozları hazırlayan mütəxəssislər qrupunda müxtəlif sahələrin təmsilçilərinin olması məqsədəuyğundur.

### 2.3. Proqnozların hazırlanması prosesi

*Proqnozların hazırlanması mərhələləri*. Proqnozlaşdırma prosesinin ayrı-ayrı mərhələ və fazalarının ətraflı təsvirini vermədən onun diaqnozun konkretləşdirilməsi və nəzəri əsaslandırılmasından asılılığını qeyd etmək lazımdır. Hər bir beynəlxalq proqnoz, tərkib hissəsi və tam olmasından asılı olmayaraq, verilmiş diaqnozun hazırlanmasında qəbul edilmiş kateqoriyalar, göstəricilər və ilkin şərtlərə əsaslanmalıdır. Bu səbəbdən, o, mövcud tendensiyalara, müntəzəmliyə və dəyişənlərə (kəmiyyət və keyfiyyət dəyişənlərinə), onların beynəlxalq münasibətlərin dəyişilməsi dinamikası və intensivliyində rolunu istinad etməklə, tarixi nöqteyi-nəzərdən aktual vəziyyəti nəzərə almalıdır. Buna görə də, beynəlxalq proqnozlaşdırma ilə məşğul olan şəxs-

lərin müxtəlif sahələrə aid biliklərin, mütəxəssislərin aktual təcrübəsinin və yaradıcı intuitiv təxəyyülün vəhdətinə nail olması vacibdir.

Proqnozlaşdırmanın əsasında gələcək haqqında 3 qarşılıqlı tamamlayıcı **informasiya mənbəyi** durur:

- uyğun təzahür və proseslərin analogiyası əsasında proqnozlaşdırılan təzahürün gələcək meyllərinin, vəziyyətinin qiymətləndirilməsi;

- keçmişdə və indiki zamanda yaxşı məlum olan meyllərin, inkişaf qanunauyğunluqlarının gələcəkdə şərti davamı;

- inkişaf meylləri yaxşı məlum olan bir sıra şərtlərin gözlənilən, yaxud arzu edilən dəyişilməsinə uyğun olaraq, bu və ya digər təzahürün, prosesin gələcək vəziyyətinin modelinin qurulması.

Bu əsasda proqnozun qurulması üçün bir-birini tamamlayan üç vasitədən istifadə edilir:

- **anketləşdirmə** (intervü, sorğu) – proqnozun subyektiv qiymətləndirilməsi xüsusiyyətinin obyektivləşdirilməsi məqsədilə əhalinin, ekspertlərin sorğuya cəlb edilməsi (proqnozlaşdırma təcrübəsində sorğu hələki nadir hallarda istifadə edilir);

- **ekstrapolyasiya** (kənar qiymətlənlirmə) və **interpolyasiya** (daxili qiymətləndirmə), yaxud prosesin iki məlum məqamı arasındakı aralıq mahiyyətinin aşkarlanması, yəni proqnoz tədqiqatların retrospeksiyası (keçmiş vəziyyəti) və prospeksiyası (lahiyələşdirilməsi) müddətində proqnozlaşdırılan təzahürün dinamik inkişaf ardıcıllığının qurulması;

-**modelləşdirmə** proqnozlaşdırılan təzahürün ehtimali, yaxud arzu edilən dəyişilməsinin miqyası və istiqamətini nəzərə alaraq, kəşfiyyat və normativ modellərin qurulmasıdır.

**Proqnoz qiymətləndirmə** özündə mütləq ekstrapolyasiya və modelləşdirmənin elementlərini cəmləşdirir. Ekstrapolyasiya prosesi isə qiymətləndirmə və modelləşdirmə elementləri olmadan mümkün deyil. Modelləşdirmə də qiymətləndirmə və ekstrapolyasiya elementləri əsasında qurulur.

**Proqnozlaşdırma üsulları-** proqnozun hazırlanmasında nəzəri və təcrübi yanaşma forması olub, həmcins metodlar vasitəsilə gələcək

haqqında informasiyanı toplayır, hazırlayır və poqnozun hazırlanması prosesində müəyyən nəticənin alınmasına istiqamətləndirir.

**Proqnozlaşdırma proseduru** – müəyyən əməliyyatlar məcmusunun yerinə yetirilməsində istifadə edilən üsullardır.

**Metod** – mürəkkəb üsul olub, bütövlükdə proqnozun hazırlanmasına yönəlmiş sadə üsullar toplusudur.

**Metodika** – nizamlanmış üsul, prosedur, əməliyyatlar, tədqiqat qaydaları toplusudur.

**Proqnozlaşdırmanın metodologiyası** – proqnozlaşdırma metodları, üsulları, sistemləri haqqında biliklər sahəsidir.

**Proqnozlaşdırma sistemi** – mürəkkəb təzahür, yaxud proseslərin proqnozlaşdırılması üçün nəzərdə tutulan metodika, texniki vasitələr toplusudur. Proqnozun həqiqiliyi, dəqiqliyi və uzaq müddətə yönəlməsi üçün bu vasitələr məcmu şəklində istifadə edilməlidir.

Proqnozların hazırlanması prosesini dörd mərhələyə bölmək olar: hazırlıq, inkubasiya, operativ, reallaşdırma.

**1**. Hazırlıq mərhələsinin özünü üç fazaya bölmək olar:

a) proqnozun məqsədinin, məlumat imkanlarının və əhatə dairəsinin seçilməsi,

b) məkan diapazonunun və diaqnozun predmetinin çözülmə imkanının müəyyən edilməsi,

c) proqnoz üçün məlumatların toplanması üsulunun seçilməsi.

**2.** İnkubasiya mərhələsini dörd fazaya bölmək olar:

a) seçilmiş üsula əsasən analiz üçün məlumatların toplanması imkanlarının müəyyən edilməsi,

b) proqnozun məqsədinin dəqiqləşdirilməsi və tərkib hissələrinə bölünməsi

c) proqnozlaşdırmanın mümkün metod və üsullarının nəzərdən keçirilməsi,

d) proqnozun tərtib edilməsi metodları və prosedurlarının müəyyən edilməsi.

**3.** Operativ mərhələni beş fazaya bölmək olar:

a) müəyyən edilmiş plana əsasən proqnoz üçün məlumatların toplanması,

b) proqnozlaşdırmanın müəyyən edilmiş metod və üsullarının tətbiqi,

c) yanaşma və təkliflərin yaxınlaşdırılması (əlavə məlumatların axtarılması, sualların təkrarlanması, ssenarilərin tərtib edilməsi və ya tədqiqat modellərinin tətbiq edilməsi ilə),

d) proqnozun yekun nəticələrinin formalaşdırılması,

e) proqnozun variantlarının tərtib edilməsi.

**4.** Reabilitasiya mərhələsini dörd fazaya bölmək olar:

a) proqnozun məqsədinin qəti olaraq istiqamətləndirilməsi,

b) ehtimal olunan və mümkün nəticə və variantlar arasından arzu olunanların seçilməsi,

c) arzu olunan proqnozların reallaşdırılması şərtlərinin tövsiyə olunması,

d) şərtlərin reallaşdırılmasının təmin edilməsi üçün vasitələrin tövsiyə olunması.

Proqnozun hazırlanmasında **əsas əməliyyatlar** aşağıdakı mərhələlərlə yerinə yetirilir:

1. Proqnozdan əvvəlki oriyentasiya (tədqiqat proqram). Proqnozun əsas məsələsinin dəqiqləşdirilməsi: xüsusiyyəti, miqyası, obyekti, əsaslandırma mərhələləri və s. Problemin məqsəd və vəzifələrinin, predmetinin və hipotezinin qısa və dürüst ifadə edilməsi, tədqiqat metodlarının, strukturunun və təşkilinin müəyyənləşdirilməsi.

2. Sistemli analiz metodları ilə proqnozlaşdırılan obyektin ilkin modelinin qurulması. Modelin dəqiqləşdirilməsi üçün əhali və ekspertlər arasında sorğu keçirmək olar.

3. Müəyyən metodlar vasitəsilə proqnoz fonununa dair göstəricilərin toplanması.

4. Ekstrapolyasiya metodları vasitəsilə proqnoz modelləri göstəricilərinin dinamik sıralanmasının qurulması, bu materialın modeldən əvvəlki proqnoz ssenarisi formasında ümumiləşdirilməsi.

5. Profil və fon göstəricilərinin minimum, maksimum və daha ehtimali əsaslarda konkretləşdirilməsi və kəşfiyyat analizi metodları vasitəsilə proqnozlaşdırılan obyektin hipotetik (ilkin) kəşfiyyat modellərinin qurulması.

6. Absolyut (proqnoz fonu ilə məhdudlaşdırılmayan) və nisbi (proqnoz fonu çərçivəsində) optimal göstəricilərin əvvəlcədən müəyyənləşdirilmiş norma, ideallar və məqsədlər əsasında konkretləşdirilməsi və normativ analiz metodları vasitəsilə proqnozlaşdırılan obyektin hipotetik (ilkin) normativ modellərinin qurulması.

7. Proqnozun həqiqiliyinin və dəqiqliyinin, həmçinin əsaslandırılmasının (verifikasiyası) qiymətləndirilməsi, yəni ekspertlərin sorğusu metodu vasitəsilə hipotetik modelin dəqiqləşdirilməsi.

8. İdarəetmə sahəsində qərarlar verilməsi üçün kəşfiyyat və normativ modellərin müqayisəsi əsasında tövsiyyələr verilməsi. Tövsiyyələrin dəqiqləşdirilməsi üçün yenidən əhali və ekspertlər arasında sorğu keçirilə bilər. Bəzən bu əsasda tövsiyyələrin gələcək nəticələrinin dəqiqləşdirilməsi üçün model ssenarilər qurulur.

9. Proqnoz və tövsiyyələrin ekspert təhlili (ekspertiza), tamamlanması və sifarişçiyə təhvil verilməsi.

10. Hazırlanmış proqnoz materialları ilə yeni proqnoz fonunun göstəricilərinin müqayisə edilməsi, proqnozdan əvvəlki oriyentasiyanın qurulması və yeni tədqiqat tsiklinin başlanması. Proqnozlaşdırma məqsədyönümlük, planlaşdırma, proqramlaşdırma, layihələşdirmə, idarəetmə kimi fasiləsiz olmalı və səmərəliliyin artırılmasına yönəlməlidir.

I. Proqnozların **səmərəliliyi** yalnız onların həqiqilik, dəqiqlik, uzaq müddətlilik səviyyəsilə ölçülə bilməz. Bu və ya digər proqnoz əsasında verilən qərarların inandırıcı və obyektiv olduğunu, səmərəliliyin yüksəldilməsilə nəticələndiyini bilmək daha vacibdir.

II. Proqnozların **verifikasiyası** analiz və diaqnoz göstəricilərinin verifikasiyasından fərqlənir. Proqnozlaşdırmada **absolyut v**erifikasiyadan, yəni hipotezin empirik təsdiqi, yaxud inkarından başqa nisbi verifikasiya mövcuddur. Bu elmi tədqiqatın inkişafına və onun nəticələrinin təcrübədə absolyut verifikasiya imkanları olanadək istifadə edilməsinə kömək edir. Nisbi verifikasiya vasitələri – əldə edilmiş, lakin yoxlama tədqiqatlar tərəfindən tam verifikasiya olunmayan nəticələrin yoxlanılmasıdır.

Proqnozun **mütləq verifikasiyası** zamanı təkrarlanan yaxud paralel tədqiqat (məsələn ekspert sorğusu) aparmaq olar. Əgər nəticələr üst-üstə düşərsə, proqnozun həqiqiliyi təsdiqlənmiş olur, əks təqdirdə proqnozların hazırlanması metodikasındakı səhvləri axtarmaq və aradan qaldırmaq lazımdır. Elmi tədqiqatın əsaslandırılması – biliklər və elmi tədqiqatın keyfiyyət səviyyəsilə bağlıdır. Əgər yeni elmi məlumat əsaslı elmi nəzəriyyəyə söykənirsə, əgər məlumat elmi tədqiqatın inanılmış metodlar, prosedurlar və əməliyyatları nəticəsində əldə edilibsə, o əsaslandırılmış hesab edilir. Elmi məlumatın həqiqilik meyarı təcrübədir. Təcrübə yalnız empirik olan kimi başa düşülməməlidir, bu zaman ümumilikdə insan cəmiyyətinin tarixi-inkişaf prosesində əldə etdiyi təcrübə nəzərdə tutulur. Əgər proqnoz səmərəli nəticə göstəricilərinə malikdirsə, verifikasiya məqsəd ola bilməz.

III. Proqnoz universal və hər şeyə qadir olan deyil. Proqnozun hazırlanma xüsusiyyətləri proqnozlaşdırmanın həm zaman diapazonunda, həm də tədqiqat obyekti diapazonunda məhdudluğunu və bu xüsusiyyətə daim diqqət yetirilməsini göstərir.

### 2.4. Proqnozlaşdırmanın nəzəri və praktik funksiyaları

Elmi proqnozlaşdırma bir qayda olaraq **iki funksiya daşıyır**: nəzəri və praktik.

**Nəzəri funksiya** ayrı-ayrı uyğun faktları xarakterizə edən qəbul edilmiş ayrı-ayrı fikirlərin səbəbiyyət və ya statistik qanunların xüsusiyyətlərinə malik vacib ümumi fikirlərə əlavə olunmasına aparan ilkin induksiya prosesində növbəti əsaslı addımın həyata keçirilməsindən ibarətdir. İlkin induksiyaya həmçinin hipotezanın əsasını təşkil edən və həmin qanunları təsdiq edən fikirlər aiddir.

Elmi proqnozlaşdırmanın **praktik funksiyası** proqnozun nə dərəcədə həqiqətə uyğun olub olmamasını müəyyən edir.

Müəyyən bir qanunun həqiqətə ən yüksək uyğunluq dərəcəsi praktik fəaliyyətə münasibətdə qərarın qəbul olunmasının səmərəliliyinə düz və əks təsir göstərə bilir.

Proqnostik diaqnoz əsasən gizli inkişaf təmayülü, bəzən isə məlum səbəbiyyət qanunları (məs., ekstrapolyasiyada olduğu kimi) əsa-

sında nəticə çıxarır. Hər iki halda o, ehtimal edilən və şübhəli hipotezalara aparan bir fikirdir. Əgər, məsələn, bir dövlətin digərinə qarşı təhdidləri sonradan onların gərgin münasibətlərinin hərbi əməliyyatlarına səbəb olan kritik dərəcəyə çatıbsa, onda onlardan bu nəticəni gözləmək olar. Əgər səbəbiyyət qanunu nəticəsində nüvə əsrində qırıcı vasitələrin artımı, onların istifadəsinin qeyri-mümkünlük ehtimalının artmasına səbəb olursa, onda bu o demək deyil ki, strateji silahların yayılması nüvə müharibəsindən xəbər verir. Proqnostik diaqnoz yaxın gələcək barədə nəticələri əldə etdikcə həqiqətə daha çox yaxın olur.

Daha uzaq fazalara və nəticələrə aid olan fikirlərin səhv olma ehtimalı daha böyükdür.

Proqnostik diaqnozun məqsədyönlü fəaliyyəti üçün ilkin vəziyyətin dəyişmə proyeksiyasının əsasını təşkil etməlidir.

Sonuncu iki yola gətirib çıxarır:

a) obyektin xoşagəlməz vəziyyətinin aradan qaldırılması və ya onun qarşısının əvvəlcədən alınması

b) proyeksiyanın həyata keçirilmə üsülunun seçimi. Bu zaman proyeksiya ardıcıl olaraq həm «nəzərdə tutulmuş hərəkətin, işin və ya məmulatın təsvirini», həm də onun icra olunmasının düşünülmüş üsullarını əhatə edir.

**Proyeksiya fəaliyyətinin birinci** mərhələsində aşağıdakı fazaları qeyd etmək olar:

- obyektin vəziyyətinin müəyyən edilməsi,
- hipotezanın tərtib edilməsi,
- hipotezanın əsaslandırılması,
- proyektin və ya proyektlərin həyata keçirilməsi nəticələrinin proqnozu.

Hipotezanın tərtib edilməsi obyektin nəzərdə tutulmuş vəziyyətlərini təmin etmək üçün obyektin hesaba alınmalı vəziyyətləri arasındakı səbəb və əlaqəyə işarə edir. Hipotezanın əsaslandırılması reduksiya düşüncələri yolu ilə obyektin ehtimal edilən vəziyyətləri üçün arqumentlərin seçilməsindən və hipotezaların onlara orijinal kimi məlum olan nəticələrin seçilməsi vasitəsilə yoxlanılmasından ibarətdir. Uyğun olaraq əsas, müəyyən edilmiş vəziyyətlərin həyata keçirilməsi

üsullarının səmərəlilik dərəcəsini təyin edən obyektin tədqiq edilmiş vəziyyətləri arasında əlaqələrə əsaslanır. Proyektin həyata keçirilməsi nəticələrinin proqnozu bütün proyeksiyaya salınan fəaliyyətin məqsədəuyğunluğuna və ya qeyri-məhsuldar olmasına işarə edir və bu səbəbdən proyektin həyata keçirilməsini qabaqlamalıdır. Beləliklə, proyeksiya gələcəyin düşünülməsi və dərk edilməsindən və keçmişə nəzərən ehtiyacın olmamasının əldə edilməsindən ibarətdir.

**Proyeksiya fəaliyyətinin ikinci mərhələsində** üç fazanı qeyd etmək olar:

-obyektin müəyyən edilmiş vəziyyətlərinin yaranmasına səbəb olan fəaliyyətin həyata keçirilməsi,

-obyektin yaranmış vəziyyətinin yoxlanılması,

-proyektin həyata keçirilmə nəticələrinin qiymətləndirilməsi.

Proyektin həyata keçirilmə nəticələrinin qiymətləndirilməsi kifayət qədər ətraflı ola bilər. Bəzi dövlətlərdə nəticələrin qiymətləndirilməsinin məlum tipologiyası tam adekvat nəticələrdən başlayaraq fəaliyyətin hər hansı bir nəticələrinin olmamasına qədər nəticələrin on iki növünü əhatə edir.

Proyeksiyanın **birinci mərhələsində** tərtib olunmuş proyektin həyata keçirilmə nəticələrinin proqnozuna baxmayaraq onun ikinci mərhələsində çatışmayan və ya neqativ nə-ticələr ola bilər. Belə olan halda obyektin onun diaqnozundan başlayaraq yaranan vəziyyətlərini dəyişən yeni proyeksiya tədbiq olunur.

Yaxşı hazırlıq proyeksiyanın bütün element və fazalarının nəzərdə tutulmuş təsviri və tədqiqi, təsdiq edilmiş qiymətlərə və hipotezaların empirik verifikasiyasına istinadı tələb edir. Sonuncu postulat ictimai elmlərdə çox nadir hallarda həyata keçirilə bilər. Beynəlxalq münasibətlərin araşdırılmasında o, demək olar ki, qeyri-realdır. Belə ki, bu sahədə hipotezanın verifikasiyası hələlik nəzəri ola bilər.

Fəaliyyətin səmərəliliyinə gəldikdə isə ona tədqiqatın müasir üsullarının, həmçinin formalaşdırma üsullarının istifadəsi təsir göstərə bilər. Lakin biz artıq müşahidə etmişik ki, sosial araşdırmaların bütün sahələrindən beynəlxalq münasibətlər sahəsi bu cür yeniliklərin təsiri altına daha çətin düşür.

## 2.5. Proqnozlaşdırmanın kateqoriyaları

İctimai davranışı gələcəyə yönəldilmiş **ölçülər, planlar və mövqelər** əsasında qabaqcadan görmək olar. Proqnostik araşdırmanın bu növü ictimai, siyasi və iqtisadi təcrübə üçün istifadə olunur. Bir qayda olaraq bura mədəni tələbatların, seçicilərin əhval-rühiyyəsinin öyrənilməsi, marketinq və s. aiddir. Bu halda söhbət həm bizim əvvəlcədən bilmək istədiyimiz ictimai və ya siyasi qrupun, həmçinin millət, dövlət və sistemlərin gələcəyinə münasibətində məramları, planları və mövqeləri barədə məlumatların təqdimatından, həmçinin məram, plan və mövqelərin reallığa köçürülməsinin dəqiqliyi və şərtlərindən gedir. Lakin bu köçürmənin dəqiqliyi və şərtləri haqqında hələ heç bir ümumi qanun hazır deyil. Plan və məramların dəqiqlik dərəcəsini, fərziyyələrin həqiqiliyə uyğunluq dərəcəsini, məramlara imkan yaradan və onlara mane olan amilləri və beynəlxalq münasibətlərin növlərini nəzərə almaq zərurəti daha çox diqqəti cəlb edir. Həmçinin qeyd olunur ki, sabitləşdirilmiş şərtlərə aid proqnozlar sabitləşdirilməmiş şərtlərlə müqayisədə daha dəqiqdir.

1. Öz-özünə həyata keçən və öz-özünə məhv olan proqnozlar öncəgörmənin xüsusi kateqoriyasını təşkil edir. Onlar tədqiqatçı və ya dövlət və ya hökumət üçün maraq dairəsində olan şərti proqnozlardır, əgər onlar müsbətdirsə, rəhbərlər həmin proqnozların şərtlərini qoruyur və möhkəmləndirilməsi istiqamətində fəaliyyət göstərirlər; əgər mənfidirsə, rəhbərlər həmin proqnozların şərtlərinin dəyişdirilməsi və hadisələrin qarşısının alınması üzrə fəaliyyət göstərirlər. Mənfi şərti proqnozlar insanların onların həyata keçirilməsinə qarşı təsiri nəticəsində əksər hallarda öz-özünə məhv olurlar. Şərtsiz və ya yalan səbəb-nəticə şərtlərinə əsaslanan, lakin gözlənilən nəticələri verən proqnozlar öz-özünə həyata keçən və ya məhv olan proqnozlara aid ola bilər.

2. İctimai elmlərdə proqnozlaşdırmanın sonuncu kateqoriyası ekstrapolyasiya proqnozlarıdır. Onlar keçmişdə mövcud olan tendensiyaların gələcək proseslərə və hadisələrə yayılmasından ibarətdir. Lakin prosesin gələcəkdə uzadılması həmin prosesin və uyğun olaraq, müşahidə olunan tendensiyanın ümumi şərtlərinin dəyişilməsi, həmçinin tendensiyanın azalması və ya artması ilə əlaqədar tənəzzülü nəti-

cəsində həyata keçməyə bilər. Ehtimal, statik və şərti qabaqgörmələr elmi nəticə və müşahidələrdə də əks olunur, həmçinin elmi qanunların yaranmasına vasitəçilik edir, tədqiqatçıların müşahidə olunan gerçəkliyin qabaqcadan görülən inkişaf yolunu nəzərə alaraq bu istiqamətdə bacarıqlarını artırır, qərarları qəbul edən rəhbərləri isə fəaliyyətə sövq edir.

Gələcəyin geniş tədqiqi sayılan proyeksiya ehtiyat etdiyimiz və ya seçdiyimiz gələcəyin inkişafına yönələn hal- hazırki fəaliytimizin incəsənətidir. Bununla əlaqədar bir sual yaranır: hər bir proqnoz elm və ya onun bir hissəsidirmi? Biliklərin hazırki vəziyyəti çərçivəsində bu suala birmənalı cavab vermək çətindir. Məsələn, gələcəyin tədqiqi ilə məşğul olan fransız məktəbi öngörməni elm kimi qəbul etmir. Həmin məktəbin görkəmli müəlliflərindən biri iddia edir ki, o, nə elm, nə də öz inkişafının hazırki vəziyyətində insan haqqında elmlər toplusunda xüsusi yeri olmaq üçün kifayət edən özünəməxsus xüsusiyyətlərə iddia edə biləcək fənndir. İngilis proqnozçuları lda eyni fikri bölüşdürürlər.

Amerika Birləşmiş Ştatlarında proqnozlaşdırma operativ- strateji tədqiqatlardan başlayaraq inkişaf etmiş, indiyə kimi onun tərkib hissəsindədir və ayrı elmə çevrilməmişdir. Alman alimi Robert Yunq futurologiyanı «həqiqi nəzəri təfəkkürdən» məhrum olmuş «yeni intellektual fənn» adlandırmışdır. Bir sıra tədqiqatçılar hesab edirlər ki, elmi proqnozlaşdırma humanitar elmdə yeni istiqamətdir və onun özünəməxsusluğu gələcəyin deyil, onun proqnozlaşdırma tərəfindən irəli sürülən nəzəri problemlərələ öyrənilməsinin qanun və üsullarının tədqiqindən ibarətdir.

Mövqelərin bu qısa xülasəsindən poqnozlaşdırmanın yeni elminin yaranması qanunauyğunluğu irəli gəlir. Avropanın qabaqcıl ölkələrində, ABŞ-da və Yaponiyada gələcəyin öngörülməsinin zəruri olmasını qeyd etsələr də proqnozlaşdırmanın ayrı elm kimi qəbul edilməməsi istiqamətində tendensiya geniş yayılmışdır. Proqnozlaşdırma elminin banisi **Osip Flextqeyn** qeyd edir ki, «hələ bütün tarix boyu gələcəkdə baş verəcək hadisələri görmək və bizi məhv edəcək təhlükəni bilərək gələcəyi qurmaq zərurəti bu qədər geniş vüsət alma-

mışdı. Əgər bizim sürətlə inkişaf edən əsrimizdə kütləvi qırıcı vasi-tələrin nəzarətdən çıxmaq ehtimalı varsa, cəmiyyət daxilində və mədə-niyyətdə ziddiyyət tamamilə aradan qaldırılmırsa, onda heç olmasa öngörmələr və proqnozlaşdırmalar bu maneələri nisbətən də olsa zəiflədə bilər».

Proqnozlaşdırma sahəsinin qabaqcıl mütəxəssisi Olaf Xelmerə görə Amerika rəhbərliyi müasir dövrdə yüksək səviyyəli planlaşdırma olmadan qələbəyə ümid olmadığını anlayır.

Rusiyalı alimlər hesab edirlər ki, dünya inkişaf tendensiyaları, sivilizasiyaların və dövlətlərin inkişaf dinamikası, eləcə də müvafiq olaraq BM-in qeyri-dövlət subyektləri beynəlxalq sistemin təkamü-lünə və beynəlxalq vəziyyətin inkişaf ssenarilərinin formalaşmasına həlledici təsir göstərirlər.

Avropa ölkələrində və Amerika Birləşmiş Ştatlarında proqnoz-laşdırma cəmiyyətin münaqişəsiz sabit inkişafını və onun möhkəmlən-dirilməsini təmin etdən **siyasi planlaşdırma** və **iqtisadi proqramlaş-dırma** üçün yardımçı olan tədqiqat incəsənəti və ya üsuludur. Gələ-cəyə maraq başlıca olaraq qloballaşma, ətraf mühitin mühafizəsi məsələləri, həmçinin qloballaşmanın bütün dünyada artan rolu ilə əlaqədardır. Buna görə də bəzi ölkələrdə proqnozlaşdırma nəzəriyyəsi təbii və ictimai-elmi fəaliyyətin gələcəyinin yeni tendensiyaların qəbul edilməsi və hakim sistemin xeyrinə sosial-iqtisadi və elmi-texniki proseslərin yaranması və onların təsirinin yüngülləşdirilməsi məqsə-dilə dərk edilməsi üsulu kimi çıxış edir.

## 2.6. Beynəlxalq proqnozlaşdırmanın metodologiyası

### *2.6.1. Beynəlxalq münasibətlərin araşdırılmasında proqnostik metodlarının təsnifatı*

Proqnozlaşdırma zamanı tətbiq edilən vasitə və metodlar proq-nozlaşdırmanın metodoloji əsasını təşkil edir. Proqnozlaşdırılan ob-yektə uyğun model qurulur, tədqiqat obyektinin gələcək vəziyyəti haqqında məlumat almağa imkan verir. 20-yə qədər proqnozlaşdırma metodları fərqləndirilir. Bir çox proqnozlaşdırma metodları bir-birin-

dən üsul və mərhələləri, eləcə də bu üsul və mərhələlərin ardıcıllığı ilə fərqlənir. Proqnozlaşdırma metodları formalaşdırma səviyyəsi, məlumat əsasları, fəaliyyət prinsipləri və s. bu kimi əlamətlərə görə təsnif edilə bilər.

Proqnozlaşdırma metodlarının formalaşdırma səviyyəsi **intuitiv və formal olmasına** görə seçilir. **İntuitiv** metodların proqnozlaşdırma obyekti mürəkkəb olduğundan bir sıra amillərin təsirini nəzərə almaq mümkün olmadıqda istifadə edilir. Bu zaman **ekspert** qiymətləndirilməsi (fərdi, kollektiv) əsas götürülür. **Ekspert metodları** – ixtisasçı ekspertlərin fikirlərinin və tədqiqatlarının ümumiləşdirilməsi əsasında təqdim edilən məlumatlar kimi istifadə edilir. Ekspert metodları 2 alt sinfə bölünür: birbaşa ekspert qiymətləndirilməsi (fərdi) ekspert kollektivinin rəyindən asılı olmayan, hər bir ekspert tərəfindən müstəqil şəkildə toplanmış və ümumiləşdirilmiş və bir-birinə təsir göstərməyən məlumat əsasında qurulur. Ekspert qiymətləndirilməsində bilavasitə kollektivin rəyinin təsiri ilə qurulan qiymətləndirmə ikinci alt sinfi təşkil edir.

Fərdi ekspert qiymətləndirməsi dedikdə, məsələn, intervü, analitik və ssenari yazılması nəzərdə tutulur. Kollektiv ekspert qiymətləndirməsi isə əsasən ən az kvadratlar metodu, sürüşkən ortaqlar metodu və s. ilə bağlıdır.

İndiyədək müxtəlif səviyyəli analitik proqnozların hazırlanmasında ekspert qiymətləndirmələrinin tətbiqinin onlarla variantı işlənib. Onların əksəriyyətin üç qrupa ayıra bilərik: fərdi, kollektiv və universal.

**Fərdi ekspert qiymətləndirmələri:**

-**Müsahibə** metodu ekspertin proqnozlaşdıran ilə "sual cavab" sxemi üzrə söhbət əsasında yaradılıb, özü də "cavab" öyrənilən hadisələrin sistemli modelinin elementi kimi qeydə alınır;

-**İdeyaların generasiyası** üsulu insanın yaddaşının dərinliklərinə müraciət edərək təfəkkür prosesində proqramlaşdırılmış idarənin köməyi ilə ekspert qiymətləndirilməsini (ekspertin rəyi) üzə çıxarmağa əsaslanır.

**Kollektiv ekspert qiymətləndirmə** metodu tərkibinə daxil olan ekspertlər tərəfndən fərdi işlənmiş obyektiv ümumiləşmiş qiymətləndirilmənin müstəqil qiymətləndirmə yolu ilə üzə çıxarılması əsasında və bir neçə ekspertlərin razılaşdırılmış yekun qiyməti qismində onların ümumi rəyini formalaşdıran birgə işinə əsasən yaradılır.

*Delfi metodu, Zehni həmlə, İdeyaların generasiyasını idarə metoduları* da bu metodlara aid edilir.

Analitik mülahizələrə təqdim olunan həm fərdi, həm də qrup formatında tətbiq edilən **ekspert qiymətləndirmələrinin universal metodlarına** *matris metodu, proqnoz ssenarlərin qurulması, morfoloji təhlil və sinoptik metod* ad edilir.

-Morfoloji təhlili obyektin proqnozlaşdırılması matrisinnin xüsusiyyətlərini qurmağa və onların mümkün mənalarını seçilməsi və bu mənaların uyğunlaşma variantların qiymətləndirilməsinə əsasən yaradılıb.

-Sinoptik metod bir çox ekspertlərin məlum proqnozlar çoxluğunun proqnozlaşdırma obyekti və proqnoz fonuna nisbətdə ardıcıl sintezinin təhlilinə əsaslanır.

Proqnozlaşdırma metodlarının digər təsnifatı «metodun təsnifat əsaslılığı»na görə müəyyənləşir.

**I mərhələdə** – «İnformasiyaya əsaslanan metodlar» üç sinfə bölünür:

-ekspert;

-faktoqrafik;

-kombinələşmiş.

Ekspert qiymətləndirmə metodunu yuxarıda qeyd etdik. Özlüyündə həm faktoqrafik, həm də ekspert metodları informasiyanın işlənmə səviyyəsinə görə alt mərhələlərə, metodlara bölünür.

**Faktoqrafik metodlar** – proqnozlaşdırma obyektinin indiki vəziyyəti və keçmiş inkişafı haqqında faktiki məlumata əsaslanır. Faktorqrafik metodlara *analogiya, statistik və qabaqlayıcı* metodlar daxildir. Belə metodlara tarixi və riyazi analogiya metodları aid edilir. Riyazi analogiya metodlarında obyektivin analoqu kimi inkişaf prosesinin riyazi təsvirinə malik olan və proqnozlaşdırma obyekti ilə üst-

üstə düşən digər fiziki təbiətli obyektlər, digər elm və texnika sahələri istifadə edilir.

**Statistik metodlar** – proqnozlaşdırma obyekti haqqında əhəmiyyətli məlumatın işlənməsinə əsaslanır. Statistik metodlar rəqəmli göstəricilər və proqnozlaşdırma obyektinin dəyişkənlik xüsusiyyətləri əsasında riyazi qanunauyğunluğun aşkar edilməsinə yönəlir. **Statistik metodun tətbiq edilməsi** proqnozun obyekti, məqsədi, mövcud məlumatın həcmi və tərkibi, proqnoz verənin səviyyəsi və s. ilə müəyyən edilir. Statistik metodlar ***modelləşdirmə, ekstrapolyasiya, korelyasiya, reqressiya*** kimi alt siniflərə bölünür.

Proqnozlaşdırmanın **qabaqlayıcı metodları** elmi-texniki məlumatların ümumiləşdirilməsi və elm və texnikanın tərəqqisini qabaqlayan göstəricilərin nəzərə alınması prinsiplərinə əsaslanır. Qabaqlayıcı metodlara – elm və texnikanın dinamikası haqqında məlumatların tədqiqi, bu məlumatların tərkibində dinamik sıraların qurulması, bu əsasda inkişaf edən obyektin analizi və proqnozlaşdırılması ilə bağlıdır. Qabaqlayıcı metodlar kimi texnikanın səviyyəsinin tədqiqi və qiymətləndirilməsi, elmi-texniki məlumatın kəmiyyət və keyfiy-yət analizi metodları da istifadə edilir.

### *2.6.2.Tətbiqi metodlar*

Beynəlxalq münasibətlərin proqnozlaşdırılmasının tətbiqi metodları fənnin tətbiqi sahəsinə aid olan konkret məsələlərin tədqiqinə və onların həlli yollarının müəyyən edilməsinə yönəlmişdir.

Ədəbiyyatda tətbiqi metodları üç böyük qrupa bölürlər: situasiyanın təhlili metodları, eksplikativ metodlar və proqnoz metodları.

Bu bölgünün əsasında tətbiq edilən metodların yerinə yetirdikləri funksiyalar durur. Məsələn, situasiyanın təhlili metodları, adından göründüyü kimi, beynəlxalq aləmdə baş verən hadisələr haqqında məlumatın əldə olunmasını nəzərdə tutur. Eksplikativ metodlar situasiyanın təhlili metodlarından fərqli olaraq hadisələri daha dərindən tədqiq edir. **P**roqnoz metodları isə hadisələrin tədqiqi ilə kifayətlənmir. Burada tədqiq olunan konkret məsələlərin həlli yollarının müəyyən edilməsinə xüsusi fikir verilir.

### *2.6.2.1. Beynəlxalq münasibətlərin proqnozlaşdırılması metodikalarının tətbiqi mərhələləri*

**Koqnitiv**-şüur, düşüncə və təfəkkürlə bağlı olan anlayışların formlaşmasına, bilikdən nəticələrin çıxarılmasına xidmət edən dərketmə prosesidir.

Metodikaların tətbiqedilmə mərhələlərinə nəzər salaq.

- Məlumat bazasının formalaşması, yəni analitik işin obyekti olacaq informasiya bazasının formalaşdırılması və materialların toplanması.

Koqnitiv (idraki) xəritəçəkmə metodikası zamanı birbaşa konkret rəqəmlərə istinad edə bilən yazı materiallarının toplanması zəruridir. Materiallar araşdırmanın məqsədinə uyğun olaraq toplanır və bu xüsusilə bir və ya bir neçə tarixi mərhələlərdə müəyyən problemli sahələrə aid ola bilər. Ancaq həmin materiallar başlıca olaraq bütün sahələrdə bir-birinə yaxın olmalıdır. Analitik və müqayisəli təhlil üçün fərqli materiallar yararlı deyil. Məsələn, prezidentin hər hansı bir beynəlxalq forumdakı çıxışı və ya onun yerli əyalət seçiciləri qarşısında nitqi. Aydındır ki, aparıcı ictimai xadimlərin çıxışları, XX əsrin əvvəllərindən fərqli olaraq, xüsusi məsləhətçilər tərəfindən hazırlanır və dəfələrlə redaktə olunurdu. Ancaq təcrübə sübut edir ki, bir sıra xüsusi fərdi incəliklər hətta kifayət qədər yaxşı redaktə olunmuş mətnlərdə də nəzərə çarpır. Ancaq idraki xəritəçəkmə metodunun tətbiqi, xüsusilə orijinal fərdi mətnlərdə daha uğurlu olur: müsahibə qeydlərində, avtobioqrafik məqalələrdə və nisbətən əlçatan olan oxşar mənbələrdə.

- Siyasi xadimlərin istifadə etdikləri əsas anlayışların üzə çıxarılması, onların arasında mövcud səbəb-nəticə əlaqələrinin təyini, bu əlaqələrin “sıxlığının” və əhəmiyyətinin qiymətləndirilməsi.

Birinci olaraq, siyasətçilərin arxalandığı başlıca anlayışların ifadə olunması, ikincisi, onlar arasında məqsəd-nəticə əlaqələrinin mövcudluğunun müəyyənləşdirilməsi, üçüncüsü, bu əlaqələrin əhəmiyyətinin və “sıxlığı”nın qiymətləndirilməsi nəzərdən keçirilir. Bu məqsədlə də, konkret bir şəxsin mətninin oxunması zamanı (kəlamlar top-

lusu, çıxışlar) əsas mövzunun məzmununun və onlar arasındakı səbəb-nəticə əlaqələrinin əks olunduğu sxem-qrafik (idraki xəritəçəkmə) çəkilir. Analitik struktur bölmələri analitik-məntiqi məna baxımından fərqləndirilir. Bu bölmələr kontekstin (mövzu, abzas, fəsil) struktur bölmələrinin daha geniş məzmununda tədqiq edilir. Təhlil bölmələri kimi seçim və həmçinin böyük nisbətdə kontekstin bölməsi problemin qoyulması və xüsusi araşdırma məqsədləri ilə bağlıdır. İdraki xəritələrin qurulması zamanı səbəb-nəticə əlaqələri istiqamətləri müəllifin mənti-qinə uyğun olaraq müəyyənləşdirilən oxlarla göstərilir. Hər bir mövzunun əhəmiyyətlilik dərəcəsi səbəb-nəticə əlaqələrinin səviyyəsinə uyğun olaraq müəyyənləşdirilir. Nəticədə bir neçə müəyyən qarşılıqlı anlaşmanın da aid olduğu çox səviyyəli qrafiki xəritə formalaşır. Onların səbəbiyyəti: müsbət (hadisələr və ya anlayışlar arasında məqsəd-nəticə əlaqələri qeyd olunduğu zaman), mənfi (hadisələr arasında qarşılıqlı əlaqənin rədd edildiyi zaman), sıfır (məqsəd-nəticə əlaqələri müəyyən olunmadığı zaman) ola bilər. İdraki xəritədə göstərildiyi kimi vəziyyətin təsviri işlərin cari vəziyyətini bu və ya digər dərəcədə əks etdirir, gecikir və ya hadisələri qabaqlayır. Beləliklə, bütün bu tədbirlər nəticələrin şərhi mərhələsində müəyyən olunur.

**Qrafik sxemlərin xüsusiyyətlərini səciyyələndirən kəmiyyət hesablamaları**. Kəmiyyətlə ifadə variantları müxtəlif yollarla qurula bilər və ya təpə nöqtələrinin sadə toplamaları və onlar arasındakı əlaqələrlə məhdudlaşdırılır, ya da öz sıralarına uyğun olaraq təsadüfi müəyyənləşdirmə əsasında həyata keçirilir. Ancaq bir qayda olaraq, bu mərhələdə iş əsasən araşdırmanın səviyyəsini və ya ilkin olaraq sadələşdirilmiş və ya əksinə daha mürəkkəb ədədi prosedurları müəyyən edir.

**Koqnitiv (idraki) xəritənin xarakteristik nəticələrinin şərhi və tətbiqi**. İdraki xəritə tezlik meyarı ilə müəyyən edilən səbəbiyyət zənciri mərkəzinin müəyyənləşdirilməsi ilə başlayır: mərkəzə nə qədər çox sayda ox girir və ya çıxırsa, müəllif tərəfindən istifadə olunan mətnin anlaşılması o qədər yüksək tezlikli cavab tədbirləri görülür. "Mərkəzilik" anlayışı, eləcə də xüsusi kəmiyyət göstəriciləri hər bir halda təpə nöqtələrinin istiqamətləndirici qrafikləri və onların

arasındakı əlaqələrin “ağırlığı” (müəllifin istinad etdiyi başlıca konstruktorların qarşılıqlı əlaqə səviyyəsi) kimi müəyyən olunur. İnsan psixologiyasının xarakterik xüsusiyyətlərinə uyğun olaraq ümumi, eyni zamanda, siyasi qərarlar əsasən “mərkəzi zəncirlə” bağlıdır. Buna nümunə olaraq əsas və digərləri (ikinci və ya üçüncü dərəcəli) arasındakı məsafə, mərkəzi dəyər sistemini müəyyən edən birbaşa və ya dolayı əlaqələrin üstünlüyü və s. göstərmək olar.

### *2.6.2.2. Situasiyadan asılı olaraq ekspert təhlili və qərarların qəbul edilməsi prosesi*

Situasiyanın təhlili metodlarına müşahidə, sənədlərin öyrənilməsi və müqayisə daxildir.

***Müşahidə***

Müşahidə BMN fənninin bir tətbiqi metodu kimi tədqiq olunan obyekt haqqında ilkin məlumatın alınmasına yönəlmişdir. Bir qayda olaraq müşahidə zamanı subyekt obyektin inkişafına müdaxilə etmir. Müşahidə zamanı texniki vasitələrdən istifadə olunub olunmamasından asılı olaraq müşahidə bilavasitə və instrumental ola bilər. İnstrumental müşahidələrdən fərqli olaraq bilavasitə müşahidələrdə subyekt obyekt haqqında məlumatı heç bir texniki cihazdan (televizor, radio, internet) istifadə etməyərək əldə edir. Subyekt obyekt haqqında bilikləri dolayısı yolla da (məsələn, müsahibə və ya anket sorğusu yolu ilə) əldə edə bilər. Belə müşahidəni dolayısı adlandırırlar. Bundan başqa müşahidə faktların “açıq” təsdiq etmə şəklində (məsələn, kənardan müəyyən hadisələrin inkişafının və ya qəbul olunmuş bu və ya digər qərar nəticəsinin izlənilməsi) və “daxil olunan müşahidə” formasında (məsələn, tədqiqatçının müəyyən diplomatik danışıqlar, hərbi münaqişələr və başqa bu kimi beynəlxalq münasibətlər sahəsində baş verən hadisələrin iştirakçısı olması) ola bilər. Lakin qeyd etməliyik ki, müşahidə bəzi hallarda tam və obyektiv məlumatın əldə olunmasına imkan vermir. Bu, obyektin tədqiq olunmasına subyektin qərəzli yanaşması, bir də tədqiqat zamanı müşahidə vasitələri kimi istifadə edilən texniki avadanlıqların nasazlığı ilə izah olunur.

***Sənədlərin öyrənilməsi***

Sənədlərin öyrənilməsi metodunun mahiyyəti, adından göründüyü kimi, mövcud sənədlərdən, mənbələrdən (qəzet, jurnal, statistik məlumat kitabçaları, audio-video materiallar, İnternet materialları, rəsmi sənədlər, qeyri-rəsmi mənbələr, müəyyən hadisələrin iştirakçılarının xatirələri) biliyin əldə olunmasındadır. Tədqiqatçı onu maraqlandıran məsələlərə dair bu mənbələrdən məlumat əldə edir.

Müşahidədən fərqli olaraq sənədlərin öyrənilməsi zamanı subyekt beynəlxalq aləmdə baş verən hadisələrin aktiv və ya passiv iştirakçısı olmur, yəni o, bu və ya digər hadisəni öyrənmək üçün onun şahidi olmaq məcburiyyətində olmur. Nəticədə hadisələrin daha dərin təhlil olunması üçün əlverişli şərait yaradılır. Belə ki, subyekt əldə etdiyi məlumatı əsaslı şəkildə təhlil etmək imkanı qazanır. Son zamanlar İnternet vasitəsilə dövlətlərin müxtəlif göstəricilərini, fəaliyyət sahələrini əks etdirən məlumat Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, Freedom House və bu kimi beynəlxalq təşkilatların və bir çox inkişaf etmiş demokratik dövlətlərin tərtib etdikləri veb səhifələrdə geniş təqdim edilmişdir. Bununla bərabər bəzi dövlətlər, xüsusilə "qapalı" avtoritar dövlətlər çalışır ki, onlar haqqında ictimaiyyətə geniş məlumatlar sızmasın. Belə olan hallarda sənədlərin öyrənilməsi bir metod kimi öz əhəmiyyətini itirir. Bu metoddan səmərəli istifadəyə mane olan başqa bir problem sənədlərin əldə olunması, istifadə edilməsi və qorunması ilə bağlı maliyyə xərcləridir.

***Müqayisə***

Müqayisə situasiyanın təhlilində bir metod kimi mühüm rol oynayır. Bu metodun mahiyyəti tədqiq olunan iki və daha çox obyektə xas olan oxşar və ya fərqli cəhətlərin müəyyən edilməsindədir. Müqayisə elmi biliyin mühüm mərhələsi olan ümumiləşdirmənin vacib şərtidir. Bundan başqa müqayisə analogiya üzrə əqli nəticələrdə də əhəmiyyətli rol oynayır.

Müqayisə beynəlxalq münasibətlərdə istifadə edilən ən səmərəli metodlardan biridir. Dövlətlər və onların ayrı-ayrı əlamətlərinin (məsələn, siyasi rejim, iqtisadi inkişaf səviyyəsi, əhali, ərazi, hərbi poten-

sialı və s.) müqayisəli təhlili beynəlxalq münasibətlər elmində kəmiyyət metodlarından geniş istifadə edilməsinə təkan verir. BMP fənnində müqayisə metodunun tətbiqi nəticəsində dövlətin beynəlxalq aləmdə davranışına onun bu və ya digər əlamətinin təsirini müəyyən etmək mümkündür. Məsələn, dövlətin demokratik üsul-idarəsinin onun sülhsevər xarici siyasət aparmasına təsir etməsi haqqında müddəanı bir neçə dövlətləri bir-birilə müqayisə etməklə əldə etmək olar. Lakin müqayisə metodu empirik xarakter daşıdığı üçün bəzən müqayisə müəyyən obyektiv səbəblərə görə bütün dövlətləri əhatə etmir. Buna görə də onun tətbiqi yolu ilə alınan nəticə ehtimal xarakter daşıyır.

İmitasiya olunmuş ssenarilərin ekstrapolyası və modelləşdirilməsi nə qədər əhəmiyyətli olsa belə BM-in proqnozlaşdırılması təcrübəsində **ekspert-analitik** metodları prioritet rol oynayır. Həm xarici, həm də yerli təcrübə göstərir ki, "proqnostikada real ekspert-təhlilindən başqa heç nə birbaşa bu rola iddialı deyil".

Bu metodun uğurlu təşkilinin əsas səbəbi yüksək səviyyəli beynəlxalq ekspertlərinn seçilməsindədir.

Ekspertlər yüksək peşə səlahiyyətləri ilə yanaşı baza səriştələri və ya az-çox balanslaşdırılmış şəkildə proqnostikanın müxtəlif metodoloji cərəyanlarını (reformist, liberal, sentrizm, sağradikal və s) təqdim etməlidirlər. Bundan başqa ekspertlər qrupunun bütün iştirakçılarını yığarkən onların mütləq bərabərliyini təmin etmək lazımdır.

Ekspert təhlili hər bir kompleks tədqiqiqat kimi üç mərhələyə bölünür: Məlumat hazırlığı, analitik və aralıq verilənlərin ortaq məxrəcə gətirildiyi sintez mərhələsi.

Bu zaman hansısa hadisələrin (məsələn, regional münaqişənin) ekspert-proqnostik təhlili üçün bir deyil, bir çox mənbələr tərəfindən aldığı çoxşaxəli informasiya bazasına söykənir. Beynəlxalq ekspertçi üçün bu anda həm ilkin (faktoqrafik), həm təkrar (məntiqi-intuitiv) məlumatlar eyni dərəcədə vacibdir.

Ekspert təhlilinin öz arsenalında daha onlarla baza metodik üsulları var ki, onlardan praktikada daha çox yayılanları açağıdakılardır:

**Ekspert sorğusu-** mütəxəssislərlə müəyyən beynəlxalq hadisəyə aid müxtəlif anketlərin doldurulması;

**Delfi metodu** - çoxturlu diskussiyaların və nəticələrinin ümumiləşdirilməsi ilə belə prosedurlarda əsas fikir ayrılığının seçilməsi, fərqin əsas səbəblərini müəyyənləşdirmək məqsədi ilə yeni müzakirə və korreksiyalar;

Bir qayda olaraq, ayrıca siyasi cərəyanların baxışlarını əks etdirən ayrı-ayrı analitiklərin intuisiyasına əsaslanan **qiymətləndirici mülahizələr**;

**Kontekstli kartoqram düzəltmə** - gələcəyin bütün mümkün hallarnın analiz və sintezini ardıcıl düzmək;

Ən gərgin, siyasi inkişafının tənqidi qovşaqlarını ayırmağa imkan verən ş**əbəkə və qrafik məlumatların təhlili**;

Məntiqi və statistika aparat əsasında proqnostik qərarların axtarışını optimallaşdırmağa imkan verən **imitasiya**;

Beynəlxalq siyasətin bu və ya digər aktorlarının mümkün ssenarilərni hipotetik olaraq müəyyənləşdirməyə yol verən **oyunlar nəzəriyyəsi**.

Bütün adları çəkilən üsulların praktikada kombinə edilmiş halda istifadəsi mövcud beynəlxalq vəziyyətin qısamüddətli gələcək perspektivlə kompleks tədqiqinə- situasiyanın təhlili metodologiyasının yaranmasına gətirib çıxarır.

*C. Martino ekspert –proqnostik işlərin bu metodologiya çərçivəsində aparılmasının üç əsas xüsusiyyətini ayırır*:

-Öz elmi və peşə nüfuzuna xələl gətirmədən və ekspertin şəxsi mövqeyini qeydə almaq üçün tam sərbəstlik verən məxfiliyi və anonimliyi;

-Tədqiqatlar aparılmasında lazımi ardıcıllığı təmin etməyə imkan verən əvvəlki sorğuların nəticələrinə tam istinad, sorğunun əsas gedişatdan yayınmasının qarşısının alınması, həm ekstropolyarlıqda, həm də ekspert işində əks əlaqənin möhkəmləndirilməsi;

-Analitik qrupun digər üzvlərinn razılaşdığı, ekspertlərin əksəriyyətinin rəyinin əks olunduğu proqnozun statistik göstəricilərinin

hazırlanması, ekspertlərin dağınıq fikirlərinin həcmini müəyyən-ləşdirməyə imkan verən median və kvartilin qurulması.

Yüksək kompleksli modelləşdirmə kimi ekspert təhlili bir sıra mərhələlərə bölünür:

a) informasiya-hazırlıq;

b) analitik;

c) bir çox aralıq məlumatların ümumi məxrəcə gətirildiyi sintez fazası.

Bu metodun əsas üstünlüyünün başlıca səbəbi kütlənin qrup şəklində biliyi (biliyin qrup kütləsi) və ya kollektiv analitik qiymətləndirilməsi həmişə ekspert-analitiklərin fərdi-şəxsi yanaşmalarından daha geniş əhatəli və çəkiyə malik olmasındadır. Burada kəmiyyətin yeni keyfiyyətə keçidinin labüdlüyü haqqında təbii-elmi qanun özünü göstərir.

Sitanalizin (situasiyanın təhlili **)** digər mühüm üstünlüyü bir tədqiqatçının praktik olaraq xüsusilə daxili və xarici mühitin qarşılıqlı təsirinə və subyektiv amilə aid olan informasiyanı mükəmməl toplayıb və işləməsinin mümkünlüyü ilə bağlıdır. Sitanaliz inkişafın daxili siyasi və beynəlxalq amillərinin daha sıx birləşməsini təmin edərək boşluğu aradan qaldırmağa imkan verir.

Ayrıca ekspertdən fərqli olaraq daha yüksək dərəcəli riskli situasiyalı-analitik qrup, bu və ya digər proqnostik qiymətləndirilmənin məsuliyyətini mövqelərinin tez-tez zidd ola biləcəyi, əsas qərar qəbul edən hakim elita, o cümlədən də populyar olmayan elektorat arasında öz üzərinə götürməyə hazırdır. Bu metodologiyanın əsas xüsusiyyəti onun dünya siyasətinin praktikası ilə sıx əlaqəsindədir - tədqiqat prosesində onun ətraflı yazısı (2-3 müəllif vərəqi) tərtib edilir, sonra onun əsasında ölkənin ali siyasi rəhbərliyinə çox yığcam analitik məktub (2-4 standart vərəq) hazırlanır.

Məsələn, 90-ci illərdə Rusiyanın elmi mərkəzlərində situasiyadan asılı olan ekspert təhlili əsasında aparılmış proqnostik tədqiqatlar ilk növbədə daxili və xarici amillərin xarici siyasət strategiyasının, dünya inkişafının müxtəlif alternativlər çoxluğunun hazırlanmasında qarşılıqlı fəaliyyət sahəsində olduqca məzmunlu nəticələr vermişdir.

Eyni zamanda situasiyadan asılı olan ekspert təhlili metodu mənfi məqamlardan da məhrum deyil: mahiyyət etibarı ilə sitanaliz təcrübədə əksər hallarda bütün xarici qərəz-sizlikdən, əslində, öz növbəsində, müxtəlif oliqarxiya qrupla.-rının lobbist təsirindən azad deyil, hakim elitanın sosial sifa.-rişidir. Yüksək kompleksli modelləşdirmə kimi ekspert təhlili də bir sıra mərhələlərə bölünür:

informasiya -hazırlıq;

analitik;

bir çox məlumatların ümumi məxrəcə endirildiyi sintez fazası.

Beləliklə, situasiyadan asılı olan ekspert təhlili özündə vəziyyəti dərin qiymətləndirməyə imkan verən və cari vəziyyət nəzərə alınmaqla səmərəli və mülahizə edilmiş kollektiv qərar qəbul edən beynəlxalq münasibətlərin praktika ilə daha sıx bağlı olan proqnozlaşdırma metodudur.

**Qərarların qəbul edilməsi prosesinin təhlili**

Qərarların qəbul edilməsi prosesinin təhlili beynəlxalq siyasətin dinamik ölçüsündən və bununla yanaşı BM haqqında elmin mərkəzi problemlərindən biridir.

Qərarların qəbulu prosesinin təhlili aşağıdakı 3 mərhələdə baş verir:

1. Siyasi qərarların təsnifatı.

2. Qərar qəbuletmə prosesində siyasətçinin fərdi keyfiyyətləri və liderlik üslubu.

3. Qərarın siyasi keçiricilik qabiliyyətinin yüksəldilməsi strategiyası.

*1. Siyasi qərarların təsnifatı*

Siyasi qərarları müxtəlif meyarlarla təsnifləndirmək olar.

İdarəetmə subyektinin vəziyyətlə tanışlıq dərəcəsindən asılı olaraq qərarı qətiyyətli, riskli və qətiyyətsiz bir şəkildə ayırd edirlər. Həll olunası problemlərin çətinliyindən asılı olaraq qərarların qəbul edilməsi mühafizəkar, seçmə, adaptiv, innovativ mərhələlərə ayırılır. Qərarların qəbul edilməsi prosesində şəxslərin cəlbolunma dərəcəsindən asılı olaraq:

-əməkdaşlarla ilkin məsləhətləşmələr olmadan fərdi qərarların qəbul edilməsi seçilir və sonradan məlumatlandırılır;

-tabe olanlar sonradan fərdi qərarlarla məlumatlandırılır;

-fərdi qərarların qəbul edilməsində kollektivdə ilə ilkin məsləhətləşmələr edilir;

-əməkdaşlarla birgə qərarın qəbulu;

-tabe olunanlara qərarın yerinə yetirilməsi funksiyasının ötürülməsi ayırd edirlər.

Müvafiq olaraq mümkün olan beş əsas üslubdan danışmaq olar:

Dirrektiv, dirrektiv-kollegial, kollegial, kollegial-liberal və liberal.

*2. Qərar qəbuletmə prosesində siyasətçinin fərdi keyfiyyətləri və liderlik üslubu (stili)*

Siyasi qərarların qəbulu çoxpilləli mürəkkəb prosesdir, sosial iqtisadi və siyasi elitanın, kütləvi informasiya vasitələrinin, siyasi yönümlü ictimaiyyətin təsiri ilə fəaliyyət göstərir.

Qərarların qəbulu prosesi liderin (siyasətçşinin) liderlik üslubu və fərdi keyfiyyətləri müəyyənləşir.

Qərarları ustalıqla qəbul etmək üçün rəhbər yetkin-bitkin (işlənmiş) qərarın həlletmə yollarının faydalığını tənqidi qiymətləndirməli, reallaşdırılmanı həqiqi şərtlərlə həll etmə ilə əlaqələndirməli, professional təcrübəni məharətlə istifadə etməli; qərarvermənin hasili üzrə konkret təkliflərin işlənib-hazırlamasına mütəxəsisləri fəal cəlb etməli, yüksək məsuliyyət hissinə malik olmalıdır.

Qərarların qəbul edilməsində rəhbərləri daxili və xarici strategiyası ilə seçirlər. Birinci qrupa həlletmənin keyfiyyətini, onun həyata keçirilə bilməsini (gərçəkləşməsini) öz səriştəsindən, intelektual (idrak) qabiliyyətindən, iradəsindən asılı olanlar aid edilir.

Xarici strategiyanın tərəfdaşları inanırlar ki, onların uğurları yaxud uğursuzluqları, ilk növbədə, xarici şəraitdən asılıdır və onlara təsir etmək imkanları yoxdur.

Qərarvermə prosesinə növbəti amillər təsir edir:

1. *İnformasiya* (məlumat) amilləri – yəni təsiretmə obyekti, icraçılar və fəaliyyətdə olanların şəraiti haqqında məlumatın həcmi;

2. *Motivasiya* (səbəblər) amilləri – yəni qərar verən subyektin mühüm səbəbləri, onun maraqları, təsisləri və mövqeyi;

3. *Subyektin xarakteri*, kollegial həlletməsi halında – qərarverən qrupda qarşılıqlı münasibətlərin xarakteri;

4. *Texnoloji amillər,* müəyyən prinsiplərə və qaydalara, texnoloji prosedurlara riayət eməklə qəravermə metodları mövcud arsenaldan istifadə etməklə şərtlənir.

Hər siyasi lider üçün siayasi qəravermə üslubu fərdidir. O, riskə və ehtiyatlığa meyilliklə elastik və sərt ola bilər.

Riskə meyilliklə elastik qərar vermə üslubunda siyasi lider bu ya digər alternativin “lehinə” və “əlehinə” dəlilləri əsaslı sürətdə mülahizə edir. Bununla risk saxlayıcı amil olmur, bu isə xoşagəlməz nəticələrə gətirə bilər. Ehtiyatlığa meyilliklə elastik siyasi qərar vermə üslubu lider üçün daha üstün olmalıdır. Cəsarətli siyasi qərar vermələr və onların nəticələri hərtərəfli (müfəssəl) təhlil ilə müşayiət edilir.

Sərt siyasi qərarvermə üslubu və riskə meyilli siyasi lider adətən mülahizə ilə üst-üstə düşməyən dəlillərə baxmır və hətta yeni, əhəmiyyətli məlumatın təsirindən belə qərarını yenidən dəyişmir.

Sərt siyasi qərarverici üslub və ehtiyatlığa meyilli siyasi lider həm öz ölkəsi, həm də beynəlxalq arenada daha az təhlükəlidir.

Xarici siyasət həllərinin qrup şəkildə qərarvermələri ilə üç rəhbərlik üslubu seçilir: avtoritar, demokratik və “kənarlaşdırılmış”.

Siyasi həllərin işlənib-hazırlanmasında qrup ilə avtoritar rəhbərlik üslubu aşağıdakı cizgilərlə müəyyən olunur:

- lider qrup üzvlərinin mövqeyini öyrənmək və sonra da özünə uyğun qaydada onu istifadə etmək üçün şəxsən qrup üzvlərinə müraciət edir;
- onun mövqeyi ilə üst-üstə düşməyən hər hansı bir əsaslandırmanı kəsir;
- qrupun hər üzvünə yerini və rolunu müəyyən edir;
- təklif olunmuş alternativlərdən fərdi seçim aparır.

Demokratik rəhbərlik üslubu şərtində qrupun bütün üzvləri sərbəst mülahizə edir; qrupun hər üzvü öz mövqeyini əsaslandırırlar; li-

der hamı ilə bərabər diskusiyada iştirak edir; qərarın seçimi eksperlər arasında qalib gələn nəzər nöqtəsindən asılı olur.

Demokratik rəhbərlik üslubunda qərarların verilməsi onun üslub variantlarından asılıdır:

- komunikativ üslub: siyasi liderin əmakdaşları öz fikirlərini ifadə edə bilər, son nəticədə göstərişlərə əməl etməlidir;
- konsultativ üslub: siyasi lider qərarını yalnız müfəssəl (hərtərəfli) məlumatın əsasında və birlikdə müzakirədən sonra qəbul edir, əmakdaşlar işlənib-hazırladığı qərarının icrasında iştirak edir;
- birlikdə qərarvermə ilə idarəetmə üslubu: siyasi lider problemi və məhdudiyyətləri göstərir, əməkdaşlar sonrakı hərəkətləri barədə qərarını özləri verir, siyasi lider özündə veto (qadağan) hüququnu saxlayır;
- avtonom üslub: əmakdaşlar özləri qərar verir, onlar çərçivələrlə məhdud deyil, nəzarət və cavabdehlik siyasi liderdə qalır.

Siyasi həlletmələrin qrup şəklində qərarvermədə "aralanmış" idarəetmə üslubuna aşağıdakılar aiddir:

- ekspertlərin qrup şəklində diskusiyasının qaydasına və məzmununa müdaxilə etmir;
- hər ekspertin əsaslandırılmasını tam şəkildə dinlənilir;
- siyasi lider öz mövqeyini ifadə etmir;
- müzakirə zamanı hasil olunan alternativlərdən ayrılmış şəkildə siyasi liderlə fərdi qərar qəbul edilir.

Avtoritar üslublar təkrarlanan məsələlər, böhran vəziyyətlərdən çıxış, ciddi təşkil olunan mərkəzləşdirilmiş idarəetmə və resursların paylaşdırılması sistemləri üçün məsləhət görülür.

Demokratik üslublar isə bədahətən, qeyri-təcili, təşəbbüsü tələb edən yaradıcıl məsələlərin həll edilməsi üçün məsləhət görülür.

*3. Qərarın siyasi keçiricilik qabiliyyətinin yüksəldilməsi strategiyası.* Qərarların siyasi keçirilicilk qabiliyyətinin (strategiyanın) yüksəldilməsi ilə arzu edilən nəticəni almaq üçün gücləndirici amillərə *siyasi sferaya keçirilməni*, *kooptasiyanı, kompromissi, manipulyasiya etməni, ritorikanı* qeyd etmək olar.

Siyasi dözümlülük, siyasi qərarların qəbulu və onların həyatiliyini təmin edən vacib keyfiyyətdir. Siyasi keçid qəbul edilən qərarın bir mərhələsi sayılır. Qeyd etmək lazımdır ki, təqdimatın siyasi qərar çevrilməsi üçün o mütləq normativ-hüquqi akt formasını qəbul etməlidir.

Qərarın qəbulu prosesində iqtiadi, ideoloji, peşəkar məslələrə maraq göstərən hər kəs aktor sayılır. Aktorların fəaliyyəti– qrupun maraq mövqeyi açıq şəkildə bəyan edilir, əks halda onları fayda və itkilərin müqayisəsi yolu ilə hesablamaq olar.

Qərar qəbul edilməsi zamanı hər bir sfera özünəməxsus qərar qəbul etmək sisteminə malikdir. Əasa qaydalar normativ sənədlərdə yazılır.

Qanunvericilər reqlamenti, icraçılar isə inzibati prosedurları əsas götürürlər. Bəzən qəraın bir sferanın başqasına keçərkən ayrı-ayrı görkəmli aktorların təsirindən yarana biləcək neqativ hallardan uzaqlaşmaq olur. Məsələn, müvafiq qərarın qəbulu ilə bağlı bu və ya digər tərəflə münasibəti pozmaq istəməyən şəhər meri məsələnin həllini və qərarın qəbulunu federal səviyyəyə qaldıra bilər.

***Kooptasiya*** insanları irəli sürülən təklifin qismən onların ideyası olduğunu inandırmaqdan ibarətdir. Yəni, qərarın dözümlülyündə strategiyanın artırılması üçün layihələrin hazırlanmasına əsas aktorların cəlb edilməsidir. Ümumi planda siyasi dəyişikliklər o zaman mümkündür ki, ictimaiyyətin əsas elitası məsələyə öz mövqeyini bu və ya digər formada bildirsin. Başqa siyasi aktorların layihəsinə üçüncü tərəf müdaxilə edə bilməz.

Qanunverici və icraçı strukturlarda koopotasiya adətən məsləhət komissiyaları formasını alır.

***Kompromiss*** strateqiyası siyasi təkliflərin siyasi qəbul oluna bilmə qabiliyyətinin artırılması məqsədi ilə siyasi təkliflərin əhəmiyyətli modifikasiyasını nəzərdə tutur. Bu təkliflərdən opponentlərə ən qəbuledilməz məqamların aradan götürülməsində ("qırmızı bayraqların götürülməsi") yaxud opponentlər üçün ən çox cəlbedici əlavələrin daxil edilməsindən ibarət təkliflər ola bilər ("paket" təklifi).

***Manipulyasiya***–bu elə yüksəlişdir ki, opponentə köməkçi təsir göstərir, obyektiv-subyektiv modifikasiyaların diapazonu məhdudlaşır (prosedura və reqlament, əas prioritet, dərketmə, bilik və təsəvvür və s.). *Siyasi seçimin şərtləri ilə manipulyasiya etmə* özünə gündəliyi manipulyasiya etməni, qiymətləndirmə ölçüləri (vahidləri) ilə manipulyasiya etməni, mənfəət və məsrəflə manipulyasiya etməni daxil edir.

*Səsvermə gündəliyi ilə manipulyasiya etmə* ilk dəfə XVIII əsrdə fransız riyaziyyatçı və filosofu Kondorse tərəfindən aşkar edilmiş "səsvermə paradoksu" fenomeninə əsaslanır, ancaq onun manipulyasiyası demokratiyanın geniş öyrənilməsi üçün XX əsrin ikinci yarısından tətbiq edilməyə başlanıb. 1951-ci ildə K. Errou sübut etdi ki, ədalətliyin baza prinsiplərinə cavab verən hər cür səsvermə sxemi qeyri-məntiqi nəticələr hasil (törədə) edə bilər. Səsvermə manipulyasiyası ilə bağlı D.Veyner və A.Vaynnqin təhlil etdiyi vəziyyəti nəzərdən keçirək. Kollegial idarəetmə orqanı olan hakimiyyətə, separatçı qüvvələrin təsiri altında olan, özünü müstəqil elan edən respublikayla davranış strategiyasını müəyyən etmək lazımdır. Bunun üçün üç alternativ təklif olunur:

- müharibə (konstitutsiya hüquqlarını bərpa etmək üçün silahlı müdaxilə);
- müzdlu silahlı qüvvə (gizli silahlı müdaxilə, silah və pul gücünə daxili vəziyyəti sabitləşdirmək);
- sülh–müstəqilliyin qəbul edilməsi, dövlətlərarası müqavilələrin bağlanması).

Reytinq səsverməsi zamanı göstərilən alternativlərin heç biri lazım olan səs çoxluğunu toplaya bilmir. Belə vəziyyətdə qərara alınır ki, iki raundda səsvermə keçirilsin. Birinci raundda 2 variantda səsvermə keçirilir. Qalib gələn üçüncü variantda səsverməyə gedir.

*İctimai gündəlik ilə manipulyasiya edilmə* siyasi həllərin işlənib-hazırlanması və qərarvermə prosesinə ictimai rəy və sosial mühitin təsir faktorları başa düşülür. Öz siyasi təklifləri̇lə mətduatın prioritet

diqqətini cəlb edə bilən yaranmış vəziyyətdən ən böyük fayda almağa şansı var.

Konkret vəziyyətdən asılı olaraq ictimai gündəlik ilə manipulyasiya edilməsi istər "məlumat pəncərəsinin" vaxtının uzadılması, istərsə də onun vaxtında "bağlanmasını" nəzərdə tuta bilər.

*Qiymətləndirmə ölçüləri (vahidləri) ilə manipulyasiya etmə. Manipulyasiyanın əsasında* səsvermə zamanı azlıqda olan tərəfin qiymətləndirmə ölçüləri (vahidləri) ilə manipulyasiya etməsi durur– yəni onlar prosesə çoxluğu parçalaya bilən əlavə mülahizələr daxil etməlidirlər.

Uilyam Riker bununla bağlı "Siyasi manipulyasiyanın incəlikləri" əsərində aşağıdakı misalı nümunə gətirir.

1956-cı ildə ABŞ-ın konqresinə nümayəndələr palatasında çoxluq təşkil edən Demokratlar Partiyası yeni bir qanun layihəsi təklif etdi. Bu qanun layihəsinə əsasən məktəblərə ayrılan federal yardım ştatlar vasitəsilə deyil, onlardan yan keçərək birbaşa məktəblərin özünə ödənilsin. Ancaq azlıq təşkil edən Respublikaçılar Partiyası, federal subyektlərin səlahiyyətlərinə toxunduğunu iddia edərək, bu layihənin əleyşhinə çıxdılar**.** Layihəni ləğv etməyə isə onların səsləri çatmırdı. Bu zaman respublikaçılardan bir nəfər deputat qanun layihəsinə belə bir düzəliş təklif etdi ki, irqi diskriminasiya olan məktəblərə bu vəsait birbaşa ödənməsin. Bu təklif vəziyyəti tamamən dəyişdi və demokşratçıları parçaladı. Belə ki, Şimal ştatlardan olan demokratlar bu təklifi müşdafiə etdilər, Cənub Ştatlardan olan demokratlar isə bunun əleyhinə səs verdilər. Sonradan layihə düzəlişlə ümumi səs verməyə çıxarıldı. Şimal ştatlardan olan demokratlar yenə də layihənin lehinə, Cənubdan olanlarsa əleyhinə səs verdilər. Respublikaçılar bu fürsətdən istifadə edərək layihənin əleyhinə səs verdilər. Cənub demokratlarla respublikaçıların səsi çoxluq təşkil etdi və konqres layihəni qəbul edə bilmədi.

*Mənfəət və məsrəflərlə manipulyasiya etmə.* Elektoratın böyük hissəsinə bərabər paylanılan əhəmiyyətli mənfəət/ məsrəflər olan siyasi proqramlar lazımi siyasi dəstəyi almaya da bilər. Əksinə, əgər siyasi həll etmələr cəmlənmiş mənfəət və ya məsrəfləri nəzərə alırsa, ən azı

insanların bir hissəsi şəxsi maraqları dərk edə bilər. Nəzərə alsaq ki, insanların çoxu maddi baxımdan təminatlıdır, onda siyasi aktivlik artdıqca onun iqtisadi faydalanma aktivliyi də artır. Siyasi proqramın faydası çoxsaylı elektorat arasında bərabər bölünərkən, bu proqram lazımı siyasi nüfuz qazana bilmir. Çünki hər bir fərd ücün məsrəfin fəallığı mənfəətin fəallığını üstələyir.

Bundan başqa, hər hansı professional idarəetmə sistemi açıq siyasi aktivliyə meyilli olduqda, o zaman fərdi iqtisadi təminatlılıq, mənfəətin lehinə, məsarifin əleyhinə acıq meyilli olur. Bu mexanizm siyasi reallıqla paradoksları müşahidə etməyə imkan verir. Belə ki, aktiv azlıqda olanlar hadisələrin gedişinə təsir göstərə bilir və qərarı öz xeyirlərinə dəyişə bilərlər. Lakin bununla birlikdə birləşdirilmiş azlıq maraqları heç də həmişə dağınıq çoxluq maraqlara qalib gələ bilmir. Məsələn, dairə seçki komissiyalarının hamısında nümayəndəsi olan assosiasiya, birləşdirilmiş azlıq maraqların təsirinə məruz qalmır. Burda siyasi effektlik əsasən təşkilatçılıqdan və mövqe bildirməkdən aslıdır.

BM-də qərar qəbul edilməsi prosesinnin öyrənilməsinin ən geniş yayılmış meodlarından biri onun nəzəriyyəsidir ki, biz əvvəlki yarımfəsillərdə xarici siyasətin öyrənilməsində Qərarın qəbul edilməsi nəzəriyyəsini izah etdik.

### *2.6.2.3. Eksplikativ metodlar*

Qeyd olunduğu kimi, eksplikativ ("explikatio" latınca – izah) metodlar beynəlxalq münasibətlər sahəsində baş verən hadisələrin daha dərindən tədqiq edilməsinə köməklik edir. BMN-də eksplikativ metodların sırasında kontent–analiz, ivent–analiz, koqnitiv kartlaşma və eksperiment ən geniş yayılmış metodlardır.

***1.*** *Kontent analiz****:*** *təyin edilməsi, elmi dövriyyəyə daxil olma tarixi, tətbiq sahəsi*

Kontent analiz siyasi aktorların fəaliyyətinin proqnozlaşdırılması və qiymətləndirilməsi məqsədi ilə tədqiq edilən hadisə və ya proseslərdə növbəti nəticələrin şərhi üçün kəmiyyət məlumatlarının

toplanmasını əks etdirir.

Kontent analiz mətnin öyrənilməsi metodlarının ən erkəninə aid edilir. Metodika elmi dövriyyəyə ABŞ-da XX əsrin 30-ci illərin sonlarında tətbiq edilmişdir. Əsasən müxtəlif KİV-lərdə eyni hadisələrin fərqli şərhinin aşkar edilməsi, siyasi şüarların cəlbediciliyin təyin olunması məqsədilə kütləvi informasiya mətnlərinn tədqiqi üçün uzun müddət istifadə olunub. Klassik kontent analizin banisi İkinci Dünya müharibəsi dövrünün təbliğat materialları tədqiq etmiş amerikalı tədqiqatçı Lassuel hesab edlilir.

Kontent analiz metodikasının beynəlxalq tədqiqatlar sahəsində tətbiqinin ən yaxşı nümunələrindən biri beynəlxalq böhran problemi üzrə "Stenford Plan" (1914-cü il hadisələrin timsalında) hesab edilir.

Böhran dövründə düşmən tərəflərin stenford qrup üzvlərinin mübadilə etdiyi sənədlərin müqayisəli təhlili əsasında dövlətdaxili informasiya davranışının məntiqi modeli təqdim olunub.

Hazırda kontent analiz biznes sahəsindəki tədqiqatlarda, siyasi analitikada və təcrübədə, güc strukturlarının maraqları daxilində geniş tətbiq olunur.

Kontent təhlilinə rəsmi sənədlər, kitablar, televiziya çıxışları, kino və video yazılar, fotoşəkillər, sənədlər, məqalələr, elanlar, şüarlar, incəsənət əsərləri məruz qalır.

Bu metodun köməyi ilə KİV-in aparıcı istiqamətlərini, liderlərin, firmaların, təşkilatların reytinqini, KİV-in müəyyən xadimlərə, hadisələrə və s. münasibətini müəyyən etmək mümkündür.

*2. Kontent analizin mərhələləri*

Kontent analizin prosedurunda bir neçə mərhələ ayırmaq olar:

Birinci mərhələ: tədqiqat məqsədinin və obyektinin müəyyənləşdirilməsi, kateqorial aparatının işlənməsi, kontent analizin keyfiyyət və kəmiyyət vahidlərinin seçilməsi.

Kontent analizin ölçü vahidi kimi aşağıdakılar çıxış edə bilər:

-"Fiziki" vahidlər (məsələn, kitabın nüsxələri, qəzet nömrələri);

-Struktur -semotik vahidlər (məsələn, dilin leksikası (söz və onların ekvivalentləri), qrammatik göstəriciləri (əks ədatlar, feli adlar);

-Tematik-anlayış vahidləri;

-Referensial (real şəxsiyyətlər, hadisələr, şəhərlər, ölkələr, təşkilatlar göstərlmiş) və kvazireferensial (daha çox siyasi səhnəni müxtəlif növ kollektiv aktorlardan təmsil olunmada göstərən: kommunistlər, liberallar, Qərb) vahidlər;

-Proporsional vahidlər və qiymətləndirilmə (onların əsasında konkret halların təsviri, tələb, faktın təsdiqlənməsi (məsələn, Azərbaycana investisiya lazımdır));

-Makrostruktur vahidlər (ssenarilərin xarakterini daşıyan qayda kimi mürəkkəb konseptual konstruksiyalar);

- Poetik vahidlər (bədii ifadəlililik üsulu).

İkinci mərhələ: kodlaşma təlimatlarının tərtib edilməsi. Mətndə seçilmiş tədqiqat kateqoriyalarının indikatorları çeşidlənir.

Üçüncü mərhələ: tədqiq edilən mətnlərin bütün hissələri kodlaşdırılır. Bu mərhələdə kvantlaşma prosesi həyata keçirilir, tədqiq edilən mətnlərin bütün məcmusu rəqəmsal olaraq çevrilir.

Dördüncü mərhələ: Alınan kəmiyyət verilənlərinin statistik işlənməsi əllə və ya Hesablayan Elektron Maşınları ilə həyata keçirilir.

Beşinci mərhələ: Alınmış məlumatlar əsasında tədqiqatın nəzəri konteksti təhlil edilir, məlumatlar yoxlanılır. Məlumatlar müxtəlif qrafik vasitələrin (diaqramlar, qrafiklə) köməyi ilə təqdim oluna bilər.

Kontent analizin həyata keçirilməsi ilkin işlənməni tələb edir.

1) Kontent analizin klassifikatorunu (o, bütün kateqoriyaların məlumatlarını və təhlil vahidlərini özündə əks etdirən cədvəl);

2) Sənəd barədə ümumi məlumatlar daxil edilməli olan kontent analizin blankı (müəllif, nəşr edildiyi vaxt, həcmi), onun təhlilinin nəticələri (orada istifadə edilmiş müəyyən təhlil vahidlərinin sayı və təhlil kateqoriyalarına nisbətdə buradan alınan nəticələr);

3) Təhlil vahidini xarakterizə edən, hesabın sayı qeyd olunduğu qeydiyyat vərəqəsi və ya kodlaşdırılmış matris, ədəd, xapaкterizə edən təhlil vahidi olduğu bildirilir;

4) Tədqiqatçının təlimatı;

5) Təhll edilmiş sənədlərin kataloqu.

*3.Kontent analizin növləri*

Kontent analiz üsulunun təyinində aşağıdakı fərqləndirmələr qəbul edilmişdir:

1. Kəmiyyət və keyfiyyət kontent təhlili

Kəmiyyət kontent analizi müəyyən xarakteristikaların mətndə təkrar yaranması ilə səciyyələnir.

Keyfiyyət kontent analizi subyektin aşkar və ya gizli məqsədlərinin daha səmərəli aşkara çıxarılması üçün keyfiyyət və kəmiyyət göstəricilərinin uyğunluğunun hesablanmasına istiqamətlənib.

2. İstiqamətlənməmiş və istiqamətlənmiş kontent təhlili

İstiqamətlənməmiş kontent təhlil mətnin reprezentativ (təmsiledici) adlanan bəzi sözlərinin bütün mətnə münasibətdə reprezentativ ola bilmə ehtimalına əsaslanır. Bu sözlər mətndə tez-tez rast gəlinir və funksional xarakterli daşımır.

İstiqamətlənmiş keyfiyyət kontent təhlili ayrıca hər bir kateqoriyanı konkretləşdirən anlayışların siyahısının ilkin hazırlanmasını nəzərdə tutulur.

Hazırda bu metodlar demək olar ki, müstəqil tətbiq edilmir, sonrakı mərhələlərinin tədqiqi üçün baza işinə xidmət edir.

2. Frontal kontent (məzmun) təhlil

Frontal kontent təhlili tətbiqi xarakter daşıyır. Müəyyən vaxt anında və ya müəyyən dövr ərzində informasiya axını haqqında maksimum ətraflı təsəvvürün dinamikasını müəyyənləşdirmək məqsədi ilə tərtib olunmaya istiqamətlənmişdir. Reyd təhlili özəl tədqiqat məsələlərinin həllli üçün nəzərdə tutulub.

*Kontent təhlil metodunun üstün və mənfi cəhətləri*

Alınan məlumatların yüksək səviyyəli dəqiqliyi (sənədlərin yenidən yoxlanma üçün münasibliyi), tarixi baxımdan keçmiş halların araşdırılması öyrənilən obyektə tədqiqatçının təsirindən qaçmaq imkanı verir.

*Kontent təhlil metodunun çətinlikləri*:

-kontent təhlil vahidinin seçimi tədqiqatçıların əsas ilkin metodoloji prinsiplərindən asılıdır (bu üst-üstə düşməyə də bilər). Nəticədə tədqiqatçılar müxtəlif təhlil vahidindən çıxış edə bilər;

-Tədqiqatçı ekspertin qiymətləndirilməsi onun hazırlığının və

həmin dövrün tarixi həqiqətlərini ümumi bilmə səviyyəsindən asılıdır;

-Sənədin həqiqiliyinin yoxlanılmasına xüsusi diqqət verilməlidir;

-Sənədin əlçatan olması zəruridir, kor-koranə arxiv materiallarından qaçmaq lazımdır.

Məlumatların təhlili zamanı yayılma xarakterini nəzərə alaraq yalnız onların əsas məqsədləri kontekstində onların məzmununu şərh etmək lazımdır.

Bir maraqlı təcrübə kimi kəmiyyətin kontent-təhlilinə yönəlmiş siyasi tədqiqatlar sahəsində ABŞ prezidentinin inauqurasiya nitqi materialı üzərində başlanıldı və sayın hesablanması üçün bir neçə məna dərəcələrinin kifayət qədər təkrarlanan növü dəyişildi. Xüsusilə, dörd məna kateqoriyası müəyyən edildi ki, hər biri bir neçə konkret anlayışlara aid ola bilərdi: milli identiklik (hökumət, Amerika, bizim/mənim ölkə və s), tarixi göndərilmə (böyük keçmişi, əcdadları və s), fundamental dəyərlər, (Allah, Konstitusiya, azadlıq və s) sosiumun vəziyyəti (bu günkü rifahı, gələcəkyə inam). İnauqurasiya nitqində təqdim olunan kateqoriyalaşdırılmış variyasiyaların təhlili-təkcə ayrı-ayrı şəxsiyyətlərin xarekteristikası üçün deyil, onlara kontekst kimi xidmət edən ictimai fon da maraqlıdır.

Kəmiyyətin kontent təhlili bizə müxtəlif suallara cavab verməyə imkan verir. Məsələn, yoxsulluqla mübarizə problemləri dünya liderlərini nə qədər maraqlandığını tapmaq üçün “Böyük Səkkizlik” ölkələrinin prezidentlərinin çıxışlarını bir mətnə toparlayıib, onların “pis”, ya da “yoxsulluq” sözlərinin orada neçə dəfə təkrarladığını hesablaya bilərik.

**İvent-analiz**

Xüsusilə, 1960-ci illərdə ivent-analiz (hadisələr haqqında məlumatların təhlili) beynəlxalq münasibətlərin təhlili sahəsində fəal inkişaf etməyə başlayır.

İvent-analiz siyasi elm çərçivəsində, daha doğrusu, bütövlükdə beynəlxalq münasibətlərin öyrənilməsi ilə bağlı onun istiqamətləri çərçivəsində formalaşmışdır. Bu, özlüyündə maraqlıdır, çünki əksə-

riyyət siyasi təhlili və proqnozlaşdırılma sahəsində istifadə olunan metodlar, fənnlərarasıdır və artıq müvafiq fənnin tələblərinə “uyğunlaşdırılıblar”.

İvent-analiz siyasi reallığı öyrənməyin kəmiyyət metodları qrupuna məxsusdur və onun 1960-cı illərin ortalarında (ilk dəfə ABŞ-da) yaranması təsadüf deyil. Bu vaxtadək qərb (ilk növbədə Amerika) siyasi elmində bihevorist paradiqma artıq möhkəm bərqərar olmuşdur: tədqiqatların əksəriyyəti formalaşdırılmış empirik materiala istinad edir, statistikadan və s. fəal istifadə olunurdu.

Bu baxımdan beynəlxalq münasibətlər sahəsi sanki “geridə qalma” vəziyyətində idi, burada hələ də ənənəvi metodlar: mətnlərin ənənəvi təhlili, tarixi təhlil üstünlk təşkil edirdi.

Bu siyasi elmin kəmiyyət məlumatlarının əsas mənbələrinin-sosioloji sorğularının nəticələri, elektoral və sosial-iqtisadi statistikanın dövlətlərarası səviyyədə deyil, dövlətdaxili generasiya olunması ilə bağlı idi.

Mürəkkəb xarici siyasi vəziyyət, “Soyuq müharibə” və silahlanma yarışı, Yaxın Şərq regionunda qeyri-sabitlik və s. təhlili və proqnozlaşdırılma daha fəal müasir tətbiqi metodları tələb edirdi. Beləliklə də müvafiq tələblərdən yaranan yeni metodlar inkişaf etməyə başladı.

*İvent – analiz (hadisənin təhlili) metodu* “kim”, “nə vaxt”, “kimə” münasibətdə “nə” deyir, yaxud məlumatının təhlil edilməsinə yönəlmişdir, Amerikalı tədqiqatçılar B.Rasset və H.Starr müvafiq göstəricilərin sistemləşdirilməsini və təhlilini aşağıdakı xüsusiyyətlər üzrə aparırlar:

1) subyekt – təşəbbüskar (kim);
2) süjet və ya problem (“issue-area”) (nə baş verir);
3) subyekt – hədəf (kimə qarşı);
4) hadisənin tarixi (nə vaxt);
5) coğrafi lokallaşdırılma.

Bu şəkildə sistemləşdirilmiş hadisələr elektron – hesablayıcı maşınlar vasitəsilə təhlil olunur. Metodun səmərəliliyi təhlil olunan göstəricilərin çoxluğundan asılıdır, təhlildə nə qədər çox göstərici istifadə

edilsə, ivent-analiz metodunun tətbiq olunmasının səmərəliliyi bir o qədər də çox olacaqdır. Bu metoddan istifadə edən elmi-tətbiqi layihələr tədqiq olunan davranış növü və siyasi xadimlərin sayı, istifadə olunan mənbələrin sayı başqa göstəricilər üzrə bir-birindən fərqlənirlər.

İvent analiz və ya hadisələrin verilənləri mürəkkəb siyasi proseslər- normativ aktların qəbulu, siyasətçilərin ictimai bəyanatları və münaqişələr şəklində tənzimləməyə və strukturlaşdırmağa imkan verir. Bu zaman məlumatlar yuxarıda qeyd edilən parametrlər üzrə sistemləşdirilir.

Həmin metodun effektivliyi bank tərəfindən verilən məlumatlardan birbaşa asılıdır.

İvent analiz ilk əvvəl ABŞ-da irqi iğtişaşların monitorinqi üçün nəzərdə tutulurdu və uzun müddət araşdırmalar məxfi xarakter daşıyıb. Hal-hazırda ivent analiz münaqişələrin öyrənilməsində tətbiq edilir, beynəlxalq danışıqlar prosesinin təhlili üçün proqnozlaşdırılma sahəsində siyasi situasiyanın obyektiv tendensiyalarını üzə çıxarmağa imkan verir.

*İvent təhlil metodikasının əsas mərhələləri*

Birinci mərhələ bank məlumatlarının tərtib edilməsi və ya mövcud baza məlumatlarından istifadədən barətdir. İnformasiya mənbəsi qismində rəsmi sənədlər, məlumatlar, xəbər başlıqları, statistik məlumatlardan istifadə edilir.

İkinci mərhələdə toplanmış informasiyanın ayrı-ayrı müşahidə vahidlərinə parçalanması və tədqiqat məqsədlərinə uyğun olaraq məlumaların çeşidlənməsindən ibarətdir. Məsələn, prinsipə görə kodlaşmada aşağıdakılar əsas götürülür:

-fəaliyyəti kim həyata keçirir (özünükiliər/başqaları);

-fəaliyyətin tipi (Verbal, fiziki);

-məqsədi: düşmənçilik, bitərəflik, əməkdaşlıq.

Subyektlər kimi çox vaxt dövlətə, siyasi institutlara, təşkilatlara, siyasi liderlərə baxırlar.

Üçüncü mərhələ matris klassifikatorunun doldurulmasında nəticələrin hesablanmasına xidmət edir.

Dördüncü mərhələ müəyən bir aralıq müddətdə hadisələri

xarakterizə zamanı alınan kəmiyyətlərin analitik müqayisələrini nəzərdə tutur.

Adətən:

-Bir tezlik çərçivəsində, lakn müxtəlif məkanda baş verən hadisələri;

-Bir məkan çərçivəsində, amma müxtəlif zamanda baş verən hadisələri;

-Bir neçə müvəqqəti mərhələlərdə müxtəlif məkan hüdudlarında baş verən hadisələri müqayisə edirlər.

Beşinci mərhələ alınan nəticələrin verifikasiyasından ibarətdir.

Yüksək obyektivlik ivent-analizin üstün cəhətidir. Bu da öz növbəsində qərarların qəbul edilməsi üçün  bu metodikanı ən populyar əsaslardan biri edir. Metodika icraçıların yüksək ixtisaslaşdırılmasını tələb edir.

**Koqnitiv (idraki) xəritələşmə metodu**

*Koqnitiv xəritələşdirmə metodikası* siyasi proseslərdə şəxsiyyət amilinin rolunun tədqiqi zamanı səmərəli ola bilər. Bu metodika siyasi xadimin problemi necə qəbul etməsini və böhran və ya münaqişəli vəziyyətlərdə onun davranışını üzə çıxarmağa imkan verir. Siyasi liderlərin koqnitiv (dərketmə) stillərinin milli xüsusiyyətləri araşdırılır. Metodun əsasında koqnitiv xəritənin qurulması durur (insan şüurunda olan informasiyanın emalı və saxlanması, strategiyanın qrafik yığılması).

Koqnitiv xəritələşdirmə metodikasının tətbiqinə uğurlu nümunə kimi sovet sisteminn necə işləməsi ilə bağlı müxtəlif alimlərin siyasi düşüncəsini müqayisə etmiş O.Xolstın işlərini göstərmək olar.

*Koqnitiv xəritələşdirmə mərhələləri*. Metodun güclü və zəif tərəfləri.

Koqnitiv (idraki) xəritələşmənin xarakteristik nəticələrinin şərhinin həyata keçirilməsi. İdraki xəritə tezlik meyarı ilə müəyyən edilən səbəbiyyət zəncirinin mərkəzinin müəyyənləşdirilməsi ilə başlayır: mərkəzə nə qədər çox sayda ox girir və ya çıxırsa, müəllif tərəfindən istifadə olunan mətnin anlaşılması o qədər yüksək tezlikli cavab

tədbirləri görülür. “Mərkəzilik” anlayışı, eləcə də xüsusi kəmiyyət göstəriciləri hər bir halda təpə nöqtələrinin istiqamətləndirici qrafikləri və onların arasındakı əlaqələrin “ağırlığı” (müəllifin istinad etdiyi başlıca kostruktorların qarşılıqlı əlaqə səviyyəsi) kimi müəyyən olunur. İnsan psixologiyasının xarakterik xüsusiyyətlərinə uyğun olaraq ümumi, eyni zamanda, siyasi qərarlar əsasən “mərkəzi zəncirlə” bağlıdır. Buna nümunə olaraq əsas və digərləri (ikinci və ya üçüncü dərəcəli) arasındakı məsafə, mərkəzi dəyər sistemini müəyyən edən birbaşa və ya dolayı əlaqələrin üstünlüyü və s. göstərmək olar.

Birinci mərhələdə siyasi xadim bilavasitə aidiyyəti olan materialların: müsa-hibələrin, çıxış mətnlərinin, avtobioqrafk məqalələrinin seçimi həyata keçirilir.

İkinci mərhələdə siyasi xadimin istifadə etdiyi əsas anlayışlar ayrılır, onların arasında səbəbiyyət-istintaq əlaqələri aşkarlanır, onların “sıxlıq” dərəcəsi müəyyən edilir. Mətnin təhlili gedişində mövzuların əsas məzmunu və səbəbiyyət-istintaq əlaqələrini əks etdirən koqnitiv xəritə çəkilir.

Üçüncü mərhələyə istintaq-səbəbiyyət əlaqələrinin kəmiyyət hesablamaları daxildir.

Dördüncü mərhələdə koqnitiv xəritə nəticələrinin interpretasiyası həyata keçirilir. Belə ki, mətnin strukturlaşması, birbaşa-əks əlaqələrin olması, frazaların artıqlığı (birincisi, ikincisi və s.) mümkün üstünlüklərin və risklərin qiymətləndirilməsi haqqında səmərəli olan barədə xəbər verir. Qiymətləndirici mülahizələrin üstünlüyü yüksək emosionallığı, həmçinin, daxili və xarici siyasi mövzularda nisbəti müəyyənləşdirməyi, konkret məsələlərə aid apelyasiya və abstrak forma verməyi və s. bildirir.

Beşinci mərhələdə alınmış nəticələrin yoxlanılması həyata keçirilir.

Təhlil zamanı beynəlxalq proseslərdə siyasi münasibətlər sahəsində təfəkkürün səmərəliliyi metodikanın güclü olmasını şərtləndrir.

Metodika (məsələn, kontent analizə nisbətən) daha çox zəhmət tələb edir. Məhsuldarlığın artırılması üçün koqnitiv xəritələşməni digər üsullarla birlikdə tətbiq edirlər.

**Eksperiment**

Eksperiment digər eksplikativ metodlardan fərqli olaraq tədqiq olunan obyektin gedişatına müdaxilə etməyi nəzərdə tutur. Eksperiment zəruri şərtlərin yaradılmasına maneçilik törədən bütün təsirlərin və faktorların aradan götürülməsini, müxtəlif vasitələrlə obyektin təsbit olunmasını, müvafiq texniki qurğularla müşahidənin və ölçünün aparılmasını ehtiva edir.

Təbiət elmlərində eksperiment nəzəri fərziyyələrin, nəticələrin və müddəaların yoxlanılması məqsədilə süni şərait yaradır. İctimai elmlərdə isə o, əsasən “xəyali” formada çıxış edir. “Xəyali eksperiment” “mövcud durumda müəyyən səbəblərə görə olmayan bəzi şəraitləri yaratmaq mümkün olsaydı, bu hadisələrin inkişafı necə olardı?” məsələsini müzakirə edir. İctimai elmlərdə, o cümlədən BMN fənnində eksperimentin daha geniş yayılmış növlərindən biri də imitasiya təqlid oyunlarıdır. İmitasiya oyunları tədris zamanı interaktiv metodlardan geniş istifadə edilməsində mühüm rol oynayır.

İmitasiya oyunlarının tədris zamanı tətbiq edilməsi tələbələrin fəallığını artıraraq keçirilən mövzunun yaxşı qavranılmasına kömək edir. İmitasiya oyunları əvvəlcədən tərtib edilmiş ssenariyə uyğun müəyyən rolların (məsələn, beynəlxalq münasibətlər sahəsində fəaliyyət göstərən aktorların rolları) icra olunması ilə bağlıdır. Oyun zamanı hər bir iştirakçı oyunun rəhbəri tərəfindən nəzarət edilən oyun şərtlərinə ciddi əməl etməlidir. Məsələn, hər bir rolu ifa edən oyunçunun (tələbə) gerçəklik haqqında tam məlumatı olmalıdır. O, bu məlumata əsasən qərar qəbul etməli və fəaliyyət göstərməlidir. Əks halda bu oyun özünün idraki əhəmiyyətini itirəcəkdir.

İmitasiya oyunlarını elektron – hesablayıcı maşınlar vasitəsilə də təşkil etmək mümkündür. Texnikanın köməyi ilə aparılan oyunlar daha geniş tədqiqat imkanlarını təklif edir, oyunçuların qərəzli mövqelərinin oyunun gedişinə təsirinin qarşısını alır, əldə olunan nəticələr gerçəkliyi daha dəqiq əks etdirir və nəhayət, obyektin gələcək inkişaf perspektivlərinə dair müəyyən proqnoz verir. Göründüyü kimi, eksperiment digər eksplikativ metodlardan fərqli olaraq BM sahəsində baş verən hadisələri izah etməklə kifayətlənmir. O, həmçinin bu hadisələ-

rin mümkün optimal inkişaf perspektivlərini də göstərir. Buna görə də eksperimenti eksplikativ metodlarla yanaşı proqnoz metodlarına da daxil etmək olar.

### *2.6.2.4. Proqnozlaşdırma metodları*

Proqnozlaşdırma metodları situasiyanın təhlili və eksplikativ metodlardan fərqli olaraq beynəlxalq münasibətlər sahəsində baş verən hadisələrin mövcud durumu ilə bərabər onun gələcək durumunu, inkişaf perspektivlərini də müəyyən edir. Beynəlxalq münasibətlərdə tətbiq edilən ən geniş proqnoz metodlarının sırasında *ekstrapolyasiya metodu, Delfi metodu, ekspert metodu, Delfi metodu, Edip effekti, morfoloji sintez, proqnoz ssenariləri və cədvəlləri, optimal qərar qəbul edilməsi modelinin hazırlanması, ssenarilərin qurulması, sistemli yanaşma və modelləşdirməni* göstərmək olar.

#### Ekspert metodu

Buraya ekspert qiymətləndirmə, analitik qeydlər, fərqli ekspert göstəricilərinin müqayisəsi, kütləvi müzakirə, dəyirmi masalar, zehni həmlə və s. metodlar daxildir.

Ekspert metodu aşağıdakı mərhələlərdə tətbiq edilir:

-ekspertlər tərkibinin seçilməsi və onların səriştəliliyinin qiymətləndirilməsi;
- ekspertlərin sorğusu üçün anket tərtib edilməsi;
- ekspert nəticələrin əldə edilməsi;
- ekspert rəylərinin uyğunluğunun qiymətləndirilməsi;
- nəticələrin etibarlılığının qiymətləndirilməsi;
- ekspert nəticələri üçün proqramın tərtib edilməsi.

#### Edip effekti

Gələcək haqqında xəbər verməyə çalışan bir çox miflər, əfsanələr sırasında Edip effekti, Yelena Troyanskaya, Gələcəkdən xəbər verən maral və s. əfsanələr bir sxem üzrə qurulub: qəhraman gələcəkdən xəbər tutur, onu dəyişməyə çalışır, lakin sonda həmin nəticə baş verir. Bütün bu miflər taleyin dəyişməz olduğunu göstərməyə yönəlib. Məhz bu əsasda proqnozlar özü-özünü reallaşdırır. Edip effekti gələcəyin

əvvəlcədən müəyyənləşdirilmiş modelini və konsepsiyasını əks etdirir. Bu model aşağıdakılardan ibarətdir:

1) Sərt determinizm (iradə, yaxud seçim azadlığı yoxdur).

2) Gələcək real olaraq mövcuddur (tam mövcudluğa malikdir).

3) Gələcək dəyişməzdir (bağlıdır).

K.Popper Edip effektinin şərhini genişləndirərək, proqnozun özünü reallaşdırması imkanları ilə yanaşı özünü məhv etməsi imkanlarının olduğunu da əlavə etmişdi. Beləliklə, Edip effekti – informasiyanın aid olduğu vəziyyətə təsiri imkanlarıdır. Nəzəriyyə, yaxud konsepsiya hər iki imkanı (özünü reallaşdırma və özünü məhv etmə) qəbul etdiyi üçün gələcəyin mifdə əks olunan şərhindən edilən daha geniş şərhə malikdir. Bu şərh aşağıdakıları özündə əks etdirir:

1) İndeterminizm (seçim imkanlarını qəbul edir (bifurkasiya)).

2) Gələcək real olaraq, mövcud deyil (yalnız potensial olaraq mövcudur).

3) Gələcək dəyişə biləndir (açıqdır).

Ziddiyyət məhz bu əsaslarda yaranır, çünki hər iki yanaşmanın qəbul edilməsi daha perspektiv imkanlar aça bilər. Belə nəticəyə gəlmək olar ki, *zaman öz xüsusiyyətlərini dəyişə bilər, yəni müəyyən şəraitdə gələcək real olaraq* mövcuddur, müəyyən şəraitdə isə gələcək mövcud deyil və onu müstəqil olaraq qurmaq olar. Şərh əsasında təkamüllü ontologiyanın cizgilərini müəyyən etmək olar. Varlıq daim zamana görə dəyişərək, həm fundamental qanunlar və prinsiplər, həm də konkret faktlar və vəziyyətlər səviyyəsində müəyyənləşmiş sabitliyini saxlamalıdır. Bu sabitlik proseslərin fərqli zaman sürətinə (müxtəlif sistemlərin daxili zamanı, qısa və uzun, və s.) əsasən əldə edilir. Determinizm mexanizmi əsasında varlığın arzu edilən və mümkün dəyişilməsi baş verir, saxlanılır, sonra isə növbəti dəyişmə baş verir. Proses mövcud reallığı xaos və süqutdan xilas edir, gələcəyə yönəldir. Bu çərçivə daxilində Edip effektinin dəf edilməsi vasitələrini aşkar etmək mümkündür. Reallığın determinist elementləri dəyişmədiyinə görə insan müdaxiləsi olmadan poqnozlaşdırılır. Onları necə müəyyən etmək olar? İlk növbədə müasir dövrdə müşahidə edilən və gələcəkdə

saxlanıla bilən faktlar, hadisələr, vəziyyətlər dəyişikliklər əsasında məhv ola biləcək faktlar, hadisələr vəziyyətlərdən fərqlənməlidir.

***Kollektiv qərarların qəbul edilməsi metodları***

**Morfoloji sintez metodu**

Bu metod tədqiq olunan problemin mümkün parametrlərinə dair informasiyanın əldə edilməsinə əsaslanır, hər cür ilkin mühakimə və müzakirədən kənar olur və üç suala cavab axtarır:

1.Proqnoz informasiyanın alınması üçün hansı vasitələr daha vacibdir?

2.Hadisələrin baş vermə ardıcıllığı necədir?

3.Mövcud problemin həlli üçün bütün vasitə, yaxud metodlardan necə istifadə etmək olar?

Morfoloji təhlil metoduna nümunə isveçrəli astpofizik Tsveyk mərminin kimyəvi tərkibini müəyyən etmək istəyərkən bu üsulu kəşf edib. İşləmə mexanizmi: obyekt bir sıra xarakterik parametrlərə bölünür, gerçəkləşməsi üçün matris variantı hazırlanır.

| | P1 | P2 | P3 |
|---|---|---|---|
| P1 | P11 | P12 | P13 |
| P2 | P21 | P22 | |
| P3 | | | |

Hər bir variant birləşmələri parametrlərinin məcmusu təqdim edir. Məqsədəuyğun variant sonra qiymətləndirilir.

*Morfoloji təhlilin alqoritmi aşağıdakı ardıcıllıqla yerinə yetirilir:*

Problem dəqiq rəsmiləşdirilir.

Müəyyən vəsaitlər sinfi təyin edilir (şərtlər və məhdudiyyətlər).

Proqnozlaşdırılmasına yönələn problemlərin ifadə vəziyyətini müəyyən edən əsas səciyyəvi parametrlər ayırılır (hər bir parameter müxtəlif sayda xüsusiyyətləri ifadə edir).

Hər bir parametr (struktur elementi) diapazonlar üzrə, realizasiya rejimləri ilə təsnif edilir.

Morfoloji xəritə (model) tərtib olunur.

Həll variantları morfoloji xəritə elementlərinin kombinasiyası yolu ilə formalaşır.

Variantın reallaşması imkanları prinsipial qiymətləndirililr.

Yekunda reallaşması qarşıya qoyulmuş problemlərin həllinə gətirib çıxaran, xüsusiyyətlərin bütün mümkün və qeyri-mümkün kombinasiyalarını əks etdirən morfoloji matris əmələ gəlir. Bu və ya digər qəraraın qiymətliliyi barədə məsələ matrisin qurulmasına qədər baxılır. İşin yekun mərhələsi daha ehtimal olunan hadisədən matrisin qurulması nəticəsində gözlənilmədən aralanma netrivial qərarların ekspertlər tərəfindən seçilməsindən ibarətdir.

**Rollar metodu**

Bu metod «lehinə - əleyhinə» metoduna uyğundur. Əsas fərq hazırlıq mərhələsində münaqişə vəziyyətin aşkarlanmasından ibarətdir. Mövcud münaqişə vəziyyətin təqlid edilməsi üçün qrupun tərkibindən bir neçə nəfər iştirakçı seçilir. Rol üçün hazırlığa 20-30 dəqiqə vaxt sərf olunur. Oyunun müddəti isə 15-20 dəqiqədir. İştirakçılar öz fikirlərini obyektiv göstəricilərlə əsaslandırırlar və rəqibin əks dəlillərini təkzib edirlər. Bütün dəlillər, o cümlədən «tezis - antitezis» formalı natiqlik üsulları istifadə edilir. Oyun zamanı tezislər kimi formalaşmış təcrübə qrupun bütün üzvləri tərəfindən müzakirə edilir və qiymətləndirilir.

Bu əsasda aşağıdakı test-suallar tərtib edilir:

-Rəqibin ən xoşagəlməz dəlilləri, sualları və etirazları hansılardır?

-Onlardan hansılar cavabsız qaldı, yaxud təkzib edildi?

-Ən yaxşı dəlillər hansılardır?

-Hansı dəlillər bir-birini tamamlamaq və gücləndirmək üçün birləşdirilməli, əlaqələndirilməlidir?

- «Oyun» prosesində hansı iştirakçılar xüsusi davranış nümayiş etdirdilər?

Daha səmərəli dəlillər əhatəli analiz edilir və xüsusi yaradılmış alt qrup tərəfindən təsnif edilir.

**Sinektik metod**

Bu metod 1960-cı ildə U. Qordonun yaratdığı «Synectics» firmasının adına uyğun olaraq belə adlandırılıb. Sinektikanın əsas xüsusiyyəti törəmə ideyaların tənqidinə qoyulan qadağanın götürülməsi və meydana çıxan problemlərin həlli məqsədilə nisbi daimi qrupların formalaşdırılmasından ibarətdir. Bu qrupların üzvləri tədricən birgə işə alışırlar, tənqiddən qorxuları azalır, kimsə onların təkliflərini qəbul etmədikdə incimirlər. Tədricən qrupda məsələlərin həlli təcrübəsi yaranır. Adətən sinektik qrupa bu metodun əsaslarını yaxşı bilən, təcrübəli mütəxəssis rəhbərlik edir. O, digərlərindən fərqli olaraq, qoyulan məsələ ilə bağlı istiqamətlənməyi daha yaxşı bacarmalıdır. Əvvəlcə problem ümumi müzakirə edilir, sonra tədqiqat sahəsi məhdudlaşdırılır. İşin gedişində ədəbiyyat, ekspertlərin məsləhətlərini istifadə etmək, model hazırlamaq olar. Rəhbər problemi olduğu kimi təqdim edir. Sinektorlar tədricən problemin quruluşunu dərk etdikləri kimi dəyişirlər. Qərar hazırlanması üçün metodun əsas mexanizmi analogiyaların istiqamətlənmiş axtarışıdır. Bu məqsədlə mövcud problemlərin həlli sahələri və vasitələri aşkar edilir. Əgər ekspert qiymətləndirməsindən sonra ideyanın maddiləşməsinin qeyri-mümkünlüyü müəyyən edilirsə, digər ideyaların axtarışı davam etdirilir. Bu metodun müsbət cəhəti tənqidin tətbiqi, analogiyalardan və psixoloji meyllənmə üsullarından istifadə edilməsidir. Mənfi tərəfi üzvləri bir sıra təlimlər keçməli olan daimi qrupların yaradılmasına olan tələbatla bağlıdır, çünki az saylı mütəxəssislər qrupunun təşkil edilməsi çətindir.

**Konkret vəziyyətlərin analizi metodu**

Harvard Universitetində hazırlanmış və təkrarlanan standart vəziyyətlər üçün nəzərdə tutulan metod aşağıdakı mərhələlərdə tətbiq edilir:

- vəziyyətə giriş;
- məsələnin qoyuluşu (iştirakçıların qruplara bölünməsi, vəziyyətin daha geniş təsvirinin əldə edilməsi);

- qərar qəbul edilməsi variantlarının qrup şəklində axtarışı;
- aparılan iş haqqında qrup üzvlərinin məruzəsi;
- ümumi müzakirə;
- problemin həll edilməsinə vahid yanaşmanın formalaşması.

**Balint məşğələsi**

Bu metod ilk dəfə ingilis həkimi Balint tərəfindən istifadə edilib və iştirakçıların problem haqqında müzakirələrinə dair daimi seminarların təşkil olunmasına əsaslanır. Mərhələləri:

- mövcud problemin mahiyyətini tam izah edə bilən bir iştirakçı seçilir;
- digər iştirakçıların növbə ilə mövzuya dair verdikləri suallar cavablandırılır və dövrü xüsusiyyətli bu mərhələ suallar qurtarana qədər davam edir;
- bütün iştirakçılar qoulan məsələnin həllinə dair öz variantlarını təqdim edirlər;
- topikstarter (mövzu təqdimatçısı) ümumiləşdirmələr aparır və nəticələr çıxarır.

**Metod "X*3*(X-1)" (X – iştirakçıların say göstəricisidir)**

Çox vaxt ideyaların kristallaşdırılması və problemin həlli variantlarının axtarılması üçün istifadə edilir. İştirakçılar daha dəqiq nəticələr əldə etmək üçün informasiyaları yazılı şəkildə mübadilə edirlər. Mərhələləri:

- ümumi problemin formalaşdırılması;
- inkubasiya (gizli dövr) mərhələsi;
- hər kəs üç qərar variantını qeyd edir;
- əldə edilmiş 3*X variantı növbə ilə bütün iştirakçılara təqdim edilir və hər kəs bura daha üç ideya əlavə edir;
- alınan 3*X*(X-1) ideyaları müzakirə edilir və qiymətləndirilir, optimal olan seçilir.

**Zehni həmlə**

Problemlərin alternativ və original həlli variantları hazırlanarkən istifadə edilir. Belə bir hipotezə əsaslanır ki, çoxsaylı ideyalar sırasın-

da problemin həlli üçün əhəmiyyətli olanlar mövcuddur. Burada əsas diqqət ideyaların keyfiyyətinə yönəlir. Zehni həmlə zamanı səviyyəsindən asılı olmayaraq bütün informasiya qeydə alınır. Mərhələləri:

- problemin qısa xülasəsi,
- ideyaların kütləvi törəməsi,
- ən yaxşı variantların qiymətləndirilməsi və seçilməsi.

**«Lehinə - Əleyhinə» metodu**

Mərhələləri:

- hər hansı bir metod əsasında problemin həlli variantlarının siyahısı tərtib edilir;
- bir neçə ən münasib variant seçilir;
- hər bir varianta «Lehinə - Əleyhinə» metodunun iki iştirakçısı qoşulur və öz dəlillərini təklif edir, digər iştirakçılar bu dəlilləri 5 bal şkalası əsasında qiymətləndirir;
- «Lehinə - Əleyhinə» metodunun iştirakçıları rollarını dəyişərək əlavə dəlillər gətirirlər və yenidən qiymətləndirirlər;
- ən əlverişli variant müzakirə edilir və seçilir.

**İntellektual funksiyaların bölüşdürülməsi metodu**

Bu metoda görə müxtəlif iştirakçı qruplar ideyaların törəməsi, inkişafı, müzakirəsi, tənqidi və təkmilləşdirilməsi funksiyalarını müəyyənləşdirirlər.

- «generatorlar» (hasil edicilər) maksimal sayda ideya irəli sürürlər;
- «eruditlər» (daha məlumatlı olanlar) ideyaları inkişaf etdirirlər;
- «ekspertlər» (mütəxəssislər) qərar variantlarını tənqidi analiz edirlər, yararsızlarını müəyyən edib, təkmilləşdirməyə göndərirlər;
- «işçi qrup» təklifləri redaktə edir və onların reallaşdırılması planlarını hazırlayır.

**Proqnoz ssenarilər metodu**

Bu metod vasitəsilə məntiqi ardıcıllıqla tədqiqat obyektinin gələcək vəziyyəti açıqlanır. Ssenarilər metodunun üstünlüyü inkişaf perspektivlərinin, əsas xəttinin müəyyənləşdirilməsi, həmçinin inkişaf

fonunun əsas amillərinin və məqsədlərə nail olma səviyyəsinin qiymətləndirilməsi üçün meyarların aşkar edilməsilə bağlıdır. Gözlənilən vəziyyətin ssenarisi təhlükənin vaxtında dərk edilməsinə, idarəetmədə mümkün uğusuzluğun açılmasına şərait yaradır. İnsanların idarəetmə formasının təsiri altında olan ssenari ilə, qərar qəbul edən şəxsin fəaliyyətindən asılı olmayan sssenarini müqayisə edərək vahid düzgün hesab edilən qəraı qəbul etmək olar. Hal-hazırda aşağıda qeyd edilən ssenari metodlarından daha çox istifadə edilir:

- Geniş miqyaslı hadisələr üzrə müxtəlif ekspert qruplarının razılaşdırılmış rəyinin alınmasından ibarət olan *razılaşdırılmış rəy metodu (*əsasən Delfi metodunun bir hissəsidir);
- Hadisələrin inkişafına təsir göstərən, hər aspect üzrə müstəqil ssenarilərin təkrarlandığı *təkrarlanan müstəqil ssenarilər metodu;*
- Qordan və Helmer tərəfindən hazırlanmış *qarşılıqlı təsirin əsası metodu.*

**Proqnoz sütunlar**

Proqnoz sütunlar proqnoz ssenarilərin riyazi modelləridir. Onlar yönəlmiş, yaxud yönəlməmiş, dövri, yaxud qeyri-dövri ola bilər. «Məqsədlər ağacı» ilə birlikdə bu metod obyektin tam inkişafını müəyyən edir, proqnoz məqsədlərin qurulmasında iştirak edir, proqnozların səmərəlilik meyarlarını və səviyyələrini müəyyənləşdirir.

**Optimal qərar seçilməsinin modelləşdirilməsi metodu**

Bu metod inkişaf alternativlərinin axtarılması ilə bağlı olub, mövcud şəraitdə ən optimal variantın seçilməsinə imkan yaradır. Bu zaman sistemin səmərəli funksiyalaşmasını əks etdirən optimallıq meyarları müəyyənləşdirilməli və sadə riyazi təsvirə malik olmalıdır. Optimallaşdırma məsələlərinin həlli metodları sırasında xətti proqramlaşdırma geniş istifadə edilir. Dinamik proqramlaşdırma zamanı öz vəziyyətini dəyişə, həmçinin idarə edilə bilən sistem tədqiq edilir. Bütün riyazi metod və modellər nisbilik xüsusiyyətinə malik olub, proqnozlaşdırma müddətindən asılı olaraq formaca dəyişə bilər. Model-

lərin istifadə edilməsi proqnozların səmərəliliyini yüksəldir, daha çox variantları nəzərdən keçirməyə və daha uyğun olanını seçməyə imkan yaradır. Modelləşdirmənin mənfi tərəfi xüsusilə də uzun müddətli proqnozlaşdırmada onların qeyri-dəqiqliyi və elastikliyi ilə bağlıdır.

**Ekstrapolyasiya metodu**

Ekstrapolyasiya BP və BM proqnozlaşdırılması metodları içərisində ən çox işlənən və geniş yayılan proqnozlaşdırma metodudur. Ənənəvi olaraq (müəyyən real siyasi proseslərin gələcəkdə davamı kimi) siyasi proqnozlaşdırmada bu metoddan geniş istifadə olunur.

Ekstrapolyasiya - keçmiş tendensiyaların gələcək dövrdə genişlənməsini gerçəkləşdirən, yekunda tədqiqat əsasında qismən daha ümumiləşdirici, bütöv xarakterli nəticələrin formalaşdığı "proqnostik" qiymətləndirilmə metodudur. Onun tətbiqi özünün hərəkət trayektoriyası və keçmişlə gələcək arasında hər hansı bağlılığa malik olan proseslərə əsaslanır. Yəni, bu metod proqnozlaşdırılan prosesin zamanca xeyli əvvələ aid olan retro və gələcəkdə mümkün ola biləcək dinamik göstəricilərin (riyazi, statistik, yaxud məntiqi) qurulması ilə bağlıdır. Mümkün dəyişikliklərin, meyl və proseslərin miqyasının dəqiq qiymətləndirilməsi üçün mürəkkəb ekstrapolyasiya, ehtimal nəzəriyyəsi, oyunlar nəzəriyyəsi, müasir riyaziyyat və kibernetik alətlər komplektinin istifadəsi səmərəli nəticə verə bilər. Bu metodun əlverişliliyi inkişaf əyrilərinin «absurd» ekstrapolyasiyası əsasında müəyyənləşir. Bu zaman fəaliyyətdə olan mexanizmin gələcəkdə dəyişmə imkanları, əvvəlcədən proqnozlaşdırılmamış funksiyalaşma meylləri təsvir edilir. Düzgün nəticə əldə etmək üçün riyazi modellər, məntiqi analiz, eksperiment qiymətləndirmə və normativ hesabatlara əsaslanan kompleks yanaşma vacibdir.

Ekstropolyasiya metodunun əsas prinsipi inkişafın davamlı sosial-fəlsəfi konsepsiyasına əsaslanır. Hər inkişafın yeni tarixi mərhələsi əvvəlki dövrləin inkişaf mərhələsinin təkində yaradılır. Bu isə yeni, daha yüksək dövrlü tərəqqi mərhələsində ilk mərhələnin "təkrarlığını" şərtləndirir. Bu tədqiqatçılara proqnozlaşdırılan obyektin or-

ta hərəkət sürətini proqnostik müəyyənləşdirməyə imkan verir (elementar ekstrapolyasiya).

*Elementar ekstrapolyasiya* beynəlxalq münasibətlər üçün kəmiyyət göstəricilərini proqnostik işləyir və beləliklə, müəyyən kəmiyyət məhdudiyyətinə malik olu. Bu da metodun mümkün istiqamələrdən yalnız birini aşkar etməyə imkan verən səthiliyni şərtləndirir.

Ona görə də nəzərə də almaq lazımdır ki, ekstrapolyar tədqiqatların aparılmasında proqnozun ilkin parametrlərinin seçimi müstəsna həlledici əhəmiyyətə malikdir.

Keçmiş və indi barədə informasiya məlumat bankının qüsurları proqnostik tədqiqatların məzmununu ciddi dəyişdirə bilər, ona irrasional cəhətlər verər və onun tətbiqi əhəmiyyətini azaldar.

Deməli, elementar ekstrapolyasiya metodu yalnız nisbətən sabit və davamlı, yavaş-yavaş təkamül edən sistemlərin (sivilizasiya massivlərinin, xalq hakimiyyəti, strateji ittifaqları və s) təhlili zamanı ən nəzərəçarpan nəticələr verir. Lakin bu situasiyada tədqiqatın nəticələri ekspert şərhlərinin intuisiya yolu ilə alınmış məlumatları dəfələrlə dəqiqləşdirilir və bu da öz növbəsində, digər proqnostik tədqiqatları ilə müqayisə edilə bilən olmalıdır.

*“Sadəlövh” ekstrapolyasiya*

Qeyd etdiyimiz kimi, müasir beynəlxalq münasibətlərin proqnozlaşdırılmasının əsaslandığı əsas prinsip inkişafın davamlı sosial-fəlsəfi konsepsiyasıdır. Belə ki, cəmiyyətin, dövlətin və xalqın hər yeni dövr inkişaf fazası və ya mərhələsi keçmiş inkişaf silsiləsinin dərinliklərində yaranır, bu isə həmin silsilənin yeni, daha yüksək silsilə prosesində “təkrarına” səbəb olur. Bu, analitiklərə proqnozlaşdırılan obyektin “orta hərəkət surəti”nin nəzəri formulundan ibarət olan “orta” funksional mövqesini proqnostik şəkildə müəyyən etməyə imkan verir. Bu zaman ən bəsit, yaxud C.Martinonun sözlərinə əsasən, “sadəlövh ekstrapolyasiya” ilə qarşılaşırıq. O, keçmişdə bütün baş verənlərin və bizim ekstrapolyasiyaya məruz qoyduğumuz formalaşmış tendensiyaların gələcəkdə də baş verməsi haqqında fərziyyəyə əsaslandıından sadəlövh (bəsit) adlandırılır.

Beynəlxalq münasibətlərdə bəsit ekstrapolyasiya kəmiyyət gös-

tәricilәrinin proqnostik işlәnmәsinә әsaslanır vә demәli müәyyәn kәmiyyәt mәhdudiyyәtlәrinә malikdir. Bu sәbәbdәn tәdqiqatçı tәdqiqata ardıcıl olaraq keyfiyyәt xarakterli müvafiq parametrlәr daxil edәrәk keyfiyyәt xarakteristikalarının tәhlilindәn xәyalәn ayrıla bilәr.

Yadda saxlamaq lazımdir ki, ekstrapolyar tәdqiqatların aparılması prosesindә proqnozun başlanğıc parametrlәrinin seçimi zamanı xüsusi dәqiqlik hәlledici әhәmiyyәtә malikdir.

Belә ki, perspektiv tendensiyalar ekspert-analitiklәrin intuitiv mәntiqi mülahizәlәrinin inkişaf etdirilmәsi әsasında keçmiş vә indiki zaman haqqında hadisәlәrdәn irәli gәlir, keçmiş vә indiki zaman haqqında mәlumat informasiya bankının yaranması zamanı yol verilәn xәtalar proqnostik tәdqiqatın mahiyyәtini ciddi surәtdә dәyişә bilәr, ona irrasional xassәlәr verә bilәr vә onun tәcrübi әhәmiyyәtin azalda bilәr. Bu aspektdә hәtta qapalı vә yarımqapalı tipli dövlәtlәrin hәr bir rәsmi statistikası әlavә korrektә olmadan proqnostik ekstrapolyasiya prosesinә daxil edilә bilmәz. Demәli ekstrapolyasiya metodu özü yalnız nisbәtәn sabit, davamlı, zәif tәkamülә malik sistemlәrin (mәdәni massivlәrin, demokratik hakimiyyәtin, strateji ittifaqların vә s.) analizi zamanı daha nәzәrә çarpan nәticәlәr verir. Lakin, hәtta bu vәziyyәtdә dә ekstrapolyasiya hәlә ki, proqnostik tәdqiqatları sona çatdırmır. Onun nәticәlәri öz növbәsindә ssenarilәrin qurulması, sistemli analiz, ekspertlәr tәrәfindәn anket sorğusu, situasiyanın tәhlili metodu vә s. digәr proqnostik tәdqiqatlarla müqayisә edilir vә әldә edilmiş mәlumatlar ekspertlәr tәrәfindәn dәfәlәrlә intuitiv şәrhlә dәqiqlәşdirilir.

**Tәtbiqi**

Ekstrapolyasiya proqnostik tәdqiqatlarda regionlaşma vә qloballaşma problemlәrinә dair geniş tәtbiq edilәn ilkin proqnozlaşdırma üsullarından biridir. O, qısamüddәtli daxili siyasi proqnozlaşdırmada kifayәt qәdәr geniş prezentativ yayılmışdır: ekspert –analitiklәr dairәlәrdә seçmә suallar vә yoxlama әsasında bir qayda olaraq yüksәk yәqinlik sәviyyәsi ilә seçicilәrin hәqiqi әhval-ruhiyyәsini, onların seçicilik davranışlarını, bunun ardınca isә bu vә ya digәr dövlәtin xarici siyasi kursunun istiqamәti müәyyәn edilir.

Real sosial proqnozlaşdırma tәcrübәsinin göstәrdiyi kimi ekstra-

polyasiya iqtisadi, elm-texniki, demoqrafik, ekoloji və digər sferaların (bu zaman elektron-hesablama tədqiqat metodlarından maksimum geniş şəkildə istifadə edilə bilər) perspektivlərinin proqnozlaşdırılması zamanı daha effektli olur. İdarəçilik amilinin, o cümlədən peşəkar diplomatiya fəaliyyətinin hər zaman riyazi məntiq qanunları əsasında təhlil edilmədiyindən, belə ki, ekstrapolyasiya bir hadisədən digərinə doğru nəzəri proyeksiya və ya xronoloji hadisənin digərinə xəyalən "köçürülməsi" vasitəsi kimi bir qayda olaraq beynəlxalq *proqnostikada köməkçi vasitə* rolunu oynayır.

Funksional qiymətləndirmə sistemləri və struktur xüsusiyyətlər ektrapolyasiya edilir. Bu metodun köməyi ilə böyük sistemlərinin kəmiyyət parametrləri, iqtisadi kəmiyyət xarakteristikası, elmi, istehsal potensialı, elmi-texniki tərəqqinin məhsuldarlığına dair məlumatlar, ayrı-ayrı yardımçı sistemlərin, blokların xüsusiyyət nisbəti, sistemdə mürəkkəb sistemlərin göstərici elementləri ekstrapolyasiya olunur. Lakin, belə proqnozların reallığı və onlara müvafiq etimad tədbiri ekstropolyasiyada hüdud seçiminin əhəmiyyətli dərəcədə əsaslandırılmasına və baxılan hadisənin mahiyyətinə nisbətdə "göstəricilərə " uyğun sabitliyə xidmət edir.

*Ekstrapolyasiya metodunun mənfi cəhətləri*

Geniş vüsət almasına baxmayaraq bu metodun ən ciddi mənfi cəhəti proqnostik tədqiqat bazasının məhdudiyyət təşkil etməsindən ibarətdir. Çoxlu sayda korreksiya və qeydlərin nəzərə alınması ilə indiki zamandan gələcəyə doğru xəyali səyahət real şəraitin bütün özünəməxsusluğu canlandırmağa qadir deyildir. Beynəlxalq həyatın mühüm hadisələrinin dəqiq surətdə təkrarı az mümkündür. Bununla yanaşı müharibə, siyasi çevriliş, sosial partlayış və s. kimi müxtəlif hadisələr arasında oxşarlıq belə bir qayda olaraq tədqiq edilən proseslərin real mahyyətindən çox formalarına toxunmaqla nisbi xarakter daşıyır.

**Ekstrapolyasiya və kompravistika**

Ekstrapolyar tendensiyalar kəskin dəyişikliklərə məruz qalmışdır. Daim korreksiyaya ehtiyac duyaraq onlar bir qayda olaraq beynəlxalq münasbətlərin proqnozlaşdırılmasının digər metodları ilə birlikdə istifadə edilir. Müasir beynəlxalq münasibətlərin proqnozlaşdırılması

nəzəriyyəsinin ekstrapolyar metoduna məntiqi şəkildə analogiya üzrə proqnozlaşdırma və ya daha dəqiq desək kompravistika birləşir.

**Kompravistika** analogiyanın tətbiq edilməsi ümumi şəkildə qəbul edilmiş və təbii təfəkkür vasitəsidir. Gündəlik həyatda insanların əksəriyyəti müntəzəm olaraq sadə müqayisəli analogiyalardan istifadə edir. Əgər biz müəyyən bir hadisənin digər oxşar hadisələrlə müşayiət olunduğunu aşkar etsək..., belə bir nəticəyə gələ bilərik ki, bu iki hadisə arasında müəyyən bir əlaqə mövcuddur. Biz şimşək çaxdığını gördükdə tezliklə leysan olacağını əvvəlcədən deyə bilərik. Analogiya daha yüksək səviyyədə əsas elm hesab edilir.

Beynəlxalq tədqiqatlar zamanı komparavistika metoduna istinad ilk növbədə tarixi-müqayisəli analogiyalar anlayışı ilə adlandırılan siyasi çevrilişlər, sosial inqilablar, "yuxarıdan" keçirilən islahatlar, etnik və dövlətlərarası münaqişələr, dünya müharibələri və s. kimi oxşar, əlaqədar, eyni tipli və digər yaxın situasiyalara müraciətə şərait yaradır. Bu baxımdan məsələn, sənaye, elmi-texniki və postindustrial inqilablar müqayisə edilə bilər. Tam komparavistik analiz metodu vasitəsilə keçmiş və gələcəyin sosial çevrilişlərini əhatə etmək olar. SSRİ-nin dağılması ilə yaranan müxtəlif ölkələrdə islahatlar və demokratikləşmənin mümkün nəticələrinin müqayisəli proqnostik axtarışlarını aparmaq tətbiqi nəticə verər. Müxtəlif mədəni massivlərin potensial təkamülünün müqayisəsi mühüm nəticələr əldə etməyə imkan verir. Bununla yanaşı ictimai həyatın, o cümlədən beynəlxalq inkişafın heç də hər bir hadisəsi tarixi və məntiqi analogiya çərçivəsində nəzərdən keçirilə bilməz. Hadisə və proseslərin oxşarlığı və müqayisə edilə bilinməsi aydın xarakter daşımalıdır, əks halda tədqiqatçı nəticəsi sıfıra bərabər olan yanlış, mifik, qeyri-real analogiyanın təzyiqi altına düşmüş ola bilər. Proqnostik tədqiqata ilkin "model analogiyası" kimi daxil edilən hər bir xarici şərait müəyyən sabit, dəfələrlə təkrarlanan əlamətlər və əvəzlənmələrə malik olmalıdır ki, onların ehtimalı digər, sonrakı, daha dəqiq proqnozlaşdırılan şəraitdə tədqiq edilsin. Beləliklə, XIX və XX əsrlər boyunca dünyanın müxtəlif hissələrində istənilən sosial inqilabı dağıdıcı vətəndaş müharibələri ilə nəticələnən kəskin sinfi mübarizə, təsərrüfatın dağılması, inqilabi elita sıralarında

dərin daxili parçalanma və qruplaşmalar və cəmiyyətin yeni sosial keyfiyyətə keçidi prosesində baş verən digər qeyri-ordinar hadisələr əvəz edirdi. Proqnostik tədqiqat keçmiş modellərini və gələcək ssenarilərini müqayisə etməklə ilk növbədə keçmişin təkrarlanmasının və ya əksinə keçmişin bəzi xüsusiyyətlərindən kənarlaşmaların qaçılmaz olduğunu sübuta yetirməyə, ikincisi isə yeni hadisə və tendensiyaların yaranmasının hipotetik ehtimalını üzə çıxarmağa yardım edir. Belə ki, mədəni, məkan, şəxsi və digər fərqlər səbəbindən ümumdünya tarixində iki və ya daha artıq oxşar hadisə olmamışdır və ola da bilməz.

Keçmiş modeli və gələcək ssenariləri müqayisə etməklə kompravastik tədqiqat: birincisi, labüd təkrarları sübut edir, ikincisi, yeni ənənə və təzahür hallarının yaranmasını hipotetik açmaq imkanı verir. Minimum subyektivlik və yalanı azaltmaq üçün eyni dərəcədə əhəmiyyətli olan və çox vaxt səthi tarixi məntiq müşahidələrə təsir edən "model hallar"ın hər biri üçün məcmu müəyyən edilməlidir.

Bəs komparavistikada subyektivliyi, yanlış analogiyanı azaltmaq məqsədilə model və proqnozlaşdırılan şəraitə aid olan ilkin məlumatların son dərəcə qərəzsiz və obyektiv seçimi hansı yolla həyata keçirilir? Bu suala cavab verərkən qeyd etmək lazımdır ki, bu kifayət qədər mürəkkəb bir prosesdir. Müqayisənin keçirilməsi üçün hər iki şəraiti təhlili etməyə imkan verən aspektlər məcmusu müəyyən edilməlidir. Buraya nəzərdən keçirilən şəraitlərin müqayisə edilməsi zamanı əhəmiyyət kəsb edəcək bütün aspektlər daxil edilməlidir. Bir çox hallarda müqayisə zamanı şəraitin gedişinə təsir göstərməyən aspektləri hesaba almamaq mümkündür. Lakin əhəmiyyətli hesab edilən aspektlər üzrə verilmiş iki hadisənin oxşar və fərqli cəhətlərini müqayisə etmək lazımdır.

Göründüyü kimi məlumat informasiya bankının yaranmasının artıq ilkin mərhələsində ekspert-analitik kifayət qədər geniş və çoxamilli məlumat əldə etmiş olur. Bu məlumat onu beynəlxalq proqnostik tədqiqatın tamamilə yeni səviyyəsinə qaldırır. Bu zaman ekspert daha əlverişli inkişaf alternativlərinə xüsusi diqqət ayırmaqla ekstrapolyasiya və kompravistika metodları əsasında bir neçə mümkün nəticəyə malik "laborator" kombinasiyalar əldə edir.

Ekstrapolyasiyanın köməyilə proqnozların formalaşması adətən obyektin bu və ya digər şəkildə kəmiyyət xüsusiyyətli statistik toplanan ideya dəyişikliklərindən qaynaqlanır. Çox vaxt mürəkkəb obyektlər bir parametr üzrə təsvir edilə bilməz.

Ekstrapolyasiya və mülahizələrin statistik təhlil zamanı bununla əlaqədar fəaliyyət ardıcıllığı barədə müəyyən təsəvvür yaratmaq olar:

*Birincisi*, proqnozlaşdırılan obyektin inkişafı ilə bağlı ehtimalların irəli sürülməsi məsələlərinin dəqiq müəyyən edilməsi, həmin obyektin inkişafını stimullaşdıran, mane olan amillərin müzakirə edilməsi, lazımi ekstrapolyasiyanın və onun ehtimal edilən məsafəsinin təyin edilməsi;

*İkincis*i, ayrı-ayrılıqda hər bir parametrə aid sistem parametrlərinin seçimi, müxtəlif ölçü vahidlərinin unifikasiyası;

*Üçüncüsü*, məlumatların toplanması və sistemləşdirilməsi. Onları müvafiq cədvələ yerləşdirilməzdən əvvəl məlumatların eyniliyi və onların müqayisəyə gəlməsi bir daha yoxlanılır. Bu zaman onların bəziləri bir qədər seriyalı məhsullara aiddir, digərləri isə yalnız yaradılan obyektləri xarakterizə edə bilər;

*Dördüncüsü*, yuxarıda sadalanan tələblər yerinə yetirildikdə, statistik təhlil və bilavasitə ekstrapolyasiya zamanı araşdırılan kəmiyyətlərin müəyyən tendensiyalarını və ya simptom dəyişikliklərini üzə çıxarmaq lazım gəlir.

Deməli, ekstrapolyasiya proqnostik qiymətləndirmə metodudur. Ekstrapolyasiya zamanı məcmunun qismən tədqiqi əsasında daha ümumi və tam xarakterli nəticə və qiymətlər formalaşır. O, əvvəlki proqnozlaşdırma vasitələrindən birini təmsil edərək iri beynəlxalq hadisə və proseslərn yaranması zamanı və ya gedşatında geniş tətbiq edilir.

*Komparavistikanın* – beynəlxalq münasibətlərin müqayisəli- tarix təhlili metodunun tətbiqi ekstrapolyar proqnostik tədqiqatları tamamlayır və zənginləşdirir.

Müasir beynəlxalq münasibətlərin proqnozlaşdırılması nəzəriyyəsinin ekstrapolyar metoduna məntiqi şəkildə analogiya üzrə proqnozlaşdırılma və ya daha dəqiq desək kompravistika birləşir.

Artıq yuxarıda qeyd edilmişdir ki, tarixi-müqayisəli proqnozun nəticəsi ilkin, daha dəqiq “model şəraitin” rasional seçimindən xeyli asılıdır. Bu zaman bir çox hallarda səthi müşahidədə gizli qalan tarixi məntiq aşkara çıxır. Bu yerdə Avropa dövlətləri- İspaniya, Portuqaliya, İngiltərə, Fransa və s. tərəfindən tərəfindən öz strateji potensialına arxalanaraq qızışdırdığı XVIII və XIX əsrlərin istənilən müstəmləkə müharibələri tarixi nümunəsinə istinad etmək olar. Müstəmləkəçi dövlətlərin bu cür uzun sürən, üzücü və qanlı müharibələrdə məğlubiyyəti formal məntiq baxımından inanılmaz idi, lakin bununla yanaşı, milli-azadlıq qüvvələri strategiyasına doğruluğunu təsdiq etmiş real fakta çevrildi.

Beynəlxalq münasibətlərin kompravistikası bir və ya bir neçə yaxın, bir çox cəhətdən isə oxşar şəraitlərlə qarşılaşır: sosial-siyasi hərəkatlar, beynəlxalq münaqişələr, dini reformasiyalar və s. Lakin, istər model, istərsə də proqnozlaşdırılan istənilən tarixi şərait özünəməxsusdur, buna görə də onların oxşarlığı hər hansı bir tam geosiyasi məkan çərçivəsində nisbi və şərti xarakter daşıyır. Proqnozlaşdıran analitik daim yadda saxlamalıdır ki, iki tamamilə oxşar tarixi hadisənin mövcudluğu qeyri-mümkündür, belə ki, hətta xaricən oxşar hadisələr belə bir çox amil və parametrlər üzrə bir-birindən tamamilə fərqlənir. Lakin bu zaman aşkar edilmiş fərqləri hesaba almamaq üçün əsasın olmasını və ya onların tədqiq edilən analogiyanı yanlış, demək ki, qeyri-səmərəli hesab etməyə əsas verməsini yalnız tədqiqatçı özü müəyyən edə bilər.

Beləliklə, ekstrapolyasiya metodu özündə strateji qiymətləndirməni birləşdirir. Onun əsasında dünya siyasətinin hansısa ayrı-ayrı aspektlərinin tədqiqi ilə yanaşı, bir çox hallarda bütöv xarakterli nəticələr çıxarılır. Kompravistka üsulunun tətbiqi ekstrapolyar proqnostik tədqiqatları zənginləşdirir, bir qayda olaraq, beynəlxalq proqnozlaşdırılmanın digər üsulları ilə əhəmiyyətli dərəcədə birləşərək praktikada tətbiq olunur.

**Modelləşdirmə**

Siyasi proseslərin və beynəlxalq münasibətlərin tədqiq üsullarından biri də modelləşdirilmədir. Məsələ ondadır ki, bir çox siyasi qərar-

ların atributu kimi say xarakteristikasına müraciətə iqtisadi və ya hərbi hissələr xidmət edir. Təhlil üçün mürəkkəb obyektlərin modelləşdirilməsi nəticəsində bu sadə sxematik şəkildə təqdim olunur. Yəni, əslində bu onun əsas cəhətlərin öyrənmək üçün sadələşdirilmiş təsəvvür modelidir.

**Modellərn növləri**

Modellərin növləri arasında fiziki, riyazi və analoq modellərini fərqləndirmək qəbul edilib. Siyasi modellər, bir qayda olaraq, analoq modellərə aid edilir.

Modelləşdirmə bir proqnoz metodu kimi beynəlxalq münasibətlərin tədqiq olunmasında geniş tətbiq edilir. Bu metodun mahiyyəti sistem kimi çıxış edən süni, ideal, təsəvvür olunan obyektlərin, situasiyaların qurulması ilə bağlıdır. Sistemin elementləri və münasibətləri real beynəlxalq münasibətlər sistemində olan hadisələrin və proseslərin elementlərinə və münasibətlərinə uyğun gəlir. Modelləşdirmə müəyyən qaydalar üzrə tədqiq olunan obyektin bənzərində onun əlamətlərinin əks olunmasıdır. Obyektin bənzəri model adlanır. Modelin qurulması üçün tədqiq olunan obyektin və modelin əlamətləri və prosesləri arasında müəyyən oxşarlığın olması vacibdir.

Mövcud şəraitdə real obyektlərin tədqiq olunması daha çətin, yaxud qeyri-mümkün olduğu halda modelləşdirmə təhlilin aparılmasını asanlaşdırır. Modelin üstünlüyü onun düzəlməsinin asanlığında, həmçinin əlamətlərinin onun iş rejiminin tez bir zamanda dəyişdirilməsinin, laboratoriya şəraitində lazımi dəyişikliklərin aparılmasının mümkünlüyündədir. Beynəlxalq münasibətlərdə modelləşdirmə metodunun tətbiq edilməsi təhlilin tətbiqi metodlarından və texnikasından kompleks şəkildə istifadə edilməsi üçün ona şərait yaradır. Bu isə, öz növbəsində, beynəlxalq münasibətlərin izah olunması və proqnozlaşdırılması üçün mühüm əhəmiyyət kəsb edir.

Lakin modelləşdirmə metodunun da *zəif cəhətləri və bəzi çatışmazlıqları* da vardır. Belə ki, beynəlxalq münasibətlər sisteminin tamamilə obyektiv modelinin qurulması mümkün deyil. Buna görə də modelin əsasında əldə olunan biliklər şübhə doğurur. Beynəlxalq

münasibətlər insan fəaliyyətinin elə bir sahəsidir ki, burada atılacaq hər bir addım elmi cəhətdən əsaslandırılmalıdır. Odur ki, beynəlxalq münasibətlərdə proqnoz metodlarının rolu əvəzsizdir.

Proqnoz metodlar vasitəsilə beynəlxalq münasibətlər sahəsində baş verən hadisələrin inkişaf meyllərinin müəyyənləşdirilməsi müvafiq qərarların qəbul edilməsi üçün mühüm əhəmiyyət kəsb edir.

**Sistemli yanaşma**

Sistemli yanaşmanın bir proqnoz metodu kimi mahiyyətini açmaq üçün "sistem" anlayışını nəzərdən keçirmək lazımdır. Sistem anlayışından bir çox beynəlxalq münasibətlər nəzəriyyələrində istifadə edilir. Bu məfhumun əsas üstünlüyü ondan iabarətdir ki, o, tədqiqat obyektini birlik və bütövlükdə təqdim etməyə imkan verir, onun bir-biri ilə qarşılıqlı münasibətdə olan elementləri arasında mövcud münasibətləri tapmağa kömək edir, beynəlxalq sistemin fəaliyyətinin qanunauyğunluqlarını müəyyən edir. Ədəbiyyatda sistemli yanaşmanın əsasında *beynəlxalq münasibətlər və beynəlxalq siyasət arasında fərq göstərilir*: əgər beynəlxalq münasibətlərin tərkib elementləri iştirakçılardan və onların "potensialını" təşkil edən faktorlardan ibarətdirsə, beynəlxalq siyasətin tərkib elementlərini yalnız aktorlar təşkil edir.

Sistemli yanaşmanın mahiyyətini dərk etmək üçün onun ədəbiyyatda geniş istifadə edilən və konkret təcəssümləri olan system nəzəriyyəsi və sistem təhlili anlayışlarından fərqini göstərmək məqsədəuyğundur. *Sistem nəzəriyyəsi* sistemin və onun elementləinin quruluşu, təsviri və izahı ilə məşğul olur, sistem ilə mühitin qarşılıqlı əlaqəsini müəyyən edir, sistemdaxili proseslərin təsiri altında sistemin dəyişməsini və/və ya dağılmasını tədqiq edir. *Sistem təhlili* isə tədqiq olunan obyekti nizama salmaqla təcrübi metodikalar, üsullar məcmusu kimi daha konkret məsələləri həll edir.

**Raymon Aron** sistemli yanaşmanın əsasında beynəlxalq münasibətlərin tədqiq olunmasında üç səviyyəni: dövlətlərarası sistemin, dövlətin və onun qüdrətinin (potensialının) səviyyəsini müəyyən edir. **Ceyms Rozenay** isə beynəlxalq münasibətlərin təhlilinin altı səviyyədən ibarət olan başqa bir sxemini təqdim edir:

1. fərdlər – siyasətin “yaradıcıları” və onların xarakteristikası;

2. fərdlərin tutduqları vəzifələr və icra etdikləri rollar;

3. fərdlərin fəaliyyət göstərdikləri hakimiyyətin strukturu;

4. fərdlərin yaşadıqları və idarə etdikləri cəmiyyət;

5. milli dövlət və beynəlxalq münasibətlərin digər iştirakçıları arasında münasibətlər sistemi;

6. dünya sistemi.

**B.Rasset və H.Starrın fikrincə**, bu və ya digər təhlilin səviyyəsinin seçilməsi tədqiqatçının subyektiv istəyi ilə deyil, faktların mövcudluğu və nəzəri yanaşma ilə müəyyən edilir. Buna görə də sistemli yanaşma metodunun tətbiq edilməsi zamanı bir neçə müxtəlif səviyyəni tapıb müəyyən etmək lazımdır. Müxtəlif səviyyələrdə təqdim olunan izahlar bir-birini tamamlayaraq obyekt haqqında biliklərimizi dərinləşdirməlidir.

Sistemli yanaşma bir proqnoz metodu kimi tədqiq olunan obyekti sistem şəklində qələmə verərək onun tərkib elementlərini müəyyən edir və bu elementlərin bir-birinə, xüsusilə sistemə təsirini göstəir. Bu metodun səmərəliliyi tədqiq olunan obyektin bir sistem kimi təqdim olunması, onun bütün elementlərinin sadalanması və onların hər birinin sistemə təsirinin nəzərə alınması ilə müəyyən edilir. Əgər bunlardan birinə əməl olunmasa (məsələn, dövlətin xarici siyasətinə təsir edən faktorlar müəyyən edilərkən dini faktorun təsiri nəzərə alınmır), bu metodun irəli sürdüyü proqnoz dəqiq olmayacaqdır.

Qeyd etmək lazımdır ki, dövlətin xarici siyasətinin proqnozuna münasibətdə sistemli təhlil metodu özü “determinantların” təhlilini ehtiva edir. **R.Rosk** özünün “Dünya sosiologiyası” əsərində dövlət potensialını iki növ amildən ibarət olan (fiziki və mənəvi) məqsədlərinə nail olmaqdan ötrü ixtiyarında olan ehtiyatların məcmusu kimi təqdim edir.

Fiziki amilərin tərkibinə məkan (coğrafi mövqe) və üstün cəhətləri, əhali (demoqrafik qüvvə), iqtisadiyyat (iqtisadi ehtiyatlar), sənaye və kənd təsərrüfatı potensialı, hərbi qüvvə daxildir.

Mənəvi amilə isə siyasi rejim və onun ideologiyası, əhalinin ümumi və texniki təhsilinin səviyyəsi, milli mənəviyyat, beynəlxalq

sistemdə strateji mövqe (birlik, ittifaq və s. çərçivəsində) daxil edilir.

Göstərilən amillər dövlətin xarici siyasətinə öz təsirini göstərən müstəqil dəyişən amillərin məcmusudur. Onları tədqiq edərək orada baş verən dəyişiklikləri proqnozlaşdırmaq mümkündür. Bu metod sistem, element və münasibətlərdən ibarət olan və real beynəlxalq fenomen və proseslərin elementlərinə və münasibətlərinə müvafiq gələn qeyri-təbii, ideal, xəyali amillərin, situasiyaların quruluşu ilə bağlıdır. Sistemli yanaşma beynəlxalq münasibətlərdə baş verən dəyişiklikləri nəzərə almaqla kifayətlənmir. O, beynəlxalq sistemin inkişafı ilə bağlı bu dəyişikliklərin səbəblərini aşkar etməyə imkan yaradır, dövlətlərin fəaliyyətinə təsir edən faktorları müəyyən edir.

**Sistemli yanaşma əsasında kompleksli modelləşdirmə**

Kompleks poqnostik modelləşdirmə özündə sosial-fəlsəfi tarixi-kulturoloji və siyasi-iqtisadi bilikləri mürəkkəb çox faktorlu sintezini əks etdirir.

Kompleks modelləşdirilmənin metodologiyası sistemli yanaşma əsasında üç əsas səviyyəsini əhatə edir:

a) beynəlxalq sistem heyətinin səviyyəsi, yəni müxtəlifliyi yaradan və onu təşkil edən elementlərin qeyri-adi çoxluğu;

b) daxili strukturun səviyyəsi, yəni bu sistemin elementləri arasında qarşılıqlı əlaqələrin kompleksi;

q) xarici strukturun səviyyəsi, yəni xarici, beynəlxalq mühiti ilə müxtəlif qarşılıqlı əlaqələrin məcmusu.

Strateji sistemli tədqiqatın əsas vəzifəsi – sistemin qorunmasının optimal yolunun axtarışından ibarətdir. Bu zaman ətraf aləmlə səmərəli qarşılıqlı təsir və dönməz sabitlik əsas şərtlərdəndir.

Beynəlxalq inkişafın proqnostik modelinin yaradılması, bir neçə əsas mərhələyə bölünür ki, burada çoxsaylı xarici, daxili və aralıq amillər və çoxvektorlu xüsusiyyətin şərtləri nəzərə alınır. Əsasən üç mərhələ götürülür: *məntiqi-intiutiv təhlil, formalizasiya və kvantifikasiya.*

*Məntiqi-intiutiv təhlil* öyrənilən hadisənin xüsusiyyətləri ilə əlaqəli anlayışların sitemləşməsi əsasında qurulur (məs. F.Ayklın beynəl-

xalq danışıqların mövzularının sistemləşdirilməsi). Birinci mərhələdə modelləşdirmənin obyekti (sahə) müəyyən edilir, məlumatların toplanması həyata keçirilir, tədqiqat vəzifələri formalaşdırılır, modelləşdirmənin ilkin layihəsi hazırlanır.

*Formalaşmış modellər* qayda olaraq qrafiki formalara malik olurlar (danışıqların təhlili). İkinci, analitik mərhələdə "konfiquratorun" proqnostik axtarışına vurğu edilir.

Tədqiqatçı funksiyda müxtəlif dəyişənə, qurulan modelin tədqiqat məqsədlərinin uyğunluq dərəcəsinə, minimum çatışmazlığa (və ya əksinə, toplanan informasiya qıtlığına) xüsusi diqqət yetirir. Bu mərhələnin əsas funksiyası - beynəlxalq münasibətlərin inkişafında əsas tendensiyaları əks etdirən çoxfaktorlu matrisin yaradılmasıdır.

İmitasiyalı modelləşdirmə prosesində vəziyyət (matris) müəyyənləşməsinə proqnozlaşdırıla bilən vəziyyətin süni əksi kimi baxılır.

Yüksək analitik potensiala malik olmaqla, formalaşmış modellər hər-hansı bir hadisənin dinamikasını təqdim edə bilmir, bu *kvantifikasiya* mərhələsndə baş verir. Modelləşdirmənin üçüncü mərhələsi proqnostik modelin yaradılmasının başa çatdırması məqsədilə layihənin hazırlanması prosesində yoxlama və imitasiya üçün hesablamalarda iqtisadi hesablaşmalardan istifadəni nəzərdə tutur

Kompleks beynəlxalq modelləşdirmə nəticələrinin ümumiləşdirilməsi zamanı rəsmiləşdirilmədə, bir qayda olaraq, nəinki hakim, həm də gələcək inkişafın alternativ istiqamətləri (hadisələrin mümkün inkişafının ekstremal, minimal və orta variantlarda hipotetik modeli yaradılır) ayrılır. Bu zaman yaranan hipotezalar yalnız nəzəri ehtimalları özündə təmsil edir və müəyyən vaxta qədər təcrübi və sənədli ekspertizaya məruz qala bilməz.

Beynəlxalq münasibətlərin kompleks modelləşdirilməsi maksimum sistemli yanaşma metoduna əsaslanır. Dünya birliyində bu və ya digər dövlətin və ya koalisiya dövlətlərinin inkişafına zidd olsa da bütöv tamlığı açan beynəlxalq proqnozlaşdırma funksiyasını yerinə yetirir.

Sistemli modelləşdirmə elmə BM barədə praktikada mümkün olmayan nəzəri eksperimentləşdirilmə imkanını verir. O həmçinin

beynəlxalq münasibətlər və dünya siyasətinin və proqnozlaşdırılmasının izahı üçün tədqiqat perspektivlərinə, onların əməli faydasını genişləndirərək tətbiqi metodların kompleks tətbiqinə və analiz texnikasının çoxcəhətli uzlaşmasına şərait yaradır.

Modelləşdirmə prosesində sistemli yanaşma əsasında tədqiqatçı dünya siyasətinin, təbii resursları, hakim elitanın siyasi mədəniyyətini və keyfiyyətini, geosiyasi şəraiti, milli maraqları, maliyyə-valyuta imkanları kimi əhəmiyyətini və bu cür sistemtəşkiledici amillərini daim izləyir. Son illərdə proqnostik modelləşdirmədə əsasən daha tam həcmdə humanitar amillərin əhəmiyyətinin nəzərə alınmasına təşəbbüs edilir.

**Riyazi metodlar** beynəlxalq modelləşdirmədə daha sanballı komponentdir, burada politologiyanın və iqtisadi-riyazi aparatın sintezi xüsusi əhəmiyyət kəsb edir. Məsələn, əgər, riyazi dəqiqliklə:

“X” və “Y” - silahlı münaqişənin iştirakçıları,

“N” - tərəflərin milli maraqları,

“F” - hərbi-siyasi potensial,

“C” - münaqişənin maliyyə göstəriciləri,

“W” - tezliklə münaqişənin həlli istiqamətində dünya birliyinin artan təzyiqi,

“P” - potensial o cümlədən maddi, münaqişədə fəaliyyət göstərən güc tərəfləri,

“V” - münaqişə tərəflərinin münaqişənin gedişində zəiflik dərəcəsi kimi təqdim etsək 100 ballıq şkala üzrə təhlillə ikinci dünya müharibəsi dövründə antihitler koalisiyası ölkələri və Almaniya arasında sadə cəbr hesablamalarının tətbiqi ilə münaqişənin aşağıdakı düsturunu almaq olar:

$$X = (N+F) – (C+W) + (P - P) – (V - V)$$

$$Y = (N+F) – (C+W) + (P - P) – (V - V).$$

Bu sistemli modelləşdirmə metodunun beynəlxalq münasibətlərin təhlilininə tətbiqinə daha ətraflı baxılması, metodun həm özünün, həm də sistemli yanaşmanın üstünlükləri və çatışmazlıqlarını bütövlükdə görməyə imkan verir.

Üstünlüklərə sistemli yanaşmanı xarakterizə edən ümumiləşmələri qeyd etmək olar. O öyrənilən sistemin həm tamlığını, həm də beynəlxalq qarşılıqlı təsirin iştirakçıları, onlar arasında əlaqə, müvəqqəti məkan-zaman amilləri, iqtisadi, siyasi, sosial və ya dini xarakteristikalar və s. kimi çıxış edə bilən və onun alt sistemini təşkil edən elementlərin çoxtərzliliyini aşkar etməyə imkan verir.

Sistemli yanaşma təkcə BM-də bu və ya digər dəyişiklikləri qeydə almağa imkan vermir, eləcə də beynəlxalq sistemin təkamüllə bağlı dəyişikliklərinə səbəb olan əlaqələri aşkar etməyə imkan verir, dövlətlərin davranışına təsir edən üstün cəhətləri meydana çıxarır.

Beləliklə, kompleks modelləşdirilmə sistemli yanaşma əsasında müasir beynəlxalq proqnostikanın əsas istiqamətlərindən birini əks etdirir, məhz imitasiyalı (bənzətmə, saxta) modelləşdirmə, ekspertə inkişafın adi xarici səthi müşahidədə əlçatmaz olduğu çox dərin cəhətlərini üzə çıxarmağa imkan verir. Lakin böyük nailiyyətlərinə baxmayaraq, bu metod proqnozlaşdırılmanın nəzəriyyə və praktikası arasında ciddi fərqi hələ dəf edə bilməyib.

**Delfi metodu**

Kollektiv ekspert qiymətləndirmələrinə aid edilən **Delfi** metodu qədim yunan şəhəri olan Delfdə (Yunanıstanda) Apollon məbədinin adından götürülərək adlandırılıb. H.Dolki, O. Helmor, T Qordon, tərəfindən XX əsrin 50-cı illərində hərbi-strateji və hərbi-texniki problemlərin tədqiqi məqsədilə hazırlanıb. Bu metodla uyğun olaraq ekspertlər təklif olunan suallara öz cavablarını yazılı şəkildə təqdim edərək müstəqil cavab verirlər.

Müasir dövrdə eyni ad altında müəyyənləşdirilən bu metod zehni həmlə metodunun çoxdəfəli istifadəsi (interaktiv) üçün təqdim edilib və proqnoz nəticələrdə psixoloji amillərin təsirini azaltmaq və obyektivliyin yüksəldilməsi məqsədini daşıyır. Nəticələrin obyektivliyinin yüksəldilməsi üçün bu metod – əks əlaqə, iştirakçıların əvvəlki sorğunun nəticələri ilə tanış edilməsi və ekspertlərin rəyinin qiymətləndirilməsində həmin nəticələrin nəzərə alınması vasitələrindən istifadə edir.

Bu metodun mahiyyəti müstəqil ekspertlər tərəfindən müəyyən bir problemin əsaslı şəkildə təhlil olunmasıdır. Bir neçə ekspert eyni problemi ayrı-ayrılıqda təhlil edib əldə etdikləri nəticəni mərkəzə təqdim edir. Mərkəz bu ekspertlərdən aldığı cavabları ümumiləşdirdikdən və sistemləşdirdikdən sonra onları yenidən ekspertlərə qaytarır. Bu əməliyyat bir neçə dəfə davam etdirilə bilər. Bu isə, öz növbəsində, ekspertlərin qiymətlərində uyğunsuzluqların olmasını aşkar edir. Hər dəfə ümumiləşdirmələr qaytarıldıqda ekspertlər özlərinin əvvəlki qiymətlərini yenidən nəzərdən keçirərək onu dəyişə bilərlər. Eyni bir problemin bir neçə ekspert tərəfindən təhlil olunmaması və hər bir təhlilin nəticələrinin bütün ekspertlərin nəzərinə çatdırılması problemin hərtərəfli və əsaslı şəkildə öyrənilməsinə imkan verir.

Delfi metodunun istifadəsi nəticəsində situasiyadan asılı olan ekspert təhlili inkişafın daxili siyasi və beynəlxalq amillərinin maksimum dərəcədə sıx birləşməsini təmin etməyə qadirdir.

Ekspert metodunun bir qədər fərqli forması olan Delfi metodu – anketləşdirmə metodundan istifadə edərək, ardıcıl fərdi sorğular keçirilməsinə yönəlir. Sorğu vərəqləri dövrü olaraq (hər dəfə) dəqiqləşdirilir və bu əsasda iştirakçı rəylərinin əmsalı ölçülür.

Çoxluğun rəyindən təsirlənmə və bu rəylərə uyğunlaşma səviyyəsini azaltmaq üçün iştirakçıların öz fikirlərini əsaslandırması vacibdir, lakin bu zaman da uyğunlaşma təsiri yüksək ola bilər. Ekspertlər sorğusu təşkil olunarkən dövrlər arasında ekspert-lider ekspert qrupu istənilən istiqamətə yönəldə bilər.

Delfi metodunun ümumi səciyyəvi cəhətlərinə metodun bir tərəfdən anonimliyi, digər tərəfdən, məlumatları daim artırmaq və mülahizələrə düzəliş etmək imkanının olmasını, eləcə də statistik metodların köməyi ilə hər turun nəticələrinin ekspertlərə bildirlməsilə bir neçə tur ərzində sorğunun analitik qrup tərəfindən həyata keçirilməsinin tənzmlənməsi və ekspertiza iştirakçılarının ümumiləşdirilmiş fikirlərinin əks olunmasını göstərmək olar.

***Mərhələ 1***. İşçi qrupunun formalaşdırılması

İşçi qrupunun vəzifəsi ekspert sorğusu prosedurunun təşkilindən ibarətdir. Bu mərhələdə xüsusi qrup ekspertizanın əsas məzmununu yaradan sualları formalaşdırır və onların anket formasında ekspertlərə təqdim edir (lazım gələrsə şərhlər əlavə olunur).

***Mərhələ 2***. Ekspert qrupunun formalaşdırılması.

"Delfi" metoduna uyğun olaraq ekspertlər qrupuna bu sahədə 10-15 mütəxəssis daxil olmalıdır.

Ekspertlərin səriştəsi, xülasə edilmişlərin səviyyə təhlililə (bu mütəxəssisin işlərinə istinadın sayı) özünüqiymətləndirmə vərəqələrindən istifadə edilməklə, sorğunun aparılması yolu ilə müəyyənləşdirilir.

***Mərhələ 3***. Məsələlərin dürüst ifadə edilməsi

Birmənalı cavablar vermək üçün məsələlər qısaca və dürüst ifadə edilməli, dəqiq və birmənalı şərh edilən olmalıdır. Analitik qrup ekspertlərədən alınan aralıq məlumatı emal edir, ifrat yanaşmaları atır və ortaq fikir formalaşdırır.

***Mərhələ 4***. Ekspertizanın keçirilməsi

"Delfi" metodu sorğunun keçirilməsi bir neçə mərhələnin təkrarlanmasını nəzərdə tutur. Ekspert komissiyasının orta qiyməti (o cümlədən "ifrat" fikri olanların da) ekspertlərə verilir. Ekspertlər əlavə məlumat aldıqdan sonra, bir qayda olaraq, öz qiymətlərinə düzəliş edirlər.

Yenilənmiş informasiya yenidən analitik qrupa daxil olur. Rəylərin ziddiyyəti mərhələdən mərhələyə azalır və uzlaşma artır.

***Mərhələ 5***. Sorğunun nəticələrini qiymətləndirmək

10 ekspert dəvət olunur. Hər bir ekspert malın təsviri ilə və ehtimal edilən satış bazarının anketini alır. Ekspertlərə bu balları özlərinə 0-dən 10-dək diapazonda fərdi vermək, tələb səviyyəsini isə 0 faizdən 100% (faiz) diapazon üzrə qiymətləndirmək təklif olunur.

Hər bir ekspert anonim şəkildə işləyir. 1 turdan sonra ekspertlər tərəfindən aşağıdakı nəticələr alınmışdır:

Analitik qrup növbəti hesablama aparır:

Orta qrupun öz-özünə qiymət verməsi (10+8+…+9,9): 10 = 8,61-ə bərabərdir.

Sorğunun orta qiyməti (90+100+…+80) :10 =83,5%-ə bərabərdir.

Sorğunun orta ölçülmüş qiyməti 10x90 +8x100+… +9,9x80): (10+8+…+9,9) =84,1%-ə bərabərdir.

Bu halda ekspertlər medianı cüt ədəddə orta arfimetik əhəmiyyət kimi orta qiymətlərlə arasında hesablayır və Me = (80+80):2=80-ə bərabər olacaq.

| Ekspertin nömrəsi | Qiymətlən-dirmə əmsalı | Tələb səviyyəsi – ekspertin fərdi qiymətləndirməsi |
|---|---|---|
| 1 | 10 | 90 |
| 2 | 8 | 100 |
| 3 | 10 | 75 |
| 4 | 7 | 80 |
| 5 | 8,8 | 90 |
| 6 | 10 | 100 |
| 7 | 6,6 | 80 |
| 8 | 8,5 | 80 |
| 9 | 7,4 | 60 |
| 10 | 9,9 | 80 |

Etibarlılıq sahəsi aşağıdakı şəkildə hesablanacaq.

Ekspertiza yığımının minimal qiyməti 60% müəyyən edilir;

Maksimal qiymət - 100%.

Kvartil (100-60):4=10%-ə bərabər olacaqdır

Deməli, etibarlılıq sahəsinin aşağı sərhədi 60+10=70%-ə bərabər, yuxarı sərhədi isə 100-10=90%-ə bərabər olacaq.

Bütün əldə olunan nəticələr baxılmaq üçün ekspertlərə təqdim olunur. Əgər ekspertlər öz fikirlərini korrektə etməyi məqsədəuyğun hesab edirlərsə, onda onlar öz düzəlşlərini analitik qrupa verirlər. Və

analitik qrupu yuxarıda baxılmış alqoritmlər üzrə yeni nəticələr hesablayır.

Yekun ümumiləşdirilmiş rəy A məhsuluna tələbat səviyyəsinin proqnozu üçün əsasdır.

Delfi metodunun istifadəsi zamanı aşağıdakılar nəzərə alınmalıdır:

1. Ekspertlər qrupu sabit olmalıdır və onların sayı yolverilən çərçivədə olmalıdır.

2. Sorğuların arasında vaxt bir aydan çox olmamalıdır.

3. Anketlərdəki məsələlər diqqətlə düşünülməli və dəqiq ifadə edilməlidir.

4. Bütün iştirakçıların bu və ya digər qiymətin səbəbi ilə tanış olmaq imkanı ilə təmin etmək və eləcə də bu səbəbləri tənqid etmək üçün turların sayı kifayət qədər olmalıdır.

5. Ekspertlərin sistematik seçimi aparılmalıdır.

6. Baxılan problem üzrə ekspertlərin öz-özünə qiymət vermək səlahiyyətinə malik olmaq lazımdır.

7. Öz-özünə qiymət vermək əsasında qiymətləndirmənin uyğunluq formulası lazımdır.

Bu gün Delfi metodu elm və texnologiya sahəsində uzunmüddətli proqnozlaşdırılmarda çox işlənir. Bu zaman ən perspektivli nəticələr bir amilə əsaslanan suala cavab verərkən alınır. Bir çox amillərin təsir etdiyi mürəkkəb proqnozlar az məhsuldar olur. Delfi metodu hətta qərar qəbul edilməsi üçün kifayət qədər informasiya olmadıqda belə praktiki olaraq proqnozlaşdırılma tələb edən istənilən vəziyyətdə tətbiq edilir.

Delfi metodunun adi statistik işlənmə nəticələrinə əsaslanan fərdi sorğu metodları ilə müqayisədə şübhəsiz üstünlüklərə malikdir. O, fərdi cavabların məcmusu üzrə bütün tərəddüdləri azaltmağa imkan verir, qrup daxilində tərəddüdü məhdudlaşdırır. Bununla yanaşı, aparılan eksperimentlər göstərir ki, az ixtisaslı ekspertlərin olması qrup qiymətinə daha az təsir edir, belə ki, situasiya onlara öz qrupu adından yeni informasiya almaq hesabına cavabları düzəliş etməyə kömək edir.

*Çatışmayan cəhətləri.* Digər metodlar kimi Delfi metodunun da çatışmazlıqları var. Məsələn, sorğuda iştirak edən mütəxəssislərin rəylərinin subyektivliyi mübahisədə ekspertlərin rəylərinin qarşılaşmasına imkan vermir və ona çox vaxt sərf edilir.

Delfi metodunun digər çatışmazlığı ekspertə, bu problemin dəyərləndirilməsi üçün ayrılmış vaxt azlığı ilə də bağlıdır. Bu halda ekspert izahın zərurətindən qaçmaq üçün yekun həllə bağlı çoxluğun digər variantlardan fərqlənən fikri ilə dərhal razılaşa bilər.

**Müqayisəli təhlil**

Bu metod beynəlxalq münasibətlərdə istifadə edilən ən səmərəli metodlardan biridir Dövlətlərin və onların fərdi xüsusiyyətləri (sahəsi, əhali, iqtisadi inkişaf səviyyəsi, hərbi potensial, sərhədlərin uzunluğu və s.) arasında bir müqayisə aparılaraq onların təhlilə gətirilməsi beynəlxalq münasibətlər elmində kəmiyyət metodlarının geniş inkişafına təkan vermişdir. Belə bir fərziyyə var ki, böyük və kiçik ölkələrin miqyasını ölçmək üçün onları meyarlar üzrə müəyyən etmək ehtiyacı var. Bundan əlavə, ölçü "məkan" və "zaman"ın ölçülməsində lazım olur: müharibə üçün dövlətin dəyər və lazımı tarixi perspektivini aydınlaşdırır. Eyni zamanda müqayisəli təhlil mümkün vəziyyətin dissimiliasiyası və orijinallığı əsasında mühüm elmi nəticələri və hadisələri əldə edir.

Lakin müqayisə metodu empirik xarakter daşıdığı üçün bəzən müəyyən obyektiv səbəblərə görə bütün dövlətləri əhatə etmir. Buna görə də onun tətbiqi yolu ilə alınan nəticə ehtimali xarakter daşıyır.

BM öyrənilməsinə **koqnitiv** (idrakı) yanaşma. Bu üsulu təhlil etmək üçün bir neçə siyasətçi müəyyən siyasi problem əldə edir. 1954-cü ildə Amerikalı alimləri R.Snayder və X.Brooke və B.Sepinə görə siyasi liderlər tərəfindən qəbul edilən qərarların əsasında onları əhatə edən reallığı dərk etdikləri qədər həqiqətlə uzlaşmır. İdrakı kartoqram metodu siyasətçinin işlədiyi əsas anlayışların ortaya çıxması və onlar arsında səbəb-nəticə əlaqələrinin tapılması məsələlərini həll edir. Nəticədə, tədqiqatçı çıxışların və siyasi xadimlərin məruzələrinin şərhi

əsasında siyasi vəziyyətin və ya ayrıca problemin qavrayışını əks etdirən plan alır.

Koqnitiv kartoqram metodu–müəllifin mətndən siyasi vəziyyət haqqında nəticə çıxarması və buna əsaslanan dəlillərlə mətnlərin siyasi quruluşunu müəyyən edən bir üsuldur. Əslində idrakı planlaşdırma siyasətçinin qərar qəbul etmək amillərinə nəzarətə, amillərin seçilmə strategiyasına və siyasi düşüncənin mümkün tipologiyasına imkan verir.

Amillər ümumi fikirdən və ya ayrıca açar ifadələrdən seçilir (siyasət–müharibədir, limitsiz, bitərəf yoxdur) və s. Müəllifin mətninini təhlil etməklə oxşar şəkildə onun niyyətlərini də proqnozlaşdırmaq olar.

İdrakı yanaşma əsasında qərb tədqiqatlarında adətən insan şüuru və siyasi liderlərin şəxsi əqidəsi vasitəsilə xarici və dünya siyasətinə təsir edə bilən əlaqələrin 5 növü göstərilir. Buraya aiddir: məslək və baxışların konkret məzmunu, onların təşkili və strukturu, ümumi modelləri- qavrayışın "persepsiyası", vəziyyəti dəyişikliklər ilə əlaqədar möhkəmlik (və ya rahatlıq), eləcə də insan psixikasına siyasi qərarların qəbul edilməsi prosesində birbaşa təsir.

Düzgün qərarların qəbul edilməsində partnyorun (və ya rəqibin) qərar qəbul etmə prosesinin təhlili mühüm əhəmiyyət kəsb edir. Beləliklə, istifadə edilən bu metodlar xarakterinə görə fənlərarası metodlara aiddir, yəni bu metodlar başqa elmlərdə də istifadə edilir.

**Gələcəyin aydın alternativ variantının proqnozlaşdırılması metodu**

Proqnozlaşdırmada ssenarili texnikadan istifadə etməklə kompleks üsulü 1970-ci ildə Kolumbiya universitetinin müharibə və sülh problemləri İnstitutu və "Rend" korporasiyasının əməkdaşları tərəfindən hazırlanıb. O, "Gələcəyin aydın alternativ variantının proqnozlaşdırılması" ("aydınlıq" gələcək vəziyyətin ən mühüm elementlərinin axtarışını vurğulayır) adını alıb.

Bu metod ilk mərhələdə əsas "beynəlxalq münasibətlərin aktorları" daxil olmaqla alternativ ssenarilərinin işlənib qəbul edilməsini,

matris formasında olan və sonradan bu alternativlərin dövrü üçün zamanın müvafiq yuxarı sərhədini nəzərdə tutur.

İkinci mərhələdə proqnozların "əlçatan resurslarının" texnoloji, hərbi və digər amillərin təhlili ilə hazırlanması baş verir.

Üçüncü mərhələdə müvafiq aktorlarla seçilmiş müvəqqəti sərhədlər arasında qarşılıqlı olaraq daha ətraflı təhlil aparılır.

Dördüncü mərhələ – "gələcəyin aydın variantlarınının" matrisinin qarşılıqlı təsirinin" köməyi ilə təhlili, təkmilləşdirilmiş Delfi metodikasının tətbiqi ilə təhlil edilən variantların hər birinin ehtimalının qiymətləndirilməsidir.

Beşinci mərhələ tədqiqatın nəticələrini ümumiləşdirir.

Variantların ehtimallılığının təkrar təhlili (yəni, artıq ehtimal dərəcəsi qiymətləndirilən) "qərarlar ağacı" vasitəsilə "aydın gələcək" "inkişaf zəncirinin" müəyyənləşdirilməsi üçün proqnoz ehtiyatların nəzərə alınması, bu zəncirlərdə dövlət tərəfindən (indiki halda ABŞ) təsirə ən həssas nöqtələr, eləcə də həmçinin bu seçilmiş nöqtələrdə təsir üçün ABŞ səhmlərinin mümkün alternativlərinin "dəyərli – səmərəlilik" metodu ilə hesablanması hazırlanır.

Bu metodun maraqlı xüsusiyyətləri matris metodların köməyi ssenarinin qismən formalizasiyası, qrup ekspertizasından istifadə etməklə onların ehtimallarının, aydın ifadə olunmuş proqnoz xarakerli planlarının qiymətləndirilməsidir. Kəşfiyyat təhlildən normativ müstəviyə keçid axtarılan ssenarilərin hər birində subyektin təsirə həssas nöqtələrinin ayrılması yolu ilə həyata keçirilir.

Proqnozlaşdırılmanın xüsusi məsələlərinin həllində tətbiq edilən yardımçı metodikası qismində ssenari texnikasının mümkünlüyü əyani şəkildə "proqnozlaşdırma obyektinin sintezini" nümayiş etdirir. Burada həlledici mərhələdə ssenarinin qurulmasında ayrı-ayrı proqnozların inteqrasiya olunmuş şəklini birləşdirmək məqsədilə vəziyyətin inkişafının gələcək hadisələr və proseslər arasındakı müəyyən məntiqi əlaqələrindən istifadə olunur.

Belə ki, ssenarilərdə birləşən ilkin proqnozlar özü-özlüyündə Delfidən ekstropolyasiyaya qədər müxtəlif proqnostik texnikanın köməyilə bir-birindən asılı olmayan tədqiqatçı qruplar tərəfindən əldə

edilə bilər. Bəzən tədqiqatçılara görə belə profilə uyğun ssenarili texnikanın tətbiqi bilavasitə metodun mahiyyətini əks etdirir. Məsələn, C.Martino “ssenari” anlayışını izah edərkən qeyd edir ki, əksər hallarda bu termin tətbiq olunduqda mühüm ümumi bir xassəyə malikdir. Bu uzlaşmadır. *Ssenari* öz növbəsində hadisələrin ardıcıllığını həqiqətə uyğun təqdim edən daxili razılaşdırılmış vəziyyətin təsviridir.

Beləliklə, ssenari proqnozların toplanması ilə tədqiq olunmamış qarşılıqlı təsirlə və riyazi model arasında aralıq vəziyyət tutur. Bu zaman daxili uzlaşma aydın nümayiş olunur.

Ssenarinin müəyyən məqsədi olur. O ayrıca proqnozların ümumi nəticələriə təsirini üzə çıxarır və proqnozlar arasında qarşılıqlı təsirin hər-hansı bir ölüçüdə nəzərə alınmasını tələb edir.

**Ssenarilərin qurulması metodu**

Bu üsul hadisələrin ehtimalı ideal (yəni əqli) qurulmuş modelindən ibarətdir. Mövcud vəziyyətin təhlili əsasında fərziyyə irəli sürülür–sadə fərziyyə və bu halda heç bir yoxlama onun gələcək təkamülünün nəticələri deyil.

**1-ci mərhələdə** tədqiqatçı vəziyyətin daha da inkişafına görə müəyyən əsas amilləri seçir və təhlil edir. Bu amillərin sayı gələcəkdə yaranan onların bütün vahid görünüşünü təmin etmək üçün (adətən daha 6 təcrid elementləri) çox yüksək olmamalıdır.

**2-ci mərhələdə** növbəti 10, 15, 20 il ərzində seçilmiş amillərin təkamül haqqında təxmini mərhələləri sadə “sağlam düşüncə “ əsasında fərziyyələr irəli sürülür.

**3-cü mərhələdə** seçilmiş amilləri müqayisə və onların hərəsinə müvafiq qaydada daha az və ya ətraflı bir sıra təsvirlər irəli sürülüb. Bu,nəzərə alınmış amillər və onların inkişaf yolları arasında qarşılıqlı təsir edir.

**Nəhayət 4-cü mərhələdə** nisbi ehtimallı göstəricilərin yaradılması cəhdi təsnif edilir.

Delfi üsulu qurulmuş metodların fərziyyələrindən (ssenarilərindən) biridir. Bu problemə bir neçə ekspertlər tərəfindən sistemli və kontrollu şəkildə nəzarət edilir. Ekspertlər özlərinin qiymətləndiril-

məsini bu və ya digər beynəlxalq tədbirin mərkəzi hakimiyyətə daxil edir, hansı ki, ümumiləşdirmə və sistemləşdirmə həyata keçirir və sonra yenidən ekspertizaya qaytarır. Bir neçə dəfə həyata keçirilən bu əməliyyat təxmini daha az və ya ciddi fərqlər yaratmaq üçün imkan verir. Mütəxəssislər aparılan ümumiləşdirmənin ilkin hesablamalarını dəyişdirmək və ya özlərinin fikrincə möhkəmləndirmək və ya təkid etməni davam etdirir. Ekspertlərin təxminləri fərqlilik səbəbləri problemin daha əvvəldən aşkar olunmayan tərəflərini ortaya çıxarmaq və ola biləcək problemi və ya analiz olaraq diqqətən (ekspert təxminləri) və ən az (fikir ayrılığı yarandığı təqdirdə) düzəltmək üçün icazə verir. Bu,yekun qiymətləndirmə və praktik tövsiyyələr istehsalına uyğun gəlir.

**Faktor təhlili**

Faktor (latın tərcümədə faktor –istehsal edir)-bu proses "itələyici güc" və ya bunun üçün lazımi şərait məsələn: tanınmış sosioloji nəzəriyyələri, tarixi inkişaf amillərini-mənəvi, coğrafi, siyasi və digər amilləri nəzərə alır. Bu təhlil metodu bir sıra siyasi davranış təzahürlərinni qeyd etməyə imkan verir. Əsas determinant məlumatların azaldılmasına əsaslanır, bu dəyişənlərin sayının məhdudlaşdırması ilə gerçəkləşir. Metodun əsas ideyası bir –biri ilə sıx bağlı dəyişənlərin eyni səbəbi göstərməsindədir. İstifadə olunan analiz qrup hesabatlarını sıxılmış formaya gətirə bilər. Burada çoxparametrli monitorinq obyektlərinin məlumatlarının tamlığına təsir etməyən funksiyaları silmək və ya kiçik funksiyalarla əvəz edən hallar mövcuddur. Bu problemin həlli real vəziyyətlərə yaxınlaşan müəyyən model çərçivəsində əhəmiyyət kəsb edir. "Faktor təhlili" anlayışının müxtəlif amillərin yekun nəticəyə təsirini öyrənəndikdə, geniş şərh zamanı onu səbəb-nəticə əlaqələri anlayışı ilə qarışdırmaq olmaz. Bu üsul çoxşaxəli xüsusiyyətlərdən ibarətdir və informasiya dəyişənlərin kiçik bir sırası ilə əvəz olunur. Son akt başlanğıc işarələrin özünəməxsus funksiyası rolunu təqdim edir.

Faktor təhlilinin statistik təbiəti metodoloji xüsusiyyətlərə malikdir: metod dəyişənlərin təbii variyasiyasına əsaslanır, tədqiq edilən

məcmu özbaşına seçilmir, metod əsas amilləri üzə çıxarmağa imkan verir; ilkin fərziyyə tələb etmir, əksinə o, özü fərziyyələrin yaranma metodu kimi xidmət edə bilər, eləcə də digər üsullarla əldə edilən fərziyyələrdə də meyar kimi çıxış edir, faktor təhlili aprior fərziyyələr (asılı və ya müstəqil əvəz) tələb etmir, o, səbəb əlaqələrini hipertrofiya tələb etmir və gələcək tədqiqat prosesində onların dərəcəsi məsələsini həll edir

Nəzərdən keçirdiyimiz metodlardan ayrı-ayrılıqda deyil, kompleks şəklində istifadə etmək məqsədəuyğundur.

**2.7. Alternativ proqnozlaşdırma metodologiyaları: çoxtərəfli reallıqlar və perspektivlər**

Proqnozlaşdırmanın tərtibatının inkişaf etdirilməsində ilk addım müxtəlif metodologiyaların təsirinin qiymətləndirilməsidir. Bizim reallıq konsepsiyamız tez-tez aldadıcı ola bilər və obyektiv görünən anlayışlar əslində subyektiv ola bilər. Bir tərəfdən şəxsi dəyərlər və təəssüblər, digər tərəfdən metodologiyanın fərziyyələri arasında naməlum, lakin simbiotik əlaqələr tez-tez mövcud olur. Abstraksiyanın ən ümumi səviyyəsində açıq nəzəriyyənin dərəcəsi proqnozlaşdırma metodologiyalarının, sistematik prosedurların və təcrübi faktların, proqnozlaşdırmanın məqsədini fərqləndirə bilər. İstənilən halda, bizim gələcəyə baxışımızı əsasən gördüklərimiz müəyyən edir. Ən sistematik, alternativ proqnozlaşdırma metodologiyalarına *qeyri-təbii proqnozlaşdırma, kəşfiyyat proqnozları, model-əsaslı proqnozlar, simulasiya əsaslı proqnozlar və süni intellekt* aid edilir.

Daha dəqiq metodologiya etibarlı proqnozu əldə etməyin ən çox mümkün olduğu təqdirdə mümkündür. Qeyri-müəyyənliyi azaldan zaman dəqiqlik daha çox məsuliyyət tələb edir. ***Normativ proqnozlar*** gizlilik nəzəriyyəsinə əsaslanır. Normativ proqnozlaşdırmanın məqsədi müdaxilə proseslərinin sistematik araşdırılması üçün modellərin istifadəsi və inkişafını təmin etməkdənsə arzuolunan nəticələrə yönləndirən mühiti müəyyənləşdirməkdir. Nəticə hər zaman özünütənzimləyən təxminlərin təbiətində üzə çıxır.

Delfi metodu kimi tanınan qrupun fikri proseduru daxili reqressiya ehtiva edir. Bu halda konsensus dəqiqlik hesabına əldə edilir və reallıq yoxlamaları vasitəsilə tənzimlənir. Daha sistematik proqnozlaşdırma metodlarına kəşfiyyat proqnozları, trend ekstrapolyasiyası və ya evristik proqnozlar aid edilir. Bu proqnoz üsulları açıq nəzəriyyə və sistematik metodologiyanın istifadəsi istiqamətində bir addımdır. Lakin bu üsullar dəyişmədikləri və ya az-az dəyişdikləri, dözümlü olduqları hallarda proqnozlaşdırma üçün uyğun olurlar. Bu cür üsullar fasiləni, sistem dəyişikliklərini və ya kritik qərarların sistem dəyişikliklərinə töhfə verə biləcəyi nöqtələrin müəyyənləşdirilməsini hesablaya bilmirlər. Demoqrafik cərəyanlar, ekoloji faktorlar və ticarət, biznes kimi beynəlxalq əməliyyatlar bu yolla proqnozlaşdırıla bilər, lakin sabahın qərarının təbiəti kimi mikro faktorlar, müharibə və zorakılıq kimi makro faktorların yuxarıda qeyd olunan metodlarla araşdırılması çətindir.

*Təsviri, izahlı və ya öncədən görmə* kimi modellərin açıq istifadəsi ilə formalaşan proqnozlaşdırma metodologiyaları dəqiqlik və etibarlılıq istiqamətində gələcək inkişafı əks etdirir. Bu cür modellər parametr qiymətləndirilməsinə deyil seçim parametrinə, empirik faktlara və ya qərarın analizinə və bayesian alqoritmlərə əsaslanaraq statistik və ya funksional ola bilərlər. Hər bir model proqnozlaşdıran şəxsə reallığın müxtəlif aspektləri ilə bağlı fəqrli istiqamətdə xəbərdarlıq edə bilər.

Açıqlıq nəzəriyyəsinə, formal metodologiyaya və empirik faktlara əsaslanan statistik modellər reallığın və səbəbin əsasən birtərəfli mənzərəsini ehtiva edir, baxmayaraq ki bəzi hallarda qarşılıqlı səbəbiyyət də mövcud ola bilər. Sistemin komponentləri arasında qarşılıqlı əlaqəni müəyyənləşdirmək məqsədi daşıyan funksional modellər açıq şəkildə paralel faktları inkar edir və yalnız biristiqamətli baxış açısı ilə əlaqə qurur. Bu cür proqnozlaşdırma modelləri əsas modelin inkişafı üçün açıq faktlardan az istifadə edir və bu halda açıq faktlar ümumiyyətlə proqnoz üçün tələb olunan deyil.

*Statistik və funksional* proqnozlaşdırma metodları tamamlayıcı funksiya daşıyır və əksər tədqiqatçılar bu metodları ayrı-ayrılıqda tət-

biq etməyi üstün tuturlar. Belə ki, bu cür metodların proqnozlaşdırma üçün birgə tətbiqi hələ araşdırılmalıdır.

Qeyri-müəyyənliyə digər bir yanaşma növü olan *qərarın analizi (Bayesian statistikası)* naməlum olan ilə şərti mümkünlükdə əks olunan nəticələr vasitəsilə deyil birbaşa formada üzləşir. Lakin bu halda problemin strukturunun bəzi vacib xüsusiyyətləri də prosesə cəlb olunur. Bayesian baxış açısından səbəb və şərt əlaqəsi, qarşılıqlı asılılıqlar sərhədləri və qeyri-müəyyənlikdən yaranan məhdudiyyətləri müəyyən etmək xidmətini reallaşdıran təsadüflərlə uyğunlaşır. Oxşar qiymətləndirmə nəzəriyyənin, açıq faktların və sistematik metodologiyanın aşkar istifadəsinə əsaslanan *Markov prosesində* də icra oluna bilər. Təkyönlü Markov baxış açısı bir vəziyyət və ya haldan digərinə doğru hərəkətləri əks etdirir və bu cür hərəkətlərlə, keçidlərlə bağlı ehtimallar proqnozun məqsədinə çevrilir. Lakin, istənilən halda hərəkət bir istiqamətdə olur. Fasilə və kəskin dəyişikliklər nəzərə alınmır. Proqnozlaşdırma bu cür sərhədlər çərçivəsində tədqiq olunduğu halda Markov prosesi daha etibarlı model hesab oluna bilər. İndiyədək Bayesian və Markov modellərindən hansının proqnozlaşdırmada daha açıq nəticə verdiyini aydınlaşdırmaq üçün demək olar ki, çox az müqayisəli tədqiqatlar aparılıb.

Qeyri-müəyyən analizlərə və alternativ nəticələrə münasibətdə *simulasiya analizi* daha təcrübəli və kompleks yanaşmanı əks etdirir. Simulasiyanın çoxlu sayda modelləri var və onların hamısı bəzən nəzəriyyənin açıq istifadəsini, bəzən formal modeli və bəzən də sistemin davranışı və təbiəti ilə bağlı nəticənin təsviri üçün istifadə olunan sistematik proseduru ehtiva edir. Böhran hallarında qərar qəbul etmə analizi üçün fərdlərin iştirakı ilə olan simulasiyalar faydalıdır: bu cür simulasiyalarla təqdirəlayiq nəticələr əldə edilib. Kompyuter simulasiyaları isə naməlum olana yüksək analitik yanaşmanı təmin etmək üçün daha uyğundur. Lakin onların təbiəti abstraktdır və reallıqdan uzaqdır. Eyni zamanda, bu cür simulasiyalar zamanı xarakterik və dəyişkən halları nəzərə almaq çətin olur. Təəssüf ki, dəyişkən hallar beynəlxalq reallıqların nəticəsinə tez-tez təsir edir. Analizin müəyyən səviyyələrində kompyuter simulasiyaları proqnozlaşdırma üçün ol-

duqca faydalı olur, lakin digər tərəfdən onların dəyişən prosesə uyğunluğu daha az olur. Problemin təcili araşdırılması məsələsi, yalnış proqnozla bağlı yüksək xərclər və sistemin xarakterik xüsusiyyətləri kimi cəhətlər kompyuter proqnozlarının daha az etibarlı olması nəticəsinə gətirir. Lakin, istənilən halda proqnoz vermək üçün simulasiya əsaslı metodun seçilməsi proqnozun məqsədindən də asılıdır. Məqsəd aydınlaşmasa, hansı proqnoz növünün daha uyğun olmasını müəyyən etmək çətindir.

Sosial elmlərdə sistematik analizin sıralarına ən son əlavə olunan *süni intellektdir*. Kompyuter simulasiyası metodu adaptiv davranışın və təlimin analizi, endogen sistem dəyişikliklərinin və özü-özünü dəyişdirən strukturların araşdırılması, qərar qəbulunda birinciliyin təsirinin tədqiqi və istənilən mühitdə bir arada cəmlənmə təcrübəsinin təsirinin analizi üçün inkişaf etdirilib. Lakin hələki süni intellektin proqnozlaşdırmada tətbiqi istiqamətində cəhd edilməyib. Bu cür cəhd proqnozun analizi üçün mövcud sistematik modellərin uğurlu adaptasiyasını tələb edir. Metodoloji baxımdan süni intellekt sistem davranışı və uzunmüddətli proqnozlarla bağlı makro səviyyədə yaranan suallara və sabahın nəticələri ilə bağlı qeyri-müəyyənliyə münasibətdə tətbiq olunduğu zaman proqnozlaşdırma üçün böyük səy tələb edən bir üsuldur. Beynəlxalq əlaqələrin proqnozlaşdırılmasında süni intellektin tətbiqinin səmərəliliyinin ölçülməsi üçün daha böyük miqyasda işlər görülməlidir. Proqnoz modelləri və metodologiyaları ilə bağlı bilikləri genişləndirmək istiqamətində araşdırmalar aparmaq üçün bu cür tədbirlər şübhəsiz, daha faydalı ola bilər.

Sosial elmlərin fenomenal tənqidi proqnozlaşdırmaya alternativ yanaşmaların qiymətləndirilməsinə kömək ola bilər. Bu tənqid nümayiş etdirir ki, bizim sosial elmlər çərçivəsində obyektiv olaraq gördüklərimiz subyektivliyin, xarici reallıqların idrakından daha çoxdur və bu cür inikas özü-özlüyündə analizin “obyektiv” və “etibarlı” modelləri vasitəsilə araşdırmaq üçün axtardığımız reallığı formalaşdırır.

Fenomenologistlər də metodologistlərin normativ proqnozlaşdıranlara, alimlərə və ya klassik analitiklərə qarşı etdikləri tənqidin oxşarını sosial elmlər üzrə çalışan alimlərə qarşı da yönləndirirlər. Sosial

elmlərə qarşı bu cür mövqe istənilən proqnoz sahəsində mərkəzi olan iki məsələni gündəmə gətirir: biri proqnozu möhkəmlətmək, digəri isə proqnozlaşdırmanı reallıq yaradan məfhum kimi göstərmək.

### 2.8.Proqnozların əlaqələndirilməsi: aksial prinsipin seçilməsi

Dərk etdiyimiz reallıqlar daha çox tətbiq etdiyimiz metodologiyalarla şərtlənir və proqnozlar operativ məqsədlər üçün həmişə bir sıra ilkin şərtlərlə sıx bağlı olur. Belə bağlılıq proqnozun operativ sərhədləri və məhdudiyyətlərini, eləcə də araşdırılan sistemdə yolverilən və gözlənilən davranış hüdudlarını müəyyən edir. Beləliklə, faktiki proqnozların aparılmasında ilk addım əlaqənin seçilməsidir.

Proqnozun əlaqələndirilməsi gələcəyin ən az bir və ya bir neçə kritik aspekti və ya ölçüsünün sabit saxlanılmasını əhatə edir, bu zaman digərlərinin də müvafiq olaraq dəyişməsinə imkan yaradılır və proqnozun nəticələri müşahidə edilir. Xüsusi əlaqələndirmə vəziyyəti gələcəyin bütün müvafiq aspektlərinin sabit saxlanılması və onlardan birinin dəyişməsinə imkan verilməsini əhatə edir. Əlaqənin seçilməsi demək olar ki tamamilə proqnozun məqsədindən asılıdır.

Təcrübədə proqnozlar ilkin şərtlərin ən az dörd fərqli növü ilə əlaqələndirilə bilər.

İlk növbədə, *struktur əlaqələnmədə* proqnozlar sözügedən sistemin struktur tərəflərinin müfəssəl şəkildə dəqiqləşdirilməsinə əsaslanır və sonra tədqiqat layihəsi müxtəlif ehtimal qruplarına əsasən belə struktur xüsusiyyətlərin nəticələrini nəzərdən keçirir. Beynəlxalq münasibətlərdə belə struktur amillərə demoqrafik və ekoloji məsələlər, ümumi ehtiyatların siyahısı və axınları, institusional və hökumət faktorları və s. daxildir. Belə hallarda proqnozlaşdırmanın məqsədi müxtəlif şəraitdə qeyd edilən struktur amilləri müşayiət edə bilən alternativ davranış korrelyatlarını araşdırmaqdır. İkinci növbədə proqnozlar *imkan və ehtimalların dərəcəsi* ilə əlaqələndirilə bilər. Bu mərhələdə araşdırma alternativ ehtimal strukturları və ya bölgülərə əsaslanır. Burada məqsəd müxtəlif ehtimalların nəticələri ilə əlaqəli olan davranış və ya struktur korrelyatlarını araşdırmaqdır. Bu zaman diqqət

arzuolunanlar yox, ehtimal olunanlara yönəlir. Üçüncüsü, proqnozlar *seçim strukturları* ilə əlaqələndirilə bilər. Proqnozlaşdıranın məqsədləri normativ olduqda, əsas diqqət seçimlərin sıralanmasına yönəldilir. Bu zaman ilkin əlaqələndirmənin şərti kimi "edilməli" olanlar müəyyən olunur və bu zaman məqsəd həmin seçilən nəticələrin davranış korrelyatlarını və ya onların həyata keçirilməsi üzrə vasitələri müəyyən etmək olur. İdeal tədqiqat şəraitində seçimin dəqiqləşdirilməsi və "edilməli" olanın "edilən"lə konqruent təşkil etməsi yollarının müəyyənləşdirilməsinin vəhdəti ilə tədqiqatın mümkün məqsədinə nail olmaq olar. Bundan başqa, daha çox şərti xarakter daşımaqla, əlaqələndirməyə əsasən xətti attributlarla xarakterizə olunan bir sıra aqreqat sistemlərin *tendensiya və proqnozlar*ı daxil edilir. Bunun ardınca sözügedən tendensiyaların təsirlərini müşahidə etmək üçün proqnozlar təyin edilir. Bugünə qədər müasir proqnozlaşdırmanın ən böyük təsiri bu cür gerçəkləşmişdir. Birləşmiş Millətlərin gələcək əhali ilə bağlı proqnozlarına bu növ proqnozlar daxil edilir. Beynəlxalq münasibətlərin proqnozlaşdırılmasında məqsəd qlobal və regional siyasət və ya xüsusi struktur, siyasi və ya davranış şərtləri üzrə belə proqnozların nəticələrini müəyyən etməkdir.

Ümumilikdə, müxtəlif cür əlaqələndirilmiş proqnozlardan müxtəlif nəticələr əldə olunur. Əlaqənin çətinliklə seçilməsinin səbəbi odur ki, adətən birdən çox əlaqəyə olan maraq hazır tapşırığın əhəmiyyətli dərəcədə mürəkkəbləşməsinə səbəb olur. Bununla belə, əlaqənin seçilməsi proqnozlaşdırmaq istədiyimiz reallıqlara spesifik mənanın verilməsində mühüm addımdır.

Bəzi əlaqələr digərlərindən daha yaxşıdırmı? Bu, şəraitdən asılıdır. Proqnozlaşdırmada məqsəd əlaqənin seçilməsini müəyyən edir. Bununla belə, sonuncu təhlildə əlaqənin ağıllı şəkildə seçilməsi proqnozlaşdırma müəssisəsi üçün əhəmiyyət kəsb edir və proqnozlaşdıran öz seçimini müdafiə etməyə hazır olmalıdır. Öz əlaqələndirməsini əsaslı şəkildə dəstəkləməyən proqnoz öz qüvvəsini itirir.

## 2.9. Proqnozlaşdırmada qiymətləndirmə:mövcud təhlükələr və təkrarlanan səhvlər

Proqnozlaşdırma nə zaman qənaətbəxş olur? Proqnozlaşdırmanın etibarlılığını necə qiymətləndiririr? Onun icra edilməsini qiymətləndirmək üçün hansı meyarlardan istifadə edilir? Reallıq məlum olmadıqda, uğurlu proqnozların verilməsi qismən nəzəriyyə və qismən də proqnozun məqsədinə uyğun müəyyən edilən meyarlar toplusuna əsaslanır.

Metodoloji təcrübənin artmasına baxmayaraq, müəyyən təhlükələr proqnozlaşdırma ilə bağlı bütün cəhdlər üçün ümumidir. Belə problemlərin bəziləri xüsusilə beynəlxalq münasibətlərdə daha qabarıq olur, çünki bu sahədə ümumi səhvlərin aradan qaldırılmasında yetərli təcrübəmiz yoxdur. Mövcud şəraitə yönəlməklə, adətən gözlənilməyən nəticələrin qiymətləndirilməsindən imtina edilir və yaxın keçmişin problem və həlləri ilə bağlı sübutlar irəli sürülür. Beləliklə, yaxın keçmişə meyletmə bir çox proqnozlaşdıranlara xas ən ciddi problemlərdən biridir. Digər təkrarlanan səhvlər dedikdə isə, səbatsızlığın potensial mənbələrinin nəzərdən qaçırılması və beynəlxalq münasibətlərdə bütün vacib innovasiyaların artıq baş verdiyinə dair üstüörtülü ehtimalların irəli sürülməsidir. Bir çox proqnozlaşdıranlar heç bir sağlam əsas olmadan ya həddən çox pessimist, həddən çox optimist, ya da hər ikisini cəmləşdirən qarışıq mövqedən çıxış edirlər. Belə situasiya proqnozlaşdırmada sistematik qərəzliliyin əmələ gəlməsinə gətirib çıxarır. Bu isə elə bir təhlükədir ki, ən təcrübəli təhlilçilər belə ondan yayına bilmirlər.

Mümkün nəticələrini nəzərə almadan spesifik məsələlərə dar kontekstdən yanaşma nəticəsində yaranan təhriflər bir-biri ilə qarşılıqlı əlaqəlidir. Ancaq bunların arasında ən ümumi səhv ondan ibarətdir ki, bütün proqnozlaşdıranlar öz sahələri üzrə dar konteksdən çıxış edirlər. Bu isə qiymətləndirmə və reallığa uyğunluğu yoxlamadan birinin kontekstində vacib görünən bəzi səbatsızlıqlara apriori yanaşma ilə nəticələnir. Belə problem xüsusilə Delfi və normativ proqnozlara xasdır.

Proqnozların icrasının qiymətləndirilməsi üzrə ən azı üç ümumi prosedur toplusu mövcuddur:

-texnologiya ilə bağlı proqnozlarda *araşdırma prosesləri;*

-statistik və ya empirik modellər, kəmiyyətlə bağlı məlumatlar və sistematik prosedurlara əsaslanan proqnozlarda *qiymətləndirmə prosesləri*;

-retrospektiv proqnozlarda *proqnozların nəticələrinin empirik məlumatlarla müqayisə edilməsi prosesləri*.

Qiymətləndirmədə araşdırma prosesləri: proqnozun məqsədi və ya proqnozlara olan zərurət, proqnozun məqsədi və ilkin kauzal şəbəkə ilə bağlı əsas səbəblər, proqnozlaşdırma layihəsi tərəfindən emal edilən məlumatların etibarlılıq dərəcəsi, proqnozlaşdırma müəssisəsinin özünün etibarlılığı ilə bağlı sistematik araşdırmalara əsaslanır. Proqnozlaşdırma layihəsinin etibarlılığı haqqında belə sorğulara verilən cavablardan nəticə çıxarıla bilər. Bu, daxili xəta və ya qərəzlərin dərəcəsi ilə bağlı nəticələrin çıxarılmasında etibarlılığın bir neçə xarici meyarı iştirak edən, bir növ "yumşaq" prosedurdur. Bununla belə, belə araşdırma bizə proqnozların yuxarıda qeyd edilən təhlükələrə məruz qalma dərəcəsini müəyyən etməyə imkan verir.

Proqnozların *qiymətləndirmə prosedurları* vasitəsilə qiymətləndirilməsi tədqiqat layihəsi və ya daxili qərəzlilik və səhvlərdən nə dərəcədə qaynaqlanmasını müəyyən etmək üçün nəticələrin bir sıra apriori meyarlar toplusu ilə müqayisə edilməsini ehtiva edir. *Aşkar etibarlılıq* dedikdə, proqnozun nəticələrinin ziyalı cəmiyyətə nə dərəcədə ağlabatan görünməsi nəzərdə tutulur. Daxili etibarlılıq dedikdə, proqnozların yekunlarının nəticə hasil edən proses və strukturla nə dərəcədə üst-üstə düşməsi nəzərdə tutulur. Nəticə və tədqiqat layihəsi arasında olan böyük uyğunsuzluqlar gələcək tədqiqatların aparılmasında əhəmiyyət kəsb etsə belə, şübhəli olaraq qalır. Bununla belə, qiymətləndirmənin başqa formaları modelin parametrləri və səbatsızlıqların müəyyən edilməsinin nisbi gücünün qiymətləndirilməsi üzrə klassik statistik metodları əhatə edir. Təsadüflərdən uzaqlaşma dərəcəsini müəyyənləşdirmək üçün istifadə edilən meyar təhlilin nəticələri ilə ehtimalın paylanmasının müqayisəsini ehtiva edir. Nəticələr

statistik cəhətdən nə qədər çox əhəmiyyət kəsb edərsə, proqnozun etibarlılığı nə qədər çox olarsa, gələcək haqında bir o qədər sağlam tutarlı nəticələr çıxarmaq mümkün olacaq. Statistik qiymətləndirmə xüsusilə tədqiqat layihəsinin strukturu, tənqidi səbatsızlıqlar arasında qarşılıqlı əlaqələr və kauzal şəbəkə və ya başlıca əlaqələrə tətbiq olunur. Şərti qiymətləndirmə vasitələri modelin qurulması və qiymətləndirilməsi üçün tam şəkildə müəyyən edilmiş olsa da, proqnozların etibarlılığı ilə bağlı hələ də xeyli işin görülməsinə ehtiyac var.

Qiymətləndirmənin üçüncü əsas növü proqnozların nəticəsi ilə empirik məlumatların müqayisə edilməsidir. Bu prosedur yalnız retrospektiv proqnozlara tətbiq olunur. Tarix məlum faktlarla bağlı proqnozların verilməsi üzrə zəngin laboratoriyadır. Müxtəlif dəyər və gəlirlərlə müxtəlif metodologiyalara əsaslanan proqnozların sistematik müqayisələri bizə proqnozların nəticələrinin sözügedən metodologiya ilə şərtlənmə dərəcəsini qiymətləndirməyə imkan verir.

Proqnozlaşdırmanın nəticələrinin sistematik qiymətləndirilməsi zamanı proqnozlaşdırma prosesinə ciddi şəkildə müdaxilə etməmək tələb olunur; əks təqdirdə, proqnozun yekunlarına əsaslanan nəticələri proqnozlaşdırma prosesinin özü üzərində tətbiq edilən təsirlərə əsaslanan nəticələrdən təcrid etmək mümkün olmur. Onların hər ikisi bir-biri ilə qarşılıqlı əlaqədədir. Ancaq biz sonradan həm prosesi, həm də nəticəni qiymətləndirməliyik. Sonuncu təhlildə "etibarlılıq nə üçündür" sualı proqnozun məqsədindən asılıdır. Qiymətləndirmənin istifadə edilən növü problemin təbiəti və eləcə də lazımi etibarlılığın dərəcəsindən asılıdır.

### 2.10.Uzunmüddətli proqnozların ehtimallılığı

Beynəlxalq münasibətlərin (BM) uzunmüddətli inkişaf metodologiyasına dair məsələ siyasi elmin qarşısında duran əsas məsələlərdən biridir.

Prinsipcə, beynəlxalq münasibətlər sisteminin müxtəlif növlərini təşkil edən makrososial sistemlərinin inkişafını proqnozlaşdırmaq olarmı?

Əgər mümkünsə, onda proqnozlaşdırılmanın son bilik həddi nə qədərdir?

Əksər mütəxəssislər proqnozlaşdırma obyekti kimi beynəlxalq münasibətlərin mürəkkəbliyini etiraf edirlər. Bu sistem stoxastik kimi təsvir edilir, məhdud zamanda özləri və rəqiblər haqqında kifayət qədər məlumatı olmadan müxtəlif səviyyələrdə bir-birindən asılı və qarşılıqlı əlaqəli çox saylı aktorlardan ibarətdir.

Nəticədə beynəlxalq münasibətlər sisteminin hər bir konkret elementinin özünü necə aparacağı və yaxud sistemini özü ilə nə baş verəcəyini söyləmək çox çətindir. Digər tərəfdən, vəzifələrin əhatəliliyi onun yerinə yetirilməsinin mümkünlüyünü inkar etmir, xüsusən də beynəlxalq münasibətlərin inkişafının gerçək proqnozlarını qurmaq beynəlxalq münasibətlərin subyekt qismində imperativ yaşamasını tələb edir.

Nəzəriyyəni, metodologiya və məntiqi, ən əsası isə beynəlxalq münasibətlərin uzunmüddətli proqnozlaşdırması metodlarını və hərbi siyasi vəziyyəti (HSV) təsvir etməyə çox cəhdlər edilmişdir. Lakin bunlar proqnozların nəticələrinə görə təsdiq edilmədikdə uğursuz görsənir.

Uzunmüddətli proqnozda nəticənin konkretliyi BM-in bu və ya digər inkişaf ssenarinin yaranması ehtimalı və ya davam etdirilməsi kimi qiymətləndirilə bilər. Müasir beynəlxalq vəziyyət təhlil və inkişaf proqnozunda ən böyük çətinlik isə tədqiqatı faktlarla təmin edə biləcək beynəlxalq vəziyyəti formalaşdıran konkret metodların və nəzəriyyənin axtarışı və seçilməsidir

Bir tərəfdən, aydındır ki, hətta tam konkret strateji şəraitdə HSV və beynəlxalq münasibətlərin inkişafında əvvəlcədən qoyulan bu və ya digər obyektiv amillər və meyllər reallaşdırılır, digər tərəfdən isə bir çox dəyişən və yeni amillərin meydana çıxması tamamilə unikal strateji şəraitin yaradılmasına və inkişafına aparırlar. Strateji vəziyyət, hərbi konfliktlər və müharibələr həmişə yetərincə dəqiqliklə proqnozlaşdırılması mümkün olmayan gözlənilməz ssenarilər üzrə inkişaf edəcək. Belə ki, 2013-cü ildə heç kim BM-in və HSV-in Avropada sürətli dəyişikliklərini, üstəlik də ki, 2014-ci ilin fevralında Ukraynada

tamamilə unikal strateji vəziyyəti proqnozlaşdırmamışdı. Halbuku hərbi münaqişənin dondurulmasına 15-ayadək vaxt getdi.

Bu məsələnin həllinə münasibətdə birinci və ən geniş yayılmış *yanaşma* beynəlxalq münasibətləri bir çox hallarda universal, əbədi və dəyişilməz kimi fikirləşən, mücərrəd qanun və qaydalara tabe olan abstrakt model kimi təqdim etməkdir. Belə qanun və qaydaların olması üzündən bu abstrakt modellərin inkişafı hətta uzunmüddətli dövr üçün də proqnozlaşdırılan olur.

Belə yanaşmadan demək olar ki, bütün rasionalizm nəzəriyyəsinə istifadə edirlər. Bu yanaşmanın üstnlüyü proqnozlaşdırmaya proqnozlar və ssenarilərə olan inamını artıran elmi görüntnün verilməsidir. Proqnozda qrafiklərin və rəqəmlərin olması onun rəqabət üstünlüklərini artırır.

Lakin belə yanaşmada əldə edilən ssenarilər real vəziyyət üçün deyil, yalnız beynəlxalq münasibətlərin mücərrəd rasionalizm modelləri üçün doğrudur.

Beynəlxalq münasibətlərin proqnozlaşdırılması problemin həllinə digər *yanaşma*, sistem kimi onların inkişafına təsir göstərməyə qadir olan əsas amillərin aşkar edilməsi ilə bağlıdır. Bu amillər demoqrafiya, kütləvi qırğın silahlarının yayılması, iqtisadi artım və ya böhran, iqlim dəyişikliyi, tükənmə və ya əksinə enerji resurslarının tapılması, maddi ehtiyatların paylaşdırılması strukturu, texnoloji innovasiyalar dövrü, beynəlxalq münasibətlərin siyasi mədəniyyəti, demokratiyanın yayılması və s.ola bilər.

Hər bir tədqiqatçı, öz baxış bucağından asılı olaraq beynəlxalq münasibətlərin inkişafını müəyyən edən amilləri təyin edir. Daha sonra seçilmiş amillərin inkişaf proqnozu aparılırr və nəticələr beynəlxalq münasibətlərin bütün sisteminə ektrapolyasiya edilir. Başqa sözlə, beynəlxalq münasibətlərin inkişafını müxtəlif amillər vasitəsilə izah olunur.

Bu yanaşmanın üstünlüyü BM-in məhdud reduksiysıdır.

Bir və ya bir neçə amillərin reduksiyasından qaçmaq mümkün deyil, amma bu ilk yanaşmasında müşahidə olunan tam redukisiya

deyil. Bundan başqa, qismən reduksiya sayəsində proqnozun dəqiqliyi artırılır.

Bir və ya bir neçə amillərin inkişafını proqnozlaşdırmaq beynəlxalq münasibətlərin inkişaf məcmusunu proqnozlaşdırmaqdan asandır. Yanaşmanın çatışmazlığı amillərin seçiminin subyektivliyindədir, abstrakt xarakter daşıyır və qismən yerinə yetrilsə də, yenə də beynəlxalq münasibətlər reduksiya olur.

*Üçüncü yanaşma* beynəlxalq münasibətlərin müxtəlif səviyyələrdə potensialından istifadə etməklə bağlıdır. Elə görünə bilər ki, mikrosəviyyədə üçün münasibətlərin inkişafını proqnozlaşdırmaq makrosəviyyə üçün münasibətlərin inkişafını proqnozlaşdırmaqdan asandır. Bu xəyali ehtimaldır. Sosial sistemlərin mürəkkəbliyi mikrosəviyyədə saxlanılır. Mikro səviyyədə sistemin reduksiyalaşmasını başa çatması, bu reduksiyanın nəticəsini isə makro səviyyədə fikir gücü ilə deyil, kompüterin hesablama imkanlarının köməyi ilə yaymaq məharət tələb edir. Yanaşmanın çatmayan cəhəti-sistemin mikrosəviyyədə reduksiyasıdır.

İntuitiv yanaşmanı da seçmək olar. Təcrübəli siyasətçi, yəqin ki, mümkün ssenari və əsaslı proqnoz vermək üçün kifayət qədər intuisiyaya malikdir.

Bununla intiutiv ssenarinin həqiqətə uyğun realizasiyası çətin ki, elmi görüntülü ssenarilərdən az olsun.

Beynəlxalq münasibətlərin inkişafının proqnozlaşdırılmasında ümumi yanaşma qismində hər birinin işlənməsində çoxlu ssenarilərin ehtimalının qiymətləndirilməsi ilə nəticələnən ssenarili yanaşmanı seçmək olar.

Strateji proqnozlarda hansısa konkret və daha çox ehtimal edilən ssenarinin ayrılmasından çəkinirlər. İlk növbədə buna səbəb ehtimal edilən ssenarinin az sayda, mümkün ssenarilərin isə onlarla ola bildiyi halda, onda ssenarinin konkret variantı yalnız bir halda olacaq və yeganə ssenari həyata keçiriləcək. Məhz elə onu tapmaq, proqnozlaşdırmaq və ya planlaşdırmaq lazımdır.

Beynəlxalq münasibətlərdə proqnozun reallaşmasının yuxarıda sadalanan yanaşmaların hər hansı birinin köməyi ilə əldə edilmiş

ehtimalının aşağı olduğunu nəzərə alsaq, beynəlxalq münasibətlər sahəsində proqnozlaşdırma institutunun özünün funksionallığı haqqında sual yaranır.

İki müsbət funksiyanı ayırmaq olar: beynəlxalq münasibətlər haqqında elmin inkişafı və xarici siyasətin planlaşdırılmasını dəstəkləmək. Hətta əgər beynəlxalq münasibətləri dəqiq proqnozlaşdırmaq mümkün deyilsə, istənilən halda dövlətin əlində xarici siyasət planı olmalıdır.

Beynəlxalq münasibətlərin inkişafının nəzəri-məntiqi modeli sadələşdirilmiş qaydada aşağıdakı şəkildə təqdim edilir.




**Şəkil 2.1.**Əsas lokal insan sivilizasiyaları (LİS)
BV-beynəlxalq vəziyyət;
SV- strateji vəziyyət;
HSV- Hərbi-siyasi vəziyyət,
LİS- lokal insan sivilizasiyalar.

Beynəlxalq münasibətlərin proqnozlaşdırılması üçün yuxarıda təqdim olunan model çoxsəviyyəliliyi və iyearxikliyi səciyyələndirir.

BV-in gələcək inkişaf ssenarisi LİS-in inkişafı və qarşılıqlı münasibətləri ilə, onların formalaşdırdırdığı ittifaqlar və koalisiyalar arasında əvvəlcdən müəyyənləşir. Konkret (daha əlverişli) variantda BV-in bu və ya digər inkişaf ssenarisi və ondan irəli gələn HSV ssenari variantı isə belə münasibətlərin nəticəsidir. Bu, BM-in təhlili və strateji inkişaf proqnozunun birinci və əsas başlanğıc nəzəri müddəalarıdır.

Digər nəzəri müddəlar beynəlxalq vəziyyətin strukturuna və eləcə də onun inkişafına təsir göstərən tendensiyalara və amillərə aiddir. BV-in ssenarisinin formalaşmasına (o cümlədən ehtimallı) təsir göstərən obyektiv faktor və tendensiyaların üç əsas qrupuna baxılır:

-HSV-in və BV-in formalaşdırılmasına bütün tərəflərdə təsir göstərən qlobal dünya tendensiyalarının bioloji, ekoloji, iqtisadi, informasiya, maliyyə və s. qrupları.

-Ənənəvi amillər qrupu –BV-in subyektləri–dövləl追t və millətlər, ilk növbədə lokal insan sivilizasiyaları.

Nisbətən yeni amillər qrupu– BM-in formalaşmasında və inkişafında iştirak edən qeyri-dövlət və dövlətlərarası aktorlarından ibarət qrup:

a) beynəlxalq təşkilatlar və institutlar, koalisiyalar, birliklər və s.;

v) qeyri-dövlət aktorları-ictimai təşkilatlar, partiyalar, şəbəkə birliyi və s.

Bu üç qrup obyektiv amillərlə yanaşı, XX əsrdə BM-in formalaşmasında milli insan kapitalı və onun təsisatları arasında, eləcə də siyasi qərarların hazırlanması və qəbulu prosesində subyektiv amillər qrupu mühüm rol oynamağa başladı.

Bu qrup amillər obyektiv qlobal tendensiyalar qrupundan ayrıldı, yalnız XXI əsrdə müstəqil, artan rol oynamağa başladı, halbuki bəşər tarixinin əvvəlki dönəmində də onu nəzərə almamaq mümkün deyildi.

Ümumiyyətlə, bütün qrupların əksəriyyəti çoxlu xüsusiyyət və parametrlərə malik subyektlərin, aktorların, tendensiyaların ümumilikdə on minlərlə faktını təmsil edir.

Belə ki, BM-in ənənəvi subyektlərindən yalnız biri, dövlət yüzlərlə mühüm parametrlər və meyarlara malikdir: əhalinin sayı və ərazisindən ÜDM-in həcmi və BM-in mövcud və gələcək inkişaf ssenarisinin formalaşmasına təsir göstərən Silahlı Qüvvələrinədək.

Artıq deyildiyi kimi, ənənəvi proqnozlarda əsas qiymətləndirilmə yalnız ənənəvi göstəricilər və meyarlardan (demoqrafik, coğrafi, maliyyədən) istifadə olunur.

Ona görə də BM-in mümkün inkişaf ssenarisi təkcə "fiziki" reallıqları deyil, bu reallıqların həyata keçirilməsi üzrə həm də hakim elitanın ideoloji "niyyətlərini" mütləq nəzərə almalıdır.

Belə çox sayda amillər və onların göstəriciləri təhlil və proqnozlaşdırılma məqsədləri üçün prinsipial çətinliklər yaratmır. Buna mövcud hesablama texnikaları imkan verir.

Problem indiyədək mövcud olmayan metodika və alqoritmin hesablanmasındadır. Belə ki, məsələn, HSV-də gələcək proqnozlar yalnız 2 qrup: silahlı qüvvələrin sayında kəmiyyət və keyfiyyət faktorları əsasında təhlil edilir.

Bu arada BM-in bir subyektinin (hər hansı bir dövlətin) siyasətinin təhlili yalnız kəmiyyət parametrlərinin dəyişdirilməsi deyil, amma ilk növbədə keyfiyyət xarakteristikasını: əsas məqsədləri, hakim elitanın formalaşdırdıqlarını və müvafiq strategiyaları tədqiq etməyi nəzərdə tutur.

Belə ki, hətta BM-in siyasəti və subyektlərinin strategiyasının ənənəvi konkret təhlili əsasında bir qayda olaraq, iki əsas araşdırmada: bu subyekt və dəyərlərin (millətin, dövlətin) maraqlarının (tələbatının) təhlilini və BM-in bu subyektinin qiymətləndirilməsi imkanlarını şəkil 2-də göstərmək olar.

Əslində BM-in subyektlərinin siyasətini (yalnız birinin) dəqiq analiz etmək üçün bu azdır. BM-in bu subyektinin siyasəti və strategiyasının formalaşmasına faktorlar qrupu təsir edir:

-Xarici şərait və xarici amillərin təsiri (o cümlədən xarici çağırışlar və təhlükələr);

-BM-in bu subyektinin bütün qrup amillərinə (obyektiv maraqlar və dəyərlər, xarici təsir, mövcud imkanlar və resurslar) hakim elitanın subyektiv qavrayışı.




**Şəkil 2.2.** BM-in subyektlərindən birinin siyasi təhlil modelinin məntiqi təsviri

Nəticədə istənilən strategiyanın əsasında duran "məqsəd-vasitə" münisbəti siyasi məqsədlərin subyektiv formalaşması kimi ifadə olunur.

Beləliklə, beynəlxalq münasibətlərin uzunmüddətli proqnozu və dəqiq təhlili üçün bütün qeyd edilən amillər qrupunu "ayrı-ayrılıqda" deyil, həmin amilləri və tendensiyaları qarşılıqlı əlaqədə və dinamikada təhlil etmək lazımdır.

Məhz təhlilin bu hissəsi ən çətindir, çünki BM-in arxitekturası və strukturu tez dəyişir.

BM-in yeni arxitekturasının modelindən göründüyü kimi 1990-cı ildən sonra yaranmış vəziyyətdə ABŞ başda olmaqla, qərbin LİS təmsil olunan ölkələr əsas rol oynayır. XXI əsrin ikinci onilliyinin ortalarına qədər bu arxitektura açıq iddia edilmirdi.

2012-2015-ci illərdə Ukraynadakı müharibə BM-in arxitektuasını açıq-beynəlxalq məkanda kəskin şəkildə yenidən təşkil etdi.




**Şəkil 2.3.** BM-in 1990-cı ildən sonra yen (birqütblü) arxitekturası BM-də HSV-də əsas subyektlərin və qeyri-dövlət aktorlarının sayının artması ilə xarakterizə edilir.

ABŞ-ın sistemdə nəzarəti və himayəsi altında əvvəlki illərdə yaranmış dəyişikliyə iddia edə biləcək siyasi və iqtisadi cəhətdən alternativ güc mərkəzlərinin yaradılması faktiki olaraq bəyan olundu.

Təbii ki, BM-in 2015-ci ildə bildirilən yeni modeli, hələki, artıq tam baş vermiş fakt deyil, amma həm də bu aşkar tendensiyaları BM-in inkişafında nəzərə almamaq da (eləcə də Suriyada və Ukraynada artıq nümayiş etdirilən HSV qaçılmazdır) mümkün deyil.

BMT Baş Assambleyasının 2015-cu ilin sentyabrında keçirilən iclasında BRİC liderlər ilə görüş artıq planlaşdırılmışdı, ABŞ-da isə BM-də dəyişikliyə, elə həmin 2015-ci ildə ABŞ-ın milli təhlükəsizlik strategiyası və milli hərbi strategiyasının yeni variantının yaranmasına dərhal reaksiya verildi.

Əgər yeni mərkəzlər qüvvə toplayaraq güclənərlərsə və hərbi-güclə beynəlxalq norma və qaydaları xeyrlərinə dəyişdirilməsini iddia edərlərsə, onda BM 2030-2040-ci illərdə gələcək strukturunun proqnozu və modeli daha mürəkkəb görünür.




**Şəkil 2.4.** BM-in 2015-ci ilə olan yeni arxitekturası

2030-ci ildən sonra çox şey, məsələn:

-ABŞ-ın qüvvələr nisbətinin yeni güç mərkəzlərinin xeyrinə dəyişməsini güc vasitələrilə nə dərəcədə uğurla neytrallaşdıra biləməsindən;

-yeni güc mərkəzlərinin qərbin LİS-na və bir-birinə münisbətdə nə dərəcədə uğurlu inkişafından;

-qərbin LİS və bir çox digər amillərin nə dərəcədə uğurlu olmasından asılı olacaq.

Bir halda ki, LİS öz inkişaflarını bir çox cəhətdən inkişafın ümumdünya qanunauyğunluqları kimi inteqrasiya edə və eləcə də qeyri-dövlət aktorlarının rolunu göstərə biləcəklər, onda gələcək BM və HSV (onun tərkib hissəsi kimi) LİS-na qarşı mübarizə təsiri altında formalaşacaq, digər iki əsas qrupla, qünya tendensiyaları və qeyri-dövlət aktorları ilə münasibətlərini müəyyənləşdirəcək.

Bir çox hallarda LİS-nin özü həm obyektiv amillər (dövlət subyektləri–LİS-nın liderləri, mədəni tendensiyalar) kimi inkişaf sintezidirlər, həm də aktorların, yəni dini, ictimai, beynəlxalq və digər təşkilatların, eləcə də lokal sivilizasiyalar, milli insan kapitalı və millətlərin subyektiv inkişaf tendensiyalarıdır.

Beləliklə, BM-in konkret inkişaf ssenarisinin həyata keçirildiyi gələcək memarlıq modelinin strateji inkişaf proqnozu, vacib olan, lakin özündə konkret məzmun daşımayan, yalnız ən "ümumi çərçivə"də uzunmüddətli proqnozu verir,

Belə konkret məzmun BM-in subyektlərinin inkişaf proqnozunu verir–LİS, dövlət və aktorlar, eləcə də ayrılıqda deyil, bütün öz qarşılıqlı əlaqəsi ilə vahid sistemdə baxılmalı olan qlobal tendensiyalar nəzərdən keçirilməlidir. Belə proqnoz xüsusidən (ayrıca amilin təhlil və proqnozu) ümumiyə (bu amillərin cəminə) hərəkət etməyi tələb edir.

Əgər proqnoz xüsusi halda, 200 dövlətin hamısına yox, dünyanın aparıcı ölkələrinə (25-30 dövlətə) zəruridirsə, BM-in gələcək simasını, eləcə də, şübhəsiz ki, bütün LİS və əsas aktorları formalaşdırmalı olacaq.

BM-in ayrı-ayrı subyekt və aktorlarının inkişafının konkret bu proqnozu BM-in inkişaf ssenarilərin nəzəri cəhətdən əsaslandırılmış modellərindən birinə inteqrasiya etməlidir.

Əks halda hətta sistemləşdirilmiş faktların və məlumatların sayının çox olması BM-in inkişafının konkret variantının proqnozu üçün şəraiti təmin etməyəcək.

Beynəlxalq münasibətlərin inkişafının qeyd edilən yanaşmasının üstun cəhəti kompleksliklikdə, iyearxiyalıqda, proqnozladırılmanın həm keyfiyyət, həm də kəmiyyət metodlarının uzlaşmasındadır. Bu model müxtəlif qrup aktorları və amilləri iyerarxiya qaydasında sıralayır, beynəlxalq münasibətlərin inkişafının məntiqini və proqnozlaşdırılma ardıcıllığını müəyyən edir.

Bu modelin çatışmazlığı onun beynəlxalq münasibətlərin inkişafında əsas amillərin müəyyənləşdirilməsində və beynəlxalq münasibətlərin əsas aktorları arasında qarşılıqlı fəaliyyət xarakterində subyektiv faktların olmasını qaçılmaz etməsindədir.

Həmçinin model reduksionizmdən – istənilən proqnozlaşdırılmanın qaçılmaz şəraitindən məhrum deyil.

Bu modelin gələcək inkişafı onun beynəlxalq münasibətlərin uzunmüddətli perspektivdə ən çox ehtimallı inkişaf proqnozunun hazırlanmasında istifadəsini nəzərdə tutur.

## III FƏSİL

## STRATEJİ PROQNOZUN İŞLƏNMƏ METODIKASI

Beynəlxalq zəmində olan strateji proqnozlaşdırma təkcə beynəlxalq mühit haqqında az-çox real təsəvvür yaratmaq üçün deyil, hər şeydən əvvəl öz ölkəni müxtəlif təhlükələrdən uzaqlaşdırmaq və onun milli maraqlarını qorumaq üçün hə-yata keçirilir.Yəni ki, strateji proqnozlar ölkə rəhbərliyinə xarici və müdafiə siyasəti sahəsində düzgün qərar qəbul etmək imkanını verməlidir. Bu qərarları gözlənilən təhlükə və çağırışlara əks reaksiya olaraq kortəbii şəkildə də qəbul etmək olar və həmçinin milli maraqları qoruyan, milli təhlükəsizliyi təmin edən əvvəlcədən tərtib edilmiş ölçü proqramı ilə də etmək olar. Bu konteksdə strateji proqnozlaşdırma və planlaşdırmaya aid sual əsas rol oynayır. Ümumilikdə strateji planlaşdırma - son məqsədə nail olmaq üçün nəzərdə tutulmuş xüsusi strategiyalara aparan rəhbərliyin qərarlar toplusudur. İqtisadi strategiyalar institutunun direktoru B.Kuzıkın fikrincə: “ – Strateji planlaşdırma elə bir fazadır ki, burada strategiyaların lazımi istiqamətdə hərəkətini təmin edən sistem formalaşır. “Strateji planlaşdırma müəyyən zaman kəsiyində maksimal effektli üsul və vasitələr içərisində konkret strategiyanı seçməsinə yönəlmişdir. Xarici və müdafiə siyasəti sahəsində strateji proqnozların əsas əhəmiyyəti dövlətin milli təhlükəsizliyi mövqeyində tutduğu yeri ilə müəyyənləşir. Məsələn, “Rusiya Federasiyasının strateji planlaşdırması haqqında” 28 iyun 2014 cü il qanununda strateji planlaşdırma–müxtəlif sahələrdə, həmçinin “Rusiya Federasiyasının milli təhlükəsizliyin təminatı sahəsində “ehtimallaşdırma, proqnozlaşdırma, planlaşdırma və proqramlaşdırma” fəaliyyəti hesab edilir.

Beynəlxalq zəmində olan strateji proqnozlaşdırma və planlaşdırma aşağıdakılardan ibarətdir :

-birincisi, milli və xarici dövlətlərin təcrübələrində olan siyasi, sosial, iqtisadi və hərbi sahədəki strateji proqnozlaşdırmalar, planlaşdırılmalar, aparılmış metodiki araşdırmalar, əldə edilmiş biliklər, nəzərə alınmalıdır.

-ikincisi, müasir dünyanın keçid dövründə olduğunu nəzərə almaq. Bu o deməkdir ki, BC (beynəlxalq cəmiyyət) və onun paradiqmaları kəskin surətdə dəyişir, ona görə də strateji proqnozlaşdırma və strateji planlaşdırma müntəzəm olaraq nəzərdən keçirilməlidir.

Strateji planlaşdırmanın məğzi qarşıya qoyulan məqsəd və tapşırıqların həyata keçməsini reallaşdıran plan hazırlamaqdan ibarətdir. Bu konteksdə yeni və cari təhlükələrin gərginləşməsi əkshərəkət siyasəti tələb edir ki, buna müvafiq planlaşdırmaları şərti olaraq 2 istiqamətə bölmək olar:

-birinci istiqamət – cari və gələcək xarici təhlükələrin neytrallaşması üçün nəzərdə tutulmuş siyasi və qeyri hərbi əkshərəkət mövqeyinin hazırlanması.

-ikinci istiqamət- geniş miqyaslı hərbi-texniki xarakterli vasitələri özündə birləşdirən hərbi-siyasi əkshərəkət mövqeyinin hazırlanması.

Beynəlxalq münasibətlər zəminində strateji planlaşdırmaların effektivliyi subyektiv faktorlar da daxil olmaqla bir sıra faktorlardan asılıdır. Həmin faktorları aşağıdakı kimi sistemləşdirmək olar :

-birincisi, strateji proqnozlaşdırma BV və HSV-də olan inkişaf trendlərini, ayrıca dövlətlərin, ittifaq və koalisiyaların təkamülünü, bu tendesiyalardan doğan xarici təhlükə və hərbi təhdidləri görmək imkanını verir. Əsil strateji planlaşdırma obyektiv strateji proqnoza əsaslanmalıdır:

- BM-in və HSV-in dünyada və regionda inkişafına;
- BM-in və HSV-in başlıca trendlərinin və subyektlərinin inkişafına;
- Milli inkişafın maraq və məqsədlərinə və mənbələrə malikliyinə.

İkincisi, strateji proqnozlaşdırmanın əsasını xarici təhlükələrin qiymətləndirilməsi və obyektiv analiz təşkil edir. Bu o deməkdir ki, əkshərəkət mövqeyində başlıca müəyyənləşdirici amil başqa faktorlar deyil, məhz cari və gələcək təhlükələrin dəqiq qiymətləndirilməsidir. Ona görə də uzunmüddətli planlaşdırmada gələcək hərbi təhdid və

xarici təhlükəyə əks-təsir göstərilməsinin əsasında hərbi-siyasi qiymətləndirmə və proqnozlar durur;

Üçüncüsü, strateji proqnozlaşdırma və planlaşdırmanın əsas vəzifəsi yeni ola biləcək situasiyaları əvvəlcədən görə bilmək, ümumilikdə isə BM və HSV-in dəyişən paradiqmalarının və təhlükələrin neytrallaşması üçün  adekvat hərbi siyasət, bunu da dərk edərək ki, milli maraqların mühafizəsi təkcə hərbi təhlükəsizlik yolu ilə deyil, daha geniş maraq dairəsində inkişaf etməlidir;

Dördüncüsü, strateji planlaşdırma çox zaman təkcə siyasi məqsədlərlə deyil, həmçinin təbii, iqtisqdi, milli insan kapitalından (hansıki XXI əsrdə vacib əhəmiyyət kəsb edir ) təşkil olunmuş–milli resurslar və  onların planlaşdırılması ilə müəyyənləşir.

Bununla da BM-in və HSV-in  funksiyasının təhlilinin və proqnozlaşdırılmasının, eləcə də milli təhlükəsizliyə təhdidin, bir tərəfdən strateji proqnozlzşdırılmanın ayrılması, digər tərəfdən bu iki proses arasında obyektiv fərqlərin izahı zəruridir.

Birinci halda araşdırma və təhlildə subyektiv faktoru nəzərə almaq lazımdır, amma o həlledici deyil: elmi metodlar, informasiyaların nəhəng tutumu,  yeni metodikalar bu analizi bütünlükdə kifayət qədər obyektiv edir. Strateji planlaşdırmada, əksinə subyektiv təsəvvürlər, çox vaxt obyektiv reallığı təhrif edən, planladırmada köklü səhvlərə gətirən şəxsi və qrup maraqları üstün mövqedə olur.

Hərbi-siyasi sahədə qərar qəbul edərkən, xüsusilə də SSRİ-də və Rusiyada hərbi-siyasi sahədə olan obyektiv analiz və inkişaf proqnozlaşdırmalarına arxalandıqları az olmamışdır. Məsələn, 90-cı illərdə və XXI əsrin ilk onilliyində elə bir situasiya  yarandı ki, strateji planlaşdırma  maddi-büdcə haqqında fikirlər digər bütün fikirlər üstələyib keçdi. Hökumətin maddi-iqtisadi bloku strateji məqsədlərə nail olmaq üçün resurslar axtarmaq yerinə, əksinə öz maddi resurslarına istinad edərək strateji diktə edirdi. Maliyyə Nazirliyi faktiki olaraq milli inkişaf strategiyasını özü formalaşdırırdı, belə ki, strateji proqnoz hazırlamış vəbuna uyğun da strateji planlaşdırma formalaşdırırdı.

İndiki dövrdə də subyektiv fikir və dəyərləndirmələri özündə əks etdirən qərarlar az deyildir. Aydın məsələdir ki, subyektiv faktor

az-çox bütün siyasi qərarlarda özünü göstərir. Onu qeyd etmək lazımdır ki, bu faktora əsaslanan strateji planlaşdırmanın səhvinin bədəli çox ağır olur. Çıxış yolu yalnız birdir – strateji planlaşdırma prosesini maksimaldərəcədə nizamlamaq, bütün şəxsi, subyekti fikirlərdən təmizləmək, hətta "makroiqtisadi" və digər aspektlərdə şəxsi faktorların təsirini minimallaşdırmaq. Belə birstrateji planlaşdırma sisteminin hazırlanması prosesində ABŞ, NATO, Avropa Birliyinin müvafiq təcrübələrini öyrənmək çox faydalı olar.

### 3.1. Strateji proqnozunun işlənməsinin ümumi prinsipləri

Strateji proqnozunun işlənməsi üçün kifayət qədər əsaslandırılmış fərziyyəni müəyyənləşdirməyə imkan verəcək müvafiq metodoloji baza lazımdır.

Bunsuz proqnoz, bir qayda olaraq, sistemsiz mexaniki ekstrapolyasiya və faktlar yığınına çevrilir. Belə ekstropolyasiya barədə isə əvvəlcədən demək olar ki, o, yalnız ortamüddətli proqnozunun üçün tətbiq edilə biləndir. Digər tərəfdən, strateji proqnozunun işlənməsi üçün metodoloji əsaslar olmalı və bu nəticə etibarilə, konkret tətbiqi əhəmiyyət daşımalıdır.

Bu o deməkdir ki, indiyədək görülən işlər də bütün əvvəlki nəzəri və empirik məlumatlar, yalnız əməli şəkildə konkret müddət ərzində beynəlxalq vəziyyətin mühüm cəhətlərini təsvir edən hər hansı konkret ölkəyə münasibətdə baxılmalıdır. Amma bu halda da həmin konkret təhlil və proqnozun metodiki əsaslarını göstərmək lazımdır.

Bu halda hər hansı dövlətə münasibətdə subyektiv toplanaraq seçilmiş sadə faktlar yığınından deyil, nəzəri və metodoloji cəhətdən tam əsaslandırılmış beynəlxalq münasibətlərin tələb olunan konkret bir inkişaf modelindən çıxış edilir.

Uzunmüddətli proqnozun ümumi çətinliklərin obyektiv və subyektivdir. Lakin onlar konkret proqnoza nisbətdə daha da böyük dərəcədə artır. Xüsusilə, beynəlxalq vəziyyətin ortamüddətli və uzunmüddətli perspektivdə belə inkişaf proqnozu daha çox sayda dəyişən kəmiyyətlərinin bir çox daimi amillərin nəzərə alınmasını nəzərdə tutur.

Təklif edilən modelləri aşağıdakı əsas qrupları üzrə birləşdirmək olar:

-Beynəlxalq münasibətlərin əsas iştirakçı qrupu və onların inkişaf sürətini, xarakteri və miqyasını müəyyən edən göstəriciləri;

-Beynəlxalq münasibətlərin formalaşmasına təsir edən əsas dünya və regional tendensiyalar qrupunu;

-Beynəlxalq münasibətlərin iştirakçılarının əsas dövlət aktorlarından ibarət inkişaf qrupunu:

- dövlət beynəlxalq təşkilatları, koalisiyaları və birlikləri;
- qeyri-dövlət aktorları: partiyaları, təşkilatları, birlikləri və s. b.

Təhlil və proqnozların belə modeli göstərilən amillərin və meyllərinin inkişaf sintezinin nəticəsini əhəmiyyətli dərəcədə təşkil edəcək. Yəni, qeyd edilən üç qrup tendensiyaları qarşılıqlı əlaqədə nəzərdən keçirmək lazımdır, onların arasıda əsas ziddiyyətlər götrülərsə, ya da onların məntiqi izahı tapılırsa, daha çox mümkün olan yekun ssenarilər tamamilə bir araya gələ bilər.

Yekunda, 2021-2022-ci illərə qədər ortamüddətli perspektivdə, 2045-2050-ci illərə qədər isə uzunmüddətli perspektivdə mümkün inkişaf ssenarilərinin “yığımı” deyil, BV-in mümkün inkişaf ssenarisinin xarakter və xüsusiyyətlərinin təsvirindən ibarət praktiki nəticə lazımdır. Belə toplam, ümumi futurizm dəyərə malik ola bilər, amma minimal praktiki əhəmiyyəti kəsb edər. Başa düşmək lazımdır ki, tədqiqat mərhələlərinin hər birində “analizin dərinliyi” çox müxtəlif ola bilər.

Bir qayda olaraq, müasir proqnozların müəllifləri bu və ya digər amil və meyllərin ən ümumi təsviri ilə mədudlaşırlar, bir tərəfdən, onların üzərindən məsuliyyət götürülür, amma digər tərəfdən bu konkret nəticə olunmasına yönəlmiş təsirli proqnoz verməyə imkan vermir.

Nəzərə alsaq ki, “analizin dərinliyi” mövcud olan resurslardanın birbaşa asılıdır,onda istənilən halda belə təhlili və ya seçilmiş meyarlara müəyyən miqdar proqnozları məhdudlaşdırmaq lazımdır. Amma ümumi anlayışın olması vacibdir. BM-in təhlili və inkişaf proqnozu, tədqiqatdan minlərlə amil və meyarlar tələb edir.

Məsələn, ikinci mərhələdə ABŞ-ın təsirinin təsvirində 10-15 əsas meyarları üzərində dayanmaq olur (ÜDM-in, ərazisi, əhalisinin sayı, hərbi xərclər və s.b.). Bu ölkə haqqında BM-in aktorlarının ən ümumi təsəvvüründən başqa nəinki ÜDM-in həcmini bilmək, həm də onun struktur dinamikasını: məsələn, təkcə hərbi xərcləri bilmək vacib deyil, həm də Silahlı Qüvvələrinin şəxsi heyətinin keyfiyyətini, keyfiyyəti idarəetmə sistemlərini, hərbi silahlanma xərclərini və s. Bilmək gərəkdir.

Aparıcı dünya və regional tendensiyalaır müxtəlif istiqamətlərdə inkişaf edir, çox vaxt bir-birinə ziddir. Belə görünür ki, XXI əsrdə qloballaşma milli özünüeyniləşdirmə və regionlaşdırmanın artan tendensiyalarına ziddir. Bununla yanaşı, əsas tendensiyalarının məcmusu məhz BM-in inkişafı üçün obyektiv şərait formalaşdırır. Ona görə də bütün sistemin hərəkət vektoru üçün “ümumi vektoru” tapmağa cəhd etmək çox əhəmiyyətlidir. Məhz o hadisələrin ümumi inkişafının dövlətlər və sivilizasiyalar arasında əməkdaşlıq üçün və ya müharibəyə apa-rmasını müəyyən etməyə imkan verəcək. Şərti olaraq aparıcı tendensiyalarının bu vektorunu “beynəlxalq sisemin inkişafının əsas vektoru” adlandırmaq olardı.

Deyilənləri nəzərə alıb strateji proqnozun qurulmasın sxemi şəkil 3.1. də olduğu kimi təqdim edilə bilər.

Diaqramdan beynəlxalq sistemin əsas inkişaf vektorunun formalaşması və gələcək BM-in formalaşmasına təsiri aydın görünür. Bu vektor BM-də müxtəlif inkişaf ssenarilərin yaranması üçün həlledici rola malikdir. Eyni zamanda, diaqram göstərir, ki bu vektor müxtəlif dövlətlərin və digər beynəlxalq aktorların fəallığının təsiri altında yerləşir.




**Şəkil 3.1.** BM-in strateji inkişaf proqnozunun qurulmasının plan- sxemi

Bu isə beynəlxalq sistemin inkişafının əsas vektorunun əvvəlki trayektoriyasından müəyyən müvəqqəti yayınmalara gətirə bilər. Məhz bu yayınmalar BM-in daha ehtimallı inkişaf ssenarisinin irəlicədən necə görsənəcəyini müəyyənləşdirəcək.

## 3.2. Beynəlxalq sistemin əsas inkişaf vektorunu formalaşdıran dünya tendesiyaları

Proqnozun tərtibinin birinci mərhələsini dünyanın əsas inkişaf meyillərinin öyrənilməsi təşkil edir. Bu zaman xüsusilə beynəlxalq münasibətlərin iştirakçıları arasında qüvvələr nisbətinin dəyişməsinə həlledici təsir göstə bilən meyllər öyrənilir. Bu, ilk növbədə, iqtisadiyyatda, elmdə, demoqrafiya, ideologiya və milli insan kapitalının inkişafında, necə deyərlər insanların keyfiyyətinin təkmilləşdirilməsi tendensiyalarıdır.

Bu tendensiyalar, əsasən, obyektiv xarakter daşıyır, həm də nüfuzlu qrupların, ayrı-ayrı şəxsiyyətlərin iradəsi ilə və hətta ayrı-ayrı ölkələrin hökumətləri tərəfindən dəyişdirilə bilməz.

Bu səbəbdən, bu tendensiyaların təkamülü realdır, ardınca isə dünya inkişafının əsas vektorunu tam gerçək müəyyən edir.

Tendensiyalar bir-birlərindən asılıdırlar və bir-birlərini gücləndirirlər. Məsələn, hər hansı bir böyük dövlətin və ya dövlətlər qrupunun iqtisadi güclənməsi, onların müttəfiqlərini dəstəkləməkdə şəxsi hərbi qüvvələrini qurmaq və hərbi sahədə elmi işlərin görülməsi üçün əlavə resurslar əldə etməsi deməkdir. Fərqli elmi texniki sahələrin inkişafı da, öz növbəsində yeni iqtisadi artım imkanlarına, həmçinin daha müasir silah sistemlerinin yaradılması prespektivinə yol açır. Milli insan kapitalının təkminləşdirilməsi ölkənin iqtisadiyyatının daha effektiv inkişafına və həmçinin elmi-texniki proqresə imkan yaradır. Və tərsinə, iqtisadiyyatın inkişafı əhalinin bilik səviyyəsinin artırılması və kadrların profesional yetişdirilməsi üçün əlavə resursların əldə olunmasına şərait yaradır.

Tədqiqatın ilk mərhələsi ortamüddətli prespektivdə dünya inkişafının əsas tendesiyalarının analiz və proqnozunu tələb edir (2021-2022-ci illərə qədər). İkinci uzunmüddətli prespektivdədir (2045-2050-ci illərə qədər). Təxmin olunur ki, belə tendesiyaların tədqiqatı BM-in mümkün ssenarilərini müəyyən etməkdən əlavə, onların içində daha çox ehtimal olunan 1-2 inkişaf ssenarilərini müəyyən etməyə kömək edəcək.

Belə analiz və proqnozun məntiqi sxemi aşağıdakı şəkil 3.2.-də təqdim olunur.




**Şəkil 3.2**. BM-in dünya tendensiyaları əsasında orta (2021-2022-ci illərədək) və uzunmüddətli (2045-2050-ci illər) perspektivdə mümkün inkişaf ssenarilərinin məntiqi sxemi

Fərqli tendensiyaların təkamülünə misal olaraq bəzi qlobal inkişaf tendensiyalarını qeyd etmək olar:

a) maliyyə-iqtisadi;

b) demoqrafik;

c) siyasi-diplomatik və sosial;

d) hərbi-texniki və texnoloji.

Şəkildən görünür ki, BM-in gələcək ssenarilərinə a və b oxları arasında əmələ gələn vahid sahədə olan təmayüllər daha çox təsir edəcək.

Eləcə də diaqramdan görünür ki, bu təmayüllərin rolu artıq ortamüddətli perspektivdə, uzaq gələcəkdə isə xüsusən həlledici ola bilər.

Belə ki, Qloballaşmanın iqtisadi-maliyyə meyillərinin dominantlaşmasında (hal-hazırda olduğu kimi), BM əsasən onların təsiri (dünya ticarət əhəmiyyətli, maliyyə axınlarının, karbohidrogenlərin nəqli və s.) nəzərə alınmaqla”qurulur”

2015-cu il ərzində orta və uzunmüddətli perspektivdə nisbi azalmanı göstərmək üçün maliyyə-iqtisadi, demoqrafik və siyasi-diplomatik meyllərin təsiri şüurlu şəkildə 100% götürülür.

Bununla da bu təmayüllərın seçimi subyektiv olur, bu zaman həlledici və əhəmiyyətli təsir göstərən bu və ya digər təmayüllərın təsirini sübut etmək praktiki olaraq mümkün olmur.

Məsələn, 80-ci illərdə SSSRİ-nin qarşısında belə məsələnin qoyuluşu az inanılan hal idi. Amma 90-cı illərdə bu dünya siyasətinin daha mühüm təmayülü oldu. Buradan da görünür ki, hal-hazırda daha mühüm təmayüllərın seçimi, xüsusilə də gələcəkdə dünya sisyasətinə təsir edəcək- bu çox mühüm subyektiv mərhələdir.

Burada mümkün olan səhvləri minimallaşdırmaq üçün aşağıdakılara cəhd etmək zəruridir:

-birincisi, bir və ya 2 təmayüllə məhdudlaşmaq deyil, BM beynəlxalq siyasətin sferaları əsasında onların spektrləri genişləndirməyə cəhd edilməlidir;

-ikincisi, seçim mərhələsinə belə tendensiyalar haqqında daha çox faktlar və informasiyaları cəlb edilməlidir;

Növbəti addım hər tendensiyanın BM-in inkişafında təsir dərəcəsinin qiymətləndirilməsi olmalıdır.

Belə qiymətləndirməni məsələn, 100 ballıq şkalada 10-dan başlamaqla (qeyd edilən təsir) 100-dək (həlledici təsir) aparmaq olar.

Nəticədə dünya tendensiyalarının “təsir matris” i alınır.

Bununla da başa düşmək lazımdır ki, təcrübədə baxılan tendensiyaların sayı əhəmiyyətli dərəcədə çox ola bilər, eləcə də bu gün mövcud olmayan və ya təsiri hiss olunmayan yeni təmayüllər meydana çıxa bilər (hətta uzunmüddətli perspektivdə qaçılmaz ola bilər).

**Beynəlxal vəziyyətin inkişafının ayr-ayrı** tendensiyalarının **“təsir matrisi” ilə bağlı nümunələr**

| həlledici təsir | Çox güclü təsir | Güclü təsir | İstiqamətverici təsir | Təinedici təsir | Nəzərə çarpant əsir | Təsir | Zəif təsir | Çox zəif təsir |
|---|---|---|---|---|---|---|---|---|
| 90-100 | 80-90 | 70-80 | 60-70 | 50-60 | 40-50 | 30-40 | 20-30 | 10-20 |

Beləliklə, dünya inkişaf tendensiyalarının qiymətləndirilməsində aşağıdakı addımları atmaq mütləqdir:

-BM-in formalaşmasında əhəmiyyət kəsb edən bu və ya digər tendensiyaları seçmək;

-onun hal-hazırda (2018-ci il ) təsir dərəcəsini müəyyənləşdirmək;

-ortamüddətli prespektivdə (2021-2025-ci illər) onun təsir dərəcəsini proqnozlaşdırmaq;

-uzunmüddətli prespektivdə (2045–2050 -ci illər) onun təsir dərəcəsini proqnozlaşdırmaq;

-bu təmayüllərin digər dünya təmayüllərinə təsiri ilə qarşılıqlı təsirinə baxmaq.

Nəticədə, bu təhlilin əsasında beynəlxalq sistemin əsas inkişaf vektorunu təyin etmək.

### *3.2.1. Beynəlxalq əlaqələrin dövlət subyektlərinin inkişaf dinamikası*

BM-in daha çox mümkün olan inkişaf ssenarisini aşkar etmək üçün bir neçə faktlar qrupu məcmusunu təhlil etmək lazımdır. Beynəlxalq sistemin inkişafının əsas vektorunu təşkil edən dünya inkişafının ümumi meyilləri yalnız bu qruplardan biridir.

İkinci qrupa isə beynəlxalq münasibətlərin dövlət subyektlərinin fəallığı aiddir. Bu qrupa şərti olaraq nəinki dövləti, həm də dövlət ittifaqlarını və lokal insan sivilizasiyasını daxil etmək olar. Çünki dövlət onların əsasını təşkil başlıca elementlərdəndir. Dövlət aktorları MB-in

başlıca nüfuzlu subyektləridir və onların fəaliyyəti BM-in inkişaf ssenarilərinin formalaşmasına həm tempinə görə, həm də kursuna görə mühüm təsir göstərir.

Məsələn, bəzi dövlətlər beynəlxalq münasibətlərin mövcud sistemdə konservasiyasında maraqlıdırlar, digərləri – onların istədikləri yöndə təkamülündə maraql ola bilər. Nəticə kimi, beynəlxalq sistemin ümumi inkişaf vektoru dünya inkişafının obyektiv tendensiyalarının müəyyən edilən əvvəlki trayektoriyasından ciddi dəyişməni və kənaraçıxmanı hiss edə bilər.

Bu halda, nüfuzlu dövlətlərin məqsədyönlü və uzun müddətli qrup fəallığının, beynəlxalq sistemin ümumi inkişaf vektorunun dəyişdiriləcəyi və başqa istiqamətdə inkişaf etməyə başlayacağı tamamilə istisna deyil.

Buna görə də, beynəlxalq əlaqələrdə dövlət və subyektlərin aktivliyin analizi nəinki, BM-in inkişaf ssenarilərini müəyyənləşdirməyə kömək edir, hətta beynəlxalq sistemin ümumi inkişaf vektorunun dözümlülüyünü və ya istiqamətini dəyişməsini təyin edir. Bundan da, stratrji proqnozun bütün adekvatlığı asılıdır.

Təbii ki, BM-in bu və ya digər inkişaf ssenarisini formalaşdırmaq üçün ayrı-ayrı subyektlər müxtəlif təsir göstərir. Belə subyektləri kimi beynəlxalq münasibətlərin ABŞ və Monakonu götürsək, məsələn aydın görərik ki, BM-in inkişaf ssenarilərinin formalaşdırılması üçün bu subyektlərin rolu, əhəmiyyəti və təsiri çox fərqlənir.

Belə subyektlərinin təsirinin qiymətləndirilməsini formalaşdırmaq üçün beynəlxalq münasibətlər sistemində müvafiq matrisi qurmaq olar. Ən ümumi şəkildə bu və ya digər amilin təsirini (subyekt, aktor, qrup aktorlarından və s.) qiymətləndirmək olar. Məsələn, bu mərhələnin təhlili və proqnozu kifayət qədər ənənəvi yanaşmadan istifadəni nəzərdə tutur. Nəticə etibarilə, sonda BM-in ayrı-ayrı subyektlərinin (ilk növbədə əsas) formalaşması və həm mümkün, həm də ən ağlabatan ssenarilərinin inkişafının tədqiqata təsirini dəyişir.

100 ballı şkalada (10 baldan BM-ə olan cüzi təsir-100 baladək BM-in bu və ya digər ssenarisinin formalaşmasına həlledici təsirə qədər) bu matris belə görünə bilərdi:

**Lokal insan sivilizasiyasının təsirinin ümüumi matrisi**

| LİS-in adı | 2015-ci il üzrə təsirin qiymətlən-dirilməsi | 2030-cu il üzrə təsirin qiymətləndiril məsi | 2050-ci il üzrə təsirin qiymətləndiril-məsi |
|---|---|---|---|
| Qərb LİS-i | 70 | 60 | 40 |
| Çin LİS-i | 30 | 50 | 60 |
| Hindistan LİS-i | 25 | 30 | 50 |
| Latınamerika LİS-i | 10 | 20 | 30 |
| İNdoneziya LİS-i | 10 | 20 | 30 |
| Rusiya LİS-i<br>İslam LİS-i | 15 | 20 | 25 |

Anoloji matrisi XXI əsrdə dövlətlərin və onların proqnozlara təsirinin təhlili ilə bağlı da təklif etmək olar.

**XXI əsrdə ayrı-ayrı dövlətlərin ümumi təsir matrisi**

| LİS-in adı | 2015-ci il üzrə təsirin qiymətləndiril-məsi | 2030-cu il üzrə təsirin qiymətləndiril-məsi | 2050-ci il üzrə təsirin qiymətləndiril-məsi |
|---|---|---|---|
| ABŞ | 60 | 50 | 35 |
| Aİ | 30 | 30 | 30 |
| ÇXR | 25 | 45 | 55 |
| Rusiya | 15 | 15 | 20 |

Belə matrisi beynəlxalq təşkilatlar (ittifaqlar, koalisiyalar və digər aktorlar) üçün də qurmaq olar.

| LİS-in adı | 2015-ci il üzrə təsirin qiymətləndiril-məsi | 2030-cu il üzrə təsirin qiymətləndiril-məsi | 2050-ci il üzrə təsirin qiymətləndirilməsi |
|---|---|---|---|
| NATO | 75 | 65 | 60 |
| ŞƏT | 15 | 25 | 30 |

Bu təsirin zamana görə ölçülməsi daha vacibdir. Çünki, qlobal və regional güc nisbətlərində dəyişikliyə apara bilir. Məsələn, 2015-ci ildə ABŞ-da Ümumi Daxili Məhsulun dəyişməsi dünya Ümumi Daxili Məhsulla müqayisədə 18 %, 2025-ci ildə 16 %, 2045-ci ildə 12% təşkil edəcək. Təbii ki, bu dünyada güç nisbətlərini əks etdirə bilmir, bu zaman təkcə sadə ekstrapolyasiyanın düşməsinin ABŞ-a təsiri ola bilməz: bu illər ərzində ABŞ öz qüdrətini təşkil edən digər elementləri– hərbi gücü, koalisiya gücünü və ya milli insan kapitalı və onun təsisatlarının keyfiyyətini gücləndirə bilər.

Beləliklə, təhlil və proqnozların məqsədi, BM-in mümkün və ehtimal edilən inkişaf ssenarilərinin öyrənilməsi vasitəsilə orta və uzunmüddətli perspektivlərdə BM-ə lokal insan sivilizasiyalarının və ayrı-ayrı dövlətlərin təsirinin müəyyənləşdirilməsidir.

Ümumi şəkildə aşağıdakı məntiqi sxemdə göstərilə bilər.

Məsələn:

a) ABŞ-ın BM-ə (iqtisadi, maliyyə, elmi-texniki və s. güc dəyişmə dinamikası) ortamüddətli (2021-2022 illər) və uzunmüddətli (2045–2050 illər) perspektivdə təsir dərəcəsi




**Şəkil 3.3.** Təhlil və proqnozların BM-də ayrı-ayrı subyektlərinin ortamüddətli (2021-2022-ci illər) və uzunmüddətli (2045–2050-ci illər) perspektivdə inkişaf ssenarilərinin formalaşmasına təsirirnin məntiqi sxemi

b) RF-nın BM-ə (iqtisadi, maliyyə, elmi-texniki vəs. gücün dəyişmə dinamikası) ortamüddətli (2021-2022-ci illər) və uzunmüddətli (2045–2050-ci illər) perspektivdə təsir dərəcəsi

c) ÇXR-nın BM-ə (iqtisadi, maliyyə, elmi-texniki vəs. gücün dəyişmə dinamikası) ortamüddətli (2021-2022-ci illər) və uzunmüddətli (2045–2050-ci illər) perspektivdə təsir dərəcəsi

Çəkilən misallardan görünür ki, məsələn, 2021-2022-ci illərdə ABŞ və ÇXR-nın təsir dərəcəsi bərabərləşəcək, 2045-2050-ci illərdə isə ÇXR-nın BM-in formalaşmasına təsiri ABŞ-ın təsirindən xeyli çox olacaq.

2021-2025-ci illərdə Rusiyanın təsirinin güclənməsi və BM-in formalaşmasında mühüm rol oynayacağı gözlənilir.

### *3.2.2. Beynəlxalq əlaqələrin qeyri-hökümət subyektlərinin inkişaf dinamikası*

Strateji proqnozun sıradakı mərhələsi dünya siyasətində əsas qeyri-hökümət (beynəlxalq və ictimai) aktorlarının inkişaf analizidir. Bu proqnoz nəticəsində, onların orta və qısamüddətli prespektivdə BM ssenarilərinin formalaşmasına fərqli təsirini təxmin etmək mümkündür.

Qeydə almaq lazımdır ki, XXI əsrdə beynəlxalq və qeyri-hökümət aktorlarının dünya siyasətinə təsirinin güclənməsi eyni olmayacaq. Ənənəvi aktorlar arasında fərqli beynəxalq institutlar – NATO, Aİ, BVF, DB və bir çox başqa təşkilatlar gözə çarpan rol oynayacaqlar. Eyni zamanda, İŞİD və ya “Sağ sektor” vəya “KiberBerkut” kimi dünya siyasətinin qeyri-höküməti beynəlxalq və milli aktorlarının təsiri qəflətən yüksələcək.

XXI əsrə qədər bu aktorlar önəmsiz, hətta ikinci dərəcəli rol oynayırdılar, lakin XX əsrin sonlarına doğru dünyada BM və HSV-in inkişafına təsir edən faktorlara çevirlməyə başladılar. Bunun ən azı 2 açıqlaması var. Birincisi, milli insan kapitalı və onun institutlarının rolunun artması ideologiyanın və insan psixologiyasının həlledici olduğu bəşəriyyət sivilizasiyasının yeni, sosial-tarixi mərhələsinin başlanğıcı oldu. Digər səbəb isə ictimai və siyasi institutların təkmilləş-

dirilməsində böyük addım olan yeni informasiya və sosial texnologiyaların ortaya çıxmasıdır. Üçüncü mərhələdə analiz və proqnoz üçün qeyri-hökümət aktorlarının BM-in inkişaf ssenarilərinə təsirinin dəyişmə dinamikası tələb olunur. Məsələn:

a) hərbi-siyasi koalisiyaların BM-in formalaşmasına təsiri (məsələn, NATO);

b) ideoloji təşkilatların BM-in formalaşmasına təsiri (məsələn İŞİD);

c) beynəlxalq ictimai təşkilatların BM-in formalaşmasına təsiri (məsələn "Human Rights Watch").

### 3.3. Beynəlxalq vəziyyətin mümkün inkişaf ssenarilərinin yaradılması

BM-in mümkün inkişaf ssenariləri 3 faktora əsasən yaranır:

-beynəlxalq sistemin inkişafnın əsas vektoru;

-beynəlxalq əlaqələrə daha çox təsir edən subyektlərin maraqları;

-onlar arasında güc bölgüsü.

Bu faktorların tərtibatı beynəlxalq əlaqələrin subyektlərinin güc bölgüsünü və maraqlarını nəzərə alaraq, konkret situasiyalarda verdikləri qərarlar nəticəsində bu və ya digər mümkün fəaliyyətlərini proqnozlaşdırmağa imkan yaradır. Qeyd etmək lazımdır ki, söhbət sadəcə xəyal edilə bilən istənilən təbiətli qərarlardan yox, məhz ağlabatan qərarlardan gedir.

Məsələn, 2014-cü ildə Rusiyanın Krımı özünə birləşdirməsi zamanı NATO-nun Baş katibi Anders Foq Rasmussen Alyansın rəsmi internet səhifəsində dərc edilən məqaləsində bəyan edirdi ki, "Rusiya Krımı silah gücü ilə, beynəlxalq öhdəliklərini pozmaqla özünə birləşdirib". Bəzi ekspertlər belə fikir yürüdürdülər ki, NATO Rusiyaya qarşı hərbi aksiya tətbiq edə bilər. Amma Şərqi Avropada hərbi güçlərin o dövrki obyektiv təhlili göstərdi ki, NATO-nun bu regionda genişmiqyaslı əməliyyatlara başlamasına hələki imkanları məhduddur. Digər tərəfdən NATO-nun tətbiqə hazır hərbi potensialı Rusiyadan

geri qalır. Odur ki, geniş miqyaslı müharibədə NATO itkisiz ötüşməyəcək və qələbənin əldə edilməsi də zəmanətli deyildi.

Bundan başqa belə bir müharibə çox böyük ehtimalla əvvəlcə Avropa hərbi əməliyyatlar səhnəsindən məhdud nüvə müharibəsinə, sonra isə Rusiya və ABŞ arasında strateji nüvə müharibəsinə çevrilərdi. Bu cür vəziyyət isə Qərb güclərinin maraqlarına heç bir vəchlə cavab vermir. Onlar Ukraynaya görə heç risk etməyə hazırlaşmırdılar. Bu şəraitdə Qərbin mövqeyindən Rusiyaya hərbi hücum ağılsızlıq olardı.

Mövcud güc nisbəti ilə əlaqəli olan qatı məhdudiyyətlər şəraitində milli maraqlarını idarəedən beynəlxalq aktorların davranışlarında ağlabatan variantlar çox saylı ola bilməz. Əgər Ukraynadakı krizislə bağlı bu nümunəyə baxmağı davam etsək, onda Rusiyanın 3 sərfəli variantı olduğunu görərik:

-Viktor Yanukoviçi dəstəkləmək və onun Ukraynaya hakimiyyətini bərpa etmək üçün qoşun yeritmək;

-Donbasda “etiraz edənlərə” hərbi kömək göstərmək və Ukraynadan bir söra şərq cənub vilayətin qoparılmasına nail olmaq (“Yeni Rusiya” layihəsi);

-Ən minimal variantla mədudlaşmaq.

Qərbin bu vəziyyətdə 2 mümkün təsir variantı vardı. Birincisi, Rusiya ilə Şərqi Avropada məsuliyyət zonalarının bölünməsi də daxil olmaqla davranışın yeni modelini yaratmaqla bağlı Rusiya ilə danışıqlara başlamaq, ikincisi, Ukraynaya dəstək məqsədi ilə Moskvaya siyasi, iqtisadi və informasiya təzyiqi göstərmək.

Elə təcrübədə ikinci variant gerçəkləşdi.

Məsələnin hər iki tərəfləri qane edən həllinin tapılmaması və prosesin davam etdiyini nəzərə alsaq, təbii ki, Qərbin öz mövqeyində dəyişiklik etməyə cəhd göstərməlidir və artıq keçən 4 il müddətində bu baş verməkdədir. Belə ki, Reuters agentliyinin 2017-ci il aprelin əvvəllərinə olan məlumatına görə NATO şərq cinahında təhlükəsizliyi güclndirmək məqsədilə Polşanın şimal-şərqindəki “Ojiş” bazasında ABŞ, Böyük Britaniya və Rumınyadan olan 1300 əsgər yerləşdirib. Hərbçilərlə yanaşı bazaya piyadaların döyüş maşını, “Şakal” və “Ko-

yot” tipli kəşviyyat maşınları və digər hərbi maşınlar da daxil olmaqla 286 hərbi texnika atılıb. NATO ümumilikdə Polşa və Baltik ölkələrində 4000 hərbçi planlaşdırır. Komandanlıq bildirir ki, bu tədbir, Rusiyanın Krımı özünə birləşdirməsi və Ukraynanın şərqində-Donbasdakı hərbi əməliyyatlarla bağlıdır. NATO rəhbərliyi müttəfiqlərini sakitləşdirmək üçün 3 Baltik ölkəsi və Polşaya batalyon göndərmək qərarına gəlib.

Məlumatda Rusiyanın mövqeyi ilə bağlı qeyd edilir ki, Rusiya NATO-nun Şərqə doğru genişlənməsini birbaşa özünə təhlükə sayır. Rusiyanın “Russia Today” telekanalı bildirir ki, tarix boyunca ilk dəfədir ki, Amerika Birləşmiş Ştatlarına məxsus “Abrams” tankları Moskvadan 700 kilometr məsafədə yerləşdirilib: “Baltikyanı ölkələrdə yerləşdirilmiş ABŞ tankları hal-hazırda tarix boyunca heç vaxt olmadıqları qədər Moskvaya yaxındır”. Moskva isə, cavab tədbiri olaraq, Krım və Kalininqrad vilayətində hava hücumlarından müdafiə sistemləri və hərbi qüvvələr yerləşdirir. Amma belə görünür ki, Rusiya bu gedişlə Xəzərdə və Qafqaza da hərbi qüvvələrinin sayını artıracaq. Çünki Rusiyada müəyyən qüvvələr hesab edir ki, NATO Gürcüstanla təmaslarını intensivləşdirir, eyni zamanda Xəzərə də böyük maraq göstərir. Belə bir vaxtda isə Rusiya Xəzərdə növbəti irimiqyaslı hərbi təlimlərə başlayıb. Təlimlərdə 20-dən çox hərbi gəminin və təchizat gəmilərinin iştirak etdiyi bildirilir. Bunların arasında Rusiyanın Xəzər donanmasının flaqmanı olan “Dağıstan” və “Tatarıstan” raket gəmiləri, “Qrad Sviyajsk” və “Uqliç” kiçik raket gəmiləri, habelə artilleriya və desant gəmiləri yer alır. Təlimlərin keçirildiyi günlərdə Xəzər dənizində 1500 dəniz mili sahəsində poliqon mülki gəmilərə bağlı olacaq.

“Nezavisimaya qazeta” mətbu orqanı Xəzər donanmasının bu təlimlərini Rusiyanın mübahisəli dənizdə növbəti əzələ nümayişi kimi qiymətləndirir. Qəzet qeyd edir ki, zəngin neft-qaz ehtiyatlarına malik Xəzər dənizinə regiondan kənar ölkələrin hərbi qüvvələrinin daxil olması yolverilməzdir. Bu, sahilyanı ölkələrin sammitində qəbul edilmiş qərardır: “Lakin bu məsələdə “hələlik” sözünü əlavə etmək lazımdır. Çünki Xəzərdə Qərbin iri neft-qaz korporasiyaları işləyir. Üstəlik, Azərbaycanın NATO üzvü olan Türkiyə ilə sıx əlaqələri var, Moskva

ilə Bakının münasibətləri isə vaxtaşırı olaraq soyuq vektora daxil olur. Türkmənistan və Qazaxıstan da NATO ilə dolayısı ilə əməkdaşlıq edir. Ona görə də Xəzərdə NATO qüvvələrinin meydana çıxması təhlükəsi hər halda mövcuddur". Amma Rusiyadakı bu narahatlığa baxmayaraq, Azərbaycan birmənalı şəkildə bəyan edir ki, Xəzərə hansısa kənar qüvvələrrn gəlişində maraqlı deyil. Hətta rusiyalı ekspert İqor Seleznyov diqqəti bu fonda ona yönəldir ki, Azərbaycan və Rusiya arasında Xəzər dənizi üzrə əməkdaşlıq regional sabitlik və təhlükəsizliyin qorunması baxımından mühüm amildir: "Rusiya müdafiə naziri Sergey Şoyqunun dediyi kimi, Azərbaycan bu gün Xəzər dənizində təhlükəsizlik dayağıdır". Onun sözlərinə görə, ölkələr problemləri həll etmək üçün Xəzər dənizində daha səmərəli əməkdaşlıq etməli və qarşılıqlı münasibət qurmalıdır: "Bu gün ən böyük problem isə Xəzər dənizinin hüquqi statusu məsələsinin həll olunmamasıdır. Digər mühüm məsələ şelflərin bölgüsüdür". O, həmçinin, Xəzər dənizində Rusiya və Azərbaycan arasında təhlükəsizlik sahəsində daha fəal əməkdaşlığın olmasının zəruriliyini qeyd edib: "Azərbaycanın özünü beynəlxalq terrorizmdən qoruması və sabitliyi təmin etməsi sevindirici haldır". Beləliklə, Rusiya tərəfi Azərbaycandan arxayın ola bilər. Amma o da faktdır ki, Qərb ölkələri Türkmənistan və Qazaxıstan, eləcə də Azərbaycanla Xəzərdə hərbi müstəvidə əməkdaşlıqda maraqlıdır. Belə vəziyyətdə Rusiya Xəzər donanmasını durmadan gücləndirir, dənizdə güc nümayişinə əl atır. Rusiyanın Xəzərdən Suriyadakı hədəflərə "Kalibr" qanadlı raketləri ilə zərbələr endirməsi, vaxtaşırı hərbi təlimləri bunun təsdiqi sayılır.

Qeyd edək ki, Rusiya ilə Qərb arasında silahlanma üzrə qarşıdurmanın davam etdiyi bir vaxtda Rusiya yeni "İskəndər-M" nüvə başlıqlı raketləri ilə Qərbə meydan oxuyur. 2018 ci ilin mart ayında "İskəndər-M"lər artıq Kalininqrad əyalətinə yerləşdirilib. Bu bölgədən Rusiya ABŞ-ın Avropada yerləşdirdiyi istənilən hava hücumlarından qorunma mərkəzlərini vura biləcək.

Göründüyü kimi, beynəlxalq aktorların davranışlarında böhranlı vəziyyətlərdən çıxış yolunu göstərən və sülhə xidmət edən variantlar elə də çox deyil. Əlbəttə, dünya nizamının formalaşmasında nə qədər

çox benyəlxalq əlaqələrin subyektləri iştirak edirsə, hadisələrin gedişatı da bir o qədər çox variantlı olur. Lakin, əsas oyunçuların maraqları və istəkləri kifayət qədəf müəyyən olduğu üçün beynəlxalq əlaqələrin kiçik subyektlərinin aktivliyi əvvəl axır əsas oyunçuların ümumi xəttində birləşir. Nəticədə, ssenarilərin sayı artsa belə, bunun əhəmiyyəti yoxdur.

BM-in inkişaf ssenarilərinin üzərində işin praktiki əhəmiyyəti böyükdür. Uzunmüddətli proqnoz cəhətdən, belə iş proqnozlaşdırılan dövrdə beynəlxalq şəraitin inkişaf edə biləcəyi müəyyən çərçivələr yaratmağa imkan yaradır.

Bununla belə, tədqiqat sferasını daraltmağa imkan yaradır. Bu da öz növbəsində, BM-in mümkün inkişaf ssenarilərini müəyyənləşdirməyi asanlaşdırır. BM-in kifayət qədər real olan mümkün inkişaf ssenarilərini müəyyənləşdirmək dinamik proqnozlaşdırma metodlarının tətbiqi üçün yararlıdır.

### *3.3.1. Beynəlxalq münasibətlərin mümkün inkişaf ssenarilərinin qurulmasında “hesabat nöqtələri” anlayışı*

BM-in mümkün inkişaf ssenarilərinin proqnozlaşdırılması beynəlxalq vəziyyətin klassik analizindən, yəni hal-hazırda dünya arenasında mövcud olan güc bölgüsünün xarakteristikasından, eyni zamanda əsas aktorların mövcud beynəlxalq konfiqurasiyada maraqlarının analizindən başlayır. Bu analizi strateji proqnozun “hesabat nöqtəsi” də adlandırmaq olar. Həmin mərhələ proqnozun qurulmasında çox vacib rol oynayır. O raket qurğularına dəqiq kordinatların daxil edilməsi qədər vacibdir. Çünki, əgər siz əvvəldən dəqiq olmayan kordinatlar versəniz, dəqiq istiqaməti və uzaqlığı hesablamaq imkansız olacaq.

Mahiyyət etibarı ilə ortamüddətli proqnoz gələcəkdə mövcud olacaq situasiyalar üçün ekstrapolasiya hesab olunur. Hər şeydən əvvəl, minlərlə subyektlərdən, proseslərdən və aktorlardan ibarət beynəlxalq əlaqələr sistemi gələcəkdə onun vəziyyətini tələb edən müəyyən istiqamətə sahibdir.

Bu təkcə həmişə mövcud olan dəyərlər (ərazi, coğrafi yerləşmə, təbii sərvətlərə sahib olmaq, iqlim şəraiti və s. kimi) və dözümlü demoqrafik, iqtisadi, sosial-mədəni və başqa təmayüllərin mövcudluğuna görə deyil, həm də bütün yeni faktorlar və təmayüllərin bir qayda olaraq, tarixi köklərə sahib olmasına əsaslanır.

Lakin bu cür sadə ekstrapolyasiyada belə, mövcud situasiyanın və onun inkişaf prespektivlərinin qiymətləndirilməsi zəruridir. Çoxsaylı xarici faktorların – siyasi, iqtisadi, ideoloji,  eyni zamanda maraqların işə qarışması bəzən analizi subyektiv qiymətləndirilməsinə səbəb olur.

Yəni, strateji proqnozların dəqiqliyi müasir vəziyyətin dəqiq təyin edilməsindən asılı olur.

Buna 2100-ci ilədək ölkələrin energetikasının inkişafı proqnozundan nəticə çıxarmaqla uzunmüddətli proqnoz və planlaşmada aydınlıq gətirmək olar:

-1980-ci ildən bu günədək mövcud olan əsas təmayüllər və inkişaf onarın tarixi;

-“hesabat nöqtəsi”(2020-ci il verilənlər kimi);

-2100-cü ilədək elektroenergetikanın və atom stansiyalarının inkişaf proqnozu.

Bu nümunə uzunmüddətli proqnozlarda və strateji planlaşdırmada -“hesabat nöqtəsi”nin mahiyyətini açıqlamaqda çox xarakterikdir.

Təbii ki, bu uzunmüddətli proqnoz (hazıranmasının bütün çətinlikləri ilə) çoxlu sayda dəyişənlərin, subyektiv ölçü və təmayüllərin nəzərə alındığı BM-in inkişafının strateji proqnozundan daha sadədir.

Eyni zamanda hətta belə proqnoz mümkün və və ehtimal edilən müxtəlif istiqamətli təmayülləri, onların müvəqqəti aralıq mövcudluğunu nümayiş etdirir. Siyasətdə bu az əhəmiyyət kəsb etmir, ona görə ki, müasir BM-in adekvat qiyməti gələcəkdə siyasətin xarakterindən və proqnozun dəqiqliyindən asılıdır, həmçinin strateji planlaşdırmanın effektliyi qaçılmazdır.

Müasir BM-də təhlilin dəqiqlikdən asılılığnda, hakim elita kimi, dövlətin özü də siyasi pozisiyalaşmışdır.

Yaxin kecmişdə müxtəlif qiymətləndirmələrə görə BM hakim elitanın müxtəlif təbəqələrinə görə eyni məzmun daşıyır. Belə ki əgər 90-cı illərdə radikal liberallar NATO-nun Şərqə doğru genişlənməsini Rusiya üçün yaxşı olduğunu düşünürdülərsə, dövlət adamlarının və ya kommunistlərin fikirləri daha fərqli idi. Buna görə də Rusiyanın davranışları və strateji proqnozları fərqlənirdi.

Belə ki, müasir reallıqları obyektiv qiymətləndirmədən strateji proqnozlar vermək mümkün deyil. Dəqiq istinad nöqtəsinin (Rusiyanın dünyada mövqeyi) müəyyənləşməsi mühüm əhəmiyyət daşıyır. Hətta hesablamalara görə bu günlərdə fəlakətdən optimistliyə qədər mövud olan qiymətlənidrmələr – yalnız milli mobilləşdirmədən və identiklikdən deyil, həm də beynəlxalq münasibətlərin digər iştirakçılarından və aktorlarından asılıdır.

Dünyada Rusiyanın gələcək mövqeyini fəlakətli kimi qiymətləndirən hakim elita nümayəndələri qərb LİS kapitulyasiya ilə sərhədlənməyə qədər güzəştə getməyə və suverenliyin məhdudlaşdırılmasına (Kudrin), bəziləri isə milli səfərbərliyə səsləyir (Proxanov). Bu gün Rusiyada hesabat nöqtəsini müəyyən etmək xüsusi əhəmiyyət daşıyır, çünki Rusiya hakim elitasının iki əks qiymətləndirməsi var. Birincisi qərb LİS-ləri ilə Rusiyanın münasibətlərinin taktiki soyuması. Bu, kompromislə yekunlaşa bilər və yekunlaşmalıdır (hətta Qərb şərtləri ilə belə). İkincisi isə Qərbin Rusiyaya qarşı faktiki müharibəsi və kompromisin mümkünsüzlüyü.

Müharibə əlbəttə ki, XXI əsrdə sistemli, uzun müddətli və qlobal olaraq davam edirsə, deməli kompromis olmadan həyata keçirilir. Qeyd edildiyi kimi, artiq bu müharibə sistemi "şəbəkə mərkəzli müharibə" adlanır. Aydındir ki, bu ikili rəqib standartlar BM-in istənilən ssenarisinin inkişaf proqnozu üçün vacibdir. Onları koordinatlarla aşağıdakı şəkildə göstərmək mümkündür (şəkil 3.4.).

Şəkildən göründüyü kimi Rusiyanın yeri BM-in müasir inkişaf ssenarisinə görə əsaslı surətdə fərqlənir : A ssenarisində 2014-2015-ci ildə faktiki olaraq hərbi konfliktələrin başlanması və 2021-2022-ci illərdə geniş miqyaslı müharibəyə keçidi əks etdirən proqnozlar əks olunub.




**Şəkil 3.4.**

Artıq qeyd edildiyi kimi BM-n-nun strateji 3 proqnoz varianti var – A pessimist, B- realist, C- optimist. A və B ssenariləri arasında prinsipial fərqlər var. B planına əsasən yalniz vəziyyət optimist qiymətləndirilmir, təklif olunan keyfiyyətə əsasən Rusiyanin qərblə pisləşən münasibətləri düşmənciliyə gedib cıxmayacaq. Şəkilə əsasən hesabat nöqtəsi BM-in Rusiyanın 2015-ci il gələcək inkişaf ssena-

risinə görə o hamısından əvvəl Rusiyanın resurslarının mobilləşdirilməsinə bağlanır. Digər yanaşmaya görə hesabat nöqtəsi A ssenarisinə uygun hesablanır.

Bundan belə nəticəyə gəlmək olar ki, 2015-ci ilin yazında Rusiya əleyhinə Ukraynada baş qaldıran şəbəkə mərkəzli müharibə bütün hazirlıq mərhələsindən adlayaraq qanuni müharibə fazasına kecdi. İkinci dunya müharibəsi ilə müqayisədə bu 1939-cu ilin payızında Polsanın dagıdılması ilə baslayan, amma kutləvi hərəkata kecə bilməyən qəribə müharibənin analoqu idi. Buna görə A ssenarisinə əsasən Rusiya əleyhinə mərkəz səbəkəli müharibənin mümkun növbəti inkisaf mərhələlərinə prinsipcə yanaşmaq vacibdir. Bu ssenari əsasında proqnozlasdırılır ki, 2021-2022-ci ilə qədər və sonra Rusyia əleyhinə qərbi lokal insan sivilizasiyası tərəfindən bütün bu əhəmiyyətli mərhələlərdən keçmiş mərkəzşəbəkəli müharibə olacaq. Onun iş alqoritmi faktiki olaraq sonuncu onilliklərdə mövcuddur və yalniz nəzəriyyəyə əsaslanmır. Hər şeydən əvvəl bu gizli sənədlərdə deyil, cəmiyyətə açıq olan normativlərdə və digər aktlarda özünü göstərir.

### *3.3.2. BM-in mümkün inkişaf ssenarilərinin modelləşdirmə prinsipləri*

BM-in mümkün inkişaf ssenariləri, qeyd olunduğu kimi yalnız beynəlxalq sistemin əsas inkişaf vektoru üzrə formalaşa bilər. Bununla belə, bu və ya başqa ssenariyə keçid beynəlxalq sistemdəki əsas aktorlarının fəaliyyətindən asılıdır. Bu fəaliyyətlər isə, öz növbəsində əsas aktorların dünyada baş verən hadisələrə münasibətinə əsasən müəyyənləşir. Buna görə də, ssenari proqnozlaşdırılmasının ən vacib tapşırığı əsas aktorların beynəlxalq sistemin əsas inkişaf vektoruyla bağlı maraqlarının müəyyənləşdirilməsidir. Yəni, söhbət, tərəflərin bütün xarici siyasi maraqlarından deyil, beynəlxalq sistemin təkamülüylə bağlı maraqların kifayət qədər dar seqmentindən gedir. Bu uyğun informasiyanın yığılması və işlənməsini çox asanlaşdırır.

Şərti olaraq belə analiz ölkələri 3 qrupa ayırmağa imkan yaradır: baş verən dəyişikliklərdə maraqlı olan dövlətlər; keçmiş beynəlxalq əlaqələri qoruyub saxlamaqda maraqlı olan dövlətlər; hər iki gedişata

razı olan dövlətlər. Dəyişiklik tərəfdarı olanlar və ona qarşı olanları 2 alt qrupa da bölmək olar: dəyişikliyi çox istəyən və dəyişikliyə çox qarşı çıxanlar və məqsədə çatmaq üçün qurbanlar verməyə hazır olanlar; dəyişikliyi arzu edənlər və etməyənlər və bunun üçün qurbanlar verməyə hazır olmayanlar. Bununla belə nəzərdə saxlamaq lazımdır ki, hər bir beynəlxalq aktor öz milli maraqları çərçivəsində rasional fəaliyyət göstərəcəkdir.

Bu analiz əsasında status-kvo və dəyişiklik tərəfdarları olan dövlətlərin davranışı haqqında təxmin yürütmək mümkündür. Birincilər fərqli üsullarla ikincilərin imkanlarını məhdudlaşdırmağa çalışacaq, ikinciləf isə fərqli üsullarla beynəlxalq sistemi öz xeyirlərinə çevirməyə çalışacaq. Bu döyüşdə istifadə olunan üsullar informasiya və iqtisadidən tutmuş güc tətbiqinə qədər fərqlənə bilər. Bu cür qarşıdurmanın ən yüksək səviyyəsi hərbi toqquşmalardır. Burda isə yaranan beynəlxalq vəziyyətdən xeyir əldə etməyə çalışan, qəti qərar verməyən ölkələrin davranışları çətinlik yaradacaq.

Qeydə almaq lazımdır ki, status-kvo tərəfdarları və rəqibləri arasındakı gələcək qarşıdurmalar obyektiv güc bölgüsü və dünya inkişafı təmayülləri sayəsində müəyyən olunan məhdudiyyətlər çərçivəsində həyata keçiriləcək. Məsələn, status-kvo tərəfdarları öz iqtisadi liderliklərini tükədiblərsə və enməyə davam edirlərsə, bu zaman onlar tərəfindən rəqibə tətbiq olunan iqtisadi metodlar, rəqibdən əvvəl onlara zərər verəcək. Buna görə də, onlar bu tip metodları eyni zamanda bütün rəqiblərə deyil, məhdud səviyyədə tətbiq edə bilirlər. Paralel olaraq, əgər tam miqyaslı nüvə müharibəsi baş versə, mövcud şəraitdə bu hər iki tərəfin yox olmasına gətirib çıxaracaq. Ona görə də belə müharibə genişlənən qarşıdurmada uduş aləti ola bilməz, ancaq bu qarşıdurmanın nəzarətsiz eskalasiyasının, ya da tərəflərin birinin avantürist fəaliyyətinin nəticəsi kimi baş verə bilər.

BM-in mümkün inkişaf ssenarilərinin yaradılmasına mi-sal olaraq, İkinci Dünya müharibəsi ərəfəsində dünyada formalaşan vəziyyəti nəzərdən keçirmək olar. O zaman aparıcı dünya dövlətlərinin arasında bir qrup ölkələr Versal sisteminin yenidən nəzərdən keçirilməsi uğrunda çıxış etdilər, bir qrup ölkələr isə status-kvonun saxlan-

masında maraqlı oldular. Özü də, status-kvonun dəyişdirilməsi üçün təkcə Almaniya deyil, I Dünya müharibəsinin bəzi qaliblərindən İtaliya, Yaponiya da çalışırdı. Bundan başqa Avropa xəritəsində meydana çıxan yeni dövlətlər də bu vəziyyətdən məmnun deyildilər. Polşa milli qisas almağı, əvvələr Reç Pospolitaya daxil olan ərazisini yenidən birləşdirməyi, Macarıstan etnik sərhədlərinin bərpasını, Türkiyə Osmanlı imperiyasının sahibliyini arzulayırdı. SSSR isə artıq 30-cu illərdə formal olaraq status-kvo istəyirdi. Londan və Parisin cəhdləri SSRİ-nin parçalamaqla və onun ərazilərini Almaniya, Türkiyə və Yaponiyaya verməklə düşmənin status-kvo istəyini razı salmaq idi. Bu sovet diplomatiyasını imperiya güclərini öz aralarında qarşıdurma xəttinə yönəltməyə məcbur edirdi. Amma London və Parisdə belə xətt SSRİ-nin İngiltərə və Fransanı Almaniya ilə müharibəyə sürüklməsi və özünün kənarda qalması cəhdi kimi qiymətləndirilirdi. SSSİ və ingilis-fransız bloku arasında manevr edən Almaniya status-kvonun saxlanmasına ən fəal əks tərəf idi və beynəlxalq koalisiyanın yenidən bölüşdürməsi imkanı əldə etmişdi.

Həmin dispozisiyada beynəlxalq vəziyyətin nəzəri cəhətdən bir neçə inkişaf ssenariləri mümkün idi.

Birincisi, SSSR-nin təklif etdiyi kimi, status-kvonun saxlanma ittifaqı, hər şeydən əvvəl SSSR, İngiltərə və Fransa Almaniyaya qarşı.

İkincisi, SSSRİ-nin status-kvonun dəyişməsini dəstəkləyən ölkələrlə birləşməsi, yəni İngiltərə və Fransaya qarşı Almaniya, İtaliya, və Yaponiya ilə ittifaq.

Bu qabaqcadan SSRİ-nin nəinki İngiltərə və Fransa ilə, gələcəkdə ABŞ-la da müharibədə iştirakını ehtimal edirdi.

Üçüncü variant SSRİ-nin tərəfsiz mövqedə qalması idi ki, faktiki olaraq bu da reallaşmışdı.

Çeberlenin hakimiyyətə gəlişindən sonra Britaniya diplomatiyasının reallaşdırmaq istədiyi dördüncü variant da ola bilərdi. Bu plan Hitlerin Avropada izolə edilməsinə imkan yaranması üçün İtalyanı Almaniyadan uzaqlaşdırmaq cəhdinə əsaslanırdı.

Amma Çemberlen bu siyasətdə gecikdi, belə ki, xarici işlər naziri İden 1938-ci il fevralında istefaya getməmişdən əvvəl faktiki ola-

raq İtaliya və Almaniya arsında ikili siyaət yürütdü – bu ölkələri bir-birinin qucağına itələdi. Əgər bu iki il əvvəl olsa idi, ondan qaçmaq olardı.

Bütün bunlar çox sadə fikri təsdiq edir ki, obyektiv dünya proseslərini aldatmaq olmur. Həmin anda dünyada yaranmış güc nisbətində Almaniyanın dünya hegemoniyasına şansı yox idi. Ona görə də onun status-kvonun dəyişilməsi istiqamətində hərəkəti yalnız çox məhdud həcmdə oldu.

Almaniya status-kvonu dəyişə bilərdi və o bunu etdi, amma dünya sistemini yenidən öz istədiyi kimi dəyişməyə gücü çatmadı.

Ona görə də Hitlerin beynəlxalq arenadakı fəaliyyəti dəqiq hesablamalrın nəticəsi yox, avantüra və blef idi. İlk addımda blef baş tutsada, sonra gerçəklik ələ alındı.

Buradan belə nəticə alınır ki, beynəlxalq vəziyyətin istənilən inkişaf ssenariləri dünyanın əsas inkişaf vektorunu dəyişə bilməz, amma, müxtəlif ölkələrə yeni keyfiyyətli beynəlxalq münasibətlər keçidi mahiyyət etibarı ilə fərqli başa gələ bilər.

Ona görə də xarici siyasətin planlaşdırılmasında həmişə ən az itkilər daşıyan ssenarilərin gerçəkləşməsinə çalışılır. Bununla belə, strateji proqnoz qurulduqda realistik mümkün olan bütün ssenariləri qiymətləndirmək lazımdır, çünki subyektiv amillər istənilən bu ssenari üzrə hadisələrə təkan verə bilər.

### *3.3.3. BM-in mümkün və gözlənilən inkişaf ssenarilərinin qarşılıqlı əlaqəsi*

Mümkün və gözlənilən ssenarilər qırılmaz dialektik qarşılıqlı əlaqədədirlər. Gözlənilən ssenarilər həmişə mümkün ssenarilərdən yaranır, mümkün ssenarilər isə gözlənilən ssenariyə çevrilə bilər. Doğurdan da, BM-in inkişafının müəyyən bir mərhələsində bu və ya digər gözlənilən ssenarinin aktuallığı əvvəlcədən təxmin olunması imkansız olan təsadüfi və ya subyektiv faktorların fəaliyyəti ilə əlaqədar olaraq azala bilər.

Bu halda, gözlənilən ssenari mümkün ssenariyə çevrilir və o anda daha az ehtimalla baxılan mümkün ssenarilərin biri gözlənilən ssenariyə çevrilir.

Eyni zamanda, mümkün ssenarilər təməlində real siyasətin və hərbi planların qurulması tam gerçəkləşən hesab olunmur. Bunun səbəbi fərqli mümkün ssenarilərin hazırlanması üçün böyük ehtiyat xərclərini tələb etməsindən başqa, ilk növbədə, bəzi mümkün ssenarilərin rəhbərlikdən tam əksinə fəaliyyət tələb etməsidir.

Buna görə də, strateji proqnozlaşdırma xarici siyasəti, təhlükəsizliyi və müdafiəni, dövlətin milli strateqiyasının qurulmasını həyata keçirmək üçün BM-in daha çox gözlənilən inkişaf ssenarilərini tələb edir. Belə ki, məsələn, Qərb ilə əməkdaşlığın genişlənməsinin mümkün olan ssenarisi Rusiya üçün qeyri-hərbi iqtisadi sektorların inkişafına, Qərb ölkələrində işləmək üçün mütəxəssis hazırlığının artırılmasına və Rusiya ərazisində Qərblə biznes qarşılıqlı əlaqələrin genişləndirilməsinə, birgə əməkdaşlıq təşkilatarının inkişafına xüsusi əhəmiyyət vermək deməkdir. Bununla da hərbi məsrəflərin aşağı salınması, hərb hasilatının azalması, hərbi sahələrdən mülkü sahələrə elmi-texniki inkişafın keçirilməsi gedəcəkdir. Büdcəyə isə Qərb ölkələrin iştirakı ilə müxtəlif layihələrin gercəkləşməsi üçün proqramlar qoyulacaqdır. Qərb ilə konfrontasiyanın artırılmasını nəzərdə tutan mümkün ssenarinin reallaşdırılması halında ölkənin rəhbərliyindən tam əksinə fəaliyyət tələb olunacaqdır və bütün bunları birləşdirmək isə sadəcə real olmur.

Beləliklə, BV-nin strateji proqnozlaşdırılması ən ehtimal olan inkişaf ssenarisinin hökmən üzə çıxarılmasını tələb edir. Onun əsasında xarici siyasət, təhlükəsizlik və müdafiə sahələrində planlaşdırma və ümumiyyətlə, dövlətin bütün milli strategiyası qurula bilər. Bununla belə bu ssenarini üç variant üzərində qurmaq yaxşı olardı: "optimistik", "realistik" və "pessimisitik". Bu variantların hərəsində subyektiv amillərin və təsadüfi baş verən hadisələrin rolunun əhəmiyyəti daha çox əks olunacaq. Sonunculara təbiət kataklizmləri kimi hadisələri aid etmək olar – zəlzələlər, sunami, qasırqalar, quraqlıqlar və s., habelə irimiqyaslı texnogen fəlakətlər, misal olaraq, Fukusima

nüvə elektrostansiyadakı qəza, yaxud Meksika körfəzində "Britiş Petrolium" platformasındakı neftin dağılması.

Bu amillər qrupuna məqsədyönlü siyasətin deyil, ayrıca fərdin və ya heç kəslə bağlılığı olmayan xırda terror qrupların fəaliyəti nəticəsi olan əhəmiyyətli terrort aktlarını da aid etmək olar. Məsələn: İsveçrənin baş naziri Ulof Palmenin qətli, ABŞ prezidenti Ronald Reyqana sui-qəsdi və Norvecdə Anders Breyvikin terror aktı.

**BV bu ya digər inkişaf ssenarisinin reallaşdırma ehtimalının qiymətləndirilməsi**

| Nəzəri mümkün olan ssenarilər | Mümkün olan ssenarilər | Ehtimal olan ssenarilər | Daha çox ehtimallı ssenarilər | Qaçılmaz ssenarilər |
|---|---|---|---|---|
| 1-10 | 10-20 | 20-60 | 60-90 | 90-100 |

Strateji proqnozda müxtəlif ssenarilərin gerçəkləşmə ehtimalının bir neçə dərəcəsini seçmək olar. Belə ki, bu ya digər ssenarinin və ya onun variantının inkişaf ehtimalını 1-dən 10 baladək – "nəzəri cəhətdəm mümkün ssenari" və 80-90-100 baladək – BV inkişafının "labüd ssenarisi" şkalası üzrə qiymətləndirmək olar.

Təbii ki, bizi, ilk növbədə, ehtimal olunan və olduqca çox ehtimal olunan BV inkişaf ssenarilər maraqlıdır. Bunlara əməli hazırlaşmaq lazımdır, amma nəzərdə saxlamaq lazımdır ki, "mümkün" ssenarilər kateqoriyaları ona görə əhəmiyyət kəsb edir ki, onlar kifayət qədər tez "ehtimal olan" və hətta "çox ehtimal olan" kateqoriyalara çevrilə bilər.

Ayrica ən ehtimal olan ssenarilərin (məsələn 10 000 – 15 000 amil üzrə) tamqiymətli və miqyaslı təhlil edilməsi üçün, eyni zamanda BV inkişafının mümkün ssenariləri (məsələn, 100 amil üzrə təhlil edilən) inkar etməmək (bu onların vəziyyətini monitorinq etməsinə imkan verər və onların inkişaf dinamikasını nəzərdə saxlamağa imkan verər) strateji proqnozda BV inkişafının mümkün və ehtimal olan ssenariləri dəqiq ayırmaq lazımdır.




**Şəkil 3.5.** 2021-2024-cü illərədək Beynəlxalq Vəziyyətin (BV) və Hərbi-Siyasi Vəziyyətin (HSV) inkişafının və lokal sivilizasiyaların mübarizəsi ssenaridən çıxaraq strateji vəziyyətinin mümkün və ehtimal edilən ssenarilərin inkişafının məntiqi sxemi.




**Şəkil 3.6.**
2021-ci ildən sonra BV inkişafının mümkün və ehtimal olan ssenarilər

2012-2022-ci illərdən sonrakı perspektivdə BV inkişafının mümkün və ehtimal olan ssenarilərin təhlilinə və proqnozlaşdırılmasına olan belə yanaşmasının məntiqi sxemi aşağıdakı tərzdə görünə bilər.

Beləliklə, beynəlxalq vəziyyətin mümkün və zəruri olan ən ehtimallı inkişaf ssenarisinin biri və ondan əlavə uzaqmüddətli perspektivə strateji proqnozlaşdırılma üçün faydalı olan, ölkənin müdafiə planlarının formalaşdırılması və dəqiqləşdirilməsi, onun hərbi təşkilatının inkişafı və müdafiə sifarişinin formalaşdırılması üçün faydalı və mümkün olan bir neçə mümkün ssenarilər praktik təqdim olunur.

### *3.3.4. BM-in daha çox gözlənilən inkişaf ssenarisinin aşkar edilməsi*

BV ən ehtimal olan inkişaf ssenarisi beynəlxalq sisteminin əsas inkişaf vektoruna beynəlxalq münasibətlərin nüfuzlu subyektlərin təsir etməsinin qiymətləndirilməsi üzrə müəyyən olunur.

Bununla belə, təkçə aktorlar arasındakı qüvvələrin obyektiv nisbəti deyil, hətta onların subyektiv təsəvvürləri, istəkləri və cəhdləri də nəzərə alınmalıdır. Yəni, beynəlxalq münasibətlərin subyektlərinin fəallığı onların elitaları, siyasi və hərbi rəhbərliyi, lider və başçılarının subyektiv qavranış prizmasından dərk edilir. Bu təhlilin əsasında beynəlxalq münasibətlər sistemində sərt verilmiş obyektiv koordinatlarda bu ya digər aktorların ən ehtimal olan davranışı proqnozlaşdırılır.

Burada ən ehtimal olan hərəkətlərin əvəzləyicisi isə (təbii ki, hər aktorların təsiri və qücünü nəzərə alaraq) BV ən ehtimal olan inkişaf ssenarisini təmsil edəcək.

Beləliklə, əgər BV mümkün inkişaf ssenariləri müəyyən etdikdə beynəlxalq münasibətlərin subyektlərinin müxtəlif hərəkət variantlarına baxılırsa (hansı ki, qüvvələrin mövcud olan nisbətində konkret vəziyyətdə məntiqlə baş verə bilsə idi), onda ən ehtimallı ssenarini müəyyən edərkən ona mümükün olan hərəkət variantlarından baxılır (hansı ki, güman edildiyi kimi beynəlxalq münasibətlərin subyektlərinin idarəetmə linglərində olan konkret insanlarla seçiləcək).

Odur ki, beynəlxalq vəziyyətin ehtimal edilən ssenarisi dünya siyasətini və dünyagörüşünü formalaşmışdıran fəaliyyətdə olan konkret fiqurların mövcudluğunun obyektiv məhdudiyyətlərində daha realistik olacaqdır.

Burada təqdim edilən məntiqi sxemdən göründüyü kimi (şəkil 3.8.) BV ən ehtimal olan ssenarisinin və onun variantlarının (BV-in nəzəri cəhətdən mümkün ssenarilərindən və variantlarından) yaranmasına, formalaşmasına və inkişafına nəinki ayrıca ölkələr və onların potensialları (əsas təhlilinin ənənəvi predmeti olanlar), hətta qlobal tendensiyalar, habelə qeyri-dövlət aktorları təsir edir.

BV-in inkişaf variantlarının birinin (və ya bir neçəsinin) ssenarilərinin uzunmüddətli proqnozu üçün faktların, təşəbbüsün, aktorların inkişafının keyfiyyət və kəmiyyət proqnozunun təhlili BV inkişaf ssenarilərinin ən ehtimal olan variantlarından birinin uyğunlaşdırılması və seçilməsi ilə prinsipialdır.

BV inkişaf ssenarinin ən ehtimal olanın seçim prosesinin birinci mərhələsi beynəlxalq arenada yaranan cari vəziyyətinin təhlili olacaqdır. Hazırkı anda baş verənlərin düzgün anlaşılması mövcud durumda BV hansı mümkün inkişaf ssenarilərinin reallaşdırılması haqqında təsəvvür almağa imkan verir. Həmin ssenari başlanğıc kimi gəbul edilir.

İkinci mərhələ uzunmüddətli perspektivdə (7-10 il) ilkin ssenarinin digər mümkün ssenari tərəfinə korrektə olunması mümkünlüyünün qiymətləndirilməsindədir. Məumdur ki, subyektiv amillərin təsirindən ilkin ssenarinin korreksiyası (düzəlişi) yalnız bir mümkün olan ssenaridən digərinə keçməsi ilə baş verə bilər. Ilkin ssenarinin əvvəlcədən mümkün olan və baxılmayan ssenariyə keçməsi yalnız obyektiv amillərin təsirindən, ilk növbədə, dünya arenasında qüvvələr nisbətinin ciddi dəyişməsi nəticəsində baş verə bilər. Yuxarıda qeyd olunduğu kimi, belə dəyişikliklər bir anda baş verə bilməz. Bu isə onların əvvəlcədən aşkar olunmasına imkan verir. Burada irimiqyaslı təbii fəlakətlər hadisəsi istisna ola bilər.

İlkin ssenarinin düzəlişinin ən çox yayılmış səbəbi kimi adətən beynəlxalq münasibətlərdə mühüm rol oynayan bu ya digər ölkədə hakimiyyət dəyişməsi kimi amillər götrülür.




**Şəkil 3.8.** BV ehtimal olan inkişaf ssenarisinə və ən ehtimal olan variantların formalaşmasına təsir edən əsas amillər qruppları təsirinin proqnozu və təhlilinin məntiqi sxemi

Bununla belə, hökümətin belə dəyişməsi istər qanunvericiklə təyin edilmiş prosedurlar nəticəsində, istərsə də dövlət çevrilişlərinin, “rəngli ingilab” ların və digərlərin hesabına baş verə bilər.

Hər halda, hakimiyyətə fərqli dünyagörüşünə malik olan yeni rəhbərlərin gəlməsi bu ölkələrin siyasi kursunu dəyişdirər. Əvəlkindən fərqli siyasi kurs isə yeni koalisiyaların yaranmasına, köhnələrin

dağılmasına, müharibələrin yaxud silahlı münaqişələrin başlanmasına və ya yenidən başlanmasına, dövlətlərin destabilləşdirilməsinə və dezinteqrasiyasına gətirə bilər. Məsələn, 2003-cü ildə Gürcüstandakı "rəngli inqilab"la hakimiyyətə gələn Saakaşvilini Abxaziya və Cənubi Osetiyaya qarşı siyasətin aqressivliyini kəskin artırdı. Bu da, Cənubi Osetiyada 2008-ci ildə avqust müharibəsinə, Rusiyanın müdaxiləsinə və Moskva tərəfindən Cənubi Osetiya və Abxaziyanın "müstəqilliyinin" tanınmasına gətirib çıxardı. Bu hadisələr Rusiya ilə Qərb arasındakı münasibətlərin vəziyyətini çətinləşdirdi, BV başlanğıc ssenarinin fundamentinə korrektə edilməsinin təməlini qoydu. Rusiya ilə Qərb arasındakı münasibətlərdə yeni ssenariyə qəti keçmə isə 2014-cü ilin fevralında Ukraynada baş verən hadisələrdən sonra gerçəkləşdi.

Əgər cari vəziyyətinin təhlili subyektiv amillərin təsirindən beynəlxalq vəziyyətinin ciddi dəyişməsinin perspektivini böyük olmadığını göstərirsə, BV inkişafın ilkin ssenarisini ən ehtimallı olan kimi qəbul olunur. Tərsinə olduğu halda (belə dəyişikliklərin yetərli qədər yüksək ehtimal varsa) bu əyilmənin hansı tərəfə meyilli olduğunu qiymətləndirmək lazımdır. Əgər subyektiv amillərin təsirindən başqa proqnozda obyektiv qaydada amillərin xeyli dəyişməsi (ilk növbədə, qüvvələrin nisbətində) gözləniləcəksə, onda BV mümkün inkişaf ssenarilərin yeni qrupunun müəyyən edilməsi üzərində işləmək lazımdır.

# IV FƏSİL

# MÜASİR DÜNYA İNKİŞAFİNIN ƏSAS TENDENSİYALARI

## 4.1. Əsas sivilizasiyalı siyasi tendensiyalar

Dünya iqtisadi inkişafının ziddiyyətli təbiəti qloballaşmanın iki rəqib konsepsiyasını meydana çıxarmışdır:

-dünyada tək bir nəzarət mərkəzinə söykənən xətti qloballaşma;

-regional iqtisadi birliklərin və dünya işlərinin idarə olunmasında onların əməkdaşlığı əsasında yaradılan qeyri-xətti qloballaşma.

Əgər adi dövlət ilə müqayisə aparılarsa, onda mübarizə dövlət quruluşunun 2 forması arasında gedir: birincisi, vahid mərkəzdən idarə olunan unitar avtoritar dövlət, bu formanın dünyaya ABŞ-dan qəbul etdirilməsinə cəhd edilir. İkincisi müqavilə federasiyadır ki, Rusiya, Çin, Hindistan və qərb olmayan digər sivilizasiyalar onu müdafiə edirlər. Bu iki konsepsiyanın təməlində nəinki dünya sistemindəki müxtəlif aktorların ziddiyətli iqtisadi maraqları, eləcədə dünya nizamının gələcəyi haqqında da fərqli fikirlərin söylənməsi durur. Əgər iki konsepsiya beynəlxalq münasibətlər sistemində Qərb mədəniyyətinin üstün bir rolunu təmin etməyi nəzərdə tutursa, ikincisi isə dünya işlərinin idarəedilməsində əsas lokal sivilizasiyaların layiqli yer tutacağı beynəlxalq münasibətlərin polisentrik sistemini meydana gətirməyi qarşısına məqsəd qoymuşdur. Bu iki konsepsiya arasında mübarizə artıq sivilizasiyalı siyasi mədəniyyətin və müasir tendensiyaların olduğunu göstərir.

Bu iki tendensiyaların qarşıdurması lokal insan mədəniyyətləri arasındakı siyasi mübarizənin şiddətlənməsinə bir yol açdı. S. Hanqtinton bu perspektivə diqqət verərək qeyd edirdi ki, "Sivilizasiyaların toqquşması qlobal siyasətdə üstünlük təşkil edəcək", "mədəniyyətlər arasındakı ziddiyyət xəttləri gələcəyin ön xətləri olacaq. Beləliklə, XXI əsrdə yerli insan sivilizasiyalarının arasındakı siyasi mədəniyyət qarşıdurmasının sıxlaşması gözlənə bilər və onu aşağıdakı kimi təsvir etmək olar.




**Şəkil 4.1.** XXI əsrdə LİS-lər arasında sivilizasiyalı-siyasi qarşıdurmanının inkişaf perspektivi və vəziyyəti

Şəkildən göründüyü kimi, qərb LİS-in zəifləyən təsiri fonunda (onun qorunması üçün mübarizə aparır), digər LİS, xüsusilə Çin, İslam və Hindistanın təsiri güclənir. Əsasən, Qərb keçən əsrin sonundan "İslam terrorçuluğu" ilə mübarizə prosesi ilə digər sivilizasiyalara qarşı hərbi-siyasi formada mübarizəyə keçdi. Bu siyastəin başlanğıcı 11 sentyabr 2001-ci il tarixində Nyu Yorkda terror hücumu ilə qoyulmuşdur. Bu hadisə Qərbə dünyanın müxtəlif yerlərində hərbi gücdən istifadəsini qanuniləşdirmək üçün ABŞ-ın beynəlxalq terrorizmə qarşı bir kampaniya açmağı müsaidə etdi. Bu kampaniyanın ilk döyüşünə Əfqanıstanda "Taliban" rejiminə qarşı BMT tərəfindən icazə verildi.

Sonra ABŞ bu beynəlxalq təşkilta baxmadı. Ardınca İraq və Liviyaya soxulma, Suriyada İslam yaraqlılarının dəstəklənməsi, İrana hərbi və siyasi təzyiq, Rusiya və Çinin hərbi dövrələnməsi. Arzu-

edilməyən ölkələrə, rejimlərə və fərdi siyasətçilərə qarşı iqtisadi sanksiyaların tətbiqi geniş yayıldı.

BV-də aparıcı dövlətlərin müəyyən məqsədlərlə inadçıl siyasi rejimlərin tabe edilməsi və devrilməsi üçün qorxutma, güc təzyiqi və gücün birbaşa tətbiqi və sonra "rəngli inqilablar" kimi vasitələrdən istifadəsi danılmazdır. Son illərdə "rəngli inqilablara" uyğunlaşdırılan, Qərbin siyasi, iqtisadi və hərbi-texniki yardımı ilə silahlı yaraqlılar tərəfindən həyata keçirilən çevrilişlərin yeni formalarından istifadə olunur. 2018-ci ilin mayında ABŞ səfirliyinin Tel-Əvivdən Qüdsə köçürülməsi bir sıra dünya ölkələrinin tənqidinə, xüsusilə Türkiyə Cümhuriyyətinin kəskin etarızına səbəb olsa da,  heç bir müsbət sonunc əldə olunmadı: 60-dan çox fələstinli öldürüldü, 2000-dən cox insan yaralandı, Fələstin dövləti öz ərazisində silahlı təcavüzə məruz qaldı.

Soyuq müharibə sonrası hegemoniyaya can atan Qərb ölkələri, dünyada müstəqil beynəlxalq subyektə malik hər hansı nüfuz mərkəzlərini təsviyyə etməyə başladı. Ancaq, dünyanın bir neçə Çin, Rusiya, Hindistan, İran kimi müstəqil güclü dövlətlərinin, həm də öz suverenliyini qoruyan nisbətən daha kiçik dövlətlərin saxlanması hələ də Qərbə öz məqsədinə çatmaq üçün tam imkan vermir. Belə ki, Qərb sivilizasiyasının qlobal üstünlüyünə sadəcə resurslar kifayət etmir. Hətta Əfqanıstan və İraqda olan lokal müharibələr nəhəng dövlət xərclərinə səbəb oldu. Qərb iqtisadiyyatının zəifləməsi şəraitində isə bu sıxıcıdır.

Beləlilklə, xarici siyasi öhdəliklərinini və xarici hərbi iştirakı azaltmadan öz iqtisadiyyatında rəqabət qabiliyyətinin artırılması üçün resurslarla manevr etmək mümkün deyil. Digər tərəfdən, bu öhdəliklərin daxil olması və digər ölkələrin dərhal öz şərtlərini diktə etməsi Qərbin imkanlarını zəiflədəcək və özü üçün qlobal iqtisadi problemlərin sərfəli həllini çətinləşdirəcək.

Bu şərtlərdə, hətta resurslarla uğurlu bir manevr istənilən nəticəni verməyəcək. Bu arada, iqtisadi rəqabət qabiliyyətinin artmasının tez həll edilməsi mümkün deyil. Əslində buna on illər vaxt lazımdır. Və bu heç də həmin müddətcə qərb sivilizasiyasının bir ciddi sarsıntıları olmayacağı faktı deyil. Axı rəqiblər Qərbin nəzarətindən dün-

yanın iqtisadi, siyasi və hətta ideya məkanını addım-addım geri alaraq bütün cəbhələrdə hücuma keçirlər.

Ona görə də BM-in inkişafının strateji proqnozunun tərtibində hal-hazırda və ortamüddətli perspektivdə əsas olan qərbin LİS-nın təsirinə diqqət ayırmasıdır. Çünki, o dünyada digər sivilizasiyaların güclənməsi təhlükəsi qarşısndaı öz təsirini saxlamaq uğrunda mübarizəsini aktivləşdirəcəkdir. 2021-2024-ci ilədək olan ortamüddətli perspektivdə proqnozlaşdırılması mümkün olan əsas hərbi siyasi tendensiyalar, hətta sonralar aşağıdakıları ehtimal etməyə imkan verir:

1. LİS ətrafında və nisbətən sabit konqlomerasiyada birləşə bilən sürətlə artan güc mərkəzlərinin hərbi siyasi koalisiyalarının formalaşması, məsələn:

- ABŞ, Qərbi Avropanın bəzi ölkələri, bir sıra Fars Körfəzi ölkələri, Cənub-Şərqi Asiya regionu;

-Braziliya Meksika, Venesuela, Latın Amerikasının bəzi ölkələri;

- Vyetnam və bəzi Cənub-Şərqi Asiya ölkələri;

-Rusiya, Avrasiya İqtisadi Birliyi, bəzi Avropa ölkələri, Asiya və hətta Afrika.

2. Geniş koalisiyaların yaradılması və bir neçə LİS-nın BRİCl-ə analogiyası

3. LİS və dövlətin xarici və hərbi siyasətinin vahid setesentrik strategiyasına çevrilməsi.

Bununla da əsas siyasi-diplomatik tendensiya, beynəlxalq vəziyyətin inkişafının özünəməxsusluğu XXI əsrin birinci rübündə bəzi LİS və millətlərin siyasəti belə tamamlanacaq: onlar ABŞ-ın dünya liderliyi üçün iddiaları ilə razılaşmadan "inersiyalaşmış davranış instinktləri" siyasətini aparacaqlar.

Məhz bu tendensiya XXI əsrin ikinci onilliyində LİS arasında münasibətləri xarakterizə etməli olub: birqütblülük və ABŞ-ın dünya liderliyi faktiki olaraq dörd lokal insan sivilizasiyasını dərhal tanımadı. Tanımadı, amma siyasi planda tamamilə fərqli davrandı:

-Rusiya LİS-nı açıq şəkildə qəbul etmədiyi halda, təcrübədə əleyhinə çıxış etdi;

-İslam LİS-rı İŞİD-in hərəkətlərini və terrorizm, xüsusilə qərb ölkələrində tanımadığını bəyan etdi;

-Latınamerika LİS;

-Çin LİS.

Deməli, proqnozlaşdırılan dövrdə beynəlxalq vəziyyət daha çox dərəcədə yeni-sosial faktorların təsiri altında formalaşır.

**XXI əsrdə BM-in formalaşmasına daha çox təsir edən sosial-siyasi faktorlar**

| Ad | I prioritet | II və başqa prioritetlər |
|---|---|---|
| 1. İdeoloji amllər | Sosial ədalət | Yoxsulluqla mübarizə |
| 2.Təşkilatı amillər | Psevdodövlət strukturlarının yaranması | Koalisiya siyasəti və müttəfiq axtarışı |
| 3.Öz təsirini mövcud olana tabe etmək və beynəlxalq təsisatlar yaratmaq | BMT, ATƏT, BVF, DB-nın təkamülü, tam tabe olunan vəziyyətdə | LİS-ə tabe edilən yeni beynəlxalq təsisatların yaranması |
| İnsan şüurunu idarəedən təsisatların yaranması (manipulyasiya) | Virtualdan yeni sosial gerçəkliyin yaradılması | Virtual gerçəkliyin həqiqət qismində tısdiqi |

Söhbət XXI əsrdə BM-ə təsir edən daha çox təsir edən factorlardan gedir. İdeoloji və siyasi faktorlar yeni beynəlxalq təsisatların yaranması qismində çıxış edəcək. Bu özünü ənənələrin əhəmiyyətinin kəskin güclənməsi və yeni beynəlxalq təsisatların yaranmasının mütləq baş verməsində ifadə edir. Bu təsisatların çoxu öz üzərinə dövlətin funksiyasını götürə bilər (məs., özəl hərbi kompaniyalar) və ya bu funksiyalarla gizli fəaliyyətdə ola bilər.

Xüsusi halda söhbət:

-nəinki cəmiyyətin və dövlətin sosial-siyasi sisteminin formalaşmasında iştirak edən, eləcə də BM-in regionda və hətta planetdə formalaşmasına təsir edən formal milli və beynəlxalq sosial institutlardan (nə vaxtsa leqal mövcud olan);

- XX əsrin sonlarında təsiri hiss ediləcək dərəcədə artan çoxsaylı hüquq qoruyucuları, ekoloji və digər təşkilatlardan;

-heç də siyai, hüquqi, mənəvi olmayan bir çərçivədə yaradılan və inkişaf edən qeyri formal ictimai təsisatlardan gedir.

Bu, dini təsisatlar kimi, elə də mədəni və xüsusi informasiyalı cəmiyyətlər ola bilər. Məsələn, xakerlər və fanatlar cəmiyyəti.

Son on illiklərədə belə strukturların ictimai təşkilatlardan siyasi partiyalara, şəbəkələrə, nəhayət, başlanğıc strukturlara sürətli təkamülünün necə baş verməsini müşahidə etmək olar.

Zamanla daha da mürəkkəbləşən modeli aşağıdakı kimi təsvir etməkl olar.




**Şəkil 4.2.** XX və XXI əsrdə ideoloji strukturun təşkilati təkamülü

Ümumilikdə götürdükdə, kollektiv qurum ictimai və siyasi qurumların əvvəlki yaradılmış təcrübəsini daha yüksək səviyyədə təkrar edir: xeyli tez, kütləvi və çoxfunksiyalı. Tədqiqatçı Vuuds güman edir ki, yaxın gələcəkdə terror təşkilatlarının iyerarxiya və şəbəkə strukturları daha mürəkkəb kollektiv qurumların xeyrinə geri çəkilməsi olacaq.

Kollektiv qurum Vuudsun fikrincə, özündə: əksər hallarda qapalı əvəzedilən dini, hərbi və mülki rəhbərlərinin ictimai olmayan qrupunu; yüksək hazırlıqlı peşəkar özəyi; xarici periferik modulları;

hərbi və terror qrupun material xərcini; müttəfiqlərini, tərəfdaşlarının geniş şəbəkəsini və nəhayət, təşkilatı ilə formal heç bir əlaqələri olmayan davamçılar ailəsini əhatə etməlidir.

Bununla əlaqədar İŞİD-in təsiri nümunə göstəricidir.

Beləliklə, dövlətlər yeni tipli düşmənlə üzləşirlər. Belə düşmənin əsl məqsəd və mübarizə üsulu hələ də məlum olmayan təşkilatçılar, kuratorlar, imkanlar, dövlətin opponentliyinə qarşı olacaqlar. Səthdə peyda olan hər bir şeyin reallığı əks et-dirməsi zəruri deyil.

### 4.2. İdeoloji sahədə əsas tendensiyalar

Əsas lokal insan sivilizasiyaları arasında siyasi mübarizənin kəskinləşməsi onlar arasında kəskin ideya mübarizəsinin kəskinləşməsinə səbəb oldu. Bu ilk öncə xətti qloballaşma layihəsinin gerçəkləşməsində qərb sivilizasiyasının qarşılaşdığı çətinliklərlə bağlıdır. Ötən əsrin 90-cı illərinin əvvəllərində qərb liberalizmi geniş miqyasda qələbə qazandı və bütünlükdə dünya bu ideologiya ilə razılaşdı. Bazar iqtisadiyyatının liberal modeli praktik olaraq müstəsna istisnalarla bütün ölkələrdə, siyasi demokratiya modeli isə əksəriyyət ölkələr tərəfindən qəbul edildi. Siyasi demokratiya modelini qəbul etməyən ölkələr isə onu cəhd edilməli olan bir ideal kimi qəbul etdilər və ona keçməyi özlərinin siyasətlərində əsas strateji məqsəd elan etdilər. Sonra məlum oldu ki, qərb modeli digər sivilizasiyaların üzərində yaradılıb və lazımı nəticələr vermir.

Təcrübə göstərir ki, bu model qərbdən fərqli siyasi və iqtisadi cəmiyyətlər yaradır. Əgər Şərqi Avropa ölkələrində model tam öznü doğrultdusa, post-sovet sistemində qərbdən az fərqlənən ictimai sistemlər ortaya çıxdı. Oxşar vəziyyət Latın Amerikasında da yarandı.

Qərb modelini formal qəbul edən Asiya ölkələrində daha böyük fərqlər meydana gəldi. Afrikada isə demokratik geyimli ənənəvi tribalismin üstünlüyü davam etdi.

Beləliklə, qərb nümunəsində insanlığı unifikasiya etmək mümkün olmadı. Bu isə Qərbi müxtəlif sivilizasiyaların ənənəvi dəyərlər sisteminin məhv edilməsinin geniş miqyaslı proqramına başlamağa vadar etdi. Bunların yerinə isə bütün insanlıq üçün universal olan yeni

dəyərlər gəlməli idi. Bu, xüsusilə, müxtəlif lokal insan sivilizasiyaları arasında dəyər fərqlərini neytrallaşdırmağa imkan verən relyativizm konsepsiayasını təşviq etməli idi. Hesablamalar ona əsaslanırdı ki, digər sivilizasiyalara bu dəyərləri tətbiq etmək mümkün olarsa, onda onlar qərb lokal insan sivilizasiyalarının dünyagörüşündən asılı olacaqlar. Təbii ki, onda bu cəmiyyətlərin suverenliyi itəcək, onlar qərb mərkəzlərinin təsirinin nəzarəti altına düşəcəklər. Tədricən bu müvafiq dövlətlərin dezinteqrasiyasına aparacaq. Bununla da bu iqtisadi faydalılığı konversiya edən Qərbin siyasi təsiri artacaq.

Bu proqramın gerçəkləşməsində isə nəhəng resurlardan istifadə edildi. Qeyri hökumət təşkilatlarının "demokratiya" və "insan hüquqlarının təşviqini həyata keçirmək üçün nəzərdə tutan geniş dünya şəbəkəsi yaradıldı. Dövlət səviyyəsində milli elita ilə onların oriyentasiyasını dəyişmək və ya tabe etməkdə, onları öz cəmiyyətlərində Qərb dünyagörüşünün yayılmasında əməkdaşlıq üçün məcbur etməkdə fəal işlər aparıldı.

Bu siyasət bir çox ölkələrdə müqavimətin təbii reaksiyasına səbəb oldu. Bu müqaviməti qırmaq məqsədilə, Qərb məlumat-təbliğatçılıq işindən "rəngli inqilablar" şəklində "yumşaq güc" alətlərindən istifadəyə keçməyə başladı və bəzi hallarda hətta hərbi gücdən də istifadə edildi.

Bununla belə, belə fəaliyyətin təsiri gözləniləndən daha az idi. Relyativizmin tətbiqi hər şeydən əvvəl qərb sivilizasiyasının özünə mənfi təsir etdi.

Xristianlıq əsasında ənənəvi etika və mənəviyyatdan imtina edilməsi insan qüsurları və əxlaqsızlığı norma kimi təqdim olunmasına gətirib çıxardı. İctimai elmlər sahəsində mürəkkəb və müxtəlif hadisələrin təhlili, siyasi korrektə ilə əvəz edildi. Əhalinin təhsil və bacarıq səviyyəsi, o cümlədən Qərb dövlətlərinin nəzarəti qatı azalmağa başladı. Demokratik dəyərlərin və insan hüquqlarının müdafiəsi xaricdə siyasi təsirin ancaq fayda və mənfəəti nəzərdə tutan alətinə çevrildi. Bu beynəlxalq həyat normalarında ikiüzlülük və ikili standartlara gətirib çıxartdı. Belə şərtlərlə beynəlxalq hüququn əsas prinsipləri faktiki olaraq işləmədi və işləməməkdə davam edir. Bütün

bunlar onunla nəticələndi ki, Qərb modelinə cəlbedilmədə cəmiyyət mahiyyətcə aşağılandı, dünyada Qərb dəyərlərinin yayılmasına müqavimət isə artdı.

Beləliklə, müasir dünyada dəyərlər uğrunda mübarizə mənəviyyat çərçivəsindən kənara çıxdı və hal-hazırda ideya mübarizəsi real hərbi-siyasi aspekt qazanmaqla və dövlətin birbaşa milli təhlükəsizliyinə təsir edir. Bu mübarizənin kəskinləşməsi ənənəsi saxlanılır. Bu isə, xüsusi halda nə baş verdiyini göstərir:

1. Ziddiyyətlərin dövlətlər və millətlər arasındakı resurlar sahəsi uğrunda mübarizədən dəyərlər sistemi uğrunda mübarizə sahəsinə ötürülməsi. Belə ki, XXI əsrdə başlıca resurs LİS qarşıdurmasından asılı olan – millət və onun institutlarında mövcud insan potensialıdır.

2. Güzəştsizlik mübarizəsinin güclənməsi ideologiya və dəyərlər sistemində də güzəşt axtarışını çətinləşdirir.

3. Siyasi təsirin əsas obyektinin – abstrakt dövlətdən təqdim edilən elitaya dəyişməsi.

4. Həqiqətin qiymətləndirilməsində və bu və ya digər qərarların qəbul edilməsində subyektivliyin güclənməsi.

5. Dövlətin siyasi və iqtisadi həyatında sosial qrupların yaradıcı rolunun əhəmiyyətli dərəcədə artması.

Bundan başqa, XXI əsrdə beynəlxalq vəziyyəti formalaşdıran bir sıra amillər qrupunun təsirinin paylanması baş verir ki, onalrın artım əhəmiyyəti bilavasitə aşağıdakılarla əlaqəlidir:

-LİS-in insan kapitalı, millət və və cəmiyyətlə;

-hakim elita və cəmiyyətin xüsusiyyətləri ilə;

-LİS-ə, cəmiyyət və millətə təsir vasitəsi ilə.

Eləcə də ideologiya və dünyagörüşün formalaşdıran, sonra onları siyai resurslara çevirən sosial institutların kəskin güclənməsi baş verir.

Bu təkcə siyasi-ideoloji olan subyektlər kimi deyil, eləcə də təşkilatı və institusional, bəzən isə hərbi təsirə malik subyektlər kimidir. Məsələn, PKK, İŞİD, PYD, taliblər, “sağ sektor” “müsəlman qardaşları” kimi ideoloji təşkilatlar tez bir zamanda siyasi və hərbi təsir faktoruna çevrildilər.

BM-də baş verən xarici və formal dəyişikliklər, o cümlədən dünya gücləri arasında qarşılıqlı əlaqə təhlil və strateji proqnoz üçün əsası kimi ənənəvi olaraq qəbul edilir. Onlar, əlbəttə, ən mühüm amil olmaqda davam edir, lakin XXI əsrdə onlar artan dərəcədə sosialdan, o cümlədən subyektiv amillərdən asılı olaraq cari və gələcək beynəlxalq münasibətlərin formalaşdıran əsas xüsusiyyət oldu. Məhz bu subyektiv amil BM-də üstünlük əldə edir. Ukrayna münaqişəsində ABŞ-ın verbal traktovkası artan dərəcə ilə rellığı formalaşdırdı (elə elmi mühitdədə). Müvafiq olaraq xarici siyasət əvvəlki tək praqmatik deyil, virtual olur. XİN və rəhbərlik reallığa yox, “kameraya” işləyir.

Beləliklə, gələcək BM-in ssenarilərinin formalaşmasında 2 mühüm faktor rol oynayacaq və onalrı siyasətin əsası kimi götürmək lazımdır. Birincisi, strateji ideologiyanın əsasında duran ideologiyanın həlledici rolu. Bu gün belə ideologiya və strategiya amerikan və Çin lokal insan sivilizasiyalarında var.

İkincisi, BM-in formalaşmasında subyektiv amilin təsirinin güclənməsi hər şeydən əvvəl milli insan kapitalının və onun institutlarının realizasiyasının güclənməsində ifadə olunur.

Bu o deməkdir ki, gələcək beynəlxalq vəziyyətin formalaşmasında bu amilin rolu qiymətləndirilməlidir. Hər şeydən əvvəl mədəni, tarixi və təhsil potensilı aydındır ki, qiymətləndirilmir və bunlardan xarici siayasət resursları kimi az miqyasda istifadə edilir.

Bütün bunlar bir faktı müəyyənləşdirir – beynəlxalq vəziyyətin təhlili və inkişaf proqnozu daha çox dərəcədə lokal insan sivilizasiyalarının dünyagörüşü və ideoloji qarşıdurmanın təhlilini zəruri edir və o:

- birincisi, digər sivilizasiyalararası və dövlətlərarası ziddiyyətlərlə müqayisədə əhəmiyyəti və prioritetliyi baxımından ilk növbəyə keçərək, hətta iqtisadi, maliyyə, ticarət və digər maraqların fərqindən doğan ənənəvi ziddiyyətləri arxa plana keçirir.

- ikincisi, dövlətlərarası və digər (sosial-sinfi də daxil olmaqla) ziddiyyətləri ikinci plana keçirir. Bu fenomen bəşəriyyət tarixində mütləq olaraq yeni hadisə deyildir.

Ilk növbədə məlumdur ki, sivilizasiya və dini identikliyin saxlanılması cəhdi dövlət suverenliyini saxlamaq cəhdindən daha mürəkkəb olur. Avropada dini müharibələr, A.Nevskinin siyasəti – bu hadisələrin keçmişə aid olan nümunələrinin bir hissəsidir. Həmçinin, hakim elita tərəfindən beynəlxalq vəziyyətin subyektiv qəbulu və onun hərbi-siyasi qərarların qəbulunda subyektivliyi hakim elitanı əsas təsiretmə gücünə və xarici qüvvələr tərəfindən təsir obyektinə çevirir. Ona görə də, subyektivlik beynəlxalq münasibətlərin proqnozlaşdırılmasında və analizində mühüm xüsusiyyətə çevrilir. Bu analiz və proqnozlar müvafiq reallığın formalaşmasında iştirak edir. Digər sözlərlə subyektiv amil nəinki beynəlxalq reallığın proqnozlaşdırılması və analizində, həmçinin onun formalaşdırılmasında mühüm rol oynayır. Subyektiv amilin böyük rol oynadığı digər sahə əhalinin ideoloji dəstəklənməsidir. Ukrayna, Əfqanıstan, Yuqoslaviya, İraq, Liviya və Suriya (hələdə davam etməkdə olan) müharibələrinin təcrübəsi göstərir ki, bu sahə uğurlu xarici siyasətin həyata keçirilməsində böyük əhəmiyyətə malikdir.

Xüsusilə bu islam dövlətləri və qeyri-dövlət aktorlarının siyasətində, eyni zamanda idelogiyadan başqa heç bir əhəmiyyətli resurslara malik olmayan, amma beynəlxalq münasibətlərin formalaşmasında real amilə çevrilən ictimai və siyasi təşkilatların rolunun artmasında özünü göstərir. Buna misal olaraq 2014-cü ildən bəri nəinki Yaxın və Orta Şərqdə, həmçinin Afrika və Cənub-Şərqi Asiyada böyük hərbi və siyasi gücə çevrilmiş İŞİD-in artan təsirini göstərmək olar.

Elita və cəmiyyətdə bilərəkdən həyata keçirilən kütləvi dezinformasiya, həqiqətin təhrif olunması böyük əksəriyyət tərəfindən reallıq kimi qəbul edilən illuziyanın formalaşmasına səbəb olur. Məsələn, Ukraynada, ağır silahların və mülki əhaliyə qarşı ballistik raketlərin istifadə edilməsinə, yaxud Suriyanın şərqindəki Quta bölgəsində üsyançıların nəzarətində olan Duma şəhərində kimyəvi silahlardan istifadə edilməsinə heç kim inanmır. Uzunmüddətli və strateji xarakterli olan, 2014-cü ildən beynəlxalq vəziyyətin gərginləşməsi güc dövlətlərinin (ABŞ, Rusiya) bu və ya digər şəkildə iştirak etdiyi müharibələr olduğu

kimi qəbul edilmir, onların düşmən siyasəti isə “tərəfdaşların adekvat olmayan siyasəti” kimi qəbul edilir.

Beynəlxalq vəziyyətin qeyri adekvat olaraq qəbul edilməsinin ən böyük halı VMT (Varşava Müqavilə Təşkilatı) və SSRİ-nin dağılması prosesində baş vermişdir. VMT olan geosiyasi reallıq (onun geoiqtisadi əsaslarını isə QİYŞ təşkil edirdi) demək olar ki, sovet rəhbərliyi tərəfindən yeni, süni, qeyri-real bir yenisi ilə əvəz edildi.

Lakin bu proses yalnız NATO-nun Belorus sərhədlərinə yaxınlaşdığı təqdirdə aşkar olundu. Xüsusilə də onu tez anlamadılar. Bu reallığın manipulyasiya obyektinə çevrilmiş keçmiş sosialist respublikalarının siyasi elitaları tərəfindən dərk edilməsi üçün uzun illər tələb olundu. Bu dövrə qədər isə “demokratiya”, “bərabərlik”, “ümuminsani dəyərlər”, “humanizm” və digər maskalanmış simvollara ehtiyac qalmamış və onlardan qurtulmuşdur. VMT və QİYŞ-ə qarşı müharibə ssenarisinin proqramlaşdırılması prosesi XX əsrin 90-cı illərinin əvvəllərində başa çatdı. Xatırladaq ki, SSRİ-də, Mərkəzi və Şərqi Avropa ölkələrində baş verən sistem dəyişiklikləri səbəbindən 1991-ci ilin fevralında VMT üzvləri təşkilatın hərbi strukturlarının ləğv edilməsi barədə qərar qəbul etdilər. 1 iyul 1991-ci ildə isə Varşava Müqaviləsinin qüvvədən düşməsi barədə Protokol qəbul olundu, bununla da Varşava Müqaviləsi Təşkilatı öz fəaliyyətini dayandırdı. Sonda əsas siyasi məqsədə nail olundu (qlobal müharibədə bərabər qalibiyyət) – rəqib dezinteqrasiya edilmiş və fəaliyyət şərtlərini (“beynəlxalq qaydalar normalarını”) qəbul etmişdir. Yeni beynəlxalq vəziyyət tam olaraq bu siyasi qələbənin nəticələrinə uyğun gəlirdi.

Sonralar amerikan ekspertləri qeyd edirdilər: “Müttəfiq dövlətlərin itirilməsi, onların ərazilərindəki orduların çıxarılması, sosializmin və daha sonra Sovet İttifaqının dağılması Rusiyanı nənki Avropa, həmçinin bütövlükdə dünya siyasətinin bütün formalarda periferiyasına sürüklənməsinə gətirib çıxardı”. Bu vəziyyət nəticəsində Rusiya Qərbin 1000 km dərinliyindəki mövqelərindən məhrum olması ilə nəticələndi. Bu ərazilərdə onun seçilmiş və xüsusi hərbi qabiliyyətli Quru qoşunlarının, Hava hücumundan müdafiə və raket əleyhinə müdafiə sistemləri və Hərbi-Dəniz donanmasının mühüm bazaları yer-

ləşirdi. Onilliklər ərzində yaradılmış, kifayət qədər effektiv olan, ordunun fəaliyyətini təmin edən qlobal rabitə, döyüş idarəetmə, kəşfiyyat sistemləri pozulmuş oldu. Rusiya ərzisində yalnız faktiki olaraq, daha az hərbi qabiliyyətli ikinci strateji eşalon qalmışdı.

### 4.3. Böyük mərhələnin proqnostik ssenariləri

#### *4.3.1.Dünya sivilizasiyasının tsiklik-dalğavari inkişaf nəzəriyyəsi*

XX əsrin sonlarında dünya arenasında bipolyarlığın itməsinin ardınca, siyasi elmdə dünyanın sivilizasiyalı inkişafının əsas qanunauyğunluqlarının universal dərk edilməsi daha çox kök salır. Birxətli artan proses kimi bəşər tarixinin sadələşdirilmiş doqmatik şərhi əvəzinə dünya sivilizasiyasının tsiklik-dalğavari inkişaf nəzəriyyəsi gəlir**.**

Dünya elmində XX əsrin birinci yarısında əsas müddəalar N. Kondratevin Y. Şumpeterin, O.Şplenqerin və s. əsərlərində yaranmışdır. Lakin məhz beynəlxalq proqnostikanın sivilizasiyalı dalğalar və mərhələlər nəzəriyyəsi öz inkişafını yalnız XX əsrin sonunda V.İ Pantinin və İ.Vallerstaynın işlərində yer alıb.

İstənilən sivilzasiyalı sisteminin tsiklik-dalğavari inkişaf nəzəriyyəsinin mahiyyəti kimi insan cəmiyyətinin hərəkət dinamikasının inkişafının bir dalğanın və ya spiralın digərinə doğru ardıcıl dəyişməsi anlamına gəlir. Bu hərəkət prosesində aşağıdakı mərhələlər aydın fərqlənir:

a) özünəməxsus potensial ətalət qüvvəli nisbətən sabit, az-çox davamlı inkişaf fazası;

b) sistemin böhran fazası. Bu zaman ətalət qüvvəsi qeyri-sabit və davamsız olur, ənənəvi strukturlar içərisində yad variantlı elementar və gələcək perspektivləri yaranmağa başlayır;

c) yüksək sıçrayış və ya artım fazası, yəni institusionallaşma və ya cəmiyyətin yeni vəziyyətə keçid fazası. Bu faza sistemin dərinliklərndə ətalət dinamikasının yaranmasına səbəb olur.

Dalğavari və dövri ardıcıllıq beynəlxalq siyasət nəticədə hər hansı bir volyuntarist improvizədən deyil, son həddə sivilizasiya təkamülün fundamental qanunauyğunluqlarına tabe olan məqsədyönlü fəaliyyətdən ibarətdir.

Dalğavari-dövri inkişaf nəzəriyyəçiləri konkret trarixi inkişafın dalğavariliyini nəzərdən keçərkən hər hansı bir primitivizm və ya vulqarizmə xüsusi diqqət yetirirlər.

Nəhayət, nəzərə almaq lazımdır ki, sivilizasiyalı dalğaları təmiz halda aşkarlamaq mümkün deyil, çünki məkanından və zamanından asılı olaraq qeyri-adi xüsusiyyətləri ilə fərqlənsə də, onlar dərin gizlədilmiş və tarixi təkamülün digər elementlərilə qarışmışdır.

Beynəlxalq münasibətlərin sosiolojiı təsviri proqnostik tendensiyaların və qanunauyğunluqları kompleks iqtisadi və siyasi təkamülünün üzə çıxarılmasında uğur qazandı.

V.İ. Pantin yeni və ən yeni dövr üçün dünya iqtisadi və siyasi sisteminin fundamental baza mərhələlərin təklif edir (XVII əsrin ortalarından dəfə olaraq XXI əsrin ortalarınadək).

Tədqiqatçı böyük mərhələ çərçivəsində 4 böhran fazasını ayırır:

“Struktur böhranı” – köhnəni inkar edən, yeni quruluşdan intensiv çıxma elementlərinə, sosial-siyasi proseslərin mühüm hərəkatlarının başlanması və köhnəlmiş hakimiyyət strukturlarının entropiya böhranına etirazdır.

“Texnoloji çevriliş” yüksəliş xarakterlidir. Adətən dalğa, həmin dövrdə yeni ictimai quruluşda (sənaye, elmi-texniki, informasiya və s. inqilab) bərqərar olur. Siyasi sahədə uzun dalğalar daxilində sürətlə artan dövlətlər və onların koalisiyaları arasında qızğın müharibə başlayırlar

“Böyuk sarsinti”. Bu dalğa adətən, inkisafın azalan xətti və dərin durğunluq, böhran və depressiya halları ilə baglıdir. Siyasət sahəsində yeni ideoloji cərəyanlar yaranır, sosial-siyasi ziddiyyətlər və konfliktlər kəskin gərginləşir, əhəmiyyətli çevrilişlər və dəyişmələr baş verir.

“Beynəlxalq bazarın inqilabı” yenə də yüksələn tendensiya ilə bağlıdır. O, sanki fəaliyyət gostərən sistemin yeni geoiqtisadi və geosiyasi potensialını açır, periferiya bazarları da daxil olmaqla yenilərin

istifadəsi lider güclər arasında üstün mövqe əldə edilməsi sferasında mübarizəni kəskinləşdirir. Amma "beynəlxalq bazarın inqilabı" tam miqyasda böyük dövrə cavab vermək iqtidarında deyil, cəmiyyət daxilində yenidən struktur krizisin elementləri yaranır.

V.İ.Pantinə fikrincə ekstropolyar məntiqə görə üçüncü dalğanın ("böyük sarsıntılar") paylanmasının "C" dövründə insanlar özlərini əvvəlkindən daha az nəzarət altında hiss edirlər, bir çox hallarda qloballaşma nəticəsi olaraq dağıdıcı təbii çağırışların və yeni qlobal problemlərin (ekoloji, demoqrafik, iqtisadi, ərzaq və s.) kəskinləşməsi cinayətkarlıq və zorakılığın artmasına səbəb olur.

Vallestraynın fikrincə, məhz XXI əsrin birinci yarısında (böyük "C" dövrü) kapitalist dünya iqtisadiyyatın postindustrial təkində dağıdıcı tendensiyaların formalaşması başlayacaq. Məntiqi mütləq və nisbi çiçəklənmə dövründən sonra, ziddiyyətlər kəskinləşir ki, bu da böyük dəyişmələrə doğru aparır və o yeni elmin dilində "xaosun hücumu deməkdir". Artıq indi, XXI əsrin birinci rübündə aşağıdakı tendensiyalar görünür: daxili asayişin kordinasiyasında dövlətin rolunun zəifləməsi, qeyri-formal qrupların (etnik, dini və s) rolunun artması, BMT-nin rolunun və əhəmiyyətinin azalması, dünya birliyinin lokal müharibələri çətinliklə məhdudlaşdıra bilməsi.

Kapitalist dünya iqtisadiyyatına və dövlətçiliyə getdikcə artan destruktiv təsir QİÇS pandemiyası və digər xəstəliklərin təhlükəsini yüksəldəcək. 2050 və 2075-ci illər sonra "biz kapitalist dünya iqtisadiyyatında" yaşamalı olmayacağıq. Onun əvəzinə biz hansısa yeni quruluşda və yeni arxitekturada, müəyyən yeni tarixi sistemdə yaşayacaq"

Beləliklə, proqnostik ssenarilərin məlumatına görə, nəzəriyyəyə əsaslanaraq söyləmək olar ki, hadisələr konkret mərhələ çərçivəsində inkişaf edəcəkdir. Belə nəzəriyyələrin müəllifləri hesab edirlər ki, istehsal, mədəni və doğru siyasi tərəqqi heç də bütün hallarda ilk növbədə sosial həyatın dəyişikliklərinə adekvat aparmır, çünki dünya birliyi hələ, yeni qlobal çağırışlara və təhlükələrə vaxtında və effektli reaksiya verə bilmir.

Onlara müvafiq olaraq, yaxın 30-50 il üçün aşağıdakı ən təhlükəli təhdidlər proqnozlaşdırılır:

1. Dünya rəqabətinin kəskinləşməsi və ya əvəzedilməz təbii ehtiyatları (xüsusilə enerji) üzərində nəzarətə sahib olmaq;

2. Dünya liderlərinin (ilk növbədə ABŞ) zəifləməsi, beynəlxalq rəqabətin kəskin gərginləşməsi, Qlobal fond bazarında böhran, istehsalın tənəzzülü, beynəlxalq rəqabətin birdən kəskinləşməsi, 2030-2940-ci illərdə beynəlxalq müharibələrə təhdidlərə qədər;

3. Beynəlxalq siyasi menecmentin (BMT, BMT TŞ və s) real dünya strukturu və qlobal strukturun yeniləşən çağırışlarına uyğunsuzluğu səbəbindən dünya ölkələri ilə Qərb arasında qarşıdurmanın dərinləşməsi;

4. Bir çox hallarda dönməz nüvə silahı və qeyri-hərbi nüvə təhdidlərinin dağıdıcı təsirləri.

Yuxarıda sadalanan çətinliklər, habelə mövzunun bütün tədqiqatçılar tərəfindən tanınmaması nəticəsində proqnostik tədqiqatlar dünya quruluşunun və qlobal nizamın gələcək real təsvirinə olan artan ehtiyaca uyğun həcmində aparılmır. Məhz buna görə də beynəlxalq proqnozlaşdırılma praktikası və nəzəriyyə arasında hələlik mövcud olan fərqi aradan qaldıra bilmir.

Beynəlxalq proqnozlaşdırılmanın əsas metodlarıda kompleks şəkildə istifadə etdikdlə daha səmərəli nəticələr əldə edilir. Praktikada daha geniş yayılan sitanalız metodu problemi daha yüksək səviyyədə təhlil etməyə imkan verir.

### *4.3.2. Lokal sivilizasiyaların qarşılıqlı əlaqə perspektivləri*

“Böyük” dövrlərdən fərqli olaraq, Yakovun sivilizasiya dövrləri vacib, ən əsası isə zaman keyfiyyətlərinə sahib təsirlərə malikdirlər – onlar onilliklər deyil, bir neçə əsri əhatə edir (əsasən VIII-XI əsrdən günümüzə qədər: VIII əsrin sonu  XI əsrin əvvəli, XI əsrin ikinci hissəsi XIV əsrin əvvəli, XIV əsrdən XVII əvvəlinə qədər və nəhayət, hal-hazırdakı 4-cü dövr – XVII əsrdən XXI əsrin yarısına kimi). Sivilizasiyanın təkamülü hər şeydən əvvəl insan faktorundan aslıdır

(özünü dərketmə və intellekt, siyasi mədəniyyət və yaradıcılıq, milli adət-ənənələr və s.).

Bu problemin öyrənilməsində əsas məsələlərdən biri lokal sivilizasiyadır. Hantinqton 8 lokal sivilizasiyanı (Qərbi, Pravoslav, İslam, Çin, Hind, Yapon, Latın Amerikan, Afrikan) və böyük olmayan sivilizasiyaların yer aldığı xüsusi "digərlər" qrupunu qeyd edir.

Hantinqtonun əsas ideyası sivilizasiya nüvəsinin müstəsna identikliyi konsepsiyasıdır (dildə, mədəniyyətdə, adət-ənənələrdə və əsas da dində olan köklü fərqliliklər). Qərb dövlətləri öz sivilizasiyalarını "universal" olaraq təsdiqləmək istəyirlər, lakin əslində o sadəcə "unikal"dır, bir çox qərb ideyaları (individualizm, liberalizm, dövlətlərin ayrı-ayrı kilsələri) digər mədəniyyətlərdə cavab tapmır. Buna görə də, Hantinqton gələcəkdə dünya siyasətinin mərkəzi oxu Qərb və digər dünya arasındakı qarşıdurma, bütün lokal sivilizasiyalarda qarşılıqlı antoqonizm fonunda liberal Qərb və Şərqin fundamental-ekstremist gücləri arasında güclü mübarizə olacağını söyləyir. O, həmçinin bunu XX əsrdə territorial məkanda lokal sizilizasiyaların paylarının dinamikasının, əhalinin və dünyanın xalis ümumdaxili məhsulunun müqayisəsi və Qərb sivilizasiyasının geosiyasi, geoiqtisadi və demoqrafik balansında payının azalma faizinin müşahidə edilməsi ilə əsaslandırır.

Yakoveç "sintezin layiqincə qiymətləndirilməməsi nəticəsində regional sivilizasiyaların bir-birlərinin itələməsi ilə əlaqəli olan absolutizasiya prosesləri" ilə razı deyil. Onun fikrincə, lokal (yerli) sivilizasiyaların hərəkət xarakteristikasında sivilizasiya artım prosesi sivilizasiya ekspansiyasına birbaşa təsir edə bilmədiyi üçün, keyfiyyətə zərər vuran kəmiyyət güclənməsinə yol verilir. İntellektual faktor önümüzdəki informasiya cəmiyyəti dövründə böyük rol oynayacaq. Həmçinin o düşünür ki, lokal sivilizasiyaların toqquşmasının qaçınılmazlığı haqqında olan tezis nəticədə, sivilizasiya arası və dövlətlərarası münaqişəni qarışdırır. Nəticə olaraq, bu tezis qlobalizasiyanın böyüyən problemlərini demək olar ki, nəzərə almır.

Beləliklə, Yakoveçin fikrinə görə, əgər onlar doğudan da dağıdıcı impuls alsalar sivilizasiyalararası toqquşmalar bəşəriyyətin

inkişafı və dünya problemlərinin nizamlanması üçün keçilməz sərhəd ola bilər, belə konfliktlərin iştirakçıları konsensus (razılıq) axtarmağa məcbur olacaqlar. Yenə də bu az ehtimal olunandır, çünki, sosial formasiyaların kiçik hissələrinin mövcudluğuna baxmayaraq, ümumdünya inkişafı öz milli bəşəriyyət üçün ümumi təcrübəsini sintez etmək qabiliyyətinə malik sivilizasiya gücləri tərəfindən müəyyən olunur. İqtisadi subyektin maliyyə durumunun pisləşməsi, tənəzzülü qloballizasiya şəraitində sivilizasiya massivlərinin laxtalaması və yox olması yeni tarixi eranın başlanğıcı ola bilər.

Bu şəkildə, elmi proqnoztikanın müasir mərhələsində XXI əsrin ortalarını əhatə edən bəşəriyyət haqqında müəyyən bir sivilizasiya xarakteristikası vermək çox çətindir. Həm də, onun sərhədləri artıq bugündən dəqiqləşdirilmişdir – daha çox inkişaf etmiş dövlətlər qrupu (əsasən, "varlı Şimal") böyük faydalar çıxararaq postindustrial cəmiyyəti erasına girdi, vasitəçi dövlətlər qrupu (Rusiya, Çin, Hindistan və s.) informasiya dövrünün sərhədlərinə yaxınlaşa bilər, "kasıb Cənub" dövlətləri isə, ən yaxşı halda əsrin sonunda yaxınlaşa bilərlər. Bu dərəcədə qeyri-bərabərlik və kifayət qədər fərqliliklər bəşəriyyət bu antoqonizmin effektli amortizasiya mexanizmini tapmasa, iri miqyaslara qədər gedib çıxan dərin təzadların mənbəsi ola bilir.

### 4.4.Assimmetrik təhdidlər

Beynəlxalq politoloqların tez-tez "qlobal assimmetrik təhdid" adlandırdıqları 11 sentyabr 2001-ci il faciəsi real və virtual təhlükələr barədə təsəvvürləri ciddi şəkildə dəyişdi. Aydın oldu ki, qlobal təhlükəsizlik doktrinaları cərəyanların genişlənməsini başladan, bundan sonra beynəlxalq əlaqələrə və bilavasitə qloballaşma prossesinə ciddi şəkildə təsir edəcək məhvedici təhlükəni nəzərdən qaçırmışlar. Bu cərəyanlara kifayət qədər davamlı inkişaf edən ABŞ iqtisadiyyatının sürətinin aşağı salınması və bir çox ölkələrin iqtisadi təhlükəsizliyini təhdid edən neftin qiymətinin aşağı düşməsindən yaranan böhranın daha da dərinləşməsi aiddir.

Transmilli assimmetrik təhdidlərin yarandığı dövrdə NATO tipli hərbi-siyasi birliklərin göstərdikləri aşağı effektivlik bu təşkilatın

nəzəriyyəçilərini doktrinal qurğuların yenidən nəzərdən keçirilməsinə vadar edir.

Ekstremist qüvvələrin 11 sentyabr aksiyasına hazırlıq səviyyəsi şübhə yaratmır ki, onlar öz fikirləri və hərəkətlərini yüksək texnologiyaya (nüvə, bioloji, kimyəvi) yönəldər, yəni eyni anda milyonlarla insanın həyatına təhlükə yarada bilər, bu da beynəlxalq ictimaiyyətin terror təşkilatları üzərindəki nəzarətinin tamamilə itirilməsinə gətirib çıxarar.

Assimmetrik təhdidlər dünya ictimaiyyətində "varlı Şimal" və "kasıb Cənub" məfhumu ilə yanaşı, bir tərəfdən təhlükəli əminsizlik hissləri, xroniki qorxunu, digər tərəfdən isə anarxiya psixologiyası, hüdudsuzluq və siyasi ekstremizmi gücləndirdi. İnsanların psixikasına yerləşmiş bu neqativ təsirlər informativ cəmiyyətin bütün sahələrinə nüfuz etmişdir ki, bunun da nəticələrini öncədən təxmin etmək olduqca çətindir.

Son onilliklər ərzində ilk dəfə ABŞ siyasi elitası və "qızıl milyard" daxilində bu qorxulu həqiqət dərk edilir ki, hazırki böhrandan çıxana qədər monopol amerikan liderliyinin və birqütblü transatlantik dünya qaydalarının elanını gözlətmək lazım gələcək. Qlobal-lama çağırışlı bir-birinə sıx hörülmüş assimmetrik təhdidlər, nüvə texnologiyasının sızması üzərindəki nəzarətin zəifləməsi və müasir dünyamızda yaranan digər destruktiv hallar ABŞ dövlətinə qlobal təhlükəsizlik sahəsində beynəlxalq tərəqqinin digər mərkəz və qütbləri ilə, xüsusilə Rusiya və Çinlə daha sıx və effektiv əməkdaşlıqdan başqa çıxış yolu qoymur. V.F. Li hesab edir ki, ənənəvi bloklaşma strategiyalı transatlantizm digər prinsipial mexanizmlərin işləməsi və sülh-məramlı yolların axtarılması, BMT-nin bazasında yaradılmış yeni beynəlxalq institutlar nəticəsində dəyişikliyə uğrayacaq. Belə ki, onun fikrincə gələcəkdə assimmetrik təhdidlərin kökü qlobal bərabərsizlik, inkişaf etmiş "varlı Şimal" və inkişaf etməkdə olan "kasıb Cənub" arasındakı uçurumla əlaqəli olacaq. Terrorizm təhlükəsi qlobal perspektivdə Şimal və Cənub üçün bir növ "yaxınlaşma faktoru" rolu oynayacaq. Bu A.S. Panarinin fikrincə nəinki ayrı-ayrı ölkələrdə, hətta

qlobal miqyasda sosial-demokratik ideyaların populyarlığına səbəb olacaq.

Beləliklə beynəlxalq münaqişələrin yeni növü kimi özünü göstərən “assimmetrik təhdidlər”, dünya siyasətində bərabərhüquqlu idarəetmə kursunun tətbiqi və varlı-kasıb ölkələr arasındakı fərqin azaldılmasına qədər aktual olaraq qalacaq. Terrorizm təhlükəsi şübhəsiz beynəlxalq institutları və beynəlxalq hüququ sosial-demokrat ideologiyasının təsiri ilə dəyişikliyə uğradacaq.

### 4.5. Qloballaşmanın perspektivləri

Humanitar elmlərdə növbəti inkişaf mərhələsi təkcə cəmiyyət qanunlarının tədqiqi deyi, onlardan istifadə etməklə cəmiyyətin inkişafını proqnozlaşdırmaq, natamam gerçəkliyi dəyişmək idi. Buna Marksizm iddia edirdi. Siyasi sahədə və sosial təzahürlərdə proqnozlarda icra ediləcək qayda və postulatları müəyyənləşdirmək zəruridir. Proqnozlaşdırma zamanı nəzərə almaq lazımdır ki, dünyada baş verən proseslər təbiəti etibarilə ziddiyyətlidir. Qloballaşmanın güclənməsi nəhəng antiqlobal hərəkatı meydana çıxartdı, ətraf mühitin istismarının güclənməsi ekoloji hərəkatları, hərbi xərclərin artması pasifizmi doğurdu.

Qloballaşma fenomeninin akademik səviyyədə araşdırılması onun inkişafını təxminən XXI əsrin ortalarına qədər proqnozlaşdırmağa imkan verir. Artıq o zaman dünya ictimaiyyəti növbəti tarixi təkamül dövrü olan noosferə qədəm qoyacaq. Lafontenin fikrincə, yeni dövrə daxil olma, keçmişin aqrar, sənaye, elmi-texniki və digər inqilablarla müqayisədə bəşəriyyət tarixinin ən çətin və ən ziddiyyətli keçidi olacaq.

İndiyədək heç vaxt qlobal modernləşmə və inqilabi dəyişikliklər prossesində bir-birinə bu qədər zidd və bəzən bir-birini inkar edən birləşmə yaşanmayıb.

- Liberal demokratiya dəyərlərinin nəinki qərb, hətta əvvəllər demokratik olmayan dövlətlərdə yayılması;
- Xalq təsərrüfatı strukturu və xarici ticarət münasibətlərində bazar qanunlarının üstünlük təşkil etməsi;

• Milli iqtisadiyyatların dünya iqtisadi sisteminə inteqrasiya prossesinin sürətlənməsi;

• Beynəlxalq işçi qüvvəsinin (xüsusilə intellektual) təşkili;

• İstehsalın texnoloji bazasının sürətli və daimi yenilənməsi, kompyuterləşməsi;

• İnformasiya inqilabı və onunla sıx bağlı olan kütləvi istehlak standartları və kütləvi mədəniyyətin psixoloji yeridilməsi.

Beynəlxalq politoloji nəzəriyyəinin əsas məktəbləri qloballaşdırmanın koseptual qiymətləndirilməsində bir-birindən fərqlənirlər.

İnqilabi yanaşmanın tərəfdarları (A.İ. Utkin) hesab edirlər ki, qlobal bazar məkanının formalaşması zamanı ənənəvi milli-dövlət məfhumu öz mahiyyətini itirir. Müvafiq olaraq bu məktəbin nümayəndələri istehsalın demilliləşdirilməsinin (özəlləşdirilməsinin), satış və maliyyənin, hiper-qloballaşmanın, yəni qərar qəbuletmə mexanizminin Trans Milli Korporasiyaların nəzarətinə keçməsinin, yeni qlobal iş bölgüsünün, liberal-demokratiya dəyərlərinin 2050-2100-cü illər inkişaf dövrünə keçidin çiçəklənmə mənbəyi kimi birdəfəlik təsdiqinin sürətlənməsi mövqeyindən çıxış edirlər.

Bu məktəbi təmsil edən professor C. Rozenaunun fikrincə qloballaşma milli və qeyri-milli məkanlar arasındakı maneələri qal-dırır və perspektivdə dövlətin özü beynəlxalq münasibətlərdə aparıcı rol oynayacaq, belə ki, suveren milli birliklərin tədricən “dünya kəndi”nə çevrilməsi prossesi başlayacaq.

Qlobal bazar suverenliyi və demokratik nəzarəti yonur. “Turbulentlik çağı”ndan sonra ümumdünya federallaşma dövrü (2050-2080) gələcək. İqtisadi qloballaşmanın ardınca beynəlxalq hökumət (milli dövlətlərin saxlanılması şərtiylə) yaradılmasına qədər uzanan siyasi qloballaşma da gələcək. Rozenaunun fikrincə, qloballaşma ekoloji, həmkarlar, fermer, qadın hərəkatı kimi bir sıra sosial hərəkatlara çox geniş imkan yaradır, bunu kiçik internasional da adlandırmaq olar. Yeni qlobal struktur tədricən milli-dövlət sərhədlərinin silinməsinə gətirib çıxaracaq. Qlobal inteqrasiya ilə bərabər parçalanma və regionlaşma prosseslərini də gücləndirəcək.

İ. Vallerstayn qloballaşmanın qiymətləndirilməsində əsas olaraq qapalı ticari-iqtisadi blokların dağıdıcı roluna, milli güc faktorunun güclənməsinə, "Yoxsul Cənub"un marginallaşmasına, sivilizasiyalar arası toqquşma təhlükəsinin artmasına, transmilli təhdidlərin güclənməsinə, kütləvi zorakılığa, ultramilli ekstremizmə, dini fanatizmə və qlobal iqtisadi və siyasi institutların "antidemokratik" özlüyünə diqqət çəkir. Vallerstayn'ın fikrincə, "dünya vətəndaşı" sözü birmənalı ifadə deyil, xüsusi güzəştlərin saxlanması üçün istifadə edilir. Müvafiq olaraq yaxın 30-50 il üçün onun proqnozlaşdırdığı əsas təhlükələr aşağıdakılardır:

- Bərpa olunmayan təbii resurslara (xüsusilə də energetik) malik olmaq və nəzarət etmək uğrunda ümumdünya rəqabətinin güclənməsi;
- Başda ABŞ olmaqla dünya liderlərinin tənəzzülü, dünya fond bazarının böhranı, istehsalın pozulması, 2030-2040 cı illərdə böyük müharibələrə səbəb ola biləcək beynəlxalq rəqabətin ani olaraq qızışması;
- BMT və onun Təhlükəsizlik Şurasının real dünya və yenilənən qlobal strukura qeyri-adekvat yanaşması nəticəsində Qərblə digər dünya arasında qarşıdurmanın dərinləşməsi;
- Sonradan geridönüşü mümkün olmayan nüvə sızması və qeyri-hərbi nüvə qorxusu;

Beləliklə, qloballaşmanın daxili potensialı təkcə gələcəyə nəhəng informasiya-texnoloji sıçrayış deyil, həm də sivilizasiyanın əsaslarına təsir göstərə biləcək "dahi silkələnmələrin" qaynağıdır.

Qloballaşmanın bənzərsizliyi, çətinliyi və ziddiyyətliliyi bu fenomenə yanaşmanın fərqliliyini doğurub.

Baxılan əsas proqnostik ssenarilər- böyük mərhələnin sivilizasiyalı tsiklik ssenariləri müasir beynəlxalq münasibətlərin gələcək inkişaf istiqamətlərində beynəlxalq terrorizm və qloballaşma kimi mühüm problemlərdir. Bu ssenariləri müqayisə etmək beynəlxalq proqnozlaşdırmanın müasir inkişaf səviyyəsi haqqında təsəvvür əldə edilməsinə və bütünlükdə beynəlxalq sistemin gələcək inkişafı haqqında nəticə çıxarmağa imkan verir.

Qeyd etməliyik ki, XXI əsrin əvvəlinə qədər dünyada beynəlxalq proqnozlaşdırılmada pozitiv potensialı kifayət qədər deyil. XX əsrin ikinci yarısında yaradılmış ssenarilər bir tərəfdən dünya inkişafının qismən realist şəklini yaradırdı ki, bu halda ənənəvi koloniyalaşdırmanın dağılma zərurəti, dünya miqyasında inteqrasiya proseslərinin sürətlənməsi, digər tərəfdən isə, proqnozlaşdırılmış fikirlər kapitalist və sosialist dünyasının qarşıdurmasındakı qarşıdurmanın real perspektivlərini, SSRİ-nin dağılmasından tutmuş, planetdə yaranmış transmilli terrorizm kimi yeni, təhlükəli trancmilli təhdidləri aça bilmədi. Məhz buna görə də müasir proqnozlaşdırma ssenarilərinə ehtiyatla yanaşmaq və kifayət qədər yüksək qeyri-dəqiqlik faizini nəzərə almaq lazımdır.

Beləliklə, öncədən xəbərvermə ssenarilərilə insan amilinin dünya siyasətində rolu beynəlxalq proqnozlaşdırmanı humanitar proqnozlaşdırmanın ən mürəkkəb istiqamətlərindən biri edir. Məhz buna görə də beynəlxalq politologiya uzunmüddətli perspektivdə (artıq yarım əsrlik bir dövrün) təhlil və qiymətləndirmədən şüurlu çəkinərək qısa və ortamüddətli proqnozlarla əməliyyatlara üstünlük verir.

### 4.6. Beynəlxalq münasibətlərin proqnozlaşdırılmasında digər strateji ssenarilər: "Qlobal qarışıqlıq", "Maraqlar balansı", "Planetar diktatura"

*Qlobal qarışıqlıq ssenarisi*. Belə proqnozların əsasında qərb sivilizasiyasının öz inkişafında kritik səviyyəyə çatması nəticəsində daxili "qızma" ehtimalı anlayışı durur. Onun dağıntıları qərbin uzun müddət bəşəriyyətin dünya düzəninin stabilləşməsi barəsindəki planetin sadəcə inkişaf üçün dözümlü şəraitlə təmin etməyə qadir olması ilə bağlı bütün ümidlərini məhv edə bilər. Qərbin istehlakçı sivilizasiyası daxilində partlama ehtimalı onun təkamülünün gizli, dərin, əsaslı mexanizmindədir. Əsrlər boyu qərb rifah şüarları ilə çıxış edib, nə olduğundan asılı olmayan "ideal" məqsədləri inkar edərək, birbaşa fayda və zənginləşmə üçün vəd vermir. Bunun nəticəsində onun bütün daxili infrastrukturu, kütləvi özünü dərk stereotipləri, məişəti- sərt və bir mənalı şəkildə fasiləsiz "həyat keyfiyyətinin" yüksəlişinə yönəlib.

İlk olaraq ağıla, nəyin bahasına olursa olsun, məhsulun və xidmətin istifadəsi səviyyəsinin yüksəldilməsinin təmin olunması gəlir. İstehsalı istehsala cəlb olunan təbii və əmək resurslarının həcminin həmişə artdığı halda genişləndirmək olar. Hətta artım tempinin azalması ciddi sistemdaxili krizlərə səbəb olur, istehlakda gözəçarpan azalmalar və onunla bağlı olaraq həyat seviyyəsində alçalmalar "azad dünyanı" darmadağın edər.

*"Maraqların balansı"* ssenarisina görə, Qərbin dağılması prosesi bir anda yox, tədricən baş verəcək. Bu zaman, qaçınılmaz olan "keçid dövründə" dünyada regional "güc mərkəzi" olacaq elementlərə əsaslanan, hər birinin geosiyasi cavabdehliyə malik olacağı və qəbul oluna bilən maraqlar balansını tapmağa qadir olan yeni beynəlxalq siyasi infrastrukturun yaranması üçün ümid var. Belə "balanslaşdırılmış" dünyada qarant rolunu yenilənmiş, krizisin öhtəsindən gəlmiş və qədim mənəvi ənənələrin sintezi, müasir "texnoloji" əsrdə uğurlara sahib sovet cəmiyyəti əsasında öz idarəsini gücləndirmiş Rusiya da oynaya bilərdi. Belə sistemin yaradılmasında beynəlxalq əlaqələrdə struktura sahib konstruksiyalar öz müsbət rolunu oynaya bilərdilər (məsələn BMT). "Balanslaşdırılmış dünya" da çətin ki, konfliktsiz və problemsiz dünya olsun.

*Planetar diktatura ssenarisi*. "Yeni dünya düzəni" dünyagörüşünün əsasları "post xristian" dini görüşlərinə əsaslanır. Onun ideologiyası (F.Fukuyama "Tarixin sonu" əsərini xatırlayaq) liberal-demokratik "yerdə cənnət" formasında Qərbin çox əsrli xilasedici (məsiha) istəklərinin reallaşdırılmasını təmin edir. Mondializm ideoloqları inanırlar ki, söhbət yaxın müddətdə dünyanın dini qanunlarla idarə olunacağı və tək üstün idareçi tərəfindən idarə olunan bəşəriyyətin "qızıl əsrinin" əsası olacağı Məsiha dünyasına keçiddən gedir. Belə motivlər Bilderberg klublarında tez-tez səslənir. Üç istiqamətli komisiyalar, beynəlxalq əlaqələr üzrə Amerikan Soveti və başqa mondalizmin intelektual mərkəzləri. Çox saylı və kifayət qədər təsiredici qüvvəyə malik Qərb sektləri öz inananlarını belə hadisələrin inkişafına düzgün yönləndirirlər. YDN-nin (yeni dünia nizamı) geosiyasi prespektivləri əsas ərazi təziqi, global koloniya imperiyasının "metro-

poliyası" kimi düşünülən ABŞ-ın "global strategiyası" ilə və atlantik Böyük Sahəylə sıx bağlıdır.

### 4.7. Dünya siyasətinin inkişafının mümkün yolları

Məlum olur ki, XXI əsrin əvvəllərində dünyanın siyasi və iqtisadi sistemi destabilizasiya dövrünə girdi. 2008-ci ildə başlayan Qlobal iqtisadi krizis inkişaf etmiş və inkişaf etməkdə olan dövlətləri əhatə etdi, lakin sosial-iqtisadi və siyasi destabilizasiyanın yeganə təzahürü deyildi. Vacib təzahürlər kimi Yaxın Şərqdə, cənubi və Cənub-Şərqi Asiyada, Postsovet məkanında regional siyasətin kəskinləşməsi, Avropa ölkələrində (məsələn, Yunanıstan, Bolqarıstan, İtaliya, Fransa, Böyük Britaniya), ABŞ-da (ani olaraq amerikan cəmiyyətinin B. Obamanın tərəfdarları və ona qarşı olanlara bölünməsi), Latın Amerikası dövlətlərində, Asiya və Afrika ölkələrində sosial gərginliyin və siyasi qütbləşmələrin artması göstərilə bilər. Qlobal destsbilizasiyanın başqa bir təzahürü isə BMT, Ümumdünya Bankı, Səkkizlər Sammiti, Davos iqtisadi forumu kimi bir çox millətlərarası təşkilatların və forumların öz effektliyini itirməsidir. Bir çox müəlliflər SSRİ dağıldıqdan sonra baş verən böhrana vurğulayaraq dözümlü, güc bölgüsünə uyğun, yeni birinin yaradılmasının mütləq olduğunu deyirlər.

Yaxın illərdə Qlobal inkişafın prespektivlərini düzgün dəyərləndirmək üçün dünya nizamının destabilizasiyasının əsas səbəblərini və faktorlarını anlamaq və onun dərinliyini mümkün qədər düzgün müəyyənləşdirmək vacibdir. Çoxsaylı faktorlar və tendensiyalar onu göstərir ki, dünya siyasətində və iqtisadiyyatında izlənilən destabilizasiya beynəlxalq sistemlərin transfermasiyasından yaranan keçmiş iqtisadi, sosial və siyasi modellərin imkanlarının davamlı olaraq tükədilməsi ilə əlaqədardır.

Bununla belə söhbət yalnız bu və ya digər ideoloji və ya siyasi rejimin effektivliyinin tükənməsindən getmir, həm də Qərb ölkələrinin, dünya əhalisinin demək olar ki, yarısının məskunlaşdığı Çin və Hindistanın dünya iqtisadiyyatında və siyasətində rollarının böyüməsi nəticəsində baş verən geniş geosiyasi və geoiqtisadi yerdəyişmələr nəzərdə tutulur. Eyni zamanda, dünya siyasi və iqtisadi sistemlərinin

təkamülü barədə uzun müddətli qeyri-xətti tendesiyaların analizləri göstərir ki, müasir dünya nizamının destabilizasiyası təsadüfi deyil, realdır və onun XXI əsrin əvvəlində gəlməsi dünyanın inkişafının uzun dalğalarıyla, beynəlxalq iqtisadiyyat və siyasətdə dünya sisteminin böyük zərbələr fazasına keçməsiylə bağlıdır.

Yaxın və Orta Şərq, Mərkəzi Asiya, Pakistan və Əfqanıstan kimi müsəlman ölkələr daxili və dünya siyasəti nöqteyi-nəzərindən daha münaqişəli bölgələr hesab olunur. Bu bölgədə və Koreya yarımadasında 2014-2020-ci illərdə baş verə biləcək münaqişələr ABŞ və onun müttəfiqlərinin də iştirakı ilə regional müharibəyə çevrilə bilər. Bütövlükdə Əfqanıstan, Pakistan, İran və İraqdakı vəziyyət növbəti onillikdə daha da gərginləşərək bu ölkələrin parçalanması həddinə qədər çata bilər. Türkiyə ilə bağlı verilən proqnozlar isə müəyyən qədər "məqsədli" xarakter daşıyır və ABŞ-ın və Qərb dövlətlərin Türkiyəyə qarşı daima tədbir görməsinə istiqamətlənir. Məsələn, ABŞ Mərkəzi Kəşfiyyat Agentliyinin (CIA) "kölgəsi" olaraq tanınan "Stratfor" analitik şirkətinin qurucusu, yəhudi alim Corc Fridmanın "Gələcək 100 il: XXI əsr üçün proqnozlar" (2009) kitabında çaşdırıcı bəyanatlar verir. O, yaxın zamanlarda üçüncü dünya müharibəsinin başlaya biləcəyi, Rusiya və Çinin çökəcəyi, Türkiyənin isə dünyanın ikinci super gücü olacağını göstərir. Son olaraq Türkiyənin Yaxın Şərq, Balkanlar, Ərəbistan yarımadası və Şimali Afrikaya hakim bir imperatorluğa çevriləcəyini, bunun da ABŞ-ın əsəblərini pozacağını söyləyib. Fridman eyni zamanda Türkiyənin dünyanın ən böyük 17-ci güclü iqtisadiyyatına malik dövlət olduğunu, hərbi mövqeyi, İngiltərə istisna olmaqla Avropada ən yaxşı olduğunu, fransızları və almanları bir saatın içində məğlub edə biləcəyini söyləməsi, "Balkanlardan Afrikaya qədər olan ərazini, xüsusilə də ərəbləri yenidən ölkəsinə qatacaq" şəklindəki proqnozlaşdırmasından belə bir məntiq nəticə alınır: "Əsl məqsəd hər kəsi Türkiyəyə qarşı qaldırmaqdır. Bu ssenarilərin arxasında "dünyanı narahat etmək" və "türklərə qarşı tədbir görmək" kimi qərəzli çağırış dayanır.

Mərkəzi Asiya ölkələrindəki sosial-siyasi vəziyyyət də kifayət qədər ağır olacaq. Ancaq burada vəziyyət bu ölkələrin Rusiya ilə qarşılıqlı əlaqələrinin effektivliyindən asılı olacaq.

2020-ci ilə qədər Yaponiyada iqtisadi və sosial-siyasi vəziyyət çətin və qarşıdurmalı olaraq qalacaq. Eyni zamanda, yapon cəmiyyətində islahatlar yolu ilə dəyişikliklər edilərək onu daha açıq və dinamik etməyə cəhd edilə bilər. Ancaq bunu sürətli etmək mümkün olmayacaq və yaxın gələcəkdə Yaponiyada iqtisadi və siyasi qeyri-sabitlik müşahidə olunacaq. 2020-ci ildən sonra Yaponiyanın mümkün iqtisadi inkişafı və onun ABŞ və Çin ilə uğurlu əməkdaşlığı (və eyni zamanda rəqabəti) ola bilər.

Yaxın onillikdə Tayland, İndoneziya, Filippin kimi ölkələr üçün kifayət qədər çətin olacağı proqnozlaşdırılır. Bu ölkələr arasındakı fərqliliklərə baxmayaraq çoxtərəfli sosial və siyasi münaqişələr ola bilər. Malayziya, Cənubi Koreya və Sinqapurun gələcyi isə daha parlaq görünür.

Çin və Hindistan daxili münaqişələrə və hətta 2010-2020-ci illərdə ola biləcək mümkün siyasi çalxantılara baxmayaraq öz iqtisadi inkişaf sürətini və ərazi bütövlüyünü qoruyub saxlaya biləcək. Həmçinin Çin 2020-ci ilə qədər bir çox istehsal sahələrində ABŞ və Aİ ölkələrini belə ötüb keçə bilər. Belə ki, 2020-ci ildən sonra yeni texnoloji inkişaf və dünya bazarının inqilab mərhələsinə daxil olması nəticəsində vəziyyət kəskin şəkildə dəyişəcək. Bu mərhələdə Çin, Hindistan və Cənub-Şərqi Asiya ölkələrinin inkişafının xarakterini dəyişəcək daxili və beynəlxalq münaqişələr ola bilər.

2020-ci ildən əvvəl və sonra iqtisadiyyatı təbii ehtiyatların ixracından asılı olan, köhnə idarəçilik sistemi ilə idarə olunan və korrupsiyanın yüksək səviyyədə yayıldığı, eyni zamanda, Qərbin siyasi və Şərqin isə demoqrafik təzyiqinə məruz qalan Rusiyada vəziyyət kifayət qədər gərgin olacaq. Həmçinin rus cəmiyyətində kəskin mülki və sosial qütblülük sosial-siyasi münaqişələrə səbəb ola bilər. Eyni zamanda, Rusiya yaxın gələcəkdə də bir çox regionlardakı siyasi mühitə təsir etməyə davam edəcək. Baxmayaraq ki, əgər o iqtisadiy-

yatda və sosial mühitdə innovativ inkişafa keçid etməsə onun rolu 2020-ci illərdə nəzərə çarpacaq dərəcədə azala bilər.

Bütövlükdə isə mövcud böhranlara baxmayaraq münaqişələr və çalxantılar demoqrafik, texnoloji və geosiyasi dəyişikliklər nəticəsində Qərbdən (ABŞ və Aİ-dan) Şərqə doğru yer dəyişə bilər. Bu yerdəyişmə yaxın gələcəkdə ABŞ-ın dərin iqtisadi və sosial-siyasi islahatlar apara bilməsindən və bunun nəticəsində müvəqqəti olaraq özünün texnoloji, siyasi və hərbi liderliyini qoruya bilməsindən asılı olaraq bu və ya digər dərəcədə dağıdıcı ola bilər. Əgər bu uğurlu olsa onda münaqişə mərkəzinin şərqə doğru yerdəyişməsi daha mərhələli şəkildə baş verəcək. Ancaq əgər uğursuz olsa bu proses daha sərt, dağıdıcı və münaqişəli bir şəkildə həyata keçəcək. Ümumilikdə dünyanın inkişafı çox qütblü olacaq. Ancaq 2020-ci ildən sonra dünya lideri funksiyası bir çox dövlətlər arasında bölünəcək. Bu dövlətlər arasında böyük ehtimalla ABŞ, Aİ ölkələri, Çin və ola bilsin ki, Yaponiya olsun.

Burada “Şimal” və “Cənub” ölkələrinin vacib inkişaf tendensiyaları nəzərdən keçirilir. Çox təəssüf ki, dünyanın inkişaf perspektivləri sadəcə burada ifadə edilənlərdən ibarət deyil. Bu perspektivlər beynəlxalq iqtisadi və siyasi sitemlərin təkamül dövrü konsepsiyasından irəli gəlir. Ona görə də, dünyanın inkişafının mütərəqqi meyllərinin xətti ekstraqütblülüyünə əsaslanan bir çox bilinən proqnozların əksinə olaraq bu vəziyyətdə siyasi, iqtisadi və sosial sferalar arsındakı sıx əlaqə diqqəti cəlb edir və xüsusi olaraq da siyasi, sosial və demoqrafik proseslərin iqtisadiyyat üzrində təsirini və nəticə etibarilə yaranmış iqtisadi böhranları göstərir. Dünyanın inkişaf tendensiyalarından hansının yaxın illərdə və ya onillikdə reallaşacağını yalnız gələcək göstərəcək.

Müasir situasiyanın çətinliyi ondan ibarətdir ki, mövcud qlobal destabilizasiya bir biri ilə qarşılıqlı əlaqədə olan və bir birlərinin təsiri gücləndirən müxtəlif faktorlara səbəb olur. Bu şərait izlənilən destabilizasiya proseslərinin ayrı-ayrı vacib səbəblərinin və faktorlarının tədqiqatını və eyni zamanda fərqli müasir dünya inkişafının fərqli tendesiyalarının real rolununun müəyyənləşdirilməsini çətinləşdirir. Yenə də, dünya iqtisadiyyatının və dünya siyasətinin uzunmüddətli

destabilizasiyalarını yaradan mövcud faktorları bir neçə qruplara bölmək olar. Bunlara aşağıda qısa şəkildə göstərilən **demoqrafik, ekoloji, iqtisadi, siyasi və hərbi faktorlar** aiddir.

*Qlobal destabilizasiyanın demoqrafik və ekoloji faktorları*

İlk öncə ekoloji proqnozlaşdırma nə üçün zəruridir və qlobal ekoloji proqnozlaşdırma və qlobal destabilizasiya asılılığına aydınlıq gətirək. İnsan – təbiətin bir hissəsidir, onun təkamülünün məhsuludur. Cəmiyyət təbiət mühitində yerləşir və onun dinamikasının ritminə uyğunlaşmağa məcburdur. Təbii resurslar enerjinin vacib mənbəyi, maddi dəyərlərin, qiy-mətlilərin yaradılması kimi çıxış edir. İqtisadiyyatın inkişafının perspektivləri təbii proseslərin dinamikasından, müntəzəm yaranan təbii fəlakətlərdən – zəlzələlərdən, tayfunlardan, sunamilərdən, daşğınlardan asılıdır. Qədim sivilizasiya böyük tarixi çayların – Nilin, Tiqr və Efratın, Hind və Qanqın, Xuanxe və Yansızın vadilərində yaranıb və onların ritminə tabe olub. Lakin indi də cəmiyyətin təbiətdən asılılığı nəzərəçarpacaq dərədəcə azaldığı bir vaxtda, bir çox ölkələr artan qlobal enerjiekoloji böhranın təzahürünü hiss edir. Ölkənin, regionun inkişafının perspektivlərini müəyyən edərək adamların həyatının təbii-iqlim şəraitini ekoloji fəaliyyətini, onların təbiətlə qarşılıqlı əlaqəsini nəzərə almaq zəruridir.

Bu təsir həm pozitiv (istehsala yeni təbii məhsuldar qüvvələrin cəlb olunması, ətraf mühitin qorunması), həm də neqativ (faydalı qazıntı ehtiyatlarının tükənməsi, torpaqların münbitliyinin aşağı düşməsi, atmosferin və su mənbələrinin ziyanlı tullantılarla çirkləndirilməsi və s.) xarakterizə edilə bilər. Günümüz isə bir tərəfdən insan fəaliyyətinin təbii mühitə neqativ təsirinin güclənməsilə, imkanlı, əlçatan neft-qaz yanacaqlı və bir sıra əlvan metal ehtiyatlarının tükənməsilə, atmosferin çirkləndirilməsi nəticəsində mühitin əlverişsiz dəyişil-məsilə, içməli suyun qıtlığının artması ilə müşayiət edilməkdədir. Digər tərəfdən XXI əsrin texnoloji çevrilişi hidrogen və digər alternativ energetikaya, ekoloji təmiz nəqliyyata keçid, nanotexnologiyanın mənimsənilməsi təbii resursların mütləq istehlakını nisbi, sonra isə ixtisarına, ətraf mühitin qorunması noosferanın pozitiv variantının reallaşmasına, təbiət və cəmiyyətin rasional yenidən təka-

mülinə şərait yaradır. Bunun üçün dövlətin və dövlətlərarası təşkilatların təkrar istehsal proseslərinə və təbii resurslardan istifadəyə, ətraf mühitin mühafizəsinə təsirinin radikal güclənməsi tələb olunur.

Bu proseslərin geoloji dinamikanın proqnozlaşdırılması və strateji planlaşdırılması aşağıdakı əsas bölmələri və göstəriciləri daxil edir:

-təbii proseslərin və fəlakətlərin proqnozlaşdırılması, zəlzələlər, daşqınlar və s. Onların çoxu öncədəngörməyə çətinlik törədir;

-inkişafın təbii resurslarla təminatının qiymətləndirilməsi – torpağa faydalı qazıntılarla, meşələrlə, içməli su ilə;

-ətraf mühitin çirklənməsi səviyyəsinin monitirinqi – təmizlənməmiş çirkab sənaye sularının tullantıları, atmosferə ziyanlı tullantıların buraxılması. Torpağın eroziyası və s.;

-təbiət təsərrüfat fəaliyyətinə xərclərin əsaslandırılması (geoloji kəşfiyyata, meliorasiyaya, rekultativasiyaya və torpağın münbitliyinin bərpasına, meşə və su təsərrüfatına, ətraf mühitin mühafizəsinə).

Qlobal ekoloji böhranın əlamətlərinin artması beynəlxalq ictimaiyyəti təbii proseslərin qabaqcadan görülməsi ilə cəmiyyətlə və təbiətin qarşılıqlı əlaqəsilə məşğul olmağa məcbur edir.

1972-ci ildən başlayaraq BMT tərəfindən təşkil olunan ətraf mühitin mühafizəsi üzrə beynəlxalq konfranslar müntəzəm olaraq keçirilir, BMT-nin ətraf mühitin mühafizəsi üzrə orqan yaradılıb. Onun ki, funksiyalarından biri – uzunmüddətli ekoloji proqnozların işlənib-hazırlanması və nəşr olunmasıdır. “Qlobal ekoloji perspektiv”in belə bir proqnozu 2002-ci ildə Yoxanesburqda sabit (dayanıqlı) inkişaf üzrə ümumdünya sammitində nəşr olunmuşdur. Proqnozda 1997-2002-ci il ətraf mühitin vəziyyətinin və sosial-iqtisadi inkişafın layihələrinin təhlili əsasında növbəti otuz illikdə 2002-2032-ci ilə təbiət mühitin inkişafının ssenarisi araşdırılır, baxılır. Aparıcı istiqamətlər üzrə – torpaq, meşə resursları, biomüxtəlifliyi, içməli su ehtiyatları, sahilboyu və dəniz zona-ları, atmosfer, şəhər əraziləri, tam olaraq planet üzrə fəlakət zonası və yeddi regionlar üzrə - Afrika, Asiya, Sakitokean regionu, Avropa, Latın Amerikası və Karib baseyni, Şimali Amerika,

Qərbi Asiya, qütb regionları (Arktika, Antarktida). Uzunmüddətli proqnozun 2050-ci ilə qədər perspektivə yeni variantı hazırlanıb.

Qlobal destabilizasiyanın uzunmüddətli və vacib faktorlarından biri də varlı və kasıb ölkələrdə əhalinin artım tempi arasındakı fərq hesab olunur. Demoqrafik keçidlə bağlı olaraq ümumdünya əhalisinin artım tempinin azalmasına baxmayaraq, fərqli dövlətlərdə əhalinin artım tempi fərqlidir, hətta Afrikanın, Asiyanın, Latın Amerikasının geridə qalmış ölkələri ən böyük əhali artımı göstəricilərinə malikdir.

Legal və illegal miqrasiyanın qarşısının alınmasına səy göstərilsə də, bu demoqrafik artımlar nəticəsində Asiyadan, Afrikadan, Latın Amerikası dövlətlərindən ABŞ-a, Avropa ölkələrinə, Rusiyaya kütləvi miqrasiyalar baş verir. Bu arada, miqrantların doğum göstəricilərinin yüksək olması keçmiş dəyərlərin silinməsi, cəmiyyətin həyat tərzinin dəyişməsi, dərin mədəni, sosial və siyasi dəyişmələr nəticəsində ABŞ-ın, Böyük Britaniyanın, Fransanın və digər ölkələrin etnik tərkibinin dəyişməsinə gətirib çıxarır. Bəzi göstəricilərə görə qərbi Avropa dövlətlərində müsəlmam və qara dərili əhalinin sayı 2000-ci ildə 10-15%, 2025-ci ildə 20-25% və 2050-ci ildə 35-40%-dək arta bilər. 2050-ci ildə ABŞ-da ümumi əhalinin yarısını əhatə edən ağ dərililər azlıq təşkil edə bilər.

Qlobal miqrasiyanın səbəb olduğu demoqrafik yerdəyişmələr fərqli regionlarda ekoloji situasiyalarla, qlobal ekoloji krizislə və qlobal iqlim dəyişikləri ilə sıx bağlıdır. Miqrasiya əsasən ekoloji cəhətdən uyğun olmayan regionlardan (məsələn, Afrika, Yaxın Şərq və Mərkəzi Asiya) daha uyğun regionlar arasında baş verir. Məhşur amerikan futuroloqu E. Tofflerin bölgüsünə əsasən texnologiya və sosial-iqtisadi inkişafın "üçüncü dalğasına" aid olan enerji və resurslara qənaət edən texnologiyaların və elmi ixtiraların inkişafına baxmayaraq, dünyanın bir çox ölkələrində (əsasən Çin, Rusiya, Latın Amerikası) hələ də, "ikinci dalğanın" kütləvi sənaye texnologiyaları geniş şəkildə istifadə edilməsinə davam edilir. Hələ də, kimya sənayesində, neftin çıxarılmasında və emalında, qara və əlvan metallurgiyada təibəti çirkləndirən texnikalardan istifadə olunur və daha ekoloji yollar tətbiq olunmur. Belə texnologiyaların inkişaf etmiş ölkələrdən daha az inkişaf

etmiş dövlətlərdə tətbiqi ucuz işçi qüvvəsindən və kasıb dövlətlərin "ucuz" təbii resurslarından istifadə edən Transmilli təşkilatlar üçün gəlirlidir. Bununla meşələrin qırılmasına, çayların, göllərin və dünya okeanlarının, atmosferin çirkləndirilməsinə davam edilir. Artıq dünyanın 1.1 milyard əhalisi su problemi yaşayır və rus tədqiqatçısı V.Danilovanın fikirlərinə görə təxminən 2025-2030-cu illərdə dünya əhalisinin yarısı zəruri imkanların ödənilməsi üçün lazım olan suyu tapa bilməyəcəklər. Suyun çatışmazlığından yaranan qlobal krizis böyük çay ehtiyatlarının olmasına baxmayaraq, Afrika, Yaxın Şərq, Cənubi və Cənub-Qərbi Asiyanın böyük hissəsinə və əsasən 2 böyük əhaliyə sahib Çin və Hindistana təsir edəcək. Nəticədə, yaxın illərdə və onilliklərdə neft üçün yox, su ehtiyatları üçün konfliktlər və müharibələr baş verə bilər. Yaxın müddətdə qlobal çirklənmədə əsas yerlərdən biri böyük ehtimalla sürətlə inkişaf edən lakin, təbiəti çikrləndirən texnologiyadan istifadə edən Çin tutacaq. Artıq Çindəki atmosfer  və içməli su yoluxucu nəfəs yolları xəstəliklərinə malikdir. Çinin inkişaf etmiş ölkələrə çatıb, onları keçmək istəyi nəyinki Çinə, hətta bütün dünyaya öz təsirini göstərəcək. Dünyanın "ağciyərləri" hesab olunan sibir tayqa meşələrinin, tropik meşələrin qırılaraq Çində kütləvi şəkildə emal olunması faktı bunu təsdiqləyir. Bu hal cənub-qərbi Asiyada, yaxın zamanda iqtisadiyyatını sürətlə və modern şəkildə inkişaf etdirməyə çalışan, BRIC-ə daxil olan Hindistanda və Braziliyada da tropik meşələrinin qırılması halı müşayiət olunur. Meşələr qırıldığına görə iqlim dəyişiklikləri artması, torpağın quruması və eroziyanın sürətlənməsi kənd təsərrüfatına və dünya əhalisinin qida ilə təmin olunmasına ciddi təsir göstərəcək. Ekoloji daha təmiz sənayenin və enerji mənbələrinin hazırlanması və meşələrin qırılmasının qarşısının alınması bu situasiyadan çıxış yolu ola bilər. Müasir iqtisadi krizis yeni və ekoloji texnologiyaların ixtirasını sürətləndirə bilər. Ekoloji hərəkatların və qurumların zəif olduğu inkişaf etməkdə olan ölkələrdə köhnə texnologiyanın istifadəsini göz qabağında saxlamaq lazmdır. Buna görə də, güman etmək olar ki, qlobal ekoloji krizisin destabiləşmə təsiri hələ çox hiss olunacaq və XXI əsrin ortalarında sənaye

strukturlarının və qloballaşma modellərinin dəyişməsində əsas faktorlardan biri olacaq.

*Qlobal destabilizasiyanın iqtisadi faktorları*

İqtisadi faktorlar vacib, müasir destabilizasiyanın baş verməsində və onun qlobal iqtisadi krizis şəklində ortaya çıxmasında həlledici rol oynayırlar. Bu müasir qloballaşmanın ilk krizisi olduğu üçün onun təsirlərinin dünyada tez yayılması onu spesifik edir və heç bir ölkə bundan qaça bilməz. Eyni zamanda, qlobal krizis güclü olduğundan, heç bir dövlət tək başına bu problemi həll edə bilməz. Həddindən artıq şişirdilmiş iqtisadi sektor və real istehsal arasındakı nəhəng, kritik səviyyəyə çatmış fərq mövcud iqtisadi krizisin əsas səbəblərindəndir. İqtisadi bazarda təmin olunmamış dəyərli kağızlar, vədlər, derivativlər sayəsində nəhəng iqtisadi piramida yarandı. 2007-ci ildə ABŞ-da ipoteka krizisi ilə bu piramida dağılmağa başladı. Onun davamı olaraq, nəinki ABŞ-da, hətta bütün dünyada bank daha sonra iqtisadi krizislər baş verdi. Bank sisteminin çökməməsi üçün əvvəl ABŞ, daha sonra digər dövlətlər (həmçinin Rusiya) bank sisteminə nəhəng iqtisadi vəsaitlərlə təsir etmə yolunu getdilər. Lakin problem ondan ibarətdir ki, yeni vəsaitlərlə banklara təsir yolu ilə iqtisadi krizisdən çıxma cəhdlərinin, eyni zamanda ciddi həcmdə yenidən dolların çapının, dünya rezerv valyutası olan amerikan dollarının mövcudluğunu sual altında qoyma təhlükəsi var. ABŞ-ın nəhəng və böyüməkdə olan dövlət və daxili borcları son illər ərzində istehsal etdiyindən daha çox istehlak etdiyi üçün yarandı və yaranmış qıtlığı bütün dünyadan cəlb olnunan maliyyə vəsaitləri ilə və yeni borclanmalar hesabına doldurdular. Gec tez belə strategiya defolta və ya ABŞ-ın yeni valyutaya keçməsinə gətirib çıxaracaq. Hər iki halda beynəlxalq iqtsadi sistem üçün dəhşətli nəticələr ola bilər və qaçınılmaz nəhəng sarsıntılara səbəb ola bilər. Eyni zamanda ABŞ və digər döv-lətlərin narazılığı nəticəsində, yaxın illərdə dollardan yeni beynəlxalq milli rezerv valyutasına keçid mümkün deyil. Buna görə də, 2008-2009-cu ildə kəskin krizis fazasından çıxmasına baxmayaraq, beynəlxalq maliyyə sistemi böyük ehtimalla qeyri-stabil halda qalacaq. Bir çox tədqiqatçıların baxışlarına əsasən, XXI əsrin əvvəlində dünya iqtisa-

diyyatı dərin krizislərin və zərərli depresiyaların, beynəlxalq əlaqələrdə qeyri-sabitliyin xarakterizə etdiyi Kondratev dövrlərinin enən fazasına keçmişdir.

Kondratevə görə "uzun dalğalar" yeni problemlərin həllinə olan çağırışlardan qaynaqlanır və həll yolları yenilikçi şirkətlər tərəfindən təklif edilir ki, həmin şirkətlər də iqtisadiyyatı növbəti yüksəliş mərhələsinə çıxarır.

Eyni zamanda, "uzun dalğa"nın eniş mərhələsi yeni texnologiyalar, yeni idarəetmə formalarının, yeni sosial və siyasi təsisatların formalaşması üçün yeni texnoloji quruluşu, hazırlanması və tətbiqi üçün əlverişli dövrdür. Eniş mərhələsinin tətbiqində növbəti yüksəliş mərhələsində həyata keçirdiləcək çoxlu sayda texnoloji yeniliklər və kəşflər gerçəkləşir. Texnoloji inqilab yaradan yeniliklər yeni lider industriyalar və sektorlar yaradır. Nəticədə hər "Kondratev dalğası" dünya iqtisadiyyatının struktur transformasiyası ilə müşaiyət olunur. Həmçinin, Kondratevə görə dalğaların başlanğıc mərhələsində və ya dalğalararası keçid dövrlərində geniş miqyaslı müharibələr və böyük inqilablar baş verir. Eyni zamanda, uzun dalğanın başlanğıcında qızıl istehsalı artır və dünya əmtəə bazarları yeni və kolonial ölkələrin assimulyasiyası hesabına genişləndirilir. Bu əlamətlərin yaşadığımız dövrün xüsusiyyətləri ilə əhəmiyyətli dərəcədə üst-üstə düşən bəzi uyğunluqları tutuşdurmağa çalışaq:

1.Uzun dalğa 50-60 illik dövrü əhatə edir. İkinci dünya müharibəsinin bitməsi ilə başlayan yeni yüksəliş mərhələsi ilə sonuncu qlobal maliyyə böhranı arasındakı təqribən 60 illik dövr var ki, bu, bütöv "uzun dalğa" kimi qiymətləndirilə bilər.

2.Kondratev dalğası dünya iqtisadiyyatının struktur transformasiyası ilə müşaiyət olunur. Ötən əsrin 40-cı illərinin sonlarında başlayan "uzun dalğa"nı dünya iqtisadiyyatında yeni maliyyə arxitekturasının (Beynəlxalq Valyuta Fondu, Dünya Bankı, Asiya İnkişaf Bankı və bu qəbil digər beynəlxalq maliyyə təşkilatlarının) yaradılması, ticarət məhdudiyyətlərinin tədricən aradan qaldırılması (Dünya Ticarət Təşkilatının yaradılması), beynəlxalq inteqrasiya və qloballaşma meyllərinin güclənməsi, həmçinin, sürətli sənayeləşmə və

xidmət sahələrinin genişlənməsi nəticəsində kənd təsərrüfatının iqtisadiyyatdakı payının azalması kimi xüsusiyyətlərlə xarakterizə etmək olar.

3.Uzun dalğanın eniş mərhələsində, tətbiqi növbəti yüksəliş mərhələsində gerçəkləşdiriləcək çoxlu sayda texnoloji yeniliklər və kəşflər baş verir. Xüsusilə, 90-cı illərdə başlayan və hazırda davam edən texnoloji inqilab - informasiya texnologiyalarının yüksək sürətli inkişafı növbəti yüksəliş mərhələsi üçün güclü istinad nöqtəsi ola bilər.

4.Eniş dövründə böhranlar baş verir. İkinci Dünya Müharibəsinin bitməsi ilə başlayan yeni yüksəliş mərhələsi 70-ci illərdən eniş mərhələsi ilə əvəz olunmuş, ardınca 80-90-cı illərdə çoxlu sayda regional və lokal maliyyə-iqtisadi böhranlar baş vermiş, eyni zamanda Sovet İmperiyasının süqutu nəticəsində tranzitiv iqtisadiyyatlardakı tənəzzül də buna əlavə olunmuşdur. 2008-ci ildə baş verən qlobal maliyyə böhranı isə eniş mərhələsinin son dövrü kimi qiymətləndirilə bilər.

5.Uzun dalğanın başlanğıcında qızıl istehsalı artır. Kondratevin "tsikllər nəzəriyyəsi" qələmə alınan zaman (1922-34-cı illər) pul dövriyyəsi qızıl standartına söykənirdi və qızıl əsas dünya pulu hesab olunurdu. Bu gün isə həmin rolu ABŞ dolları oynayır. Qlobal maliyyə böhranının başlandığı dövrdən keçən zaman ərzində dövriyyədə olan ABŞ dollarının həcmi 64% artmışdır. Yəni Federal Ehtiyat Sisteminin çap maşınları dollar "istehsalı"nı əhəmiyyətli şəkildə artırmışlar.

6.Uzun dalğaların başlanğıc mərhələsində və ya dalğalararası keçid dövrlərində geniş miqyaslı müharibələr və böyük inqilablar baş verir. Ötən onilliyin əvvəlində başlayan və pərakəndə şəkildə bu gün də davam edən Əfqanıstan və İraq müharibələri, 2010-cu ildə ərəb ölkələrində baş verən və sonralar "Ərəb baharı" adlandırılan kütləvi inqilablar, hazırda Suriya və Ukraynada davam edən NATO-Rusiya qarşıdurmaları məşhur iqtisadçının yeni uzun dalğanın başlanğıcı ilə bağlı gəldiyi empirik nəticələrlə üst-üstə düşür.

Bütün bu bənzərliklər hazırki dövrün yeni uzun dalğanın ilkin mərhələsi – yüksəliş dövrünün başlanğıcı ola biləcəyini düşünməyə

əsas verir. Yəni, son bir neçə ildəki qlobal, regional və lokal xarakterli maliyyə-iqtisadi böhranlar heç də mövcud sistemin çökməsi deyil, əksinə özü-özünü yeniləməsi və yeni yüksəliş dalğası üçün starta hazırlaşması kimi qiymətləndirilə bilər. Yüksəlişin nə dərəcədə uğurlu alınması isə bazarın "yaradıcı məhvetmə" fəaliyyətinin nə qədər az kənar müdaxilə ilə gerçəkləşməsindən asılı olacaq.

Bununla əlaqədar olaraq, yaxın illərdə inkişaf etmiş ölkələrlə yanaşı, inkişaf etməkdə olan ölkələrə də təsir edəcək dərin texnoloji, sosial-iqtisadi və siyasi dəyişmələr ola bilər. Bundan belə bir nəticə çıxarmaq olar ki, iqtisadi krizis və depressiya anı – yalnız çətin yoxlama dövrü deyil, eyni zamanda müxtəlif texnologiya, iqtisadi, sosial və siyasi yeniliklər üçün xeyirlidir. Maliyyə və iqtisadi krizisdən real çıxış yolu, ekoloji təmiz enerji mənbələri ilə mikroelektronikayla bağlı yeni texnologiyaların, nanotexnologiyanın, biotexnologiyanın yaradılması, inkişaf etdirilməsi və ixrac olunması ilə bağlıdır. Krizis və depressiya şübhəsiz yeni inovasiyaların hazırlanıb inkişaf etdirilməsini sürətləndirəcək, lakin eyni zamanda sosial və siyasi gərginliklər yaradacaq. Bununla əlaqədar olaraq, yaxın illərdə bir çox ölkə və regionlarda qaçılmaz olan daxili və xarici siyasi konfliktlər baş verəcək, hətta siyasi dəyişmələr, iqtisadi və sosial destabilizasiya öz növbəsində dünya iqtisadiyyatına "tərs" təsir göstərəcək. Buna görə də, tədqiqatçılar, ekspertlər, siyasətçilər, partiya və təşkilat liderləri, hökümət idarələri yaxın illərdə qlobal destabilizasiyanın siyasi factorlarına diqqət yetirməli və ölkədaxili, regional və qlobal siyasi və hərbi konfliktlərin həlli yollarını axtarmalıdırlar.

*Qlobal destabilizasiyanın siyasi və hərbi faktorları.* Yaxın illərdə qlobal destabilizasiyanın daha dərin səbəblərindən biri əsas iqtisadi və siyasi güc mərkəzləri arasında əsasən ABŞ, Avrop Birliyi, Çin, Yaponiya və Rusiya arasında güc bölgüsünün dəyişməsiylə bağlı olan geosiyasi və geoiqtisadi dəyişmələr ola bilər.

Həm əhatə dairəsinə, həm də dərinliyinə görə ən güclü maliyyə böhranı 2008-2009-cu illərdə müşahidə edilən qlobal maliyyə böhranı olmuşdur. Maliyyə sarsıntılarının nəticəsində böhranın episentrində (ABŞ-da) 400-ə yaxın bank müflisləşmişdir.

Ümumilikdə böhranın ən kəskin fazasından 2015-ci ilədək keçən dövrdə ABŞ-da 488 bank müflis elan olunmuşdur. Bank müflisləşmələri təkcə ABŞ-da yox, digər inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə, o cümlədən tranzitiv iqtisadiyyatlarda da müşahidə edilmişdir - böhran, ticarət, maliyyə və psixoloji kanallarla bütün dünya iqtisadiyyatına yayılmışdır. 2009-2015-ci illərdə Rusiyada 385 bankın lisenziyası ləğv olunmuşdur. Onlardan 166-sı siyasi-iqtisadi çalxantılar dövrünə (2014-2015-ci illərə) təsadüf edir ki, bu həm sanksiyalar, həm də neft qiymətindəki kəskin azalma nəticəsində Rusiya iqtisadiyyatının, eyni zamanda bank sisteminin üzləşdiyi çətinliyin miqyasını ifadə edir.

Qlobal qeyri-sabitliyin siyasi faktorları arasında Yaxın və Orda Şərq, Cənub-Şərq və Cənubi Asiya, habelə postsovet məkanındakı münaqişələr xüsusi əhəmiyyət kəsb edir. Yaxın Şərqdə ara-sıra gərginləşən ərəb-israil münaqişəsinə bu və ya digər ölçüdə nəinki İsrail və bir çox ərəb ölkələri, həmçinin ABŞ, İran, Avropa Birliyi dövlətlərinin də cəlb olunması yeni iri miqyaslı müharibələrin yaranmasına gətirib çıxara bilər. Amerikan qoşunlarının İraqdan tam çıxarılmasından sonra dini (sünni və şiələr arasında) və etnik (ərəblər və kürdlər arasında) münaqişələrin güclənməsi qaçılmazdır. Eyni zamanda Əfqanıstan və nüvə silahına malik Pakistanda vəziyyət ABŞ və onun müttəfiqlərinin nəzarətindən çıxa bilər ki, bəzi hallarda çıxmışdır da. Nəticədə beynəlxalq terrorizmin yayılması problemi nəinki həll olmur, əksinə, bir az da gərginləşir, bu da öz növbəsində bir çox ölkə və regionlarda siyasi qeyri-sabitliyə gətirib çıxarır.

Asiyanın şərqində, bu və ya digər halda Yaponiya və ABŞ da cəlb olunduğu "ənənəvi" Şimali və Cənubi Koreya münaqişəsindən başqa Çin, Yaponiya və ABŞ arasında mövcud olan dərin qarşıdurma yeni konfliktlərin yaranmasına gətirib çıxara bilər. Həmçinin unutmamaq lazımdır ki, Cənub-Şərqi və Cənubi Asiya buddizm, konfusian, hinduizm, islam və qərb sivilizasiyalarının kəsişdiyi (və ya qarşı durduğu) yerdir və məhz buna görə də S.Hantinqonun fikrincə bu zona yeni beynəlxalq siyasi münaqişələrin arenasına çevrilə bilər. Çinin ABŞ-ın tutumlu daxili bazarını və Avropa Birliyi ölkələrinin ba-

zarlarını mənimsədiyinə görə hələki bu münaqişələrdən yan keçmək mümkün olub. Lakin qlobal böhran nəticəsində vəziyyət dəyişə bilər: Çinin ABŞ və Avropa bazarlarına girişi məhdudlaşdırılar və bu zaman da dinamik inkişaf edən, dünya iqtisadiyyatının motoru sayılan Cənub-Şərq və Cənubi Asiya regionuna kimin nəzarət edəcəyi sualı yarana bilər. Bu zaman Cənub-Şərqi və Cənubi Asiyada təsir dairəsini genişlətmək məqsədiylə artıq iqtisadi yox, siyasi və hərbi münaqişələr qızışa bilər.

Gələcəkdə postsovet məkanında xüsusilə ciddi ola biləcək daxili və xarici münaqişələr daha perespektivli ola bilər. Buna Ukrayna, Moldova, Gürcüstan ətrafındakı, həmçinin Mərkəzi Asiya döv-lətlərindəki münaqişələri misal gətirmək olar. Bu münaqişələr keçmiş Sovetlər Birliyi respublikalarındakı həm qlobal iqtisadi böhranın təsirindən də güclənən daxili qeyri-stabil vəziyyətlə, həm də NATO-nun şərqə doğru genişlənmə planları ilə bağlıdır. Real olaraq postsovet məkanında Rusiya, ABŞ və Avropa Birliyi, Mərkəzi Asiyada isə Çinin də maraqları toqquşur. Buna görə də Gürcüstan, Ukrayna və Qırğızıstandakı “rəngli inqilabları” səbəb olaraq deyil, postsovet məkanındakı yeni dövlətlərdə hakim elita daxilində müxtəlif geosiyasi yönümlü qrupların mübarizəsinin yaratdığı dərin qeyri-sabit siyasətin nəticəsi olaraq görmək lazımdır. Eyni zamanda “rəngli inqilablar” keçmiş sovet respublikalarındakı vəziyyəti nəinki sabitləşdirmir, bəzi hallarda c-əmiyyətdə etnik və dini əlamətlərə görə bölünməyə qədər gətirib çıxaran daha ağır siyasi, sosial və iqtisadi qeyri-sabitliyə yol açır. Nəticədə Rusiya, ABŞ və Avropa Birliyində postsovet ölkələrinin daxili işlərinə qarışmaq həvəsi yaranır, bu da daxili siyasi münaqişələrin, hətta Cənubi Osetiya və Abxaziya misalında bəzən beynəlxalq münaqişəyə qədər yüksəlməsinə gətirib çıxarır. Bütün bunlar postsovet məkanındakı yeni dövlətlər üçün çoxsaylı siyasi risklər əmələ gətirir və Rusiya ağır, perespektivsiz siyasi-hərbi münaqişələrə sürüklənir. Bununla bağlı olaraq yaxın gələcəkdə dünyada bir çox hadisələr ABŞ, Rusiya, Avropa Birliyi, Çin, Yaponiya kimi nəhəng dövlətlərin bir-biriylə anlaşması və kompromisə gəlməsi bacarığından asılı olaraq dəyişəcək. Lakin bu dövlətlər arasında, xüsusilə də ABŞ və Rusiya

arasındakı münasibətlər bir çox faktların təsiri ilə düz xətli deyil, ziq-zaq şəkilli inkişaf edəcək. Bir çox rusiyalı nüfuzlu mütəxəssislərin fikrincə ABŞ və Rusiya arasındakı münasibətlərə aşağıdakı faktorlar təsir edə bilər:

- ABŞ-ın qlobal mövqeyinin qismən zəifləməsi;
- kütləvi qırğın silahlarının 3-cü dünya ölkələrinə yayılması;
- Yaxın Şərqdə qeyri-stabilliyin və xaosun daha da genişlənməsi;
- beynəlxalq əlaqələrin yarıtmaz idarə edilməsi;
- beynəlxalq terror fəaliyyətinin geniş miqyasda yayılması;
- Rusiyanın ciddi şəkildə Çinin siyasi təsirinə düşmə təhlükəsi;
- Çinin ABŞ və Rusiyanın təhlükəsizliyini hədələyəcək dərəcədə güclənməsi;
- ABŞ İran qarşıdurması fonunda Rusiya İran yaxınlaşması.

### 4.8. Geosiyasi ssenarilər və geosiyasi proseslərin proqnozlaşdırılması

Optimal geosiyasi qərarların qəbul edilməsi üçün dövlətin inkişaf modelləri və ssenarilərinin hazırlanması çox vacibdir. Bununla belə siyasi reallığın qarşılaşdıqları əsas ziddiyyət – tədqiqatın analitik xarakterli ilə qəbul edilmiş sintetik xarakterli strateji idarəetmə qərarları arasında olan ziddiyyətlərdir. Qəbul edilmiş geosiyasi qərarlar, minimal subyektivizm dərəcəsində vacib analitik məlumatlar nəzərə alındığı zaman optimal olur. Buna da nail olmaq cox çətindir, ona görə ki, naməlum mühiti anlamaq elmi araşdırmalardan daha çox intuisiya tələb edir. Buna baxmayaraq, hər halda geosiyasi ssenarilər nəinki insan fəaliyyətinin bütün sahələrində olan dəyişiklikləri, həmçinin bu və ya digər qərarların qəbulunun milli gücün əsas parametrlərininə və xarakterinə təsirinin nəticələrini də nəzərə almalıdır.

Ssenarilər proqnozlar əsasında hazırlanır. Proqnozlaşdırma ssenarinin yazılması son mərhələsidir. Proqnozlaşdırmanın keyfiyyəti, həmçinin dövlət fəaliyyətinin digər aspektlərinin keyfiyyəti çox zaman idarəedici elitanın keyfiyyətindən asılıdır.

Proqnozlaşdırmanın əsas anlayış və kateqoriyalarını müəyyənləşdirdikdən sonra onun geosiyasətdə nə qədər vacib olduğunu anlamaq olur. Proqnozlarda dəqiqliyə inam elmin gücü ilə izah edilir. Bu xüsusilə XIX əsrdə, elmi kəşflərin dünyanın geosiyasi mənzərəsini dəyişdiyi zaman daha güclü idi. Belə ki, XX əsrdə informasiya aspektlərinin inkişafı ilə əlaqədar geosiyasi proqnozların dəyərləndirmə miqdarı, informasiya inqlabları nəticəsində isə onun əhəmiyyəti də artmışdı. Qərb geosiyasi konsepsiyaları və nəzəriyyələri hər şeydən əvvəl gələcəyin proqnozlaşdırılmasına və ən vacibi geosiyasi əhatənin dəyişdirilməsinə istiqamətlənmişdi. Proqnozlar çox vaxt tarixi təcrübəyə, ekspertlərin intellektual potensialına əsaslanırdı. Tarixdə həmçinin proqnozların özünü doğrultmadığına aid kifayət qədər nümunələr də vardır. Məsələn, iki dövlətin birləşməsinin nəticələrinin, yaxud rəqibin gücünün düzgün hesablanmaması və s.

İkinci Dünya mharibəsindən sonra, xüsusilə də nüvə və kütləvi qırğın silahları ilə bağlı silahlanmanın artması, həm ayrılıqda dövlətlər üçün, həm də bütün dünya ictimaiyyəti üçün qiymətləndirmədə və proqnozda səhvlərin dəyərini müqayisə edilməz dərəcədə artırdı və bu geosiyasi proqnozlaşdırılmanı daha aktual etdi.

Analiz və sintezə əsaslanan geosiyasi proseslərin ideal proqnozlaşdırma zənciri aşağıdakı şəkildə olmalıdır:

Nəzəri geosiyasi konsepsiyalar bazası əsasında siyasi elitanın vahid mövqeyini formalaşdırmaq lazımdır–tarixi dinamikada bu mövqeyin güclü və zəif tərəflərinin analizini keçirmək, cari və potensial təhlükələri müəyyənləşdirmək, qısa, orta, uzunmüddətli dövrdə baş verə biləcək geosiyasi dəyişikliklərin bütün mümkün variantlarının ssenarisi, dövlətin inkişafı üçün konkret tapşırıq və məqsədlərin, həmçinin onların həlli metodlarını qeyd etmək lazımdır. Bu zənciri fasiləsiz qayıdış əlaqəsi müəyyən edir. Aydın məsələdir ki, bu qəbildən olan sistem çoxlu sayda dövlət, elmi və ictimai institutları cəlb etməklə işinə başlaya bilər.

Uğursuz proqnozlaşdırmalar bir çox alimləri belə fikrə gətirdi ki, düzgün proqnozlaşdırma ümumiyyətlə mümkün deyil. Amerika alimi H.Morqentau belə qənaətə gəlmişdir ki, tarixi hadisələr gözlənil-

məz olduğu üçün beynəlxalq münasibətlər sferasında rasional metodlar tətbiq edilə bilməz.

Amma təcrübə göstərir ki, qısamüddətli dövr üçün olsa da uğurlu proqnozlaşdırma nümunələri də vardır. İnformasaiya texnologi-yalarının inkişafı ilə proqnozlaşdırmanın ən vacib metodu kontent-analiz olmuşdur. Geosiyasi araşdırmalarda kontent-analiz metodunun tətbiqi məcburi olmalıdır. Məsələn, 21-28 mart 2013-cü il tarixində İraqda münaqişə tərəflərinin (ABŞ + koalisiya iştirakçıları) hərbi əməliyyatları zamanı bu metod ərazi təhlükə dinamikasının müəyyənləşdirilməsində situasiyanın monitorinqi üçün istifadə oluna bilər.

Həmçinin kontent-analiz metodu kütləvi informasiya vasitələrinin dünyanın geosiyasi mənzərəsini geniş əhali kütləsinin şüurunda hər bir hansı şəkildə möhkəmləndirir ki, bu da öz növbəsində qəbul edilən geosiyasi qərarların xarakterinə təsirsiz ötüşmür.

*Geosiyasi proseslərin modelləşdirilməsinə nəzər yetirək.* İstənilən ictimai sistem öz inkişafında gözlənilməzdir, yəni heç bir dəqiq nəzarət onun gələcəkdəki davranışlarının proqnozlaşdırılmasına əsas vermir, çünki istənilən inkişaf invariantdır. Amma inkişaf ssenarilərini modelləşdirərkən nəzərə almaq lazımdır ki, geostrategiyalar tez müddətdə dəyişilə bilməz, çünki, onlar siyasi qüvvələrin uzunmüddətli maraqlarını əks etdirir. Belə ki, təxminən XIX əsrin ortalarında Britaniya İmperiyasının əsas geostrategiyası ondan ibarət idi ki, iki kontinental güc ölkələrindən, Rusiya və Almaniya – vaxtaşırı, ikisindən birini dominantlıqdan çıxardırdı ki, bu da onların qarşılıqlı zəifləməsinə gətirib çıxaracaqdı. ABŞ bu siyasəti davam etdirərək, İkinci Dünya Müharibəsindən öncə Almaniyanı silahlandırdı, müharibə zamanı isə SSRİ-yə kömək etdi.

Geosiyasi proqnozlaşdırma üçün bir çox alimlərin təqdim etdikləri dünya liderliyi uğrunda mübarizə haqqında olan nəzəriyyələri və mühakimələri çox vacibdir. Amerika alimləri C.Modelski və U.Tomson bunu 2 mərhələdə təqdim edirlər:

1) öyrənmə dövrü, 2) liderlik dövrü.

Birinci mərhələ bir neçə fazadan ibarətdir:

1) Həlli tələb olunan problemlərin müəyyənləşdirilməsi

2) Tərəfdaş koalisiyaların yaradılması
3) Qərarların qəbul edilməsi
4) Qərarların həyata keçirilməsi

İkinci mərhələ: dünya müharibəsi, güclü tərəfin qalibiyyəti və legitimliyin itirilməsidir. Onların fikrincə dünya masştabında liderlik uğrunda ən uğursuz namizədlər müxtəlif vaxtlarda İspaniya, iki dəfə Fransa, Almaniya və SSRİ olmuşdur. 20-ci, 30-cu illərdən sonra ABŞ-ın əsas rəqibini Çin, (bəziləri-Hindistan) hesab edirdilər. Bu baxımdan Amerika alimi C.Qoldstaynın modeli çox maraqlıdır. Belə ki, o Kondratyevin dalğaları əsasında geosiyasi və iqtisadi dövrləri birləşdirməyə cəhd göstərmişdir. Geosiyasi dövrlər böyük güclərin yüksəlişini və enişini əks etdirir, iqtisadi dövr isə iqtisadiyyatın artımını və böhranını əks etdirir. Qlobal proseslərdə onların bir-birindən asılılığı aydın sezilir. İstehsalatın maksimal yüksəlişindən sonra enişi müşahidə olunur ki, bu da öz növbəsində innovativ proseslərin zəifləməsinə gətirib çıxarır. Sonra bazar və resursların dəyişdirilməsi yönündə irimiqyaslı müharibələr dövrü başlanır. Münaqişə edən tərəflərin maliyyə və hərbi potensialı nə qədər çoxdursa, müharibələr daha irimiqyaslı və qanlı olur. Hərbi konfliktləri proqnozlaşdıran modellər arasında Riçardson modelinin adını çəkmək olar. O, 1918-ci ildə ingilis meteoroloqu L.F.Riçardson tərəfindən hazırlanmış, lakin 50-ci illərin sonlarında tanınmışdır. XX əsrdə model hərbiləşdirmə xərcləri və müharibənin baş verməsi ehtimalları arasında olan asılılığı müəyyənləşdirir. Qeyri-stabil silahlanma zamanı müharibənin baş vermə ehtimalları artır, stabil xərcləmələr zamanı isə müharibənin baş vermə ehtimalları azalır. Riçardsonun modeli hərbi silahlanmanı doğuran səbəblərin nə olduğuna cavab vermir, lakin araşdırmaçı özünün proqnozlaşdırması əsasında müharibələrin qarşısını almağı qarşısına məqsəd qoymuşdur.

Əsası ABŞ-da qoyulmuş "yeni dünya qaydaları" nın gələcəkdə ABŞ-ın aparıcı rolunun qorunub saxlanılmasına imkan verən stabilliyə ehtiyacı vardır. Ona görə də ABŞ XXI əsr dünyanın qlobal inkişafına aid proqnoz və modellərin hazırlanmasına ciddi diqqət ayırır.

Müasir dünyanın siyasi xəritəsinin dəyişdirilməsində 2 tendensiya hökmranlıq edir:

1) qlobalizasiya ilə əlaqədar ölkələrin real suverenliyinin azalması

2) separatizmin artması.

Bu minvalla XXI əsrdə bir tərəfdən özünütəyinetmə cərəyanı üstünlük təşkil edəcək. Digər tərəfdən isə dövlətlərin iqtisadi və texnoloji asılılığını möhkəmləndirən Avropa Birliyi kimi belə regional qruplar dövlət suverenliyi anlayışına qarşı gedir və vahid iqtisadi, siyasi mühit formalaşdırmağa çalışırlar.

Eyni zamanda digər ssenarilər qlobal miqyasda mümkün ola biləcək situasiyaları daha tutumlu əks etdirirlər. Ehtimal olunur ki, yaxın 20 il ərzində dünyada iqtisadi irəliləyişlərinə görə Qərb hökmanlıq edəcək. ABŞ Araşdırmalar Mərkəzi bu situasiyanı aşağıdakı kimi qələmə vermişdir: "ABŞ dövlətinin açar rolu oynaması ilə yanaşı, belə beynəlxalq müəssisələr, həm dövlətlərarası və qeyri-hökumət təşkilatları, transmilli orqanlar açıq neqativ cərəyanlara əks təsir göstərə bilərlər. Məsələn, pozitiv cərəyanlara dəstək verərək."

Deməli, qlobal miqyasda olan proqnozlar ilk növbədə insanın stabil inkişafına mane ola biləcək təhlükələrə yönəlmişdir. Roma klubunun təsisçisi və prezidenti, italyan filosof, sosioloq və iqtisadçı A.Peççen 28 "qəliz dolaşıq problem" saymışdır ki, bunların içərisində sosial bərabərsizlik, yoxsulluq, mənəvi dəyərlərin itirilməsi, təbii resursların çatışmazlığı, cinayətkarlıq, zorakılıq, terror, siyasi rüşvətxorluq və s. yer tutur.

Proqnozlaşdırma, məlum olduğu kimi, planlaşdırmanın əsasını təşkil edir. Ona görə də proqnozlaşdırma nə qədər dəqiq olarsa, plan da o qədər dəqiq olar. SSRİ dağıldıqdan sonra Rusiyada iqtisadiyyat və siyasət sahələrində dövlət planlaşdırmasından radikal şəkildə imtina edildi. Bununla yanaşı həmçinin uzunmüddətli və ortamüddətli geosiyasi proqnozlaşdırmalardan da imtina edildi.

Rusiya və Sovet ənənəvi geosiyasətindən radikal imtina qısa müddətdə dövlət və ictimai müəssisələrin ayrı-ayrı fiziki və hüquqi şəxslərin marağında bölüşdürülməsinə səbəb oldu.

Sosial-iqtisadi proqnozlaşdırılma və planlaşdırma ümumdövlət institutlarının ləğv olunması əvvəlcə SSRİ – də, daha sonra isə Rusiyada separatçı hisslərin artmasına gətirib çıxardı.

Qeyd olunanların təhlili belə nəticə çıxarmağa imkan verir ki, Rusiyanın sistem böhranından çıxması yeni ümummilli proqnozlaşdırma və planlaşdırma sistemi yaratmadan mümkün deyildir.

Ümumdövlət proqnozlaşdırmasından imtina etmək paradoksaldır, çünki onun müxtəlif modelləri effektli şəkildə bir çox inkişaf etmiş ölkələrdə, ilk növbədə Fransa və Yaponiyada istifadə edilib və edilir.

İkinci dünya müharibəsindən sonra uzunmüddətli (100 il və daha artıq) qlobal proqnozlaşdırma meydana çıxdı ki, bunun da adı Qərb alimləri və araştırmaçıları C.fon Neyman, A.Peççen, C.Forrester və başqaları ilə bağlıdır.

Beləliklə, hər hansı bir ölkənin inkişafı üçün proqnozlaşdırma və planlaşdırma elmi sisteminin yaradılması vacib elementdir. Onsuz optimal inkişaf strategiyasını işləmək mümkün deyildir. Proqnozlaşdırma sistemi bir mərkəzdə olmamalıdır, çünki bu halda hökumət və korporativ strukturlar maksimal dərəcədə olacaqlar, baxmayaraq ki, iqtisadi cəhətdən bu optimal qərar ola bilər. Proqnozlaşdırma sistemləri keçmiş təcrübələrə dayanaraq ətraf mühitin dəyişməsinə anında reaksiya verməyi bacarmalıdır.

Dünya iqtisadiyyatında təbii qaz və neft ehtiyatları əsas enerji resursları kimi yaxın gələckdə də öz mövqeyini qoruyub saxlayacaqdır. Qərbi Avropa dünya kommersiya enerji resurslarının 18% -ni istehlak edir ki, bunun yalnız 7% kömür, 7% neft ehtiyatı və 4% təbii qazdır. 2010-cu ilə qədər təbii qaz istehlakı 360 mlrd. kubmetrdən 425 mlrd. kubmetrə qədər yüksələcək, təxminən üçdə bir hissəsini 150 mlrd. kubmetrini Rusiya eksport edə bilər.

Son 30 ildə AB (Avropa Birliyi)-ində təbii qazın istehlakı təxminən 2 dəfə (10 %-dən 20 %-ə qədər ) artmışdır ki, bu da Qərbi Avropanın enerji bazarında Rusiyanın mövqeyini möhkəmləndirir. ABŞ da Qərbi Avropa kimi dünya enerji resurslarının 3%-dən bir az artığına malikdir, amma dünya həcmində 24%-ni istehlak edir.

Avropa Birliyi bəzi ölkələri təbii qazla təmin edən Niderland və Norveçin mövqeyinin daha da artmasında maraqlıdır. Ona görə 1990-cı illər ərzində Qərb "Qazprom"un bir neçə korporasiyaya ayrılması üçün aktiv şəkildə çıxış edirdilər ki, bu da onlara tez bir zamanda Rusiyanın qaz istehsalatını tam nəzarətdə saxlamağa kömək edəcəkdi. Lakin Rusiya buna imkan vermədi və "Qazprom" bu gün Rusiyanın nəhəng enerji kompaniyasıdır və onun nəzarəti də dövlətin əlindədir.

Hazırda Türkiyəyə ildə 50 milyard kubmetr qaz lazımdır. Rusiyadan ildə 25 milyard kubmetr, İrandan ildə 10 milyard kubmetr, Azərbaycandan isə təxminən 6,6 milyard milyard kubmetr qaz alır. TANAP vasitəsilə Türkiyəyə 6 milyard kubmetr qaz verilməsiylə bu rəqəmin 12,6 milyard kubmetrə çıxacaq, beləcə ölkədəki Rus qazının ümumi istehlak payı azalacaq. TANAP layihəsi başa çatan kimi Türkiyənin qaz xərcləri də enmiş olacaq. Bunun əsas səbəbi Azərbaycanın Şahdəniz-2 qaz yatağından çıxarılan qazın maya dəyərinin aşağı və bazara ucuz tarif siyasəti yürütməsi ilə bağlıdır. Rusiya və İrandan alınan qaz nisbətən baha başa gəlir. Azərbaycandan alınan ucuz enerji Türkiyənin uzun müddətli bazar gücünü artıracaq. Trans Anadolu layihəsiylə birlikdə ilkin fazada 1 - 3 milyard dollarlıq qənaət gözlənilir, bütövlükdə isə layihənin Türkiyəyə dolayı və birbaşa töhfəsi 50 milyard dollar olacaq.

Azərbaycan və Türkiyənin iqtisadiyyatına ciddi təkan verəcək TANAP layihəsi ilə Avropa ölkələrinin də keçmişdə yaşadığı enerji sıxıntısı xofu yumşalmış olacaq. Belə ki,TANAP-ın ilkin qazma imkanları ildə 16 milyard kubmetr qaz olacaq və Avropaya ildə 10 milyard kubmetr qaz veriləcək. AB üçün 1 ildə 10 milyard kubmetr iqtisadi standartlara görə az miqdarda qazdır, lakin TANA-n böyük siyasi əhəmiyyəti var. Əvvəla bu qazın daşınması realdır, ən azı, Rusiya qazıının şəbəkə diversifikasiyası ilə müqayisədə iqtisadi sərfəlidir və Azərbaycan qazı Rusiya qazına alternativ ola bilər. Bundan başqa, TANAP-ın istismara verilməsi gələcəkdə alternativ olaraq rusiyanın olmayan digər şəbəkələrin qaz tədarükünə stimul verəcək.

Müasir enerji resurslarının əsasını neft təşkil edir. Onun əsas eksportyorları - Yaxın Şərq, Afrika, Latın Amerikası və Rusiyadır, onlar dünyanın 90- % ni neftlə təmin edirlər.

Göründüyü kimi, enerji problemləri Rusiya Federasiyasının geosiyasəti ilə sıx bağlıdır, bunun sübutu kimi 2005-2006-cı illərin sonunda enerji böhranının Rusiya və Ukrayna münasibətlərini çətinləşdirməsi olmuşdur. Bu hal dərhal beynəlxalq münasibətlərin əsas subyektləri olan ABŞ və AB ilə geosiyasi qarşıdurmaya gətirib çıxardı. Rusiya təbii qaz mübahisəsinə son qoymağa nail olub, hər iki tərəf üçün sərfəli olan hesab sisteminə keçsə də, buna baxmayaraq geosiyasi və geoiqtisadi problemlər qaldı. Bu onunla əlaqədardır ki, Ukrayna rəhbərliyi özünün geostrateji məqsədi kimi ölkənin NATO və AB – yə daxil olmasıdır ki, bu da Rusiyanın uzunmüddətli geosiyasi maraqlarına ziddir. Rusiya nəzərindən Qərbi Avropaya təbii qaz ixracının diversifikasiyası son dərəcə aktual problemdir. Bununla əlaqədar olaraq Baltik dənizinin dərinliklərində Şimali Avropa qaz kəmərinin tikintisi haqqında qərar qəbul edilmişdir ki, bu da nəinki iqtisadi, həm də geosiyasi cəhətdən çox əhəmiyyətlidir.

Müasir dünya siyasətində geosiyasi proqnozlaşdırmanın rolu daim artmaqdadır. Bu isə qlobalizasiya proseslərinin güclənməsi və yeni beynəlxalq əlaqələrin formalaşması ilə əlaqədardır.

# V FƏSİL

# BEYNƏLXALQ SİSTEMDƏ ƏSAS AKTORLARIN İNKİŞAF DİNAMİKASI

## 5.1. XXI əsrdə beynəlxalq münasibətlərdə dövlət əsas aktor kimi

XXI əsrdə dövlət beynəlxalq münasibətlər sisteminin əsas subyekti kimi öz rolunu qoruyub saxlayacaq. Bunu xüsusilə qeyd edən Hantinqton göstərirdi ki, milli dövlətlər dünya siyasəti meydanında əsas oyunçuları qalır. Onların davranışı keçmişdə olduğu kimi, bu qüdrətə və çiçəklənməsinə cəhd edilir, amma bu mədəni münasibətlərlə, birliklərlə və fərqlərlə müəyyən edilir. Beləliklə, dövlətlərin klassik mübarizəsi davam edəcək, hərçənd onun transformasiyası qaçılmazdır və mədəni amillərin təsiri altında daha çox olacaq.

Digər tərəfdən, qloballaşma prosesləri rolu müxtəlif dövlətlərarası strukturlara qismən keçirərək müasir dünyada dövlətlərin təsirini dağıdır. Bu, BM-in formalaşması prosesinə müəyyən dəyişikliklər edir.

Əgər dövlətin gələcək beynəlxalq münasibətlərin strukturunda dəyişikliyinni əhəmiyyətli ballarla qiymətləndirməyə cəhd etsək, vəziyyət aşağıdakı kimi görünə bilər.

Dünya işlərində dövlətin aparıcı rolunun qorunması onunla izah olunur ki, məhz onlar beynəlxalq aktorları, o cümlədən transmillişirkətləri yaradır, maliyyələşdirir və digər müxtəlif formada dəstək göstərirlər. Ona görə xarici muxtariyyətlə bu qurumların bir dövlət kimi gücü çox vaxt lazımdır. Məsələn, beynəlxalq terror təşkilatı olan “İraq İslam dövləti, İŞİD”, 2014-ci ildə gözlənilmədən peyda olur və bir neçə ay ərzində nəinki Yaxın Şərqdə, həm də digər bölgələrdə nüfuzlu aktora çevrilir. O, təkcə ərəb dövlətlərində deyil, eləcədə qlobal dünyada qüvvələr nisbətinin dəyişməsində maraqlı olan üçüncü ölkələrin tərəfindən yaradılan süni məhsul idi.

**BM-in formalaşmasında ayrı-ayrı amillərinin əhəmiyyəti**

| | XX əsrin əvvəlləri | XX əsrin ortaları | XX əsrin sonları | XXI əsrin əvvəlləri |
|---|---|---|---|---|
| BM-in formalaşdırılması üçün dövlət-millətin əhəmiyyəti | 90 bal | 75 bal | 50 bal | 30 bal |
| Beynəlxalq (dövlət) aktorları | 10 bal | 10 bal | 25 bal | 30 bal |
| Qeyri-dövlət aktorları | 00 bal | 0 bal | 10 bal | 10 bal |
| Sivilizasiyalı amillər | 0 bal | 15 bal | 15 bal | 30 bal |

Hal-hazırda onlar Mərkəzi Asiyada stabilliyi pozmağa istiqamətləniblər. Bu üsul, yeri gəlmişkən, tamamilə yeni deyil, nəzərə alsaq ki, məsələn, orta əsrlərdə Böyük Britaniya özünün əsas rəqibi olan İspaniya ilə mübarizə üçün müxtəlif pirat cəmiyyətləri yaratdı və dəstəklədi. Ona görə də süni birləşmələri iki əsas modelləri beynəlxalq amillərə təsir etdiyi üçün, istənilən halda onalrın arxasında dövlət durur.

Başa düşmək lazımdır ki, millətlərin və dövlətlərin inkişafında əsas meyilləri, onların BM-in formalaşmasına və BM-in inkişaf ssenarisi proqnozuna təsirini təhlil edərkən qeyd edilən iki qrup amilin–lokal sivilizasiyaların və beynəlxalq koalisiyaların təsiri mütləq nəzərə alınmalıdır. Onlarsız dövlət potensiallarının inkişaf proqnozu tam olamayacaq. Bununla belə, ayrı-ayrı dövlətlərdə potensial təhlili strateji proqnozunun tərtibində mühüm element olaraq qalır.

Dövlətin BM-in formalaşmasına təsirinin müəyyən edilməsi üsullarından biri onun dünya iqtisadiyyatında nisbi gücünün qiymətləndirilməsidir. Bunun üçün dünya ÜDM-da bu və ya digər ölkələrin payı ölçülür. Söhbət ilk növbədə iqtisadi güçün ölçülməsindən gedir.

BVF-in hesablamalarına görə alıcılıq qabiliyyətinin pariteti üzrə, Çin dünyada artıq birinci yerə çıxdı. Hindistan isə əsrin ortalarında, Qərbin bütün əsas proqnozlarına görə, ABŞ-ı qabaqlayacaq və dünyada ikinci yerə çıxacaq. Hindistanda infrastruktur fantastik templə inkişaf edir və 2030-da əhalisi ən çox olan ölkə olacaq, yəni işçi qüvvəsi çox olacaq. Hindistan özü yüksək dədəcədə ixtisaslaşmasa da, ixtisaslaşmış mütəxəssisləri çoxluq təşkil edir.

Dünya ölkələrinin təsir dərəcəsinin daha bir qiymətləndirmə üsulu–hərbi xərclərin payının müəyyənləşdirilməsidir. Belə ki, ABŞ-ın hərbi büdcəsi 35% təşkil edir. ABŞ-ın hərbi xərcləri növbəti 8 ölkənin birlikdə götürdükdə, analoji xərclərindən çoxdur. Bu barədə məlumatlar aşkar şəkildə ABŞ siyasəti üçün hərbi qüvvənin nə olduğunu göstərir.

Dövlətin milli güçü ilə bağlı daha kompleksli təhlil bir qayda olaraq müxtəlif parametrlərin məcmusunu özündə cəmləşdirir. ÜDM və ya hərbi xərclərdən başqa, ərazinin ölçüsü əhalinin sayı, mövcud strateji təbii ehtiyatlar, potensial silahlı qüvvələr və digər parametrlər daxildir. Beş-altı dövlətlərin 10-12 əsas parametr üzrə inkişaf proqnozu əsasında beynəlxalq münasibətlərdə nə isə bir proqnoz alınır. Əslində, bunlar hazırda mövcud olan beynəlxalq münasibətlərin subyektlərinin mexaniki olaraq gələcəyə aid edilən kəmiyyət parametrlərinin ekstrapolyasiyasıdır.

Belə təhlil öz aktuallığını saxlayır, lakin strateji proqnozun dəqiqliyinin xeyli yaxşılaşdırılması məqsədi ilə:

-iştirakçılarının sayını onlarla aparıcı dövlətlərə qədər genişləndirmək,

-parametrlərinin sayının bir neçə onluq genişləndirilməsi və onların arasında nisbətin müəyyənləşməsi,

-əmsallardan və düzəlişlərdən istifadə etməkləi keyfiyyət xarakteristikasının müqayisə mümkünlüyünü nəzərdən keçirmək təklif olunur.

Beləliklə, ən mühüm dövlətlər qrupunu seçib, həm müasir təsir baxımından, həm də onların təsirindən BM-də orta və uzunmüddətli perspektivlərdə baş verəcək dəyişiklikləri təhlil etmək lazımdır. Xüsusilə, çox vacib meyar dövlətin hərbi-si-yasi koalisiya ilə və iqtisadi imkanlarınaa bağlıdır. Məsələn, sıravi Qərbi Avropa dövlətinin təsiri təkcə NATO tipli hərbi-siyasi inteqrasiya birliklərində iştirakla deyil, həm də iqtisadi cəhətdən Aİ-da güclənir.

## 5.2. Beynəlxalq münasibətlərdə aktorlarının təhlükəsizlik strategiyası və motivasiya analizi

### *5.2.1. Rusiya və Çin dünya siyasətində: təhlil və proqnozlar*

1949-cu ildən bəri, müasir Çin Xalq Respublikası öz tarixində dağıdıcı "mədəni çevriliş" daxil olmaqla bir neçə dramatik mərhələdən keçmişdir. 1970-ci illərin sonlarında ölkəni 2000-ci illərin əvvəlində dünya iqtisadi inkişafında lider ölkələrdən birinə çevirmək üçün daxili sosial-iqtisadi reformasiyalar etmişdir. Çin (Hindistanla birgə) dünyanın güc bölgüsünə dair konfigurasiyasını, ölkələrin siyasi və iqtisadi ierarxiyasını dəyişir. 1971-ci ildə nüvə silahına və böyük resurslara malik olan Çin BMT-nin Təhlükəsizlik şurasının daimi üzvünə çevrilir. Həmin vaxtdan Çinin siyasi arenada mövqeyi dəfələrlə artmışdır. Çin – Asiya Sakit okean iqtisadi əməkdaşlıq (Asia-Pacific Economic Cooperation, APEC) və Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) da sırasında olduğu bir çox regional təşkilatlara üzvdür. Son olaraq, o Rusiya ilə birlikdə Mərkəzi Asiya dövlətlərinə öz təsirini göstərərək, aparıcı qüvvə rolunu oynayır. Pekin üçün Mərkəzi Asiya - ilk növbədə, Qazaxıstan - geostrateji maraqlar zonasını təmsil edir. ŞƏT-in etaplı genişlənməsi bir siyasətin 2 tərəfini təmsil edir - Rusiya və Çinin prespektiv əməkdaşlığını və eyni zamanda, ABŞ-ın hərəkətinin qarşısının alınması.

Çin 2000-ci ildə son onillikdə iqtisadi inkişafa olan marağına qarşılıq Beynəlxalq Ticarət Təşkilatına (BTT) qəbul olundu. Çinin xarici siyasət ideologiyasını bir mənalı olaraq sülhsevərlik təşkil edir: o müasir dünyada özünə rəqib görmür (faktiki olaraq onların yoxluğu menasına gəlmir), bütün beynəlxalq siyasi güclər ilə birgə mövcudluğun vacibliyini vurğulayır. Çinin təsiri üçün Cənub-qərbi Asiyada Çin lobbist maraqlarını təmsil edə biləcək iqtisadi aktiv çin diasporası vacib faktordur.

Günümüzdə Çinin xarici siyasətindəki mövqeyini belə izah etmək olar: Çin regional lider hesab olunur, daha yüksək beynəlxalq statusa sahib olmağa qadir olsa da, bu haqda heç bir iddia bildirmir.

Aktual qlobal xarici siyasi məqsədləri təxirə salaraq Çin, hal-hazırda sıradakı strateji regional məqsədləri reallaşdırmağa çalışır:

-Dünya icması tərəfindən Tayvan, Tibet, Sinçzyana olan haqqı ilə birlikdə, Çinin ərazi bütövlüyünün qəbul olunması;

-Çinin Cənubi Çin dənizi akvariumunda (burda neft üzərində Çinin 10 qonşu dövlətlə maraqları kəsişir) "xüsusi" səlahiyyətlərinin olmasının beynəlxalq səviyyədə qəbul olunması;

-Cənub-qərbi Asiyada təsir dairəsinin genişlənməsi; qonşu dövlətlərlə territorial məsələlərin Çin üçün qəbul olunan şərtlərlə həlli (burda söhbət hərşeydən əvvəl Hindistanla münasibətdən gedir;

-"Hind-Çin dostluğu ili" elan olunmasına baxmayaraq, 2 ölkə qiymətləndirildiyində, onlar strateji rəqibdir; qısamüddət prespektivində ölkələr münasibətləri kəskinləşdirmək istəmirlər);

-Çinin ABŞ və digər qərb dövlətləriylə münaqişələrində qonşu dövlətlərin dayağını təmin etmək;

-Çin və Monqolustan arasında "xüsusi əlaqələrin" olduğunu faktiki olaraq təsdiq olunması; Mərkəzi Asiyada de-faktoya "xüsusi yerə" sahib olmaq;

-Digər dövlətlərin anti-çin koalisiyalara qatılma şansının aradan çıxarılması;

-Çin üçün gəlirli olan digər dövlətlərlə ticari-investisiya siyasətinin həyata keçirilməsi;

-Çinin region dövlətləri tərəfindən aparıcı dövlət olduğununun qəbul edilməsi, formal olmayan lakin mütləq şəkildə vacib xarici qərarların Pekinlə konsultasiyası;

-Digər dövlətlərin Çin immigrantlarını qəbul etmələrinə nail olmaq;

-Xaricdə azlıq təşkil edən çinlilərin "xüsusi hüquqlarının" möhkəmləndirilməsi və Pekinin onları müdafiə haqqının olması; Çin dilinin Asiyada yayılması, xarici regionlarda kompakt şəkildə yaşayan etnik çinlilər üçün iki dilliliyi təmin etmək.

Birincisi, Çinin xarici siyasəti böyük ambisiyalarla və nəhəng imkanlarla müəyyənləşdirilir. İkincisi, ölkə daxili reformanı başa çatdırmamış, kəskin daxili problemləri həll etməmiş, xarici siyasətdə

ehtiyatlı davranır (gizli güc yığma periodu). Yığılan enerjinin atılma vaxtını və istiqamətini əvvəlcədən demək hələki imkansızdır. Beynəlxalq əlaqələr üzrə amerikan analitikləri tərəfindən təsvir olunan daxili potensialı yığıb beynəlxalq arenada reallaşmağa can atan, xaricə buxar buraxan qaynayan çaydana bənzəyən - "çaydan effekti" modeli gerçəkləşdirilir (məsələn, XIX əsrin sonu Yaponiyadakı Meydzi inqilabından sonra və 1871-ci ildən sonra Almaniya İmperiyası).

*Xarici siyasətdə məqsədlər*

**Rusiya**: Rusiyada "vertikal idarənin" güclənməsi" və aktiv iqtisadi inkişaf beynəlxalq arenada köhnə SSRi dövlətləri və Qərbi Avropa arasında konfliktlərin baş verməsinə və Qərblə münasibətlərin pisləşməsinə səbəb oldu.

**Çin**: Çin höküməti əks məsələni həll etməyə məcbur oldu: Çinin inkişafı digər aktorların mövqeyinə və maraqlarına təhlükə törətmir. Çin revizionist siyasət yürütməli deyil, çünki onun xarici siyasəti istədiyi kimi müəyyənləşib. Dünya bazarında Çin malına olan tələbat onun iqtisadiyyatının inkişafının əsas qüvvəsidir və Çin özünə sərf edən status- kvonu qoruyub saxlamağa çalışır.

*Xarici siyasi məqsədlərin xarakterləri*

**Rusiya**: Rusiya və Çin heçbir dəqiq ideologiyaya tabe olmadan, konkret nəticələrə nail olmaq uğrunda praqmatik xarici siyasət yürüdür. Bununla belə, praqmatizm bütün hallarda düzgün strateji davranış hesab olunmur. Beləki, Rusiyanın praqmatik aktları beynəlxalq gərginliyi artırır (məsələn, Rusiyanın 2006 və 2009-cu illərdə Ukraynaya qaz idxalını kəsməsi).

**Çin**: Çinin rəsmi ideologiyası marksizm-leninizm-maoizm hesab olunur. Buna baxmayaraq, Çin öz siyasətini və iqtisadiyyatını gücləndirmək, digər dövlətlərlə özünə sərf edən şərtlərlə əməkdaşlıq etmək üçün son otuz ildə praqmatik siyasət yürüdür.

*Xarici siyasətdə sərt və yumuşaq gücün nisbəti*

Rusiya və Çinin "sərt gücünü" və "yumuşaq gücünü" müqayisə etdikdə, görürük ki, hər iki dövlət "sərt gücü" öz təhlükəsizlikləri və yüksək beynəlxalq status üçün zamin kimi görürlər. Rusiya SSRİ-nin dağılmasından sonra böyük miqdarda silah əldə etdi. Çin isə son

onilliklər boyu öz hərbi gücünü artırmaq üçün aktiv olaraq çalışırdı. Hər iki dövlət fərqli səviyyələrdə olsa da, "yumuşaq gücün" mahiyyətini dərk edirlər. Əsas da, təhsil sisteminə və xaricdə "Konfusiya Mərkəzləri" şəbəkəsi yaratmağa böyük sərmayə sərf edən Çin "yumuşaq gücün" tətbiqində nəaliyyət əldə etmişdir. 2008-ci ildə Pekində Olimpiyada Oyunlarının keçirilməsi Çin üçün əlamətdar hadisə idi.

*Qloballaşmaya münasibət*

Rusiya və Çinin qloballaşma proseslərinə fikirləri əsasən üst-üstə düşür. Həm Rusiya, həm də Çin beynəlxalq münasibətlərdə realist baxışlara bağlı qalırlar. Onların fikrinə görə, əsas aktorlar hökümətlərdir və onların məqsədi öz qüvvələrini gücləndirməkdir. Məhz bu baxış bucağı Rusiya və Çinin xarici siyasətlərini qurmalarında və digər hökümətlərin aktlarını analiz etməkdə əsas götürülür. Nəticə olaraq, onların siyasi manevrləri sərhədsiz deyil: hər iki dövlət bir çox beynəlxalq təşkilatlara və institutlara üzvdürlər, həmçinin qlobal iqtisadiyyata bağlıdırlar.

*Müasir dövrdə beynəlxalq nizamın vəziyyəti*

Hər iki tərəf çox qütblülük tərəfdarıdır. ABŞ-ın başında durduğu bir qütblü dünya müasir realizmə uyğun gəlmir. Əsas iştirakçılar olan və regionda təhlükəsizliyi təmin edən Rusiyanın və Çinin olduğu Asiyada güclər mərkəzi qarışır.

### 5.2.2. Çin-Amerika münasibətləri: təhlil və inkişaf proqnozları

ABŞ və Çin arasındakı qarşılıqlı münasibətlər dünyada ən vacib iki tərəfli münasibətlərdəndir. Hal hazırda Çin və ABŞ münaqişəli halları ortaya çıxaran sıx iqtisadi əlaqələrə sahibdir. Çin və ABŞ həcminə görə bir-birləri üçün ikinci ticarət əməkdaşı hesab olunur.

1941-ci ildə ABŞ və Çin anti-faşist ittifaqı yaratdılar. Çinin işğalçı yaponlarla olan müharibəsindən sonra ABŞ anti-kommunist strategiyası həyata keçirdi. ABŞ Çini hərbi və iqtisadi blokadaya saldı, Tayvan hökümətinə Çinin BMT-dəki yerinə yiyələnməkdə kömək etdi. 1971-ci ildən ABŞ və Çin arasında başlayan "ping-pong diplomatiyası" və Henri Kissencerin Çinə gizli səfəri bu ölkələr arasında

yeni münasibətlərin başlamasına səbəb oldu. 1972-ci ildə ölkələr Şanxay müqaviləsi imzaladılar, 1978-ci ilin dekabrında isə diplomatik münasibətlərin qurulması haqda müqavilə imzalandı. 1979-cu il 1 yanvar tarixindən çin-amerikan münasibətləri rəsmi olaraq, stabilləşdi. Çin-amerikan münasibətlərinin stabilləşdirilməsiylə paralel olaraq, Çin siyasətində reformasiya və açıqlıq tətbiq olunmağa başladı. Bu siyasət ABŞ-la əməkdaşlıq etmək üçün güclü impulslar verirdi. Lakin, 2 dövlət arasında həmişə Tayvan məsələsi, iki tərəfli ticarət, intelektual mülkə haqq və digər problemlər haqqında mübahisələr yaranırdı. 1993-cü ildə Bill Klinton hakimiyyətə gəldikdən sonra, çin-amerikan münasibətlərinə maksimum pis təsir edən insan hüquqları məsələsi ilə Çinin ticarətdəki "ən lütfkar statusunu" əlaqələndirdi.

Çin nümayəndəsi Çzyan Çzeminin ABŞ-a səfəri zamanı məqsədləri, prinsipləri və XXI əsrdə çin-amerikan münasibətlərinin inkişaf istiqamətini müəyyənləşdirən çin-amerikan deklarasiyası tərtib olundu.

Dövlətlər arasında təhlükəsizlik və hərbi əlaqələr sahəsində dialoqlar bərpa olunmuşdur. ABŞ konqressi Çinlə daimi stabil ticarət əlaqələri haqda qanun qəbul etmişdir. İndidki münasibət əsr boyu stabil inkişaf tendesiyasını qoruyub saxlayır. Ümumilikdə, bu əlaqələrin inkişafı yolunda bir çox çətinliklər var idi. 40 il davam edən "soyuq müharibə" zamanı, Çin və ABŞ münasibətlərin normaya salınmasına düşməncəsinə yanaşırdılar. 90-cı illərin əvvəli, ortası və sonlarında bu münasibətlər 3 dəfə dəyişikliklərə məruz qaldılar. Hal-hazırda göstərilən istiqamət üzrə inkişaf edirlər. Bu əlaqələrin demək olar ki, 50 il müddətində inkişafı sıradakı fikirləri ortaya çıxarır: əvvəla, münasibətlərdəki qırılmalar əsasən Çinin siyasi azadlığıyla, sürətli iqtisadi inkişafı ilə, beynəlxalq arenada statusunun artması və strateji rolunun güclənməsi ilə izah olunur. Çinin reformasiya və açıqlıq siyasəti iki tərəfli əlaqələrin hərtərəfli inkişafı üçün tarixi imkan yaratdı. İkincisi, "soyuq müharibə" düşüncəsinə görə, ideologiya siyasi güclər arasında əlaqələrin kəsilməsini müəyyən edir. Lakin bu sadəcə əks fikirlərə və hətta konfliktlərə səbəb olur. İki dövlətin də bir çox ortaq maraqları var.

Çin və ABŞ-ın iki tərəfli dostluq əməkdaşlığı və birgə inkişafı nəyin ki, bu xalqların xeyrinədir, o hətta planetdə stabilliyi, sülhü və inkişafı təmin edir. Üçüncüsü, Tayvan məsələsi, tərəflərin "soyuq müharibədən" bəri apardıqları ən sərt mübahisələrə səbəb olan problem oldu. Yeni yüzillikdə çin-amerikan münasibətlərinin stabillik, təkmilləşdirilmə və inkişaf bu sualın tənzimlənməsi barədə olan 3 müqavilədən asılıdır. Dördüncüsü, fərqliliklərin olmasına baxmayaraq, qarşılıqlı hörmət naminə narazılıqları aradan qaldıraraq, bərabər razılıqda eyni məsələyə yiyələnmək vacibdir. Heçbir sanksiya, hədə və silaha əl atmaq ölkələr arasındakı narazılıqları həll edə bilməz. Bunlar hər iki hökümətin maraqlarına və regionun, hətta dünyanın təhlükəsizliyinə vura biləcək konfliktlərə səbəb olacaqdır.

Donald Tramp prezident səlahiyyətlərinin icrasına rəsmən başlamamış ABŞ-Çin münasibətlərini bir az da gərginləşdirdi.

Artıq rəsmi Pekin Birləşmiş Ştatlarla "ticari savaşı" istisna etmir və bunu məhz Trampın Çinlə bağlı seçdiyi kursla əlaqələndirir. "Reuters" Çin maliyyə nazirinin müavini Çju Quana istinadən xəbər verir ki, ikitərəfli münasibətlər kəskinləşəcəyi təqdirdə, Pekin ABŞ-da iş yerlərinin ixtisarına səbəb olacaq tədbirlərə əl atacaq. Nazir müavininin sözlərinə görə, əslində Çin bunun baş verməsini istəmir. Çünki bu halda hər iki tərəf zərər çəkmiş olacaq. Lakin ölkə öz maraqlarını da qorumaq məcburiyyətindədir: "Çin öz milli maraqlarını Ümumdünya Ticarət Təşkilatı çərçiəvəsində də qorumağa çalışacaq"

Xatırladaq ki, iki ölkə arasında münasibətlər Donald Trampın Tayvan lideri Tsay İvendən gələn təbrik zəngini cavablandırmasından sonra gərginləşib. Tsay İnvenin Tayvanın müstəqil dövlət kimi tanınmasının tərəfdarı olduğu nəzərə alınsa, Trampın bu addımının Çində niyə etiraz doğurduğu bəlli olur.

Rəsmi və qeyri-rəsmi etirazlara baxmayaraq, Tramp geri çəkilmədi, əksinə öz mövqeyində qaldığını bəyan etdi. O Tayvana silah satmasını və dəstək verməsini əsalandıraraq, Çinlə ticari və başqa məsələlərlə bağlı razılığa gəlmədən Pekinin "Vahid Çin" siyasətinə bağlılığı olmadığını, Çinə yuanın aşağı salınmış məzənnəsi, Çin dənizi ilə bağlı ərazi mübahisəsi, Şimali Koreyaya dəstək və s. bu kimi

ünvanlandıracağı sualların olduğunu bildirdi. Sonradan Obama administrasiyası Trampın dediklərinə düzəliş etməyə çalışdı. “Biz əvvəlki kimi “Vahid Çin” siyasətinə sadiq qalırıq. Pekinlə Tayvanın dinc və stabil münasibətləri bizim fundamental maraqlarımıza xidmət edir” açıqlaması ilə ABŞ hökuməti Çin siyasətini dəyişmədiyini göstərməyə çalışdı. Lakin Çju Quananın ultimatum tonlu son bəyanatı göstərir ki, rəsmi Pekin səlahiyyət müddətini başa vuran Obama administrasiyasının yox, Trampın nə dediyinə daha çox önəm verir.

Ümumilikdə XXI əsrin əvvəllərində ABŞ və Çin münasibətlərini proqnozlaşdırararkan bu dövlətlərin siyasətinin konseptual əsaslarını və onların Cənubi Asiya regionunda yürütdükləri siyasəti ətraflı təhlil etmək gərəkdir. Burada Corc Buş, Barak Obama və Donald Tramp administrasiyalarının xarici siyasət doktrinalarında Çin komponenti, XXI əsrin əvvəllərində Çinin xarici siyasət doktrinasında Amerika komponenti, ikitətəfli səviyyədə Amerika-Çin ziddiyyətləri, nüvə faktoru və Cənubi Asiya siyasətində enerji çatışmazlığı problemi, Cənubi Asiyanın təhlükəsizliyində ABŞ və Çin amili təhlil edilərək mövcud gözləntilər verilə bilər.

Çin və ABŞ-ın Cənubi Asiya regionunda rəqabəti münasibətlərin davam etdirilməsində xüsusi önəm daşiyir. Bu baxımdan Çinin Cənubi Asiyada “inci sapı” strategiyası və onu əhatə edən dövlətlər (Pakistan, Şri Lanka, Myanma, Banqladeş), Çin və Pakistanın hərbi tərəfdaşlığı, Pakistan, Hindistan və Çinin Kəşmir siyasəti və strateji dərinlik savaşı proqnozların verilməsi üçün önəmlidir.

ABŞ-Çin-Hindistan “üçbucağı”ndakı ziddiyyətlər və gələcək perspektivlər, ABŞ-ın Əfqanıstana strategiyasında sabitsizliyin təsirin artırılmasında rolu, ABŞ və Hindistanın nüvə əməkdaşlığı, eləcə də son zamanlar  Pakistan-ABŞ münasibətlərində “tektonik zəlzələ” – strateji müttəfiqlərin yerdəyişməsi yaxın gələcək üçün proqnozların verilməsndə bazis təşkil edir.

### *5.2.3. Dünya siyasətində Ərəb-İsrail konflikti:təhlil və proqnozlar*

Ərəb-israil münaqişəsi – İsrail ilə Yaxın Şərqdə mövcud olan bir neçə ərəb dövlətləri, xalqları və təşkilatları arasında hərbi, siyasi, dini, iqtisadi və məlumat qarşıdurmasıdır.

Konflikti doğuran səbəblərin komplekslərini müəyyənləşdirərkən, aşağıdakıları qeyd etmək lazımdır:

1. tarixi-ərazili (tarixin müxtəlif dövrlərində bu torpaqlarda yaşamış ərəblərin və yəhudilərin Fələstin torpaqlarına iddiası);

2. siyasi-ideoloji (yəhudi dövlətinin qurulmasının planlaşdırıldığı torpaqlarda yaşayan ərəb məsələsini sionizmin zəif işləməsi, eyni zamanda ərəb liderləri tərəfindən təyin olunmuş kompramissiz siyasi istiqamət);

3. dini (eyni vəya bir-birinə yaxın peyğəmbərlərin mövcudluğu);

4. iqtisadi (strateji ticarət yollarının blokadaya alınması);

5. benyəlxalq-hüquq (tərəflərin BMT-nin və digər beynəlxalq təşkilatların təkliflərinin yerinə yetirməməsi);

6. beynəlxalq-siyasi (fərqli etaplarda fərqli dünya güc mərkəzlərinin konfliktin qızışmasında marağı);

*Qarşıdurmanın 4 əsas mərhələsi*. Birinci mərhələdə (14 may 1948-ci ilə qədər) konflikt sırf lokal xarakter daşıyırdı. Qarşıdurmanın konkret subyektlərini müəyyənləşdirmək kifayət qədər çətindir, çünki hər iki düşərgədə güclər həm dialoqa həm də ziddiyyətə köklənmişdi.

**Ikinci mərhələ** 1948-ci il müharibənin başlamasından 1973-cü ildə müharibənin bitməsinə qədər olan dövrü əhatə edir. Bu period ən qanlı qarşıdurma oldu və onu qarşıdurmanın nüvəsi kimi qeyd etmək olar. Bu 25 il ərzində 5 tam əhatəli hərbi toqquşmalar baş verdi. Onların hamısı İsrailin qələbəsiylə başa çatdı. Bu dövrdə sistematik sülh prosesləri çatışmırdı (çox nadir olan döyüş sonrası sülh danışıqlarını çıxmaq şərtiylə).

Konfliktin **üçüncü mərhələsi** (1973-1993) sülhməramlı proseslərin başlanğıcıyla, ardıcıl strateji danışıqlarla və sülhməramlı müqavilələrlə (Kemp-Devid, Oslo) xarakterizə olunur. Burada bəzi ərəb

dövlətləri öz mövqelərini dəyişərək İsraillə sülh müqaviləsi bağladılar. Lakin, müsbət əhval 1982-ci ildə Livandakı müharibə nəticəsində kölgədə qaldı.

1994-cü ildən - konfliktin **müasir mərhələsi**. Hərbi qarşıdurma terrorizm və anti-terrorizm əməliyyatları sahəsinə keçdi. Sülh prosesləri sistemli olmasına baxmayaraq, uğurlu olmadı. Konfliktin həlli beynəlxalq məsələyə çevrildi. Bu mərhələdə konfliktin iştirakçıları (bəzi radikal terror qruplarını çıxmaqla) konfliktin məhz sülh yolu ilə həllinin vacibliyini dərk etdilər.

Lakin konflikt qısamüddətli prespektivdə kəskinləşəcək. Bu hadisələrin gedişatı variantında əsas rolu aşağıdakı **faktorlar** oynamalıdır:

1. ABŞ-n İsraili dəstəkləməsi və "Qüds" məsələsi
2. İsrailə düşmən İrananın nüvə proqramı terror təşkilatlarının mövqelərinin güclənməsinə səbəb olması;
3. Onlar tərəfindən dəstəklənənlər (Həmas, Hizbullah);
4. Fələstində faktiki ikili hakimiyyətin mövcud olması, kompramisə getməyə tamamilə narazı olan 2 hakimiyyət mərkəzi (Hamas, Fəth) PA-nın suveren bölgüsünü çətinləşdirməsi;
5. Sağçıların hakimiyyətə gəlməsi, İsrailin mövqeyini sərtləşməsi;
6. Radikal islam qruplarının İsrailin mövcudluq haqqını tanıması barədə, heç olmasa, terror əməliyyatlarını dayandırmaqda narazılığı;
7. Təklif olunan variantlar konfliktin hər iki tərəfini qane etmədiyi üçün Qaçqın probleminin həllində çıxılmaz yol;
8. Regionda su mənbələrinin tükənməsi.

ABŞ-ın Fələstin Siyasəti bu konfliktdə önəmli rol oynayır. Belə ki, hələ 1918-ci ildə Amerika Konqresinin Balfour Bəyannaməsini təsdiq etməsi yəhudilərə, Fələstində bir Yəhudi Yurdu qurulması istiqamətində dəstək verdiyini göstərmişdir. Birinci Dünya Müharibəsindən sonra ABŞ, İngiltərənin Yaxın Şərqdə atdığı addımları dəstəkləmiş, Fələstinin ingilis mandatı altına girməsinə qarşı çıxmamışdır. İkinci Dünya Müharibəsi sonrası Fələstin məsələsi ilə əlaqədar olaraq

müxtəlif ərəb liderləri ilə ABŞ səlahiyyətliləri arasında danışıqlar aparılsa da, ABŞ-ın dəqiq bir Fələstin siyasəti meydana gətirdiyini söyləmək mümkün deyil. ABŞ-ın problemə tam mənasıyla müdaxilə etməsi, İngiltərənin Fələstini BMT mandatına buraxmasından sonra gerçəkləşmişdir.

Corc Buşun hakimiyyəti dövründə İsrail-ABŞ əlaqələrində Reqan dövrünə görə geriləmə yaşanmışdır. Baxmayaraq ki, Buş iqtidara gələr-gəlməz İsrailə işğalçılıq siyasətindən imtina etməsi istiqamətindəki tövsiyə vermiş və Qüdsü İsrail tərəfindən işğal edilmiş bir bölgə olaraq xarakterizə etmiş olsa da, 1990-cı ildə ortaya çıxan Körfəz Döyüşü, ABŞ-ın Yaxın Şərq mənfəətləri üçün İsraildən imtina edilməz olduğunu yenidən göstərdi. Ayrıca Körfəz Döyüşündə FQT-ın İraq və Səddam Hüseyn tərəfdarı olaraq mövqe göstərməsi, Ərafatın 30 illik mübarizəsinin ən böyük yanlışlığı olmuş və bununla da beynəlxalq platformada İsrailin dəstəyini gücləndirilməsinə rəvac vermişdir.

1992-2000-ci illər arasında ABŞ prezidenti Bill Klinton dövründə, Fələstin probleminin həlli üçün əhəmiyyətli sülh danışıqları edilsə də, bu uğurlu olumamışdır.

Bu dövr Konqres və Senatın Respublikaçıların əlində olması səbəbiylə, Klintonun problemin həlli üçün daha ciddi addımlar atması əngəllənmişdir. 1973-cü il Yom Kipur müharibəsiylə bölgədə əhəmiyyətli bir aktor olduğunu sübut edən və Ərəb Dövlətlərinin ABŞ əleyhinə neft embarqosuna başlaması səbəbiylə İsrail, ABŞ-ın Yaxın Şərqdəki ən əhəmiyyətli müttəfiqi halına gəlmiş və ABŞ-ın Fələstin probleminin həllinə istiqamətli cəhdlərini rahatlıqla rədd etmək imkanına qovuşmuşdur. 2018-ci ilin mayında ABŞ səfirliyinin Tel-Əvivdən Qüdsə köçürülməsi bunu bir daha təsdiqləyir.

Nəticə olaraq, demək olar ki, Ərəb-Israil münaqişəsi ən yeni dövrün ən uzun və kəskin regional konfliktlərdən biri olaraq davam etməkdədir.

### *5.2.4. Dünya siyasətinin ikinci planda olan aktorlarının təhlükəsizlik strategiyası və motivasiya analizi*

*Braziliya: "Milli təhlükəsizlik strategiyası* (18 dekabr 2008-ci il). "Milli təhlükəsizlik strategiyası milli inkişaf strategiyasından ayrılmır. İkincisi, birincisini təyin edir. Birincisi isə öz növbəsində ikincini qoruyur. Onlar qarşılıqlı əlaqədədirlər".

Əsas fikir: "Braziliya – inkişaf edən fövqəl dövlətin yeni halıdır". Çində olduğu kimi, Braziliya da doktrinasında özünü yeni böyük fövqəl dövlət kimi təqdim etmək və heç bir konflikt istəmədiyini bildirmək istəyir. Lakin çinlilərdən fərqli olaraq, braziliyalılar mühakimə etməyə tələsmirlər və yaraların sağalmamasına baxmayaraq, bu problemlərin üzərində çox qalmırlar. Sənəddə ölkənin hərbi hazırlığını dəstəklənməsinin, sərhədlərin təhlükəsizliyinin təmin olunmasının, Amazon regionunun müdafiəsinin və sülhməramlı əməliyyatların həyata keçirilməsi üçün hərbi hazırlığın önəminə xüsusi diqqət yetirilir. Doktrinada Braziliyanın heç bir beynəlxalq ambisiyası əks olunmamışdır. Rusiya və Hindistan kimi Braziliya strategiyası da "cənubamerikan inteqrasiyası" düşün-cəsiylə məhdudlaşaraq, qonşularına istinad etməkdən imtina edir. Digər nəzərdən keçirilən bütün sənədlərdən fərqli olaraq, Braziliya terrorizmlə beynəlxalq mübarizə haqqında heçnə qeyd etmir. Nəticə etibarilə, bu sənəd milli təhlükəsizlik doktrinasına deyil, hər hansı bir benynəlxalq qeyri-hökümət təşkilatın inkişaf strategiyası eskizlərinə bənzəyir.

*Hindistan: "Hindistan hərbi doktrinası*" (oktyabr 2004-cü il).

Sitat: "Son illərdə, Hindistan xarici aktorlar tərəfindən təhrik olunaraq, Cammuda və Kəşmirdə müəyyən xarici dövlətlər tərəfindən maliyyələşdirilən terrorist və döyüşçü qruplarının törətdikləri terror aktları ilə mübarizə aparmağa cəlb olunub".

Əsas fikir: "bütün bilinən şimal-qərbi dövlətlərdən qorxun. Hindistanın hərbi doktrinası heç vaxt Pakistana istinad etmir, lakin Dehlinin məhz bu yöndən gələn təhlükə narahatlığı doktrina rəhbərlərinin Kəşmirdəki terrorçulara qarşı əməliyyatlardan və regionda nüvə başlıqlarının oğurlanması riski ilə bağlı keçirdiyi monitorinqdən aydın

olur. Doktrina 2004-cü ildə çox popular olan kiber müharibə nəzəriyyəsinin və hərbi işdə tərəqqinin təsiri ilə tərtib olunmuşdur. Hal-hazırda Hindistan qoşunu yeni doktrinanın hazırlanması üzərində işləyir. Bu doktrinaya "2 cəbhədə müharibəyə" hazırlıq əlavə olunacaq. Bu 2 cəbhə müvafiq olaraq, bir-birinə yaxınlaşan Çin və Pakistandır. Hindistan doktrinasının maraqlı məqamlarından biri də, dini yazılardan olan sitatların yer almasıdır (məsələn, "Korana" və "Bxaqavad-qita").

### *5.2.5. Dünya siyasətində kiçik dövlətlərin təhlükəsizlik motivasiyası və strategiyaların təhlili*

Beynəlxalq münasıbətlər beynəlxalq arenada hərəkət edən dövlətlər, xalqlar, siniflər, sosial qruplar, partiyalar, təşkilatlar, hətta ayrı-ayrı şəxslər arasında iqtisadi, hüquqi, diplomatik, ideoloji, mədəni, sosial-psixoloji, ticari, hərbi və digər əlaqə və qarşılıqlı təsirdən yaranır. Yuxarıda qeyd etdiyimiz kimi, müasir dünyada beynəlxalq münasıbətlərin **əsas subyekti** dövlətdir. O, bu münasibətlər vasitəsilə özünün xarixi-siyasi fəaliyyətini qurur.

Kiçik və orta dövlətlər dünya siyasətində özlərini necə aparır? Haushofer onların sayının azalmasının qaçınılmazığı haqda proqnozu təkzib edir, onlar mövcuddurlar və sağ qalma qabiliyyətlərini nümayiş etdirirlər. Böyük olmayan dövlətlərin xarici siyasətlərində bir sıra işləri analiz edən amerikan tədqiqatçısı Cinni Hey onların tez-tez qeyd olunan "davranış xüsusiyyətlərinin" maraqlı sistemini yaratdı. Orta və kiçik dövlətlər beynəlxalq məsələlərdə aşağı səviyyədə iştirak nümayiş etdirirlər və dar ölçülü xarici siyasət məsələləri ilə məşğul olurlar. Onlar öz fəaliyyətlərini hərbi yolla deyil, xarici siyasətin diplomatik və iqtisadi instrumentlərindən istifadə edərək, yaxın coğrafi ərazidə tətbiq edirlər. Bu ölkələr beynəlxalq prinsiplərdə, beynəlxalq hüquqda və digər "mənəvi" ideallarda səy göstərir, millətlərarası müqavilələrə əməl edir və mümkün olduğunda beynəlxalq təşkilatlara üzv olurlar. Böyük olmayan dövlətlər neytrallığı qoruyur və təhlükəsizlik, təbii ehtiyat, əməkdaşlıq məsələlərində qüdrətli iştirakçılarla yaxınlaşırlar. Bir-birləriylə münasibətdə konfliktdən qaçır, əməkdaşlığa yiyələnirlər.

Son olaraq, onlar təhlükəsizliklərini qorumaq üçün böyük həcmdə xarici siyasi resurslarından istifadə edirlər.

İlk baxışda, “kiçik dövlətlərin” ikinci pilləliyi təsdiqlənir. Lakin, bir andan sonra anlayırsan ki, eyni zamanda həm neytrallığı saxlayıb qüdrətli iştirakçılara yaxınlaşmaq, həm də təhlükəsizlikləri üçün əsas resurslarını istifadə etmək çətindir. Ola bilər ki, siyahıya fərqli “ikinci dərəcəli” siyasət xüsusiyyətləri daxil oldu. Bir çox böyük olmayan dövlətlər “metropoliya” tərəfindən başçılıq edilən təşkilatlara üzvdürlər, onlarla əməkdaşlıq münasibətlərinə sahibdirlər, öz mövcudluqlarının təmin olunmasında sponsor/patron (müdür) kimi onlara arxalanırlar.

*Dünya siyasətində geosiyasi periferik dövlətlər*. Yarım periferik və periferik dövlətlər – bunlar “ikinci” və “üçüncü” dünya ölkələri hesab olunurlar. “Üçüncü dünya” (tiers monde) termini 1952-ci ildə fransızlar tərəfindən ABŞ və SSRİ arasındakı (2 dünya) “soyuq müharibə” erasında mübarizə aparan heç bir tərəfə qoşulmayan ölkə qruplarını təsvir etmək üçün istifadə edildi. Mərkəzlə periferiya arasındakı mövqeni yarım periferiya tutur. Bura aid olan dövlətlər güclü sənayeyə sahib olub (məsələn Braziliya), lakin siyasi və iqtisadi göstəricilərinə görə gücləri mərkəz dövlətlərə çatmadığı üçün yarım periferik dövlət kimi qeydə alınırlar. Bu dövlətlər üçün xammalın ixracı əsas gəlir mənbəyi olduğu üçün, periferik dövlətlər mərkəz üçün xammal əlavəsi hesab olunur. Afrikanın və Latın Amerikasının ən geridə qalmış dövlətləri bu sıraya aiddir. Vallerstayn marksizmin avropa ölkələrinin sənayelərinin əmək və təbii ehtiyatları sayəsində inkişafı tezisiylə razılaşmayıb, belə fikir söyləmişdir: inkişaf etmiş “mərkəz” keçmişdə olduğu kimi, indi də “periferiyanın” ucuz işçi qüvvəsindən istifadə etməlidir. Dünya iqtisadiyyatının “yarım-periferik” dövlətlərinin vəziyyəti ikili xarakter daşıyır: onlar istismar olunan və eni zamanda zəif inkişaf etmiş dövlətləri istismar edən rolunda oynayırlar. İstisna deyildir ki, bəzi dövlətlər (Rusiya da daxil edilə bilər) “mərkəz” dövlətlər sırasına daxil olub, öz statuslarını dəyişə bilərlər və ya “periferiyaya” çevrilə bilərlər.

Ümumi olaraq, neomarksizmdə benyəlxalq əlaqələrin mövcüdluğunun mənası sıradakı hallarda üzə çıxır:

- Qloballaşma şəraitində varlı və kasıb ölkələr arasındakı qütbləşmənin sürətlənməsi, onlar arasında əlaqələrin mübahisəli xarakter almasına gətirib çıxaracaq. Gələcəyin dünya sistemi periferik dövlətlərin bu strategiyaya tab gətirə bilmələrindən aslıdır;
- Beynəlxalq aləmdə subyekt dövlətlərdir, əsasən qüdrətli iştirakçılardır. Dövlətlər "iqtisadiyyat-dünyasının" maraqlarının dirijorları hesab edilirlər və onların sayəsində transmilli korparasiyaların qarşılıqlı əlaqələri, kapitalların ümummilliləşdirilməsi, sənaye kompleksləri arasında koordinasiya kimi fikirlər anlaşılır;
- Öz liderliyini sadəcə "periferik" dövlətlərdə yox, hətta "mərkəz" dövlətlərində yayan, dominant iştirakçı ABŞ-ın mövcudluğu.

Bu şəkildə, söhbət "mərkəz" və "periferiya" arasındakı, onların xarici siyasətlərində əsas mübarizə sahəsi olan simmetrik olmayan qarşılıqlı aslılıq münasibətindən gedir. İnkişaf etmiş dövlətlər bu halın saxlanılmasında maraqlıdırlar (mənaca, özüylə birlikdə asılılığı da gətirir). "Periferik" dövlətlər isə, əksinə, mövcud halı dəyişib, yeni dünya iqtisadiyyatı nizamı yaratmağa can atırlar. Nəticə olaraq, hər iki tərəfin əsas maraqları daxili əmin amanlığın aslı olduğu xarici siyasət sferasında yer alır.

Orta qüdrətli olmaq asandırmı?

Hey kiçik və orta dövlətlərin xarici siyasətində müqayisəli empirik tədqiqatların olmamasını qeyd etdi. Bu müqayisələrin əsasında nəyinki, dövlətləri tipologiyalara bölmək, hətta onların fəaliyyətlərini izzah edən nəzəriyyələr də yaratmaq mümkündür.

Müasir dünyada ölkələri iri, orta və xırda dövlətlərə bölmək üçün dəqiq kriteriyalar varmı? Məgər müasir dövlət qurumlarının tipologiyaları mövcud deyil? Bu yaxınlarda ispan tədqiqatçısı Josep Kolomer öz kitabında legal statuslarını deyil, dünya sistrmində

rollarını əsas götürərək 3 bölgü vermişdir: böyük imperiyalar, kiçik nasiyalar və suveren dövlətlər. Güclü imperiyaların (ABŞ, Çin, Aİ, Yaponiya, Rusiya) ərazisi və əhalisi çoxdur. Onlar qəti və davamlı sərhədlərə malik deyillər, özlərində fərqli qruplarlar və territorial birliklər cəmləyirlər, özlərini çox səviyyəli sistem hesab edir və bir-birlərinə hüquqi əlavələr edirlər. Onlarda dünya əhalisinin 40%-i yaşayır və ümum dünya bazarının 80% istehsalına malikdirlər. Bir çox böyük olmayan dövlətlər "metropoliya" tərəfindən başçılıq edilən təşkilatlara üzvdürlər, onlarla əməkdaşlıq münasibətlərinə sahibdirlər, öz mövcudluqlarının təmin olunmasında sponsor/patron (müdür) kimi onlara arxalanırlar.

Suveren dövlətlər ərazi və əhalisinə görə böyük və ya orta olurlar, formal səehədlərə,hüquqi və faktiki suverenliyə malikdirlər. Onlar ərazilərə inteqrasiya və əhalinin yekcinsliyi ilə aktiv məşğul olurlar. Onların sayı 30-dur. Bunlardan 23-ü Avropada (Aİ-nin 19 üzvü), 3-ü Amerika qitəsində, 2-si Asiyada və 2-si Okeaniyada yerləşir. Onlar eyni zamanda imperiya mərkəzləri də hesab olunurlar. Fərqli fəaliyyət problemlərinə sahib olduqlarına və prinsipcə dövlət kimi formalaşmadıqlarına görə inkişaf etməkdə olan dövlətlər bu qrupa daxil deyillər. Buna görə də, biz axtardığımız kişik və orta dövlətləri sadəcə "köhnə" Avropada və Yeni Zellandiyada tapa bilərik. Dünya arenasında onlar bütün xarici siyasət nüanslarına baxmayaraq, "qərb" xətti üzrə hərəkət edirlər.

Kiçik ərazi və əhali, yüksək etnik eynilik, sadə və "yumşaq" idarə forması legitim və real həllərə nail olmağa imkan yaradır. Onlara sadəcə mini və makro dövlətlər deyil, həm də subnasional birliklər də aiddir (ştatlar, regionlar, dövlətin de-faktosu). Kolomer üçün onlar demokratik standartları optimal şəkildə reallaşdırmağa imkan yaratdıqları üçün cəlbedicidir. Reallıqda isə, onların arasında demokratik metropoliyalarla yanaşı, dövlət-siyasət formasiyalarında onlarla və hətta yüzlərlə problemdən, periferiyadan aslı olan hissələri də var. Kiçik politiyalarda inteqrasiya edən xarici siyasət funksiyalarını xəyal etmək mümkün deyil. Kolomerin tədqiqatı dünya sistemində suverenliyin təyin olunmasında dərin hərəkətlərin tendensiyasını müəyyən

etdiyi üçün maraqlıdır. Lakin, "demokratik bağça"da deyil, formallaşdırılmış siyasi məkanda çıxış edənlər üçün yararsızdır. Suveren dövlət modeli beynəlxalq münasibətlərdə əsas ərazi yanaşmalarının nüvəsi kimi qalır.

Dövlətlərin tipologiyasının yaradılmasına məhşur politoloq M.V.İlin də səy göstərmişdir. Statusun və yerinə yetirilən xarici funksiyaların parametrlərinə görə, o sıradakı tipləri verir: meqa dövlət (beynəlxalq sistemlərin tərtibatçıları), makro dövlətlər (öz sərvətlərinə sahib olan, liderlərlə münasibətlərdə orjinal vasitəçilərdilər), mini dövlətlər, mikro dövlətlər, dövlət segmentləri (kiçik statusa malik muxtar birliklər), tanınmayan/qondarma dövlətlər – vəziyyət və dövlət – sürgün olunmuşlar (fərqli ölçülərə sahib olan, fəaliyyət baxımından simvolik alternativ kimi və ya hətta dünya liderlərinə/liderinə təhlükə kimi çıxış ddirlər).

Bizi 2 sinif maraqlandırır: mini və mikro dövlətlər. Birincilər böyük olmayan əraziyə və əhaliyə, asılılıq kompleksinə malikdirlər. Lakin, bəzi hallarda müstəqil daxili və eyni zamanda xarici siyasət yürütməyə qadirdirlər. Onların ən vacib funksiyası – beynəxalq münasibətlərin nüanslaşdırılmasıdır. Neytral statusa malik olmalarına baxmayaraq, müstəqil mövqe tutmaq onlar üçün çox çətindir. İkincilər məhdud ehtiyatlara sahibdirlər və çox güclü asılılıq kompleksinə malikdirlər. Onlar ərazinin formal təşkilatının instrumenti rolunu oynayırlar.

Eyni zamanda M. İlin dövlət imkanları faktorunu daxil edir. Lakin qeyd edir ki, imkan siyasi elmdə zəif araşdırılıb. Əsasən də, onun kafilik variantlarının müəyyənləşdirilməsi sahəsində pis öyrənlilib (Fukuyamanın "Güclü Dövlət" işinə diqqət yetirmək lazımdır). Bu ölçünün qoşulması iki böyük qrupu ayırmağa imkan yaradır – daxili suverenliyin və imkanların zəif olan kvazi dövlət və öz ərazisində siyasi nizamı təmin etməyə qadir olmayan uğursuz dövlətlər.

Bu tipologiya fərqli dövlət tiplərini onlar tərəfindən edilən ümumsistem funksiyalarını inandırıcı şəkildə ayırdığı üçün analitik olaraq produktivdir. Bundan əlavə, o, parametrlərin qarışma problemini təyin edir. Lakin bizim məqsədimiz dövlətləri bu və ya digər

qruplara birləşdirmək üçün əsasları müəyyənləşdirmək və dünya arenasında onun fəaliyyətini başa salmaqdır. Orta dövlətlər "evsiz" olaraq qalırlar: "makro" sinifdən daha böyük və təsiredici və ya "mini" sinifindən daha böyük və təsiredici olanları təklif etmək olar.

Hansı dövlətləri analiz etmək lazımdır? Hansı kriteriyalar tədqiqat sualının doğruluğuna qulluq edə bilər? Ərazinin ölçüsü? Lakin, Çadın və ya Konqonun ərazisi Yaponiyanın ərazisindən dəfələrlə böyükdür. Banqladeşdə 160 milyon insan yaşayır. Bəs bunu necə funksional baxış bucağından makro dövlətlərə aid etmək olar? Lüksemburq, Qatar, Bruney və Küveyt əhalinin sosial həyat təminatının ən yüksək olduğu 5 dövlət sırasına aiddirlər. Çətin ki, kimsə İsrailin ABŞ-a siyasi təsiri olduğu haqqında mübahisə etsin. Nüvə silahına malik olmaq? O Pakistanda, Şimali Koreyada və İsraildə var. Dövlətin funksional bacarıqları? Dünya bankının göstəricilərinə görə, yalnız Sinqapur yox, hətta Bəhreyn də Braziliyanı, Rusiyanı və Çini çox arxada qoyurlar. Təbii ehtiyatlar? Bu çox geniş anlayışdır. Bəziləri Qətər kimi nəhəng qaz ehtiyatlarına, bəziləri də Sinqapur kimi infrastruktur və texnologiya ehtiyatlarına malikdir. Kriteriya praktiki olaraq resursların olmaması ola bilər, məsələn, kiçik Niue-nin domen adı "NU" ilə ticarət etməsi. Resursların xüsusi şəkli – siyasi gəlir Harvard politoloqu Robert Rotberq tərəfindən təklif olunan daha bir tipologiyaya xidmət etdi. Gəlir (mənfəət) fikri altında o hökümətin cəmiyyətin gözləntilərini ödəmək bacarığının nəticələrini və öz istehsalında vətəndaşların iştirakı üçün infrastrukturu təmin edilməsi kimi anlayır. Təhlükəsizlik, qanunilik, siyasi azadlıq, iqtisadi imkanlar, infrastruktur və vətəndaş aktivliyini artırmaq üçün şərtlər bura daxildir.

Siyasi mənfəətə sahib olunması səviyyələrinə görə Rotberq, sıradakı dövlətləri ayırır: güclü (dözümlü istehsalını nümayiş etdirənlər), zəiflər (dözümsüz və məhdud genişlikdə olan istehsalçılar), tələf olanlar və süqut etmiş olanlar.

Bu tədqiqat "kiçik" və "orta" dövlətlərin xarakteristikalarının yayılmasının, ərazi və əhali sayı arasında uyğunsuzluğun qarşısını alma imkanı yaratdığı və dünya və ya regional lider olmayan zəngin (siyasi mənfəət istehsal etməyə qadir olanlar) və politikanın dövlət

statusuna malik qrupu dünya siyasətində xilas olunmalı obyekt və ya kriminal təhlükə mənbəyi (Malavi və ya Somali kimi) kimi çıxış etməməyə qadir olan bu qrupu ayırmaq üçün yararlıdır. Bu cür fərqləndirmə “Heyin siyahısında” da ziddiyyətlərdən qaçmağa imkan yaradacaq.

Dövlətin ölçüsü onun siyasi hərəkətlərinin açıqlanmasında məna kəsb edir. Tarixdən göründüyü kimi, 50-60 milyondan az əhaliyə sahib dövlətlər beynəlxalq sistemin təşkil olunmasında iştirak etmirlər. Amma bu kriteriya özlüyündə kifayət deyil, ən az başqa 3 ölçüdən də istifadə olunmalıdır: funksional bacarıq, ümumi inkişaf səviyyəsi və “individual” fərqlilik. Hal-hazırdakı qarşılıqlı asılılıq kiçik və orta dövlətlər üçün siyasi təsirdə yeni prespektivlər yaradır, yəni sadəcə aparıcı dövlətlərin qərarlarının “nüanslaşdırılması” deyil, hətta onlara ciddi təsirlər göstərilməsinə imkan yaradır.

Funksional bacarıqların analizi idarənin effektivliyini (bürokratik aparatın keyfiyyəti), icraedici qüvvənin tərkibi (konsensus /konsolidasiya/fraqmentasiya nöqteyi baxışından) və resurslardan bir başa aslı olmadan lakin, onların köməyi ilə “siyasi mənfəət” istehsalı bacarığını tələb edir. Resurslar asılı dəyişən hesab edilir və siyasi elitanın istiqamətləndirilmiş səyləri (Sinqapurun texnoloji və infrastuktur imkanları) və ya uğurlu geosiyasi mövqe nəticəsində “üstü açıla bilər”.

Cəmiyyətdə baş verən prosesləri tədqiq edərkən, dominant mədəniyyər tipini də nəzərə almaq lazımdır. Rasional tip güclü xarici siyasət əlaqələrini və əməkdaşlıqları tələb edir. Patrimonial tip isə formal və şəffaf olmayan siyasi qərarların verilməsinə üstünlük verir. Fərqli funksional bacarıqlar kiçik və orta dövlətlərin xarici siyasət istiqamətlərinin differensiyasını müəyyənləşdirəcəklər.

Dövlətlərin individual xüsusiyyətləri - xüsusi resursların mövcudluğu, məsələn, İsrail üçün - milli din və sionizmin xüsusiyyətləri, Fars körfəzində monarxiya üçün - böyük karbohidrogen ehtiyatlarına malik olması, Kuba üçün yəgin ki, Fidel Kastro xarizması.

Beynəlxalq əlaqələrin tipi də məna kəsb edir. Hal-hazırdakı qarşılıqlı asılılıq kiçik və orta dövlətlər üçün siyasi təsirdə yeni prespektivlər yaradır, yəni sadəcə aparıcı dövlətlərin qərarlarının “nüanslaşdırılması” deyil, hətta onlara ciddi təsirlər göstərilməsinə imkan yaradır. Bu əvvəla, beynəlxalq əlaqələrdə iqtisadi ölçünün güclənməsi və iqtisadi gücün siyasətə təsir imkanlarının genişlənməsi ilə bağlıdır. Amerikan politoloqu Ceyms Rozenau bu fenomeni “formal olmayan penetrasiya” adlandırmışdır.

Penetrasiyaya (nüfuzetməyə) yeni bir misal - suveren fondların aktivlikləridir. 1997-1998-ci il maliyyə krizisindən sonra MVF zərər çəkmiş ölkələrə beynəlxalq valyuta rezervləri yaratmağı məsləhət gördü. Kiçik və orta dövlətlər arasında ən güclü suveren fondlara sahib dövlətlər: BƏƏ (875 milyard dollar), Sinqapur (330 milyard dollar), Norveç (322 milyard dollar), Küveyt (250 milyard dollar), Honkonq (140 milyard dollar), Liviya (50 milyard dollar). Qərbdən şərqə istiqamətlənən maliyyə axını il ərzində 0,5 trilyon dollara yaxındır və bu “qəbul edən” Avropa dövlətlərini və ABŞ-ı, MFV-i (Milli valyuta fondu) və digər beynəlxalq bankları ciddi şəkildə narahat edir. MFV-in tədqiqat şöbəsinin direktoru Simon Consona görə, suveren fondlar hal-hazırda XXI əsrin maliyyə bazarında ən böyük dövlət oyunçuları hesab olunurlar.

“Penetrasiya”ya bir başqa misal miqrasiya axınlarıdır. Təbii ki, onlar dövlətin qərarlarına əsasən formalaşmır amma belə deyək, ümumilikdə Aİ-nin bir çox ölkələrində müsəlman diasporalarının siyasi aktivliyi nəticəsində ağıl konsepsiyasının xüsusiyyətləri müsəlman dövlətləri tərəfindən öz siyasi maraqlarında istifadə oluna bilər.

Beynəlxalq sistemdə qeyri sabitliyin yüksəlməsi də həmçinin kiçik və orta dövlətlərin müstəqilliyini və onların əhəmiyyətlərini obyektiv olaraq artırır. Bu, keçmiş postsovet dövlətlərin, Ukrayna və Gürcüstanın obyekt roluna yüksəlmələri nümunəsində daha yaxşı görünür. Dünya arenasındakı dəyişikliklərə göstərdikləri ani reaksiya onların resurslarına çevrilir.

Təqdim olunan, daha da çətinləşən dünya siyasəti proseslərinin nəznində fərqli böhran təsirləri, “güc mərkəzlərinin” konfigurasiyasında

destabillik və yeni balansın axtarılması dövlətlərdə “dünyanın talehi” nin məsuliyyətini, azadlıq hissilərini, “çarəsizlikdən azadlığa” düşüncəsini, avanturizmi doğurur.

Məsələn, Gürcüstanda Cənubi Osetiyadakı əməliyyatlar və ya Rusiya və Ukrayna arasında qaz konflikti.

Kiçik və orta dövlətlərin tərkibi eyni mənşəli deyil. Bu analitik məqsədlərdə müəyyən kategoriyaları ayırmaqda çətinlik yaradır. Bu dövlətlərin dünya siyəstində rolları fərqlidir, buna görə də, uyğun analiz geniş empirik tədqiqatlara əsaslanmalıdır.

Xarici siyasət istiqamətlərinin differensiyası öçlülərinə və resurslarına görə yox, onların funksional bacarıqlarına əsaslanır. Bir sıra qloballaşma prosesi hadisələri baxılan dövlətlər qruplarının məlum və naməlum siyasi təsir imkanlarını özləriylə gətirirlər. Geosiyasət elminin görkəmli alman nümayəndəsi K. Haushofer (1869-1946) dövlələrin əsas vəzifəsinin “həyati məkanı” genişləndirmək olduğunu düşünürdü. Bu da müstəqil xarici siyasət yürütməyə qadir olmayan, beynəlxalq əlaqələri “destabilizasiya” edən kiçik dövlətlərin istismarını nəzərdə tuturdu.

## 5.3. NATO-nun qlobal siyasəti:inkişafın mümkün təhlil metodları və proqnozlar

*NATO-nun qlobal siyasəti*

II dünya müharibəsindən sonra Qərbi Avropanı Sovet Birliyi təhlükəsindən qorumaq məqsədilə yaradılan bu ittifaq, günümüzdə digər regionlarda stabilliyi qorumağa çalışır. Bununla belə, onun coğrafiyası və əməliyyat spektrı genişlənir. Son illərdə NATO-nun iş siyahısında – Əfqanıstanda sülhməramlı əməliyyatlar, İraq təhlükəsizlik qüvvələrinin hazırlanması, Darfurdakı Əfqan ittifaqı missiyasının materialla, texnikayla təmin olunması, İndoneziyada sunamidən, “Katrina” qasırğasından və Pakistandakı zəlzələdən zərər çəkənlərə yardım göstərmək vardır.

NATO-nun əməliyyat sferasının genişlənməsi dünya müharibəsindən sonra dünyada yer almış yeni siyasi vəziyyətin nəticəsidir. Bugün Ər-Riyadda böyüdülmüş, Kandaqarda təlimlərdən keçmiş

terroristlər Hamburq şəhərində oturub, Nyu-York şəhərində ölümcül hücumlar planlaşdırmağa qadirdirlər. Konkret bir yerdə baş verənlər dünyanın istənilən nöqtəsindəki insanların təhlükəsizliyinə, rifahına, həyat və sağlamlığına zərər vura bilər. İffitaqın fikrincə, mövcud şəraitdə dünyanın ucqar regionlarını qorumaq üçün tək yol – mənbəni zərərsizləşdirməkdir. Belə aktiv müdafiə konsepsiyası güc resurslarının kompleks şəkildə istifadəsinə imkan yaradır: vertalyotlar vasitəsilə insani yardım göstərilməsi və zərər çəkənlərin evakuasiyası, sülhsevərlik əməliyyatı çərçivəsində idarə, saxlama və kəşfiyyatın yerinə yetirilməsi, yerli qüvvələrə təcrübəli zabitlər tərəfindən professional hazırlıq keçilməsi. Aparıcı hərbi təşkilat olan və qlobal stabilliklə maraqlanan bir çox uğurlu dövlətləri özündə birləşdirən NATO bu cür tapşırıqlarla başa çıxmaq üçün idealdır. NATO-nun coğrafiyasının genişlənməsi ilə birgə onun təsir dairəsi də genişlənir. Günümüzdə ittifaq beynəlxalq stabilliyin daha geniş kontekstində müəyyən bir ərazinin suverenliyi və təhlükəsizliyi əlaqəsi olmayan əməliyyatlar da həyata keçirir.

İraqda ABŞ-ın canlı qüvvə sayının çatışmadığını və Avropanın silinmiş ərazilərdə aparılan əməliyyatlarda kifayət qədər iştirak etmədiyini nəzərə alsaq, NATO mövcud öhdəliklərini yerinə yetirməkdə çətinlik çəkir. Bununla belə, ittifaq davamlı olaraq Avropadan kənarda güc tətbiqinə və humanitar yardımlara ehtiyacın vacib olduğunu vurğulayır. Onun dairəsində olan potensial iştirakçılar hələ də, iştirakçıların şimali amerikalı və avropa ölkələrindən olması ilə məhdudlaşdırılırlar. Avstraliya, Yeni Zellandiya və Yaponiya kimi ittifaqın əməkdaşlarından başlayaraq Transatlantik birliyə daxil olmayan ölkələrin baxış bucağına əsasən təşkilatın rolunu yenidən müəyyənləşdirmək fikri gözdən keçirilir. Sıradakı yenilik NATO-nun öhdəliklərini yerinə yetirməyə kömək etməyə hazır və qadir olan bütün demokratik ölkələrin təşkilata qəbul edilməsi olmalıdır. Dövlətlərin qlobal ittifaqı mövcud qlobal problemlərlə mübarizəyə qadir ola bilər.

NATO-nun gələcəkdə genişlənməsi ehtimalı ittifaqa Qərbi Avropa dövlətlərinin daxil olmasına bənzər qərarların qəbul edilməsini təmin edilməsinə kömək edəcək. Belə qərarlar özündə qlo-

bal əməkdaşlığı təzahür etdirə bilər. Həmçinin, hərbi əməkdaşlar və Belçikadakı NATO qərargahı arasında rəsmi kontaktların yaranmasına kömək edə bilər.

Təşkilatın effektivliyi, heyətin genişlənməsi və NATO-un təsir dairəsi haqqındakı suallardan əlavə ittifaqın mövcudluğu haqqında suallar ortaya çıxarır.

*Böyük Orta Şərq Layihəsi və NATO*

Dünya siyasətinin aparıcı istiqamətlərinin müəyyənləşdirilməsində əldə olunan məlumatlardan istifadə etmək zəruridir və bu gün Orta Şərqdə baş verənlər də böyük siyasətin təhlükəli oyunlarıdır. Bunlar da öncəliklə siyasi və daha sonra iqtisadi amilləri özündə birləşdirir ki, bu da nəticə etibarı ilə insana və bəşəriyyətə ziyan vermiş olur. Orta Şərq ABŞ-ın geostrateji planlarında "Böyük Orta Şərq" (BOŞ) layihəsi kimi təqdim edilərək, hal-hazırda NATO vasitəsilə həyata keçirilir.

ABŞ-ın geostrateji maraqlarında Alyansın genişlənməsi məsələsi durur. Belə ki, soyuq müharibə dönəmindən başlayaraq ABŞ Orta Şərqlə bağlı həyata keçirməyə başladığı, yaxın və Orta Şərqdə baş verən gərginlikləri dərinləşdirdiyi proqramla maraqların toqquşduğu mərkəzi Orta Şərq olaraq müəyyən etdi. Buna səbəb ABŞ-ın gizlədə bilmədiyi və hətta gizlətməyə çalışmadığı strateji maraqların Orta Şərqdə həll olunması idi. ABŞ-ın nəzərdə tutduğu Orta Şərq proqramının həyata keçirilməsi bu ölkənin dünyanın gələcəyi ilə bağlı planlarının təminatı, eləcə də güclü dövlətlərin Orta Şərqdə hadisələrin gərginləşməsi istəyi kimi qiymətləndirilə bilər.

ABŞ-ın xarici siyasətdə uğur əldə etməsi NATO-nun funksional və struktur funksiyalarından Layihə çərçivəsində hansı istiqamətdə istifadə edə biləcəyi ilə əlaqəlidir. Bu transformasiya ilə NATO üzvlərinin əhatə sahəsindən xaricdə olan bölgələrdə daha təsirli bir rol oynaması nəzərdə tutulur. ABŞ, sözügedən layihə qədər böyük və qlobal nəticələr doğuracaq bir layihənin tətbiq olunması üçün iqtisadi və siyasi təcrübəyə malikdir. Ancaq bölgədə layihənin tətbiq olunması mərhələsində hərbi gücü hansı səviyyədə olmasından asılı olmayaraq, baş verəcək silahlı qarşıdurmalarda (İraq və Əfqanistan nümunəsində

olduğu kimi) bu gücə söykənərək tək başına istədiyi nəticəni əldə etməsi birmənalı deyildir. Məhz bu səbəblə də layihəni tətbiq edərkən, yalnız öz hərbi gücünü deyil, eyni zamanda NATO-nun gücündən də faydalanmaq istəyi başa düşüləndir.

ABŞ belə fürsətdən BOŞ layihəsində də istifadə etmək niyyətindədir və böyük bir ehtimalla müttəfiqlərini razı salma istiqamətindədir. 1994-cü ilin sonlarında NATO-nun Şərqə doğru genişlənməsi haqqında qərar qəbul olundu. ABŞ-ın NATO nümayəndəsi Nicholas Burns, 19 Oktyabr 2003-cü ildə Praqada təşkil edilən “NATO və Böyük Orta Şərq” adlı konfransda mövzu ilə əlaqədar etdiyi şərhdə fikrini “NATO-nun vəzifəsi hələ Şimali Amerikanı və Avropanı müdafiə etməkdir. Qərbi Avropada formalaşan NATO əsaslarının Orta Şərq bölgəsində meydana gələcək etnik konfliktlərin, qarşıdurmaların qarşısının alınması və onların idarə edilməsində coğrafi uzaqlıq baxımından təsirinin az olması bəllidir. Odur ki, ABŞ Qərbi Avropada formalaşan NATO birliklərinin Şərqi Avropaya – Polşa, Rumıniya və Bolqarıstana sürüşdürül-məsinə çalışmaqdadır. Hər şeydən əvvəl NATO birliklərinin Cənub-Şərqi Avropaya yerləşdirilməsi həm problemli bölgələr kimi bilinən Körfəz və Orta Şərq bölgələrinə ən qısa müddətdə çatmaq, həm də daha az xərc məsrəf etmək baxımından daha əlverişlidir.

Yaxın Şərqdə bir çox həll olunmamış siyasi, ictimai və iqtisadi məsələlərə görə qeyri-sabitliyin yaranması və Ərəb baharından sonrakı vəziyyət bütün dünya əhalisinin əsas narahatlıq mənbəyi olaraq qalır. NATO Orta Şərqdə sülh prosesinə cəlb olunmasa da, Alyans hər iki münaqişə tərəfinə təklif edilmiş Avropa İttifaqı, Rusiya, BMT və ABŞ kvarteti tərəfindən dəstəklənən Yol Xəritəsinin məqsədlərinin tərəfdarıdır.

NATO və ADD ölkələri arasındakı təcrübi qarşılıqlı fəaliyyət NATO-nun Sülhün Tətbiqi üzrə Qüvvələri (İFOR) və Bosniya və Herseqovinadakı Sabitləşdirmə Qüvvələri (SFOR) və Kosovo Qüvvələri (KFOR) çərçivəsində NATO əməliyyatları Misir, İordaniya və Mərakeş tərəfindən keçmiş və indiki əməkdaşlıqlar zəminində daha yaxşı həyata keçirilir. ADD dövlətləri ilə əməkdaşlığı gücləndirmək

üçün tədbirlər NATO-nun 1999-cu il Vaşinqton və 2002-ci il Praqa zirvə toplantılarında təqdim edilib. Bununla yanaşı, ABŞ-ın Orta Şərqdə ölkələr arasındakı qarşılıqlı yardım və əməkdaşlığı gücləndirmək üçün irəli sürdüyü "İstanbul Əməkdaşlıq Təşəbbüsü" də əhəmiyyətlidir. Bu samitdə əsas təkliflərə:

- NATO-nun transformasiyası və kollektiv cəhdlərin daha yaxşı izahı üçün birgə səylər;
- birgə əməliyyat qabiliyyəti məqsədilə hərbi əmək-daşlığı inkişaf etdirmək, fəlakət və humanitar yardım, tədqiqat və xilasetmə; sülhə dəstək əməliyyatları kimi NATO-nun böhrana qarşı əməliyyatlarda Dialoq dövlətləri qüvvələrinin iştirakı səviyyəsini artırmaq;
- silahlı qüvvələrə demokratik nəzarəti inkişaf etdirmək və müdafiə planlaşdırılması və büdcəsində şəffaflığa yardım etmək, terrorizmlə mübarizə (məsələn, Aralıq dənizində NATO-nun dəniz terrorizmi əleyhinə tədbirləri çərçivəsində əməkdaşlıq və effektli informasiya mübadiləsi vasitəsilə); kütləvi qırğın silahları təhlükəsi üzrə NATO-nun işinə töhfə vermək;
- sərhədlərin təhlükəsizliyi sahəsində əməkdaşlığı inkişaf etdirmək (məsələn, terrorizmə, yüngül atıcı silahların yayılmasına və qeyri-qanuni ötürülməsi ilə əlaqəli, mülki fövqəladə vəziyyət planlaşdırması üzrə inkişaf etdirilmiş əməkdaşlıq);
- Aralıq dənizi tərəfdaşları üçün fəlakət zamanı NATO Baş Qərargahında yerləşən Avro Atlantik Fəlakətə Reaksiyanın Əlaqələndirmə Mərkəzinin yardım təklifi də daxil olmaqla bir çox prioritet sahələrdə praktiki əməkdaşlığı genişləndirmək və inkişaf etdirmək daxildir.

NATO-nun genişlənməsi Şərqi Avropa və Qafqaz respublikalarının resurslarının ABŞ maraqlarına xidmət edən şəbəkəyə qoşulmasını təmin edirsə, hal-hazırda müxtəlif missiyaya malik olan NATO və BMT-nin birgə işləməyə məcbur edilməsi bu Şəbəkəyə Üçüncü Dünya Ölkələrinin və ABŞ-a rəqib olan güclü ölkələrin resurslarının da qoşulmasını təmin edir. Nizamnaməsinə əsasən NATO, sülhü qorumaq üçün, zəruri hallarda, müharibə yolu ilə mübarizə aparan müdafiə xarakterli təşkilat olmalı idi.

NATO ADD-nu uğurlu Sülh Naminə Tərəfdaşlıq (SNT) modeli üzrə real əməkdaşlığa çevirmək ümidindədir. Yaxın gələcəkdə bu ola bilər, lakin real görünmür. Əsl tərəfdaşlıq üçün belə güclü maneələr NATO-nun ADD-da hansı rolu oynaya bilməsi və hansı sahələrdə bu dialoq gücləndirilə bilməsi suallarını doğurur. ADD -nun real dəyəri NATO və Aralıq dənizi tərəfdaşları arasında daha çox etibar və etimad iqtidarında olması ilə məlum ola bilər. Buna da təhlükəsizlik siyasəti və anlamalar üzrə müzakirələrin aparılması, eləcədə informasiyanın yayılması üçün səmərəli siyasi forumun işlənilməsi ilə nail olmaq olar.

Bu gün BOŞ-da (Ərəb ölkələrində) başlamış və davam etməkdə olan "inqilablar" və ABŞ başda olmaqla Qərb dünyasının bu "inqilab"lara dərhal dəstək verməsi bu məkanda yaşanan insan fəlakətləri NATO ilə əməkdaşlığı küncə dirəmiş olsa belə, ABŞ-ın strateji maraqları "NON STOP" siyasətilə məqsədinə çatmaq üçün daima hərəkətdə olmasını saxlayacaqdır. Bu istiqamətdə də Türkiyənin burada mühüm yer alması, ABŞ-ın Orta Şərq siyasətini dəstəkləməsi ABŞ-ın diplomatik uğuru üçün mühüm əhəmiyyət kəsb etsə də, dəyişən zamanın gerçəkliyi ABŞ-ı büdrəməyə məcbur edir. Belə ki, son on ildə ABŞ-ın Orta Şərqdə apardığı müharibə açıq-aşkar dini müstəvidə göründüyündən "inqilaba" məruz qalmış ölkələrin müsəlman əhalisi heç də Qərbə simpatiya ilə yanaşmadı. Təkcə Liviyada NATO-nun belə fəal iştirak etdiyi hərbi əməliyyatlar fonunda üsyançılarla hakimiyyət qüvvələri arasındakı vətəndaş savaşının 6 aydan artıq davam etməsinin səbəblərini də yerli əhalinin Qərbə münasibəti müstəvisində axtarmaq lazımdır. Hətta Misirdə ABŞ-ın adamı kimi tanınan Əl Baradeyinin qiyamçılar tərəfindən rədd olunması onu göstərdi ki, bu "inqilab" baş verən ölkələrdə kütlə ABŞ-a qarşı heç bir rəğbət bəsləmir.

Bir sözlə hazırda ABŞ-ın "hərbi" strateji maraqları "Böyük Orta Şərq" Layihəsində əməkdaşlıq və tərəfdaşlıq sahəsində NATO-ya ayrılan aktorluq rolu tənəzzül dönəmini yaşayır. BOŞ layihəsinə daxil olan ölkələrdə isə yaşananlar onu da deməyə əsas verir ki, bu məkanda dramatizmə nə zaman son qoyulacağını söyləmək çətindir. Bir tərəfdən ona görə ki, baş verənlər dramatizmi süni şəkildə alovlandırıldı-

ğından onun səngiməyi görünmür. Digər tərəfdən isə bu dramatizmi yaşadanların istəkləri reallaşmadıqca hadisələrin gərginlik mərhələsini arxada qoya biləcəyini söyləmək sadəcə olaraq mümkün deyil.

*NATO –nun Uels sammiti:dinamik proqnozlaşdırma*

Beynəlxalq münasibətlərin vəziyyətinin yenidən qiymətləndirilməsi daima NATO çərçivəsində baş verir. Bu müxtəlif forumlarda qəbul olunan, xüsusi ilə də, ittifaq sammitində müxtəlif ittifaq sənədlərinidə öz əksini tapır. NATO – nun Strateji konsepsiyası mətnində, "beynəlxalq təhlükəsizlik sahəsində baş verən vəziyyət dəyişiklikləri nəzərə alınaraq Şimaliatlantik ittifaqı təhdidlər spektoru qarşısını almaq və qorumaq üçün NATO-nun kompleks strategiyası təhlilinin davam etdirilməsinə ehtiyacın olması haqqında bildiriş"də aydın şəkildə bu əlaqələr qeyd olunub.

Bunu 2014-cü ilin 4-5 sentyabr tarixində Böyük Britaniyanın Uels şəhərində keçirilən sonuncu NATO sammiti bəyannaməsi üzrə NATO-nun Strateji konsepsiyası ilə müqisə edərək nümayiş etdirmək olar.

Baxmayaraq sammit Ukrayna böhranından sonra keçirilib, orada olunan qiymətləndirmə və nəticə prinsip etibarı ilə əvvəlki sənədlərdən fərqlənən bir neçə elementi özündə birləşdirirdi. Terrorizm, təhdid və piratlıq arxa planda qalmışdı. Önə Russiya tərəfindən olan "təhdid" çıxarılmışdı. Əgər Strateji konsepsiyada Russiya ola biləcək təhdid kimi görsənirdisə, Uelsdə o real təhdidlər sırasına daxil olmuşdu. Bəyannamədə "Russiyanın Ukraynaya qarşı aqressiv davranışı, fundamental şəkildə azad və dinc Avropanı sual altına qoydu"ğu qeyd olunub.

Müvafiq olaraq, NATO ölkələri sammiti gedişatında avro-atlantik təhlükəsizliyi və Russiya münasibətləri üzrə "strateji müzakirələr" aparılıb. Nəticədə NATO və Russiya arasında olan vətəndaş və hərbi əməkdaşlığının dayandırılmasının qüvvədə qalması qərarı alınmışdı.

Birinci növbədə plana daxil olan tapşırıqlar:

-Təlim və təhsilin möhkəmləndirilməsi və təkmilləşdirilməsi;

-Komanda və nəzarətin təkmilləşdirilməsi, o cümlədən çətin hava əməliyyatları;

-Yoxlama, müşahidə və kəşfiyyat;

-NATO -nun raket əleyhinə müdafiə potensialının inkişafı;

-Kibernetika müdafiəsi;

-Birgə müdafiəni təmin etmək üçün quru qoşunların döyüş dözümlülüyünü və hazırlığını təkmilləşdirmək.

Uels bəyannaməsində qeyd olunur ki, bu gün keçmiş və gələcək çağırışların öhdəsindən gəlmək üçün, NATO – ya havada, quruda və dənizdə döyüş dayanıqlığı, döyüş qabiliyyəti və yüksək döyüş hazırlığı olan müasir güc lazımdır.

NATO sərhəddində və hüdudlarında təhlükəsizlik şərtlərinin dəyişdirilməsinə ola biləcək münasibətə əsasən, bu sənəd tədbir paketini özü ilə bərabər təqdim edir. Bəyannamədə açıq-aydın deyilir, ki, plan ilk növbədə "Russiya tərəfindən atılan çağırışlara və onların strateji nəticələrinə cavab verir". Plan "çevik və genişlənən" tədbirləri "təhlükəsizlik şərtlərinin dəyişdirilməsinə cavab olaraq" tədbiqi təmin edir. Lakin bu tədbirlərin əsas məqsədi, Şimaliatlantika ittifaqının şərq hissəsində hərbi-hava, quru və hərbi-dəniz qüvvələrinin və məqsədəuyğun hərbi fəaliyyətinin, təkrarlanan əsasda həyata keçirilən iştirakın davamıdır"

Daha dəqiq şəkildə Plan hazırlıq təminatı üzrə tədbiri iki sahədə təssəvvür edir. Birincisi, "təhlükəsizlik zəmanəti təsdiq etməsi üzrə" tədbirlər NATO-nun şərqdə ittifaqların ərazisində təkrarlanan əsasda genişləndirilmiş güc iştirakını nəzərdə tutlması. İkincisi, bu "adaptasiya tədbirləri" NATO-nun uzunmüddətli hərbi siyasətdə və hərbi imkanlarda nəzərdə tutulan dəyişiklikləri.

Təhlükəsizlik zəmanəti təsdiqi tədbirləri 2014-cü ilin may ayında başladılıb, lakin bir müddət sonra konseptual şəkildə rəsmiləşdirilib. Onlar özündə aşağıdakıları birləşdirir:

-Baltik yanı ölkələrdə hava patrul xidməti üçün nəzərdə tutulan təyyarələrin və hərbi – hava bazasının sayının artırılması;

- Bolqarıstanda, Polşada və Rumınyada təlim və hərbi tədris işlərinin aparılması üçün təyyarələrin ora döndərilməsi;

-AVAKS təyyarələrinin şərq ittifaqçıları əraziləri üzərində uçuşu;

-NATO-nun Sərq periferiyasında dəniz patrul xidməti təyyarələrinin uçuşu;

-Baltik, Qara və Aralıq dənizi ərazilərində patrul xidməti üçün böyük sayda hərbi gəmilərin göndərliməsi;

-Məşq və hərbi təlimlərin keçirilməsi üçün yeraltı gücün ittifaqın şərq hissəsinə yerləşdirilməsi;

-200-dən çox NATO və milli hərbi təlimləri 2014-cü ildə Avropada icra olunub.

-Həmçinin ittifaqın bir neçə üzvü yeraltı və hava qüvvələrini iki tərəfli əsasda təlim və hərbi təlimlərin keçirilməsi üçün Avropaya yeraltı və hava qüvvələrini göndərib.

Keçirilən tədbirlərdə NATO sürətli əks cavab göstəricisini deviziya səviyyəsinə qaldırılması, həmçinin hazırlığının və səyyarlığının yüksək səviyyədə olması ehtimal olunurdu. Bu struktur çərçivəsində birləşmiş operativ dəstə briqada tərkibində çox yüksək hazırlıq göstəricisi səviyyəsində təlimlənməsi, bir neçə bölmənin döyüş ərazilərinə iki-üç gün ərzində yerləşdirmə tədbirlərini həyata keçirilməsi və dəstənin yaradılması planlarının 2 il müddətin ildə başa çatacağı ehtimal olunurdu.

Uyğunlaşma tədbirləri həmçinin, Şərqi Avropada NATO-nun budaqlı qərargah infrastrukturunun yaradılması üçün istiqamətlənməsi nəzərdə tutulurdu. Bu, xüsusilə “güc inteqrasiyası” üzrə altı bölməli yerləşdirməyə daxil olunur. Bu Estoniya, Latviya, Litva, Polşa, Rumıniya və Bolqarıstan ərazilərində həyata keçirilir. Bu bölmələr NATO-nun regionlarda güc yerləşdirməsi prosesinin idarə olunması üçün təşkil edilib. Onlar NATO ölkələri və güclərinin silahlı qüvvələri arasında əlaqələri, həmçinin hərbi planlaşmanı və çoxmillətli hərbi təlimləri dəstəkləməlidir. Şərqi Avropada NATO-ştap infrastruktur islahatları Polşada yerləşən “Şimali-Şərqi” çoxmillətli ştap korpusunun hazırlıq və imkanları artımını da özündə birləşdirir. Bu ştap Baltikyanı dövlətlərdə yerləşdirilən güclərinin komandasını həyata keçirməlidir. Lakin, hələlik “regional əməkdaşlıq” üçün mərkəz kimi

nəzərədə tutulur. Bu layihənin həyata keçməsidə əsas rolu Almaniya, Danimarka və Polşa oynayır. Rumıniya oxşar strukturu öz ərazisində genişləndirməyi təklif etmişdir. Bundan başqa, uyğunlaşma tədbirləri çərçivəsində aşağıdakılar planlaşdırılırdı:

-NATO NDD-hərbi dəniz donanmasının daha geniş şəkildə yerləşdirilməsi "say və dəniz gəmiləri növləri";

-İnfrastrukturların xüsusilə dəniz limanlarının və aerodromların hazırlığı yolu ilə gücün şərqə köçürülməsi üzrə NATO imkanlarının yaxşılaşdırılması;

-"Böhran idarəetməsi və kollektiv müdafiə" üzrə təlimlərin sayının artırılması.

Lakin, 2015-ci ilin 5 fevral tarixində NATO-nun müdafiə naziri öz bəyənatında açıq-aydın bildirib ki, "Uels Sammitində qəbul olunan qərara əsasən, onlar hazırlıq planını tətbiq etmək üçün ona baxış keçirəcəklər və gözlənilən görüşlərdə gələcək qərarların qəbul edilməsi həyata keçiriləcək" .

Beləliklə, Ukraynada olan böhran ilə əlaqədar olaraq, Avropada beynəlxalq vəziyyətin dəyişilməsi NATO-ya öz hərbi planlarında müəyyən nizamlamalar etməyə stimul verdi. Müdafiə nazirinin bəyanatına əsasən, nizamlanmalar gələcəkdə də mütəmadi olaraq, həyata keçiriləcək. Bütün bunlar onu təsdiq edir ki, NATO öz hərbi planlaşdırmasında ABŞ kimi dinamik proqnozlaşdırmanın elementlərindən istifadə edir. Belə bir yanaşma hərbi planlaşdırma sahəsində operativ qərarlar qəbul etməyə imkan verir. Lakin, digər bir tərəfdən isə hərbi siyasətə baxış hər zaman düzgün nəticəyə və qərara gətirib çıxarmır. Bu hərbi planlaşdırmanın metodologiyasından çox NATO analitiklərinin ilkin məlumatlarından və düzgün qiymətləndirmələrindən asılıdır.

### 5.4. AB-nın qlobal siyasətinin faktor təhlili

Avropa İttifaqına gedən yolda ən mühüm addımlar Avropa Kömür Polad Birliyinin təsis edilməsi haqqında Paris müqaviləsi (18 aprel 1951), sonralar AKPB-yə üzv olan dövlətlər kömür və polad üçün yaratdıqları ortaq bazarı bütün iqtisadi sahələrə yaymaq məq-

sədilə Romada imzaladıqları müqavilə ilə Avropa Atom Enerjisi Birliyini və Avropa İqtisadi Birliyin (25 mart 1957) yaradılmasıdır. 1 iyul 1967-ci ildən qüvvəyə minən birləşmə müqaviləsilə üç Avropa birlik təşkilatlarının idaretmə orqanları birləşdirilmiş, üç təşkilatı birgə ifadə etmək üçün Avropa Birlikləri (AB) anlayışı işlədilməyə başlanmışdır. Əvvəlcə üç birliyin şuraları birləşdirilərək Avropa Birlikləri Şurası adını almış, daha sonra bu birliklər rəsmi adı «Avropa İttifaqı müqaviləsi» olan Maastrixt müqaviləsi ilə Avropa İqtisadi Birliyi adını «Avropa Birliyinə (AB) çevirmiş, Maastrixt müqaviləsinin 1 noyabr 1993-cü ildə qüvvəyə minməsi ilə Avropa İttifaqı (Aİ) adlandırılmışdır.

Avropa Birliyinin formalaşma, əmələgəlmə və inkişaf prosesinə təsir göstərmiş və göstərən bütün faktorları obyektiv və subyektiv olmaqla 2 yerə bölmək olar. Birincisi, bilindiyi kimi, bu faktorlar insan iradəsindən aslı olmadan mövcuddurlar. İkincisi isə, əzmkar xarakterə sahibdirlər, yəni Avropa Birliyinə və onun sisteminə təsir prosesi zamanı obyektiv faktorlarda baş verdiyi kimi mövcudluğu və fəaliyyəti faktına əsasən öz özünə formalaşıb reallaşmırlar. Bu insanların iradəsinin və şüurunun məqsədyönlü təsiri nəticəsində baş verir.

Ayrı-ayrı insan və ya insan qruplarının iradəsi, şüuru və istəyindən aslı olmadan, Avropa Birliyinə və onun hüquqi sisteminə təsir göstərən obyektiv faktorlar:

- iqtisadiyyatın inkişafı;
- ümumi, hüquqi, texniki və ayrı mədəniyyətlərin səviyyəsi;
- Avropa Birliyi əhalisinin şüurunun hüquqi, siyasi və başqa sahədə ümumi səviyyəsi və onun Qərbi, Mərkəzi və Şərqi Avropa ölkələri əhalisinin şüur səviyyəsindən fərqi;
- Avropa qitəsi əhalisinin inkişaf səviyyəsi və intelektual bacarıqları və s.də özünü göstərir.

Avropanın birləşmə prosesinə, eyni zamanda, Avropa Birliyi və onun hüquqi sisteminin formalaşmasına təsir etmiş sosial istiqamətli obyektiv faktorlar arasında obyektiv xarakterinə olan *mübahisəli*

*münasibətdən başqa, təbii, coğrafi* və buna bənzər faktorlara da xüsusi diqqət yetirmək lazımdır.

*Mübahisəli obyektiv* faktorlara məsələn, hərbi faktoru aid etmək olar. Belə sual yaranır ki, müharibə tarixən obyektivdirmi yoxsa subyektivmi? Fərqli dövrlərin mütəxəssislərinin fərqli cavabları var. Hərbi faktor avropalıların və digərlərinin dağıdıcı müharibələrdən sonra regional və qlobal birliyin zərurətini dərketmələri prosesinə təsir etdi.

Avropa Birliyi və onun hüquqi sisteminin formalaşması və inkişafı prosesinə sosial istiqamətli faktorlardan və digər istənilən təbiətli institutlardan və sistemlərdən başqa, təbii və ona bənzər xaratkerli faktorlar təsir göstərir. Söhbət, əsasən, bu və ya digər avropa ölkələrində və ya Avropa qitəsində əldə olunması və 3-cü dövlətdən ixracı üçün müəyyən səy tələb edən həyat üçün vacib olan *təbii sərvətlərin (neft, qaz, kömür və s.) kifayət miqdarda olmamasından* və ya az olmasından gedir.

Avropa Birliyinin və onun hüquqi sisteminin formalaşması və inkişafı prosesinə ən müxtəlif obyektiv faktorlar sistemi ilə birlikdə, *insan faktoru* kimi adlandırılan subyektiv faktorlar böyük təsir göstərməkdədir. Onları nəzərdən keçirdikdə, Avropa Birliyi və onun hüquqi sistemi üçün nə qədər önəmli olmsına baxmayaraq, bütün obyektiv faktorların gerçəkləşməsinə, subyektiv faktor daşıyıcıları – insanlar tərəfindən öz-özünə olmadan, avtomatik şəkildə Avropa Birliyi və onun hüquqi sisteminə göstərilən təsirə diqqət yetirməmək mümkün deyil.

Bu faktorlar sistemində həlledici rolu *iqtisadi fenomelər* oynayır. Onların mənası ümumi qaydaya əsasən kəsişir: Avropa icmasının iqtisadi əsasın dəyişməsi nəticəsində Avropa dövlətləri arasında cəmiyyətin həyatının müxtəlif sahələrində inteqrasiya proseslərinin baş verməsinə və fövqəlmilli institutların formalaşmasına gətirib çıxaran daha dərin və çoxtərəfli beynəlxalq biznes, bununla birlikdə, sosial, siyasi və bənzəri əlaqələrin yaranması qaçınılmaz olaraq baş verir.

Çoxsaylı elmi tədqiqatların göstərdiyi kimi, hüquqi mədəniyyət və avropa hüququ XI əsrdə saxta roma inqilabı sayəsində ilkin iden-

tifikasiya olunmasından günümüzə qədər Avropa icmasının inkişafına və onun çərçivəsində birləşmə prosesinə nəzərə çarpan təsir göstərib.

İkinci dünya müharibəsi ərəfəsində və daha sonra faşizmlə və onun Avropa əhalisinin nəzərəçarpan hissəsində törətdiklərinə qarşı mübarizə dalğasının birlik əhval ruhiyyəsi alaraq, siyasi və başqa milli avropa ittifaqlarının yaranmasındakı cəhdlərinə diqqət yetirilməməsi imkansızdır. Həmin vaxtlar, əsasən 1950-60-cı illərdə, avrooptimizm müxtəlif sosial-siyasi hərəkatlar arasında dominant yeri tuturdu.

Avropada əməkdaşlığın fövqündə dayanan AKPB-nin başlıca məqsədləri bunlar idi: üzv ölkələrin kömür və polad bazarlarını birləşdirmək, məhsuldarlığı artırmaq, ölkələr arasında sülhü təmin etmək və Avropada bir çox sahədə yeni birliklərin yaradılmasını təmin etmək. Birgə fəaliyyət, idaretmə anlayışları Avropa İqtisadi Birliyinin Roma müqaviləsi ilə müəyyən edilən məqsədləri də axtarışların davam etdiyinin təzahürüdür. Əsas məqsəd çərçivəsində Roma müqaviləsinin nəzərdə tutduğu işlər bunlardır (3-cü maddə):

1) üzv dövlətlər arasında gömrük vergilərinin və xarici ticarətdə həcm məhdudulaşdırılmasının ləğvi;

2) üçüncü dövlətlərə qarşı vahid gömrük tarifi və vahid ticarət siyasətinin müəyyən edilməsi;

3) üzv dövlətlər arasında şəxslərin, xidmətlərin və investisiyanın azad dövriyyəsinin təmin edilməsi;

4) kənd təsərrüfatı (aqrar) sahəsində vahid siyasətin müəyyən edilməsi;

5) nəqliyyat sahəsində vahid siyasətin müəyyən edilməsi;

6) azad rəqabətin aparılması;

7) üzv dövlətlərin iqtisadi siyasətlərinin birgə idarəçiliyinin və ödənişsiz qeyri-tarazlığın qarşısını alacaq tədbirlərin müəyyən edilməsi;

8) vahid bazarın fəaliyyət göstərməsi üçün lazım olan həddə milli maraqların bir-birinə yaxınlaşdırılması;

9) qulluqçular üçün Avropa Sosial Fondunun yaradılması;

10) inkişaf sahəsinə kömək üçün Avropa İnvestisiya Bankının yaradılması;

11) ticarəti genişləndirmək, iqtisadi və sosial inkişaf cəhdlərini birgə davam etdirmək məqsədilə xarici ölkə və birliklərin biləşdirilməsi.

Roma müqaviləsində dövlətlər arasındakı gömrük vergilərinin ləğvi üçün 12 illik keçid dövrü nəzərdə tutulsa da, bu hədəflənən tarixdən 1,5 il qabaq – 1 iyul 1967-ci ildə, şəxslərin investisiya və xidmətlərin azad dövriyyəsi isə 1 yanvar 1970-ci ildə həyata keçirilmişdir. Lakin rastlanan mühüm bir məsələ milli bazarların xərci artıracaq bir formada bölünmüş olmasıdır. Vahid bazar formalaşdırmaq yönündə mühüm bir inkişaf 1987-ci ildə qüvvəyə minən Vahid Avropa Öhdəliyi oldu. Bu sənədə görə, üzv dövlətlər xarici siyasət sahəsində vahid siyasət formalaşdırmağı və həyata keçirməyə cəhd etməyi və əməkdaşlıq etməyi qəbul edirlər. Vahid Avropa Öhdəliyi ilə aşağıdakı altı sahədə yeni hədəflərə çatmaq qəbul edilmişdir:

1) azad bazar üçün sərhədlərin aradan qaldırılaraq əmlak, xidmət və investisiyanın azad dövriyyəsinin təmin edilməsi;
2) iqtisadi və sosial inteqrasiyanın həyata keçirilməsi;
3) işçilərin sağlamlıq və təhlükəsizlik şəraitlərinin yaxşılaşdı rılması;
4) ətraf mühitin qorunması;
5) tədqiqat və texnloloji inkişafın sürətləndirilməsi;
6) iqtisadi və maliyyə birliyinin təmin edilməsi.

Vahid Öhdəlik Avropanın inteqrasiya prosesinin sürətlənməsi, iqtisadi və maliyyə birliyinin təmin edilməsi istiqamətində cəhdlər müsbət nəticələr verib. Bu inkişaf birlikləri «Avropa İttifaqı»nın əsasını qoyan Maastrixt müqaviləsini imzalanması ilə nəticələndi (9-10 dekabr 1991). 200 maddə, 17 əlavə protokol və 33 əlavədən ibarət Maastrixt müqaviləsinin əsas məqamları bunlardır: vahid xarici siyasət, birgə müdafiə və təhlükəsizlik siyasəti, iqtisadi və maliyyə birliyinin başa çatdırılması ilə bu çərçivədə vahid valyuta sisteminə keçid, Avropa Parlamentinin səlahiyyətlərinin artırılması, polis və məhkəmə sahəsində əməkdaşlıqla yeni əməkdaşlıq sahələrinin formalaşdırılması, vahid sosial siyasət və nəhayət, bir «siyasi ittifaq» formalaşdırılması. Müqavilə ilə üzv ölkə iqtisadiyyatları arasında

fərqliliklərin aradan qaldırılması məqsədilə bəzi kriteriyalar təsbit edilmiş, namizəd olan ölkələrin Aİ-yə qəbulu çətinləşdirilmişdir. Bu çərçivədə nəzərdə tutulan, Türkiyə baxımından da əhəmiyyətli olan məqamları qısa şəkildə belə qeyd etmək mümkündür:

1) birlikdə ən aşağı inflyasiyaya malik (ən yaxşı qabiliyyət göstərən) üç ölkənin illik inflyasiya səviyyələri ilə əlaqədar üzv ölkənin inflyasiya səviyyəsi arasındakı fərq 1,5 balı keçməməlidir;
2) üzv ölkənin dövlət borclarının ümumi daxili məhsula nisbəti 60 faizi keçməməlidir;
3) üzv ölkənin büdcə kəsirinin ümumi daxili məhsula nisbəti 3 faizi keçməməlidir;
4) hər hansı bir ölkədə tətbiq olunan uzunmüddətli faiz səviyyələri 12 aylıq dövrdə qiymət sahəsində ən yaxşı sabitlik göstərən 3 ölkənin faiz səviyyəsi 2 baldan çox olmamalıdır;
5) son iki il ərzində üzv ölkənin valyutası digər bir üzv ölkənin pulu qarşısında devalvasiyaya uğramış olmamalıdır.

Bu illərdə əhəmiyyət qazanan genişləmə prosesində baş verən başqa bir sammit də 22 iyun 1993-cü ildə Kopenhagendə keçirilən Kopenhagen zirvə toplantısıdır. Aİ-nin Mərkəzi və Şərqi Avropa ölkələri ilə Kiprin yunan tərəfini əhatə edən formada genişlənməsi məsələsi ilk dəfə bu zirvə toplantısının yekun sənədində yer almışdır. Dolayısı ilə bu yekun sənədində daha sonra «Kopenhagen kriteriyaları» (prinsipləri) kimi xatırlanan genişlənmə üçün nəzərdə tutulan şərtlərə də yer verilib. Bu kriteriyalar – siyasi, iqtisadi və icma məsələlərinin mənimsənilməsi olmaqla üç qrupda toplanmışdır.

Siyasi kriteriyalar bütün namizəd ölkələrlə bağlı üzvlük üzrə danışıqların başlanması üçün qabaqcadan şərt irəli sürüldüyündən daha böyük əhəmiyət daşımaqdadır. Qısa şəkildə siyasi kriteriyalar – namizəd olan ölkələrdə demokratiyanı, hüququn aliliyini, insan hüquqlarına və milli azlıqlara hörməti və milli azlıqların qorunmasını təminat altına alan qurumların sabitliyinin təmin olunması kimi izah edilir.

İqtisadi kriteriyalar fəaliyyətdə olan bir bazar iqtisadiyyatına malik olmaq, bununla yanaşı, Aİ daxilindəki rəqabət təzyiqi və bazar qüvvələri ilə rəqabət aparmaq abiliyyətinə malik olunması şəklində ifadə edilir.

Aİ üzvlük öhdəliklərini götürmək qabiliyyəti – Aİ-nin hüququnun yerinə yetirilməsi və tətbiq edilməsi üçün lazım olan hüquqi və idaredici struktura malik olması mənası verir.

İstər Aİ-nin genişlənmə prosesi, istərsə də Aİ-nin eyni zamanda siyasi bir ittifaq olması perspektivləri 90-cı illərdə yaranan beynəlxalq yeniliklərlə, xüsusilə Avropaya təsir edən yeni şəraitlə birlikdə qiymətləndirilməlidir. Baş verənlər Aİ-ni siyasi səviyyəyə yönləndirmiş, siyasiləşmə bu illərdə Aİ zirvə toplantılarına və qərarlarına da təsir etmişdir. XX əsrin əvvəllərindən II Dünya müharibəsinin sonuna qədər olan prosesi nəzərdən keçirməklə verilən obyektiv bir qiymətləndirmə belə bu illərdə Avropada baş verənlərin, ümumiyyətlə, XVI əsrdən etibarən topladığı dəyərlərə uyğun gəlmədiyi nəticəsini verir.

XX əsr Avropa üçün yaxşı başlamamış, iki dünya müharibəsi Avropanın iqtisadi və siyasi baxımdan dağılmasına (aşınması) səbəb olmuş, Avropa dünya siyasətində qüvvə və nüfuzunu itirmişdir. Avropa iki dünya müharibəsindən sonra da ABŞ-ın dəstəyinə ehtiyac duymuş, təxminən 1970-ci illərin sonlarında və ondan sonrakı illərdə, avropa ölkələrində avrooptimizm bir çox obyektiv və subyektiv səbəblərə görə davamlı olaraq, avropessimizmə çevrilmişdi.

Avropada iqtisadi birlik cəhdləri soyuq müharibənin özünəməxsus etibarlı şəraitində uğurlu olsa da, lakin SSRİ-nin dağılmasından sonra ittifaqdan ayrılan millətlərin yaratdığı münaqişə şəraiti, ortaya çıxan qüvvə boşluğu və təhlükəsizliklə bağlı narahatlıqlarla yanaşı, iqtisadi və siyasi cəhətdən azad dünya ilə qovuşan yeni ölkələrin ehtiyacı, iki dünya müharibəsindən sonra təbii sərhədlərinə çəkilən Avropanın üzərinə yeni rol qoymuşdur. SSRİ-nin dağılmasından sonrakı qeyri-müəyyən ikiqütblü dövrün ortaya çıxardığı və ABŞ-ın birbaşa təsir göstərmədiyi XX əsrdə Avropadakı üçüncü yenidən formalaşma kimi adlandıracağımız bu prosesi mənimsəyən Aİ namizəd ölkələri

eyni anlayışda birləşdirmək məqsədilə ittifaqa üzvlüyün şərtlərini də Avropa dəyərləri ilə yenidən formalaşdırmışdır.

Hal-hazırda, "siyasi Avropa Birliyi bu namizədləri məyus edə bilməyəcəyi" postsovet dövlətləri hesabına Avropa Birliyinin genişlənməsi və yeni problemlərin ortaya çıxması, eyni zamanda ekspertlərin fikrinə görə, "avroskeptizm" geniş əhali qatları arasında "avrosinizm" və "antiavrofundamentalizm" formalarında avropa ölkələrində inkişaf edir.

Genişlənmə prosesi ilə birlikdə vahid ordu, Avropa konstitusiyası və avronun dövriyyəyə buraxılması kimi mühüm məsələləri müzakirə edən Avropa İttifaqı 28 fevral 2002-ci ildən bu tərəfə (Böyük Britaniya, Danimarka və İsveç istisna olmaqla) vahid valyuta kimi avronu işlətməyə başlamışlar. Avroskeptizmin sonuncu göstəricilərindən biri – avropa funksiyonerlərinin hesablaşmalı olduğu Avropa Birliyinə və onun hüquqi sisteminin inkişafına təsir edən subyektiv faktor – ümumiavropa Konstitusiyasının ilk dəfədən qəbul olunması cəhdidir. Belə ki, 400-dən çox maddədən və əlavə protokollardan formalaşması nəzərdə tutulan və 2004-cü il zirvə toplantısında qəbul edilən Avropa Konstitusiyası 2004-cü ildə əsas müzakirə edilən mövzu olub.

*Aİ-nın dinamik proqnozlaşdırılması*

Dinamik proqnozlaşdırma elementləri təhlükəsizlik və müdafiə sahəsindəki siyasətə məsul olan Avropa İttifaqı strukturlarında kifayət qədər geniş tətbiq olunur. Xüsusilə, bu elementlər Aİ-nın mövcud beynəlxalq vəziyyətin qiymətləndirilməsi ilə bağlı təhlükəsizlik və müdafiə sahəsində siyasətə düzəlişlər üzrə təklifləri özündə saxlayan sənədlərində əks olunur. Belə sənədlərə nümunə Aİ-nın yüksək çinli nümayəndələrinin Avropa parlamentində xarici siyasət və təhlükəsizlik məsələləri üzrə məruzələrini göstərmək olar.

Həmin məruzələrdə təkcə xarici siyasət və təhlükəsizlik siyasətinin keçirilməsinə cavabdeh olan Aİ strukturunun təcrübi işinə baxılmır, eləcədə cari BV-in xarakteristikası verilir, Aİ-na yeni təhdidlər və çağırışlara baxılır.

Məsələn, 2014-cü ildə nəşr olunan məruzədə aşağıdakı təhdidlər sıralanır: kütləvi qırğın silahının yayılmaması; adi silahlar; terrorizm; kibertəhlükəsizlik; enerji təhlükəsizliyi; iqlim dəyişikliyi; şirin su ehtiyatlarına çıxış.

Məruzədə həmçinin böyük diqqət böhran və münaqişələrin nizamlanmasına yönəldilib. Bu kontekstdə münaqişələrin qarşısının alınması və xüsusilə, "erkən xəbərdarlıq" sisteminin yaradılması, yaxınlaşan münaqişələr və onlara reaksiyalar haqqında siyasət prioritet götürülür. Mahiyyətcə söhbət qısamüddətli dinamik proqnozlaşdırılma və planlaşdırılma sisteminin yaradılması barədə gedirdi. Hesabatda göstərilir ki, 2013-cu ildə münaqişələrin erkən xəbərdarlıq üçün xüsusi metodologiya hazırlanıb və sınaqdan keçirilib. Lakin bu sistemin effektivliyini proqnozlaşdırmaq hələlik şübhə doğurur.

Hər halda, o, Ukraynada siyasi böhran və silahlı münaqişəni əvvəlcədən xəbərdarlıq etməkdə heç də kömək etmədi. Bir metodologiya burada yetərincə deyildi. Daha düzgün başlanğıc məlumatlar, o cümlədən beynəlxalq reallıqları və regionda qüvvələr nisbətinin adekvat başa düşülməsi lazım idi.

Bundan başqa, məruzədə Aİ-nin hərbi potensialının mövcud vəziyyəti və və onun inkişafı vəzifələrinə baxılır. Xüsusən də deyilir ki, "daimi potensial çatışmazlığı Aİ-nın hərbi-dəniz və hərbi hava qüvvələrinin üzv ölkələrə çevik dəstəyini məhdudlaşdırır.

Həmçinin hərbi potensialının inkişafı ilə bağlı, qabaqcıl sahələrə yetərincə səy göstərmədikləri üçün, hərbi quruculuq sahəsində, o cümlədən milli hərbi planlaşdırma bir-biri ilə kifayət qədər əməkdaşlığın olmaması barəsində üzv ölkələri tənqidlər yer alır.

Bu nöqsanların aradan qaldırılması məqsədilə Avropa Şurası potensialının inkişafı üzrə Avropa müdafiə agentliyinin iştirakı ilə həyata keçirilən konkret layihələri, o cümlədən mühüm olan dörd təşəbbüsü dəstəkləyib:

-2020-2025-ci illərə dövrünə qədər pilotsuz uçuş aparatlarının hazırlanması;

-Havada əlavə doldurma potensialın yaradılması;

-Gələn nəsl üçün hökumət sputnik əlaqəsinin hazırlanması;

-Kibertəhlükəsizlik üzrə yol xəritəsinin və konkret layihələrin işlənməsi.

Avropa Şurası daha sistemli və uzunmüddətli əməkdaşlığın irəliləməsi üçün Yüksək nümayəndəsinə 2014-ci ilin sonunadək müvafiq siyasətinin əsaslarını NATO-nun mövcud planlaşdırma prosesinin tam uyğun olaraq hazırlamağı təklif edib. Eyni zamanda məruzədə qeyd olunur ki, "müdafiə birliyi olaraq və Vahid Avropa səması Qalileo kimi" "üfüqi Avropa layihələrində" iştirakı dərinləşdirilməsinə davam etdirilməlidir. Kosmik fəzanın əhəmiyyəti təkcə AB üçün deyil, digərləri üçün də, xüsusilə də ABŞ üçün də önəmlidir.

Beləliklə məruzədən görsənir ki, Aİ-da beynəlxalq vəziyyəti nəzərə alaraq nəinki mövcud təhdidlərin tənzimlənməsinin qiymətləndirməsinə daimi düzəlişlər edilir, eləcə də bu təhdidləri neytrallaşdırmaq üçün hərbi imkanları inkişaf etdirilməsi ilə bağlı kifayət qədər sürətli yeni təşəbbüslər irəli sürülür.

Belə düzəlişlər hərbi planlaşdırmaya da edilir. Qeyd edilən tövsiyələr və təşəbbüslər mütləq praktikada gerçəkləşir.

AB-də belə yanaşma yalnız dinamik proqnozlaşdırılma elementlərinə deyil, dinamik hərbi planlaşdırmaya da əsaslanır. Bu, inkişaf planının potensialının daimi tənzimlənməsi ilə sübut edilir. Bu baxımdan AB-nin hərbi planlaşdırma metodologiyası ABŞ və NATO ilə müqayisədə qabaqcıl hesab edilə bilər.

Digər tərəfdən, bu halda metodologiyanın üstünlüklərinin millət-dövlət səviyyəsində tətbiqi sonuna qədər aydın deyil. Aİ-nin hərbi planlaşdırması əsasən tövsiyyəedici xarakter daşıyır, üzv ölkələrin yeni silah yaratmasına və ya silahlı qüvvələrinin strukturu dəyişməsi ilə bağlı xüsusi resurs ayrılmasına qərarlar yaratmır. Bu tövsiyələrin hamısına milli səviyyədə baxılır və yalnız bundan sonra milli səviyədə hərbi tikinti planlarında tətbiq edilir və ya edilmir. Buna görə də, Avropa Birliyinin Təbii Resur Potensialı nisbətən asanlıqla hər kəs üçün ciddi maliyyə və maddi nəticələri olmadan dəyişdirilə bilər.

Milli dövlətlərə gəldikdə, onlar üçün planlara daimi düzəlişlərin edilməsi əhəmiyyətli maliyyə xərcləri və hətta güclü iqtisadi aktorların maraqlarının pozulması deməkdir. Bu dinamik hərbi planlaşdırılmanın

milli səviyyədə istifadəsini çox çətin edir. Eyni zamanda aydındır ki, beynəlxalq vəziyyətin kritik dəyişikliyi bəzən ölkələrdə silahlanmanın mövcud planlarına və proqramlarına həlledici düzəlişlər tələb edir. Bu baxımdan dinamik plana bir əlavələr kimi hərbi tikinti planını təsdiq və tətbiq etmək faydalı ola bilər. Belə bir plan daima beynəlxalq vəziyyətin dəyişikliklərini və yeni tendensiyaları əks etdirir: yeni silah sistemlərinin inkişafına dair müvafiq tövsiyələr, silahlı qüvvələrin strukturunun təkmilləşdirilməsi və qoşunların yerləşdirilməsi və s. Bu zəruri hallarda, cari hərbi tikintisi planına tez düzəlişlər etməyə və yeni təhlükələrə qarşı lazım operativ hərəkət etmək imkanı verir.

### 5.5. Hökumətlərarası təşkilatlar, ictimai birliklərin inkişaf dinamikası

Beynəlxalq münasibətlərin formalaşmasına təsir edən ceşidli dövlət beynəlxalq aktorları olduqca coxdur dövlətdən başlamış, millətlərə, hökumətlərarası təşkilatları və birliklərə, koalisiyalara qədər. Qloballaşdırma prosesi ilə bağlı bir sıra qiymətləndirmə üzrə müxtəlif beynəlxalq, o cümlədən, dövlətlərarası xarakterli qurumların rolu artacaq. Bu zaman beynəlxalq münasibətlərin subyekti kimi ayrı-ayrı dövlətlərin rolu zəifləyəcək. Sivilizasiya amili bütün ittifaq və koalisiyaların yaradılmasında daha əhəmiyyətli rol oynayacaq. S.Hantinqton buna xüsusilə ilə işarə edərək qeyd edirdi ki, “dünyada “Soyuq müharibədən” sonra dövlətlər sivilizasiyaları nəzərə almaqla daha çox öz maraqları”nı müəyyən edirlər. Onun fikrincə, dövlətlər “oxşar və ya ümumi mədəniyyəti olan dövlətlərlə əməkdaşlıq edir və saziş bağlayırlar, başqa mədəniyyətə malik olan ölkələrlə daha çox münaqişə aparırlar”. “Ölkələr digər dövlətlərin niyyətidən asılı olaraq təhlükəni müəyyən edir və bu niyyətlər, eləcə də onların reallaşdırılması–üsulları əsaslı dərəcədə mədəni mülahizələrlə şərtlənir.

İctimai və siyasi xadimlər cox az dərəcədə təhlükəni guya insanlarda başa düşdüklərini görməyə meyllidirlər. Hanqtinqton vurğulamışdır ki, onlar dil, din qohumlugu, sistem dəyərləri, qanun və mədəniyyət - səbəbindən onlara etibar etməyə meyllidirlər. Həmin siyasətcilər yabançı mədəniyyətə malik olan ölkələrdə daha böyük

təhlükə görür və beləliklə, onlara etibar etmir və onları başa düşmürlər.

Təcrübə göstərir ki, belə koalisiyaların əksəriyyəti dəqiq qanuni şəkildə təşkil olunmamışdır. (NATO –ya bu halda qaydadan cox, istisna kimi baxmaq lazımdır.)

Onlar cox vaxt situativliyi və mürəkkəb tərkibliliyi ilə xarakterizə olunur. Buna baxmayaraq, belə koalisiyaların siyasi hərəkət vektoru kifayət qədər dəqiq göstərilir, məsələn, bu özünü Latın Amerikası ölkələri tərəfindən qəbul edilmiş müxtəlif qərarlar və bəyannamələrdə və ya Yəmən Husiləri əleyhinə Yaxın Şərq və Şimali Afrikada Sünni Dövlətlərin koalisiyanın yaradılmasında göstərir.

Sivilizasiyalararası təşkilatlara gəldikdə isə, onların rolu artacaq. Məsələn, T. Lebedevə görə qloballaşma sərhədləri keçən transaksiyalar üçün beynəlxalq konvensiyaların, institutların zəruri beynəlxalq razılaşmalarına olan tələbatı artırır.

Ümumi şəkildə, beynəlxalq hökumətlərarası təşkilatlar (BHT) orqanları ilə daimi fəaliyyətdə olan və ümüumi məqsədlərə çatmaq üçün beynəlxalq müqavilə əsasında yaradılmış 3 və daha çox dövlət və ya hakimiyyət orqanlarının birləşməsi kimi başa düşülür. Təcrübədə BHT-ın sırasında "Böyük yeddilik", "Böyük səkkizlik" və s. bu kimi geniş aktorlar spektrini göstərmək olar.

BHT-i 3 qrupa bölmək olar: BMT-nin ailəsinin universal təşkilatları, ixtisaslaşmış və regional təşkilatlar. Təşkilatların çoxluğu onları daima islahatlara məruz qoyur, bu zaman təkcə struktur deyil, yerinə yetirdikləri funksiyanın həcmi də dəyişir, bu da öz növbəsində beynəlxalq siyasi proseslərə təsir edir.

Son illərdə ixtisaslaşmış təşkilatların funksiyalarının artırılması tendensiyası nəzərə çarpır ki, onlar tədricən öz məsuliyyət sferalarını genişləndirir, özlərinin tənzimləmə sferalarına yeni problemli sferalar daxil edirlər. Bu onunla izah edilir ki, qloballaşma şəraitində həll edilməsi üçün dövlətlərarası razılaşdırmaların tələb edildiyi problemlərin sayı artır və bu qədər sayda BHT-in (beynəlxalq hökumətlərarası təşkilatlar) yaradılması nə iqtisadi, nə də təşkilatı baxımdan məqsədəuyğun hesab edilmir. Göstərilən tendensiya öz əksini internetin idarə

edilməsi sahəsində də tapmışdır ki, nümunə qismində ÜTT, MSE və VOİS kimi internet məkanda tənzimləmə funksiyalarının daxil edilməsi hesabına öz məsuliyyət sferalarını genişləndirən təşkilatların fəaliyyətlərini göstərmək olar. Ən ümumi anlayışda BHT tərəfindən yerinə yetirilən üç növ funksiyanı fərqləndirmək olar – tənzimləyicilər (əxlaqi və hüquqi xarakterli, beynəlxalq münasibətlər iştirakçılarının davranışlarını formalaşdırmalı olan norma və nümunələrin müəyyən edilməsi), nəzarət və operativ (təşkilat tərəfindən bilavasitə müxtəlif xidmətlərin göstərilməsi). Tez- tez dövlətlərin apardıqları xarici siyasətlər çərçivəsində böyük olmayan yardımçı hərəkət fraqmentləri həyata keçirilir. BHT müstəqilliyi mövqelərindən beynəlxalq aləmdə BHT üçün iki rol və ya funksiyanı müəyyən etmək olar: ya onlar dövlətlərə geniş şəkildə problemləri müzakirə etmək üçün imkan yaratmaqla forumları təmsil edirlər, bu halda onlar bitərəf olurlar və beynəlxalq mühitə dövlətlərin onlara verdiyindən əlavə heç nə gətirmirlər; yaxud da ki, BHT beynəlxalq münasibətlərdə müstəqil təsir göstərirlər. İkinci halda ən böyük təsiri BHT beynəlxalq gündəliyin formalaşdırılması zamanı göstərə bilir və ya legitimləşdirir.

Qeyd edildiyi kimi, tədqiqatçılar arasında beynəlxlq təşkilatların müstəqil tsirinə münasibətdə yekdil rəy mövcud deyil. Bir çox tədqiqatçılar beynəlxalq təşkilatları törəmələr, beynəlxalq münasibətlərin ikinci əl subyektləri hesab edirlər. Göstərilən halda BHT dövlətlərin müəyyən məqsədlərə çatmaq üçün istifadə etdikləri alətlər kimi nəzərdən keçirilir. Digər tədqiqatçılar isə ehtimal edirlər ki, bir sıra hallarda BHT beynəlxalq münasibətlərin müstəqil subyektləri kimi çıxış edə bilərlər. Belə ki, P.A.Sıqankovun fikrincə, heç də hamı deyil, yalnız müstəqil fəaliyyət göstərərək ətraf mühitə dəyişikliklər etmək iqtidarında olanlar aktorlardır. Elə həmin tədqiqatçı beynəlxalq təşkilatların aktor kimi müstəqilliyini təsdiq edəcək üç əsas xətti fərqləndirir: əməkdaşlığa siyasi iradə, hansı ki, təsis sənədlərində fiksə edilmişdir, daimi aparat, hansı ki, təşkilatın inkişafında varisliyi təmin edir, səlahiyyət və qərarların muxtarlığı.

D.Kolyar iddia edir ki, BHT kənar qüvvələrə ehtiyac duyur, hansılar ki, onları canlandırmalıdırlar, belə qüvvələr isə dövlətlərdir.

BHT dövlətlərin qərarı əsasında yaradılır və onlardan təşkilati formaları, səlahiyyətləri və maliyyələşdirməni alırlar. O ki, qaldı regional və ixtisaslaşdırılmış təşkilatlara, burada A.E.Kuteynikovun qənaəti ilə razılaşmaq mümkündür ki, BHT beynəlxalq münasibətlərin ikinci əl subyektidir ki, o, təsisçi-dövlətin qoymuş olduğu siyasəti həyata keçirir və ilk növbədəbu və ya digər beynəlxalq –siyasi problemlərin müzakirəsi və üzv-dövlətlərin xarici siyasətlərinin koordinasiyasının müzakirəsi üçün forum qismində çıxış edirlər.

Üçüncü nəzər nöqtəsi də mövcuddur ki, o da daha əsaslandırılmış kimi görünür. Həmin baxışa əsasən BHT yalnız məhdud aktorluğa malik olurlar. Göstərilən mövqeni Y.A.Kloçixin, C.S.Barkin və bir sıra digər tədqiqatçılar dəstəkləyirlər. Onların qiymətinə əsasən beynəlxalq təışkilatların məqsədləri dövlətlərin hazırladıqları və imzaladıqları təsis sənədləri ilə müəyyən edilir. Buna görə də burada dövlətin beynəlxalq təşkilatları əvvəlcədən aktorluqla təchiz etmək və onları daha böyük ölçüdə nəzarətdə saxlamaq cəhdlərindən danışmaq məqsədəuyğun olardı.

Buna baxmayaraq beynəlxalq bürokratiyanın yaranması və üzv-dövlətlərin beynəlxalq münasibətlərdə maraqlarının üst-üstə düşməməsi beynəlxalq təşkilatları heç də həmişə öz liderlərinin dili danışmayan beynəlxalq siyasətin müstəqil aktorları qismində fərqlənməsinə gətirib çıxarır. Bunun nəticəsi olaraq beynəlxalq təşkilatların fəaliyətlərinin təhlili zamanı təşkilatın bürokratik aparatının maraqlarını, ayrı-ayrı dövlətlərin maraqlarını (nəzərdən keçirilən təşkilatın fəa-liyyətin aid olaraq), dövlət qrupu (qrup 77) və bütövlükdə bütün təşkilatın maraqlarını fərqləndirmək lazımdır.

BHT fəaliyyəti iştirakçı-dövlətlər üçün kifayət qədər bahalı başagələndir. Bundan başqa, təşkilatları tez-tez öz funksiyalarını qeyri-effektiv yerinə yetirməkdə, resursların qeyri-qənaətcil istifadəsində və heç də həmişə tələb edilən fəaliyyətin həyata keçirilməməsində ittiham edirlər. Lakin əsas tənqid obyekti təşkilatın bürokratik aparatının sərtliyi və qeyri-effektivliyidir.

Təşkilatın fəaliyyəti tez-tez qabaqcadan görülməyən və arzuedilməz nəticələrə səbəb olur ki, onlar təşkilatın qarşıya qoyduğu vəzifələri əldə etmək yolunda maneədirlər.

Beləliklə, dövlətlər BHT üzvləri və donorlarıdırlar, onlardan ümumi məqsədlərin əldə edilməsi üçün forumlar kimi istifadə edilir, bu və ya digər BHT imkanlarını məhdudlaşdırmaq və ya genişləndirmək imkanlarına malik olurlar. Lakin bir sıra hallarda BHT onları yaratmış dövlətlərin nəzarətindən çıxa və kifayət qədər müstəqil, başqa sözlə desək katibliyin, yəni beynəlxalq bürokratiyanın maraqlarına uyğun siyasət yürüdə bilərlər. Lakin bu yalnız müəyyən üzv-dövlətlər qrupunun dəstəyi zamanı mümkün olur. Biznes strukturlar və beynəlxalq təşkilatlar arasındakı qarşılıqlı əlaqələr də istənilən ölkənin dövlət aparatı ilə korporasiyada olduğu kimi oxşar sxem üzrə baş verir.

Yeganə fərq ondan ibarətdir ki, milli bürokratiyanın yerində – bey-nəlxalqdır, lakin o da eyni şəkildə qərarlar, o cümlədən maliyyə qərarları qəbul etmək səlahiyyətinə malikdir. Buna görə də bir sıra hallarda iri TMT onlar üçün sərfəli olan bu və ya digər siyasi qərarların qəbul edilməsini lobbiləşdirmək üçün BHT-ra təzyiq göstərə bilirlər. Bundan başqa son illərdə BHT çərçivəsində qəbul edilən təşəbbüslərdə iştiraklara biznes strukturların cəlb edilməsi geniş yayılmışdı. Bu isə həm onlar, həm bunlara imkanlarını genişləndirmək, BHT üçün biznes strukturun resurslarına arxalanmaq, biznes strukturlara isə öz növbəsində, BHT çərçivəsində qəbul edilən beynəlxalq siyasi qərarlara təsir göstərmək üçün daha geniş imkanlar qazanmağa imkan yaradır.

Digər güclənməkdə olan başqa bir tendensiya BHT fəaliyyətinə müxtəlif həm milli, həm də beynəlxalq qeyri-hökumət təşkilatlarının (QHT-lərin) qoşulmasıdır. Bu isə QHT-nın müxtəlif dünya proseslərinə artmaqda olan təsiri ilə izah olunur. Bu zaman çoxlu sayda QHT müəyyən məsələlər üzrə ekspertlər qismində çıxış etmək BHT məşvərətçi üzvlərinə çevirilirlər. Bir sıra hallarda QHT şəraitlə bağlı, "bir başa hadisə yerindən" olan daha yaxşı məlumatlara malik olur və ictimai fikrin formalaşmasına təsir göstərə bilirlər. QHT nümayəndələri

özləri isə beynəlxalq aləmə çıxmaq və öz mövqelərini bütün dünyaya bəyan etmək imkanı qazanırlar. Belə ki, BMT-da bu gün məsləhət və assosiasiya statuslu QHT-nın bütöv bir sistemi mövcuddur.

Bundan başqa son illərdə özlərində QHT və BHT elementlərini cəmləşdirən "hibrid təşkilatlar" adlanan qurumlar geniş yayılmışdır – nümunə qismində İnterpol və s. Göstərmək olar. Bir sıra tədqiqatçıların fikrincə internetin idarə olunması elə bir sahədir ki, burada QHT və bizneslə BHT arasında qarşılıqlı münasibətlər daha geniş yayılmış və hətta institutluluq tərtibatı qazanmışdır. Son illərdə BHT çərçivəsində müxtəlif beynəlxalq və milli aktorlarla qarşılıqlı fəaliyyətin daha qabağa gedən bir forması geniş vüsət almışdır ki, bu da çoxtərəfli tərəfdaşlıq kimi tanınmışdır. Bəzi tədqiqatçılar "çoxsəviyyəli diplomatiya", "qeyri-rəsmi diplomatiya" (track two diplomacy) kimi anlayışlardan da istifadə edirlər. Çoxtərəfli tərəfdaşlıqlar dünya siyasəti və beynəlxalq münasibətlərin müxtəlif sahələrində – münaqişələrin tənzimlənməsi, ekoloji problemlərin həlli zamanı (Dayanıqlı inkişaf məsələləri üzrə ali səviyyədə ümumdünya görüşü, Yohanesburq, 2002-ci il), ayrı-ayrı silah növlərinin qadağan edilməsi haqqında razılaşmaların (piyada əleyhinə minalar) və s. zamanı yaranırlar.

Çoxtərəfli əməkdaşlıq bir sıra məhdudiyyətlərə də malikdir. Onlardan biri, qismən götərilən formatda əməkdaşlığın toplanmış təcrübəsinin kiifayətli olmamasıdır – bu, konsesusun əldə edilməsi üçün zəruri olan müxtəlif növlü çoxsaylı maraqların razılaşdırılmasının mürəkkəbliyidir.

P.A.Sıqankovun qeyd etdiyi ki, müxtəlif səviyyələrdə diqqəti cəmləşdirmiş çoxqatlı konqlomerat, hansı ki, həm üst-üstə düşən, həm də tam əks olan maraqlara, tələbatlara və məqsədlərə malikdir, müxtəlif və bəzən gözlənilməz vasitələrdən istifadə etməklə eyni olmayan potensiala malikdirlər ki, onları bir "ortaq məxrəcə" gətirmək olduqca çətindir. İdarəetmədə iştirak edən aktorların sayının artmasım ilə onların sabitliyini, effektivliyi və ən əsası məhsuldar qarşılıqlı əlaqəsini təmin etmək daha da mürəkkəb olur. Vəziyyət aktorların malik olduqları resurslar və səlahiyyətlərin arasındakı uçurumla daha dərin-

ləşir ki, bu da nəticədə bəzi aktorların passiv strategiya seçməsinə və ya ondan da pis – qəbul edilən qərarlara əks mövqe tutmasına gətirib çıxarır. Bu xüsusən çoxtərəfli idarəetmə mexanizmlərinin kəskin tənqidinə səbəb olur. Nəticə olaraq da QHT və biznes aktorun qərarların qəbul edilməsi prosesindən xaric edilməsi çağırışları səslənir. Lakin bu sahədə müsbət təcrübədə mövcuddur. Söhbəıt piyada əleyhinə minaların qadağan edilməsi milə əlaqədar bağlanmış razılaşmadan gedir.

Qeyd edilən təcrübə göstərir ki, əməkdaşlığın elə bir modeli lazımdır ki, bu zaman qərarlar istisnasız olaraq vətəndaşlar qarşısında cavabdeh olan, legitimliyə malik, hüquq subyekti olan və əldə edilən razılaşmaların tətbiq edilməsi üçün zəruri resurslara malik dövlətlər tərəfindən qəbul edlsinlər. Eyni zamanda digər aktorların (o cümlədən QHT-rin) da fikirləri eşidilməli və diqqətə alınmalıdır.

Istənilən halda XXI əsrdə BHT-nin rolu və əhəmiyyətinin yüksəldilməsi həmin strukturların üzv-dövlətlərlə, biznes strukturlarla, müxtəlif QHT və digər beynəlxalq oyunçularla qarşılıqlı fəaliyyət formaları ilə müəyyən edilmir.,

BHT əhəmiyyətinin dünya siyasətində yüksəlməsinin başlıca səbəbi ondan ibarətdir ki, sivilizasiyaların qarşıdurması şəraitində koalisiya potensialının rolu əhəmiyyətli ölçüdə yüksəlir. Müasir dövrdə hətta ən güclü dövlətlər belə beynəlxalq münasibətlərə həlledici təsir göstərmək iqtidarında deyil. Eyni zamanda hazırda koalisiya, ittifaqlar və təşkilatların formalaşdırılması sivilizasiyalı forma əsasında aparılır. Geniş hərbi-siyasi koalisiyaların formalaşdırılması tendensiyası keçən əsrin 90-cı illərində Qərbin Yuqoslaviyada, İraqda, Əfqanıstanda, Liviya və Suriyada apardığı hərbi kompaniyalar, 2014-2015-ci illərdə isə Ukrayna hadisələri zamanı özünü aydın şəkildə göstərmişdir. Həmin koalisiyaların yaradılmasının təşəbbüskarı kimi ABŞ çıxış edib. Lakin koalisiya tərkibinə təkcə ABŞ-ın müttəfiqləri deyil, “tərəfdaşların” daha geniş çevrəsi daxil olub ki, onlar koalisiyada ikitərəfli razılaşma və müqavilələr əsasında iştirak ediblər.

2020-ci il Çin, Hindistan, Rusiya, Latın Amerikası, İndoneziya kimi sivilizasiyalı güc mərkəzlərinin formalaşması, eləcə də islam sivilizasiyasında bir birinə qarşı olan iki güc mərkəzinin yaradılması

başa çatacaq. Müxtəlif güc mərkəzlərinin qütbləşməsinin ümumi prosesi koalisiyalar qurulması ilə müşayət ediləcəkdir ki, bu da XXI əsrin 2020-ci ilinə mövcud maliyyə-iqtisadiyyat və hərbi-siyasi sistemin qorunması üzrə qərbin geniş koalisiyasının bir tərəfdən və həmin sistemin dəyişdirilməsində maraqlı olanların birləşdiyi kolalisiyanın digər tərəfgdən yaranmasına gətirib çıxaracaq – belə koalisiyaların mükün forması kimi Qərb NATO+ (TTP və TAP) şəklində, digər tərəf isə BRİKS, ŞƏT və s. şəklində təmsil olunacaqdır.

Koalisiya yaradılması istiqamətində ABŞ-ın fəallığı qanunauyğundur. Orta müddətli perspektivdə 2021-2024-cü illərə qədər BM və qüvvətlər nisbəti ondan asılı olacaqdır ki, ABŞ başda olmaqla qərbin lokal sivilizasiyasının digər qüvvələrin və yeni dünyanın güc mərkəzlərinin sürətli inkişafı nəticələrini zərərsizləşdirə biləcək hərbi-siyasi koalisiyanın yaradılması mümkünlüyü olacaqdır. Beləliklə, ABŞ-ın koalisiya siyasəti onların xarici siyasətinin prioritetinə çevrilir.

Bu zaman həmin siyasətin açar elementi NATO-nun maksimal dərəcədə genişlənməsi kursudur. V.Gerasimovun qiymətləndirməsinə görə NATO silahlı qüvvələrinin ümumi sayı hazırda 3,7 milyon nəfəri keçmişdir. Blok üzvlərinin sayı isə 1999-cu ildən sonra daha 12 üzv olaraq artıb, hansı ki, bütün "soyuq müharibə" dövrü ərzində onların sayı cəımi 4 dövlət qədər artmışdı.

Bununla əlaqədar olaraq BM-in formalaşmasının bütün təsvirinə, qarşılıqlı əlaqə şəklində baxmağa cəhd göstərmək lazımdır. "Sırf" siyası və ya "sırf" hərbi beynəlxalq təşkilatlar prinsipcə olmur, lakin setesentrik müharibə (və ya sistemli təsir) şəraitində bu qarşılıqlı əlaqə siyasi və texnogen olur. Əgər 2 milyon detaldan ibarət müasir iri avialaynerlə analogiya aparsaq, bizə yekunda əlbəttə ki, say və hətta həmin detalların keyfiyyəti vacib deyil (həmin detalların hər biri vacibdir), vacib olan həmin təyyarənin haraya və hansı zamanı uçması, onun nə qədər sərnişin daşıması və xarici dünya (ekologiya və s.) üçün hansı beynəlxalq nəticələrin ola bilməsidir (2045-2050-ci illərə qədər).

# VI FƏSİL

# MÜASIR BEYNƏLXALQ MÜNASİBƏTLƏRİN XÜSUSİYYƏTLƏRİ: TƏHLİLİ VƏ DINAMIKASININ PROQNOZLARI

## 6.1. Postbipolyar dünya nizamı:transformasiya prosesininanalizi və təkamül proqnozları

XXI əsrin ilk onillikləri beynəlxalq sistemin təkamülündə keçid dövrünün son fazası kimi xarakterizə edilə bilər. Söhbət bipolyarlıqdan postbipolyarlığa keçiddən gedir. Onun başlanğıc nöqtəsi – 1980-ci illərin ortalarında, sovet hakimiyyəti tərəfindən elan edilən daxili yenidənqurmaya xarici dünya ilə qarşılıqlı əlaqələrə aid "yeni düşüncə" əlavə edilmişdir. Beynəlxalq əlaqələrin nizamlanması baxımından önəm daşıyan, son 4 onillikdə Şərq-Qərb arasında hökmranlıq edən qütbləşmə ziddiyyətinin dəf edilməsi məhz burdan başlamışdır.

"Sosialist ittifaqın" dağılması bipolyar sistemə ciddi zərbə vurdu. Onun kulminasiya nöqtəsi, SSRİ-nin köhnə müttəfiqləri olan ölkələrdə 1989-cu ildə «məxməri inqilablar» olmuşdur. Sonuncunun məhvi isə 2 ildən sonra bipolyarlığın altından həlledici xətt çəkir, belə ki, bu artıq onların ikisindən birinin yox olması demək idi. Keçid dövrləri 1990 və 2000-ci illərdə davam etdi. Yalta-Potsdam sisteminin yenidən montajında vaxt tələb olunurdu.

Son olaraq, Varşava Müqaviləsi Təşkilatı ya da Qarşılıqlı İqtisadi Yardım Şurası fəaliyyəti dayandırmağa razı olmurdu. Beynəlxalq-siyasi sahədə köhnə sovet dövlətləri həm region ölkələri ilə, həm də xarici dünya ilə qarşılıqlı əlaqələrin yeni infrastruktunu yaratmağa başladılar. Bu sahənin beynəlxalq-siyasi istiqamətləri güclü impuls olmasına baxmarayaq, bir anda formalaşa bilməzdi. 1990-cı, sonra 2000-ci illər ərzində davamlı olaraq sistem yaradan gerçəkliklər formalaşırdılar. Məlum oldu ki, bu region dövlətləri neytral statusa malik

olub, Rusiya və Qərb arasında körpü rolunu oynamaq istəmirlər. Onlar Qərbi Avropa İttifaqı, NATO, Avropa Birliyinə daxil olmaq, hətta Rusiyaya qarşı çıxış etmək istəyirlər. İlk əvvəl SSRİ-yə daxil olan 3 Baltikyanı dövlət 2004-cü ildə NATO-ya daxil oldu. Keçid dövrünün qlobal səviyyədə ən vacib xarakteristikası bir tərəfli amerikan siyasəti - "unilateralizm" oldu. Əgər birincisi 2000-ci illərin əvvəli üçün səciyyəvi idisə, ikinci tərəfi Amerikanın respublikaçı administra-siyasının öz gələcək entuziazmını dəfetmə cəhdi nişanının altından keçir. Onilliyin sonunda Vaşingtonun xarici siyasət istiqamətinin para-diqmasının əvəz olunması sualı ortaya çıxdı.

Bütün bunlar kompleks şəkildə deməyə əsas verir ki, beynəlxalq sistemin inkişafının keçid dövrü demək olar ki, başa çatmışdır. Bipol-yarlıq əgər yenə də qalıbsa artıq kiçik qalıqlar formasındadır. Bunun qalıqlarını fəsadları istər Rusiyada, istərsə də Qərbdə bir zamanlar sayılıb seçilən müxalifətləri uçuruma aparan "Rusiya-Qərb" idiosin-kraziyasında görmək mümkündü.

Bipolyarlıqdan sonrakı dövrün xarakteristikası hələki qarışıq, sürüşkən, qeyri-stabil və xaotikdir. Əksər hallarda bunu beynəlxalq sistemin təşkilatlanmasıyla bağlı olaraq çoxpolyarlılıqla təcəssüm et-dirirlər. Hətta belə fikirlər də səslənir ki, keçmiş bipolyarlıq yenisiylə əvəz olunacaq. Bu qütbləşmədə ABŞ və Çin, ya da "qızıl milyard ölkələri" və "bəşəriyyətin yoxsullaşmış hissəsi" qütblər rolunu oyna-yacaqlar. Bəzi əsərlərdə Yalta-Potsdam beynəlxalq sisteminin dağıl-ması ilə yekunlanan bipolyarlıq, 90-cı illərin fenomeni kimi təqdim olunur. Və bu məntiqlə də 2000-ci illərdən dünya artıq şərti olaraq yeni postbipolyar inkişaf mərhələsinə qədəm qoydu.

Keçid dövrünün başa çatması – beynəlxalq əlaqələrin kifayət qədər möhkəm, aparıcı konstruksiyalarının yaranması, lakin onun struktur dəyişikliyinin başa çatmamasıdır. Bu dəyişmə intensiv olaraq davam edir, lakin hələ sonlanmaqdan uzaqdır. Onun daha bariz xarak-teristikasını görmək artıq mümkündür. Beynəlxalq əlaqələr sferasında istifadə olunan alətlər dəyişir. Yeni problemli sahələr yaranır, ümu-miləşmiş və rəqabətli qarşılıqlı əlaqələrin yeni xəttləri formalaşır.

Xüsusilə də ekologiya sferasını, elmi-texniki inkişafı, səhiyyəni, miqrasiyanı əhatə edən "yeni təhdidlər" daha vacib rol alır. Lakin beynəlxal münasibətlər və təhlükəsizlik kimi "ənənəvi" problemlər də əhəmiyyətini itirmir. Qeyri-dövlət subyektlərinin beynəlxalq həyatda iştirakı əsaslı faktora çevrilir. Bununla paralel olaraq dünya arenasında dövlətlərin aparıcı şəxs kimi rolu dəyişir. Ümumilikdə çoxpolyarlığın formalaşması beynəlxalq sistemin təşkil olunmasına vasitə ola bilər. Bu ideyanın nəinki dəstəyi artır, həm də dünyanın inkişafının reallığı ilə təsdiqlənir. Təbii bu modelin tam olaraq realizasiyası barədə gələcək 2-3 onilliyin perspektivini də nəzərə alaraq strateji xarakterin tendensiyası demək olar. Buna baxmayaraq çoxpolyarlılığa doğru irəliləmə davam edir və geri dönüşü olmayan xarakter alır. Müasir beynəlxalq sistemdə dünyanın siyasi düzəninin prinsip və əsas strukturunu (polisentrizmi) incələyərkən görmək vacib olan məqam var: ABŞ şübhəsiz ki, bu sistemdə xüsusi yer tutur və bəynəlxalq aləmə çox böyük təsir etmə gücünə malikdir.

Polisentrizm bipolyarlığın bütün ziddiyyətli tərəflərini birləşdirən bir fiqur olaraq hər zaman qənaətbəxş deyil. Məsələn, müasir hərbi hazırlıqlar sferasında (xüsusilə də nüvə silahlanmasında) rəqabət edən mərkəzlərin güclərinin artması beynəlxalq təhlükəsizlik və sabitliyin pozulmasına gətirib çıxara bilər.

Burdan belə nəticəyə gəlmək olar ki, beynəlxalq-siyasi sistemin dəyişməsi məqsədyönlü şəkildə stabilliyi pozan effektlərin minimuma endirilməsiylə müşayiət olunmalıdır. Lakin bu əgər aparıcı ölkələr səviyyəsində və dünya ictimaiyyəti miqyasında aparılmazsa xoş bir arzu olaraq qalmağa davam edəcək.

### 6.2. Beynəlxalq münasibətlərin mümkün inkişaf yolları

*Müasir beynəlxalq əlaqələrin xüsusiyyətləri: dinamikanın analizi və proqnozu.* Soyuq müharibənin başa çatması prinsipcə tək dünya icmasının formalaşması prosesini bitirdi və bunu beynəlxalq əlaqələrdə yeni bir sistemin analizinə başlayarkən diqqətə almaq lazımdır. Bəşəriyyətin keçdiyi kontinentlərin, regionların və sivilizasiyaların izola-

siyası, dünyada xalqların müstəmləkə altında qalması, coğrafi ticarətin genişlənməsi, dünya müharibələrinin kataklizmi, müstəmləkəçi dövlətlərin tərkibindən beynəlxalq arenaya kütləvi çıxış, soyuq müharibə qarşıdurmasında dünyanın bütün hissələrində resurs düşərgələrinin mobilləşdirilməsi, elmi-texniki intibah nəticəsində dünyada kompaktlığın artması yolu nəhayət Qərb və Şərq arasında "dəmir pərdənin" dağılması və müəyyən ümumi prinsiplər toplusuna və fərqli hissələrinin inkişafı qanunauyğunluqlarına malik olan dünyanın bütün bir orqanizm şəklinə dönüşməsi ilə başa çatdı. Dünya icması reallıqda belə olmağa daha da yaxınlaşır. Buna görə də, son dövrlərdə dünyanın qloballaşmasına, dünya siyasətini təşkil edən milli maraqlara diqqət yetirilir.

Bir çox tədqiqatçıların və siyasi xadimlərin fikrinə görə, dünya siyasətində "kommunizm - antikommunizm" qarşıdurması ideologiyanın itməsi, Vestfal sisteminin erkən etaplarını xarakterizə edən milli dövlətlər arasındakı əlaqələrin ənənəvi struktura qayıtmasına imkan yaradır. Bu halda, bipolyarlığın süqutu çoxqütblülüyün yaranmasına gətirib çıxarır. Qütblər 2 blokun, dünyanın vəya tərəfin dezinteqrasiyası nəticəsində korporativ intizam məhdudiyyətindən azad olmuş nisbətən daha güclü iştirakçılar olmalıdır.

Çoxqütblülük ideyası Çinin proqramlı partiya və hökümət sənədlərində mərkəzlərdən biri oldu. Halbuki, burada diqqət benyəlxalq əlaqələrin yeni mərhələsinin mənasının adekvat şəkildə əks etdirilməsinə deyil, real və ya dolayı hegemonluğa qarşı mübarizəyə, ABŞ-ın birqütblü dünyanın başında olmasının qarşısının alınmasına yetirilirdi. Qərb ədəbiyyatında və bəzi rəsmi amerikan nümayəndələrinin çıxışlarında "ABŞ-ın tək liderliyi", yəni birqütblülük haqqında fikirlər az səslənmir.

Soyuq müharibənin 2 "düşərgəsi" arasındakı qarşıdurma bitməsi nəticəsində yaranan yeni şərtlərə görə xarici siyasət kordinatları və əvvəllər "üçüncü dünyaya" aid olan böyük dövlət qrupları dəyişdi. Qoşulmamaq hərəkatı öz əvvəlki tərkibini itirdi. Cənubun təbəqələşməsi və monolit olmayan bu qrupun və şimalda ayrı dövlətlərin

sayəsində formalaşan əlaqələrin differensasiya sürətləndi. Çoxqütblülüyün bir başqa ölçüsünü regionalizm hesab etmək olar. Bütün müxtəlif planlar, eyni olmayan inkişaf templəri və regional qrupların inteqrasiyası dünyanın geosiyasi xəritəsinə dəyişikliklər əlavə xüsusiyyətlər əlavə edirlər.

### *6.2.1. Beynəlxalq sistemin əsas inkişaf vektoru*

Dünya inkişafının əsas tendensiyaları və beynəlxalq sistemin əsas aktorlarının dinamikası əsasında dünya güc balansının qərb sivilizasiyanın xeyrinə dəyişmədiyini demək olar. Hal-hazırda dünya sivilizasiyası bütün beynəlxalq əlaqələr sisteminin yenidən formalaşması həddinə çatıb. Dünya Qədim Roma imperiyasının dağılması, Bizansın süqutu, Qızıl ordunun tənəzzülü, əsasında əvvəl koloniya daha sonra qeyri-koloniya quruluşlarının mövcud oluğu mərkəzi-qərb dünya nizamına gətirib çıxaran coğrafi kəşflər dövrlərini xatırladan bir nöqtədə dayanıb. İndi, təxminən 400 il mövcud olmuş bu sistem sona çatır. Faktiki olaraq, söhbət insan sivilizasiyasının inkişafının erasını dəyişməyindən gedir.

Beləliklə, dünya inkişafının əsas vektoru qərb sivilizasiyasının iqtisadi, ideoloji, mədəni və siyasi sahələrdə öz qüdrətini itirməsi xətti üzrə davam edir. Qərbin qlobal dominantlığının əvəzinə, digər lokal sivilizasiyaların təşkil etdiyi çoxmərkəzli dünya nizamı sistemi gəlir. Bununla belə, elmi-texniki və hərbi sferalarda dünya liderliyini qoruyub saxlayan Qərb geriyə qalan strateji üstünlüklərini siyasi təsirə çevirərək, onun baxış bucağına əsasən əlverişli olmayan beynəlxalq vəziyyətin dəyişmə prosesini dayandırmağa çalışır. Bundan da, beynəlxalq vəziyyətin sonrakı vəziyyəti haqqında mümkün ssenarilərini müəyyənləşdirilməsində qərəzliklər əmələ gəlir. Bu, dünya məsələlərində öz dominantlığını qorumağa çalışan qərb sivilizasiyası ilə bəşəriyyətin iqtisadi, elni, ideoloji və mədəni inkişafında Qərbin rolunun azalması əksilikləridir. Mövcud əkslik qərb sivilizasiyası və digər lokal sivilizasiyalar arasında mübarizənin kəskinləşməsinə səbəb olur.

Buna görə də, beynəlxalq əlaqələr sisteminin sonrakı inkişafı qərb sivilizasiyası tərəfindən müəyyənləşdirilən fəaliyyətlərdən aslı olacaq. Bu Qərbin hələ də, qlobal tarazlıqda daha güclü və aktiv tərəf olmasıyla izzah olunur. Çıxılmaz vəziyyət məhz Qərbi fəaliyyət göstərməyə məcbur edir. Ətalətli ssenari Qərb üçün qəbul olunmazdır, çünki bu tarixi məğlubiyyətə aparır. Digər sivilizaaiyalara gəldikdə isə, onlar Qərbə real təsir göstərə biləcək vəziyyətdə deyillər. Digər sivilizasiyalar ayrılıqda Qərblə mübarizə aparmaq üçün ümumi parametrlərə əsasən zəifdirlər. Məsələn rus sivilizasiyası Qərblə hərbi və hərbi-texniki sahədə mübarizə aparmağa qadirdir, lakin iqtisadi sahədə zəifdir. Qərbiasiya sivilizasiya iqtisadi sahədə mübarizə apara bilər, lakin hərbi sahədə apara bilməz.

Eyni zamanda, qərbi olmayan sivilizasiyaların koordinasiya səviyyəsi əsas məsələlər üzrə tək mövqe formalaşdırmaq üçün dünya problemlərinin ümumi həlli yollarını axtarmaqda kifayət qədər güclü deyil. Bundan əlavə, qərbi olmayan sivilizasiyaların içində güclü qarşıdurmalar mövcuddur. Qərb sivilizasiya daxilində isə koordinasiya səviyyəsi daha yüksəkdir və artmağa davam edir. Əsas məsələlərdə tək mövqe tutduğu Qərb hal-hazırda dünyanın güc mərkəzidir. Digər sivilizasiyalar isə öz güclü tərəflərindən istifadə edərək, bu siyasətin nüanslarına təsir edə bilərlər və Qərbin fəaliyyətinə bəzi sərhədlər qoya bilərlər. Lakin, bütün siyasətini dəyişdirməyə məcbur etmək qabiliyyətindı deyillər.

### *6.2.2. Beynəlxalq sistemdə çoxqütblülüyün saxlanması ssenarisi*

Çoxqütblülüyün saxlanması ssenarisi beynəlxalq vəziyyətin mövcud inkişaf ssenarisi hesab olunur, yəni, hal-hazırda reallaşır. Qərbin analizləri onu göstərir ki, Qərb beynəlxalq əlaqələrdə öz dominantlığını qoruyub saxlamaq istiqamətində müəyyən strateji plan əsasında fəaliyyət göstərir. Əgər Qərb heç bir hazırlıq görməsəydi, çoxqütblülük digər sivilizasiyaların xüsusi səyləri olmadan öz-özünə genişlənərdi. Bu zaman beynəlxalq əlaqələr sistemində çoxqütblülüyün təbii genişlənməsi ssenarisi həyata keçərdi. Lakin, Qərbin dünya arenasında praktiki

fəaliyyəti onu göstərir ki, qərb sivilizasiyası bu ssenarinin əksinə mümkün olan bütün güclər və vasitələrdən istifadə edir.

Çoxqütblülüyün saxlanması ssenarisi Qərbin yeni güc mərkəzlərinin kristallaşma nöqtələri kimi çıxış edən digər sivilizasiyaların daha güclü dövlətlərinin təsirinin pozulmasına istiqamətlənmiş siyasət yürütməsi deməkdir. Bu ssenari heç bir müəyyən nəticəyə aparmadığı üçün beynəlxalq vəziyyətin inkişafının keçid forması hesab olunur. Bu inkişaf ssenarisinin nəticəsi ya daha sərt ssenariyə keçid, ya da qərb sivilizasiyasının siyasətinin digər sivilizasiyalarla əməkdaşlıq istiqamətində dəyişməsinə razılığı ola bilər.

Çoxqütblülüyün saxlanması ssenarisi vaxt qazanılması hesab olunur. Qərb hesab edir ki, əlavə vaxt əldə edərək, o dünya iqtisadi liderliyini təkrar qaytarmaq üçün iqtisadiyyatını yenidən inşa edə biləcək. Ya da, hərbi-texniki sahədə ani inkişaf sayəsində dünya üzərində həlledici hərbi üstünlüyə sahib olacaq. Ya da, "yumuşaq güc" siyasəti digər sivilizasiyaların kilid ölkələrinin cəmiyyətini qərb sivilizasiyasının təsirindən aslı edə bilmək və ya daxili qarşıdurmaların yaradılması yolu ilə onları məhv edə bilmək üçün kifayət dərəcədə təsir edəcək.

Çoxqütblülüyün saxlanması ssenarisini "İkinci soyuq müharibə" də adlandırmaq olar. Düzdür, "soyuq müharibənin" əsasında ideologiyaların qarşıdurması deyil, qərb və digər sivilizasiyaların dəyərlər mübarizəsi duracaq. Bu da 1947-1990-cı illəri əhatə edən ilk "soyuq müharibə" qədər uzana bilər. Çoxqütblülüyün saxlanması ssenarisi 2050-ci ilə qədər uzana bilər. Lakin, bu ssenarinin həyata keçməsiylə əlaqədar olaraq, beynəlxalq gərginliyin artması yaxın illərdə dünya situasiyasını daha qarşıdurmalı ssenariyə itələyəcək.

İlk "soyuq müharibə" kimi çoxqütblülüyün saxlanması ssenarisi sərt ideya qarşıdurması, informasiya müharibəsi halında "yumuşaq güc" tətbiqi, eyni zamanda iqtisadi sanksiya, siyasi və diplomatik təzyiq və lokal silahlı konfliktlər formasında "sərt gücün" tətbiqi deməkdir. Keçmiş "soyuq müharibə" arsenalından terror qruplarının hazırlanması və maliyyələşdirilməsi, dövlət çevrilişləri, boykotlar kimi çoxsaylı üsullardan istifadə olunacaq.

Çoxqütblülüyün saxlanması ssenarisində silahlanma da xüsusi xarakter daşıyır. Qərb silahlı qüvvələrin sayının artırılmasına yox, öz elmi potensialına əsaslanaraq, həlledici hərbi-texniki üstünlük əldə edə biləcəyi sahələri axtarmağa yiyələnəcək. Silahlanmasının nəzarət altında saxlanmaaına aid hər hansı müqavilələrin bağlanmasını da istisna etmək olmaz. Eyni zamanda, Qərb bu müqavilələr əsasında strateji balansı elə dəyişmək istəyir ki, onun rəqibləri ABŞ-ın və onun müttəfiqlərinin istənilən hərbi-texniki sahədə gözlənilməz inkişafına heç bir şeylə müqavimət göstərə bilməsinlər.

Bununla belə, Qərb birbaşa hərbi toqquşmalar olmadan hərbi yolla digər sivilizasiyalarla qarşıdurmalara qaçacaq. Bu əsasən, rəqib dövlətlərə və onların müttəfiqlərinə istiqamətlənən zərbələri həyata keçirən dövlətlər və terror təşkilatlarına dəstək formasında həyata keçəcək. Bütün bu qarşıdurma konstruksiyası qlobal, eyni zamanda regional səviyyədə tərəflərin hərbi-strateji güc tarazlığına əsaslanacaq. Lokal müharibələr və dövlət daxili konfliktlərin silahlanması hər şeydən əvvəl regional güc balansının dəyişdirilməsinə istiqamət-lənəcək.

### *6.2.3. Beynəlxalq əlaqələr sistemində birqütblülüyün konservasiyası ssenarisi*

Beynəlxalq əlaqələr sistemində birqütblülüyün konservasiyası ssenarisi Qərb sivilizasiyasının çoxqütblülüyün saxlanması strategiyasında uğur əldə etməsi halında gerçəkləşəcək. Qərb bu uğuru 3 üsuldan biriylə əldə edə bilər. Birincisi, digər sivilizasiyaların aparıcı dövlətlərini, Rusiya, Çin və İranı zəiflətmək yolu ilə. İkincisi, digər sivilizasiyaların aparıcı dövlətləriylə üstünlüklərin müəyyən olunması qarşılığında təkqütblü sistemin qaydaları ilə razılaşmaları haqqında razılığın əldə olunması. Üçüncüsü isə, birinci və ikinci variantların birləşməsi ilə.

Birinci variant Qərbin dünyada hərbi-siyasi balansı öz xeyrinə dəyişməsi üçün aktiv fəaliyyət tələb edir. Belə dəyişiklik sıradakı hallarda baş verə bilər:

• Qərbin “yumuşaq güc” siyasəti ilə qərbli olmayan əsas aparıcı 2 dövlətdən (Rusiya və ya Çin) birini zəiflətmək;

• Hərbi-texniki sahədə inkişaf nəticəsində, bütün rəqiblər üstündə həlledici hərbi ütünlüyə sahib olmaq;

• Rusiya və Çinlə iri miqyaslı hərbi konfliktə daxil olmaq və bu konfliktdə qələbə çalmaq.

Bu hallardan istənilən biri baş tutarsa, Qərb “mütləq güc” mövqeyində çıxış edib, öz şərtlərini bütün dünyaya bəyan edə biləcək. Rusiyanın daxili destabilliyi və dağılması nəticəsində, Çinin hərbi-texniki sahədə Qərbdən geri qalmasıyla Qərb Çin üzərində həlledici hərbi üstünlüyə malik olacaq. Hal-hazırda Rusiya Çinə hərbi arsenalını genişləndirməsi üçün daşınan hərbi sistemlərlə və hərbi texnikayla təchiz edir. Rusiya hökümətinin dağılması vəya Qərbin təsiri altına düşməsi Çinə rus hərbi avadanlığının gəlməsinin qarşısını alacaq. Çinin Qərbin hərbi gücünə çatması üçün hələ 15-20 il lazımdır və çətin ki, çata bilər.

Buna görə də, Qərb hərbi gücünə əsaslanaraq, Çinin ərazisinə daxil olmadan, kapitulasiya tələb edə bilər. Əgər Rusiya ərazisi Qərbin təsiri altında olsa, Çin çox asanlıqla hərbi blokada yolu ilə dünya bazarından kənarlaşdırıla bilər. Buna görə də, Çin ya Qərb tərəfindən irəli sürülən şərtləri qəbul etməlidir, ya da bəşəriyyət sivilizasiyasının inkişafına çox zəif təsir edərək, bütün dünyadan izolasiya olunmalıdır.

Digər tərəfdən Çinin destabilizasiyası və dağılması Qərbin müasir dünyada iqtisadi rolunun artmasına səbəb olacaq. Bu şərtlər əsasında rus iqtisadiyyatı faktiki olaraq qərb bazarından aslı vəziyyətə düşəcək. Belə situasiyalarda Qərbin Rusiyaya iqtisadi təzyiq imkanları bir neçə dəfə artacaq. Bu zaman Rusiya seçim qarşısında qalacaq - ya Qərbin şərtlərini qəbul etməli olacaq ya da öz iqtisadi əlaqələrini minimuma endirərək azad iqtisadi siyasətə keçməlidir. Eyni zamanda hadisələrin bu cür inkişafı Rusiya Federasiyasını dünyanın əsas iqtisadi proseslərindən izlğolasiya edərdi. Bununla da, Qərbin digər dünyaya öz iradəsini tətbiqi artardı.

Qərb belə döyüşlərdə qələbə əldə edərsə, beynəlxalq əlaqələr sistemində birqütblülüyün konservasiyası ssenarisi bütün hallarda

uğurlu olacaq. Əgər Qərb məğlub olsa, bu zaman qərb sivi-li-za-siyasının dağılması baş verəcək. Strateji nüvə silahının iri miq-yasda tətbiqi bəşəriyyəti bir neçə əsr arxaya atacaq dağıdıcı “bərabərliklə” bitə bilər. Beynəlxalq əlaqələr sistemində birqütblülüyün konser-vasiyası ssenarisi bəşəriyyətin dünya inkişafının paradiqmasının prin-sipial olaraq dəyişəcəyi Üçüncü dünya müharibəsi ssenarisi ola bilər.

Çoxqütblülüyen saxlanması ssenarisi çərçivəsində Qərb digər sivilizasiyaların əsas dövlətləri ilə sözləşə bilər. Bu dövlətlərin əksinə Qərb sivilizasiyasının koordinasiyası və nizam və intizamı yüksək səviyyədə qalır. Bu ssenarinin məğzi ondan ibarətdir ki, Qərb öz resurslarından bütün rəqibləri neytrallaşdırmaq üçün deyil, onlardan birini neytrallaşdırmaq üçün istifadə edəcək. Daha sonra bir başqasına keçəcək, yəni rəqiblərini tək tək sıradan çıxaracaq. Əgər Qərb belə manevr edə bilsə, bu zaman o çoxqütblülük prosesinin inkişafını kifayət qədər uzun müddət dayandıra bilər.

***6.2.4. Qərbin dağılması və ya ayrılması ssenarisi***

Qərbin dağılması vəya ayrılması ssenarisi bir biriylə qarşılıqlı əlaqədədir. Bu ssenarilərin hər ikisi Qərbin çoxqütblülüyün saxlan-ması ssenarisinin inkişafında uğursuzluğunun nəticəsi ola bilər. Aydındır ki, əgər Qərb digər sivilizasiyaların aparıcı dövlətlərilə mü-barizədə resurslarından geniş istifadə etsə, onun dünya iqtisadiy-yatında rolu get gedə azalacaq və qərb iqtisadiyyatının süqutu qaçınılmaz olacaq. Bunun nəticəsində də, əvvəl iqtisadi daha sonra isə siyasi sahədə böhranlar baş verəcək.

Bu hadisələron davamı olaraq, dünya maliyə-iqtisadi böhran baş verə bilər. Belə böhranın baş verməsinin tək səbəbi bir başa Qərbin digər sivilizasiyalarla olan mübarizəsində resurslarını istifadə etmə-siylə əlaqəli olmaya da bilər. Sadəcə ola bilər ki, dünya maliyə sisteminin daxilindəki ziddiyyətlər elə həddə çatıb ki, onun dağılması qarşısı alınmazdır. Lakin, situasiya o qədər qarışıqdır ki, onun dağıla-cağını vəya ayaqda qalacağı haqda heçkim dəqiq proqnoz verə bilməz. Eyni zamanda heçkim bu dağıntının nə vaxt bsş verəcəyi haqda da dəqiq bir şey deyə bilməz.

Qərbin dağılması ssenarisi beynəxalq əlaqələrin sıradakı inkişafının proqnozlaşdırılması baxış bucağına əsasən daha çətindir. Buna görə də, böyük ehtimalla, hadisələr gözlənilməz şəkildə baş verəcək. Bu ssenari hal-hazırdakı beynəlxalq sistemın çatlaması və onun xaotikləşməsi deməkdir. Onun nəticəsi olaraq, ən geniş coğrafi diapazonda dövlətdaxili və lokal konfliktlərdən tutmuş, xüsusi qoşunlar və yalançı dövlət qurumları tərəfindən nüvə silahının tətbiqinə qədər fərqli silahlı konflikt formalarından istifadə olunacaq. Ən qeyri-adi və gözlənilməz koalisiyalar, eyni zamanda qısa müddətli müttəfiqliklər yaranacaq.

Qərbin ayrılması ssenarisi qərb sivilizasiyasının sonu anlamına gələcək. Bu halda, bu sivilizasiyanın bəzi hissələri digər sivilizasiyalara inteqrasiya edə bilərlər. Məsələn, qərbi avropa və cənubi avropa ölkələri rus sivilizasiyası tərkibinə inteqrasiya edə bilər. İspaniya və Portuqaliya öz keçmiş müstəmləkələri olan Latın amerikası sivilizasiyasına inteqrasiya edə bilərlər. Bununla da, NATO mövcud olmayacaq və Avropa İttifaqı həm tərkib sayında həm də mərkəzləşmə səviyyəsində dəyişikliklərə uğrayacaq. Yenə də, hal-hazırkı tərkibin saxlanmasıyla mərkəzləşmənin zəifləməsi kimi sayın azalmasıyla mərkəzləşmə gücləndirilə bilər.

Qərbin ayrılması prosesinin başlanması nəticəsində qərb sivilizasiyasının birliyinin qorunmasına və öz qarşıdurma siyasətinə davam edən qərb elitası bu prosesləri dayandırmağa çalışması beynəlxalq vəziyyətin kəskinləşməsinə səbəb ola bilər. Bu zaman Avropa İttifaqı və NATO tərkibində olub, öz siyasi istiqamətlərini dəyişməyə çalışan dövlətlərdə dövlət çevrilişləri etməyə cəhdlər olacaq. Müəyyən şəraitdə lokal silahlı konfliktə çevrilə biləcək dövlət daxili konfliktlərin baş verməsi ehtimalı da vardır.

Qərbin dağılması prosesiylə bağlı situasiya stabilləşdikdən sonra, beynəlxalq əlaqələrdə çoxqütblü sistem yaranacaq. Bu sistemdə ən başdan digər sivilizasiyalarla əməkdaşlıq etmədiyi üçün Qərb sivilizasiyası çox az təsir qüvvəsinə malik olacaq. Bu sistemdə çoxqütblülüklə mübarizə aparan qərb dövlətlərinin sayı azalacağından onların dünya hadisələrinə kifayət qədər təsir etmək üçün resursları

çatışmayacaq. Təbii ki, nüvə müharibəsi istisna olmaqla. Lakin, bu onlar üçün intihar olardı.

### *6.2.5. Beynəlxalq əlaqələrin çoxqütblülüyə razılaşdırılmış keçid ssenarisi*

Bu ssenari qərb sivilizaaiyasının dağılmasının və ya ayrılmasının mümkün alternativ ssenarisi hesab olunur. O qərb elitasının obyektiv tarixi prosesləri dəyişmək cəhdlərinin mənasızlığını dərketməsi nəticəsində beynəlxala sistemin çoxqütblü sistemə keçməsinin qaçınılmazlığı konsensusuna çatacaqlar. Belə keçid Qərb sivili-zasiyasına öz təsir gücünün bir hissəsini və sərvətini qoruyub saxlamağa imkan yaradacaq. Digər ssenarilərdə isə bu naməlumdur. Lakin burdakı qəlizlik Qərbin daxilində kimin hesabına digər sivilizasiyalara komp-ramisə gedilməsi sualıdır.

Beynəlxalq əlaqələrin çoxqütblülüyə razılaşdırılmış keçidi ssenarisi 2 variantda mümkündür. Birinci variant Qərbin çoxqütblülüyün genişlənməsinə qarşı çıxmağından imtina etməsidir. Lakin o, digər sivilizasiyalarla yeni dünya nizamı strukturunu seçməkdə iştirak etmir. Başqa sözlə, çoxqütblü beynəlxalq sistem qərb sivilizasiyasının iradəsi xaricində formalaşacaq. İkinci variant isə çoxqütblülüyə qarşı çıxmaqdan imtinadan başqa, digər sivilizasiyalarla yeni dünya nizamının yaradılmasında əməkdaşlıq etməsidir. Birinci halda çoxqütblü beynəlxalq sistem gec əmələ gələcək, lakin hər bi halda 2040-cı ildə tam formalaşacaq. İkinci halda isə, beynəlxalq əlaqələr hətta 10 il müddətində çoxqütblü sistemə keçə bilər. Qərbin maraqları cəhətdən ikinci variant sadəcə təkqütblülüyün qorunması ssenarisindən geri qaldığı üşün daha əlverişlidir.

Lakin bu son ssenarinin gerçəkləşmə ehtimalı çox azdır. Eyni zamanda Beynəlxalq əlaqələrin çoxqütblülüyə razılaşdırılmış keçidi ssenarisi Qərb tərəfindən heç bir ciddi problem olmadan gerçəkləşə bilər. Beynəlxalq əlaqələrin çoxqütblülüyə razılaşdırılmış keçidi ssenarisini Qərb sivilizasiyası üçün maraqlı edən, o öz mövqeyini bir sıra əsas regionlarda, eyni zamanda dünya iqtisadiyyatı sferasında, strateji balansda və beynəlxalq təhlükəsizlikda möhkəmləndirə bilər.

Qərb gələcək dünya nizamında heç də pis olmayan şərtlər və rol əldə edə bilər. Əsas da, qərb sivilizasiyası tək halda qalıb təsir edici gücə malik dünya aktoru kimi çıxış etməyə davam edə bilər.

Beynəlxalq əlaqələrin dəqiq analizi və uzunmüddətli proqnozu üçün sadəcə "ayrı-ayrılıqda" analizləri deyil:

- dünya tendesiyalarının inkişafı;
- beynəlxalq əlaqələrin subyektləri;
- beynəlxalq əlaqələrin aktorları.

Eyni zamanda bir-birlərinə təsir göstərən bütün bu faktorları və qarşılıqlı əlaqə tendesiyaları analiz etmək lazımdır. Məhz analizin bu hissəsi beynəlxalq əlaqələrin arxitekturasının və strukturunun tez-tez dəyişməsinə görə, nisbətən çətin hesab olunur.

Görünən odur ki, 1990-cı ildən sonra situasiya radikal olaraq dəyişdi. Bu da yeni BM arxitekturasının analizinin əsasının qoyulmasını, yeni mümkün gələcək imkanlarının proqnozlaşdırılmasını tələb edir. Yeni arxitekturanı ən sadə şəkildə belə təsvir etmək olar: BM və HSV (Hərbi Siyasi Vəziyyət) (tərkib hissəsi kimi) LS-in (Lokal sivilizasiya) təsiri altında formalaşacaq. LS-in 2 digər əsas qrupu - dünya tendensiyaları və qeyri-hökümət aktorlarına olan münasibətdə həlledici olacaq. Çünki, LS öz inkişafı üçün həm ümumdünya inkişaf qanunauğunluğuna inteqradiya eləyə bilər (LS subyektiv actorların – LS liderlərin, sivil tendensiyaların və dini, məişət, beynəlxalq və digər təşkilatların aktorlarla sintezi hesab edilir).

HSV modelinin daha sadə səviyyəsi və konkret CO BM, HSV və CO formalaşdıran əsas siyasi proseslərin elementlərini özündə birləşdirən analiz və strateji modelləri tələb edir. Burada, elementlərin hər biri bu modelin sitemləşdirməyə və konkretləşdirməyə aid olan faktorlar qruplarının şərtləridir. Bu o deməkdir ki, HSV və CO-nun sadəcə 1 subyekti belə fərqli baxış bucaqlarından analiz olunmalıdır. Siyasi məqsədlərə təsir edən xarici təsiredici faktorların kəmiyyəti BM-in yüzlərlə subyektlərlə, minlərlə aktorlarla və minlərlə fərqli beynəlxalq tendesiyalarla ölçüldüyünü demək kifayətdir. Buna görə də, bu faktorları sistemləşdirmək və qruplaşdırmaq lazımdır.

# VII FƏSİL

# BEYNƏLXALQ VƏZIYYƏTİN DAHA ÇOX EHTİMAL EDİLƏN İNKİŞAF SSENARİLƏRİ

## 7.1. Müasir beynəlxalq vəziyyətin əsas vektorları və xüsusiyyətləri

Beynəlxalq əlaqələrin mümkün inkişaf ssenarisi seçərkən, dünya arenasında mövcud vəziyyətin geniş analizi aparılmalıdır. Belə analiz əksər hallarda müasir beynəlxalq vəziyyətin sıradakı əsas vektorlar boyu xarakterizə olunur:

Birincisi, fərqli lokal sivilizasiya bazalarında yeni güc mərkəzlərində yüksək templə inkişaf edən, öz dəyərlərini və maraqlarını aktiv müdafiə etmə qabiliyyətinə malik olan çin, rus, islam, hindi və latınamerikan sivilizasiyaları ortamüddətli prespektivdə nəyinki iqtisadi, eyni zamanda hərbi-siyasi subyektlərə çevriləcəklər. Bu o deməkdir ki, Beynəlxalq əlaqələrin inkişafı buna kimi əsas güc mərkəzi olan qərb sivilizasiyası ilə rəqabətə girəcək ən az, bir neçə güc mərkəzinin yaranmasına səbəb olacaq.

Göstərilən dəyişiklər bütün lokal sivilizasiyalar üçün eyni cür və eyni anda baş verməyəcək. Əgər rus lokal sivilizasiyası hərbi-siyasi güc mərkəzinə çevrilibsə, çin sivilizasiyasının təsir qütbü 2020-ci ilə qədər formalaşacaq. Müsəlman sivilizsiyası daxili qarşıdurmaların öhdəsindən gəlməli olduğu üçün daha uzun çəkəcək. Hind və Latınamerikan güc mərkəzləri isə öz formalaşmalarını yəgin ki, 2020-ci illərin sonlarında tamamlayacaqlar. İkincisi isə, müasir beynəlxalq əlaqələr dünya siyasətinin qeyri-dövlət aktorlarının – aparıcı dünya dövlətlərinin və onların təmsil etdiyi sivilizasiyaların hərbi-siyasi sahədə rəqiblərinə çevrilən siyasi, ideoloji və dini təşkilatların təsirinin ani yüksəlişi ilə xaraketrizə olunur.

Bu qeyri-dövlət aktorları azad rol oynaya bilər, eyni zamanda "buludlu rəqib" funksiyasını yerinə yetirı bilər. Bu da o deməkdir ki, beynəlxalq münasibətlərin formalaşmasında yeni və bir qayda olaraq bilinməyən faktorun təsiri aktiv iştirak edəcək. 2014-2015-ci illərdə

bu tendensiya özünü Yaxın Şərqdə İŞİD kimi “buludlu rəqib-in yaradılmasıyla nümayiş etdirdi.

Söhbət hər üsuldan istifadəyə hazır olmaqdan gedərkən, bu bir şeyi ifadə edir: istənilən hərbi vasitələrdən istifadəyə hazır olmaq. Günümüzdə bu vasitələrin spektri yetərincədir və həddən artıq genişdir. Müharibə və sülh vasitələrinin arasında sərhəd mövcud deyil və bu o deməkdir ki, müharibə və sülh arasında sərhəd yoxdur.

Artıq siyasət və müharibə arasında sərhəddin olmaması faktını qəbul etmək lazımdır. Müharibənin başlamasını o zaman qəbul edirlər ki, qoşunlaf sərhədləri keçir, əraziləri işğal edir, hərbi gücdən istifadə edilir və nəhayət, siyasətçilər müharibə elan edir və diplomatlar əlaqəlıri kəsirlər. Günümüzdə, müharibənin bu atributları “sülh məramlı” siyasi proseslər zamanı da mövcuddurlar.

### 7.2. Qlobal hərbi-güc qarşıdurması ssenarisi beynəlxalq əlaqələrin daha üstün mümkün inkişaf ssenarisi kimi

Hal-hazırda dünya arenasında yaranmış situasiya 2050-ci ilə qədər qərb sivilizasiyası və digər sivilizasiyalar arasında hərbi-güc qarşıdurması ssenarisinin beynəlxalq əlaqələrin daha mümkün ssenarisi olacağı haqqında fikir söyləməyə imkan yaradır (daha sonra “Qlobal hərbi-güc qarşıdurması” ssenarisi). Bu ssenari “çoxqütblülüyün saxlanması” ssenarisindən irəli gəlir. “Qlobal hərbi-güc qarşıdurması” ssenarisini beynəlxalq qarşıdurmada intensivliyin və sərtliyin maksimum nöqtəsinə çatıldıqda gözdən keçirmək olar. Bu həddə qərb sivilizasiyası və digər sivilizasiyalar arasındakı qarşıdurmanın güc metodları hökmran olurlar.

“Qlobal hərbi-güc qarşıdurması” ssenarisi Qərbdən aşağıdakı xarakteristikaları tələb edən uyğun strategiyaların həyata keçirməsini tələb edir:

• Əsas məqsəd: qərb sivilizasiyasının yaratdığı maliyyə-iqtisadi, hərbi-siyasi və dünya sisteminə sahiblik üzərində idarəni qoruyub saxlamaq;

• Əsas vasitələr: məcburi hallarda istifadə olunan siyasi-diplomatik, maliyyə, iqtisadi və informasiya və hətta hərbi vasitələrin tam spektri;

• Əsas üsul: məqsədə çatmaq üçün bu vasitələrdən sistemli və güc vasitəsilə istifadə etmək. Bununla belə, məqsədə çatmaq üçün yalnız dövlət yox, ümumi və şəxsi resurslardan istifadə etmək gərəkdir;

• Əsas prinsip: real zaman rejimində informasiya daxil olmaqla bütün resursların yığılması.

ABŞ və qərb lokal sivilizasiyalatının "Qlobal hərbi-güc qarşıdurması" ssenarisinin variantlarından birinə hazır olmaqları bir sistemdə cəmləşən ən şok edici üsullar toplusunu ehtimal edir. Belə sistem üçün informasiyanın yığılması və ötürülməsi, onun analiz olunması və qərar qəbul edilməsi beynəlxalq əlaqələr ssenarisini və eyni zamanda hərbi konfliktin baş verməsini tamamilə ələ almağa istiqamətlənir.

*"Qlobal hərbi-güc qarşıdurması" ssenarisinin 3 variantı*

"Qlobal hərbi-güc qarşıdurması" ssenarisinin bu dövrün əvvəlində ortaya çıxan konkret siyasi və başqa şərtlər altında yaranan bir neçə inkişaf variantı mövcuddur. Bu ssenarini 3 varianta ayırmaq olar: pessimist, realist və optimist.

Əgər bu və ya digər ssenarinin variantlarını müasir tendensiyalar əsasında 2021-ci ildən sonranı qiymətləndirməyə çalışsaq, bu zaman təxmini sıradakı formada bölmək olar:

• "Optimist" variant (No 3) - 10%

• "Realist" variant (No 2) - 20%

• "Pessimist" variant (No 1) - 50%

• Beynəlxalq əlaqələrin digər inkişaf ssenariləri - 20%.

Optimist variant beynəlxalq, regional və milli təhlükəsizliyin təminatı üçün siyasi-diplomatik vasitələrin işə qarışmasını, beynəlxalq təhlükəsizlik institutlarının devalivasiyasını, eyni zamanda qlobal siyasətin yeni güc vasitələri və üsullarıyla təminatını tələb edir.

Bu variant adətən, siyasi sahədə silahlı metodlarla siyasi-güc, iqtisadi və maliyə-güc metodlarını sistem birləşməsi kimi görür. 2014-

2015-ci illərdə güc vasitələrinin artması, davamlı olaraq silahlı qarşıdurmaların baş verməsi bu variantı xarakterizə edirdi.

Realist variant qərb və rus lokal sivilizasiyalar arasındakı şəbəkəli və çox mərkəzli qarşıdurmanın keyfiyyətcə yeni səviyyəyə keçməsi mövcud paradiqmanın açıq hərbi qarşıdurma paradiqmasına keçidə səbəb ola bilər. Məna etibarilə, bu variant açıq hərbi qarşıdurmanı tələb edir.

2021-ci ilə qədər realist variantin gerçəkləşməsi əgər beynəlxalq əlaqələrdə güc əsasında yeni paradiqma qəbul edilməzsə, bu zaman sakitcə qəbulunu tələb edir. Bu da beynəlxalq təhlükəsizlik sahəsində mövcud siyasi sistemin dağılması mənasına gəlir.

Pessimist variant BM-in inkişaf paradiqmasının 2021-2022-ci illərə qədər radikal dəyişməsini və 2021-ci ildən sonra qlobal müharibəyə keçmısini ehtimal edir. Yəni vasitələrlə, üsullarla və onların tətbiqiylə məhdudlaşdırılmayan bir müharibə olacaq. Bu variantın inkişafı hərbi-texniki sahədə yeni texnoloji imkanlarla və eyni zamanda strateji nüvə müharibəsindən qaçmaq üçün eskalasiyanın idarə olunmasına dair hesablarla kompensasiya olunur. Ancaq hal-hazırki ssenari çərçivəsi daxilində beynəlxalq vəziyyətdə nüvə müharibəsinin qarşısını almaq mümkün olmayacaq. “Qlobal hərbi-güc qarşıdurması” ssenarisinin pessimist variantının mümkünlüyünü 10-15% kimi qiymətləndirmək olar.

Başqa sözlə, göstərilən ssenaridə ölkələr eyni hərbi-güc ssenarisinin fərqli variantlarından dünyada hakimiyyəti qorumaq üçün istifadə edə bilərlər. Qarşıdurmanın vasitələri sadəcə silahı deyil, eyni zamanda silahsız vasitələr də olacaq. Qarşıdurmada geniş üsullardan – “yumuşaq gücdən” silahlı təcavüzədək bir çox üsuldan istifadə olunacaq.

### 7.3. Beynəlxalq perspektivlər və qlobal siyasət: gələcəyin qurulmasında proqnozlaşdırmanın rolu

Yuxarıda qeyd edilən nəzəri və metodoloji məsələlərin çoxu tendensiya və hadisələrin proqnozlaşdırılmasının qarşılaşdırılması baxımından nəzərdən keçirilə bilər. Onlar bir-birlərini qarşılıq şəkildə istisna etmirlər. Birinin proqnozlaşdırılması digərini proqnozlaşdırmağımıza imkan verir. Diskret fəaliyyət və hadisələrin təhlili vasitəsilə tendensiyaların proqnozlaşdırıldığı kimi beynəlxalq münasibətlərdə bəzi qarşılıqlı asılılıqlar bizə tendensiyaların təhlili vasitəsilə hadisələri proqnozlaşdırmağa imkan verir.

Tendensiyaların təhlili ehtimallar və xüsusi nəticələrin təsirlərinə münasibətdə qeyri-müəyyənliyin azaldılmasına kömək edir. Tendensiyalar konteksti yaradır və həmin kontekst çərçivəsində hadisələr qısa müddətdə məna kəsb edirlər. Fərqli hadisələr nəticədə tendensiyaya çevrilir və çərçivəsində yeni hadisələrin baş verdiyi konteksti təşkil edir. Belə qarşılıqlı asılılıq sayəsində tendensiya və hadisələr arasındakı fərq əhəmiyyətini itirir. Diskret siyasi, iqtisadi və sosial hadisələr beynəlxalq kontekst çərçivəsində olduqda, tendensiya və hadisələr naməluma tamamlayıcı yanaşmanı təmin edir. Proqnozlaşdırma reallığın xüsusi bir aspekti çərçivəsində olduqda, bütün məsələ proqnozun məqsədi ilə dəqiq əlaqə yaratmaq olur.

Bütün bunlardan belə qənaətə gəlmək olur ki, alternativ gələcəyin şərti izahı nəinki mümkündür, hətta elmi cəhətdən də arzuolunandır. “Bəs birdən...?” sualı bütün proqnozlara xasdır və proqnozlaşdıran (nəzəri və metodoloji baxımdan) əsaslı nəticələrin alınması üçün bu sualla birbaşa üzləşməlidir.

Konseptual baxımdan proqnozlaşdırmaya gələcək haqqında təsəvvürlərin yaradılması və daha çox məntiqəyaxın nəticələrin proqnozlaşdırılması daxildir. Reallıq insanların düşüncəsində, bu reallığı getdikcə ağlabatan edən siyasətlər isə naməlum haqqında etdiyimiz proqnozlardan başlayır. Sadəcə proqnozlaşdırma ilə məntiqi nəticə əldə etmək olmur; reallıqlar arzuolunan olduqda və ya bugünün naməlumuna əsaslandıqda, gələcəyin reallıqları olan ehtimalların məntiqi hökmü artır. Günümüzlə gələcəyin proqnozlar vasitəsilə bu qaydada

əlaqələndirilməsi təbii olaraq baş verdikdə, yalnış proqnoz və gözəçarpan təhlükələrin baş vermə ehtimalı da müvafiq olaraq artır. Proqnozlaşdırma layihəsinin qiymətləndirilməsi üzrə ilkin meyarlardan istifadə proqnozlaşdırma prosesində zəruri rol oynayır və beynəlxalq münasibətlər bu baxımdan potensial maraq sahələrinin vurğulanması və proqnozlaşdırma layhəsinin işlənib hazırlanması üzrə bəzi qaydaların qoyulmasında mühüm əhəmiyyət kəsb edir.

Beş substantiv məsələ qlobal gələcəyin proqnozlaşdırılmasında mühüm siyasi təsirlərə malikdir: beynəlxalq sistemdə aparıcı aktorların xüsusiyyətləri və atributları, beynəlxalq sistemlərin dəyişdiyi şərait, beynəlxalq siyasətdə qeyri-ərazi aktorlarının rolu (4) ərazi aktorların diktələri və imperativləri, yoxsul və qeyri-imtiyazlı aktorlar tərəfindən qəbul olunan qaydada beynəlxalq perspektivlərə baxış. Bundan əlavə, əvvəldə qeyd edilən beynəlxalq məsələlərdən hər hansı birinə yönələn hər hansı proqnozlaşdırma layihəsi demoqrafiya və ekologiya, idarəçilik, texnologiya, ehtiyatlar, siyasət və mədəniyyət kimi beynəlxalq sistemlərin bütün vacib struktur ölçülərini də müəyyən etməlidir.

Günümüzün aparıcı aktorları qoyulan meyarlardan asılı olaraq, ABŞ, Sovet İttifaqı, Çin, Yaponiya və bəzi Qərbi Avropa dövlətləri hesab olunur. “Haqq gücdədir” məsəlinə söykənərək demək olar ki, gələcək beynəlxalq siyasətdə aparıcı aktor qrupun kimliyinin proqnozlaşdırılması sadə bir numerativ tapşırıqdan daha çoxu deməkdir. Aparıcı güclər beynəlxalq sistemin strukturunu idarə edib davranışın sərhədlərini müəyyən etdikləri kimi oyunun qaydalarını da idarə etməyə çalışırlar. Aparıcı aktorlar dünya mədəniyyəti üçün nümunə olmaqla, onun atributları və xüsusiyyətlərini müəyyən edirlər. Gələcəyin aparıcı aktorlarının kimliyi texnoloji nailiyyətlərinin hazırkı inkişaf səviyyəsi və dərəcəsi, iqtisadi inkişafın səviyyəsi və dərəcəsi, ehtiyatları tükəndirən və ümumi imkanların sərhədlərini daraldan zorakı əməllərlə məşğul olma dərəcələrinə əsasən müəyyən edilir. Sistem və onun imkanları üzərində olan təzyiqlər arasındakı nisbət gələcək illərdə aparıcı gücə malik olma ehtimalı olan aktorların kimliyi haqqında vacib məlumatlar verir.

Hazırkı aparıcı *dünya mədəniyyəti* qərb-elmi mədəniyyəti ilə təmsil olunur. Gələcəyin dünya mədəniyyətinin xüsusiyyətləri keçmiş və hazırkı mədəni atributlardan qaynaqlanır. Müfəssəl proqnozlar olmadan elmi dəyərlərin davamlılığını proqnozlaşdırmaq mümkün olardı, ancaq belə dəyərlərin dəyişməyəcəyini və dünyada yaranan problemlər və qlobal reallıqlara uzlaşmayacağını güman etmək axmaqlıq olardı. Davamlı inkişaf haqqında cari məsələləri nəzərə alaraq qeyd etmək olar ki, dəyişiklik artıq aşkardır. Yenidən qiymətləndirmələr gələcəcəkdə heç şübhəsiz davam etdiriləcək.

Beynəlxalq sistemin dəyişməsinin proqnozlaşdırılması beynəlxalq münasibətlərin nəzəriyyəçiləri üçün hər zaman diqqət mərkəzində olmuşdur. Baş verdikdən sonra dəyişikliklərin beynəlxalq sistemdə izah edilməsinə baxmayaraq, biz hələ də potensial dəyişmə səbəblərini müəyyən edə bilmirik. Yuxarıda qeyd edilən mühüm beynəlxalq dəyişikliklərin ətraflı monitorinqi mümkün struktur və gələcək nəticələr haqqında zəruri anlayışlar versə də, belə anlayışlar rəsmiləşdirilməli və proqnozlaşdırma layihəsinə daxil edilməlidir.

Qeyri-territorial aktorların bugünki beynəlxalq sistemdə üstünlüyü və sürətlə artan struktur və funksiyaları cari qlobal sistemin ən fərqləndirici xüsusiyyətlərindən biridir. Biz ətraf mühitin idarə edilməsi və insan hüquqları kimi bəzi problemləri təbiətcə qlobal məsələlər kimi təfsir edir və onlara qlobal nöqteyi nəzərdən yanaşırıq. Belə davam etdiyi təqdirdə, qeyri-territorial aktorlar hazırkı dövrlə müqayisədə gələcəkdə beynəlxalq siyasətdə daha böyük əhəmiyyət kəsb edəcəklər. Belə aktorların üstünlüyü onların hədələyici territorial aktorlardan qaçınma dərəcəsi və milli təhlükəsizlikdən asılıdır. “Milli təhlükəsizlik” termini daha geniş mənada şərh olunduqca, qeyri-territorial aktorların beynəlxalq sistemdə daimi mövqe tutma ehtimalı azalır. Qeyri-territorial aktorlar getdikcə institusionallaşırlar, ancaq bu proses gələcək illərdə mütləqdir ki belə davam etməyəcək.

Dövlətlər arasında yüksək nüfuzetmə dərəcəsi və qeyri-territorial aktorların əhəmiyyətinin artmasına baxmayaraq, bu gün *milli ərazilik* aparıcı prinsip olaraq qalır. Beynəlxalq sistemdə aparıcı aktorların bütün digər aktorlar üzərində təsiri getdikcə daha geniş hal

alır (heç şübhəsiz kommunikasiya və hərbi texnologiyanı artırmaqla və ehtiyatçıxarma texnikalarına nəzarət etməklə güclənmişdir) və aparıcı olmayan aktorlar üçün mif və milli suverenlik reallığı arasında ziddiyyətin üstünlük təşkil etdiyi paradoksal vəziyyət yaradır. Sonuncu təhlildə suverenliyin səmərəli icrası sözügedən dövlətin imkanları, qeyd olunan sahə və başqa dövlətlərin ənənəvi suverenliyə əməl etmə dərəcəsindən asılıdır. Praktiki baxımdan, qeyri-dominant aktorlara xas suverenliklə müqayisədə aparıcı qüvvələrin suverenliyi daha ekstensiv, qüdrətli və institusional xarakter daşıyır. Belə çıxır ki, beynəlxalq siyasətdə güclü olan haqlıdır.

Qeyri-dominant aktorların dərk etdiyi beynəlxalq sistemdən belə sistemin dəyişmə potensialı haqqında zəruri məlumatları əldə etmək olar. Varlı və kasıblar arasında ümumi dixotomiya, yəni ikiyə bölünməni nəzərə almadan, bu məsələ status-kvo və qeyri status-kvo gücləri və razı və narazı dövlətlər arasında maraqların toqquşması kimi qiymətləndirilir. Əsas məsələ belə fərqlərin davam edib-etməyəcəyi deyil, onların kim üçün, nə dərəcədə və nə səbəbdən, hansı nəticələri hasil edəcəyidir. Beynəlxalq sistemə baxış keçirməklə, daha az imtiyazlı aktorların əsas beynəlxalq məsələlərin meydana gəlməsində rolu və atribut və xüsusiyyətlərini nəzərə alıb onların mövqeyindən yanaşsaq, yuxarıdakı suallara bəzi ilkin cavabları əldə edə bilərik.

Bərabərlik və ədalət kimi liberal insani dəyərlər və imtiyazlar və güc siyasətinin acı reallıqları baxımından da təhlil aparıla bilər. Birinci halda beynəlxalq münasibətlərin daha yaxşı nümunələrinin axtarılması ilə təhlil aparılır. Belə əlaqələrin daha yaxşı nümunələrinə əsasən kasad məhsullar güclü olanlar arasında yox, ədalətli şəkildə adambaşına bərabər olaraq paylanılır. İkinci halda isə acı reallıq odur ki, sənaye prosesləri üçün vacib olan mineral və enerji ehtiyatlarının daha az inkişaf etmiş ölkələrdə yerləşməsi nəticəsində zərurət duyulan ehtiyatların yerləşdiyi sosial və siyasi kontekstlərin yoxlanılması zamanı yeni maraqlar qəbul edilmir. Hər bir halda beynəlxalq münasibətlərə bu istiqamətdə baxış onların proqnozlaşdırılmasında getdikcə daha çox əhəmiyyət kəsb edir.

### 7.4.Beynəlxalq münasibətlərin proqnozlaşdırılması üzrə kritik imperativlər

Proqnozlaşdırma üzrə ən kritik imperativlərə sosial mürəkkəblik və bilik partlayışının idarə edilməsi, sosial və siyasi sistemlər haqqında məlumatların sərfəli, nəzəri cəhətdən faydalı və metodoloji cəhətdən düzgün yollarla birləşdirilməsi daxildir. Məsələnin şərhi üçün qeyd olunanlardan birinə qısaca aydınlıq gətirək. Sosial siyasətin imperativləri özünü nədə təsdiq edir? Sosial siyasət dövlətin digər iqtisadi subyektlərin həyat və əmək şəraitinin dolğun təminatına yönəldilmiş fəaliyyətidir. Sosial sferada aparılan islahatlar sosial siyasət zəminində qurulur və ərsəyə yetir. Məhz analoji siyasət düzümü sosial yaşayış keyfiyyətinə yetişməni şərtləndirir. Lakonik interpretasiyada sosial siyasət dövlətin, yerli hakimiyyət orqanlarının, müəssisə və təşkilatların əhalini işsizlikdən, istehlak qiymətlərinin artımından müdafiə edən kompleks sosial iqtisadi tədbirlər sistemidir. Sosial siyasət hər bir dövləti sistemdə iqtisadi uklad və model, siyasi quruluş və baxışlar çevrəsi, milli-mental motivasiyaya uyğun olaraq nizami mənbə alır. Belə asılılıq və əlaqəliyə baxmayaraq sosial siyasətin ümumi olan prinsipləri də mövcuddur:

- ən ümdə sosial və rifahi təminatları bərqərar edən vətəndaş cəmiyyətinin formalaşdırılması və təkmilləşdirilməsi;
- vətəndaşların təhsil hüquqların reallaşmasına müvafiq şəraitin yaradılmasını;
- əhalinin ən geniş təbəqəsinə real səhiyyə yardımının göstərilməsinə, tibii xidmətin keyfiyyətinin yüksəldilməsinə, idman və bədən tərbiyyəsinin kütləfi inkişafının əldə olunmasını;
- mədəni potensialın inkişafı və ölkənini mədəni irsini qorunmasını;

  mədəni mühit vahidliyinin və mədəni dəyərlərin geniş əhali təbəqəsi istifadəsində təminatlılığını;

  effektiv və sivilizasion əmək bazarının yaranışını.

Uğurlu sosial siyasət ədalətli cəmiyyət quruculuğunda təcəssüm olunur. Sosial siyasət ədalətli vətəndaş cəmiyyətini, rifahi yük səlişləri

kommulyativ birləşdirərək özünün imperativləri ilə çıxış edir. Sosial bazar funksionallığını hədəf seçən ölkələrdə sosial siyasət özünün başlıca məqsədləri-ni geniş həlqədə ehtiva edir. Bu imperativlər aşağıdakı düzümdə formalaşdırılır:

- dövləti gəlirlərin, büdcəvi vəsaitlərinin optimal və ədalətli təkrar bölgüsününün reallaşdırılması;
- vətəndaşların təhsil hüquqların gerçəkləşməsi şəraitinin yüksəldilməsini;
- aztəminatlı əhalinin mənzil-kommunal və nəqliyyat sferasında imtiyazlılıq hüquqlarının təmin olunmasını;
- sivilizasion irsin qorunmasını, mədəni potensialın inkişaf etdirilməsini;
- tibbi xidmətin keyfiyyətinin və real səhiyyə yardımının artırılmasını;
- bədən tərbiyyəsi və idmanın kütləvi inkişafına nail olunmanı;
- sosial infrastrukturun keyfiyyət təkmilliyinin əldə edilməsini;
- əhalinin imkanlı informformasiyalara girişin yüksəldilməsini və yeni peşələrə yiyilənmə proqramlarının hazırlanmasını;
- sosial təminatlar sfırasında mütəmadi maliyyə dayanaqlılığının artırılmasını;
- əhalinin sosial müdafiəsində ünvanlılıq institutunun möhkəmləndirilməsini.

Göründüyü kimi, imperativlər qaçılmazdır və istənilən halda gələcək haqqında fikirləşmək və naməlum haqqında araşdırmaları istiqamətləndirmək üçün inkişaf konstruktları (modelləri) yaratmalıyıq.

İllər əvvəl Harold Lasvel hərbi mövqedə texnoloji cəmiyyətin verbal modelini irəli sürdü və onu “qarnizon dövlət” adlandırdı. Lasvel belə cəmiyyətin xüsusiyyətlərini təsvir etdi. Onun təklif etdiyi yollar kompleks sosial istemlərin hərbi nəticələri haqqında düşünməyə vadar etdi. İllər sonra Kristian Bey insan azadlığının konseptual şərtlərinin bəzilərinin təhlilini təqdim etdi. Onun təklif etdiyi yollar kompleks sistemlərdə azadlığın əhəmiyyəti haqqında düşünməyə vadar etdi. Sonralar Artur Stinxombe təklif olunan yolların xülasəsini irəli

sürdü və bu da sosial qaydalar və insan davranışının mütəşəkkilliyi və mürəkkəblikləri haqqında düşünməyə vadar etdi. Bir çoxları insan cəmiyyətləri və sosial davranış haqqında düşünmək üçün konstruktların (modellərin) hazırkı tərkibi haqqında vacib fikirlər əlavə etmişlər. Belə konstruktların (modellərin) beynəlxalq siyasətin təhlilinə tətbiq edilməsi ilə bağlı hər zaman bir sıra cəhdlər olsa da, onlar fərqli və əsassız olmuşdur. Çətinliklə də olsa, onların araşdırılmasına başlanılıb.

Ehtimal ki, beynəlxalq münasibətlərin proqnozlaşdırılması üzrə kompleks sistemlər və potensial proqramlar haqqında sistemli düşüncə ilə bağlı ən faydalı təkliflər Heyvord R.Alker və J.V.Forester tərəfindən irəli sürülmüşdür. Onların hər biri bizə beynəlxalq münasibətlər haqqında fikirləşməyin yeni yollarını təqdim etmiş və analitik konstruktlar (modellər) toplusunu irəli sürmüşlər ki, onlar da gələcək illərdə aparılan proqnozlaşdırma işlərində heç şübhəsiz böyük əhəmiyyət kəsb edəcək.

Alker (1969) sosial davranışa müxtəlif statistik yanaşmaların xərcləri və faydalarını cəmləşdirmişdir. Onun araşdırması müxtəlif statistik alqoritmlərin proqnozlaşdırma bacarıqlarını ört-basdır etmək məqsədi daşımır, ancaq nəticələri aydındır və bu təhlildən proqnozlaşdırmaya inteqrasiyanın əsasını qoymuşdur. Eynisi Alkerin ilk bu tip cəhdləri haqqında da deyilə bilər. Belə ki, ilk cəhdində o, inteqrasiya nəzəriyyəsi və onun fərqli cəhətlərinin riyazi nəticələrini izah etməyə cəhd göstərmişdir. Beləliklə, inteqrasiya haqqında düşüncələrimizlə gələcək nəticələrin proqnozlaşdırılması arasındakı körpünün təməli qoyulmuşdur. Hal-hazırda belə izahatlara əsaslanan proqnozlaşdırma strukturlarının işlənib hazırlanması məsələsi ilə üzləşirik. Heyvord Alkerin yazıları əlavə tədqiqat istiqamətlərini əks etdirmişdir. Bu işi proqnozlaşdırmaya inteqrasiya etməliyik.

Cey Forrester tərəfindən irəli sürülən və bir qədər mübahisələrə səbəb olan *“Dünyanın dinamikası”* adlı əsərində sosial və kompleks sistemlər haqqında fikirlər və onların proqnozlaşdırılması üzrə mühüm töhfələr irəli sürülür. Forresterin işində funksional əlaqələr və (sadədən tutmuş mürəkkəbə qədər ləngimələr də daxil olmaqla)

ləngimə strukturları və nəticənin səbəbə çevrilməsinə əsaslanan kompleks sistemlərin təhlilinə qeyri-statistik yanaşma təqdim edilir. Kompleks sistemlərə belə yanaşmanın çatışmazlıqları geniş şəkildə başqa yerdə müzakirə edilmişdir. Burada yalnız qeyd edilir ki, təhlilin qeyri-statistik təbiəti əhəmiyyətli dərəcədə nöqsan sayılır: proqnozlaşdırma məqsədilə təsadüf və qeyri-müəyyənliyin rolunun aşkar edilməsi həlledici əhəmiyyət kəsb edir. İndi isə bu sistem dinamikası çərçivəsində statistik perspektiv irəli sürülməli – empirik məlumatlardan kritik funksiyalar yaratmalı, onları ənənəvi statistik alətlərdən istifadə etməklə yoxlamalı və vəziyyətdən asılı olaraq real və ya retrospektiv qarşılıqlı asılılıqları gələcəyə yansıtmağa davam edilməlidir.

Metodoloji baxımdan yanaşılsa, beynəlxalq münasibətlərin proqnozlaşdırılmasında olan mühüm imperativlərə vahidin hissələrinin cəmlənməsi, gələcəyə baxışın alternativ yollarının xərcləri və faydalarının qiymətləndirilməsi və metodologiya və proqnozlaşdırmanın bir növü ilə müəyyən olunan problemlərin aydınlaşdırılması daxildir. İkinci növbədə analitik və metodoloji inteqrasiya hələ icra edilməyib. Nəzəri baxımdan yanaşılsa, o zaman əsas məsələ Lasvel, Bey və Stinxombenin etdiyi kimi gələcək nəticələr haqqında fikirlər irəli sürmək, araşdırmalar aparmaq və disiplinli fərziyyələr irəli sürməkdir.

Bəs buradan hansı nəticə əldə olunur? Bizə məlumdur ki, beynəlxalq münasibətlərdə bəzi nəzəri, metodoloji və substantiv rekvizitlər hər bir proqnozlaşdırma layihəsində nəzərə alınmalıdır. Aşağıda verilən şərtlər proqnozlaşdırma üzrə gələcək qərarların düzgün istiqamətləndirilməsini təmin edir:

- Gələcəklə bağlı statik struktur yox, dinamik istiqamət qəbul edilməlidir. Dəyişiklik haqda düşünmək və onu izah etmək heç şübhəsiz çətindir, ancaq dünya dayanmadan dəyişir və buna görə də biz reallıqla birbaşa üzləşməliyik. Bu gün gələcək haqqında kor-koranə şəkildə intellektual fikirlər irəli sürülsə də, onlar öhdəsindən gəlinməcəyək qədər qəliz deyillər.

- Qaldırılan məsələlərin nəticələri, işlədilən üsullar, əsaslandırılan fərziyyələr və sahib olduğumuz dəyərlərdən xəbərdar olmalıyıq. Adətən problem üstüörtülü dəyərlər və şərtlərlə bağlı olur. Proqnozlaşdırmanın ilkin şərti təməlində yatan prioritetlərin aydın izah edilməsidir.
- Hər şeyin cari (və ya gələcək) vəziyyəti və olmalı olduğu vəziyyət arasındakı boşluğun təbiətini şüurlu şəkildə aydınlaşdırmağa çalışmalıyıq. Biz əsasən "cari" və "olmalı olan"ları qarışdırırıq. Potensial gələcəyin düzgün təhlili zamanı belə qarışıqlığa yol verilməməlidir.
- Başa düşməliyik ki, gələcəyin təsviri, eləcə də onu təsvir edərkən istifadə etdiyimiz modellər indi və keçmiş haqqında anlayışımızla məhdudlaşır və şərtlənir. Sosial və beynəlxalq təbəqələşmə şəraitində mövqeyimiz problemləri və dünyaya baxışımızın şərh edilməsinin mühüm hissəsini təşkil edir.
- Öz sərəncamımızda olan intellektual vasitələrin uyğunluğunu artırmağa çalışmalıyıq. Zamana görə yerdəyişmə dəyişiklik, inkişaf və struktur və ya sistematik transformasiyaya adaptasiya məsələlərində bizə kömək edə bilər. Keçmiş və indiki dövr yerindən asılı olaraq, məsələn, başqa bir ərazidə gələcəyin modeli ki-mi nəzərdən keçirilə bilər. Zamana görə yerin dəyişməsi inkişaf təhlilçiləri arasında ümumi təcrübədir. Ancaq biz gələcək haqqında düşünmək üçün bu ehtimaldan hələ faydalanmamışıq.
- Biz şüurlu şəkildə gələcəyi bu günə daşımaq üçün yollar axtarmalıyıq. Hazırkı və gələcək dövr üzrə sosial layihə və qiymətləndirmələr xüsusi problem və problemli sahəyə uyğun şəkildə proqnozlaşdırma işinin bi hissəsi kimi nəzərdən keçirilməlidir.
- Gələcək haqqında mümkün qədər proqnozların verilməsinə hazır olmalıyıq. Belə proqnozlara cari tendensiyalarla edilən sistematik dəyərləndirmələr, gözlənilən nəticələrdə aralıqların qiymətləndirilməsi və hər bir potensial nəticə ilə bağlı

alternativ gözləntilər daxildir. Bir mərhələdən digərinə necə hərəkətdə olduğumuzu müəyyənləşdirməklə başlaya bilərik.

Proqnozların edilməsi hadisələrin baş verməsinin qarşısını alma vasitəsi kimi də nəzərdən keçirilə bilər. Proqnoz gələcəklə bağlı proqnozlaşdıranın planlaşdırmaya etdiyi töhfədir. Planlaşdıran proqnozlaşdırmaya etdiyi töhfə problem həlletmə sahəsinə aiddir. Gələcək alternativlərin şüurlu seçimi və keçilən mərhələlərin sistemli izahı planlaşdırmanın mahiyyətini təşkil edir. Planlaşdıran arzuolunan gələcəyi təklif edir, proqnozlaşdıran gələcək alternativlərin strukturunu təsvir edir.

**Dərsliyin tərtibi zamanı istifadə olunan elmi monoqrafiyalar, məqalə və dərsliklər**


1. Abbasbəyli A. Beynəlxalq münasibətlərin proqnozlaşdırılması nəzəri problemləri. Bakı, Şirvan, 2006
2. Abbasbəyli A., Nəcəfov E. Beynəlxalq münasibətlər nəzəriyyəsi. Bakı, Mütərcim, 2007
3. Babaoğlu H. Siyasi təhlil və proqnozlaşdırılma, Bakı, MSA, 2012
4. Babaoğlu H. Dünya siyasəti və beynəlxalq münasibətlər. Dərslik, Çinar-çap, 2010
5. Əliyev Q. Çağdaş demokratik proseslərin bəzi fəlsəfi problemləri. Bakı, Təbib, 1997
6. Əliyev Q. Müasir siyasi modernləşmə konsepsiyaları. Si¬yasətin fəlsəfəsi. Bakı, 1998
7. Həsənoğlu F. Avropa kimiliyi və demokratiya. Bakı, Azad¬lıq, 2000
8. Məmmədova S. Sosial proqnozlaşdırma və layihələşdirmə (dərs vəsaiti), Bakı, 2009
9. Kuzık B.H., Kuşlin V.İ., Yakoveç B. Proqnozlaşdirma, strateji planlaşdirma və milli Proqramlaşdirma. Dərslik. Yeniləşdirilmiş və əlavə olunmuş ikinci nəşr, Bakı, İqtisad Universiteti, 2010
10. Siyasi tarix, Bakı, Şur, 1995
11. Аникин В. И., Шаруненко Н.М., Аникин С.В. Основные направления, методы прогнозирования и моделирования во внешнеполитической деятельности. М: ДА МИД РФ, 2000
12. Ахременко А.С. Политический анализ и прогнозирование. Учебное пособие – М., 2006
13. Ахременко, А. С. Политическое прогнозирование: сценарный метод. М., 2004
14. Басовский Л.Е. Прогнозирование и планирование в условиях рынка. М.: Инфра. 2001
15. Белова Ю. А. / Отв. ред. О. Платонов. — М. : Институт русской цивилизации,

16. Бестужев-Лада И.В., Наместникова Г.А. Социальное прогнозирование. Курс лекций. М.: Педагогическое общество России. 2001
17. Бешелев С.Д. Гурвич Ф.Г. Экспертные оценки. М., Изд-во Педагогическое общество России, 1999.
18. Валлерстайн И. Анализ мировых систем и ситуация в современном мире. СПб.: Университетская книга, 2001
19. Василенко И.А. Политическая глобалистика. М.: Лотос, 2000
20. Вишнев С.М. Основы комплексного прогнозирования. М., Прогресс, 1999.
21. Гончаренко А.Н. Прогнозирование и политика / А.Н. Гончаренко. – Киев, 1993
22. Данилевский Н. Я. Россия и Европа. / Составление и комментарии
23. Дегтярев, А. А. Политический анализ как прикладная дисциплина: предметное поле и направление разработки // Полис. 2004
24. Заявление по итогам встречи на высшем уровне в Уэльсе. Обнародовано главами государств и правительств, участвующими в заседании Североатлантического союза в Уэльсе — 4–5 сентября 2014
25. Клочихин Е. А. Место межправительственных организаций среди акторов мировой политики // «Приватизация мировой политики»: локальные действия — глобальные результаты. / Под ред. Лебедевой М. М. — М., 2008
26. Кокошин А. А. Выдающийся отечественный военный теоретик и военачальник А. А. Свечин. М.: МГУ, 2013
27. Колосов В.А., Мироненко Н.С. Геополитика и политическая география. М., 2001
28. Кутейников А. Е. Международные организации: функции и деятельность. Введение в социологию международных межправительственных организаций. Учебное пособие. — СПб.: Изд-во Санкт-Петербургского унта, 2007

29. Кузык Б. Н. Прогнозирование, стратегическое планирование и национальное программирование. 4-е изд. перераб. и доп. М.: Экономика, 2011
30. Лафонтен О. Общество будущего. М.: Международные отношения, 1991
31. Лебедева М.М. Прикладная междисциплинарная политология: возможности и перспективы / М.М. Лебедева // Системный подход: анализ и рогнозирование внешнеполитическим вопросам и дипломатической деятельности государств / – М., 2000.
32. Лебедева М.М., Тюлин И.Г. Прикладная междисциплинарная политология: возможности и перспективы //Системный подход: анализ и прогнозирование международных отношений (опыт прикладных исследований). Сборник научных трудов. Под ред. доктора политических наук И.Г. Тюлина. - М., 1991, с. 99-100.
33. Леонов Н.С. Информационно-аналитическая работа в загранучреждениях / – М., 1996.
34. Ли В.Ф. Теория международного прогнозирования. М.: Научная книга, 2002
35. Макаренко Г.Д. Автоматизированные информационные системы помеждународных отношений. –М., 1991.
36. Мартино Дж. Технологии прогнозирования. М.: Мысль, 1977
37. Мелко М., Сандерсон С., Холл Т. Миросистемная теория: против и за // Сравнительное изучение цивилизаций. Хрестоматия. –М., 1999.
38. Методологические проблемы социального прогнозирования / Отв. ред. В.И. Куценко. Киев, 1996.
39. Панарин А.С. Глобальное политическое прогнозирование. М.,2000
40. Пантин В.И. Циклы. Кризисы. Прогнозы. М.: Наука, 1997
41. Паншин В.И,. Лапкин В.В, Акаев А.А., Володин А.Г., Красильщиков В.А., Куклина И.Н., Салицкий А.И., Чешков М.А.Д, Хорос В.Г. Север-Юг: прогноз социально-

экономической и политической динамики // Мировая экономика и международные отношения, № 2, 2011
42. Подберезкин А. И. Военные угрозы России. М. : МГИМО-Университет, 2014.
43. Подберезкин А. И. Национальный человеческий капитал. Т. I–III. М. :МГИМО–Университет, 2011–2013.
44. Подберезкин А. И. Третья мировая война против России: введение к исследованию. М.:МГИМО-Университет, 2015.
45. Политико-административный менеджмент / под ред. С.В. Устинкина. – Н.Новгород, 2004
46. Политический консалтинг / под ред. С.В. Устинкина. – Н.Новгород, 2003
47. Политический менеджмент / под ред. С.В. Устинкина. – Н.Новгород, 2002
48. Рабочая книга по прогнозированию / Отв. ред И.В. Бестужев-Лада. М.: Мысль, 1982.
49. Стратегическое прогнозирование международных отношений. Коллективная монография.Под редакцией А. И. Подберезкина, М. В. Александрова Издательство «МГИМО–Университет» 2016.
50. Симонов, К. В. Политический анализ. М., 2002.
51. Системный подход: анализ и прогнозирование междуна-родных отношений (Опыт прикладных исследований) / Под ред. И.Г. Тюлина. М.,1991
52. Сотрудничество и соперничество в Евразии : материалы Шестой российско-японской конференции, 16 сентября 2009 г., Москва. М. : МГИМО-Университет, 2009.
53. Стратегическое прогнозирование международных отношений. Издательство МГИМО–Университет. Коллективная монография. 2016
54. Туронок С.Г. Политический анализ С.Г. Туронок. – М.: Дело, 2005
55. Уоллерстайн И. Общественное развитие или развитие мировой системы // Вопросы социологии, т.1, №1, 1992.

56. Уткин А.И. Мировой порядок XXI века. М.: Эксмо, 2002
57. Хрусталев М. А. Анализ международных ситуаций и политическая экспертиза. М. : Аспект Пресс, 2015.
58. Хрусталев М.А. Системное моделирование международных отношений. М.: МГИМО МИД СССР, 1992
59. Цыганков П. А. Акторы и факторы в международных отношениях и мировой политике // «Приватизация» мировой политики: локальные действия глобальные результаты. / Под ред. Лебедевой М. М. — М. 2008
60. Яковец Ю.В. Циклы и кризисы века: цивилизационный аспект. М.: МФК,2000
61. Яковец Ю.В. Глобализация и взаимодействие цивилизаций. М.: Экономика, 2003
62. Annual report from the High Representative of the European Union for Foreign Aff airs and Security Policy to the European Parliament. Council Of The European Union. 12094/14. Brussels, 23 July 2014 (OR. en).
63. Choucri N. Forecasting in international relations:problems and prospects. Massachusetts Institute of Technology, Cambridge, U.S.A. 1974
64. Carr E. H. The Twenty Years Crisis 1919—1939: An Introduction to the Study of International Relations. London : Macmillan, 1939.
65. Dunne T. Inventing International Society: A History of the English School. Basingstoke : Macmillan, 1998; Wolfers A. Discord and Collaboration: Essays on International Politics. Baltimore: Johns Hopkins University Press, 1962
66. Friedman T. L. The Lexus and the Olive Tree. N.Y.: Farrar, Straus, & Giroux, 1999.
67. Fukuyama F. The End of History and the Last Man. N.Y.: Free Press. 1992.
68. Grieco J. M. Anarchy and the Limits of Cooperation // International Organization. 1988. Vol. 42. № . 3.

69. Hopf T. The Promise of Constructivism in International Relation Theory // International Relations: Critical Concepts in Political Science / ed. by A. Linklater. London : Routledge, 2001
70. Huntington S. The Clash of Civilizations and the Remaking of World Order. N.Y. : Simon and Schuster, 1996.
71. Kaplan R. The Coming Anarchy: Shattering the Dreams of the Post-Cold War. N.Y. : Random House, 2000.
72. Kegley C. W., Wittkopf E. R. World Politics: Trend and Transformation : 8th edition. Boston : Bedford, 2001.
73. Keohane R. O.. NyeJ. S. Power and Interdependence: World Politics in Transition. Boston : Little, Brown Book Group. 1977.
74. Krarochwil F. V. Is the Ship of Culture at Sea or Returning // The Return of Culture and Identity in IR Theory / ed. by Y. Lapid, F. V. Krarochwil. Boulder: Lynne Rienner, 1996.
75. Kupchan C. A. The End of the American Era: U. S. Foreign Policy and the Geopolitics of the Twenty-First Century. N .Y.: Knopf, 2002.
76. Moravesik A. Taking Preferences Seriously: A Liberal Theory of International Politics // International Organization. 1997. Vol. 51 (Autumn). P. 513-553.
77. Morqenthau H. Politics among Nations: The Struggle for Power and Peace. N.Y.: Alfred A, Knopf, 1978.
78. National Security Strategy. Wash. (DC): The White House, 2015. February.
79. NATO’s Readiness Action Plan. Fact Sheet, February 2015.
80. Onuf N. G. World of Our Making: Rules and Rule in Social Theory and International Relations. Columbia : University of South Carolina Press, 1989.
81. Price R., Reus-Smit C. Dangerous Liaisons? Critical International Theory and Constructivism // International Relations: Critical Concepts in Political Science/ed. by A. Linklater. London ; N.Y. : Routledge. 2001.

82. Reus-Smit C. Constructivism // Theories of International Relations / S. Burchill [et al.] - 3rd ed. Tloundmills : Palgrave Macmillan, 2005.
83. ReuS'Smk C. Constructivism // Theories of International Relations / S. Burchill |et al.|. 2nd ed. N.Y.: Palgrave, 2001.
84. Princeton:Princeton University Press, 1990
85. Rosenau J. Turbulence in World Politics: A Theory of Change and Continuity. Princeton: 2008
86. Snyder J. One World: Rival Theories // Foreign Policv, Washington. 2004
87. Statement by the NATO Defence Ministers on the Readiness Action Plan.
88. Strategic Assessment 1997. Flashpoints and Force Structure. Wash., NDLJ, 1997
89. The National Military Strategy of the United States of America. Wash. (DC) : DOD, 2015. June.
90. Waltz K. W. Theory of International Politics. Reading, MA : Addison-Wesley, 1979.
91. Warner F. R. Thucydides, History of the Peloponncsian War. London : Penguin Books, 1954.
92. Wendt A. Anarchy is What States Make of It // International Organisation. 1992. Vol. 42. № 2.
93. Wendt A. Collective Identity Formation and the International
94. State // American Political Science Review. 1994.Vol. 88. №2.
95. htt//www.demoscope.ru.

İKSAD
Publishing House

978-605-7875-64-8